AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AŞIQ ƏLƏSGƏR: SAZIN SEHRİ VƏ SÖZÜN ŞÖHRƏTİ

## BEYNƏLXALQ ELMİ KONFRANSIN MATERİALLARI

**Bakı şəhəri, 24-25 may 2021-ci il**

**BAKI – 2021**

**Kitab Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamının icrası ilə əlaqədar AMEA Rəyasət Heyətinin 6 aprel 2021-ci il tarixli 9/9 saylı qərarı ilə təsdiq edilmiş AMEA-nın Tədbirlər planı çərçivəsində nəşr olunur.**

**ELMİ REDAKTORU:** **Muxtar KAZIMOĞLU-İMANOV**
*AMEA-nın həqiqi üzvü*

**TƏRTİBÇİ:** **Fidan QASIMOVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Aşıq Ələsgər: sazın sehri və sözün şöhrəti. Beynəlxalq Elmi Konfransın materialları.** Bakı, Elm və təhsil, 2021, 500 səh.

Kitabda AMEA Folklor İnstitutunun təşkilatçılığı ilə Bakı şəhərində 24-25 may 2021-ci il tarixində keçirilən “Aşıq Ələsgər: sazın sehri və sözün şöhrəti” mövzusunda Beynəlxalq Elmi Konfransın materialları toplanmışdır.

folklor.az

A $\frac{4603000000}{\text{N-098-2021}}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2021

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

***Sədarət:***
**Akad. İsa Həbibbəyli** – AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru
**Akad. Teymur Kərimli** – AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru
**Akad. Muxtar İmanov** – AMEA Folklor İnstitutunun direktoru

***Elmi heyət*** *(əlifba sırası ilə):*
**Afaq Ramazanova** – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)
**Ağaverdi Xəlil** – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)
**Ali Duymaz –** Prof. Dr., Balıkesir Universiteti (Türkiyə)
**Ali Kafkasyalı** – Prof. Dr., Ərzincan Binali Yıldırım Universiteti (Türkiyə)
**Ariuka Qelyayeva –** Fil.e.d., prof., Kabarda Balkar Dövlət Universiteti
**Bakıtgul Kulcanova** – Prof. Dr., Əl-Fərabi Qazax Milli Universiteti (Qazaxıstan)
**Cəlal Qasımov** – Fil.e.d., prof., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)
**Elçin Abbasov** – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun elmi katibi (Azərbaycan)
**Elxan Məmmədli** – Fil.ü.f.d., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)
**Əfzələddin Əsgər** – Fil.e.d., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)
**Əziz Ələkbərli** – Fil.e.d., AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi (Azərbaycan)
**Fəridə Tahirova –** Doç. Dr., TMEA Dil, Ədəbiyyat və Sənət İnstitutu Leksikoqrafiya şöbəsinin aparıcı elmi işçisi (Tatarıstan)
**Fidan Qasımova** – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)

**Füzuli Bayat** – Fil.e.d., prof., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)
**İlkin Rüstəmzadə** – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)
**İmperiyat Xalıpayeva** – Fil.e.d., prof., Dağıstan Dövlət Pedaqoji Universiteti (Dağıstan)
**İslam Sadıq** – Fil.e.d., AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi (Azərbaycan)
**Mamatkul Jurayev** – Prof. Dr., ÖMEA Əlişir Nəvai adına Dil və Ədəbiyyat İnstitutu Folklor şöbəsinin müdiri (Özbəkistan)
**Məhərrəm Qasımlı** – Fil.e.d., prof., AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri (Azərbaycan)
**Muratgeldi Soyegov** – Prof. Dr., Türkmənistan-Türkiyə Universiteti (Türkmənistan)
**Nailə Rəhimbəyli** – Sən.e.d., prof., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)
**Nizami Muradoğlu (Məmmədov)** – Fil.e.d., AMEA Folklor İnstitutunun baş elmi işçisi (Azərbaycan)
**Özkul Çobanoğlu** – Prof. Dr., Hacettepe Universiteti (Türkiyə)
**Ramazan Qafarlı** – Fil.e.d., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)
**Rza Xəlilov** – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)
**Seyfəddin Rzasoy** – Fil.e.d., prof., AMEA Folklor İnstitutunun şöbə müdiri (Azərbaycan)
**Tudora Arnaut** – Doç. Dr., Kiyev Milli Taras Şevçenko Universiteti Filoloji Bölümü (Ukrayna)

# KONFRANSIN AÇILIŞ MƏRUZƏLƏRİ

## ŞİFAHİ ƏNƏNƏ VƏ USTAD SƏNƏTKAR FƏRDİYYƏTİ

**Muxtar KAZIMOĞLU-İMANOV**
*Akademik, AMEA Folklor İnstitutunun direktoru*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı xüsusi Sərəncam işığında bu il Aşıq Ələsgərlə bağlı yubiley tədbirlərinin keçirilməsi, heç şübhəsiz, ustad sənətkarın yaradıcılığını hərtərəfli araşdırmaqda mühüm rol oynayacaqdır. Bu çıxışımızda biz Aşıq Ələsgər irsinə şifahi ənənə və müəllif fərdiyyəti, yəni bu vaxtacan xeyli araşdırılan, amma yetərincə də mübahisəli məqamları olan bir məsələ çərçivəsində nəzər salmaq istəyirik. İlk növbədə xatırlatmağı vacib bilirik ki, xalq arasında Aşıq Ələsgər sözünün ilahi mənşəyinə inam tədqiqatçılar arasında bir daha bu barədə düşünüb-daşınmaq və yazı-pozu bilməyib bədahətən şeir demək hadisəsinə yenidən qayıtmaq ehtiyacı yaradır. Ehtiyac yaranır ki, sinədən söz demək məsələsi ilə Aşıq Ələsgərin yazı-pozu bilməməsinin bağlılığına təzədən bir aydınlıq gətirilsin.

Aşıq Ələsgərin yazı-pozu bilməməsinin Sovet dövründə xüsusi olaraq qabardılması o vaxtkı siyasi rejimin "proletar mədəniyyəti" təlimi ilə bağlı idimi? Axı yeni bərqərar olmuş Sovet siyasi sistemində aşağı təbəqəyə mənsub sənətkarların irəli çəkilməsi və onların "burjuaziya"nı təmsil edən yazıçılara qarşı qoyulması istiqamətində addımlar atılır, tədbirlər görülürdü. Yoxsul bir kəndli ailəsindən çıxan və təhsil almaq imkanı olmayan Aşıq Ələsgərin dövlət orqanları tərəfindən xüsusi olaraq İrəvana dəvət edilməsi xatırlatdığımız istiqamətdə atılan addımların, görülən tədbirlərin bir nümunəsi sayıla bilər. Amma burası da var ki, Aşıq Ələsgər dövlət orqanlarının dəvətinə heç də müsbət cavab verməyib və İrəvanda rəsmi dairələrlə ünsiyyətdən boyun qaçırıb. Öz dövrünün Mirzə Bəylər kimi qabaqcıl dünyagörüşlü ziyalısına, Dəli Alı kimi yenilməz qaçağına təriflər deyən Aşıq Ələsgər Sovet quruluşunun şəninə bir misra belə söyləmək fikrində olmayıb. Demək, Aşıq Ələsgərin "bisavadlığı"nın xüsusi olaraq qabardıl-

masının arxasında “proletar mədəniyyəti” siyasətinin gizləndiyini güman etmək özünü o qədər də doğrultmur və bu qüdrətli sənətkarın həyat-yaradıcılığı ilə bağlı səciyyəvi faktlara aşıq sənətinin qanunauyğunluqları baxımından yanaşmaq lazım gəlir. Bədahətən şeir demək bu qanunauyğunluqlardan biridir. Əlbəttə, sinədən söz demək bütün aşıqlara yox, Aşıq Ələsgər kimi ustad aşıqlara aid edilən və xüsusi önəm verilən bir cəhətdir. Məsələ burasındadır ki, ustad aşığın Dədə Qorqud sayaq övliyalığı ilə, kəramət sahibi olması ilə bağlı inanclar, hər şeydən əvvəl, həmin sənətkarın sinədən söz demək qüdrətini əsaslandırmağa yönəlir. Elə söz ki, dildə-ağızda gəzir və zaman-zaman nəsildən-nəslə ötürülür. Elə söz ki, şifahi şəkildə yarandığı kimi, nəsildən-nəslə ötürülüb geniş yayılması da bir çox hallarda məhz şifahi şəkildə baş verir. Odur ki, Aşıq Ələsgər yaradıcılığında şifahilik məsələsinə diqqət yetirmək, bu sənətkarın yazı-pozuya münasibətini xüsusi nəzərə almaq bu günün özündə belə aktuallıq kəsb edir və bu məsələnin çözülməsi aşıq yaradıcılığı ətrafında davam etməkdə olan şifahi sənət – yazılı sənət mübahisəsinə müəyyən qədər aydınlıq gətirir.

Aşıq Ələsgər yazıb-oxumağı bacarıbmı? Bu suala “yox” cavabı verməyə tələsmədən ustad aşığın şeirlərinə müraciət edək. Görəcəyik ki, müəllif bir çox şeirlərində özünün yazıb-oxumağından söhbət açır:

*Sol əldə kağız var, sağ əldə qələm,*
Bir yanda nəşə var, bir yanda ələm.
Ələsgər tək şirin zəban, xoş kəlam,
Bivəfa dünyaya gəldi də getdi. (“Getdi”)

Ələsgərəm, doğru yoldan azmaram,
Hərcayı gözələ tərif *yazmaram.* (“Bəyistan”)

İstəyirəm, sana bir dastan *yazam*,
Qubernat eşidə, yaranal bilə. (“Bilə”)

Orucu çox bəyənmişəm, məhəbbətim var Qəfərə,
Qasımı mərdanə gördüm, vəsfini *yazdım* dəftərə. (“Kimi”)

Neçə namə *yazdım* canan elinə,
Heç birisi o diyara yetmədi. (“Yetmədi”)

Göründüyü kimi, Aşıq Ələsgər “Getdi” şeirində kağız-qələmdən, “Bəyistan”, “Bilə”, “Kimi”, “Yetmədi” şeirlərində isə tərif, dastan, vəsf, namə yazmaqdan bəhs edir. Oxşar mənzərəni “oxumaq” məsələsinə münasibətdə də izləmək mümkündür:

"Əlif"dən dərs aldım, əbcəd *oxudum.* ("Yazıq əmməni")
Dərs almışam, *oxumuşam* hər aya. ("Dal dala")
*Oxudum*, yetişdim mən bu hesaba. ("Olur")

Adı çəkilən şeirlərdə Aşıq Ələsgər oxuyub əbcəd öyrənməyindən, dərs alıb Quran ayəsi oxumağından, oxuyub bəlli bir mərtəbəyə yüksəlməyindən bəhs edir.

Bütün bunlarla bərabər, o da qeyd edilməlidir ki, Aşıq Ələsgər yaradıcılığında onun yazıb-oxumaq bacarmamasına işarə edən misralar da var:

Huş başımdan gedib, yoxdu savadım,
Sözlə mətləb yazmaq deyil muradım,
Arifə eyhamla yazıram hürfat.
("Dörd kitab hər yana yolu göstərir")

Bu misralardan aydın olur ki, Aşıq Ələsgərin "sözlə mətləb yazmaq" savadı yoxdur, o, fikrini arif adamlara ayrı-ayrı hərflərə işarə etməklə çatdırır.

Aşıq Ələsgərin yazıb-oxuya bilməməsi barədə yerli-yataqlı məlumatı isə onu görüb-tanıyan adamların söylədiklərindən alırıq. Aşıq Ələsgərlə ünsiyyətdə olan belə adamlardan biri Aşıq Şəmşirdir. Aşıq Şəmşirin söyləməsinə görə, İrəvanlı Mirməcid ağa cibindən bir bəyaz çıxarıb oxumaq üçün Aşıq Ələsgərə verir. Aşıq Ələsgər isə sazı köynəkdən çıxarıb, bəyazı oxuya bilməyəcəyini Mirməcid ağaya belə bildirir:

Qulaq eşitməsə, ürək duyarmı?
Nə bilər dünyada naşı bisavad?
Yazmaq, pozmaq bisavada uyarmı?
İnsan olmayaydı kaşı bisavad…

Atam yoxsul olub dövləti-vardan,
Məni qurtarmayıb bu intizardan,
Az-az öyrənərəm oxumuşlardan,
Gündə eylər çox təlaşı bisavad.

Aşıq Ələsgərin yazı-pozu bilməməsini öz xatirələrində sənətkarın oğlu Aşıq Talıb və şəyirdi Aşıq Ağayar da yeri düşdükcə vurğulayır. Aşıq Ələsgərin nəvəsi və Aşıq Ələsgər irsinin tanınmış tədqiqatçısı İslam Ələsgər qeyd olunan məsələ ilə bağlı mülahizələri ümumiləşdirərək yazır: "Aşıq Ələsgər kəskin hafizəsi və həmişə öyrənməyə cəhd göstərməsi sayəsində zəngin bilik əldə etmişdir. Oğlanlarının, onu görmüş digər qocaların söylədiklərinə görə, aşıq dövrünün ziyalıları və din xadimləri ilə ünsiyyətdə olar, onlara tarixi, bədii və dini

kitablar oxutdurub, qulaq asmağı çox sevərmiş. Dini məsələlər ətrafında gedən mübahisələr zamanı mollalar, axundlar, qazilər, hətta şeyxlər onun dedikləri ilə razılaşmalı olurmuşlar.

Aşıq Ələsgərin şeirlərində Firdovsinin, Nizaminin, Füzulinin, Nəsiminin, Hafizin adlarının çəkilməsini, "onlar da yazdığı ayə, məndədi" deyilməsini təsadüfi hal hesab eləmək olmaz. Aşıq dinləmə yolu ilə onların əsərləri ilə tanış imiş". İslam Ələsgərin bu qənaəti tədqiqatçılar arasında qəbul edilmiş bir qənaətdir və bizim də bu qənaətə heç bir etirazımız yoxdur. Amma kimsə "dərin zəka sahibi üçün yazıb-oxumağı öyrənmək asan bir işdir" deyib Aşıq Ələsgərin "bisavadlığı"na şübhə ilə yanaşsa və öz şübhəsinin yersiz olmadığını ustad sənətkarın bir çox şeirlərində rast gəldiyimiz (və bir az əvvəl xatırlatdığımız) "namə yazdım", "əbcəd oxudum" kimi ifadələrlə sübuta yetirməyə çalışsa, biz bunu da təbii hal saymalıyıq. Ona görə ki, aydınlaşdırılması vacib olan məsələ Aşıq Ələsgərin yazı yaza bilməməsindən daha çox onun şifahi yaradıcılıq prinsiplərinə nə dərəcədə əməl edib-etməməsidir. Faktlar göstərir ki, Aşıq Ələsgər məhz şifahi yaradıcılıq yolunu seçib və bədahətən şeir söyləmə tələbinə yüksək səviyyədə əməl etməyə çalışıb:

> Bir mirzə lazımdı əli qələmli,
> Mən deyəm, vəsfini yaza, Müşgünaz.

"Müşgünaz" şeirindən götürdüyümüz bu misralar şifahi söyləmə və qələmə alma məsələlərinin Aşıq Ələsgər yaradıcılığındakı yerini görməyə yaxından kömək edir. "Yazılanı oxusunlar, qulaq asım; şeiri deyim yazsınlar". Bu prinsip Aşıq Ələsgər haqqındakı dastan-rəvayətlər və xatirələrdə də kifayət qədər zəngin faktlarla öz təsdiqini tapır. Aşıq Şəmşirin Aşıq Ələsgər haqqındakı xatirəsində qarşılaşdığımız səhnə – verilən kağızın Ələsgər tərəfindən oxunmaması oxşar şəkildə dastan-rəvayətlərdə də rastımıza çıxır: Şəmkirli Aşıq Hüseynin qıfılbəndi yazılmış kağız Aşıq Ələsgərə çatanda o, kağızı oxumaq üçün oğlu Bəşirə verir. Qıfılbəndə cavabı da Aşıq Ələsgər yazmaq yox, şifahi söyləmək yolu ilə bildirir. Cavabın kağıza köçürülməsini Aşıq Ələsgər yenə oğlu Bəşirə həvalə edəsi olur.

Dastan-rəvayətlərdə Aşıq Ələsgərin yazıb-oxumaq bilməməsinə bu qədər diqqət yetirilməsinin səbəbini doğru-düzgün anlamaq üçün yenidən ənənəyə baş vurmaq, Ələsgərəqədərki ustad aşıqlarla bağlı bəzi əhvalatları xatırlatmağa ehtiyac yaranır. Uzağa getmədən "Qurbani" və "Abbas-Gülgəz" dastanlarına nəzər salsaq, hər iki dastanda baş qəhrəmanların təhsilə, yazı-pozuya münasibətini üzə çıxaran epizodlara

rast gələrik. Məsələn, "Qurbani" dastanında belə bir epizod diqqətdən yayınmır: Pəri xanımla Qurbani bir yerdədirlər. Pəri xanım bir molla çağırıb Şıx oğlu Şaha məktub yazdırır ki, Şıx oğlu Şah iki sevgilini Qara Vəzirin zülmündən xilas etsin, onlar bir-birindən ayrılmasınlar. Başa düşmək çətin deyil ki, bu epizodla dastançı öz qəhrəmanının yazıb-oxumaq bilməməsinə, söylədiyi şeirlərin haqq vergisi kimi sinədən gəlməsinə işarə edir. Oxşar epizodlarla "Abbas-Gülgəz" dastanında da qarşılaşırıq: Abbası öz istəyi ilə mədrəsəyə qoyurlar, amma şikəstə oxumaq üstündə molla ilə toqquşmaq və ağır falaqqa cəzası almaq bu təhsili yarımçıq qoyur. Xatırlatdığımız epizodda da dastançının niyyəti eynidir: Abbasın təhsil gücünə yox, Allah vergisi hesabına sinədəftər olmasını diqqət mərkəzində saxlamaq.

Ələsgərəqədərki ustad aşıqlardan Xəstə Qasımın təhsilə, yazı-pozuya münasibətini əks etdirən rəvayətlər də toxunduğumuz mövzu baxımından az maraq doğurmur. Xəstə Qasımın əvvəl öz kəndi Tikmədaşda, sonra isə Ərdəbildəki Şeyx Səfi məscidində kifayət qədər yüksək təhsil alması məlum faktlardır. Tədqiqatçı Məhəmməd İbadi Qaraxanlının fikirlərinə əsaslanıb o faktı da xatırlatmaq yerinə düşər ki, Xəstə Qasım mahir bir xəttat olub. Bu fakt istər-istəməz belə bir sual doğurur: Yüksək təhsil almaq və mahir xəttat olmaq Xəstə Qasımın sinədəftər haqq aşığı olmasını xalqın təsəvvüründə arxa plana keçirmir ki? Xeyr, arxa plana keçirmir, ona görə ki, Xəstə Qasımın yüksək savad sahibi olmasından böyük məhəbbətlə söhbət açan aşıqsevərlər bu sənətkarın sinədəftərliyindən də eyni məhəbbətlə söhbət açırlar. Aşıqsevərlərin qənaətlərindən biri də budur ki, Xəstə Qasımın şeirləri daha çox ağızdan-ağıza keçərək, məclislərdə oxunaraq xalq arasında məşhurlaşıb. Bu qənaətə uyğun rəvayətlərin yaranmasına da təsadüfi hal kimi baxmaq olmaz. Rəvayətlərdən biri bu məzmundadır: Hakimiyyətdən narazılığını bildirdiyinə görə Xəstə Qasımın əlyazmalarını Nadir şahın adamları Tikmədaş bölgəsindəki Bino çayına atıblar. Məhəmməd İbadi Qaraxanlıya istinadən xatırlatdığımız bu rəvayət, bizcə, hər şeydən daha çox şifahilik məsələsini qabartmaq üçündür. Bu rəvayəti danışmaqla aşıqsevərlər Xəstə Qasım şeirlərinin Haqdan gəlmə ecazkarlığını nişan verirlər və bildirmək istəyirlər ki, əlyazmalar olsa da, olmasa da, Xəstə Qasımın Haqdan gələn şeirləri dillər əzbəridir, bu şeirləri zaman-zaman yaşatmağın mühüm bir yolu məhz şifahi ifaçılıqdır.

Qurbani, Abbas Tufarqanlı və Xəstə Qasımla bağlı dastanlardan və rəvayətlərdən gətirdiyimiz, Aşıq Ələsgər fenomeninin doğru-düzgün başa düşülməsinə yönəltmək istədiyimiz faktlar sinədən şeir deyib ilahi

mətləblərdən xəbər verməyin aşıq sənətində bir kult səviyyəsinə qaldırılmasını göstərir. Məsələyə bu cür yanaşılmasının bariz ifadəsidir ki, müasirləri Aşıq Ələsgərdən bəhs edərkən bu böyük söz ustasının hansı şeiri hansı məqamda deməsini xüsusi diqqətə çatdırırlar. Bu məsələ ilə bağlı maraqlı faktlara Aşıq Ağayarın xatirələrində rast gəlirik. Aşıq Ağayarın dediklərindən bəlli olur ki, "Bu gün" rədifli müxəmməsini Aşıq Ələsgər Qazaxda bir evdə qonaq olarkən; "Leyli", "Bəyistan", "Ürəyimdə" qoşmalarını və "Sarı gələndə" təcnisini Kəlbəcərin Qamışlı kəndində toy apararkən deyib. Söz yox ki, dastan-rəvayətlər Aşıq Ələsgərin şeirlərini söyləmə məqamlarına görə izləməyə daha geniş imkan yaradır. Aşıq Ələsgərin Səhnəbanı, Anaxanım, Həcər xanım, Şəmkirli Aşıq Hüseyn, Dəli Alı, Mirzə Bəylər, Mirməcid ağa, Şair Nağı və başqa şəxslərlə bağlı şeirlərinin necə, hansı şəraitdə, hansı əhvalat fonunda ortaya çıxmasını məhz dastan-rəvayətlər vasitəsilə öyrənə bilirik. Təbii ki, Aşıq Ələsgərin bütün şeirlərinin yaranma tarixini arayıb-araşdırıb üzə çıxarmaq mümkün deyil. Və bəlkə, belə bir araşdırmaya çox lüzum da yoxdur. Ustad sənətkarın şeirlərini diqqətlə oxumaq kifayət edir ki, həmin şeirlərin şifahi ənənədən gələn cəhətlərini görmək mümkün olsun. Belə cəhətlərin ən üzdə olanlarından və nəzərə tez çarpanlarından biri söz və ifadələrin ümumi danışıq dili əsasında işlənməsidir. Bir az əvvəl adını çəkdiyimiz "Bu gün" müxəmməsinə diqqət yetirsək, görərik ki, həmin müxəmməsin rədifi Aşıq Ağayarın dilindən "bu gün" şəklində yox, yerli şivənin tələffüz normalarına uyğun olaraq "böyün" şəklində səslənir:

Aləmin padışahı, sən yetiş imdada böyün,
Naqafil qarşımıza çıxdı mələkzada böyün.

Bu müxəmməsin adının və rədifinin "bu gün" şəklində oxucuya çatdırılması da göstərir ki, nəşr zamanı Aşıq Ələsgər şeirlərinin üzərində mümkün qədər ədəbi dil normalarına uyğunlaşdırma işləri aparılıb. Amma bu, heç də Aşıq Ələsgər şeirlərini danışıq dili tərzindən uzaqlaşdırmaqla nəticələnməyib.

Aləmin padışahı, sən yetiş imdada bu gün,
Naqafil qarşımıza çıxdı mələkzada bu gün.
Göz gördü gül camalın, könül içdi bada bu gün,
Can cəsəddən ayrılır, gedir bu sevdada bu gün.

Görmək çətin deyil ki, bəndin zəruri ədəbiləşdirilməsi "böyün" formasını "bu gün" formasına keçirməklə bitib və mələkzada//mələkzadə, bada//badə əvəzlənmələrinə, həmçinin müxəmməsin sonrakı bəndlərində irəng//rəng, calal//cəlal, pərvana//pərvanə, əfsana//əfsanə,

mərdana//mərdanə əvəzlənmələrinə yol verilməyib. Aşıq Ələsgər şeirlərindən ziyarat (ziyarət), ibadat (ibadət), fursat (fürsət), qəzəmət (qazamat), biqıryat (biqeyrət), zamana (zəmanə), piloy (plov), aloy (alov), ciloy (cilov), sahab (sahib), barabar (bərabər), yaşıyam (yaşayam), urus (rus), doxdur (doktor), beşatlana xod verib (beşatılanı işə salıb) kimi tələffüz formasında olan söz və ifadələrdən nə qədər desən misal çəkmək olar. Amma biz bu cür misallar üzərində geniş dayanmağa ehtiyac görməyib, Aşıq Ələsgər timsalında sinədən şeir deməyin bəzi başqa əlamət və göstəricilərinə də ötəri nəzər salmaq istəyirik. Belə əlamət və göstəricilərdən biri özünəqədərki ənənədə kifayət qədər geniş yer tutan və müəyyən qədər qəlibləşən ifadə tərzindən yerli-yerində istifadə etməkdir. Məhəbbət mövzulu şeirlərinə nəzər salsaq, görərik ki, Aşıq Ələsgər özündən əvvəlki ustad aşıqların yaradıcılığında tez-tez qarşılaşdığımız "qönçə gülü dərmək", "tovuz kimi bəzənmək", "sona kimi silkinmək", "külli-Dağıstana dəyişməmək"… ifadələrinə, alma yanaq, gül yanaq, ay qabaq, günəş camal, bal dodaq, qaymaq dodaq, qar sinə… bədii təyinlərinə, qönçə-xar, tərlan-sar… bədii təzadlarına heç də az müraciət etmir. Belə qəlib-klişelərə müraciət, heç şübhəsiz, şifahi yaratma prosesinə yardım edir və mətnin qurulmasında zəmin element funksiyasını daşıyır. Qəlib-klişe nümunələrini "ənənə və Aşıq Ələsgər" kontekstində axtardığımız kimi, Aşıq Ələsgərin öz şeirləri daxilində də axtarmaq mümkündür: ayrı-ayrı gözəllərin tərifinə həsr etdiyi şeirlərdə Aşıq Ələsgər eyni və ya oxşar misralardan istifadə edir. Aşıq Ələsgərin "Güləndam" rədifli qoşmasındakı məşhur "Səni gördüm, əl götürdüm dünyadan" misrasına ustad sənətkarın "Sənəm, gəl" rədifli qoşmasında, həmçinin "Səni gördüm, əl götürdüm evdən, əyaldan, Şapəri" şəklində "Şapəri" müxəmməsində rast gəlirik. Başqa misal. Ustad sənətkarın "Giləyə" rədifli müxəmməsində belə bir misra var:

Libası əndamına layiq, əndam uyur libasına.

Bu misraya cüzi fərqlə "Gözəl" və "Gözələ" müxəmməslərində də rast gəlirik:

Libas əndama uyur, əndam uyur libasına. ("Gözəl")
Libas əndamına layiq, əndam libasından gözəl. ("Gözələ")

Oxşar misralardan istifadə edilməsini Dəli Alıya həsr olunmuş şeirlərdə də izləmək mümkündür:

Sərim qurbandı sərinə, ay atanın nər balası. ("Deyin")
Atanın sərdar oğludu, sərim qurbandı sərinə. ("Kimi")

Və yaxud:

Süzən tüfəng cingildəyir, güllə qaçır qana – deyin. ("Deyin")

Süzən tüfəng cingildəyir, patronu səyrişir qana. ("Kimi")

Oxşar misranı nəinki iki ayrı-ayrı şeirin müqayisəsində, hətta bəzən eyni şeirin daxilində də müşahidə etmək olur:

İnşallah, heç yerdə qalmaz avara,
Bir qula ki Şahi-Mərdan yar olsun.

"Olsun" rədifli qoşmanın birinci bəndində tanış olduğumuz bu misralar həmin şeirin yeddinci bəndində cüzi fərqlə yenidən qarşımıza çıxır:

Sidqini bağlayan Şahi-Heydara,
İnşallah, heç yerdə qalmaz avara.

"Deyin" müxəmməsinə nəzər salaq:

Səxavətdə misli-Hatəm, səddə İsgəndər balası.

"Deyin" müxəmməsinin beşinci bəndindəki bu misra həmin şeirin on birinci bəndində cüzi fərqlə yenidən özünü göstərir:

Səddə İsgəndər kimidi, Hatəm səxalı söylənir.

Gətirdiyimiz bu sayaq misallar həm şifahi yaratma, həm də şifahi yaşatma ənənəsi üçün təbii sayılmalıdır. Belə hesab edilməlidir ki, sinədən şeir deyən sənətkarın oxşar misralar, qəlib ifadələr işlətməsində həmin sənətkarın fitri istedadını kölgədə qoyacaq bir şey yoxdur. Bununla yanaşı, məsələnin ikinci cəhəti – sinədən söylənmiş şeirin yaddaşlarda necə qalması, məclislərdə hansı şəkildə səslənməsi də diqqətdən kənarda qalmamalıdır. Nəzərə alınmalıdır ki, sənətkar öz şeirlərində oxşar misralar işlətməsə belə, əlyazması olmayan həmin şeirləri ortaya çıxararkən unudulmuş məqamları yenidən bərpa etməkdə tərtibçilər üçün başlıca çıxış yollarından biri oxşar misralara üz tutmaqdır, yəni sənətkarın unudularaq boş qalmış hər hansı bir misrasının yerini onun oxşar başqa bir misrası ilə doldurmaqdır.

Aşıq sənətində şifahi yaratma və şifahi yaşatma amillərinin nəzərə alınması diqqəti məlum və məşhur çoxvariantlılıq məsələsinə yönəltmiş olur. Bəli, yazılı ədəbiyyat nümunələrindən fərqli olaraq, ustad aşıqların dillər əzbəri olan ən məşhur şeirlərinin belə neçə-neçə variantı ilə qarşılaşırıq. Bu cür çoxvariantlılıq, heç şübhəsiz, sinədən söz demək yolu tutmuş Aşıq Ələsgər şeirlərinə də aiddir. Təfsilata varmadan təkcə bu faktı xatırladaq ki, Aşıq Ələsgərin nəşr edilmiş şeirlərindən bir xeylisi müxtəlif kitablarda fərqli şəkildə təqdim olunub. Bu o deməkdir ki, başqa ustad aşıqlar kimi Aşıq Ələsgər şeirləri də bizə müxtəlif variantlarda gəlib çatıb.

Beləliklə, biz müxtəlif dəlillər (sözlərin tələffüz formasına geniş yer vermək; məlum formul və klişelərdən istifadə etmək; əlyazması

olmayan şeirlərin müxtəlif variantlarda ortaya çıxmasına istər-istəməz zəmin yaratmaq və s.) əsasında Aşıq Ələsgər irsinin şifahi yaradıcılıqla qırılmaz surətdə bağlı olduğunu bir daha diqqətə çatdırmaq istədik. Amma onu da qətiyyən unutmadıq ki, bu zəngin irsdə açıq-aşkar özünü göstərməkdə olan bir müəllif obrazı var və həmin obraz barədə danışmadan Aşıq Ələsgər sənətinin estetik mahiyyətini doğru-dürüst analmaq çətindir.

Müəllif obrazının Aşıq Ələsgər irsindəki yerindən və rolundan danışarkən iki cəhəti xüsusi fərqləndirməyə ehtiyac duyulur: a) müəllif obrazının özünəqədərki aşıq ədəbiyyatından süzülüb gələn tərəfləri; b) müəllif obrazının Aşıq Ələsgər şəxsiyyəti və bioqrafiyası ilə bağlı tərəfləri. Aşıq Ələsgər irsində müəllif obrazının ənənədən gəlmə cizgilərini ayırd etməyə çalışsaq, ilk növbədə, irfan təlimi ilə səsləşən motivlər, rəmzlər üzərində dayanmalıyıq. Qeyd etməliyik ki, yazı-pozu bilməyən və sözü sinədən demək yolunu tutan Aşıq Ələsgəri şeirlərində dərin bilik və zəka sahibi kimi görürük. Məmmədhüseyn Təhmasibin sözləri ilə desək, “o, şeirlərində toxunduğu məsələlərin, hətta qədim əsatirin, dini ehkamların, tarixi hadisə və şəxsiyyətlərin hamısı haqqında nə demişsə, yerli-yataqlı demiş, yaşadığı mühitin səviyyəsinə görə gözəl məlumata malik olduğunu çox yaxşı nümayiş etdirmişdir. Tək bircə şeirlərində işlətdiyi çətin söz, ifadə, istilahlar gözdən keçirilsə, onun səviyyəsi aydın görünər. Xüsusilə, deyişmələrində, hərbə-zorbalarında, qıfılbənd və təcnislərində müxtəlif məqsədlərlə elə sözlər, elə ifadələr işlətmişdir ki, sözlərin elə çalarlarından istifadə etmişdir ki, adam heyrət etməyə bilmir. Bəzən hətta təriqət rəmzlərinə belə müraciət etmiş, hamısından xəbərdar olduğunu nümayiş etdirmişdir”. Aşıq Ələsgər yaradıcılığının ideya-bədii istiqamətlərindən danışarkən görkəmli folklorşünasın təriqət rəmzlərinə toxunmasını təsadüfi hal hesab etmək olmaz. Məsələ burasındadır ki, Məmmədhüseyn Təhmasib hələ sovet dövründə Azərbaycan aşıq ədəbiyyatının təriqət rəmzləri ilə bağlılığına diqqəti yönəltmiş tək-tək folklorşünaslardandır. Bu baxımdan belə bir faktı xatırlatmaq yerinə düşər ki, Azərbaycan dastanları haqqındakı fundamental əsərində Məmmədhüseyn Təhmasib məcazi məhəbbət dastanlarına xüsusi fəsil ayırır və “Qurbani”dən məhz təriqət rəmzlərini əks etdirən bir dastan kimi bəhs edir. Görkəmli folklorşünas aşıq poeziyasında təriqət rəmzlərinin bir ənənə olaraq nə qədər geniş yer tutduğunu vurğulayaraq yazır: “Sufi-hürufi terminologiyalarından… Aşıq Ələsgər, Şəmkirli Aşıq Hüseyn kimi… görkəmli aşıqlarımız da… istifadə etmişlər. Hətta bu günün sovet aşıqları da bəzən heç mənasını başa düşməyə-

rək, yaxud tamamilə yeni məna verərək rümuzat işlədirlər". Aşıq ədəbiyyatından, eləcə də Aşıq Ələsgər yaradıcılığından bəhs edən tədqiqatçıların sufizm məsələsinə xüsusi maraq göstərdiyi bugünkü şəraitdə Məmmədhüseyn Təhmasibin yuxarıda xatırlatdığımız fikirləri xüsusi əhəmiyyət daşıyır. Doğrudan da, özündən əvvəlki Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım kimi sənətkarların yolunu davam etdirən Aşıq Ələsgər yeri gəldikcə sufilik və irfanla bağlı anlayışlara da müraciət edir. Amma bu, təbii ki, Aşıq Ələsgəri sufi sənətkar kimi təqdim etməyə, onu hansısa bir təriqətə bağlamağa əsas vermir.

İrfanla bağlı bu anlayışlar sırasında Əli kultu xüsusi yer tutur. "Mövladan aldım muradım" deyən Qurbani kimi, "Mənim ağam Şahi-Mərdan Əlidi" deyən Abbas Tufarqanlı kimi, "Mövlanın əlindən badə içmişəm" deyən Xəstə Qasım kimi, Aşıq Ələsgər də imam Əliyə üz tutur, "Mövladan dərs alıb elm tapmışam", "Pir mana göstərdi şah məqamını" deyib özünün şairlik-aşıqlıq gücünü məhz imam Əlinin adı ilə əlaqələndirir. Sələfləri kimi ariflər, ərənlər, qırxlar məclisindən, şəriət, təriqət, mərifət, həqiqət elminə vaqiflikdən bəhs edən Aşıq Ələsgərin öz sələflərindən əxz etdiyi ən mühüm təlimlərdən biri eşq təlimidir. Eşq təlimi ilə bağlı belə bir cəhəti yada salaq ki, məhəbbət dastanlarında ilahi qüvvə tərəfindən verilən buta aşiq üçün Haqqa can atmağın, Haqq yolunda saflaşıb kamilləşməyin mühüm vasitəsidir. Əlbəttə, "Ələsgərnən Səhnəbanı" dastan-rəvayətində aşiq-məşuq münasibəti bir az fərqli şəkildədir. Səhnəbanı hansısa uzaq mahalda yaşamır və hansısa ilahi qüvvə tərəfindən onun uzaqdan-uzağa Ələsgərə buta verilməsinin şahidi olmuruq. Səhnəbanı Ələsgərin doğulub boya-başa çatdığı kənddə gözlə görüb könül verdiyi bir qızdır. Amma o da var ki, başqa qızlara qoşulub çeşmədən su gətirməyə, yal-yamacda pencər yığmağa gedən Səhnəbanı Ələsgərin gözündə qeyri-adi bir gözəldir və onu müqəddəs varlıqlarla müqayisə etmək olar:

Sinən Kəbə, köynək Kəbə örtüyü,
İzin versən, sürtəm üz köynəyinə.

Yarın sinəsini Kəbəyə, köynəyini isə Kəbə örtüyünə bənzədən, Səhnəbanı ilə bağlı başqa bir qoşmasında yarını "Kəbəm, qibləm" adlandıran Ələsgər yardan uzaq düşməyi din-imanın əldən getməyi kimi mənalandırır:

İş sana agahdı, qadir İlahi,
Eşq əlindən itirmişəm irahı.
Ələsgərəm, budu sözün kütahı,
Yar gedəli din-imanım gedibdi.

Aydın məsələdir ki, məhəbbət mövzulu şeirlərini Aşıq Ələsgər yalnız Səhnəbanıya yox, müxtəlif gözəllərə həsr edib. Amma bu, heç də ənənədən gələn eşq təliminin məzmun və mahiyyətini dəyişməyib: Aşıq Ələsgər vəsf etdiyi gözəli bir çox hallarda sıradan bir nəfər kimi yox, Tanrı qüdrətindən yaranmış bir gözəl kimi təqdim etməyə çalışıb:

Sərv boylu mələkzada,
Camalından içdim bada.

Camalından nur badəsi içilən və Tanrı nuru ilə əlaqələndirilən gözəli ustad sənətkar Quran ayəsi ilə müqayisə etməkdən çəkinmir:

Həcər xanım, qaşın, gözün təhrində
Xətt yazsam, Quranda ayə düşərmi?!

Quran ayəsi ilə, eləcə də Kəbə və qiblə ilə müqayisəyə yol açan amil – gözəlin ilahi qüdrətə, "nuri-təcəlla"ya bağlanması Aşıq Ələsgər şeirlərində gözəl və Tanrı paralelizmini ənənədən gələn səciyyəvi xətlərdən birinə çevirir:

Məhəbbət odundan təam yeyirəm,
Leyli-nəhar "ya Hu!", "ya Hu!" deyirəm.

Eşq oduna yanan aşiqin gecə-gündüz Tanrı adını zikr etməsi Haqqa gedən yolun məhəbbətdən keçməsi deməkdir. Məhəbbətdən keçən bu yolda aşiqin başlıca niyyətlərindən biri haqqı nahaqdan ayırmaq, doğrunu tapa bilməkdir:

Yeri, göyü, ərşi, kürsü yaradan,
Adil padşahsan, ədalət eylə.
Könlümün nöqtəsin çıxart qaradan,
Məni doğru yola dəlalət eylə.

Nədir doğru yol, aşiq hansı yolu tutmaq istəyir? Bu sualın da sələflərdən gəlmə ümumi cavabı var: nəfsi öldürüb şeytan felindən uzaq olmaq. Nəfs məsələsini gözəllərə münasibətdə izləmək istəsək, ilk növbədə, onu qeyd etməliyik ki, Aşıq Ələsgər irsində lirik qəhrəmanı biz həyat eşqi aşıb-daşan zövqü səfa əhli kimi görürük:

Dura qulluğunda canı baş ilə,
Nazü qəmzə ilə, gözü qaş ilə,
Gah yalvarmaq ilə, gah savaş ilə,
Köysünü açmağın nə damağı var!

Könül verdiyi nazlı yarla bir yerdə olmağın hər anı, hətta yar əlindən papiros alıb çəkdiyi dəqiqələr belə lirik qəhrəman üçün unudulmazdır:

Quşnarov tütünlə Ananov kağız,
Bükə paprosunu bir növrəstə qız.

Bir o ola, bir sən, bir otaq yalqız,
Deyib-danışmağın nə damağı var!

Yarın yaxasını açmaqla bitən bu cür zövqü səfa ovqatını Aşıq Ələsgərin başqa gözəllərə münasibətində də axtarmaq mümkündürmü? Axı başqa gözəllərə həsr etdiyi bir çox şeirlərində də ustad sənətkar böyük şövqlə ağlı başdan çıxaran büllur bədəndən, al yanaqdan, qoşa nardan bəhs edir, "Zənburam, sızıldaram dodaqlarının balına" deyir. Bəli, elədir, amma diqqət etsək, görərik ki, öz halalı ilə birgə keçirdiyi və yaxanın açılması ilə tamamladığı zövqü səfa anlarını aşıq heç də başqa gözəllərə aid etmir. Təsadüfi deyil ki, ustad sənətkar vəsf etdiyi gözəli neçə-neçə şeirində "bacı" adlandırır:

Həm bu dünyada bacımdı, həmi qiyamətin günü,
Lənət gəlsin o kəslərə – söyləyə böhtan Giləyə. ("Giləyə")

Mən sana "bacı" dedim, xalq düşməsin kəc xəyala,
Ələsgərdən incik olma, gözlərin qurbanı, Həcər. ("Həcər")

Misal gətirdiyimiz birinci şeirin başqa misralarında qaymaq dodaq və gül yanaqdan, ikinci şeirdə isə sinədə "baş göstərən" qoşa "turunc"-dan bəhs edilməsi gözəli "bacı" adlandırmaqla ziddiyyət yaratmırmı? Bizcə, heç bir ziddiyyət yaratmır. Məsələ burasındadır ki, zahiri görkəmin "qaymaq dodaq", "qoşa nar" şəklində təsviri daxili aləmin "dil bilən", "dərd anlayan" şəklində təsviri ilə bir yerdə "şeytanı öldürüb, nəfsi yandırmaq" mətləbinin ifadəsinə xidmət edir. Əlbəttə, bu mətləb məhəbbət mövzulu şeirlərlə məhdudlaşmır və ustad sənətkarın bir sıra başqa şeirlərini də əhatə edir. Aşıq Ələsgərin müxtəlif mövzulara həsr olunmuş neçə-neçə şeiri var ki, həmin şeirlərdə nəfsi öldürməyin başlıca əlaməti kimi səxavət nişan verilir. Ustad sənətkar "Mal-dövlətə baş endirən əfsanə baş endirir" deyib səxavət sahiblərinə xüsusi hörmət və ehtiram göstərir. Dəli Alı belə səxavət sahiblərindən biridir. Maraqlıdır ki, ustad sənətkar səxavətli olmağı Dəli Alının timsalında əliaçıqlıq göstərmək kimi sıradan bir məziyyət hesab etmir. "Səxavət əhlini yandırmadı nar" deyən sənətkar səxavətin – Hatəmə bənzərliyin də kökünü ilahi qüdrətə bağlılıqda axtarır:

Pirim Şahi-Mərdan verib muradı,
Artırıb şövkəti, şanı Dəli Alı. ("Dəli Alı")

Ata, baba iyiddilər, bəyənmişəm əsli-zatın,
Doğruluğun səbəbinə Mövlan veribdi baratın. ("Kimi")

Bura qədər dediklərimizdən və çəkdiyimiz misallardan aydın görmək olur ki, Aşıq Ələsgər Şahlar Şahı və Şahi-Mərdanla daha çox üç sərvəti əlaqələndirir: a) özünün aşıb-daşan təbini; b) gözəllərin camal və kamalını; c) müxənnəsliyə qarşı çıxanların mərdlik və səxavətini. Axtarsaq, bu cür mənəvi dəyərlərin ilahiləşdirilməsini müəyyən qədər Aşıq Ələsgərdən əvvəlki ustad aşıqların da yaradıcılığında tapa bilərik. Amma məsələnin incə tərəfi burasındadır ki, ənənəyə sıx bağlı olan Aşıq Ələsgər şeir-sənətdə öz fərdi aləmini yüksək bədiiliklə əks etdirməyin də əvəzsiz nümunəsini göstərir. Bu fərdi aləmi yuxarıda xatırlatdığımız və xatırlatmadığımız mövzuların hər biri üzrə izləmək heç də çətin deyil.

Fərdiyyət məsələsini Mövladan dərs alan sənətkar obrazında axtarsaq, qeyd etməliyik ki, bu obraz "Şahi-Mərdan sayəsində elm içində ümmanam", "Əhli-irfan məclisində gövhərmisaldı yüküm" kimi ənənəvi ştrixlərlə məhdudlaşmır və Aşıq Ələsgər bioqrafiyasından gələn bir çox cizgilər bu obraza özünəməxsus məzmun verir. Aşıq Ələsgər bioqrafiyasının səciyyəvi cizgilərindən biri ustad sənətkarın saz-söz adamları ilə qarşılaşması, bəzi hallarda isə toqquşmasıdır. Şair Nağı ustad sənətkarın toqquşduğu saz-söz adamlarından ən "məşhur"udur. Şair Nağının Şəmsəddindən Göyçəyə hədyan dolu şeir yazıb göndərməsi, təbii ki, Aşıq Ələsgəri hövsələdən çıxarır və ustad sənətkar bir neçə şeirlə Şair Nağıya cavab verməli olur. Həmin şeirlərdən birində – dillər əzbəri olan "Şair Nağı" rədifli qoşmada bir bənd belədir:

Göyərib kicirtkən, baş verib çaşır,
Doldur dağarcığı, Göyçəyə aşır.
Elə billəm, qoca çaqqal ulaşır,
Olsa sənin kimi yüz Şair Nağı!

Ustad sənətkarın qəzəbi göz qabağındadır və bu qəzəbi göstərən detallardan biri qəbahət sahibinin çaqqal timsalında təqdim edilməsidir. Aydın məsələdir ki, rəqibi çaqqal timsalında dinləyiciyə çatdırmaqla ustad aşıq özünün aslan gücündə olmasına da işarə etmiş olur. Bunun, həqiqətən, belə olmasını ustadın başqa bir qoşması açıq-aydın göstərir:

Alçaqda dayan ki, çıxasan başa,
Tülküsən, aslanla girmə savaşa.
Gəl yapışma gücün çatmayan daşa,
Götürə bilməzsən, zora düşərsən.

Yarımçıq və lovğa adamlarla toqquşmasını tülkü-aslan savaşı adlandıran ustadın qəzəb hissi bir çox başqa şeirlərində ayrı-ayrı şəxslərə yox, müxtəlif sosial zümrələrə, məsələn, qayda-qanundan uzaq çinovniklərə,

insaf-mürvətdən uzaq bəylərə, dindən-məzhəbdən uzaq mollalara qarşı yönəlir. Söz yox ki, siyasi güc sahibi olan adamlarla toqquşmaq nə qədər çətin idisə, şəriət pərdəsi altında şeyitbazlığını gizlətməyi bacaran adamlarla üz-üzə gəlmək ondan da çətin idi. Aşıq Ələsgər bu çətinliyə dərin etiqadı və özünəməxsus xarakteri sayəsində sinə gərə bilir.

Ələsgər əl çəkməz etiqadından,
Yerdə xəbər verir göy büsatından –

deyən sənətkar üçün adamlara qiymət verməyin, onların əməllərini saf-çürük etməyin başlıca meyarı Haqqa bağlı olub-olmamaq, qəlbində axirət xofu daşıyıb-daşımamaqdır. Sənətkar, mollaları nədə təqsirləndirib, nədə günahkar bilir? “Həmdini dürüst bilməyə-bilməyə” camaatı öz təsiri altına salmaqda, yoxsulun malını yeməkdə, sələmi halal buyurmaqda, fitnə-fəsad törədib qadınları yoldan çıxarmaqda, bir sözlə, “şeytani-ləindən mətləb diləmək”də.

Aşıq Ələsgər lirikasında ətraf aləmə tənqidi münasibətdən danışarkən bir məsələyə toxunmadan ötüşmək olmur. Bu, müəllifin özünə tənqidi yanaşması məsələsidir. Bəli, Mövladan dərs aldığını bildirib, döyüş meydanına sazla, sözlə atılan, “Ələsgərdi Xeybər kimi bir qala”; “Tökərəm hörməti, götürrəm sazı, Şişər başın bu mahala sığışmaz” tərzində sözlər deyib döyüşdən həmişə qalib çıxan ustad sənətkarın hərdən öz-özü ilə baş-başa qaldığı məqamlar da var və həmin məqamların misralarda ifadəsini görmək çətin deyil. Saz-söz meydanında “Dərsi azlar Ələsgərdən dərs alsın” deyən sənətkar sual-siratdan, kəlmeyi-şəhadətdən, əli çəngəlli Əzrayıldan bəhs etdiyi “Dünyada” divanisində “Şəyirdlikdə can çürütdüm, hərgiz ustad olmadım” deyir. Və yaxud “Mənəm” qoşmasında “Ağıldan kəm, huşdan çaşqın, dildən küt, Naqabil, kəlməsi bisəmər mənəm” deyir. Əslində “Dünyada” divanisindən gətirdiyimiz misrada özünütənqiddən daha çox mütəvazelik hissinin ifadəsi var. “Mənəm” qoşmasından gətirdiyimiz misralarda isə özünütənqid fikrin kinayəli ifadəsi ilə qaynayıb-qarışır: müəllif qədir-qiymətinin bilinmədiyini nəzərə alıb məhz ironik şəkildə özünü “naqabil, kəlməsi küt” adlandırır. Yeri gəlmişkən xatırladaq ki, klassik aşıq şeiri üçün o qədər də səciyyəvi olmayan kinayə ifadə formasından Aşıq Ələsgərin yeri gəldikcə istifadə etməsini ustad sənətkarın bir çox başqa şeirlərində də görmək mümkündür:

Şirin ləhcə, xub yazıbsan kalamı,
İnsaf məqamında «bəyənər» hamı.
Nizami, Füzuli, Firdovsi, Camı…
Nə həddi var, sana barabar olsun. (“Olsun”)

Sərgərdan qalmışam mən bu hesaba,
Fələk qurğusuna əhsən, mərhəba! (“Olacaqdı”)

“Olsun” qoşmasından gətirdiyimiz nümunədə Aşıq Ələsgər Nizamilərdən “üstün” saymaqla özündənrazı, yarımçıq şairə, “Olacaqdı” qoşmasından gətidiyimiz nümunədə isə “əhsən, mərhəba” deməklə bimürvət fələyə kinayəli münasibət bildirir. Kinayə öz yerində. Amma biz özünütənqid notları ilə bağlı fikrimizi davam etdirib bildiririk ki, bu notlar ustad sənətkarın nəfs və eşqdən bəhs etdiyi məqamlarda daha çox gözə dəyir:

Nəfs aldatdı, hər yetənə xan dedim,
Bihudə kollara gülüstan dedim. (“Görmədim”)

Dolandım bihudə, gəzdim əfsana,
Tabe oldum nəfsə, uydum şeytana.
Xeyr əməlim yoxdu mərdi-mərdana,
Günahkar, günahkar, günahkar mənəm. (“Mənəm”)

Eşq ilə nəfs məni dolandırır bəhri-bəri,
Dilimdə ahi-canan, sərimdə zəhmətin təri. (“Deyin”)

Əlbəttə, nəfsə aldanmağı etiraf etmək nəfsi daxilən öldürüb kamilləşməyin nə qədər çətin bir yol olduğunu bir daha diqqətə çatdırmaq üçündür. O ki qaldı eşq yolunda səhvlərin etirafına, bu məsələyə aydınlıq gətirmək üçün Aşıq Ələsgərin bəzi başqa misralarını yada salmaq lazımdır. Məsələn, bu misrasını:

Kor oldu gözlərim, yapışdım dula. (“Düşmüşəm”)

“Xəbərin varmı”, “Salamatdır” qoşmaları da göstərir ki, Aşıq Ələsgərin öz ömür-gün yoldaşı haqqındakı şeirləri zarafat üstündə söylənmiş şeirlərdir. Bir misrasını misal çəkdiyimiz “Düşmüşəm” qoşması da yumoristik ovqatdan uzaq deyil. Məsələyə digər bir tərəfdən yanaşıb xatırlatmalıyıq ki, Aşıq Ələsgər bir neçə şeirində dula (demək, ilk növbədə, öz ömür-gün yoldaşına) dərin hüsn-rəğbət və məhəbbətini bildirir:

Qabiliyyətsiz, mərifətsiz qızların
Yüzü bir dərdimənd dul ola bilməz. (“Ola bilməz”)

Bivəfa qızlardan əlim üzüldü,
Eylərəm canımı, dul, sənə qurban. (“Sənə qurban”)

Bu misralardakı müsbət münasibəti, həmçinin “Xəbərin varmı” qoşmasında tənqidi münasibətin zarafat üstündə qurulmasını unutma-

dan xatırlatmaq lazım gəlir ki, qəlbində Səhnəbanı nisgili yaşadan Aşıq Ələsgərin neçə-neçə şeirində yardan yarımamış aşiq obrazı var və bu obrazın müəyyən qədər ustad sənətkarın özü ilə, öz tərcümeyi-halı ilə bağlı olmasını inkar etmək çətindir:

Yaxşı can yetişsə yaxşı canana
Həm günü xoş keçər, həm ay-il eylə. ("Həmayıl eylə")

İki könül bir-birini tutmasa,
Alan da yazıqdı, gələn də yazıq. ("Yazıq")

İstər həcvlərində və hərbə-zorbalarında, istərsə də nisgilli məhəbbətdən və ailə dramından bəhs edən şeirlərində real həyatdan gələn bioqrafik detallar ustad sənətkarın öz portreti barədə təsəvvürümüzü genişləndirir. Məlum olur ki, nisgilli məhəbbətdən və örtülü ailə dramından, evliliyin gizli ağrı-acısından danışarkən Aşıq Ələsgər həm də Səhnəbanılardan, bu qızların ər evindəki acınacaqlı taleyindən danışır:

Gözəl, sən də muradına çatmadın,
Bənna olub sınıq könül yapmadın.
Tərlan idin, öz tayını tapmadın,
Getdi, qismət oldu sara zülflərin. ("Zülflərin")

Bir mərdi sevəydin, sirdaş olaydın,
Könlün istəyənə peşkaş olaydın.
Ya da quruyaydın, bir daş olaydın,
Bəzənib bu evə gələndə, yazıq. ("Yazıq")

Ustad sənətkarın nəzərində Səhnəbanıların bir nisgili könül vermədiyi, sirdaş ola bilmədiyi adama qismət olmağıdırsa, ikinci nisgili bu dərdi heç kimə açıb danışa bilməməsi, ürəyində gizli çəkməsidir. "Dalbadal" şeirində "Sirlər Haqqın yanında, kim kimin dərdin bilir" deyən sənətkar "Gədə" şeirində "Qədər sənlə gəzəcəkdi, istər gir dəryada gəz" deyib, bir etiqad sahibi kimi, qismətdən qaçmağın mümkün olmaması qənaətinə gəlir və bu qənaəti əslində "Zülflərin", "Yazıq" rədifli şeirlərdə də dolayı şəkildə izləmək mümkün olur.

Aşıq Ələsgərin öz portreti haqqında təsəvvürümüzü genişləndirən şeirlər sırasına, heç şübhəsiz, Mirzə Bəylər və Dəli Alı ilə bağlı şeirlər də daxildir. Sıx ünsiyyətdə olduğu Mirzə Bəylər kimi ziyalı, Dəli Alı kimi igid barədə dediyi sözlər Aşıq Ələsgərin öz xarakterini bir az da yaxından tanımağa kömək edir.

Maraqlıdır ki, Dəli Alı haqqındakı şeirlərdə şücaət və rəşadəti vəsf etmək başlıca mətləb olduğu halda, müəllif böyük həvəslə insaf,

mürvət, mərifət məsələlərindən danışır, Dəli Alının silahdaşlarından birinin dərin elm sahibi olmasını xüsusi diqqətə çatdırır:

Balçı Kalvayı Əli cavan bir oğlan kimidi,
Şəriətdən mətləb qanır, təriqətdə xan kimidi. ("Deyin")

Maraqlıdır ki, Mirzə Bəylər haqqındakı şeirdə elmi, biliyi, huşyarlığı vəsf etmək başlıca mətləb olduğu halda, müəllif birdən-birə silah-sursat məsələsinə keçir:

Markiz, mavzer, süzən, aynalı, birdon...
Səhv düşdüm sayında, doqquzdu, ya on.
Meşoğ ilə patron, qutuyla piston,
Yox kimsədən ehtiyatı Bəylərin.

Tüfəng, sursat mövzusuna tək bu şeirdə yox, Aşıq Ələsgərin bir çox başqa şeirlərində də rast gəlmək mümkündür. Belə bir faktı xatırlatmaq yerinə düşər ki, Aşıq Ələsgərin bağlamalarından biri – "Yetər" divanisi məhz tüfəngə həsr olunub. Və faktlar belə qənaətə gəlməyə əsas verir: "Can deməklə candan can əskik olmaz" deyib insanları ülfətə səsləyən Aşıq Ələsgər müxənnət zəmanənin "Əkməz kotan kimi xama çəkməsi" müqabilində silah-sursata əl atmağın vacibliyini də yaddan çıxarmır, rəşadəti məhəbbətə yol açan bir dəyər sayır.

Şeirlərinin möhürbəndində "atam Alməmməddi, Göyçə mahalım" deyib nəsil-nəcabətini, yerini-yurdunu nişan verən, özünü "eşq içində qala", "gözəlliyin məddahı", "elm içində ümman", eləcə də "qul", "işi müşkül", "füqəra", "bəxtiqara", "günahkar" və s. adlandıran və şeirlərini həmin adlara uyğun bir ovqatda quran Aşıq Ələsgər bəzən daxili süjetdən istifadə edir və özünü həmin süjetin iştirakçılarından biri kimi qələmə verir. Dəli Alı haqqındakı "Kimi", "Deyin" müxəmməslərində müşahidə etdiyimiz daxili süjet elementlərini daha qabarıq şəkildə "Eləyib" müxəmməsində görürük: Yaylaqda toydur. Toya bədəncə xırda, amma çox güclü olan, Aşıq Ələsgərin də yaxşı tanıdığı Əli adlı bir pəhləvan gəlib çıxır. Çoxlarını şil-küt edən, Molla Hümməti "bir dəstə reyhan" kimi götürüb göyə tullayan pəhləvanın bir bədbəxtlik törədəcəyindən ehtiyat edən Aşıq Ələsgər araya girməli olur:

Meydanalı şövq elədi, üstüncə bəylər yeridi,
Seyistandan Rüstəm qalxıb, Maliki-Əjdər yeridi,
Dərya kimi cuşa gəlib, şir kükrəyib, nər yeridi,
Gördü, bəylər qafil olub, Aşıq Ələsgər yeridi,
– Amandı, girmə meydana, çoxların peşman eləyib!

Göründüyü kimi, Meydanalını pəhləvanla güləşməyə qoymayan Aşıq Ələsgər hadisənin iştirakçılarından biridir. Belə iştirakçı olmağın

klassik tipinə "Dədə Qorqud" eposunda rast gəlmişik. Boyları düzüb-qoşan Dədə Qorqudu eposun bir neçə yerində, xüsusən "Bamsı Beyrək" boyunda qəhrəmanlar sırasında görürük. Yeri gəlmişkən qeyd edək ki, "Dədə Qorqud"la səsləşməni Aşıq Ələsgər irsində bir çox başqa məqamlarda da görmək mümkündür. Qorqud Atanın dilindən söylənmiş "Qarı düşmən dost olmaz" atalar sözünü "Qarı düşmən bir də gəlib dost olmaz" ("Üzhaüz") şəklində Dədə Ələsgərin dilindən eşidirik. "Dədə Qorqud"un "Müqəddimə"sində tanış olduğumuz evə-eşiyə baxmayan məzəli qadın obrazları Dədə Ələsgər şeirlərində ("Xəbərin varmı", "Uzaq vilayətdə qız sevən oğlan") yenidən qarşımıza çıxır. Dədə Qorqudun düzüb-qoşduğunu alp ozanlar eldən-elə yaydıqları kimi, Dədə Ələsgərin də sinədən söylədiklərini onun şəyirdləri ölkədən-ölkəyə yayırlar:

Dəli Alının vəsfini yazmışam dastana – deyin!
Afərin, şəyirdlərim, gedəndə hər yana deyin!
Eşidib Göyçə mahalı, külli-İrəvana deyin!
Addayın Şahtaxtından, Təbrizə, Tehrana deyin!
Üz tutun Alosmana, Qarsa, Qağızmana deyin! ("Deyin")

Şəyirdlərin, həmçinin neçə-neçə başqalarının ifasında səslənən şeirlərdə Aşıq Ələsgər mətnindən kənara çıxma halları qaçılmazdır. Bu gün Aşıq Ələsgər şeirlərindən hər hansı birinin yüzə-yüz ustadın söylədiyi şəkildə bizə çatdığını iddia etmək mümkün deyil. Amma toplayıcıların və tərtibçilərin, xüsusən də İslam Ələsgərin gərgin zəhməti bahasına ortaya-ərsəyə gələn Aşıq Ələsgər irsi ustad sənətkar barədə söz deməyə kifayət qədər əsas verir. Deyəcəyimiz sözlərdən biri bundan ibarətdir ki, Aşıq Ələsgər irsində müəllif obrazı, bəlkə, heç bir aşıqda görmədiyimiz şəkildə canlı və çoxcəhətlidir. Aşıq sənətinin yazılı sənətdən götürdüyü bir cəhət – mətndə müəllifin bəlli olması Aşıq Ələsgər yaradıcılığında daha çox hiss edilən və daha tez gözəçarpandır. Görünür, Aşıq Ələsgərin bir sənətkar kimi qüdrətini göstərən çoxsaylı amillərdən biri məhz bu nöqtədə axtarılmalıdır.

"Qanadlanıb Qafdan Qafa uçan" sənətkar və gündəlik qayğılar içində yaşayan sənətkar – bu iki obraz Aşıq Ələsgər poeziyasında yan-yanaşıdır. Ustad sənətkarın könül quşunu pərvaza gətirən, ilk növbədə, gözəllərdir:

Gözüm gördü, könlüm qəmdən ayıldı,
Çıxdınız qarşıma dəstə gözəllər!
Camalın şöləsi nuri-təcəlla,
Görsə şəfa tapar xəstə, gözəllər!

Həm vüsalı, həm də hicranı ilə insanın yaşayıb-yaratmaq şövqünü artıran gözəllər aşığa qoca vaxtında belə qol-qanad verirlər, onun ruhunu təzələyirlər:

Məni qoca gördü, rübəndin açdı,
Ala gözlərinə gözüm sataşdı.
Huş başımdan getdi, xəyalım çaşdı,
Mürği-ruhum asimanlar dolanır.

Ustad sənətkarın könül quşunu pərvaza gətirən həm də təbiətdir – türfə gözəllərin əyilib su içdiyi çeşmələr, ayaq basdığı yaylaqlar, dağlardır:

…Mürğ tək balü-pər açdım, oxudum döndüm bülbülə,
Bir gözəl keçdi qarşıdan gözlərindən gülə-gülə,
Dağıtdı ömrüm qəfləsin, nə çoxdu yağın, Şah dağı!

…İstanbulun al qumaşı, Bağdadın xurması gəlir,
Oxuyur türfə gözəllər, kəklik tək sədası gəlir,
Aşıq üçün cənnət qoxur daşın, torpağın, Şah dağı!

Qanad açıb bülbülə dönməkdən, türfə gözəllərin kəklik kimi səs-səsə verib oxumasından, daşın, torpağın cənnət qoxusu verməsindən danışan məqamda ustad aşığın həm də İstanbul qumaşı və Bağdad xurmasından bəhs etməsi tamamilə təbiidir və Aşıq Ələsgər poeziyasında idealla realı yan-yanaşı əks etdirmək prinsipinin eyni şeir daxilindəki təzahürüdür.

"Kişi gərək zəhmət çəksin, dər (tər) salsın" deyən, yaz-yay aylarında əkin-biçin işləri görən, gün-güzəran naminə bir vaxt dəyirmançılıq da edən, xeyirdə-şərdə həmişə el-oba ilə bir yerdə olan Aşıq Ələsgər üçün ən xırda məişət detallarından tutmuş ömür-günün ən müxtəlif səhnələrinə, ən incə məqamlarına qədər hər şey şeir mövzusuna çevrilə bilir. Bu cür mövzu rəngarəngliyi və həyatın dibinə enmək meyli Aşıq Ələsgər şeirində incə təbəssüm və xəfif yumorun başlıca mənbəyi kimi özünü göstərir:

Yar xəttiylə yazılıbdı a tarıx,
Mehtər bivec, əstər kökdü, at arıx.
Gözəllər fövcünə qürə atarıx,
Baxtım kora, şilə, ha lala çıxar.

Zərif zarafat üstündə "xırda" məişət qayğılarından bəhs edən bu təcnisdə, həmçinin neçə-neçə başqa şeirdə Aşıq Ələsgərin sənətkarlıq qüdrətindən, sözü muma döndərib bədii dil möcüzəsi göstərmək hünərindən bəhs etmək olar. Amma biz sözümüzü burada yekunlaşdırıb həmin məsələlərin araşdırılmasını başqa yazılara saxlayırıq.

# AŞIQ ƏLƏSGƏR SORAĞINDA: TOPLAMA VƏ POETİKA MƏSƏLƏLƏRI

**İsa HƏBİBBƏYLİ**
*Akademik, AMEA-nın vitse-prezidenti*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru*

Əvvəlcə onu qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Aşıq Ələsgərin anadan olmasının 200 illiyi haqqında qəbul elədiyi qərar şifahi xalq ədəbiyyatına, aşıq sənətinə, milli-mənəvi dəyərlərimizə, bütövlükdə ədəbiyyatımıza, mədəniyyətimizə verilən böyük qiymətin və böyük dəstəyin ifadəsidir. Eyni zamanda, cənab Prezidentimizin Sərəncamı Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında mühüm vəzifələr də qoyur.

Azərbaycan Milli Elmlər Akademiyasında Aşıq Ələsgərin anadan olmasının 200 illik yubileyinin qeyd olunması ilə əlaqədar olaraq tədbirlər planı hazırlanmışdır və həmin plana müvafiq olaraq Akademiyanın müxtəlif İnstitutlarında tədbirlərin keçirilməsi davam edir. Bu baxımdan bu gün Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Aşıq Ələsgər: sazın sehri və sözün şöhrəti" mövzusunda keçirdiyi Beynəlxalq Elmi Konfransı müəyyən olunmuş tədbirlər planının icrası istiqamətində həyata keçirilmiş təqdirəlayiq, əhəmiyyətli tədbir kimi yüksək qiymətləndirirəm. Bizim digər institutlarımızda da Aşıq Ələsgərin yubileyi ilə əlaqədar konfranslar keçiriləcək, yeni nəşrlər meydana çıxacaqdır. AMEA Folklor İnstitutunun təşkil etdiyi bu Beynəlxalq Elmi Konfrans ustad aşığa həsr olunmuş tədbirlərin başlanğıcı hesab edilə bilər. Proqramdan görünür ki, konfransda Aşıq Ələsgərə həsr edilmiş müxtəlif istiqamətli elmi məruzələr dinləniləcəkdir. Hesab edirəm ki, bu işi sadəcə konfrans keçirməklə yekunlaşdırmaq olmaz. Aşıq Ələsgər və Azərbaycan aşıq sənəti mövzusu mükəmməl bir doktorluq dissertasiyası mövzusu ola bilər. Müşahidə etdiyim odur ki, Folklor İnstitutu və Ədəbiyyat İnstitutu, o cümlədən bir sıra digər qurumlar Aşıq Ələsgər mövzusunun Azərbaycan çərçivəsindən çıxarılaraq ən azı türk dünyası miqyasında bir neçə istiqamətdə öyrənilməli olması fikri ilə həmrəydirlər. Onu da qeyd etməliyəm ki, Aşıq Ələsgər haqqında onun həyatı və yaradıcılığını ümumiləşdirən ciddi bir monoqrafiq kitab meydanda yoxdur. Belə bir kitabı neçə il bundan qabaq onun nəvəsi İslam Ələsgər yazmış çap etdirmişdir. Ancaq İslam Ələsgərdən sonra bu səpkidə

kitaba rast gəlmirik. Zəruri ehtiyac var ki, Aşıq Ələsgərin həyat və yaradıcılığı müstəqillik işığında sistemli şəkildə öyrənilsin, bu qüdrətli sənətkarın şeirlərinin poetikası hərtərəfli tədqiqat predmetinə çevrilsin. Aşıq Ələsgər aşıq ədəbiyyatının Nizami Gəncəvisidir. Nəinki Azərbaycanda, türk dünyasında Aşıq Ələsgər səviyyəsi və miqyasında aşıq göstərmək çətindir. Amma Aşıq Ələsgər tədqiqatları Aşıq Ələsgərin yaradıcılığı ilə müqayisədə geridə qalır. Aşıq Ələsgərin həyatı və yaradıcılığını ümumiləşdirən yeni tipli, müstəqillik idealları əsasında yazılmış kitaba, təkrar edirəm ki, ciddi ehtiyac vardır. Aşıq Ələsgərin poetikasını öyrənmək həm Ədəbiyyat, həm də Folklor İnstitutlarının vəzifəsidir. Hətta lazım olsa, birgə tədqiqatlar da aparılmalıdır.

Aşıq Ələsgər aşıq sənətinin zirvəsidir. Aşıq Ələsgərin yaradıcılığı ilə Qurbanidən başlayan Azərbaycan aşıq sənəti təkmilləşərək, inkişaf edərək öz zirvəsinə, kamala çatmışdır. Aşıq Ələsgər aşıq ədəbiyyatının tam oturuşmuş sistemini yaratmışdır. Aşıq Ələsgər aşıq sənəti məktəbi formalaşdırmışdır. Aradan 200 il keçməsinə baxmayaraq, bu gün də Azərbaycanda Aşıq Ələsgər ənənəsi yaşayır, inkişaf edir, yeni davamçılarını meydana çıxarır. Aşıq Ələsgərin sənət məktəbi məsələsi də ciddi bir tədqiqatın mövzusudur. Fikrimcə, bu problemin öyrənilməsi də yubiley ilinin çağırışları işığında qarşıda görəcəyimiz işlərin sırasında dayanmalıdır.

Aşıq Ələsgəri populyarlıq baxımından xalq şairi Səməd Vurğunla müqayisə etmək olar. Səməd Vurğun yazılı ədəbiyyatda nə qədər populyardısa, Aşıq Ələsgər də şifahi ədəbiyyatda, aşıq ədəbiyyatında o qədər geniş miqyasda tanınır. Səməd Vurğunun "Dağlar" şeirini xalq nə qədər əzbər bilirsə, Aşıq Ələsgərin "Dağlar" şeirləri də eyni dərəcədə dillər əzbəridir:

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır laləzar olur.
Çeşməsindən abi-həyat car olur,
Dağıdır möhnəti-məlalı dağlar.

Aşıq Ələsgər bu dörd misrada möhtəşəm bir tablo yaradıb. Aşıq Ələsgər həm də rəssam-aşıqdır. O, Azərbaycan təbiətinin unudulmaz mənzərələrini və el gözəllərinin mükəmməl portretlərini canlandırıbdır. Vaxtilə mən tələbə olarkən Aşıq Ələsgər irsinin toplanması ilə məşğul olmuşam. Bir də kənddə müəllim işləyərkən yaşlı adamlardan Aşıq Ələsgər haqqında onların nələri bildiklərini soruşmuşdum. Kənddə dəyirmançı Əli adlı bir kişi var idi. O, Aşıq Ələsgərin Şərur səfəri barədə məlumat vermişdi. Bizim kənddə Arpaçayın o tayında cərgə ilə

ucalan bir neçə böyük bir tut ağacları var idi. Aşıq Ələsgərin həmin ağacın altında saz çaldığını və adamlarla söhbət elədiyini dəyirmançı Əli mənə, Danzik kəndinin gənc müəlliminə danışmışdı. Dəyirmançı Əlidən Aşıq Ələsgərin "Bu qız" adlı şeirini yazıya almışdım. Sonra Aşıq Ələsgərin kitablarını vərəqlədim. Baxdım ki, o şeir heç bir yerdə çap olunmayıb. Onu o vaxtlar "Şərq qapısı", bir də "Azərbaycan müəllimi" qəzetlərində çap elətdirdim. "Bu qız" şeiri bu gün də Aşıq Ələsgərin şeirləri külliyatına daxil olmayıb. Tələbə ikən, 4-cü kursda oxuyanda Babək rayonunun Kültəpə kəndində bir məclisdə iştirak edirdim. Orada bir nəfər Aşıq Ələsgərdən danışırdı. O, Ələsgərin "Yazıq" şeirini dedi. Mən yenə gəlib Aşıq Ələsgərin 1971-ci ilə qədər çap olunan kitablarına baxdım, o şeiri Aşıq Ələsgərin əsərləri arasında görmədim. Sonra o kişi ilə bir də görüşdüm. "Yazıq" şeirini yazıya aldım. Bu şeiri də "Şərq qapısı" qəzetində çap etdirdim.

Başqa bir əhvalatı da xatırlayıram. Kəndimizdə müəllim işləyərkən Dərələyəz mahalının Sallı kəndindən bizim camaatla qohumluq əlaqəsi olan aşıq İmanın söhbətinə qulaq asmışdırm. O, kəndimizdə Kərəm kişigilin qohumu və qonağı idi. Aşıq İmandan ustad Ələsgərin "Giliyə" adlı bir gözəlləməsini eşidib yazmıya almış və "Şərq qapısı" və "Azərbaycan müəllimi" qəzetlərində çap etdirmişdim. O vaxta qədərki kitablarda bu şeirə də rast gəlməmişdim.

Kəndimizin qocaman sakinlərindən öyrənmişdim ki, aşıq Ələsgər Şərur səfəri zamanında bizim kəndə gəlib, Molla Abbas kişiyə qonaq olub, onun evində məclis qurub. Bizim Danzik kəndi Dərələyəzin və Göyçə mahalının Şərura açılan qapısı idi.

Eyni zamanda, eşitmişdim ki, aşıq Ələsgər indiki Şərur rayonunun Yaycı kəndində Məhəmməd bəylə yaxın münasibəti olub, onlara gəlib-gedib. Məhəmməd bəy mənim babam Həbibb bəyin atası olub. O, Yaycı kəndindəki bəy torpaqlarını idarə edib.

Düşünürəm ki, bu gün də Göyçədən köçüb gələnləri dindirsək, iş aparsaq, Aşıq Ələsgərlə bağlı yeni tərcümeyi-hal faktları, onun nəsli, şəcərəsi və ailəsi haqqında məlumatlar əldə edə bilərik. Aşıq Ələsgərin tərcümeyi-halı, şəcərəsi tam halda yenidən yazılmalıdır.

Yubiley imkan verir ki, biz Aşıq Ələsgərlə bağlı daha çox işlər görək. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Aşıq Ələsgər haqqında olan şeir və poemalar ayrıca bir kitab şəklində toplanılır. Bu kitaba müxtəlif dövrlərdə yazılmış şeirlər və poemalar daxil edilir. Aşıq Ələsgərin sözlərinə bəstəkarlar tərəfindən qoşulan bir çox

mahnılar var. Bizim əməkdaşlar o bəstəkar mahnılarını da yığıblar. Həmin mahnıları notları ilə birlikdə çap etdirmək istəyirik.

Eyni zamanda, Aşıqlar Birliyi ilə birlikdə Ədəbiyyat İnstitutu Aşıq Ələsgər haqqında dastan-rəvayətləri çapa hazırlayıb. Bu qiymətli kitab aşıq Ələsgərin həyatı, mühiti və müasirləri haqqında çox zəngin mənbədir.

Mən bilirəm ki, Folklor institutunun da nəşrləri olacaqdır. Bu konfransın materialları da çap olunacaqdır. Beynəlxalq elmi konfrans Aşıq Ələsgər sənətinə yenidən qayıdışı bəyan edir. Folklor İnstitutunun təşkil etdiyi bu konfransı Aşıq Ələsgər irsinə yenidən qayıdış üçün bir başlanğıc hesab edirəm. Düşünürəm ki, bu konfransın tezislərinin, çağırışlarının işığında Aşıq Ələsgərin ölkə miqyasında, türk dünyasında və dünyada təbliği istiqamətində səylərimizi daha da artıracağıq.

Beynəlxalq elmi konfransın irəli sürdüyü tezislərin işığında Aşıq Ələsgər sənəti bütün möhtəşəmliyi ilə görünür.

***24 may 2021-ci il***

# AŞIQ POEZİYASI YAZILI ƏDƏBİYYAT KONTEKSTİNDƏ

**Qəzənfər PAŞAYEV**
*Filologiya elmləri doktoru, professor*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*

Artıq bir ildir ki, davam edən karantin rejimi canlı elmi ünsiyyət, müzakirə və mübahisələrin masştabını daraldıb. Əvəzində illər uzunu müxtəlif mövqelərdən şərh edilən, tarixi-elmi dəyərlərin elmi izahında mübahisəli görünən bir çox məsələlər haqqında düşünüb-daşınmağa şərait yarandı. Bunlardan biri də məni çoxdan düşündürən Aşıq poeziyasıdır.

Görkəmli folklorşünasımız Məhərrəm Qasımlı və Mahmud Allahmanlının tərtib etdikləri "Aşıq ədəbiyyatı antologiyası" üççildliyini yenidən oxudum (1). Üççildliyin "Aşıq poeziyası" adlanan I cildində otaylı-butaylı Azərbaycanın ustad aşıqlarının vəhdətdə təqdimi yeni araşdırmalara rəvac verir. Kitabda Azərbaycan aşıqları ilə yanaşı, azərbaycanca yazıb-yaradan Ləzgi Əhməd, Krım tatar aşığı Ömər, Ərzurumlu Əmrah kimi başqa xalqların aşıqlarına da yer verilir. Bu nəşrin uğurunu şərtləndirən məsələlərdən biri də aşıq poeziyasının, aşıq sənətinin inkişafında, zənginləşməsində mühüm rol oynayan, ruhən aşıqlara yaxın olan 30-dan artıq el şairinə yer verilməsidir.

"Aşıq ədəbiyyatı antologiyası" üççildiyini və ikicildlik "Ozan-Aşıq" Ensiklopediyası"nı oxuyandan sonra məndə bir daha aşıq poeziyası, aşıq şeir şəkilləri barədə söz demək arzusu baş qaldırdı. Lakin qəti söz demək üçün aşıq sənətinə, aşıq poeziyasına dair tədqiqatları yenidən oxudum və qənaətlərimi oxucu və mütəxəssislərlə bölüşmək qərarına gəldim.

Folklorla məşğul olan tədqiqatçılar bilir ki, mən illər öncə Aşıq Azaflı Mikayılın yaradıcılığından bəhs edən "Qoca Azaflıyam" kitabını tərtib edərkən aşıq poeziyası və bütün aşıq şeiri şəkillərinə dair tədqiqat aparmışdım (2). O vaxtdan, necə deyərlər, çox sular axıb, folklora, aşıq poeziyasına, aşıq şeiri şəkillərinə yeni baxış formalaşıb.

Hər şeydən əvvəl, onu deyək ki, Aşıq poeziyasını şifahi xalq ədəbiyyatı hesab edən folklorşünaslarımızın qənaətləri həmişə birmənalı qarşılanmayıb. Müəllifi bəlli olan aşıq poeziyası milli tarixi-ədəbi prosesin bütün mərhələlərində iştirakına və roluna görə klassik

üslubda yaranan ədəbiyyatla qarşılıqlı zənginləşmədə olub. Milli poetik düşüncənin qaynağı və təkamül göstəricisi olan bu bədii yaradıcılığı folklor hesab etmək əsasən uzun illər qəlibləşmiş elmi metodik qənaətlərə əsaslanır.

Aşıq poeziyası müəyyən spesifik xüsusiyyətlərilə seçilən orijinal və bənzərsiz bir yaradıcılıqdır. Öz axar-baxarı olan, dərin elmi biliyə söykənən sənət abidəsi, prof. Məhərrəm Qasımlının göstərdiyi kimi, dilimizin və ruhumuzun qərarlaşdığı möhtəşəm fəlsəfi sistemdir (3, s. 7).

**Aşıq poeziyasına təsniflər, gəraylılar, qoşmalar, cinaslı bayatılar, müxəmməslər, divanilər, vücudnamələr, sicilləmələr, cahannamələr, ustadnamələr, deyişmələr, hərbə-zorbalar, qıfılbənd bağlamalar, təcnislər, "əlif-lam"lar, "tərs əlifba"lar, "əvvəl-axır"lar, "şeirlə məktublaşma"lar, "dedim, dedi" lər və s. daxildir.** Bu aşıq şeiri şəkillərinin hər biri barədə söz açmaqda məqsədimiz bir yandan bu sahilsiz ümmana bənzər yaradıcılıqla oxucuları, xüsusən də gənc tədqiqatçıları istiqamətləndirmək, digər tərəfdən aşıq poeziyasını folklor hesab edənlərin, şagirdlə şəyirdi, aşıq mühitləri ilə aşıq məktəblərini qarışdıran, aşıq şeir şəkillərini ancaq qoşma hesab edən, aşıq poeziyası ilə aşıq sənətinin fərqinə varmayanların, el şairlərini aşıq hesab edənlərin mövqeyindəki mübahisəli məsələlərə münasibət bildirməkdir.

Bəzi folklorşünaslarımızın Aşıq mühiti ilə Aşıq məktəbləri barədə fikirləri qəbuledilməzdir. Anadolu Aşıq məktəbi, Şirvan Aşıq məktəbi, Təbriz Aşıq məktəbi, Göyçə Aşıq məktəbi – deyə hökm verənlər yanılırlar. Əslində bunlar Aşıq mühitləridir. Aşıq məktəbini ayrı-ayrı ustad aşıqlar yaradırlar. Bu inkarolunmaz fakta Azad Nəbiyevin əsərində də təsadüf edirik:

"Yunis Əmrə bu sahədə ayrıca bir məktəb yaratdı, xalq şeirinin mükəmməl formaları onun poeziyasında özünün yüksək zirvəsinə qalxdı, poetik kamilliyə yetdi" (4, s. 240).

Folklorşünas alim, Xalq şairi Sabir Rüstəmxanlı da Aşıq məktəbi və Aşıq mühitləri məsələsinə toxunur və yazır:

"Dastan yalnız **aşıq sənətində məktəb yaradan**, son dərəcə böyük təsir gücü olan, adı xalq arasında əfsanələşən sənətkarlar haqqında qoşulur" (5, s. 221).

Məlumdur ki, Aşıq mühitləri özünəməxsusluğu ilə seçilir. Lakin heç biri digərini inkar etmir, əksinə aşıq sənətini zənginləşdirirlər.

Borçalı aşıq mühitində aşıqlar, adətən, balabançının müşayiəti olmadan çalıb-oxuyurlar. Göyçə, Təbriz, Gəncəbasar Aşıq mühitlərində aşıqları balabançı müşayiət edir.

Şirvan Aşıq mühitində aşıqlar balaban, dəmkeş, nağara və qoşa nağaranın müşayiəti ilə çalıb-oxuyurlar. Məqamdır deyək ki, uzunömürlü dərsliklər, tədqiqatlar müəllifi, xatirini çox istədiyim professor Paşa Əfəndiyevin balabanı səsi olmayan aşıqların səsini ört-basdır etmək üçün vasitə hesab etməsi həqiqətdən uzaqdır (6, s. 229). Balaban, çalıb-oxuyanda aşıqları ruhlandıran, cuşa gətirən qeyri-adi alətdir.

Təsadüfi deyildir ki, dörd-beş il bundan əvvəl Təbrizdə 400-ə qədər balabançının iştirakı ilə müsabiqə keçirilmişdi.

Aşıqlar Birliyi və Aşıq sənəti ilə məşğul olan tədqiqatçılarımız balabançılarımızın həyatı və fəaliyyətini araşdırmalı, onları unudulmaqdan qorumalıdırlar. Unutmaq olmaz ki, aşıq sənətinin inkişafında balabançıların misilsiz xidmətləri olmuşdur.

Bəzi folklorşünaslarımızın "Əlif-lam", "ustadnamə", vücudnamə, cahannamə kimi aşıq şeiri şəkillərini qoşma hesab etmələri, bizcə, doğru deyildir. Onların yeganə arqumenti göstərilən aşıq şeiri şəkillərinin qoşma kimi 11 hecadan ibarət olmasıdır. Qoşma 3-5, bəzən 7 bənddən ibarət olduğu halda, onlarda bəndlərin sayı sərbəstdir. Həmin aşıq şeiri şəkilləri məna və məzmunca da tamamilə fərqlənirlər.

Başqa bir mühüm məsələdə də bəzi folklorşünaslarımızla razılaşmaq olmur.

Məlumdur ki, ustad aşıqlar yanında dərs alan, aşıqlıq sənətini öyrənənlərə şəyird, məktəbdə müəllimdən dərs alan uşağa və gənclərə şagird deyilir. Təəccüblüdür ki, əksər folklorşünaslarımız şəyirdlə şagirdi qarışdırırlar. Bir dərslikdə hətta **"ustad-şagird"** başlıqlı yazı da **verilmişdir.**

Bizə qalırsa, belə məsələlərdə mətndən çıxış etmək lazımdır.

Aşıq Ələsgər yazır:

Bir **şəyird** ki, ustadına kəm baxa,
Onun gözlərinə ağ damar, damar.

Və ya:

Aşıq Ələsgərəm, mərdi-mərdana
On iki **şəyirdim** işlər hər yana.

Aşıq Ələsgər hətta dodaqdəyməz divanisində də bu məsələyə toxunur:

Sən şəyirdsən, hey deyirlər,
Dərs al ərkandan, gədə!
Həqiqətdən dışarısan
Keçirsən yandan, gədə! və s.

Aşıq Ələsgərin məşhur qaçaq Dəli Alıya həsr etdiyi gəraylısında

da buna təsadüf edirik:

Dəli Alının vəsfini,
Yazmışam dastana deyin!
Afərin, **şəyirdlərim,**
Gedəndə hər yana, deyin!

Aşıq Nəcəf Ağkilsəli:

Sən **şəyirdsən,** bir ustaddan
Dərsini al, sözə bax...

Ustad aşıqlar **şəyird** məsələsinə ciddi yanaşır və xüsusi qayğı göstərirdilər. Bu, iki mühüm məqamla bağlıdır. Birincisi, sənəti yaşatmaq, ikincisi, ustad aşıqların yaradıcılığını yaymaq, yaşatmaq.

Aşıq Ələsgərin 12 şəyirdinin olması təsadüfi deyildi.

Bəzi folklorşünaslarımız Aşıq yaradıcılığı deyəndə aşığın yalnız **bədii** yaradıcılığını nəzərdə tuturlar. Unudurlar ki, aşıq yaradıcılığına onun çalıb-oxumağı, yaratdığı havaları, dastan yaradıcılığı, bədii qiraət ustası kimi çıxış etməyi, rəqqas kimi oynamağı, məclisi ələ almaq üçün qaravəllilər danışmağı və sairə də daxildir. Eyni zamanda təkcə bunlara diqqət yetirmək kifayətdir ki, el şairlərini akademik Muxtar İmanovun doğru olaraq göstərdiyi kimi, aşıq hesab edənlərin yanıldıqları məlum olsun (7, s. 55).

Dahi Üzeyir bəy Hacıbəyov təsadüfi demirdi: "Aşıq yaradıcılığı elə bir sənət aləmidir ki, orada şairin də, yazıçının da, bəstə-karın da, xanəndənin də, rəqqasın da istədiyi qədər payı vardır".

Çəkinmədən deyə bilərik ki, aşığın bədii yaradıcılığı yazılı ədəbiyyata, yerdə qalan yaradıcılığı folklora aiddir.

Gün kimi aydın həqiqətdir ki, zaman-zaman aşıq poeziyası və yazılı ədəbiyyat qarşılıqlı şəkildə inkişaf etmiş, bir-birinin zənginləşməsinə yardımçı olmuşdur. Bu baxımdan, Nəsimi yaradıcılığı xüsusilə seçilir. Şairin yaradıcılığı şifahi xalq ədəbiyyatı və aşıq poeziyası ilə qoşa inkişaf etmiş, aşıq yaradıcılığına yeni janrlar gətirmiş, formaca onun inkişafına təkan vermişdir. Buraya qıfılbənd bağlamalar, "Əlif-lam", "Tərs əlifba", "Divanilər", "qoşmalar" daxildir (8, s. 63-78).

Aşıqlar, xüsusən də Ordubadlı Kərim, Aşıq Ələsgər və Molla Cuma şairin qıfılbənd, Divani, "Əlif-lam" və "Tərs əlifba"larından bəhrələnərək aşıq poeziyasını zənginləşdirmişlər.

Maraqlıdır ki, klassik ədəbiyyatımızdan gələn "Əlif-lam", "Tərs əlifba", Divani və "qıfılbəndlər" heca vəznindədir.

O da maraqlıdır ki, Divan ədəbiyyatından gələn "Divani" və "Müxəmməs"lər əruz vəznində olduğu halda, onlar da aşıq yaradı-

cılığında heca vəzni üstə köklənibər:

Professor Məhərrəm Qasımlı yazır ki, aşıq poeziyası nə şifahi xalq ədəbiyyatına, nə də yazılı ədəbiyyata daxildir. Daşıdığı əlamətlər aşıq ədəbiyyatını türk ədəbiyyatının xüsusi – ayrıca bir tipi kimi səciyyələndirir (9, s. 474).

Görkəmli folklorşünas alimlərimiz Vaqif Vəliyev və Paşa Əfəndiyev aşıq poeziyasını şifahi xalq ədəbiyyatından ayrı hesab etmirlər.

Maraqlıdır, aşıq poeziyasına Divani və müxəmməslər Divan ədəbiyyatından, qıfılbənd, qoşma, "Əlif-lam" və "Tərs əlifba" klassik ədəbiyyatımızdan gəldiyi halda, onlar niyə yazılı ədəbiyyat hesab olunmasın?

Başqa bir yöndən, yazılı ədəbiyyatın nümayəndələri – Nəsimi, Şah İsmayıl Xətayi, Vaqif, Vidadi, Zakir, Səməd Vurğun, Osman Sarıvəlli, Hüseyn Arif, Məmməd Araz, Zəlimxan Yaqub, Məstan Günər, Hüseyn Kürdoğlu, Məmməd İsmayıl, Məmməd Aslan, Rasim Kərimli və başqaları təsnif, gəraylı və qoşmaları ilə aşıq ədəbiyyatını zənginləşdirməmişlərmi?

Xalq yazıçısı Mirzə İbrahimov təsadüfi yazmırdı: "Aşıq poeziyasının kökləri, rişələri folklordan su içirsə, budaqları, qol-qanadı həmişə ədəbiyyatla qovuşur, ona təsir edir, ondan qüvvət alır".

Bunları nəzərə alaraq Aşıq şeiri şəkilləri barədə düşüncələrimi təqdim edirəm.

**Gəraylılar**

Anlaşıqlı, canlı danışıq dilində olduğundan ürəklərə asanlıqla yol tapan gəraylılar aşıq poeziyasında geniş yayılmışdır.

İnsanın ən incə, ülvi və kövrək duyğuları, daxili aləmi, psixoloji anları – sevinc və sarsıntılar gəraylılarda poetik və obrazlı ifadəsini tapır. "Koroğlu" dastanında Nigar xanımın övladsızlıq dərdinin dörd misralıq gəraylıda əyaniləşmə məqamı janrın tükənməz imkanlarından xəbər verir:

Necə baxım ev-eşiyə,
Yaralı könlüm üşüyə.
Toz bürümüş boz beşiyə
Şirin layla çalan yoxdur.

Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Şəmşir, Mikayıl Azaflı kimi görkəmli aşıqlarımızın dillər əzbəri olan gəraylıları vardır. Gəraylı yazılı ədəbiyyatımızda da önəmli yer tutur. Aşıq Alı və Qasım bəy Zakirdən verdiyimiz örnəklər Aşıq poeziyası ilə yazılı ədəbiyyatımızın qoşa qanad olduğuna dəlalət edir.

**Aşıq Alıdan:**

Bax bu qaşa, bax bu gözə
Yandı bağrım, döndü közə.
Keçən sözü çəkmə üzə
Keçən keçdi, olan oldu.

**Qasım bəy Zakirdən:**

Qəm evində var olalı,
Eşqə giriftar olalı,
Yarımadıq yar olalı,
Nə sən məndən, nə mən səndən.

Örnəklərdən də göründüyü kimi, istər Aşıq poeziyasının, istərsə də yazılı ədəbiyyatın ən oynaq, axıcı və sadə şəkli gəraylıdır.

Maraqlıdır ki, Nəsimi və Füzulinin daxili qafiyəli qəzəlləri heca vəzninə yaxın bəhrdə yazıldığına görə onları asanlıqla "gəraylı" şəklinə salmaq olur.

Səməd Vurğun "20 bahar" adlı şeirində Füzulinin qəzəlini gəraylı şəklinə salaraq öz şeirinin vəzninə uyğunlaşdırmışdır:

Möhnət çəmənindən gül dərə-dərə,
Ucaldı şairin ahı göylərə:
"Şəbi-hicran yanar canım,
Tökər qan çeşmi-giryanım,
Oyadar xalqı əfqanım,
Qara bəxtim oyanmazmı?"
Füzuli yurdunun qəm səsidir bu,
Pərişan bir elin naləsidir bu.

Akademik Həmid Araslı Nəsimi yaradıcılığını tədqiq edərkən məşhur "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" qəzəlini gəraylı kimi təqdim etmişdir:

Məndə sığar iki cahan,
Mən bu cahana sığmazam
Gövhəri-laməkan mənəm
Kövnü məkana sığmazam.

Xalq şairi Xəlil Rza Ulutürk də Füzuli qəzəlindən istifadə edərək gözəl bir gəraylı yaratmışdır:

"Şəbi-hicran yanar canım,
Tökər qan çeşmi-giryanım,
Oyadar xalqı əfqanım",
O sahildə, bu sahildə.

Birləşib bir can olmalı,
Bütöv Azərbaycan olmalı,
O sahil də, bu sahil də.

**Təsniflər**

Təsniflər aşıq poeziyasının qədim şəklidir. Demək olar ki, bütün görkəmli ustad aşıqlarımız təsnifin gözəl nümunələrini yaratmışlar.

Aşıq Alı və Molla Cumadan verdiyimiz gəraylılar deyilənlərə dayaq olur:

Elmi dayazlar,
Kamaldan azlar,
Hədyan avazlar
Yamandır, yaman.
**(Aşıq Alı)**

Ağlayıb gülləm,
Göz yaşım silləm,
Qurban kəsilləm,
Sən bizə gəlsən.
**(Molla Cuma)**

Aşıq poeziyasının bu oynaq janrı yazılı ədəbiyyatımıza təsir edərək onu zənginləşdirmişdir.

Səməd Vurğunun "Bəsti" poemasının yarıdan çoxu 5-7 hecalı təsniflər üzərində köklənib. Təsniflər S.Vurğunun yaradıcılığında dilinin aydınlığı, oynaqlığı və xalq ruhunun daşıyıcısı olmağı ilə fərqlənir.

**Qoşmalar**

Ustad aşıqlardan başlamış ifaçı aşıqlara qədər, qoşma qoşmayan aşığa az təsadüf edilir. Qoşmanın kamil nümunələrini Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Aşıq Valeh, Şəmkirli Hüseyn, Aşıq Alı, Aşıq Ələsgər, Molla Cuma, Bozalqanlı Aşıq Hüseyn, Aşıq Şəmşir, Aşıq Pənah, Aşıq Şakir, Aşıq Kamandar, Mikayıl Azaflı və digərləri yaratmışlar. Onların qoşmaları yaddaşlara həkk olunub. Bu sənətkarların öz mahnıları və qoşmalarına bəstələnmiş mahnılar günü bu gün həyatımızın ayrılmaz hissəsidir.

Yazılı ədəbiyyatımızda da çox yayılan janr kimi qoşma, aşıq sənətinin və aşıq poeziyasının zənginləşməsinə xidmət edir. Nəsimi, Şah İsmayıl Xətayi, Vaqif, Vidadi, Qasım bəy Zakir, Səməd Vurğun, Osman Sarıvəlli, Hüseyn Arif, Tofiq Bayram, Məmməd Araz, Zəlimxan

Yaqub, Hüseyn Kürdoğlu, Məmməd Aslan və başqa şairlərimizin qoşmaları aşıqlarımızın və poeziya xiridarlarının dillər əzbəridir.

**Müxəmməs**

Kökü xəmsə olan müxəmməs ərəb sözü olub, mənası beşlik deməkdir.

İstər klassik ədəbiyyatda, istərsə də aşıq poeziyasında müxəmməslər beş misradan və bir neçə bənddən ibarət olur. Müxəmməslərdə hər misrada 16 heca olur. Saz havasının melodik axarı ilə bağlı olaraq aşıqlar hər misranı iki yerə bölüb oxuyurlar.

Bəzən dəftərə köçürəndə də misraları iki yerə bölürlər. Aşıqlar toy məclislərini, şənlikləri müxəmməslə başa vururlar. Buna duvaqqapma da deyirlər. Müxəmməs aşıq şeiri şəkli ilə əlaqədar "Baş müxəmməs", və "Orta müxəmməs" kimi çox sevilən aşıq havaları meydana gəlmişdir.

Müxəmməsin cığalı müxəmməs, dodaqdəyməz cığalı müxəmməs, qoşayarpaq müxəmməs, qafiyə müxəmməs kimi şəkilləri vardır.

Müxəmməsin ən yaxşı nümunələrini Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Musa Ağkilsəli, Molla Cuma, Xəyyat Mirzə və başqaları yaratmışlar.

Klassik ədəbiyyatda müxəmməsin ən yüksək səviyyəli nümunələrini Nəsimi, Xətayi, Füzuli, Vidadi, Vaqif, Zakir yaratmışlar.

Bilmək maraqlıdır ki, Nəsimi heca vəznində müxəmməs yazan ilk şairimizdir.

Maraqlıdır ki, Divan ədəbiyyatından gələn "Divan" və "Müxəmməs"lər əruz vəznində olduğu halda, onlar da aşıq poeziyasında Molla Cuma və Xəyyat Mirzənin aşağıdakı müxəmməslərindən də göründüyü kimi, heca vəzni üstə köklənib lər:

**Molla Cuma:**

Xocalar, bircə baxın
Görün, necə yar oynayır.
Naz edir, süzür gedir,
Sevdiyim aşkar oynayır.
Al yanaq, büllur buxaq,
Zənəxdanı nar oynayır.
Əl vurun, cərgə durun,
Balaca dilbər oynayır.

**Xəyyat Mirzə:**

Həzərat, bircə baxın,
Gör necə dilbər oynayır.

Gül zərif, dəsti zərif,
Dəstində güllər oynayır.
Nazınan ağ üzünə
Düşübdü tellər oynayır.
Səsinə, həvəsinə
Car çəkib ellər oynayır.

Hər iki müəllifin deyişməsində eyni qafiyə görürük. Bu, deyişmənin tələbidir. Seyfəli Pənahın da eyni rədifli "Oynayır" adlı müxəmməsi vardır.

Müxəmməsin, adətən, hər misrası 16 hecadan ibarət olmalı olduğu halda, burada 7-8 bölgüsü özünü göstərir. Divaninin tələbinə cavab verən bir mənzərə alınır.

Aşıq Ələsgərdən verdiyimiz nümunədən göründüyü kimi, müxəmməsin hər misrası 16 hecadan ibarətdir:

Canımı qurban eylərəm, bir belə tərlan gözələ,
Hal bilən, şirin gülən, dosta mehriban gözələ,
Boy uca, gərdən mina, zülfi pərişan gözələ,
Dolanır mürğü-ruhum, olubdu mehman gözələ,
Xəstəyəm, yalvarıram, həkimi-loğman gözələ.

**Cahannamə**

Ölçü və qəliblərinə görə qoşmalardan fərqlənməyən cahannamələrdə bəndlərin sayı məhdud olmur. Cahanamə, adından da göründüyü kimi, dünyadan, geniş mənada dünyada baş verən hadisələrdən, ölkələrdən, tarixi şəxsiyyətlərdən, şairlərdən, hökmdarlardan, dünyanın keşməkeşlərindən bəhs edir.

Dar mənada isə cahannamədə bir ölkənin, el-obanın, diyarın və mahalın vəsfindən, burada baş verən hadisələrdən, tarixi yerlərdən, görkəmli şəxsiyyətlərdən, onların dəyərləndirilməsindən söhbət gedir.

Cahannamələrin ən yaxşı nümunələrini Xəstə Qasım, Aşıq Valeh, Molla Cuma, Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Mikayıl Azaflı yaratmışlar.

Aşıq Mikayıl Azaflının "Getdi" adlı iki cahannaməsində lap qədimdən başlayaraq bütün tarixi şəxsiyyətlərdən söz açılır. Aşığın "Kəlbəcərdədi", "Qazaxdadı", "Şınıxdadı" cahannamələrində görkəmli şəxsiyyətlərdən, toponimlərdən danışılır. "Tovuz" adlı cahannaməsində isə aşıq Tovuz rayonu ərazisində mövcud olan tarixi yerlərdən, görkəmli şəxsiyyətlərdən söz açır, bütün kəndləri vəsf edir (10, s. 417-432). İnanırıq ki, yüz-iki yüz il sonra toponimləri cahannamələr vasitəsilə üzə çıxararaq

tədqiq edəcəklər. Bu qiymətli əsərlər tarixçilərimiz, dilçilərimiz və coğrafiyaşünaslarımızın tədqiqat obyektinə çevriləcək.

Artıq dediyimiz kimi, cahannaməyə az da olsa yazılı ədəbiyyatımızda da təsadüf edilir. Dar mənada cahannaməyə örnək kimi İlyas Tapdığın "Gədəbəydədi" cahannaməsini göstərmək olar.

Geniş mənada Səməd Vurğunun cahannaməsi diqqəti çəkir. Sevimli şairimizin cahannaməsindən iki bəndi təqdim edirik:

Neron bir şəhəri oda yaxdı ki,
Sönük vicdanına bir ilham gülsün;
Qan rəngli odlara dönüb baxdı ki,
Gücsüz ayaqları yerdən üzülsün.

Nadirin qəlbini kin yedi qat-qat,
Dilindən qoymadı "şöhrət" sözünü,
Tacından, taxtından qorxan o cəllad
Doğma balasının tökdü gözünü (11, s. 205-206).

**Təcnislər**

Aşıq poeziyasının zirvəsi, sınaq meydanı hesab olunan təcnislər geniş yayılmışdır. Bununla belə, deməliyik ki, **təcnis yaratmaq** (fikir verin, təcnis yazmaq demirik) sənətkardan fitri şairlik istedadı, az sözlə dərin məna ifadə etmək, zəngin söz ehtiyatına malik olmaq, dilin incəliklərini bilmək tələb etdiyindən hər aşıq təcnis meydanına baş vura bilmir. Təcnis formaca eyni, məzmunca müxtəlif olan cinas, rədif və qafiyələrdən düzəlir.

Heyrətamiz gücü və zənginliyi ilə seçilən təcnislərin ən gözəl nümunələrini Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər, Molla Cuma, Bozalqanlı Hüseyn, Aşıq Şəmşir, Mikayıl Azaflı kimi ustadlar yaratmışlar.

Xüsusi vurğulamaq istərdim ki, Aşıq Ələsgər təcnis aşıq şeiri şəklini zirvəyə qaldırmışdır. Fitri istedadı sayəsində aşıq yaradıcılığına dodaq samitləri (m, b, p) işlənməyən dodaqdəyməz təcnis və dodaqdəyməz cığalı təcnisləri gətirmişdir:

Deyilənə görə Aşıq Ələsgər Aşıq Alı ilə deyişəndə ustadını aşağıdakı dodaqdəyməz təcnislə bağlamışdır.

Qışda dağlar ağ geyinər, yaz – qara,
Sağ dəstinlə ağ kağıza yaz qara.
Əsər yellər, qəhr eyləyər yaz qara,
Daşar çaylar, gələr daşlar çata-çat.

Aşıq poeziyasının bu şeir şəkli də yazılı ədəbiyyatımızın zənginləşməsinə xidmət etmişdir.

Şairlərimiz gözəl təcnislər yazmışlar. Bu baxımdan Hüseyn Kürdoğlunun "Dağıstan gözəli" təcnisi maraq doğurur:

Xəncər qaşlı bir Dağıstan gözəli,
Atıb getdi, qoydu məni avara
Bu sirrimi gərək deyim şeirlə,
Həm ləzgiyə, həm kumuka, avara.

Dastan eylər bu el-oba dərdimi,
Kamil ovçu belə ov edərdimi?!
Tapdım, dedim qaçmış ova dərdimi,
Dedi, çıx get, öz yerində ov ara (12, s. 103).

Aşıq poeziyasında elə şeir şəkilləri də var ki, onlara yazılı ədəbiyyatda təsadüf edilmir. Buraya **vücudnamələr**, **sicilləmələr**, **ustadnamələr**, **hərbə-zorbalar** daxildir. Bəzi oxucuların, xüsusən də gənclərin bu aşıq şeiri şəkilləri ilə tanış olmadığını nəzərə alaraq, onlar haqqında ətraflı danışmağı münasib bildik.

**Vücudnamələr**

Bu maraqlı aşıq şeiri şəkli qoşma kimi on bir hecalı olur. Lakin məna və məzmunca fərqləndiyinə görə onu qoşma adlandırmaq doğru deyildir.

Vücudnamədə insanın ana bətninə düşdüyü dövrdən qəbrədək: uşaqlıq, gənclik, təhsil illəri, evlənməsi, qocalması və dünyadan köçməsi təsvir olunur.

Vücudnamənin ən yaxşı nümunələrini Abbas Tufarqanlı, Xaltanlı Tağı, Aşıq Valeh, Molla Cuma, Mikayıl Azaflı və başqa aşıqlarımız yaratmışlar.

Nümunə üçün Azaflı Mikayılın 13 bənddən ibarət "Olar" vücudnaməsindən üç bəndi veririk:

Atadan düşəndə ana qoynuna,
Canda təbiətdən can aşkar olar.
Doqquz ay, doqquz gün, doqquz saatda
Dünyaya gəlməyə ixtiyar olar.

El ona ad qoyar, şadlıqnan bəzər,
Bir, iki, üçədək əmər süd, gəzər.
Dörd, beş, altı yaşda müdəm sal nəzər,
Qoyma xəstələnər, ana zar olar.

Səksəndə axtarar ha kömək əli,
Doxsanda azdırsa, deyərlər dəli.
Yüzündə Əzrayıl çəkər çəngəli,
Köçər bu fanidən, tezbazar olar (13, s. 403-404).

**Sicilləmələr**

Sicilləmənin şeir şəkli yoxdur. Sicilləmələr, əsasən, ya divani, ya da müxəmməs şeir şəklinə uyğun gəlir. Professor Vaqif Vəliyev göstərir ki, sicilləmə daha çox ustadnamələrə oxşayır (14, s. 193).

Sicilləmələrin ən yaxşı nümunələrini Abbas Tufarqanlı, Aşıq Ələsgər, Molla Cuma, Aşıq Rəcəb Ehraqlı, Aşıq Soltan, Aşıq Məhəmməd Sadaxlı, Mikayıl Azaflı yaratmışlar.

Nümunə üçün Tufarqanlı Abbasın məşhur "Bəyənməz" sicilləməsindən üç bəndi təqdim edirik:

Ay həzərat, bir zamana gəlibdir,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər da qaynananı bəyənməz.

Adam var ki, getməyəsən işinə,
Adam var ki, dolanasan başına,
Adam var ki, ayran tapmır aşına,
Dindirərsən, yağlı nanı bəyənməz.

Adam var dəstinə verərsən güllər,
Adam var, gözünə çəkəsən millər,
Tufarqanlı Abbas, başına küllər,
Nə günə qalmısan, qarı bəyənməz.

**Ustadnamələr**

Ustadnamə ustad nəsihəti deməkdir. Onlar ta qədim zamanlardan məlumdur. "Kitabi-Dədə Qorqud" dastanında (boylarında) oxuyuruq:

Hanı dediyim bəy ərənlər?
Dünya mənim deyənlər?
Əcəl aldı, yer gizlədi
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya
Son ucu ölümlü dünya.

Ustadnamələrin əsas qayəsi insanları doğru yola səsləməkdir. Onların başlıca mövzusu dünya, zəmanə, fələk və insanlardır. Ustad-

namələrdə əxlaqi və milli dəyərlər qırmızı xətt kimi keçir.

Poetik quruluşa, bölgü sistemi və qafiyələnməyə görə, ustadnamələr qoşmadan fərqlənmir. Tədqiqatçıların qənaətinə görə, ustadnamələr aşıq yaradıcılığında müstəqil janr (şeir şəkli) kimi qoşmalardan yaranmışlar. Aşıq poeziyasında ustadnamələr gəraylı, qoşma, təcnis, müxəmməs, divani və s. aşıq şeiri şəkillərində təqdim olunur.

Aşıqlar məclisi ustadnamələrlə açırlar. Adətən iki-üç ustadnamə oxuyur, sonra əsas mətləbə keçirlər.

Elə bir ustad aşıq olmaz ki, ustadnamələr yazmamış olsun. Qurbani, Tufarqanlı Abbas, Aşıq Alı, Ağ Aşıq, Aşıq Ələsgər, Dərya Məhəmməd, Şakir Hacıyev, Aşıq Soltan, Mikayıl Azaflı və başqaları ustadnamənin insanı haldan-hala salan, düşündürən nümunələrini yaratmışlar. Aşıq Ələsgərdən bir bəndi verməklə kifayətlənirik:

Qafil könül, bu nə yoldu tutubsan,
Sərf edirsən, nə kamaldı dünyada?!
Dövlətə qul olub gül tək açılma
Çox səni tək güllər soldu dünyada.

**Divanilər**

Divanilərin aşıq poeziyasına Divan ədəbiyyatından gəlmə olması barədə fikir sabitləşib. “Divani” də “Müxəmməs” kimi Divan ədəbiyyatında əruz vəznində olduğu halda, aşıq poeziyasında heca vəzni üstə köklənib. Divani üç, beş və daha artıqənddən, hər bənd dörd misradan, hər misra on beş hecadan ibarət olur. Misradaxili bölgüsü 7+8 və ya 8+7 şəkildə olur. Aşıqlarımız klassik ədəbiyyatı bilmədiklərindən, bu şeir şəklini 14-15 və ya 16 hecalı misralar əsasında qururlar.

Bəzi folklorşünaslar divaninin qoşma olduğu qənaətindədirlər. Qoşmanın hər misrası 11 hecadan ibarət olduğu halda, divanidə hər misrada 15 və ya 16 heca olur. Məhz buna və məzmununa görə divanini qoşma hesab etmək doğru deyildir.

Bizə qalırsa, Divanilər Aşıq poeziyasına klassik ədəbiyyatdan, daha doğrusu, “qıfılbənd bağlama”, “Əlif lam”, “Tərs əlifba” kimi Nəsimidən gəlmədir. Şairin “Kəpənək” (yapıncı) adlı divanisi deyilənlərə əyanilik gətirir:

Çəkəli əyninə, bu sikkeyi mərcan kəpənək,
Biləcək qıldı mənim dərdimə dərman kəpənək.
Kəpənək geymişəm, əndişədən azad oluban
Üşümək müşkülünü eylədi asan kəpənək.

Məncə, Nəsimi, divaniləri, eləcə də müxəmməsləri heca vəznində

yazan ilk şairimizdir.

Divaninin ən gözəl nümunələrini Xəstə Qasım, Aşıq Musa Ağkilsəli, Aşıq Ələsgər, Molla Cuma, Aşıq Teymur Qaraçöp, Aşıq İskəndər Ağbabalı, Aşıq Murad Çobanoğlu, Mikayıl Azaflı və digərləri yaratmışlar.

Nümunə üçün Aşıq Teymur Qaraçöpün divanisindən bir bənd verməklə kifayətlənirik:

Bivəfaya uyma, könül, vəfadar əldən gedər,
Xain olma sən dostuna, etibar əldən gedər.
El içində həyalı gəz, təmiz saxla adını
Aldanma dünya malına, namus, ar əldən gedər.

Maraqlıdır ki, aşıq poeziyasında heca vəzni üstə köklənən divanilər yazılı ədəbiyyatda da özünü göstərir. Tanınmış şairimiz Musa Ələkbərlinin Vətən müharibəsində həlak olan igid oğullarımıza ünvanladığı "Zəfər ünvanlı şəhidim" divanisi deyilənə əyani misaldır:

Dilimizdə ən yaralı
Bayatısan, ağısan.
Anaların göz yaşısan,
Sinələrin dağısan.
Ayın bulud örtüyüsən,
Günün qürub çağısan. və s.

Ustad aşıqlarda olduğu kimi, şair hər misranı iki yerə bölüb, 1-ci misra başdan-ayağa 8 hecalı, 2-ci misra 7 hecalıdır.

### Hərbə-zorbalar

Keçmişdə ustad aşıqlar arasında "bağlama deyişmələr" baş verirdi. Bu cür deyişmələrdə son məqsəd aşıqların bir-birini bağlayaraq sazını əlindən almaq olduğuna görə, onlar "Bağlama deyişmə" adlanırdı. Bağlama deyişmələr aşıq poeziyasında yeni poetik imkanların, sözün yeni məna qatlarının üzə çıxmasına meydan yaratmışdır.

Deyişmələr aşıqların istedadını, biliyini, bədahətən şeir demə qabiliyyətini, kimin nəyə qadir olduğunu nümayiş etdirmək, ad-san qazanmaq baxımından əhəmiyyətli olmuş, aşıqları yeni sənət axtarışlarına sövq etmişdir. Deyişmə zamanı şeir şəkillərinin əksəriyyətindən, xüsusən də hərbə-zorba, bağlama, qıfılbənd, ustadnamə, təcnisdən istifadə edildiyindən ustalıq iddiasında olan aşıq bütün şeir şəkillərindən və aşıq havalarından xəbərdar olmalı idi. Bağlama deyişmələr dörd mərhələdən ibarət olurdu. O mərhələlərdən biri də "hərbə-zorba" mərhələsi idi. Aşıq Ağacanla Bozalqanlı Hüseynin "Hərbə-zorba"sından verdiyimiz nümunənin oxucularda təsəvvür yaradacağına inanırıq:

Aşıq Ağacan:

Demədimmi çıxma dağlar başına,
Tufan olur, boran-qar olur onda.
Əl uzatma gözün görən yuvaya
Gürzə olur, şahmar, mar olur onda.

Hüseyn Bozalqanlı:

İstəmirəm, sənə dəyəm, dolaşam,
Bağırsam qulağın kar olar onda.
Əlindən alaram telli sazını
Gen dünya başına dar olar onda.

Deyişmələr hərbə-zorba ilə başlayır və qarşıdakı aşıq ustadnamə, təcnis, qıfılbənd, divani kimi aşıq şeir şəklinin ən çətin formalarından istifadə ilə sınağa çəkilir.

**Qıfılbəndlər**

Qıfılbəndlərin ilk nümunələrinə yazılı ədəbiyyada – Nəsimi yaradıcılığında rast gəlirik. Yuxarıda dediyimiz kimi şairin yaradıcılığı şifahi xalq ədəbiyyatı və aşıq poeziyası ilə qoşa inkişaf etmiş, aşıq yaradıcılığına yeni janrlar gətirmiş, formaca onun inkişafına təkan vermişdir. Bu təsiri şairin qıfılbənd bağlamalarında bariz şəkildə görürük:

Niyə dörd oldu suya irmağın?
Səkiz oldu qapısı üçmağın?
Tuba ağacının nədir yemişi?
Həq onu ər yaratdı, yoxsa dişi?

Şairin "Divani" üstündə yazılmış bağlamaları da çoxdur. "Nədir" bağlamasından verdiyimiz misralar onun bağlamaları haqqında dolğun təsəvvür yaradır:

Doquz ata, yedi ana, dörd dayədən ver xəbər
Bu çəharü pəncü şeşin, saqi, binası nədir?
Yedi yer-göy, yedi dərya, yedi ayət, yedi xət,
Yedi müshəf, Musaya, çün yedi bəyzası nədir?

Ordubadlı Kərim (XVII əsr) və Aşıq Ələsgərin "Yeddidi" qıfılbəndləri Nəsiminin bağlamalarına çox bənzəyir. Bu nümunələrdə Nəsimi şeirinin poetik intonasiyası, janr yaddaşı dərhal duyulur.

Ordubadlı Kərimin qıfılbəndindən:

Məndən salam olsun Məlik Paşaya,
Nə şəcərdi, onun budağı yeddi?
Yüz iyirmi dörd min şahın içində,
Yanıb şölə çəkər çırağı yeddi?

Nə çeşmədi doymaq olmaz suyundan?
Baş birdi, başdan ayağa yeddi?

Aşıq Ələsgərin qıfılbəndindən:

Məğrurluq eləyib ustadam deyən,
O hansı ağacdı, tağı yeddidi?
O ağacda bir quş yuva salıbdı,
Çarpaz sinəsinin dağı yeddidi?

Nəsiminin qıfılbənd bağlamaları, demək olar ki, bütün görkəmli aşıqlarımıza təsir etmişdir. Biz görkəmli aşıqlar deyəndə aşıq şeiri şəkillərinin ecazkar nümunələrini yaradan, dastan qoşan, bədahətən şeir demək qabiliyyətini nümayiş etdirən, aşıq şeiri şəkillərindən yerli-yerində istifadə edə bilən, bütün aşıq havalarından xəbərdar olan, özü aşıq havaları yaradan "Dədə" aşıqları nəzərdə tuturuq. Hər aşıq "qıfılbənd bağlama" yarada bilməz. Qıfılbəndi yaratmaq və dərk etmək üçün gərəkdir ki, "Şəriət" və "Təriqət" elmindən xəbərdar olasan.

Ordubadlı Kərim (XVII əsr), Xəstə Qasım (XVIII əsr) Azərbaycanca yazıb-yaradan Ləzgi Əhməd (XVIII), Meşkinli Məhəmməd (XIX əsr), Şəmkirli Aşıq Hüseyn (XIX əsr), Aşıq Ələsgər, Molla Cuma, Hüseyn Bozalqanlı hər iki elm sahəsini mükəmməl bilən qıfılbənd ustaları kimi məşhur olmuşlar.

Ləzgi Əhmədlə Xəstə Qasımın dillər əzbəri olan qıfılbənd deyişmələrindən iki bəndi məmnuniyyətlə oxuculara təqdim edirəm:

Ləzgi Əhməd:

O nədir ki, dayanıbdır dayaqsız?
O nədir ki, boyanıbdır boyaqsız?
O nədir ki, doğar əlsiz-ayaqsız?
Üç ay keçər ayağı var, əli var?

Xəstə Qasım:

Göy bir çadır, dayanıbdır dayaqsız.
Ayla-Gündü, boyanıbdır boyaqsız.
Qurbağadır, doğar əlsiz-ayaqsız.
Üç ay keçər, ayağı var, əli var.

Bütün yaradıcılığı orijinal və təkrarsız olan Cəfər Cabbarlı aşıq poeziyasından istifadə ilə qıfılbənd yaratmışdır. Professor Vaqif Vəliyev həmin qıfılbəndi "İnqilab və mədəniyyət" jurnalında (1936, №1) üzə çıxarmış və kitabında vermişdir (15, s. 252). Doqquz bənddən ibarət olan "O nədir?" qıfılbəndindən üç bəndini təqdim edirik:

Səndən xəbər alım haq bilən aşıq,
O nədir ki, sözü vardır, özü yox?

Cavab qaytar istəyinə müvafiq,
O nədir ki, özü vardır, sözü yox?

O nədir ki, Allahına pul deyir?
O nədir ki, ağasına qul deyir?
O nədir ki, olmaz şeyə ol deyir?
O nədir ki, əyrisi var, düzü yox?

O nədir ki, dəftəri çox, işi az?
O nədir ki, "sabah gəl"i qurtarmaz?
O nədir ki, qulaq verməz yüz min yaz?
O nədir ki, qışda getsən buzu yox?

Mənə belə gəlir ki, bu qıfılbəndin təhlilə ehtiyacı yoxdur. Fitri istedad sahibi Cəfər Cabbarlı qıfılbəndin mənasını misralarda özü açıqlamışdır.

**"Əlif-lam" və "Tərs əlifba"**

Nəsiminin aşıq poeziyasına gətirdiyi yeniliklərdən biri də "Əlif-lam" və "Tərs əlifba"dır. "Əlif-lam"da hər misranın ilk kəlməsinin ilk hərfi ərəb əlifbasının sıra ilə düzülüşü əsasında verilir. Məsələn:

Əlif – Əla qamətin hər kim görür bican olur.
Bey – Bəşarət buldu hər kim dilbəri sultan olur.
Tey – Təmənna vəslini etdim, niyazım uşbudur,
Sey – Səna etməklik üçün uş canım qurban olur.

"Tərs əlifba"da isə şeir ərəb əlifbasının son hərfi ilə başlayır və ilk hərfə doğru gedir. Bununla da "Tərs əlifba" şeir şəkli alınır (16, s. 68).

"Əlif-lam"ın diqqətəlayiq nümunələrini Aşıq Ələsgər, Molla Cuma, Növrəs İman, el şairi Musa yaratmışlar.

Bu aşıqlar arasında Dədə Ələsgər xüsusilə fərqlənirdi. Aşıq Ələsgər nəinki "Şəriət" və "Təriqət" elmlərini mükəmməl bilmiş, eləcə də klassik ədəbiyyatımızdan xəbərdar olmuşdur.

Nəsiminin "Əlif-lam" və "Tərs əlifba" şeir şəkillərini aşıq yaradıcılığına ilk olaraq Aşıq Ələsgər gətirmişdir.

Həyatı boyu yaradıcılıq axtarışlarında olan, aşıq poeziyasının bütün şəkillərində qələmini sınayan, uğur qazanan, "Şəriət" və "Təriqət" elmini mükəmməl bilən, **qoşma** və **divani** üstündə "Əlif-lam" yaradan Aşıq Ələsgər **gəraylı** üstündə də 36 misralıq "Əlif-lam"ın dini baxımdan gözəl nümunəsini yaratmışdır.

İbtidakı "Əlif" – Allah.
Bey – Birliyə dəlalətdir.

Tey – təkdir, vahidi yekta
Arif bu elmə bələddir və s.

Molla Cumadan başqa bütün aşıqların və el şairlərinin “Əlif-lam”ları dini mövzudadır və şübhəsiz, şəriət və ilahiyyat elminin qavranılmasına xidmət edir.

Molla Cumanın “Əlif-lam” və “Tərs əlifba”sını fərqləndirən cəhət yalnız eşq, məhəbbət, sevgi ilə bağlı olmasındadır. Bununla da Molla Cuma Nəsimi ruhuna yaxınlaşır. Aşığın gəraylı üstündə yazılan “Qız” adlı “Əlif-lam”ı deyilənlərə dayaq olur:

“Əlif” – əlin ver əlimə
Gedək bizim ellərə, qız!
“Bey” – baxıb güvənirəm,
Üzündəki tellərə qız!
“Cim” – camalın oxşayır,
Tez açılan güllərə, qız!
“Hey” – hərəm sonasısan,
Uçub qondun göllərə, qız!
“Lam” – Leylidən dərs götürüb, –
Döndərdin Məcnunə məni və s.

Ənənəvi “Əlif-lam”da, adətən, ərəbcə hərf verilir, sonra isə mənası açılır və s.

“Əlif” – eylə bir mərhəmət,
Mətləbimə çatım, gedim.
“Bey” – bağrıma basım səni,
Canım canə qatım, gedim.
“Tey” – tədarük gör axşama,
Bircə çimir yatım, gedim.

Molla Cumanın bir çox “Əlif-lam”larında misradan hasil olan fikrə əsasən, hərflərin nə məna verdiyi açıqlanır:

Dost da öz dostundan olurmu bezar,
Yatmıram gecələr, “fi”, “kafi”, “rey”dən

Açması “**fikirdən**” deməkdir.

Konkret poetik nümunələr göstərir ki, “Əlif-lam”, “Tərs əlifba” və müxəmməs aşıq şeiri şəklinin ən mükəmməl nümunələrini Molla Cuma yaratmış və aşıq poeziyasını xeyli dərəcədə zənginləşdirmişdir.

**“Əvvəl-axır”**

Aşıq yaradıcılığında qoşma üstündə köklənən şeir şəkli “Əvvəl-axır”a az da olsa təsadüf edilir. “Əvvəl-axır”da bütün misralar hansı

hərflə başlayırsa, həmin hərflə bitir. Buna görə də "Əvvəl-axır" adlanır.

"Əvvəl-axır"ın ən gözəl nümunələrini Molla Cuma və Mikayıl Azaflı yaratmışdır:

*Zaval yoxdur, sənə ördək, sənə qaz,*
*Zaman keçir, yaz hovzunda yüz ha yüz.*
*Zənbur avazına dönübdür avaz,*
*Ziyanım var, çək boğazım yüz ha yüz.*

Maraqlıdır ki, Molla Cuma "Əlif-lam" şeir şəklində də "Əvvəl-axır" yaratmışdır:

Bülbül sayaq cuşə gəldim "yey"i "əlif", "zey"in görüb,
Başladım göftar deməyə "yey"ü "vav"ı "rey"in görüb.
Bədirlənmiş camalına qalmışam mail olub,
Bildim candan xeyir yoxdur "mim"ü "əlif", "zey"i görüb.
(açması: yaz, yüz (üz), naz)

**Dedim-Dedi**

Bu şeir şəklinə aşıq poeziyasında nisbətən az təsadüf edilir. Bunu aşıqların az çalıb-oxuması ilə əlaqələndirmək olar. Məhəbbətdən bəhs edən bu aşıq şeiri şəklinin ən yaxşı nümunələrini Qurbani, təxminən səkkiz ilə yaxın Qafqazda yaşamış görkəmli Krım tatar aşığı Ömər (1621-1707), Ərzurumlu Aşıq Əmrah, Aşıq Saleh, Mikayıl Azaflı, Nəbi Əfəndi Zabit, el şairi Nəbi, Ürfan Əli (Əli Quliyev) yaratmışlar.

Aşıqşünas alimlərimiz Məhərrəm Qasımlı və Mahmud Allahmanlı qeyd edirlər ki, bu şeir şəklinə aşıqlar "güllü qafiyə" – deyirlər. "Qafiyə" XX yüzilliyə qədər Azərbaycan folklor arealında hazırkı "qoşma" anlamını ifadə etmişdir. Bu mənada "güllü qafiyə" – "güllü qoşma" deməkdir (17, s. 123). "Güllü qafiyə" saz havası üstündə oxuyurlar.

Aşıqlarda "Dedim-Dedi"lərdən qurulan "güllü qafiyə" misradaxili və misraönü olur.

Misradaxili "Dedim-Dedi"yə misal:

Dedim: Gülşən nədi: – Dedi: Bağımdı.
Dedim: Səfalıdı? – Söylədi: Yox-yox.
Dedim: İşrət nədi? – Dedi: Çağımdı.
Dedim: Gəlsən sürək? – Söylədi: Yox-yox.

**(Ərzurumlu Aşıq Əmrah)**

Adını çəkdiyimiz bütün aşıqlarda misraönü "güllü qafiyə" işlənib. "Dedim-Dedi"lərdən qurulan "güllü qafiyə"lərə nümunələr:

Dedim: Dilbər, getmə bir dəm danışaq.
Dedi: Sözün yoxdur, bəhanədir bu.
Dedim: Bir nəzər qıl aşiq halına.
Dedi: Əcəb dəli, divanədir bu.

**(Qurbani)**

Dedim: Dilbər yanaqların qızarmış.
Dedi: Çiçək taxdım, gül yarasıdır.
Dedim: Danə-danə olmuş xalların.
Dedi: Zülfüm dəydi, tel yarasıdır (18, s. 109).

**(Aşıq Ömər)**

Yazılı ədəbiyyatda "Dedim, Dedi" aşıq şeiri şəklinə Xalq şairi Hüseyn Arif yaradıcılığında rast gəlinir. Şairin xalq ruhunda yazılan "Dedim, Dedi"sinə musiqi bəstələnib, mahnı indi də sevilir.

Dedim: Telin nə gözəldir!
– Yox, yox, ona dəymə! – dedi.
Dedim: Nə vaxt gəlim sizə?
Qapımızı döymə – dedi.
Dedim: Nədir bu işvə-naz?
Dedi: Yeri, şerini yaz!
Dedim: Qövr eyləyir yaram.
Dedi: Sənlə yoxdu aram.
Dedim: Axı sənətkaram.
Çox özünü öymə – dedi.

Maraqlıdır ki, aşıq poeziyasında "Dedim-Dedi"lər qoşma üstündə olduğu halda, Hüseyn Arifdə gəraylı üstündədir. Bundan əlavə, bu aşıq şeiri şəkli misradaxili və misraönü quruluşunda olduğu halda, Hüseyn Arifdə güllü qafiyəyə misra sonunda təsadüf edilir (19, s. 109).

**Deyişmələr**

Deyişmələr müxtəlifdir. Bağlama qıfılbənd deyişmələri çıxmaqla, onların bir çoxu hal-əhval tutmaq, zəmanədən, insanlardan, fələkdən, dünyanın keşməkeşlərindən şikayət və s. məqamlarda işlənir. Deyişmələrdə hal-əhval tutmaq, qarşısındakını imtaha çəkmək üstünlük təşkil edir.

Mikayıl Azaflı ilə Xalq şairi Zəlimxan Yaqub arasında üç deyişmə baş tutub. "Yavaş yeri" deyişməsindən nümunə üçün iki bəndi təqdim edirik:

Zəlimxan Yaqub:

Ötməsin, aylara, illərə yalvar,
Gəzməyə nə qədər çiçəkli yal var.
Laləyə bənzəmə, bağrında xal var.
Düşməsin qəlbinə xal, yavaş yeri.

Mikayıl Azaflı:

Hər görünən dağdan səfa gözləmə,
Hər həkim əlindən şəfa gözləmə,
Hər yetən gözəldən vəfa gözləmə,
Sayma hər şirini bal, yavaş yeri (20, s. 600).

Təəssüflər olsun ki, aşıq poeziyasının inkişafına müsbət təsir edən "Deyişmələr" hələlik lazımınca tədqiq olunmamışdır.

**Şeir-məktublar**

Şeirlə məktublaşmalar keçmişdə də, zəmanəmizdə də aşıqlar və el şairləri arasında dəbdə olub. Buradakı mövzu rəngarəngliyi adamı heyran edir.

Aşıq yaradıcılığında sabitləşən şeirlə məktublaşma və deyişmələrə elə-belə məşğuliyyət, hobbi kimi baxmaq doğru olmazdı. Onların hər birinin arxasında müəyyən zaman kəsiyində baş verən hadisələr, insanlar, zamana, tarixə, dövrə münasibət durur.

Görün kəlbəcərli el şairi Dastançı Əli (Əli Qurbanov) şeir-məktubla Azaflı Mikayılı oğlunun toyuna necə dəvət edir. Şeirdən iki bəndi təqdim edirik:

Ay Azaflı, xeyir olsun həmişə,
Daha ömrün boyu şərdən uzaq ol.
Zəhməti qəbul et, istəyəninlə
Oğlumun toyuna buyur, qonaq ol.

Dostun zəhmətini çəkmək, bu haqdı,
Bəzən çatışmayır insanın vaxtı.
Əlidən çağırıb yada salmaqdı,
Gəlməsən də sağ ol, gəlsən də sağ ol.

Bu şeir-məktubda təkcə bir ailə üçün əlamətdar olan hadisədən söhbət getmir. "Daha ömrün boyu şərdən uzaq ol" Azaflı Mikayılın başına gələn bəlaya işarədir. İstedadlı, ilahi vergili olduğuna görə ötkəm olan, qorxu bilməyən Mikayıl Azaflı bir xudmani məclisdə Tovuz rayonunun Qaraxanlı kəndinin el şairi Seyid Bəndənin Sovet dönəmində nəinki məclisdə oxunması, hətta dilə gətirilməsi belə təhlükəli olan:

Əlimizdə zorba çomaq,
Başımızda motal papaq

Ağ şalvarda qara yamaq
Kommunizmə gedirik biz (21, s. 6)

misraları ilə başlanan şeirini oxuduğuna görə sənətkar “Oğurluqda və evində silah saxlamaqda təqsirli bilinib” damğası ilə dörd il (1961-1964) azadlıqdan məhrum edilmişdi. Dastançı Əli buna işarə edir.

Aşıq Şəmşirin Mikayıl Azaflıya ünvanladığı “Olanda gəl” şeir-məktubu da çox mətləblərdən söz açır. Aşıq Şəmşirin şairlik istedadının səviyyəsini göstərən şeir-məktubdan iki bəndi veririk:

Çəmənə, çiçəyə bəzənir hər yan,
Sən bizim dağlara yaz olanda gəl.
Lalə, nərgiz açılanda ərmağan
Boran bu yerlərdə az olanda gəl.

Xəstəlik əlində belə çaşbaşam,
Axı bacarmıram, sellənib daşam.
Müddətdi yatıram, hələ naxoşam,
Şəmşirin əlində saz olanda gəl.

Bu şeir-məktubda, hər şeydən əvvəl, diqqəti çəkən təbiət təsviridir. Sanki istedadlı rəssamın fırçasından çıxan ecazkar bir tablodur.

Şeir-məktublar təkcə hal-əhval tutmaq, nəyisə xəbər vermək, sevincini bölmək və s. ifadə etmək üçün deyil, eyni zamanda qəm-qüssə, kədəri bildirmək məqamında güclü olur.

1954-cü ildə görkəmli Aşıq Mirzə Bayramov dünyasını dəyişəndə el şairi Bimar İsgəndər Aşıq Qədirə tovuzluların kədərinə şərik olduğunu göstərən “Deyirlər” adlı şeir-məktub ünvanlamışdı:

Yaz görüm, ay Qədir, mənə bir xəbər,
Mirzənin karvanı köçdü – deyirlər.
Əgər olmasaydı Əsəd ölməmiş,
Hüseyn saralmamış, Nəcəf solmamış,
Köhnə yaralarım bir yan olmamış,
Yeni yaralarım deşdi – deyirlər.

Bu şeir-məktub indi də aşıqların dillər əzbəridir. Şeir-məktubda təkcə Aşıq Mirzə deyil, başqa görkəmli aşıqlar da yad edildiyinə görə aşıqlar və saz-söz pərəstişkarları tərəfindən yüksək qiymətləndirilir.

Təəssüf ki, şeirlə məktublaşmalar aşıq poeziyasında xüsusi yer tutsa da, geniş yayılsa da, hələlik əsaslı tədqiqata cəlb olunmayıb.

Aşıq poeziyasında cinaslı bayatılar, mərsiyələr (ağılar), ithaflar, həcvlər, nəzirələr də qədərincədir. Yazılı ədəbiyyatda da geniş yayılan bu şeir şəkilləri barədə ayrıca yazmağa ehtiyac duymadıq.

Aşıq şeir şəkillərini böyük ustad aşıqlarımız yaratmışlar və bu proses zəmanəmizdə də davam edir.

AMEA-nın müxbir üzvü, professor Azad Nəbiyev aşıq yaradıcılığı prosesinin qədimdən zəncirvari şəkildə törəyib artdığını və silsilə müxtəlifliklər yaratdığını görərək doğru qənaətə gəlmişdir. Görkəmli folklorşünas alimimiz yazır ki, bütün aşıq şeir şəkilləri pərdə ifa səciyyəlidir. İfaçılar həmin havalara öz mizanlarını vurmağa cəhd etməklə yeni forma, şəkil və hava yaradırlar. Ona görə də sonsuzluğa aparan aşıq şeiri şəkillərinin repertuardakı (və yazıdakı) dəstinin intə-hasızlığını müəyyənləşdirmək asan deyildir (22, s. 256).

Həqiqətən də belədir. Müasirimiz Azaflı Mikayılın yaratdığı "Azaflı dübeyti", "Azaflı himni", "Azaflı dünyası", "Azaflı gözəlləməsi", "Azaflı müxəmməsi", "Azaflı gəraylısı", "Azaflı dağları", "Azaflı bəhri" və sairə kimi 12-dən artıq dillər əzbəri olan, aşığa əbədilik gətirən aşıq havaları deyilənlərə dayaq olur.

Klassik ədəbiyyatımızın görkəmli tədqiqatçısı professor Xəlif Yusiflinin orta əsrlər Azərbaycan şeirində janrlar və bədii ifadə vasitələri haqqında gəldiyi qənaətləri də yuxarıda deyilənlərlə səsləşir: "Bizə görə, bütün janrların və bədii vasitələrin meydana gəlməsi məna və məzmun tələbi ilə insan təfəkküründə gedən axtarış və proseslərin nəticəsidir... Əlbəttə, bu ədəbi, fikri axtarışlar bu gün də davam edir" (23, s. 5-6).

Aşıq poeziyasının şəkilləri poetik quruluşu, məzmun çalarları, bədii təsvir zənginliyi etibarı ilə böyük tarixi inkişaf mərhələlərindən keçmişdir. Xüsusən, yazılı ədəbiyyatla qarşılıqlı zənginləşmə prosesi aşıq poeziyası şəkillərinin hər birində dərhal hiss olunur. Folklor janrları ilə klassik irsin poetik keçidləri olduğu kimi, şifahi xalq yaradıcılığının aşıq poeziyası ilə də qovuşan cəhətləri istənilən qədərdir. Aşıq poeziyasını folklor hadisəsi hesab etmək müəllifi bəlli bir ədəbi irsdən, konkret ünvandan məhrum etməkdir.

Milli bədii yaddaşdan süzülüb gələn ifadə sistemi yazılı ədəbiyyat hesab edilən irsimizə də buradan yol açılmışdır. Burada calaq yoxdur. Barlı-bəhrəli, bütöv poetik sənət tarixi mövcuddur – desək, həqiqəti ifadə etmiş olarıq.

Aşıq poeziyasına, aşıq şeir şəkillərinə həsr etdiyimiz tədqiqat deyilənləri təsdiqləyir.

## QAYNAQLAR


1. Aşıq ədəbiyyatı antologiyası. 3 cilddə. Bakı, 2017
2. Mikayıl Azaflı. Qoca Azaflıyam. Bakı, "Nurlan", 2008, 760 s.

3. Aşıq ədəbiyyatı antologiyası. I cild. Aşıq poeziyası. Bakı, 2017, s.7
4. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. II hissə, Bakı, 2006, s. 240
5. Sabir Rüstəmxanlı. Xalqın söz silahı. Bakı, 2019, s. 221
6. Paşa Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, "Maarif", 1992, s. 229
7. Muxtar Kazımov. Folklor həm keçmiş, həm də bu gündür. Bakı, "Elm və təhsil", 2014, s. 55
8. Qəzənfər Paşayev. Nəsimi. Edamdan sonrakı həyat. Bakı, "Şərq-Qərb", 2017, s. 63-78
9. Məhərrəm Qasımlı. Folklor və ədəbiyyat araşdırmaları. Bakı, "Elm və təhsil", 2017, s. 474
10. Mikayıl Azaflı. Qoca Azaflıyam. Bakı, "Nurlan", 2008, s. 417-432
11. Səməd Vurğun. Əsərləri. I cild. Şeirləri. Bakı, 1960, Elmlər Akademiyasının nəşriyyatı, s. 205-206
12. Qəzənfər Paşayev. Hüseyn Kürdoğlunun poetik dünyası. Bakı, "Sabah", 2017, s. 103
13. Mikayıl Azaflı. Qoca Azaflıyam. Bakı, "Nurlan", 2008, s. 403-404
14. Vaqif Vəliyev. Azərbaycan folkloru. Bakı, "Maarif", 1985, s. 193
15. Vaqif Vəliyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, "ADU" nəşriyyatı, 1970, s. 252
16. Qəzənfər Paşayev. Nəsimi. Edamdan sonrakı həyat. Bakı, "Şərq-Qərb", 2019, s. 68
17. Məhərrəm Qasımlı, Mahmud Allahmanlı. Aşıq şeirinin poetik biçimləri və çeşidləri. Bakı, "Elm və təhsil", 2018, s. 123
18. Aşıq ədəbiyyatı antologiyası. I cild. Aşıq poeziyası. Bakı, 2017, s. 109
19. Hüseyn Arif. I cild. Şeirlər. Bakı, 2014, s.109.
20. Azaflı Mikayıl. Qoca Azaflıyam. Bakı, "Nurlan", 2008, s. 600
21. Azaflı Mikayıl. Qoca Azaflıyam. Bakı, "Nurlan", 2008, s. 6
22. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. II hissə, Bakı, 2006, s. 256
23. Xəlil Yusifli. Orta əsrlər Azərbaycan şeirində janrlar və bədii ifadə vasitələri. Bakı, "Elm və təhsil", 2017, s. 5-6

# AŞIQ SƏNƏTİ KONTEKSTİNDƏ ƏLƏSGƏR QOLU (MƏKTƏBİ)

# ALASGAR BRANCH (SCHOOL) IN THE CONTEXT OF ASHUG ART

# АЛЕСКАРСКАЯ ВЕТВЬ (ШКОЛА) В КОНТЕКСТЕ АШУГСКОГО ИСКУССТВА

**Füzuli BAYAT**
*Filologiya elmləri doktoru, professor*
*AMEA Folklor İnstitutu*
*fuzulibayat58@gmail.com*

**Summary**

Although the concepts of environment and school have a special place in the study of the art of ashug, both concepts have no scientific value in terms of art, performance style, performance, master-student tradition, as they are brought to the level of historical-geographical, economic-political and administrative division. Gathering ashugs living in a wide area under the name of environment or school leads to ignoring the diachronic and synchronous features of the art of ashug. The most correct scientific way of studying ashug literature is the concept of ashug branch formed on the tradition of master ashugs. The branch of an ashug is actually created by the followers of a master ashug by placing that ashug in the center of art. It can also be called an ashug school. However, in Azerbaijani folklore, it would be correct to say that the school is an ashug branch, as it means more geographical than the meaning of the road.

Since we do not have enough information about the historically formed branches of ashug, it is possible to speak about the branches of Ashug Alasgar, Ashig Shenlik, Ashig Huseyn Bozalganli, which were formed in the middle of the XIX century. Ashig Alasgar branch means not only in Goyja region, but also in Borchali, Ganjabasar, Kalbajar, Nakhchivan, Daralayaz and others. Ashugs who live and create are also considered. Continuing the path of Ashig Alasgar, his disciple, his disciple's disciple and so on. In short, the focus is on the creativity of artists linked to the chain of tradition. The branch associated with the name of the master ashug includes the style of utterance from the instruments of saz, the peculiarity of the performance from the behavior, the forms of art from the narration of the epic to the images of the poem, from the language to the style.

**Key words:** ashug branches, tradition, performance style, master-student relationship, craftsmanship

**Резюме**

Хотя концепции окружающей среды и школы занимают особое место в изучении искусства ашуга, обе концепции не имеют научной ценности с точки зрения искусства, стиля исполнения, перформанса, традиции магистра и ученика, поскольку они доведены до уровня исторического-географическое, экономико-политическое и административное деление. Собирание ашугов, проживающих на обширной территории, под названием среды или школы приводит к игнорированию диахронических и синхронных особенностей искусства ашугов. Самым правильным научным способом изучения ашугской литературы является концепция цели, сформированная на основе традиции мастеров-ашугов. Фактически, ветвях ашугов создается последователями мастера ашуга, помещая этот ашуг в центр искусства. Еще ее можно назвать ашугской школой. Однако в азербайджанском фольклоре правильнее было бы сказать, что школа является ашугской ветвью, так как это означает более географическое, чем значение ашугской ветвью.

Поскольку у нас недостаточно сведений об исторически сложившихся ветвях ашугов, можно говорить о ветвях Ашуг Алескер, Ашиг Шенлик, Ашыг Гусейн Бозалганлы, которые образовались в середине XIX века. Когда мы говорим Ашыг Алескарский филиал, мы имеем в виду не только Гойджинский район, но и Борчалы, Гянджабасар, Кельбаджар, Нахчыван, Даралайаз и другие живущие и творящие ашуги. Продолжая путь Ашыга Алескера, своего ученика, ученика ученика и так далее. Короче говоря, акцент делается на творчестве художников, связанных цепью традиций. В связи с именем мастера ашуга мы можем включить различные музыкальные инструменты, идиомы, поведение, исполнение, рассказывание историй, поэзию, язык и стиль.

**Ключевые слова:** ашугские ветви, традиция, стиль исполнения, отношения магистра и ученика, мастерство.

## 1. Giriş

Uzun müddətdir ki, folklor elmində aşıq mühiti və ya aşıq məktəbləri anlayışı işlədilir ki, bu coğrafi məfhumla nəyin nəzərdə tutulduğunu izah etməyə ehtiyac yoxdur. Aşıq sənətinin öyrənilməsində mühit və məktəbin özünəməxsus yeri olsa da, bu ad altında tarixi-coğrafi, iqtisadi-siyasi və inzibati bölgü nəzərdə tutulduğundan sənətkarlıq, ifa tərzi, icra özəlliyi, usta-şagird ənənəsi baxımından heç bir elmi dəyərə malik deyildir. Aşıq sənətini bu anlayışlarla öyrənmək həm də iki yanlışı bərabərində gətirir:

**Birincisi** və ən bəsiti, aşıq coğrafiyasının sərhədlərinin dəqiq çizilməsi imkansızdır, yəni bu anlayış şərtilik üzərində qurulub.

**İkincisi,** coğrafi bölgüdə yer alan aşıqların ənənə baxımından o bölgüdən kənarda qalan digər sənətkarın/sənətkarların ya birbaşa şagirdi və ya şagirdinin şadirdi olması, ya da bölgəyə daxil olmayan başqa bir usta sənətkarın ənənəsi üzərində yetişməsidir ki, "mühitşünaslar" və ya "məktəbşünaslar" bu suala cavab verməkdən çəkinirlər və ya belə bir sualın veriləcəyini gözləmirlər.

Bir çox kompleks yaradıcılıq aktlarını – fərdi yaradıcılıq, yazılı ədəbiyyat nümunəsi kimi müəllifli əsər, saz, musiqi və xanəndə kimi oxumaq bacarığı, ənənə daxilində yetişməsi və s. – özündə birləşdirən aşıq sənətini coğrafi bir məfhuma həbs etmək aşıq ədəbiyyatının öyrənilməsini çətinləşdirir.

Hər halda aşıq sənətini və bu sənətin ötürülmə mexanizmasını coğrafi anlamlı mühit və ya məktəb çərçivəsindən çıxarıb usta bir aşığın adı ilə bağlamaq doğru olacaqdır. Əslində həm mühit, həm də məktəb coğrafi anlayışdan ziyadə tekstoloji anlamlıdır. **Mühiti kontekst, məktəbi mətn terminləri ilə işarətləsək o zaman Aşıq Hasan, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı məktəbi və ya aşıq qolu demək mümkün olacaqdır.**

Ustad aşığın ənənəsi üzərində formalaşan aşıq qolu terminini ilk dəfə Əflatun Cəm Güney bir məqaləsində işlətmişdir (Güney 1953). Bu, yuxarıda da dediyimiz kimi, ustad bir aşığın adı ilə bağlı məktəb mənasındadır. Qol anlayışı bizə Koroğlu dastanından məlumdur və dastanın qollardan ibarət olması Koroğlu mərkəzli epik yaradıcılığın mövcudluğu deməkdir, çünki qolların mövzusu müxtəlif olsa da, semantik mərkəz Koroğlu üzərində cərəyan edir. O zaman aşıq qolu və ya aşıq məktəbi bir-birinin eyni olan iki məfhumdur. "Məktəb daha çox hər hansı bir ustad aşığın adı ilə bağlı olmalıdır. Sadə şəkildə bu, hər hansı ustad aşığın formalaşdırdığı üslub, bəstə, mövzu, dastan ənənəsi, saz havacatı və s. yetişdirdiyi şagirdə/şagirdlərə ötürməsi, bu şagirdlərin də mərkəz və ya ocaq mahiyyətində olan ustad aşığın yolunu, aşıqlıq texnikasını sonrakı şagird nəslinə öyrətməsidir. Buna Türkiyə folklorşünasları aşıq qolu və ya məktəbi deyirlər. Yeni-yeni aşıq məktəbinin yaranması üçün usta aşığın dil və üslubu, repertuarı, ustad aşığın başına gələn macəravari əhvalatlar, şeirləri, özünəməxsus aşıq havaları, saz çalma texnikası, söyləmə tərzi və s. olması vacibdir. Azərbaycanda Qurbani məktəbi, Tufarqanlı Abbas məktəbi, Aşıq Valeh məktəbi, Aşıq Ələsgər məktəbi, Aşıq Hüseyn Bozalqanlı məktəbi və s. əslində bilinən aşıq qollarıdır" (Bayat, 2012: 160).

Burada Dirili Qurbani, Tufarqanlı Abbas, Aşıq Valeh qolları şərti olaraq işlədilmişdir, çünki adları çəkilən və aşıq olub olmadıqları da dəqiq bilinməyənlərin sənət ənənəsi haqqında əlimizdə tutarlı məlumat yoxdur. Qısacası, təriqət şairi və ya aşıq olub olmadığı dəqiq bilinməyən Dirili Qurbaninin, həmçinin aşıq olub olmadığı məlum olmayan Abbas Tufarqanlının adları ilə bağlı məktəb və ya qol olduğunu şərti olaraq qəbul etmək mümkündür. Ancaq onların aşıq sənəti üzərində təsirinin böyük olduğunu da xüsusi qeyd etmək lazımdır. Aşıq qolları mövzusundan bəhs edərkən bir məsələyə də diqqət etmək lazımdır. Dirili Qurbani və ya Abbas Tufarqanlı tarixdə yaşamış aşıqlar olsalar belə onların ifa tərzləri, ustaları, şagirdləri, repertuarları, havacat özəllikləri, saz çalma texnikaları, dastan söyləmə özəllikləri və s. haqqında heç bir şey bilmədiyimizdən Qurbani və ya Abbas Tufarqanlı, yaxud son dövrdə məşhurlaşdırılan Miskin Abdal adlı aşıq qolunun olması mümkün kimi görünmür. Biz məlum olanlardan yola çıxaraq aşıq qolu (ifaçı aşığın məktəbi) təsnifatını aparacağıq. Hər nə olursa olsun termin kimi aşıq qolu ifadəsini işlətmək daha doğru olacaqdır. Bunu üç səbəbdən vacib hesab edirik:

1. Anadolu türkləri ilə eyni coğrafi məkanı paylaşdığımızdan bu termin məqbuldur.

2. İdentifikasiya baxımından aşıq qolu, termin qarışıqlığından qaçmağa imkan verəcəkdir.

3. Mühit və məktəb termini uzun müddətdir ki, Azərbaycan folklor elmində başqa bir anlamda işlədildiyindən aşıq qolu anlayışı məqbul sayılmalıdır.

Bir məsələ də önəmlidir: Mühit və məktəb mərkəzli araşdırma aparanlar 20-dən çox rayonu birləşdirən bir coğrafi zonanı, Şirvanı aşıq məktəbi, ora daxil olan bölgələri isə mühit adlandırırlar. Bu qənaətə gələnlər "məktəbşünaslar"dır. "Mühitşünaslar" da əksinə, Şirvanı mühit, ora daxil olan ayrı-ayrı bölgələri məktəb adlandırırlar. Bu da mühit və məktəb anlayışlarının aşıq ədəbiyyatını öyrənməkdə nə qədər yanlış bir yanaşma olduğunu göstərir.

## 2. Aşıq qolu anlayışının coğrafi anlamlı mühit və məktəb anlayışından üstünlüyü

Burada qısa da olsa aşıq mühiti, aşıq məktəbi anlayışlarının tutarsızlığına diqqət çəkmək üçün bəzi məsələlərə aydınlıq gətirmək lazımdır. Aşıq mühitinin və ya məktəbinin aşıq sənətinin öyrənilməsinə əngəl olan əsas ünsürlərini aşağıda göstərməyə çalışaq:

A) Ayrı-ayrı mühitlərə aid edilən Göyçə ilə Qazax, Göyçə ilə Kəlbəcər, Borçalı ilə Ağstafa, Qarabağ ilə Naxçıvan, Təbriz ilə Urmiya, Savə ilə Xorasan aşıq yaradıcılığı bir-birinə o qədər yaxındır ki, onları Göyçə, Gəncəbasar, Borçalı, Urmiya, Qarabağ aşıq mühitləri adı altında qruplaşdırmaq imkansız hala gəlir. Həm də burada el sənətkarları və ustad aşıqların yetişməsində mühit və ya məktəbdən asılı olmayaraq ustad bir sənətkarın yaratdığı aşıq qolu mühüm rol oynamışdır. Belə olmasaydı "mühitşünaslar" özləri də bəzi aşıq mühitlərinin yaranmasında digər bölgələrin rolunu vurğulamazdılar.

Məşhur Göyçə aşıq mühiti və ya aşıq məktəbi Təbriz-Qaradağ aşıq məktəbinin davamı kimi, Naxçıvan aşıq mühiti də Dərələyəz aşıq məktəbinin bir davamı, hər ikisi də Urmiyalı Aşıq Dərviş qolunun davamı kimi ortaya çıxmışdır. Bu da bir daha məkan anlamlı mühit və məktəb terminlərinin elmi olmadığını sübut edir. Əslində bu bir-birini şəkilləndirmə prosesi aşıq ənənəsinin ustad aşıq tərəfindən ötürülməsidir ki, bu da Təbriz aşığının Göyçədə, Dərələyəz aşığının da Naxçıvanda, Urmiya aşığının Borçalıda sənətkar mərkəzli məktəb və ya qol yaratması ilə izah edilə bilər.

B) Bir mühitdə və ya bir məktəbdə digər məktəbin təsirinin və hətta ənənəsinin olması mühit və ya məkan anlamında məktəb anlayışının elmi olmadığını göstərən önəmli bir faktdır. Məsələn, bəzi aşıqlar öz mühitlərindəki aşıqlardan deyil, başqa mühitlərin aşıqlarından sənəti öyrəndiklərini bildirirlər. Bunu aşıqların ustadları haqqında verdikləri bilgi də təsdiq edir. Bu məlumatlardan mühitin deyil, aşıq qolunun əsas olduğu anlaşılır: 1935 doğumlu Borçalı aşıq mühitinin görkəmli sənətkarı Aşıq Əhməd Sadaxlının (XX-XXI əsr) ustadı

- Borçalılı məşhur sənətkar Aşıq Hüseyn Saraclı (XX əsr),
- Aşıq Hüseyn Saraclının ustadı yenə Borçalıdan olan Quşçu İbrahim (XIX-XX əsr),
- Quşçu İbrahimin ustadı Borçalıdan Aşıq Dollu Abuzər (XIX əsr),
- Dollu Abuzərin ustadı Urmiya aşıq məktəbinin görkəmli aşığı Dollu Mustafa (XVIII əsr),
- Dollu Mustafanın ustadı Aşıq Avdal (XVIII əsr),
- Aşıq Avdalın ustadı Təbriz-Qaradağ aşıq mühitinin məşhur aşığı Xəstə Qasım (XVIII əsr) olmuşdur.

C) Bu siyahıdan iki nəticə çıxartmaq mümkündür: Birincisi, aşıq mühiti məfhumunun bir işə yaramadığı, ikincisi, Borçalının məşhur aşıqlarının Təbriz-Qaradağlı Xəstə Qasım qoluna mənsub olduqları

aydınlaşmış olur. Sonradan Borçalılı aşıq Dollu Abuzər öz adına bağlı yeni bir aşıq qolu yaratmışdır. Aradan keçən müddətdə bu qolu yeni bir üslub, yeni bir ifa tərzi ilə Aşıq Hüseyn Saraclı davam etdirməklə qalmamış onu öz adı ilə bilinən aşıq qoluna çevirmişdir.

D) Aşıq qoluna başqa misallar da vermək mümkündür. Urmiyalı Aşıq Dərviş və Aşıq Dehqan qolları Cənubi Azərbaycan aşıq ədəbiyyatında ifaçılıq məktəbi baxımından önəm ərz etsə də, bu aşıqların adları ilə bağlı qol Naxçıvan və Dərələyəz aşıqlarının yetişməsində əsas rol oynamışdır.

E) Başqa bir məsələ də eyni aşıq mühitinə aid aşıqların başqa-başqa aşıq qollarına mənsub olmalarıdır. Mühit anlayışını çürüdən bu konseptual məsələyə görə eyni bölgədə yaşayan və bir-biri ilə müasir olan aşıqların fərqli aşıq qollarına aid olması məsələsidir. Məsələn, Qazax aşıqlarından Ədalət Nəsibov Aşıq Ələsgər qolunun davamçısıdırsa, Aşıq İlham Aslanbəylinin ustadı, Borçalı aşıq məktəbinin davamçısı Aşıq Kərəm Nəsibovdur. Aşıq Şaiqin ustadı isə Borçalı aşıq məktəbinin davamçısı Aşıq Cəlal Qəhrəmanovdur. Aşıq Avdının ustadı isə Borçalı aşıq məktəbinin davamçısı Aşıq Yaqubdur. O halda bu aşıqları yaşadıqları Qazax bölgəsinə görə Qazax aşıq mühiti adı altında bir yerə gətirmək mümkün kimi görünmür, təbii ki, eyni yerdən olmalarını nəzərə almasaq.

F) Aşıq qolundan fərqli olarq mühit və məktəb bölgüsündə bir məsələ də ifa və repertuarla bağlıdır. Belə ki, Göyçə və Dərələyəz aşıq mühiti həm ifa, həm də repertuar baxımından bir-birinə çox yaxındırlar. Qarabağ aşıq mühitinə aid edilən Kəlbəcər isə daha çox Göyçə mühitinin təsiri altındadır.

G) Digər bir məsələ də eyni mühit daxilində ifa və repertuar fərqlərinin olmasıdır. Məsələn, Gəncəbasar aşıq mühitinin coğrafi hüdudları Qazaxdan Gədəbəyə kimi bir çox böyük rayonu əhatə edir. Gənsəbasar aşıq mühitində bir-biri ilə sərhəd olan Qazaxla Tovuz aşıqlarının ifası və repertuarı fərqlənir. Eyni ilə Şirvan aşıq mühiti və ya məktəbi də çox böyük coğrafi ərazini, etnik bölgəni, məzhəb fərqi olan yerləri əhatə edir. Cənub bölgəsindən başlayan sərhəd Aran zonasından keçərək Şamaxıya çatır, Ağsu, Göyçay, Ucar, Zərdab, Ağdaşla davam edir, Şabran və Quba ilə tamamlanır. İyirmi beşə yaxın inzibati-ərazi vahidini, yüzlərlə aşığı birləşdirən bir məktəb və ya mühitin hansı ümumi, birləşdirici özəlliyindən danışmaq mümkündür. Şirvan aşıq mühitinin havacatları digər mühitlərinkindən fərqləndiyi kimi öz arasında da ifa baxımından fərqlilik göstərir, məsələn, ifa

prosesində musiqi alətləri fərqlənir – saz, balaban, qoşa nağara, qaval hər yerdə hər zaman eyni dərəcədə iştirak etmir. Hətta Şəki, Qax, Zaqatala-Balakənlə, Dərbənd, Qusar fərqli aşıq ənənəsinə malik olsalar da, bəzi tədqiqatçılar heç bir fərq qoymadan onları eyni aşıq mühiti adı altında birləşdirirlər.

H) Son olaraq bir mühüm məsələyə də münasibət bildirmək lazımdır. Son 20-30 ildə yaranan siyasi, demoqrafik dəyişikliklər nəticəsində "mühitşünas"ların bəzi mühitləri tarixə qarışmışdır. 1989-cu ildən başlayan Azərbaycan-Ermənistan qarşıdurması, Qarabağın ermənilər tərəfindən işğalı, Ermənistanda yaşayan Azərbaycan türklərinin kütləvi deportasiyası və s. kimi siyasi hadisələr aşıq mühiti xəritəsində dəyişikliklərə səbəb oldu. Nəticədə deportasiyalar Göyçə, İrəvan, Dərələyəz və Ağbaba-Çıldır aşıq mühitləri, həmçinin Qarabağ aşıq mühitinin dağılmasına səbəb oldu. Bundan başqa Rusiya Federasiyası daxilində qalan Dərbəndin ləzgiləşdirilməsi, Naxçıvanın siyasiləşdirilməsi nəticəsində bu iki aşıq mühiti və ya məktəbi də demək olar ki, yox olub getməkdədir. Vəziyyət aşıq mühitinin əleyhinə dəyişdiyindən mühit anlayışından danışmağa dəyməz, çünki adları çəkilən yerlərdən məcburi şəkildə köçə zorlanan əhali vardır ki, bunlar da müxtəlif yerlərə yerləşdirildiyindən həm aşıqlıq ənənəsi zəifləmiş, həm də mühit deyilən bir şey qalmamışdır. İndi bir-iki kənddə aşıqlıq edən, qəsəbə və şəhərlərdə yaşayan sənətkarlar vardır. O halda Azərbaycanın müxtəlif bölgələrinə yayılmış, məcburi şəkildə didərgin düşən bu aşıqları hansı mühitə aid etmək lazımdır sualı ağıla gəlir. Qısacası, aradan keçən 30 ilə yaxın bir müddətdə bir çox mühitin Qarabağ, Göyçə, Dərələyəz, Naxçıvan, Dərbənd aşıqlıq özəllikləri orta, xüsusən də gənc aşıqlar nəslinin ənənəvi sənət repertuarından silinib getmişdir.

**Aşıq qolunun yaranması birbaşa usta-şagird ənənəsi ilə bağlıdır**. Ancaq qarışıqlığa yol verməmək üçün aşıq sənətində son 20-30 ili nəzərə almasaq usta-şagird ənənəsinin mövcud olması hər ustanın aşıq qolu və ya aşıq məktəbi yaratdığı mənasına gəlməməlidir. Yeni **aşıq qolunun yaranması üçün usta aşığın dil və üslubu, repertuarı, onun başına gələn macəravari əhvalatlar, şeirləri, özünəməxsus aşıq havaları, saz çalma texni-kası, dastan söyləmə tərzi və s. olması vacibdir.** Burada ikinci bir məsələ ortaya çıxır. Aşıq qolu və ya ustad aşığın adı ilə bağlı məktəbin ömrü nə qədərdir. Təbii ki, coğrafi anlayış kimi təqdim edilən mühit və ya məktəbdən fərqli olaraq aşıq qolları dinamik inkişafdadır; tez-antitez, inkarı inkar formasındadır. Sadə şəkildə desək, aşıq qolu və ya aşıq məktəbi yeni, daha

güclü bir aşığın çıxıb yeni bir yol yaratmasına qədər davam edir. Məsələn, Aşıq Ələsgər özündən əvvəlki qolu güclü yaradıcılığı ilə dəyişdirmiş, yetişdirdiyi şagirdləri ilə öz adı ilə bağlı aşıq qolu formalaşdırmış və onu Göyçədən kənara daşıya bilmişdir. Eyni ilə Dollu Abuzər qolu daha sonrakı dövrdə Aşıq Hüseyn Saraclı və Aşıq Əmrah qolları ilə davam etmişdir.

Burada mühit və məktəb məsələsi ilə bağlı araşdırmalardan çıxarılan nəticəyə görə, bu problem nəinki öz həllini tapa bilməmiş, hətta terminlər bir-birinə qarışdırılmışdır. Çünki yolu izlənən – yaradıcılıq, aşıq musiqisi, ifa tərzi, çalğı texnikası, repertuar özünəməxsusluğu və s. – ustad aşıqlar vardır ki, özləri başlı-başına bir məktəbdir. XVI yüzildən başlayaraq günümüzə qədər yaradıcılıqları aşıq sənəti üçün örnək olan aşıqlardan Xəstə Qasımı, Aşıq Valehi, Sarı Aşığı, Ağ Aşığı, Aşıq Ələsgəri, Aşıq Şenliyi, Aşıq Dollu Abuzəri və başqalarını göstərmək olar. Bu aşıqlar öz yaradıcılıqlarında ən yaxşı şair, xanəndə, musiqiçi və aktyor xüsusiyyətlərini birləşdirmişlər. Ona görə də bunları aşıq qolları adlandırmaq daha doğru olacaqdır: Xəctə Qasım qolu, Xəstə Hasan qolu, Ələsgər qolu, Aşıq Hüseyn Bozalqanlı qolu, Şenlik qolu, Aşıq Mirzə Bilal qolu, Hüseyn Saraclı qolu və s.

Türkiyədə aşıq mühitləri anlayışı heç bilinməməkdədir. Buna baxmayaraq bəzən aşıq məktəbləri ifadəsinə də rastlamaq mümkündür ki, bu da aşıq qolu mənasındadır. Məsələn, bədahətən söyləmə gücünə, dastan danışma qabiliyyətinə, saz çalma texnikasına görə Qars-Ərzurum, Çukurova, Orta Anadolu kimi aşıq məktəbləri haqqında məlumat verilir. Bu məktəblər də o bölgədə məşhur olan bir və ya bir neçə aşığın ənənəsi ilə bağlı anlayış mənasındadır.

Aşıq qollarının yaranmasını usta-şagird ənənəsinə bağlamaqla usta bir aşığın davranış, üslub, ifa tərzi, sənətə və dilə bağlılığı, yetişdirdiyi şagirdinə sirayət etdiyi, usta aşığın ənənəsinin davam etdirildiyi nəzərdə tutulur. Bu proses XIX yüzildən etibarən, xalq ədəbiyyatında önəmli qollar kimi qeyd olunan Aşıq Ələsgər, Ərzurumlu Əmrah, Ruhsati, Dollu Abuzər, Dərtli, Sümmani, Hüseyn Bozalqanlı, Dərviş Məhəmməd, Huzuri, Şenlik və Mirzə Bilal qollarının yaranması ilə nəticələnmişdir. Təbii ki, bəzi aşıqların təsir dairəsi çox-çox uzaqlara gedib çıxmışdır. Məsələn, Aşıq Şenliyin təsiri Dərələyəz aşıqlarına qədər hiss edilir (Bax. Aslan 1975). Aşıq qolları ümumilikdə qola adını verən aşığın adı ilə başladılır. O zaman qol nədir, onun özəllikləri hansılardır sualına cavab vermək lazımdır. Qol usta-şagird ənənəsi daxilində bir-birinin ardınca yetişən aşıqlar tərəfindən, mərkəz rolundakı usta aşığa bağlılıq

duyaraq, ona aid üslubu, dili, şeiri, havacatı, mövzunu, xatirələri və söylədiyi dastanları davam etdirən məktəbdir (Kaya 1997: 500). Bəzən aşıq daha öncə yaşamış bir aşığı özünə ustad bilib onun üslubunu, mövzularını, saz çalma texnikasını mənimsəyib heç görmədiyi, hətta başqa bölgədən olan bir aşığın yolunu davam etdirdiyi üçün o aşığı filan qola mənsubdur deyə təsnif edirlər. Bununla bərabər Aşıq Şenlik qolu yerinə, bəzən Xəstə Hasan qolu yazılır ki, buraya əsasən Aşıq Murat Çobanoğlu, Aşıq Maksut Fəryadi və Aşıq Şərəf Taşlıova kimi böyük aşıqlar daxil edilir. Hətta bəzi araşdırmaçılar Aşıq Şenlik qolunun daha sonrakı dövrdə inkişaf edərək Murat Çobanoğlu qoluna dönüşdüyünü yazırlar (orhanbahciwan.blogspot.com› 2019/12› anadolu).

Ümumən götürdükdə aşıq qolları XVIII yüzilin sonları ilə XIX yüzilin əvvəllərində yaşamış aşıqların yaradıcılığını əhatə edir (Kaya, 1994). Onu da demək lazımdır ki, qol anlayışı daha öncəki əsrlərdəki aşıq ədəbiyyatının mənzərəsini açmağa imkan vermir. Eyni ilə XX yüzilin ikinci yarısından sonrakı aşıqların qol və ya məktəb yaratmaları hadisəsinə çox az rastlanır. Hər hansı bir aşıq qolunun yaranması üçün əsas şərt usta-şagird ənənəsinin davamlı olmasıdır. Usta-şagird ənənəsi ortadan qalxdıqda qol da özü-özlüyündə yox olub gedir. Sonrakı nəsil aşıqların öz ustalarını xatırlamaları bir qolun varlığından xəbər verir.

Aşıq ədəbiyyatının araşdırmaçılarından biri olan D.Kaya aşıq qolunun yaranmasını şərtləndirən əsas cəhətlərə diqqət çəkmişdir. Qolu müəyyənləşdirən əsas faktların müxtəlifliyi və dəyişikliyi hər hansı bir aşıq qolunun təyin edilməsini şərtləndirir. Beləliklə, aşıq qolunu müəyyənləşdirən faktorları aşağıdakı kimi sıralamaq mümkündür:

1. Mərkəz vəziyyətində olan usta aşığın dil və üslubu,
2. İşlədiyi mövzular,
3. Usta aşığın başından keçən və yaddaşlarda qalan bəzi maraqlı əhvalatlar,
4. Usta aşığın deyişmələri,
5. Usta aşığın repertuarında olan dastanlar,
6. Usta aşığın özünə aid saz havaları,
7. Usta aşığa aid özünəməxsus qafiyə, rədif tərzli şeirlər (Kaya 1997: 501).

Əldə olan məlumatlar Türkiyə xalq ədəbiyyatında aşıq qollarının, əsasən aşağıdakı bölgələrdə yayğın olduğunu göstərir:

Şenlik qolu (Doğu Anadolu, Azərbaycan),
Sümmani qolu (Ərzurum bölgəsi),
Ruhsati qolu (Sivas və ətrafı),

Dəli Dərviş Fəryadi qolu (Sivas-Kangal),
Əmrah qolu (Tokat, Kastamonu),
Dərtli qolu (Bolu-Kastamonu-Çankırı),
Huzuri qolu (Artvin bölgəsi),
Dərviş Məhəmməd qolu (Malatya bölgəsi).

Burada Azərbaycan aşıq qolu haqqındakı bildiklərimizi əlavə etməklə belə bir coğrafi dağılımlı təsnifat aparmaq olar:

Xəstə Hasan qolu (XVIII yüzil Kars-Ağbaba),
Dollu Mustafa (XVIII yüzil Urmiya),
Aşıq Nəsib qolu (XIX yüzil Ağbaba-Çıldır),
Aşıq Nəcəfqulu, Aşıq Xaspolad (XIX yüzil Qarabağ),
Dollu Abuzər (XIX yüzil Borçalı),
Aşıq Əmrah (XX yüzil Borçalı),
Aşıq Ələsgər (XIX yüzil Göyçə),
Hüseyn Bozalqanlı (XIX yüzil Tovuz),
Aşıq Mirzə Bilal (XX yüzil Şirvan).

Aşıq qolu, elə aşığın öz adı ilə məşhurlaşdırdığı məktəbdir, yalnız bir fərqlə ki, məktəb və ya mühit dedikdə Azərbaycan folklorçuları coğrafi məkan anlayışını önə çıxarırlar, Türkiyəli tədqiqatçılar isə aşıq sənətinin fərqliliyini, yaşadılma yollarının müxtəlifliyini nəzərdə tuturlar. Yuxarıda da dediyimiz kimi, hər halda ifaçı aşığın məktəbi mənasında aşıq qolu terminini işlətmək daha məqbuldur və elmi-nəzəri baxımdan özünü doğruldur.

Bütün bunlardan çıxış edərək aşıq məktəblərinin coğrafi özəlliyini ikinci plana keçirməklə ustad aşıqların adı ilə qol bölgüsü aparmaq konseptual baxımdan doğru olacaqdır. O halda Azərbaycan aşıq sənətində məktəb adı ilə usta bir aşığın ənənəsinin davam etdirilməsi nəzərdə tutulmalıdır. Bu durumda coğrafi anlayışın tam olaraq özünü doğrultmayacağı bir daha aydın olacaqdır. Bəzi "mühitşünaslar" aşıq mühitlərini təsəvvüfə, sufi təriqətlərinə yaxınlıq dərəcəsinə görə də ayırır, bu və ya digər aşığı təriqət şairi səviyyəsinə qaldırırlar.

Aşıq qolundan fərqli olaraq məktəb və ya mühit adı ilə aparılan təsnifatda bilib-bilmədən ifa tərzi, repertuarı, yetişdirdiyi şagirdləri və məlum olmayan aşıqları coğrafi bir bölgəyə yerləşdirmək mümkündür. Ancaq bu, elmi bir kriteriya deyildir. Deyək ki, Qarabağ aşıq mühiti Aşıq Valehlə başlayır. Valehin hansı havacatlara üstünlük verdiyini, hansı dastanları icra etdiyi, xüsusən də onun yolunu davam etdirən şagirdlərinin olub olmadığı, tək və ya heyətlə çalıb-oxuduğu məlum deyilsə, XIX-XX yüzil Qarabağ aşıqlarını necə Valehlə

başlamaq olar. Eyni ilə həyatı tamamilə əfsanəyə qarışmış Sarı Aşıq, Xəstə Qasım, Aşıq Cünun haqqında nəyi bilirik ki, onları bu və ya digər mühitə və ya məktəbə aid edirik. Hələ Molla Qasım adı ilə uydurulan və XIII yüzildə yaşadığı təxmin edilən bu zat hansı aşıqlıq keyfiyyəti ilə bilinir. Bir-iki şeiri bilinən Miskin Abdal haqqında tarixi məlumat yox dərəcəsindədirsə, onu Göyçə aşıq mühitinin mənəvi ustadı adlandırmaq doğrudurmu? Adları çəkilən xəyali şəxslərin bəlli bir coğrafiyada olub olmamaları ilə bağlı əfsanələrə əsaslanaraq aşıq mühitlərini və ya məktəblərini təsnif etmək nə qədər doğrudur?

Bu qeyri-elmi vəziyyətdən çıxmağın tək yolu yenə də aşıq qolu anlayışına bağlıdır və bu terminin məna tutumu məsələnin ən doğru həll yoludur. Ənənə ustad aşığın yolunu davam etdirməklə yaşadılırsa, o zaman Xəstə Hasan (XVIII əsr) və Aşıq Nəsib qolundan (Ağbaba-Çıldır), Aşıq Ələsgər (Göyçə), Aşıq Nəcəfqulu, Aşıq Xaspolad (Qarabağ), Dollu Abuzər, Aşıq Əmrah (Borçalı), Aşıq Mirzə Bilal (Şirvan) və s. qollarından və ya onların yaratdıqları məktəblərdən söz açmaq daha elmi yanaşma olacaqdır.

### 3. Aşıq Ələsgər qolu: təsir dairəsi və davamçıları

Kütləvi informasiya vasitələrinin olmadığı zamanlarda mədəniyyətdə istifadə edilən ən təsirli əlaqə vasitəsi aşıq sənəti olmuşdur. Aşıqlar sadəcə çalıb oxuyan, toylarda dastan söyləyən sənətkarlar olmayıb, həm də şifahi mədəniyyət vasitələrini – əfsanə, nağıl, qaravəlli, gözəlləmə, qoçaqlama və s. yaymaqla xalqı məlumatlandıran, maarifləndirən və yetişdirən müəllim funksiyasını da üstlənmişlər. Tarixi zamanlarda olub bitənlərdən, dini və əxlaqi məsələlərdən, yaxın və uzaq coğrafiyalardan bəzən qısa, bəzən də ümumi xətləriylə məlumat verən, kəndbəkənd, qəsəbəbəqəsəbə, şəhərbəşəhər gəzib baş verən mühüm hadisələri əhaliyə çatdırmaqla xalqı bilincləndirənlər əsasən aşıqlar olmuşdur. Ələsgər, bu missiyanın daşıyıcısı olan aşıqlar zümrəsinə daxil idi və üzərinə düşən vəzifənin fərqində idi.

XIX-XX yüzilin ən böyük aşığı olan Ələsgər qolunun böyüklüyü və təsir dairəsinin genişliyi aşığın özünün də yazdığı kimi şagirdlərinin çoxluğuna və hər tərəfə yayılmasına görədir. “Danışma” adlı qoşmasında Aşıq Ələsgər:

Neçə aşıq qaçırmışam meydandan,
İstəyirsən bir-bir keçirim sandan,
Gəmirib kəngərdən, içib ayrandan,
Coşub kərgədandan, fildən danışma –

deməklə şeirdə ustad olduğunu xatırladır. Bu qoşmanın son bəndində aşıq ustadlığını nəyə borclu olduğunu bildirir:

Adım Ələsgərdi, mərdi-mərdana,
On iki şəyirdim işlər hər yana.
Tülküsən, aslanla girmə meydana,
Danasan, sürtünüb kaldan danışma
(Aşıq Ələsgər 2014: 36-37).

Aşıq Ələsgər qolunun zənginləşməsində və geniş bir əraziyə yayılmasında onun şagirdlərindən Aşıq Talıbın (oğlu), Aşıq Nəcəfin (qardaşı oğlu), Aşıq Əsədin, Növrəs İmanın (qardaşı oğlu), Aşıq Qiyasın, Aşıq Ağayarın, Şair Nağının və digərlərinin xidmətləri böyük olmuşdur. Zamanla bu ənənə zənciri içində bir aşıq qolu ortaya çıxır. Aşıq Ələsgərdən müstəqil aşıqlıq fəaliyyəti göstərməyə icazə alan şagird də yanına başqa bir şagird almaqla özü də usta aşıq olur. Eyni sənət ocağında yetişən aşıq öz şagirdi/şagirdləri ilə bu silsiləni davam etdirməklə ustasının adı ilə bağlı bir qol yaradır. Aşıq Ələsgər qolu məhz belə yaranmışdır. Aşıq Ələsgərin bəhs etdiyi on iki şagirdi qolun ilk nəslidir. Bu on iki şagirdin hər biri neçə-neçə aşıq yetişdirmiş və ikinci, üçüncü nəslin təmsilçiləri Aşıq Ələsgər qolunu Göyçədə, sonra da Gədəbəy, Kəlbəcər, Qazax, daha sonra da Qax-Zaqatala bölgəsinə qədər yaymışlar. Ələsgər qolunun ən bilinən tərəfi dastan repertuarının 20-25 arasında dəyişməsi, eyni dastanların ifası, əzbərə bilinən şeir qatarlarının təqribən minə yaxın olması, saz havacatlarının eyniliyi, aşıqlıq ədəbinin və ədasının Ələsgər modeli üzərində qurulması və s.-dir. Aşıq Ələsgər də təbii ki, Ağ Aşıq-Aşıq Alı qolunun davamçısı olmuş, ancaq aşıqlıq sənətində püxtələşdikcə öz adı ilə bağlı ənənənə zənciri formalaşdırmışdır. Digər tərəfdən Ələsgərin yetişdiyi Göyçə mahalı aşıq sənəti təkkə ocağına yaxınlığı ilə bilinir. Bunu Göyçəyə indiki Cənubi Azərbaycandan gələn Miskin Abdal təxəllüslü mütəsəvvüfün varlığı da isbat edir. Ələsgər qolunun formalaşmasında təbii ki, Ağ Aşığın (Aşıq Allahverdi) da çıxdığı Təbriz-Qaradağ aşıq ənənəsi mühüm rol oynamışdır.

Son dövrlərdə aşıqları, xüsusən də Aşıq Ələsgəri təkkəyə bağlamaq, təriqət şairi adlandırmaq meyilləri güclənmişdir. Bu cəhəti ilə də Ələsgərin Azərbaycan aşıq sənətində fərqli bir yeri olduğunu vurğulamaq moda halını almışdır. Burada iki məsələ bir-birinə qarışdırılmışdır.

1. Təkkə, geniş mənada sufi ənənəsinin yayıldığı XIV yüzildən sonrakı dövrdə həm divan şairlərinin şeirlərində, həm də XVI yüzildən şifahi mədəniyyətdə güclənən aşıq ədəbiyyatında sufi rəmzlərinin, irfanla bağlı ifadələrin bol-bol işlədilməsi, təsəvvüf böyüklərinin ad-

larının çəkilməsi heç də şairi və ya aşığı təkkə əhli etməz. Şifahi və ya yazılı olmasından asılı olmayaraq bütün ədəbi əsərlər bəlli bir ənənə üzərində inkişaf edir. Ənənədən kənara çıxmalar, yeni bir ədəbi mühitin yaranması mənasına gəlir. Məsələn, Vaqiflə klassik ənənə sona çatmış, yeni bir dövr başlamışdır. Ancaq Vaqifin də şeirlərində, özəlliklə də divan üslubunda yazdığı şeirlərdə sufi elementləri vardır. Çünki ənənədən tam qopmaq mümkün deyildir.

2. Təkkə şairi və ya aşığı olmaq üçün hər hansı bir təriqət yolunun davamçısı, hər hansı bir təriqət ideyasının daşıyıcı olmaq lazımdır. Nəsimini Qazi Bürhanəddindən, Xətayini Həbibidən fərqləndirən sufi rəmzlərinin kəmiyyəti deyil, birinin bəlli bir təriqət yolçusu olmasına, şeirlərində mənsub olduğu təriqətin propaqandasını önə çıxartmağa görədir. Aşıqlar ilk dövrlərdə Türkiyədə Bəktaşı, Azərbaycanda Hürufi, Əhl-i Haqq, Səfəvi təriqətlərindən çıxmışlarsa da (bu da tam olaraq bilinmir), sonrakı dövrdə aşıq şeirindəki sufi rəmzləri və irfanla bağlı deyimlər sadəcə olaraq ənənə vasitəsilə bu zümrənin ədəbiyyatına daxil olmuşdur.

XIX yüzilin böyük sənətkarı Aşıq Ələsgər də sufi ənənəsinin güclü olduğu Göyçədə yetişmişdir. Ancaq Ələsgərin şeirlərinin əksəriyyəti bəşəri eşqi, təbiət gözəlliklərini, zəmanədən şikayətləri, fərdi və didaktik mövzuları əhatə edir. Bütün bunlara baxmayaraq Ələsgər aşıqlığın gərəyi olaraq usta yanında dərs almağı vacib hesab edir:

Şairin sinəsi haqq bazarıdı,
Satdığı kəlmələr ləl-mirvarıdı.
Alimin elmiylə helmi yarıdı,
Həcvü hədyan demək nahaq söhbətdi.

Yazıq Ələsgərəm, azdı kamalım,
Vacibdi ki, bir ustaddan dərs alım,
Dərs aldım, öyrəndim, oldu öz malım,
Bizdən də ustada nəfi-rəhmətdi (Aşıq Ələsgər, 2004: 25).

Aşıq Ələsgər məktəbinin və ya Ələsgər adına bağlı aşıq qolunun davamçıları sadəcə olaraq Göyçənin sərhədləri ilə məhdudlaşmamış, Ələsgər ənənəsini yaşadan əgər varsa Kəlbəcərdə, varsa Gəncəbasardakı aşıqlar da Aşıq Ələsgər qolunun davamçıları olmuşlardır. Burada bir neçə misal verməklə Ələsgər qolunun yayılma coğrafiyası haqqında təsəvvür əldə etmək mümkündür. XX yüzil aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Aşıq Şəmşir bu sənəti atası şair Qurbandan öyrənsə də, ömrünün sonuna qədər Aşıq Ələsgər yolunun davamçısı olmuş, ona görə

də Ələsgəri “pak ustad”, “sənətinin qibləgahı, idrakının mehri, mahı” adlandırmışdır. Qazax aşıqlarından Aşıq Məmməd (Canallı Məmməd), Aşıq Məmmədyar Eminov, Aşıq Ədalət Nəsibov, Aşıq Cəfər Eyvazov, Aşıq Şəadət Gülməmmədov Göyçəli Aşıq Ələsgər qoluna mənsub sənətkarlardır. Məsələn, Aşıq Ədalət Nəsibov Aşıq Ələsgərin qardaşı Məşədi Salehin nəvəsi Aşıq Əlinin yanında şagirdlik etməklə Ələsgər qolunun davamçısı olmuşdur. Bir sözlə, yüz əlli ilə yaxındır davam edən Ələsgər qolu Göyçəli Aşıq Ələsgərin sənət ocağında formalaşmışdır.

Eyni ilə Aşıq Bilalın ustalığında yetişən Aşıq Şamil, Aşıq Abbas, Aşıq Qurbanxan, Çardaxlı Aşıq Şərbət və digərləri onun yolunu davam etdirməklə Aşıq Bilal qolunu yaratdılar. XX yüzilin Şirvan aşıqlarından olan Aşıq Bəylər Aşıq Mirzə Bilal qolunun davamçısı olsa da, sonradan sənətkarlıq özəlliyi ilə öz adına bağlı yeni bir qol yaratdı.

Bu siyahıya digər aşıqları da daxil etmək olar. Məsələn, Aşıq Məhəmmədəlinin ustadı Göyçəli Aşıq Ələsgər qolunun mahir aşıqlarından biri olan aşıqdır. Qeyd edək ki, aşıqların ustadları, aşıqlıq sənətini öyrəndikləri ustadlarının sənət yolunu davam etdirdikləri halda onların müasir dövrdəki şagirdləri isə hər iki qolun, yəni həm ustadlarının, həm də ustadlarının ustadları olan aşıqların yaradıcılığını təbliğ edirlər. Bu vəziyyət müasir dövr orta yaşlı aşıqların çoxunda müşahidə edilir. Və aşıq qolu anlayışının daha doğru bir bölgü olduğunu göstərir.

Məsələn, Göyçə aşıq məktəbində Aşıq Ələsgər, oradakı hər hansı bir aşıqdan (Aşıq Alı, Ağ Aşıq) ifa və icra baxımından fərqlənirsə, onda Aşıq Ələsgər qolu adı altında Ələsgər davamçılarını, deyək ki, Göyçə mahalının digər görkəmli aşığı olan, özünəməxsus ifa və icra tərzi olan Şişqayalı Aşıq Aydının davamçıları da onun adı ilə Aşıq Aydın qolu yaratmışlardır. Bu iki qol sənətin davamlılığı, ənənənin ötürülməsi, fərdi özəlliklər, saz və ifa baxımından bir-birindən fərqlənirlər. Borçalı aşıq mühitində və ya məktəbində Hüseyn Saraclı və Aşıq Əmrah, Gəncəbasar aşıq mühitində, yaxud məktəbində Aşıq Əkbər, Azaflı Mikayıl, Aşıq İmran və Aşıq Ədalət, Şirvan aşıq mühitində isə Aşıq Mirzə Bilal və Aşıq Bəylər qolları vardır. Əslində eyni bölgədə Borçalıda yaşayıb yaradan Hüseyn Saraclı ilə Aşıq Əmrahın repertuarı, ifa tərzi, saz, söz, musiqi texnikası fərqlənirsə və onların davamçıları varsa, bu, aşıq qolu və ya sənəktar mərkəzli aşıq məktəbidir. Sadəcə məkana görə deyil, ustad sənətkara görə formalaşan məktəbdir və ya qoldur. Çünki bunlar məktəb və ya mühit dediklərimizin daxilindəki şəxslərə bağlı müxtəlif ifaçılıq məktəbləridir.

Bundan başqa aşıq qolları (təbii ki, qol dedikdə aşığın sənətkarlığı və davamçıları nəzərdə tutulur) da bir-biri ilə sıx sənət əlaqəsi saxlamışlar. Məsələn, Şəmkirli Aşıq Hüseyn, Aşıq Ələsgər və Aşıq Hüseyn Bozalqanlı ilə, həmçinin Aşıq Ələsgərlə Aşıq Kor Nəsib, Xaltanlı Tağı, Aşıq Soltan, Aşıq Qəndab (Quba) və başqaları arasında sənət əlaqələri olmuşdur ki, bu da sənətkar mərkəzli Azərbaycan aşıq qollarının qarşılıqlı inkişafından xəbər verir. Hətta Zaqatala aşıqlarının çoxu Göyçə aşıqları ilə yaxın əlaqədə olduqlarından istər havacatlarında, istərsə də oxu maneralarında Ələsgər qolunun özəllikləri hiss olunur.

**4. Nəticə**

Aşıq ədəbiyyatının ortaya çıxması, ayrı-ayrı bölgələrdə yayılması, yerli xüsusiyyətlərlə (adət, ağız özəlliyi və s.) zənginləşməsi nəticədə ifa, icra, repertuar baxımından fərqliləşməyə səbəb olmuşdur. Bu fərqliləşməni bəziləri mühit, bəziləri də məktəb adlandırsalar da, yuxarıda da göstərdiyimiz kimi, hər iki məfhum tarixi-coğrafi özəllik üzərində formalaşmışdır. Sənət sənətkarla daim, həmişəyaşar olduğundan sənətin harada olması deyil, onu yaradan, yaşadan sənətkarın keyfiyyətləri əsas alınmalıdır. Aşıq ədəbiyyatı da aşıqların yaradıcılığıdır. Fərq varsa bu sadəcə bölgəyə görə deyil, daha çox o bölgədə yaşayan sənətkarların yaratdıqları ədəbi ənənəyə görədir. Hətta məktəb termini məfkurə, ideya, düşüncə ilə bağlı ortaya çıxsa da həm məktəblə, həm də mühitlə eyni şeyin – bəlli bir bölgənin öyrənildiyini görmək mümkündür.

Köçlər, deportasiyalar, etnik təmizləmələr, müharibələr, coğrafi sərhədlərin dəyişdirilməsi və s. səbəblərdən aşıq mühiti anlayışı öz mənasını çoxdan itirmişdir. Təklif etdiyimiz aşıq qolu və ya sənəktar mərkəzli aşıq ifaçılıq məktəbi məfhumu isə sadəcə şaxələnə, daha çox sənətkarı əhatə edə bilər. Onun köçlərlə, köçürmələrlə, sürgünlərlə o qədər də əlaqəsi yoxdur. Müxtəlif dövrlərdə yaşayıb-yaratmış bir çox aşıqların yaradıcılığına xas olan ideya, məzmun, üslub yaxınlığı və bədii-estetik prinsiplərin eyniliyi aşıq qolunun yaranmasını şərtləndirir. Bu prinsiplər qolu yaradan aşıqdan sonra onun davamçılarının əsərlərində özünəməxsus şəkillərdə təkrar olunur və müxtəlif parametrlərdə təzahür edirsə, demək ki, Aşıq Dollu Məhəmməd, Xəstə Hasan, Xaltanlı Tağı, Dollu Abuzər, Aşıq Əmrah, Aşıq Mirzə Bilal qolları vardır. Heç şübhəsiz, aşıq qollarının zirvəsi sayına və yayılmasına, ifa tərzinin və musiqi ifaçılığının zənginliyinə görə Aşıq Ələsgər qoludur.

# QAYNAQLAR

**Aşıq Ələsgər** (2004). Əsərləri. Tərtib edən İ.Ələsgər. Bakı: Şərq-Qərb

**Aşıq Ələsgər** (2014). Bütün əsərləri. Tərtib edən Q.Zimistanoğlu. Bakı: Ol MMC

**Aslan Ensar** (1975). Çıldırlı Aşık Şenlik-Hayatı, Şiirleri ve Hikâyeleri, Erzurum: Atatürk Üniversitesi Yayınları

**Bayat Füzuli** (2012). Folklor Dərsləri. Bakı: Elm və Təhsil

**Güney Eflatun Cem** (1953). Âşık Meslekî. İstanbul: Maarif Kitaphanesi

**Kaya Doğan** (1994). Sivas'ta Âşıklık Geleneği ve Âşık Ruhsatî. Sivas: Cumhuriyet Üniversitesi Yayınları

**Kaya Doğan** (1997). "Edebiyatımızda Âşık Kolları ve Şenlik Kolu", Türk Kültürü, Yıl. XXXV, Sayı 412

https://orhanbahciwan.blogspot.com/2019/12/anadolu-turk-halk-ezgileri-sahasnda-ask.html

# DEDE KORKUT OZAN ÂŞIK KİMLİĞİNİN DEDE ELESGER'DE TECELLİSİ

# THE REFLECTION OF ASHIK IDENTITY OF DADA GORGUD ON DADA ELESGER

# ПРЕОБРАЖЕНИЕ ИДЕНТИЧНОСТИ АШИКА ДЕДЕ КОРКУТА ОЗАНА В ДЕДЕ АЛЕСКЕРЕ

**Ali KAFKASYALI**
*Prof. Dr.*
*Erzincan Binali Yıldırım Üniversitesi*
*Fen Edebiyat Fakültesi, Türk Dili ve Edebiyatı Bölümü*
*akafkasyali@hotmail.com*

**Summary**

While evaluating an artist, literary identity, or his/her artwork, it would not be appropriate to make an exact assessment without knowing the environment the artist created and experienced, as well as the circumstances under which the artwork was shaped, and without detecting the root and origin of the work.

Ashik art of Dada Gorgud is a world of art and artist that is entirely based on the commitment to lineage and origin and "genetic" progression. The appearance of the ashik-qopuz art of Dada Gorgud, which first showed up in the world scene ages ago in the music, lyrics, and personality of Dada Elesger after ages is an indication of this.

Dada Elesger, who was born and practiced his art in the Gökçe region, became a wise poet who traveled through nomads, highlands, and villages with a musical instrument in his hand, presenting the folk's petition to masters and masters' expectations to the folk, like Korkyt Ata.

Dada Elesger was not a Sufi/Sect practitioner. His path was marked by the Quran, the prophet Muhamad, and Ali, whom Muhamad referred to as the keeper of knowledge. Therefore, the love, conversation, and beings in his poetry are all true to life. Accordingly, he harshly criticized people's difficult life standards, cruelty and tyranny, social injustice, and the ways of living and hanger-on perceptions of the time's masters, rulers, and Muslim judges as well.

The descent of the Oghuz tribe called wise poet Elesger whosewords and self are all about humanity, dada. He set forth the principles of being an ashik qualified as dada in his rhymed ballad "Gerekdi".

If Dada Elesger's lessons from Ashik Ali are considered as school education and instruction, then he was educated in both the school of hard

knocks and the school of art. He developed his versatile art in all aspects under the supervision and experience of Oghuz people, scholars, and luminaries, and he brought the art to the top with him. His poetry which is a work of admirable skill was met due honor by all Turkish and related communities.

**Key words:** Poet, Ashik, Dada Gorgud, Dada Elesger

**Резюме**

При оценке творца, литературной личности или его произведений было бы неправильно давать точную оценку творца и его работ, не зная климата, созданного им, условий, в которых возникло произведение искусства, не определяя его происхождение и источник.

Искусство поэта-ашика ДедеКоркута - это мир творца и творчества, полностью основанный на происхождении, верности истокам и «генетической» преемственности. Свидетельством тому является то, что появление на мировой арене веками ранее искусстваозанов-копузов Деде Коркутстолетия спустяпроявилосьв инструменте, словах и личности Деде Алескера.

Родившийся в районе Гекче, Алескер, там развивалсвое искусство и став мудрым поэтом, как и КоркутАта, посещал со своим сазомстоянки кочевников, нагорья, деревниодну за другой, представляя пожелания людей беям и передавая ожидания последних народу.

Деде Алескерне был человеком суфизма / дервишского ордена. Его путь – это путь Корана, Пророка Мухаммеда и Пророка Али, которого он называет дверью знания Пророка Мухаммеда. По этой причине в его стихах любовь, дружба и существа взяты из реальной жизни. В дополнение к этому он резко критиковал суровые условия жизни людей, жестокость и тиранию, социальную несправедливость, а также взгляды и жизнь правителей, беев и кадиев того времени.

Этого мудрого поэта, который был человеком во всех проявлениях, сыновья страны огузовпрозвали дедушкой. Он раскрыл принципы того, как быть поэтом-ашиком с качествами деде в своей работе с редифом «Герекди» («Необходимое»).

Если уроки, которые Деде Алескервзял от Ашика Али, можно считать школьным образованием, он получил образование как в школе, так и в школе жизни. Он создал свое разностороннее искусствоиспользуя опыт иподнаблюдениемседовласых огузов и вырос вместе с ним до недостижимых высот. Его стихи, являющиеся образцами прекрасного мастерства, были хорошо приняты всеми турецкими и родственными общинами.

**Ключевые слова:** Озан, ашик, Деде Коркут, Деде Алескер

## Giriş

Edebî şahsiyetleri veya eserleri değerlendirirken onların vücut bulduğu devir, sosyal iklim ve soy kökü göz önüne alınmalıdır. Sanatkârın yaşayıp yarattığı iklim ile sanat eserinin vücut bulduğu şartlar bilinmeden ve kökü, kaynağı tespit edilmeden sanatçı ve eser hakkında değerlendirme yapmak tam anlamıyla maksadı temin edemez. Başka bir sözle müellif ve eser, neşvünema bulduğu devir ve öncesinin iklim konsepti içerisinde değerlendirilmelidir. Sanatçının ve sanat eserinin "genetiği" de gözden ırak tutulmamalıdır. Bu soya çekim hadisesi kişisel temelde görülse de, halk, hatta millet hayatında dahi devamlılık ve kaynaklık arz etmektedir. Fârâbî, Kâşgarlı, Yesevî, Hakanî, Nizamî, Nesimî, Hatayî, Nevaî, Fuzûlî gibi sanatçıların şahsiyetlerinde ve eserlerinde zuhur eden soy, kök ilişkileri ve benzerlikleri; Dede Korkut, Kurbanî, Hasta Kasım, Dede Elesger'deki ses, söz, saz, sanat ilgi ve ilişkileride bu "genetik" devamlılığın göstergesidir. Bu ilgi, iltisak ve benzerlikler kişisel ve eserler ölçüsünde olmakla birlikte soy ve irs bağlamında da varlığını göstermektedir. Sanatçı da, sanat eseri de kökleri üzerinde vücut bulmaktadır. "Ot, kökü üstünde biter.", "Aslında olan tırnağında gösterir.", "Aslı neyse nesli odur." atasözleri bunun ifadesidir.

Türk milletine has bir kültür unsuru olan ozan-âşık sanatı, günümüz ifadesiyle âşıklık geleneği tamamen soy, kök bağlılığına ve genetik devamlılığa dayanan sanat ve sanatçı dünyasıdır. Asırlar öncesinden varlığını dünyaya duyuran Dede Korkut ozan-kopuz sanatının, asırlar sonra Dede Elesger'in sazında, sözünde ve şahsiyetinde tecelli etmesi bu genetik, soy, kök ilgi ve ilişkisinin tipik örneğidir.

Bu bildiride Dede Korkut ozan âşık kimliğinin Dede Elesger'de tecellisi değerlendirilecektir.

### 1. Dede Korkut ve "Dede" Misyonu

Dede Korkut, Oğuzların vatan tuttuğu Kafkasya'nın geniş coğrafyasında yaşayıp yaratmıştır. Tasnif ettiği Oğuznâmelerde Kafkasya'nın Alınca, Avnik, Bayburt, Derbend, Gökçe Dağ, Gökçe Deniz, Sürmeli, Tatyan, Trabzon gibi nice illerini, ovalarını, dağlarını göllerini şereflendirmiştir (5, 759-790). Dede Elesger'in de Gökçe mahallinde dünyaya gelip aynı illerde sanatını icra etmesi Türk milleti adına büyük bir şanstır (1, 513).

Dede Korkut kitabının ilk paragrafında "Resul aleyhisselam zamanına yakın Bayat boyundan Korkut Ata derler bir er koptu. Ol kişi, Oğuz'un tamam bilicisiydi" denilmektedir (12, 31). Onun gönlü-

ne Hak Teâla'nın ilham ettiği, engin öngörüye sahip bulunduğu, elinde kolca kopuzuyla ilden ile beyden beye gezerek, halkın arzuhâlini beylere, beylerin beklentilerini halka ulaştırdığı, bir çeşit bilge aksakal gibi görev üstlendiği ifade edilir.

Dede Korkut, her zaferden sonra kopuzunu alıp halk adına muzaffer bey ve yiğitlerin istikbaline çıkıp onların zaferlerini kutlar, şadlık çalıp kahramanlara ad verir, gazi erenlerin destanlarını tasnif eder. Oğuz ellerinin şanını dünyaya duyurur, kendisi de Oğuzlardan şöhret kazanır.

Rivayet edilir ki, Dede Korkut, Oğuz ellerini, obalarını şöyle bir dua ile efsunlamıştır: "Kolca kopuz alıp elden ele, beyden beye ozan gezer. Er cömerdin er nakesin ozan bilir. Evinizde, ilinizde çalıp söyleyen ozan olsun. Azıp gelen kazayı Tanrı savsın hanım hey" (3, 75).

Dede Korkut, "Evinizde, ilinizde çalıp söyleyen ozan olsun." arzusunu dua şeklinde öyle candan talep etmiştir ki, asırlardır Oğuz el ve obalarında çalıp söyleyen ozan eksik olmamıştır. Özellikle Dede Korkut'un yaşayıp sanatını icra ettiği coğrafyada her devirde üstat ozanlar meydan almıştır. Dede Korkut'un sesini, nefesini, sözünü terennüm edip onun kopuzunu, sazını dillendirmişlerdir.

Önemli bir husus da Korkut Ata'ya halkın "dede" unvanı vermesidir. "Dede" unvanı elbette ki siyasî, idarî bir makam tarafından verilen bir unvan değildir. Halk tarafından takdir edilen büyük bir unvandır. Elinden, dilinden emin olunan, en ulvî değerlerin emanet edilebildiği güvenilir kimse demektir. İslâmi terminolojiyle söylenecek olursa "mü'min" olan ve herkesin "mü'min olarak gördüğü bir insan" demektir.Yine Dede Korkut kitabında geçen "Korkut Ata, Oğuz kavmının müşkülünü hallederdi. Her ne iş olsa Korkut Ata'ya danışmayınca işlemezlerdi. Her ne ki buyursa kabul ederlerdi. Sözünü sayıp tamam ederlerdi" (2, 3).

**2. Dede Korkut'un Devamcısı Dede Elesger**

Nice yüzyıl sonra Dede Korkut coğrafyasının gözde muhiti Gökçe'de aynı misyonla, sazıyla, sözüyle, sanatıyla ve dede vasfıyla Elesger'in Oğuz ellerinde, köy ve kasabalarda meydan alması büyük bir tevafuktur.

Yaxşı hörmətinən, təmiz adınan,
Mən dolandım bu Qafqazın elini.
Pirə ata dedim, cavana qardaş,
Ana, bacı bildim qızı, gəlini (8, 217).

O, Korkut Ata gibi Hak'la ve halkla beraber bir ozan; halkın idrakinin, düşüncesinin, millî varlığının, manevî hasletlerinin tecessümü olmuştur. Bütün bu değerleri hem idrak etmiş, hem de bunların sunu-

culuğunu, sözcülüğünü yapmıştır. O, tarikat ehli olmamıştır. Onun yolu kelimenin tam anlamıyla peygamber yolu olmuştur. İlhamını Allah'ın mesajı Kur'an'dan, Hz. Muhammed'in sözlerinden almış, Hz. Ali'yi kılavuz kabul etmiştir. Bu sebeple de onun şiirlerindeki aşk da, muhabbet de, varlıklar da gerçek hayatın kendisidir.

Çıraktan üstada bütün âşıklar ondan güç almış, onun sözünden, sesinden, sazından faydalanmaya çalışmışlardır. O, ozan sanatını insan marifetiyle ulaşılamayacak zirveye çıkarmıştır. Onun sanatına insan marifetiyle ulaşmak bugüne kadar mümkün olamamıştır. Çünkü o, sadece ozanlık bilgi ve yeteneği ile değil, ilahî ilhamla bu sanatı zirveye taşımış ve bunun için de halk ona Dede Elesger demiştir.

Dede Elesger, sahip olduğu vasıfları, diğer ozan-âşıkların da edinmesi için büyük bir iştiyakla Dede Korkut üslûbunda "Gərəkdi" redifli şiirinde (11, 101) şöyle söylemiştir:

Aşıq olub, tərki-vətən olanın,
Əzəl başdan pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilən,
Mərifət elmində dolu gərəkdi.

Ozan-âşık olup ilinden, obasından ayrılıp başka diyarlara gidenin fıtraten akıllı, ilim, irfan sahibi, yetkin, anlayışlı olmalıdır. Cemiyette oturup durma adabını bilip marifet sahibi olmalıdır.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Halka gerçekleri onların anlayacağı şekilde anlatmalı, şeytani duygularını ve nefsî arzularını disipline edip halk içerisinde pak oturup pak durmalı, ardından hoş sözlerle anılmalıdır.

Danışdığı sözün qiymətin bilə,
Məcazi danışa, məcazi gülə,
Kəlməsindən ləlü-gövhər süzülə.
Tamam sözü müəmmalı gərəkdi.

Söylediği sözün değerini bilerek gülüp söylemesi mecazi ve muammalı olmalı. Değerli sözler söylemeli.

Arif ola, eyhamınan söz qana,
Naməhrəmdən şərm eyləyə, utana.
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ârif olmalı, üstüörtülü, farklı manalı sözleri anlamalı, utangaç

olmalı, meyli Hak ve hakikate yönelik olmalı, kalbi ve yolu doğru olmalıdır.

Diyerek tam anlamıyla mü'min bir insan tarifi yapmıştır.

**3. Dede Elesger'in Müdrik Sözleri**

Âşık şiiri geleneğini her yönüyle ve bütün incelikleriyle iyi bilen Dede Elesger'in şiirlerinde lirizm ve serbest muhabbet hâkimdir. Bununla birlikte halkın ağır hayat şartlarını, zulüm ve zorbalığı, sosyal adaletsizliği, sahte din görevlilerinin bilgisiz ve tufeyli analyış ve yaşayışlarını keskin dille tenkit etmiştir.

Âşık şiirinin bütün türlerinde şiir koşmakla birlikte yeni forma ve âşık havaları da oluşturarak âşık şiirinin gelişmesine büyük katkıda bulunmuştur. Yüksek bedii sanatkârlık numuneleri olan şiirleri bütün Türk ve akraba topluluklarda hüsnü kabul görmüştür.

Elesger, Türk dilini saf, duru, berrak kullanma becerisi, söz söyleme, makam oluşturma, hikâye tasnif etme, âşık şiiri nazım türlerinde en özgün örnekler sunmada üstatlığı elinde tutmuştur.

Bilindiği gibi insanlar ya mektepte, ya hayatta, ya da her ikisinde tahsil alabilir. Elesger'in Âşık Ali'den ders alması (1, 513; 6, 135), zamanın şartlarına göre bir nevi mektep öğrenimidir. Ancak o, esas olarak hayat mektebinde yetişmiştir. Yüksek idrak ve izanı yardımıyla sanatının bütün inceliklerini Oğuz ellerinin aksakallarının ve ak pürçeklerinin nezaretinde ve deneyiminde kazanarak erişilmez zirveye çıkmıştır.

Halkın gözünün, yüzünün, sözünün ve gönlünün tercümanı olan Dede Elesger büyük bir vukuf ve yetenekle çalıp söylemiştir. Onun şiirleri Yunus Emre'nin ilâhileri veya Karacaoğlan'ın türküleri gibi halk tarafından büyük hüsnü kabul görmüş, hafızalara, gönüllere işlenip dilden dile gönülden gönüle akarak/aktarılarak günümüze gelmiştir. Günümüzde de Türkçe konuşulan her yerde üstadın şiirleri türkü türkü, şiir şiir okunmakta, söylenmektedir.

Üstat, bir yandan güzelleri, güzellikleri, onların aşk ve muhabbetlerini şiirlerine mevzu edip halkın gönüllerini şenlendirirken, bir yandan da Çar idaresinin zorbalıklarını, haksızlıklarını ve zulmünü şiirlerine mevzu edip devrin yöneticilerinin paslı vicdanlarına sunarak halkın yürek ağrılarını dindirmeye çalışmıştır.

Pəristav, naçalnik gələndə kəndə,
Obanı oymağı vururlar bəndə,
Xərc üstə çoxları düşdü kəməndə,
Qamçıda belinin qatı çıxıbdı (11, 70).

Gəzirlər havalı, ağalar bəylər,
Çalışır qan tərdə naxırçı nökər,
Müxtəsər deyir Aşıq Ələsgər,
Kovxanın, kattanın zatı çıxıbdı (11, 71).

*(Kovxa / katta: Muhtar, köy veya kasaba büyüğü. Zatı çıxıbdı: Asaleti kaybolmuş).*

Üstat, eleştirdiği insanlar arasında devrin hâkimlerini, beylerini, kadılarını ve din adamlarını da dikkatlere sunmaktan çekinmemiştir:

Ələsgər, elmində olma nabələd,
Doğru söylə, sözün çıxmasın qələt.
Şahiddə iman yox, bəydə ədalət,
Qazıların düz bazarın görmədim (4, 85).

Yaptığı ikazların işe yaramadığını, haksızlıkların ve adaletsizliklerin devam ettiğini görünce de saz ve mızrabıyla kollarını açıp kafasını göğe kaldırarak "Yeri, göyü, ərşi, kürsü yaradan, / Adil padişahsan ədalət eylə" (4, 74) diyerek onları Tanrı'ya arz etmiştir.

**Sonuç**

Dede Korkut ozan-âşık sanatı, tamamen soy, kök bağlılığına ve "genetik" devamlılığa dayanan sanat ve sanatçı dünyasıdır. Asırlar önce dünya sahnesinde boy gösteren Dede Korkut ozan-kopuz sanatının asırlar sonra Dede Elesger'in sazında, sözünde ve şahsiyetinde zuhur etmesi bunun göstergesidir.

Dede Elesger'in yaşadığı muhit, sosyal iklim ve sanat dünyası değerlendirildiğinde Dede Korkut sanatının soy kökü üzerinde neşvünema bulduğu görülür. Bununla da denilebilir ki sanatçı da, sanat eseri de kadim kökleri üzerinde vücut bulmaktadır.

Gökçe mahallinde dünyaya gelip burada sanatını icra eden Elesger de Korkut Ata gibi elinde sazıyla oba oba, yayla yayla, köy köy, şehir şehir gezerek halkın arzuhâlini beylere, onların beklentilerini de halka sunan bilge ozan olmuştur.

Dede Elesger, tasavvuf/tarikat ehli olmamıştır. Onun yolu İslâm peygamberi ve onun ilmin kapısı dediği Hz. Ali'nin yolu olmuştur. Bu sebepten şiirlerinde, aşk, muhabbet ve varlıklar gerçek hayattandır. Bununla birlikte halkın ağır hayat şartlarını, zulüm ve zorbalığı, sosyal adaletsizliği, devrin hâkim, bey ve kadınlarının tufeyli anlayış ve yaşayışlarını da keskin dille tenkit etmiştir.

Sözü ve özü insan olan bu bilge ozana Oğuz yurdunun evlatları dede demişlerdir. O, “Gerekdi” redifli koşmasında dede vasıflı ozan-âşık olmanın manifestosunu ortaya koymuştur.

Dede Elesger’in Âşık Ali’den aldığı dersler mektep talim terbiyesi sayılırsa o hem mektep hayatı, hem de hayat mektebinde yetişmiştir. Çok yönlü sanatını bütün yönleriyle Oğuz ellerinin aksakallarının ve ak pürçeklerinin nezaretinde ve deneyiminde kazanmış ve kendisiyle birlikte erişilmez zirveye çıkarmıştır. Onun bedii sanatkârlık numuneleri olan şiirleri bütün Türk ve akraba topluluklarda hüsnü kabul görmüştür.

## KAYNAKÇA


1. Azərbaycan Sovet Ensiklopediyası, C. I, Bakı, 1976
2. Çakan, Ayşegül, Dede Korkut Hikâyeleri – Kitab-ı Dedem Korkut-Türkiye İş Bankası Kültür Yayınları, İstanbul, 2020
3. Ergin, Muharrem, Dede Korkut Kitabı I, Türk Dil Kurumu Yayınları, Ankara, 2014
4. Ələsgər, İslam, Aşıq Ələsgər (Əsərləri, Dastan, Rəvayətlər, Xatirələr), Bakı, Şərq-Qərb, 1999
5. Gökyay, Orhan Şaik, Dedem Korkudun Kitabı, Kabalcı Yayınevi, 2006, İstanbul
6. Kafkasyalı, Ali, İran Türk Edebiyatı Antolojisi III, Atatürk Üniversitesi Yayınları, 2002, Erzurum
7. Kafkasyalı, Ali, İran Türkleri Âşık Muhitleri, Salkımsöğüt Yayınları, 2009, Erzurum
8. Qasımlı, Məhərrəm və Allahmanlı, Mahmud, Aşıq Ədəbiyyatı Antologiyası, Aşıq Poeziyası I, Xalq Bank, 2017
9. Qasımlı, Məhərrəm, Ozan Aşıq Sənəti, Uğur, Bakı, 2003
10. Rüstəmli, Fərzəli, Dədə Ələsgər, Bakı, 2017
11. Təhmasib, M.H. Aşıq Ələsgər Seçilmiş Şeirləri, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1972
12. Zeynalov, Fərhad və Əlizadə, Samət, Kitabi-Dədə Qorqud, Yazıçı, Bakı, 1988

# AZƏRBAYCAN MÜHACİRƏT FOLKLORŞÜNASLIĞI VƏ AŞIQ ƏLƏSGƏR

# THE EMIGRATIONAL STUDY OF FOLKLORE OF AZERBAIJAN AND ASHYG ALESKER

# ЭМИГРАЦИОННАЯ ФОЛЬКЛОРИСТИКА АЗЕРБАЙДЖАНА И АШУГ АЛЕСКЕР

**Almaz HƏSƏNQIZI**
*Filologiya elmləri doktoru, professor*
*AMEA Folklor Institutu*
*gunsel_gunsel@yahoo.co.uk*

**Summary**

The Azerbaijani intelligence being obliged to emigrate due to pressure of the Soviet political system have taken the folklore memory by them. This memory rendered them a power for standing the home-sickness because, first of all, it ensured permanent existence of the native language together with them, and subsequently, somewhat reduced the bitterness of separation.

Thus, the folk poetry expressing the whole magic and beauty of the native language including the ashygs' creation always was in the spotlight both in the Motherland and abroad, revining and being investigated by a lot of researchers.

It is noticeable that various ashygs' lives and creations were investigated in emigration and, their poems and eposes were collected and published in mass-media of foreign countries as well as published as books.

Ashyg Alesker is one of the masters of sazz the creation of which is mostly investigated in the emigrational study of folklore of Azerbaijan. The present report will analyze the investigation of Ashyg Alesker's life and creation researched by emigrating folklore scientists like Abdulvahab Yurdsevar, Ahmad Jafaroghlu, Khaver Aslan, etc.

**Key words:** Ashyg Alesker, foreign land, emigration, folklore, the Motherland, Khaver Aslan

**Резюме**

Азербайджанская интеллигенция, вынужденная эмигрировать из-за давления советской политической системы, увезли вместе с собой и фольклорную память. Эта память придавала им силы выдержать тяжесть тоски по родине, так как, прежде всего, она обеспечивала постоянное существование родного языка рядом с ними, и в конечном итоге, частично уменьшала горечь разлуки.

Таким образом, народный стих, выражающий всё волшебство и красоту родного языка, в том числе ашугское творчество, всё время

находилось в центре внимания как на самой родине, так и на чужбине, возрождалось вживую, и вокруг него проводились многочисленные исследования.

Необходимо отметить, что в эмиграции проведены исследования жизни и творчества различных ашугов, их стихи и эпосы собраны и опубликованы в прессе зарубежных стран, а также изданы в виде книг.

Одним из мастеров саза, творчество которых наиболее исследовано в эмиграционной фольклористике Азербайджана, является Ашуг Алескер. В докладе будут проанализированы исследования жизни и творчества Ашуга Алескера эмигрировавших фольклористов – Абдулвахаба Юрдсевара, Ахмеда Джафароглы, Хавер Аслан и других исследователей.

**Ключевые слова:** Ашуг Алескер, чужбина, эмиграция, фольклор, родина, Хавер Аслан

Sovet sosialist sisteminin xalqlara qarşı müstəmləkəçi münasibətini ilk günlərdən dərk edən siyasi səbəblər üzündən vətənindən didərgin düşərək ömrünü qürbət ellərdə sürməyə məhkum Azərbaycan ziyalıları – Əli bəy Hüseynzadə (1864-1940), Əhməd bəy Ağaoğlu (1869-1939), Məhəmməd Əmin Rəsulzadə (1884-1955), Ceyhun bəy Hacıbəyli (1891-1962), Mirzə Bala Məmmədzadə (1898-1959), Əhməd Cəfəroğlu (1899-1975), Məmməd Sadıq Aran (Sənan) (1895-1971), Nağı Şeyxzamanlı (1883-1967), Əbdülvahab Yurdsevər (1898-1976), Hüseyn Baykara (1904-1984), Əli Volkan (1897-1981) və başqaları xalqının zəngin yaradıcılığından həm müqəddəs amallarının təbliği məqsədilə istifadə etmiş, həm də el ədəbiyyatının qorunması, gələcək nəsillərə təhrif olunmadan, düzgün çatdırılması, eyni zamanda dünyada tanınması üçün onların toplanması, tərcüməsi, nəşri ilə bağlı böyük işlər görmüşlər. Mühacirətdə vətən həsrəti ilə məşəqqətlərə məruz qalsalar da, sovet senzurasından uzaqlarda, kommunizm basqısı olmadan təhlükəsiz bir şəraitdə aparılan bu tədqiqatlar öz obyektivliyi ilə diqqəti cəlb etməkdədir.

Bir xalqın varlığını əbədiləşdirən onun dilidir. Qürbət həyatını cəhənnəm əzabına döndərən yalnız torpaq həsrəti deyil, həm də ana dilindən ayrı düşməkdir.

Məhz bu səbəbdən Azərbaycan aşıq sənəti mühacirət folklorşünaslığının daim diqqət mərkəzində olmuşdur. Hətta qürbətə düşmüş, vətən həsrəti çəkən bu insanlar tədqiq etməkdən əvvəl, ilk günlər xalq ədəbiyyatından, xüsusən aşıq sənətindən, belə demək mümkündürsə, təskinlik ala bilmişlər. Mühacirətdə həm ayrı-ayrı aşıqların həyat və yaradıcılığı ilə bağlı tədqiqatlar aparılmış, həm də onların yazdıqları

şeirlər, dastanlar toplanaraq bəzən mühacirət mətbuatında, bəzən ayrıca kitab şəklində dərc edilmişdir. Belə ki, Məmməd Sadıq Sənanın "Azərbaycan saz şairləri", Mehmet Şakirin "Aşıq Qurbaninin üç mənzuməsi", Mirzadə Mustafa Fəxrəddinin "Azəri aşıqlarından Sarı Aşıq", Əbdülvahab Yurdsevərin "Aşıq Ələsgər" və s. kimi məqalələri nəşr olunmuşdur. Azərbaycan mühacirət folklorşünaslığının görkəmli nümayəndəsi, professor Əhməd Cəfəroğlu aşıq yaradıcılığına xüsusi önəm verərək el ədəbiyyatının klassikləri Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Bağdad xanım və başqaları ilə bağlı tədqiqatlar aparmış, onların əsərlərini toplayıb nəşr etdirmişdir.

Azərbaycan mühacirət folklorşünaslığında ən çox tədqiq edilən saz ustadlarından biri Aşıq Ələsgərdir. Belə ki, mühacirətdə Qurbani, Dədə Qasım, Aşıq Abbas Tufarqanlı, Sarı Aşıq, Bağdad xanım və başqaları haqqında yalnız məqalələr işıq üzü görmüşdürsə də, Aşıq Ələsgər yaradıcılığı ilə bağlı monoqrafiya dərc olunmuşdur. Bu, ilk növbədə Aşıq Ələsgərin heyrətamiz istedadı, şirin ana dilində yaratdığı qeyri-adi, möcüzəvi əsərlərinin qazandığı böyük sevgi ilə bağlıdır. Digər tərəfdən, Aşıq Ələsgər şeirləri dillərdə dolaşdığına və sovet Azərbaycanının sərhədlərindən çox-çox uzaqlara yayıldığına görə onları əldə etməyin mümkün olmasından irəli gəlmişdir.

Aşıq Ələsgər yaradıcılığını zirvələrə daşıyan ən mühüm amil isə onun doğma ana dilinin incəliklərinə dərindən bələd olması və şeirində hər bir sözü məqamına uyğun məharətlə işlətməsindədir. Görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadə (1925-2009) ana dilimizin gözəlliyindən bəhs edərkən, ilk növbədə xalq ədəbiyyatını, onun ən görkəmli ustadlarından Aşıq Ələsgəri xatırladaraq yazır: "Ələsgər ana dilimizi – sözlərin yükünü, çəkisini, rəngini, çalarını incəliklərinə qədər duyduğundan onun hər rəngində yeni məzmun yaradır, sözü elə yerindəcə işlədir ki, biz onun yalnız səsini eşitmirik, tamını, duzunu, şirəsini dadırıq" (13,145).

Qeyd etmək lazımdır ki, İstanbulda nəşr edilən "Azərbaycan yurd bilgisi"ndə hələ 1933-cü ildə Səlim Rəfiq Rəfioğlu tərəfindən Dəli Alının şəxsiyyəti və onun haqqında yaranan folklor örnəklərinə həsr etdiyi "Azəri xalq ədəbiyyatında Dəli Alı dastanı" məqaləsinə Aşıq Ələsgərin yaradıcılığından bir örnək daxil edilmişdir. S.Rəfiq H.Əlizadənin 1929-cu ildə nəşr etdirdiyi "Nağıllar" kitabından Aşıq Ələsgərin Dəli Alı ilə bağlı yazmış olduğu mənzum parçanın bəndlərinin ayrı-ayrı təhlilini vermişdir. Lakin bu şeirin müəllifi Aşıq Ələsgər haqqında daha dolğun məlumat əldə edə bilmədiyini təəssüflə məqa-

ləsində bildirmişdir: "On birinci parçadan anlaşıldığına görə dastanın şairi Ələsgər ismində bir aşıqdır. Ələsgərin kimliyini təyin etmək əlimizdəki vəsiqələrə görə imkansızdır. Yalnız "Nağıllar"ın ikinci cildinin sonunda Alının müasiri olan və əlli, altmış yaşında ikən 1921-ci ildə ölən göyçaylı bir saz şairindən bəhs edilir ki, bizim dastanın müəllifi Ələsgərmidir, başqasımıdır? Bu xüsusda doğru və sağlam bir fikir söyləyə bilmək üçün məsələni qətiyyətlə aydınlaşdıra biləcək vəsiqələri əldə edincəyə qədər açıq buraxıram" (12, 419).

Ayrıca qeyd etmək lazımdır ki, həmin məqalədə örnək göstərilən parça Aşıq Ələsgərin "Əsərləri"ndə (Bakı, Şərq-Qərb, 2004, s. 343-348) verilən mətndən müəyyən qədər fərqlidir.

Bu tədqiqatda bir məqam diqqəti çəkir. Belə ki, adı keçən kitaba istinad edən Səlim Rəfiq Aşıq Ələsgərin Göyçaydan olması ilə bağlı yanlış məlumat verir. Ola bilsin ki, bu, həmin sözün müəllif tərəfindən düzgün oxuna bilməməsindən qaynaqlanmışdır. Lakin S.Rəfiqin tədqiqatında aşığın yaşı və ölüm tarixilə bağlı məlumat da fərqlidir. Xatırladaq ki, "Haqq-nahaq seçilər haqq divanında" adlı kitabında tədqiqatçı alim Nazir Əhmədli folklorşünaslıq tariximiz, o cümlədən Aşıq Ələsgərin bioqrafiyası ilə bağlı yeni faktları üzə çıxarmışdır. Ayrıca, bu faktlar Qafqaz Canişinliyinin müxtəlif illərdə (1831, 1842, 1852, 1859, 1873, 1886) xüsusi dəqiqliklə tərtib etdiyi kameral təsvirlərə, yəni sənədlərə istinadən ciddi şəkildə əsaslandırılmışdır (9). S.Rəfiqin aşığın yaşı və ölüm tarixi ilə bağlı verdiyi məlumat, özünün də etiraf etdiyi kimi, sənədlər əldə etməyin çətinliyi üzündən həqiqətə uyğun deyildir.

Mühacirətdə Aşıq Ələsgər yaradıcılığı ilə bağlı ilk tədqiqat Ankarada nəşr edilən "Azərbaycan" dərgisinin 1952-ci il 7-ci sayında verilmiş Əbdülvahab Yurdsevərin eyniadlı məqaləsi hesab oluna bilər. Müəllif məqaləsinə ilk növbədə aşığın həyatı haqqında bilgi verməklə başlamış, lakin təəssüf ki, onun doğum yerini Göyçay olaraq göstərmişdir. Əbdülvahab bəy bu məlumatı əldə etdiyi mənbəni bildirməsə də, yuxarıda S.Rəfiqin verdiyi qeydə əsasən eyni səhvin haradan qaynaqlandığı məlum olur.

Ə.Yurdsevər bütövlükdə Aşıq Ələsgər yaradıcılığını – məhəbbətə, gözəllərin vəsfinə, təbiət təsvirlərinə həsr edilən, əxlaqi-tərbiyəvi səpkidə yazılan, nəhayət, ictimai-siyasi məzmunlu şeirlər kimi qruplaşdıraraq təsnif etmişdir.

Məqalədə müəllif aşığın xalq arasında bu şəkildə məşhurlaşmasının səbəbinin onun axıcı dilində və yüksək sənətkarlıq qabiliyyətində olduğunu qeyd etmişdir: "Aşıq Ələsgərin başlıca özəlliyi və

dəyəri hər növ kitab təsirindən, rəsmi dil və üslubdan uzaq və özünün aşıq ruh və təbiətinə sadiq qalmış olmasıdır" (14, 2).

Aşıq Ələsgərin fövqəladə istedadından qürurla bəhs edən Əbdülvahab Yurdsevər onun yaratdığı cinasların "həm təbii, həm də bədii mahiyyət daşıdığı" (14, 3) üçün dillər əzbərinə çevrildiyini söyləməklə yanaşı, "Narın üz" təcnisindən məqaləsinə saldığı örnəyin tərkibindəki "narın" və "üz" sözlərinin işlənmə məqamlarına görə geniş şərhini vermişdir.

Ə.Yurdsevər Aşıq Ələsgəri zamanəsinin ən görkəmli sənətkarı kimi dəyərləndirmiş, onun müxtəlif məzmunlu şeirlərindən örnəkləri məqaləsinə əlavə edərək təhlilini aparmışdır.

Qeyd etmək lazımdır ki, professor İsrafil Abbaslı 1972-ci ildə qələmə aldığı "Türk alimləri Aşıq Ələsgər haqqında" (1, I, 145-149) adlı məqaləsində Əbdülvahab Yurdsevərin yuxarıda bəhs olunan tədqiqatını xatırlatmışdır. Aşıq Ələsgərlə bağlı Türkiyədəki tədqiqatlardan danışarkən, İ.Abbaslı yazır: "Şəxsiyyəti barədə ilk söz demiş alimlərdən biri Əbdülvahab Yurdsevər olmuşdur. Müəllifin "Azərbaycan kültür dərgisi"ndə dərc etdirdiyi bir yazıda Ələsgər haqqında ötəri məlumat verilmişdir ki, bu da ilk təşəbbüs kimi qiymətlidir" (1, 145).

İ.Abbaslının haqqında danışdığı müəllifin (Əbdülvahab Yurdsevər siyasi mühacir idi) azərbaycanlı olduğuna işarə etməməsi, yəqin ki, məqalənin yazıldığı sovet dönəmilə bağlıdır. Lakin araşdırmanın nəşr olunduğu dərginin adı həmin tədqiqatda yanlış göstərilir. Bu da sovet hakimiyyəti illərində xaricdə (xüsusən Türkiyədə!) nəşr olunan bir mənbənin əldə edilməsinin çətinliyindən irəli gəlir. Lakin məhz həmin dövrdə siyasi mühacirin adını dilə gətirmək, üstəlik tədqiqatı haqqında xoş sözlər demək böyük bir cəsarət tələb edirdi.

İyirminci əsrin sonlarında mühacirətdə aşıq yaradıcılığı ilə bağlı tədqiqat aparanlar arasında doktor Xavər Aslanın araşdırmalarını ayrıca qeyd edilməlidir. Onun redaktorluğu ilə İstanbulda nəşr edilən "Xəzər" dərgisində Azərbaycan xalq ədəbiyyatı ayrıca bir rubrika kimi nəzərdə tutulmuş, hər sayında aşıqların yaradıcılığından örnəklər də verilmişdir. Bundan başqa, Xavər xanım dərginin müxtəlif saylarında "Azərbaycan aşıq ədəbiyyatı" (4), "Sözlü ədəbiyyatımızda həcv" (3), "Əbədi yaşayanlar" (2) və s. məqalələrində Azərbaycan aşıqlarının yaradıcılığından bəhs etmiş, ayrıca olaraq "Azərbaycan aşıq şeiri" silsiləsi ilə "Aşıq Ələsgər" (7) adlı kitab tərtib etmiş, özü də ona geniş müqəddimə yazmış, 1984-cü ildə nəfis şəkildə İstanbulda nəşr etdirmişdir. Müəllifin yazdığı "Ön söz"ə böyük həssaslıqla seçdiyi, bütün mühacirlərin qəlbini titrədən "Eldən ayrı aşıq niyə yaşadı?" sərlövhəsi də diqqəti cəlb etmək-

dədir. X.Aslan, yəqin ki, Aşıq Ələsgərin "Dağlar" rədifli qoşmasındakı çox ibrətamiz məzmunlu: "Arsız aşıq elsiz niyə yaşadı? Ölsün Ələsgər tək qulların, dağlar!" beytindəki misraya uyğun olaraq bu adı seçmişdir. Xatırladaq ki, bu qoşma ustadın "Əsərləri"nə İslam Ələsgərin yazdığı "Haqq aşığı" adlı "Ön söz"də göstərildiyi kimi 1905-ci il erməni-müsəlman qırğınları zamanı dərin kədərlə qələmə alınmışdır" (8, 18).

Xavər xanım bütün türk dünyasında, xüsusilə həm Güney, həm də Quzey Azərbaycanda saz sənətinin xalq arasında geniş yayılmasının və böyük sevgi qazanmasının səbəblərini müəyyənləşdirərkən, onun tarixi köklərinin çox əski dövrlərə uzanmasına diqqəti yönəltmişdir: "… son illərdə türk torpaqlarında (Güney Azərbaycanın Cığamış şəhərində) aparılan arxeoloji qazıntılar və bu qazıntılarda əldə edilən saxsı qablar üzərindəki rəsmlər milli aşıq sənətimizin, müqəddəs çalğı alətimiz qopuzun tarixin çox əski çağlarında var olduğunu bir daha isbatlamışdır" (8, 5).

Qeyd edək ki, Xavər Aslan Azərbaycan aşıq şeirinin yüksəlişindən bəhs edərkən, bu sənət sahəsinin digər xalqların ədəbiyyatına olan təsirinə xüsusi diqqət yetirmiş, "Azərbaycan aşıq ədəbiyyatı" məqaləsində bu barədə yazmışdır: "Qonşu xalqların ədəbiyyatını da təsiri altına alan böyük və zəngin aşıq ədəbiyyatına sahibiz. Əzəmətli keçmişi, böyük ənənələri olan Azərbaycan aşıq sənəti XVII-XVIII əsrlərdə daha da irəliləyərək ölməz milli dastanlar yaratmış, ədəbiyyat tariximizdə önəmli yer tutan ustad aşıqlar yetişdirmişdir" (4, 13).

Beləliklə, Xavər xanım Azərbaycanın ustad aşıqlarının yaradıcılıqlarını təbliğ etmək məqsədilə Aşıq Ələsgər şeirlərinə müraciət etmiş və bu araşdırmasında dövrünün məşhur alimləri Məmmədhüseyn Təhmasib (1907-1982), Feyzulla Qasımzadə (1898-1976) və başqalarının tədqiqatlarından da bəhrələndiyini saygı ilə bildirmişdir.

Əvvəlcə aşığın bioqrafiyası haqqında qısa məlumat verən Xavər xanım onun gənc ikən nakam bir eşq yaşadığını, lakin sonu kədərlə tamamlanan bu böyük sevginin xalqımıza ustad sənətkar qazandırdığını qeyd etmişdir: "Bəlkə də, Azərbaycan ədəbiyyatına Aşıq Ələsgəri qazandıran bu nakam eşq olmuşdur. Bir sevgini qeyb etsə də, eşq dolu könlü yaralansa da, milyonların sevgisini, heyranlığını əldə etmiş, əbədi olaraq bir millətin kültür həyatında yaşama haqqını qazanmışdır sənətçi" (7, 7-8).

Aşıq Ələsgərin yaratdıqlarına heyranlığını bildirən müəllif onun dərin zəkasının və sonsuz istedadının ortaya çıxmasında mühüm rolu olmuş Aşıq Alının adını böyük bir məhəbbətlə xatırlamış, bu ustad sənətkarların şöhrətinin əsas səbəbini məhz xalq duyğularına səda-

qətləri, vətənə, torpağa məhəbbətlərinə bağlamış, əsərlərinin real həyatı dolğunluğu ilə əks etdirdiyi üçün əbədilik qazandığını qeyd etmişdir: "Aşıq Ələsgər yaradıcılığı xalq zəkası, xalq düşüncəsindən qaynaqlanır. Dolayısıyla onun şeirləri, türküləri ata-babalarımızın gözəllik duyğularını, sənətə olan sevgi və bağlılığını, zövq və istedadını ortaya qoyur. Toyda, düyündə, bulaq yolunda, çeşmə başında gördüyü bu gözəlləri aşığımız həyatda olduğu kimi təsvir edir. Sənətçinin vəsf etdiyi bu qız və gəlinlər yerli geyimləriylə, təbii gözəllikləriylə, hətta adlarıyla qarşımızda canlanır" (7, 9).

Fikrini dəqiqləşdirmək üçün Xavər xanım Aşıq Ələsgərin qoşmalarından örnəkləri də tədqiqatına əlavə etmişdir. Müəllif həm Molla Pənah Vaqif, həm də Aşıq Ələsgərin türk ustadlarından Qaracaoğlana yaradıcılıq etibarı ilə çox yaxınlığının səbəbinin genetik yaddaş, eyni kökdən törəmələri ilə bağlı olmasında görür: "Anadolu türk xalq şeiriylə Azərbaycan aşıq ədəbiyyatındakı bağlılığın bir səbəbi də Anadolu türk sənətçiləri ilə Azərbaycan türk aşıqlarının müştərək bir ana qaynaqdan bəslənmələri və faydalanmalarıdır. Ortaq kültür dəyərlərini quruda biləcək, silib ata biləcək bir güc tanımır insanlıq. Milli aşıq ədəbiyyatı da bu gerçəyi başqa şəkildə anladır, söyləyir bizlərə" (7, 11).

Xavər Aslanın tədqiqatında, mühacirətdə aparılan digər araşdırmalarda olduğu kimi, aşığın qürbət şeirlərinə xüsusi diqqət yetirilmişdir. Müəllif Dadaloğlunun məşhur:

Qalxdı, köç eylədi Avşar elləri
Ağır-ağır gedən ellər bizimdir, –

həmçinin Xəstə Qasımın "Qal indi" qoşmasını da tədqiqatına daxil edərək, aşıq şeirində qürbət mövzusunun xüsusi yeri olduğunu, bu acıların real həyatdan doğduğunu ürək ağrıları ilə təsvir etmişdir: "Qürbət və ayrılıqdan şikayətlənən, könlü insan sevgisiylə dolub daşan Aşıq Ələsgər milli fəlakət və faciələri yaradanlara, insanları qanlı savaşlara sürükləyənlərə qarşı olmuşdur… Aşıq elindən ayrı yaşaya bilməz. Elindən, xalqından qopan, ayrılan aşıqlar ölümə məhkumdur. Aşıq Ələsgər də sanki bunu vurğulayır sənət dostlarına, yeniyetmələrə" (7, 12).

Müəllif Aşıq Ələsgər yaradıcılığında ictimai-siyasi məzmunlu şeirlərin mühüm əhəmiyyətə malik olduğuna diqqət yetirmiş, məşhur "Dağlar" qoşmalarını təhlil etmişdir.

Xavər Aslan monoqrafiyasında Aşıq Ələsgərin şeirlərinin poetikasından, onun cinasyaratma qabiliyyətindən, atalar sözlərindən, deyimlərdən, frazeoloji birləşmələrdən yerli-yerində işlətmək bacarı-

ğından geniş söhbət açmışdar. Ümumiyyətlə, mühacirətdə çox vaxt təhlilə cəlb edilən əsərlərə ideoloji cəhətdən yanaşıldığından onların poetikası nadir hallarda tədqiqatçıların araşdırma predmetinə çevrilmişdir. Lakin Xavər xanımın araşdırmalarında hər zaman bu məsələ diqqət mərkəzində olduğu üçün onlar böyük əhəmiyyət kəsb edir.

Aşıq Ələsgər yaradıcılığını qruplaşdıran tərtibçi kitaba 67 qoşma, 18 təcnis, 2 dodaqdəyməz, 5 cığalı təcnis, 3 deyişmə, 16 gəraylı daxil etmişdir. Maraqlıdır ki, İstanbulda nəşr edilən və türk oxucusu üçün nəzərdə tutulan bu şeirlər öz yazıldığı tərzdə, tam orijinal verilmiş, hər səhifədə aydın olmayan sözlərin lüğəti tərtib edilmişdir ki, nəticə etibarı ilə Aşıq Ələsgər yaradıcılığının təravəti qorunmuş, şeirlər öz bədii zərifliyini, dəyərini itirmədən təqdim olunmuşdur.

Xavər xanım Aşıq Ələsgər yaradıcılığına heyranlığı ilə yanaşı, ana dilimizin zənginliyini, gözəlliyini də tədqiqatında əks etdirməyə çalışmış və sənətkarın sözünün qeyri-adi cazibəsinin bu faktla sıx bağlı olduğunu bildirmişdir: "Dilimizin xüsusiyyətlərini iyicə mənimsəyən milli aşıq şeirimizin bu dev sənətçisi dilin ahəng qanununu, səs və sözlərimizin musiqililiyini, xalq ədəbiyyatımızın zənginliyini, milli heca vəznimizin oynaq ölçülərini genişliyi və rəngarəngliyi ilə dəyərləndirə bilmişdir, Aşıq Ələsgəri yaşadan, sənətini əbədiləşdirən bu özəlliklərdir" (7, 15). Bu fikrini əsaslandırmaq üçün müəllif:

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım, döndü közə.
Keçən sözü vurma üzə,
Keçən keçdi, olan oldu, –

gəraylısını tədqiqatında örnək kimi vermişdir.

Qeyd etmək lazımdır ki, həmin gəraylı Aşıq Alının "Əsərləri"ndə, A.Nəbiyevin "Azərbaycan xalq ədəbiyyatı" dərsliyində Aşıq Alının gəraylısı kimi təqdim edilmiş, son – möhür bənddə onun adı öz əksini tapmışdır:

Aşıq Alı sənə qurban,
Gəl eyləmə bağrımı qan.
Uçdu əldən tülək tərlan,
Sar da kəklik alan oldu, – (5, 21; 11, II c., 181).

Xavər xanım həmin gəraylını "Aşıq Ələsgər" kitabına bütöv şəkildə, "Azərbaycan aşıq ədəbiyyatı" məqaləsinə isə bir parça (4, 19) daxil etmişdir, onun variantında əvvəlki bəndlər Aşıq Alının şeirinə tamamilə uyğun gəlsə də, yalnız sonuncu bənd fərqli səslənməkdə, bu məqamda Aşıq Ələsgər adını yaşatmaqdadır:

Ələsgərəm, sənə qurban,
Gəl eyləmə bağrımı qan.
Səni məndən ayrı salan,
Filan oğlu filan oldu (7, 147).

Məlumdur ki, Aşıq Ələsgər yaradıcılıq üslubuna görə Aşıq Alıya ən yaxın olan sənətkar hesab edilir. Bunu nəzərdə tutan professor H.İsmayılov Aşıq Alıya aid edilən sənət nümunələrini dəqiqləşdirmək üçün, ya onun özünün digər şeirlərilə, ya da məhz Aşıq Ələsgərin yaradıcılığındakı poetik örnəklərlə müqayisənin doğru olacağını bildirmişdir: "…ya Aşıq Alının və ya onun birbaşa sənət və mənəvi varisi Dədə Ələsgərin poetik nəfəsi, ruhu və dili ilə müqayisədə müəyyənləşdirilməlidir. Çünki Aşıq Alının ən böyük əsəri elə Ələsgərin özüdür" (5, 14). Məhz belə yaxınlıq bəzi hallarda onların şeirlərinin bir-birinin adına aid edilməsi ilə nəticələnmişdir.

Qeyd edək ki, Aşıq Ələsgər Vətəndə olduğu kimi, mühacirət ömrü yaşayanların da ən çox sevdiyi, yaradıcılığına heyranlıq duyduğu böyük söz ustadlarından biridir. Sənətkarın yetişdiyi torpağa, milli mədəniyyətə, özündən əvvəl yaranan zəngin kültürə sədaqətini, sıx bağlılığını nəzərə alan folklorşünas alim Əhməd Cəfəroğlu heyranı olduğu Aşıq Ələsgər yaradıcılığının möhtəşəmliyinin əsas səbəblərindən birini məhz onun Qurbani irsinə olan sonsuz sevgisilə əlaqələndirmişdir: "Qurbaninin aşıq ədəbiyyatına təsiri uzun müddət davam etmişdir. Onun yaradıcılığından ilham alanlardan biri də XIX yüzilliyin müqtədir sənətkarlarından olan Aşıq Ələsgər idi" (10, 133).

Mühacirətdə nəşr edilmiş "Aşıq Ələsgər" kitabının cildinin üzərində qeyd olunan sözlər isə bu görkəmli söz ustadının yaradıcılıq şöhrətinin vətənindən başqa, digər ölkələrdə də yayılma arealını müəyyənləşdirməklə bərabər, Azərbaycan xalq ədəbiyyatının böyük təsir gücünü əks etdirməkdədir: "XIX yüzil Azərbaycan aşıq şeirində sosial motivlərlə zənginləşərək irəliləmə çağıdır. Aşıq Ələsgər dadlıduzlu qoşmaları, gəraylıları, dodaqdəyməz, diltərpənməz, mürəbbe və müxəmməsləri ilə şeir sənətimizi ortaya qoymuş, aşıq şeirini zirvələrə ulaşdırmışdır. Bu ünlü xalq ozanımızın şöhrəti Azərbaycanda qalmamış, bütün türk ellərinə yayılıb sevilmişdir".

Məhz bu sözlərlə Xavər Aslan tədqiqat üçün niyə Aşıq Ələsgər yaradıcılığına müraciət etdiyini aydınlaşdırmağa müvəffəq olmuşdur.

"Xəzər" (İstanbul) dərgisində 1980-ci ildə nəşr etdirdiyi "Sözlü ədəbiyyatımızda həcv" məqaləsində Xavər xanım yenidən Aşıq Ələsgər yaradıcılığına qayıdaraq, onun bir sıra şeirlərinin sənətkarlıqla

şirin, sadə xalq dilində və incə yumorla süsləndiyini bildirmiş, mülahizələrini dəqiqləşdirmək məqsədilə:

Aşıq Ələsgərəm, söylənir adım,
Budur ürəyimdə mətləb-muradım.
Sənin ərin ölsün, mənim arvadım,
İkimiz də qalaq yaslı, yaralı (3, 9)

– kimi bir neçə örnəyi də məqaləsinə daxil etmişdir. Bundan əlavə, tədqiqatçı aşığın "Sənət meydanının təsadüfi insanların, istedadsız kimsələrin yeri olmadığını anlatdığını", qabalığa, haqsızlığa qarşı etiraz etdiyini onun öz şeirlərindən örnəklərə əsaslanaraq açıqlamışdır (3, 10).

Aşıq Ələsgər Azərbaycan saz sənəti ilə bağlı aparılan bütün araşdırmalarda adı qürurla çəkilən böyük ustadlarımızdandır. Onun yaradıcılığı hər zaman diqqət mərkəzində olmuşdur, təbii ki, bu da sənətkarın sözünün sirrindən, sehrindən, möcüzəsindən irəli gəlir. Aşığı vətənindən kənarda tədqiq və təbliğ edən mühacirətdəki araşdırmaların da diqqətə alınması isə həm Azərbaycan folklorşünaslığı, həm də onu sevənlər üçün mühüm əhəmiyyətə malikdir.

## QAYNAQLAR

1. Abbaslı İsrafil. Folklorşünaslıq axtarışları, 2 cilddə, I cild, Bakı: Nurlan, 2009, 512 s.
2. Aslan Haver. Ebedi yaşayanlar, "Hazer", İstanbul, 1980, yıl 2, ağustos, sayı 17, s. 3-10
3. Aslan Haver. Sözlü edebiyatımızda hiciv, "Hazer", İstanbul, 1980, yıl 2, may, sayı 14, s. 3- 11
4. Aslan Haver. Azerbaycan aşığ edebiyatı, "Hazer", İstanbul, 1980, yıl 1, mart, sayı 11-12, s. 13-20
5. Aşıq Alı. Əsərləri, Tərtib edən H.İsmayılov, B., "Avrasiya press", 2006, 192 s.
6. Aşıq Ələsgər. II kitab, Toplayanı I.Ələsgərov, B., Elm, 1972
7. Aşık Elesker. Hazırlayan dr. Haver Aslan. İstanbul, Edebiyat Cephesi Gazetesi Matbaacılık ve Neşriyat, 1984
8. Aşıq Ələsgər. Əsərləri, Tərtib edən İslam Ələsgər, B., "Şərq-Qərb", 2004
9. Əhmədli Nazir. Haqq nahaq seçilər haqq divanında, Elm və təhsil, 2017, 340 s.
10. Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri, Bakı, Mütərcim, 2008
11. Nəbiyev Azad. Azərbaycan xalq ədəbiyyatı, I cild, Bakı, Turan, 2002
12. Refik Selim. Azeri Halk Edebiyatında "Deli Alı" destanı, "Azerbaycan Yurt Bilgisi", İstanbul: 1933, yıl 2, sayı 23, s. 415-419
13. Vahabzadə Bəxtiyar, Sadəlikdə böyüklük, Bakı, Yazıçı, 1978
14. Yurtsever Abdül Vahap. Aşık Elesker, "Azerbaycan" (Ankara), 1952 ekim, yıl 1, sayı 7, s. 2-4

# AŞIQ SƏNƏTİNDƏ ƏLƏSGƏR MƏRHƏLƏSİ
# THE LEVEL OF ALASGAR IN ASHUG ART
# ПЕРИОД АЛЕСКЕРА В АШЫГСКОМ ИССКУСТВЕ

**Xatirə BƏŞİRLİ**
*Filologiya elmləri doktoru*
*AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan*
*Ədəbiyyatı Muzeyinin Elmi işlər üzrə direktor müavini*
*bashirli58@mail.ru*

**Summary**

One of the ancient genres of Azeri literature is ashug poetry. It goes back to Dede Gorgud times with its roots. This tipe of art was widespread in the 19 century among Transcaucasian nations. People composed legends about heroes, who struggled against local feudal landlords and foreign invadors. Dastan "Gachag Nabi" was a wide-spread one. Ashugs, folk singers, playing in the string musical instrumet saz, performed dastans in wedding parties, traditional holidays.

On He was born in Geyche province of Irevan. From childhood Alesker was interested in ashug poetry, so he became the student of famous Ashug Aly. Talented and passionate Alesker soon became the best ashug of the province. He became honorable participant of weddings, which were held in Irevan, Nakhchivan, Karabagh, Georgia.He took part in the ceremonies and competed with ashugs. In one of such ceremonies he won the competition and became famous in the province. In 1918 the province was ravaged by armenian dashnaks and Alesker's famile was obliged to leave for Kelbadjar. In 1921 he came back to his native village where he died and buried.

Alesker rose the ashug art to a high level in his creative activity. He became famous not only in Azerbaijan, but also in Turkey, Iran, Daghestan.

**Key words:** Ashug poetry, Alasgar's school, poem genres

**Резюме**

Ашыгская поэзия – одно из мощных видов литературного творчества, издавна укоренившегося в кровной памяти народа. Одним из прославленных ашыгов эпохи бил ашыг Алескер, который по праву считается самым ярким представителем устного народного творчества.

Творчество Ашыга Алескера многогранно. Наряду с пением, сопровожденным игрой на сазе, он сочинял к своим стихам музыку. Стихи Ашыга Алескера можно разделить на две части: к первой относятся гошма, герайлы, теджнисы, восхваления и другие любовные стихи; вторая часть охиатывает стихи, посвященные конкретным событиям, личностям, дается

также критике общественных язв. Особо отличаются оригинальностью его теджнисы. Говорят, именно Ашыг Алескер создал форму «додагдеймез». В его стихах отразилась чарующая природа Азербайджана. Ярким примером является стихотворение «Горы», написанное редифом.

**Ключевые слова:** ашыгская поэзия, школа Алескера, стихотворные формы

XV əsrdə fəaliyyətə başlasalar da, əsasən XVI əsrdə formalaşma prosesini tamamlayan aşıq ədəbiyyatı XIX-XX əsrlərdə Ələsgərlə zirvə nöqtəsinə qalxdı. Həm ifaçılığı, həm aşıq şeirinə gətirdiyi yenilikləri, həm dastan ifaçılığı, həm də yetişdirdiyi şagirdləri ilə Aşıq Ələsgər özündən sonra böyük bir irs qoyub getdi. Bunun başlıca səbəbi Aşıq Ələsgərin aşıq şeirinin bütün növlərində yazması, fitri istedadı ilə dövrünün digər aşıqlarından fərqlənməsidir. Digər tərəfdən Aşıq Ələsgər öz yaradıcılığında ən yaxşı şair, xanəndə, musiqiçi və aktyor xüsusiyyətlərini birləşdirdiyindən Ələsgər adı ilə bilinən bir məktəb yaratmışdır.

Aşıq Ələsgərin poetik irsi sadəcə Göyçə aşıq mühiti içində deyil, eyni zamanda Borçalıda, Gəncəbasarda, Qarabağda, bundan başqa Türkiyə aşıq mühitində də geniş yayılmışdır. Dövrünün və sonrakı aşıq nəslinin böyük əksəriyyəti onun yaradıcılığının təsiri altında qalaraq aşıq sənətində yeni forma və janr gətirmişlər. Onun aşıq ədəbiyyatına gətirdiyi yeniliklər daha çox şeir formalarında özünü göstərir.

Xəstə Qasım, Abdalgülablı Aşıq Valeh, Hüseyn Şəmkirli, Molla Cümə, Hüseyn Bozalqanlı, Növrəs İman, Aşıq Şəmşir, Mikayıl Azaflı və başqa aşıqların qoşma, təcnis, divani, müxəmməs və başqa şeir şəkilləri ilə ifadə olunmuş "əvvəlaxır" formasında yazdıqları şeirləri Aşıq Ələsgərin bu janrda yeni söz deməsinə əngəl olmamışdır. Aşığın əvvəlaxır şeir növündə yazdığı əsəri aşıq sənətində özünəməxsus yer tutur. Aşıq Ələsgər aşıq şeirinin az işlədilən dildönməz, dodaqdəyməz, dodaqdəyməz yedəkli təcnis, dodaqdəyməz divani, müəmma, əliflam və başqa şeir şəkil və janrlarını ya ilk dəfə ifa etmiş, ya da onlara yeni məna və forma vermişdir. Məsələn, dilin ağız boşluğunda dönməsinə səbəb olan "l, r" samitlərinin işlənmədiyi sözlərdən qurulan gəraylı, qoşma və təcnislərə dildönməz deyilir. Aşıq Ələsgərin dildönməz, dodaqdəyməz və s. növlərdə yazdığı şeirləri sənətkarlıq xüsusiyyətləri ilə seçilir. Çox az işlədilən bu şeirə nümunə üçün bir örnək verək:

Gözüm sağı, sabah çağı,
Geyək ağı, gəzək bağı.
Hamı sevib bu sayağı
Qaymağa, həm yağa bax-bax.

Əziz ayə, müəmmayə,
Salsan sayə, bu məvayə,
Səbəb sənsən bu sevdayə
Böyük ağa, sağa bax-bax!

Aşıq şeirində əliflam adlanan və divan ədəbiyyatında da istifadə edilən bir şeir şəkli vardır. Əliflamlar böyük əksəriyyətlə dini-təsəvvüfi səciyyə daşıyır. İlk hərfi (əlif), istisnasız olaraq, "Allah" kəlməsi ilə bağlandığından, əliflam şeirlərinin sonrakı hərfdüzümündə də Qurani-Kərim və şəraitlə əlaqədar mətləblər dilə gətirilir. Bu şeir şəkli bütövlükdə ərəb əlifbasındakı hərflər üzərində qurulmuşdur. Belə ki, aşıqlar şeirinin misra və ya bənd başlarındakı hərfə uyğun öz savad, məntiq və istedad imkanlarını göstərməyə çalışırlar. Aşıq Ələsgərlərin doqquz bəndlik əliflam şeirindən üç bəndə diqqət edək:

İbtidakı Əlif – Allah,
"Bey" – birliyə dəlalətdi.
"Tey" – təkdi, vahidi-yekta,
Arif bu elmə bələddi.

"Sey" – sabitdi doğru yola,
"Cim" – ucadı, bax cəlala,
"Hey" – mehribandı halala,
Münkir ondan xəcalətdi.

"Xey" – birdi, xaliqi-əkbər,
"Dal" – doğrar doqquz fələklər.
"Zal" – zikr yelər dildə əzbər,
"Rey" – ol Rəsuli-Əhməddi...

Bununla yanaşı Aşıq Ələsgərin əvvəlaxır şeir növündə yazdığı qoşmaları da vardır. Divan ədəbiyyatında da işlədilən bu şeir şəkli misra başındakı səslə misra sonundakı səsin eyni olması şərtilə yaradılır.

Səslər əsasən samitlərdən ibarət olur. Savadlı aşıqlar kimi (məsələn Molla Cümə) Aşıq Ələsgər də klassik divan ədəbiyyatından gələn janrlardan istifadə edərək aşıq şeirində yeni cığır açmışdır. Aşığın divani şeir şəklində yazdıqları buna misal ola bilər. Divan ədəbiyyatında da işlədilən bu şeir şəkli misra başındakı səslə misra sonundakı səsin eyni olması şərtilə yaradılır. Səslər əsasən samitlərdən ibarət olur. Ancaq Aşıq Ələsgər divani təcnis və dodaqdəyməz divani şeir formasında da şeirlər yaratmışdır. Aşıq Ələsgərin 16 hecalı üç bəndli dodaqdəyməz divanisi buna misal ola bilər:

Sən şəyirdsən, hey deyirlər,
Dərs al ərkandan, gədə!

Həqiqətdən dişarısan,
Keçirsən yandan, gədə!

Aşıq isən, saz çalırsan,
Şər ilə işin nədi?!
Dəryalardan xərac alan,
Həya qıl kandan, gədə!

Aşıq Ələsgəri təcnis ustası adlandırırlar, çünki o, təcnisin onlarla başqa formalarını, məsələn, ayaqlı təcnis, cığalı təcnis, dodaqdəyməz təcnis, diltərpənməz təcnis, gedər-gəlməz təcnis və s. yaratmışdır. Cinaslı qafiyələrdən daha çox ustad aşıqlar istifadə etmişlər. Çünki formaca eyni, mənaca müxtəlif sözləri tapmaqla iş bitmir, eyni zamanda onları qafiyə kimi işlətmək də tələb olunur:

Geyibdi qəddinə yar alacanı,
At müjgan oxunu, yarala canı.
İstər Ələsgərdən yar ala canı,
Tökəndə zülflərin, a yana, yana.

Bundan başqa onun təcnisləri içində dodaqdəyməz cığalı təcnis növündə yazdığı şeiri də böyük maraq doğurur:

Əzizi-cani-dil eyni diləxşan,
Yazırsan risalə nə yaxşı-yaxşı.
Qarşıda nə yaxşı
Ləhcən gəlir nə yaxşı
Canan candan əzizdi
Nə Leylidi, nə Yaxşı.
Dil deyir: cananın sadağası can,
Cananı da deyir: nə yaxşı yaxşı.

Yazıq canı yada saldın sən genə
Səd həzar dərdinə getdin sən ginə
Qarşıda səngine
Atəş yana səngine
Tərlan şikar eylədi.
Çıxdı dağlar səngine.
Şəcər, ahən çalır səngi səngine
Yeyir dəni dəhan nə yaxşı yaxşı.

Sonda onu da qeyd etmək lazımdır ki, Aşıq Ələsgərin bir çox şeirlərində ədəb-ərkandan, mərifətdən, həqiqətdən, təriqətdən, hətta irfandan söz açılsa da, aşığın bir sufi şairi olmadığı onun öz yaradıcılığı ilə də təsdiqini tapır, çünki yaradıcılığından gətirilən nümunələr onun təbiət, eşq şairi olduğunu göstərir.

# MƏRUZƏLƏR

## AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA ÖYÜD-NƏSİHƏT MOTİVLƏRİ

## REMINDER MOTIVATIONS IN THE WORK OF ASHUG ALASGAR

## МОТИВЫ ПОУЧЕНИЯ И НАСТАВЛЕНИЯ В РАБОТЕ АШУГА АЛЕСКЕРА

**Afaq MUSTAFAYEVA**
*AMEA Folklor İnstitutu*
*afanimrahman@gmail.com*

**Summary**

Ashug Alasgar Goycha is not among the ashugs and folk poets belonging to the ashug environment, but is one of the master ashugs who has reached the highest level in the art of ashug in Azerbaijan. The melodic melodies he created, the unmistakable and unspoken nature of his ashug poetry, and the richness of his literary heritage earned Ashug Alasgar a nationwide love. There are many reminders-admonition in his work. In these poems, the master ashug appreciates honesty, halal, courage, good human qualities, and guides people to the right path.

**Key words:** Ashug Alasgar, reminder, halal, craftsman, diligence, friendship

**Резюме**

Ашуг Алескер Гейча не входит в число ашугов и народных поэтов ашугской среды, а является одним из мастеров ашугов, достигших высочайшего уровня в ашугском искусстве Азербайджана. Созданные им мелодичные мелодии, безошибочная и невысказанная природа его ашугской поэзии, богатство его литературного наследия снискали Ашугу Алескеру всенародную любовь. В его творчестве много напоминание - совет. В этих стихотворениях мастер ашуг воспевает честность, халяль, отвагу, хорошие человеческие качества и направляет людей на правильный путь.

**Ключевые слова:** Ашуг Алескер, напоминание - совет, халяль, ремесленник, трудолюбие, дружба

Aşıq Ələsgər Azərbaycan aşıq sənətində ustad aşıqlar arasında ən yüksək zirvədə dayanan el sənətkarıdır. “Mübaliğəsiz demək olar ki, Azərbaycanda Aşıq Ələsgər qədər hörmət və şöhrət qazanmış ikinci bir

aşıq yoxdur" (Axundov, 1971: 14). Bu görkəmli aşıq istər aşıq şeirinin inkişafında, istərsə də ustad-şəyird münasibətlərində böyük xidmətləri olan xalq müdrikidir. Neçə saz havalarının yaranması, dodaqdəyməz, dildönməz kimi aşıq şeirinin formaları da Aşıq Ələsgərin adı ilə bağlıdır. El sənətkarının ədəbi irsi zəngindir. Burada öyüd-nəsihət motivləri də az işlənməmişdir. Bu motivlər aşığın yaradıcılığının böyük bir hissəsini əhatə edir. "Gərəkdi", "Dayanmaz", "Olmaz", "Ola bilməz", "Olmaz, olmaz", "Olar", "Olacaqdı", "Eylər", "Yaxşıdı" və digər şeirləri daha səciyyəvi sayıla bilər. Aşıq Ələsgərin həcvlərində də öyüd-nəsihət motivlərinə rast gəlmək mümkündür. Təvazökarlıqdan uzaq olsa da, qeyd edək ki, biz bu məqaləni Aşıq Ələsgərə böyük sevgi və rəğbətlə işləmişik. Çünki Aşıq Bəhman Sallılı ata babamızdır, o da Aşıq Cəlilin şəyirdi olub. Təbii ki, Aşıq Ələsgərin Aşıq Cəlilə verdiyi dəyər də məlumdur. Dolayı olsa da, bizim buna haqqımız vardır, bundan qürur duyuruq.

Aşıq Ələsgər halallığı, insanlığın gözəl sifətlərini, Allaha inamlı olmağı, zəhmətkeşliyi yüksək qiymətləndirərək bunları öyüd-nəsihət motivli şeirlərində əks etdirir. O deyir:

"Can" deməklə candan can əksik olmaz,
Məhəbbət artırar, mehriban eylər.
"Çor" deməyin nəfi nədi dünyada,
Abad könül yıxar, pərişan eylər.

Nakəs adam danışanda saz olar,
Kərəmdən kəm, səxavətdən az olar.
Nütfədən qarışan şeyitbaz olar,
Mərd də sığışdırmaz nahaq qan eylər (Aşıq Ələsgər, 2003: 65).

El sənətkarı insanları mehriban olmağa, nəcib hərəkətlər etməyə dəvət edərək belə münasibətlərin insanlara fayda verəcəyini göstərməklə bərabər, nakəs və nütfədən qarışdıranların kərəm və səxavətdən kənar olduqlarını da xatırladaraq bu cəhətlərin insanlığa sığmadığını deyir.

İ.Ələsgər göstərir ki, Aşıq Ələsgərin şeirlərinin məzmun və bədii dəyərini heç bir aşıqla müqayisə etmək mümkün deyil (Ələsgər, 1999: 13).

Aşıq Ələsgərin öyüd-nəsihət motivli şeirlərindən biri də "Gərəkdi" adlı qoşmasıdır. Ustad aşıq burada aşıq olan şəxsin ədəb-ərkan sahibi, mərifətli, əxlaqlı olmasını göstərməklə bərabər, həqiqəti anladandır. Aşıq Ələsgər bir növ, el sənətkarı necə olmalıdır? – sualına dolğun cavab verir:

Aşıq olub diyar-diyar gəzənin,
Əzəl başda pür kamalı gərəkdi.
Oturub-duranda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra.
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Danışdığın sözün qiymətin bilə,
Kəlməsindən ləlü gövhər süzülə.
Məcazi danışa, məcazi gülə,
Tamam sözü müəmmalı gərəkdi (Aşıq Ələsgər, 2003: 71).

Aşıq Ələsgərin bu qəbildən olan qoşmaları arasında dostluqla, dostla bağlı olanlar da az deyil. Aşıq Ələsgər deyir:

İyid odur namusunu atmasın,
Dost ölüncə dosta yalan satmasın.
İlqarın dalınca bir baş getməsin,
Onu bir qarpıza dəyişmək olar (Aşıq Ələsgər, 2003: 103).

İslam Ələsgər yazır: "Özünün davranışı ilə xalq arasında saysız-hesabsız dost qazanmış olan Aşıq Ələsgər dost və dostluq haqqında geniş fikir söyləmişdir (Ələsgər, 2003: 18).

Bu, həqiqətən belədir. Dediklərimizi daha aydın təsvir etmək üçün böyük aşığın yaradıcılığına, yəni dostluqla bağlı şeirlərdən nümunələrə nəzər yetirək:

Qafil olma, dilim, düşmə həvəsdən,
Hərcayi sözüylə incimə dostdan (Aşıq Ələsgər, 2003: 101).

Dostun məzəmməti adam öldürür,
Düşmanla söyüşüb-döyüşmək olar (Aşıq Ələsgər, 2003: 103).

Ya dost olma, ya zəhmətdən incimə,
Dost yolunda boran-qar olacaqdı (Aşıq Ələsgər, 2003: 102).

Təbii ki, bu misalların sayını artırmaq da olar. Aşıq Ələsgərin yaradıcılığında bu qeyd olunan nümunələrdən də göründüyü kimi, dostluğa, dostluq əlaqələrinin saxlanmasına böyük önəm verilir, həm də dostluq münasibətlərinin elə asan olmadığı, çətin imtahanlardan keçə bilməyi də adamlara xatırladılır.

Müəllif dostluğun saflığa, halallığa, zəhmətkeşliyə bağlı olduğunu, eyni zamanda insanlığın nəcib sifətlərini əks etdirdiyini deyir. El sənətkarı kəmfürsət, hərcayi adamların sözləri ilə dostdan inciməyin səhv hərəkət olduğunu da bildirir.

Dost və dostluq haqqında fikirlərə Göyçə aşıq mühitinə mənsub el sənətkarlarının ədəbi irsində də rast gəlinir. Aşıq Mehdi deyir:

Hər yetəni sən özünə dost tutma,
Dostun arasında düz ilqar gərək (Sazlı-sözlü Göyçə, 1999: 144).

Aşıq Ələsgər kimi tərifləsin, təqdir etsin – fərqi yoxdur, gözəllər olsun, sayılıb-seçilən igidlər, el-obanın yaxşı adamları – hər kəsə doğruluq, haqqa sevgi, Allaha bağlılıq arzulayır:

Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi (Aşıq Ələsgər, 2003: 71).

Burada H.Araslının Aşıq Ələsgər haqqında dediyi sözləri xatırlamamaq olmur: "Xalq dilini bütün zənginliyi ilə ifadə etməyi bacaran bir nadir istedad olmuşdur" (Araslı, 1972: 9).

Aşıq Ələsgər adamlarda halallığı yüksək qiymətləndirir, hər kəsin mərifət elminə bələd olmasını söyləyir:

Nütfədən pak olan, loxmadan halal,
Mərifət elminə nabələd olmaz (Aşıq Ələsgər, 2003: 105).

Ustad sənətkar mərdliyi də insanın ən gözəl cəhəti kimi dəyərləndirərək onu insanlığın əsas cəhətlərindən biri kimi təqdir edir:

Comərdin kisəsi, mərdlərin nanı,
İnşallah, ölüncə az olmaz, olmaz (Aşıq Ələsgər, 2003: 107).

Biz bunu Aşıq Ələsgərin digər bir şeirində də görürük:

Heç namərdin adı gəlməz hesaba,
Mərd bir olar, onda iki ad olmaz (Aşıq Ələsgər, 2003: 104).

Aşıq Ələsgərin yaradıcılığında elə şeirlər yoxdu ki, hikmətlə, nəsihətlə zəngin olmasın, insanın könlünü tərpətməsin. Çünki müəllif təsvir etdiyi adamları müsbət cəhətləri ilə bərabər, onları dürüstlüyə, halallığa səsləyir, yəni insan bu cəhətlərə aşina olmalıdır, həm də hər kəs istəyini Allahdan istəməlidir:

Ələsgər, mətləbin Xudadan istə,
Kərəm olmaz müxənnəsdə, xəsisdə.
Bəylik, göylük, səylik olan məclisdə
Qaç ki, orda xeyir-bərəkət olmaz (Aşıq Ələsgər, 2003: 105).

El sənətkarının şeirlərindən "Olmaz, olmaz" qoşması da didaktik cəhətinə görə diqqətçəkicidir. Burada da insan ağlının əhəmiyyəti, onun kamilliyinin vacibliyi ustalıqla xatırladılır, göstərilir ki, ağılsız hərəkət etmək olmaz, belə olsa həmin şəxs xeyir yox, ziyan eləyər:

Zikirsiz mömini şeytan aldadar,
Sayqısız iyidi düşman aldadar,
Ağılsız cahili kirşan aldadar,
Günü keçmiş qarı qız olmaz, olmaz.

Görməmişəm öküz yeriyə yorğa,

Gədadan bəy olmaz, dəlidən darğa,
Suda çimmək ilə sağsağan, qarğa
Çöldə silkələnib qaz olmaz, olmaz (Aşıq Ələsgər, 2003: 107).

Öyüd-nəsihət motivlərinə müəllifin digər şeirlərində də rastlanmaqdadır. Bunlardan bir neçə nümunə verməyi məqbul sayırıq:

Bir adamsan, bir adama namə yaz,
Mahalı incidib eldən danışma (Aşıq Ələsgər, 2003: 245).

Alçaqda dayan ki, çıxasan başa,
Tülküsən, aslanla girmə savaşa.
Gəl yapışma gücün çatmayan daşa,
Götürə bilmərsən, zora düşərsən (Aşıq Ələsgər, 2003: 246).

Əyri ol əyriylə, düz ol düz ilə,
Hər yetəni sən aldatma, hayıfsan (Aşıq Ələsgər, 2003: 249).

Hərcayıya aşna olma,
Namərdə bel bağlama;
Müxənnət qatar aşına
Ağı gözlə, gözlə sən (Aşıq Ələsgər, 2003: 175).

"Aşıq Ələsgərin şeirlərinin mayasını düzlük, mehribanlıq, dostluqda sədaqətlilik, şöhrətə uymamaq, xəyanətkarlıqdan uzaq olmaq kimi mühüm cəhətlər təşkil edir" (Məhərrəmov, 1997: 14).

Böyük aşığın yaradıcılığından da göründüyü kimi, onun nəsihətamiz sözləri istər-istəməz adama atalar sözlərimizi, zərb-məsəllərimizi xatırladır. Bunu aşığın aşağıdakı misralarında sezmək mümkündür:

Dosta xain baxan kor olacaqdı,
Kəsb elə özünə halaldan maya.
Yüz il keçsə qohum səndən yad olmaz.
Mərd bir olar, onda iki ad olmaz.
Heç namərdin adı gəlməz hesaba.

Bu misallar "Doğruluq dost qapısıdır", "Haqq nazilsə də, üzülməz", "Mərdin adı qalar, müxənnətin nəyi qalar" kimi atalar sözlərini xatırladır. Odur ki, İslam Ələsgər yazır: "Aşıq Ələsgərin bir çox misraları xalq arasında atalar sözləri və zərb-məsəl kimi işlənməkdədir" (Ələsgər, 2003: 19).

Aşıq Ələsgərin poeziyası özünün mükəmməlliyi, özünəməxsusluğu ilə seçilir. Burada sözün işlənməsi, ifadə və deyimlər yerli-yerində, həm də yeni biçimdə, yeni rəngdə, yeni çalarda verilir. Bu poetik örnəklər müəllifi halal, din-iman sahibi, özünü Allahın qulu sayan, könlü zəngin olan bir şəxs kimi təsdiqləyir. O, kəramət sahibidir ki, kəlmə-

lərindən sanki ləl-gövhər tökülür. H.Əlizadə yazır ki, Aşıq Ələsgərin coşqun bir irmaq kimi axan təbii şeirindəki lirizm və səmimiyyət yalnız aşıqlarda deyil, şairlərimizdə də belə görünmür (Əlizadə, 1929: 11).

Aşıq Ələsgərin poeziyasında insanın nəcib cəhətləri, ağıl və kamalın onun həyatında əsas rolu, hikmət və nəsihətin əhəmiyyəti, halallıq və mərdlik sifətləri hər kəsdə bu el sənətkarına tükənməz məhəbbət və sevgi yaradır, çünki böyük aşıq öz dediyi kimi, istədiyini Yaradanından istəyir:

Ələsgər, mətləbin Xudadan istə (Aşıq Ələsgər, 2003: 105).

O, haqqın yolunda dolandığından da söz açır:

Bir qul ki, dolana haqqın yolunda,
Qəza tutmaz, ona bəla yetişməz (Aşıq Ələsgər, 2003: 415).

Aşıq Ələsgər göstərir ki, həmişə haqq ilə sövdə qılıb və haramdan uzaq olub:

Sövdə qıl haqq ilə, əl çək haramdan,
Halaldan mətləbin al, qoca baxtım (Aşıq Ələsgər, 2003: 416).

Aşıq Ələsgərin ədəbi irsində hikmətsiz söz və ifadə yoxdur, onun insanlara, canlı aləmə, Allaha sevgi və məhəbbəti şeirlərində əks olunmuş, səmimi duyğu və hissləri ilə könülləri fəth etmişdir.

Aşıq Ələsgər poeziyası zənginliyi, əhəmiyyəti və yüksək dəyəri ilə yeni-yeni tədqiqatların aparılmasına vüsət verir. "Həqiqətən də əsrlərin arxasından süzülüb gələn xalq şeiri, xalq müdrikliyi, xalq dilinin saflığı, büllurluğu Ələsgər şeirində cəmləşmişdir" (Vahabzadə, 1972: 11).

El sənəti ölməz, söz ölməz. Sözə ölümsüzlük və uzun ömür bəxş edənin biri də Aşıq Ələsgərdir. Onun zəngin poeziyası sözün əbədiliyini əks etdirir.

## QAYNAQLAR


1. Axundov Ə. (1971). Aşıq Ələsgər sənəti. Bakı: "Azərbaycan" jurnalı, № 12
2. Araslı H. (1972). Həmişəyaşar sənətkar. Bakı: "Azərbaycan" jurnalı, №5
3. Aşıq Ələsgər (2003). Şeirlər, dastan-rəvayətlər Tərtib edən: İ.Ələsgər. Bakı: "Çinar-çap"
4. Ələsgər İ. (2003). Ulu ustad. Aşıq Ələsgər. Şeirlər, dastan-rəvayətlər, xatirələr. Tərtib edən: İ.Ələsgər. Bakı: "Çinar-çap"
5. Əlizadə H. (1929). Göyçəli Aşıq Ələsgər. Azərbaycan aşıqları. Tərtib edən: H.Əlizadə. Bakı
6. Məhərrəmov Z. (1997). XX əsr Göyçə aşıq mühiti. Bakı: Azərbaycan Ensiklopediyası
7. Sazlı-sözlü Göyçə (1999). Tərtib edən: İ.Ələsgər. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı
8. Vahabzadə B. (1972). Aşıq Ələsgər Bakı: "Elm və həyat" jurnalı, № 6

# AŞIQ ƏLƏSGƏR İRSİNİN RUS DİLİNƏ TƏRCÜMƏLƏRİNƏ DAİR

# ABOUT THE TRANSLATION OF ASHUG ALASGAR'S HERITAGE

# О ПЕРЕВОДАХ НАСЛЕДИЯ АШУГА АЛЕСКЕРА НА РУССКИЙ ЯЗЫК

**Afaq Xürrəm qızı RAMAZANOVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*afagramazanova@gmail.com*

**Summary**

The bright representative of the ashug art of Azerbaijan Ashug Alasgar is considered rightfully the patriarch of ashug poetry. Ashug Alasgar, who brought up many apprentices – ashug students, is the founder and at the same time the creator of Azerbaijani ashug school. His poetic heritage consists of numerous samples written in such complex genres of ashug art as "divani", "mukhammas", "gerayli", "goshma", "tejnis", "dodagdeymez" and so on. The ashug's activity is also unique and for the reason that he composed ashug tunes and performed them masterfully on the instrument "saz" (an Azerbaijani folk musical instrument). As it is known, Ashug Alasgar's artistic heritage has been translated into the different languages. There are translations of his works written in various genres of ashug poetry in the Persian, Armenian and Russian languages. According to many historical and ideological reasons the poem genres such as "goshma" and "gerayli" (quatrains) were translated into Russian. During the Soviet period Ashug Alasgar's poems were necessarily included in the anthologies on the works of ashugs published in Moscow, as well as on Azerbaijani literature. The most successful translator of his works is Vladimir Gafarov. In the article the translation of Ashug Alasgar's heritage is investigated.

**Keywords:** Ashug Alasgar, goshma, translation, Russian, Vladimir Gafarov

**Резюме**

Яркий представитель ашугского искусства Азербайджана Ашуг Алескер по праву считается патриархом ашугской поэзии. Воспитавший множество учеников-ашугов Ашуг Алескер является родоначальником исполнительной, и в то же время творческой Азербайджанской ашугской школы. Его поэтическое наследие состоит из многочисленных образцов, написанных на таких сложных жанрах ашугского искусства, как дивани, мухаммас, герайлы, гошма, теджнис, додагдеймез и т.д. Творчество ашуга уникально также, и по той причине, что он мастерски сочинял ашугские

напевы и виртуозно исполнял их на сазе. Как известно, художественное наследие Ашуга Алескера было переведено на разные языки. Имеются переводы его произведений, написанных в разных жанрах ашугской поэзии, на персидский, армянский и русский языки. Гошма и герайлы ашуга были переведены на русский язык, также по многим историческим и идеологическим причинам. В советский период стихи Ашуга Алескера обязательно включались в издаваемые в Москве антологии по творчеству ашугов, а также по азербайджанской литературе. Самым успешным переводчиком его произведений является Владимир Гафаров. В докладе исследуются переводы наследия Ашуга Алескера.

**Ключевые слова:** Ашуг Алескер, гошма, перевод, русский язык, Владимир Кафаров

Bəllidir ki, Azərbaycan folklorşünaslığının əsas üç aparıcı istiqaməti var – folklorun toplanması, folklorun nəşri və folklorun tədqiqi. Bunlar üzdə görünən və bilinən istiqamətlərdir. Amma bu istiqamətlərin hər biri son nəticədə bir əsas məqsədə xidmət edir – folklorumuzun təbliği və tanıdılması. Folklorun təbliğinin və tanıdılmasının əsas qüvvələrindən biri isə onun başqa dillərə tərcüməsi ilə bağlıdır. Azərbaycan folklorunun tərcümə olunduğu dillər içərisində isə obyektiv səbəblərdən rus dili aparıcı dil sayılır. Azərbaycan folklorunun rus dilinə tərcüməsinin tarixi XIX əsrə gedib çıxır və daha çox siyasi və ideoloji səbəblərdən qaynaqlanır. Çünki Çar Rusiyasından istər Qafqazda yaşayan xalqların, istərsə də imperiyanın müxtəlif yerlərinə səpələnmiş (əslində isə imperiya tərəfindən işğal edilmiş və öz nüfuzu altına salınmış) müxtəlif millətlərin tarixini, etnoqrafiyasını və folklorunu öyrənməyi və hətta tərcümə etməyi mütərəqqi bir məqsədlərlə və xoş niyyətlə həyata keçirməyi gözləmək mümkün deyil. Burada “parçala və hökm sür” siyasətinin tərkib hissəsi olan “düşməni daha yaxından tanımaq üçün onu öyrən, psixologiyasını, keçmişini, indisini, folklorunu və məişətini tədqiq et” kimi bir niyyət mövcud idi. Onun ən bariz nümunəsi isə 1881-ci ildə Tiflisdə Qafqaz Tədris İdarəsi tərəfindən SMOMPK-un – Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusunun təsis edilməsi idi. Etiraf edək ki, məqsədindən asılı olmayaraq – bütün hallarda Azərbaycan folklorunun rus dilinə tərcüməsində bu məcmuənin çox böyük rolu olmuşdur.

XIX əsrdə Tiflisdə çıxan dövri mətbuat da – “Тифлисские ведомости”, “Кавказ”, “Кавказский вестник”, “Новое обозрение” və b. nəşrlər də mütəmadi olaraq folklorumuz barədə məlumatları və mətn tərcümələrini verirdi.

Bundan əlavə, Azərbaycan folklorunun rus dilinə tərcüməsində və yayılmasında o zaman Qafqaza sürgün olunan rus ziyalılarının da böyük rolu olmuşdur. Məsələn, M.Lermontov "Aşıq Qərib"i yazmış, A.Bestujev-Marlinski "Molla Nur"u yaratmış; "Qafqaz povestləri" silsiləsində kifayət qədər atalar sözü və məsəllərimizdən, alqış və qarğışlarımızdan istifadə etmişdir.

Əlbəttə, sözügedən əsrin əvvəllərində də artıq tərcümələr edilməyə başlanmışdı – 1830-cu ildə «Тифлисские ведомости» qəzetində Koroğlunun rus dilinə tərcümələri verilmişdi, 1840-cı ildə Pennin tərcüməsi meydana gəlmiş, 1866-cı ildə Şopen tərcüməsi üzə çıxmışdır və s.

Ümumiyyətlə, Azərbaycan folklorunun rus dilinə tərcüməsi məsələsinə tarixi-xronoloji ardıcıllıqla yanaşıb onları iki mərhələdə qruplaşdırmaq mümkündür:

Birinci mərhələ - XIX əsrdə və XX əsrin əvvəllərində edilən tərcümələr;

Bu mərhələ isə keyfiyyətinə görə iki qismə ayrıla bilər:

- yəni yuxarıda qeyd etdiyimiz Çar Rusiyasının məqsədyönlü şəkildə etdiyi tərcümələr;
- və səyyahların, yazıçıların, diplomatların, Qafqaza səfər edən insanların etdiyi tərcümələr;

İkinci mərhələ isə sovet işğalından sonra olan tərcümələrdir.

İkinci mərhələdə folklorun ruscaya tərcüməsi daha çox mərkəzdən idarə olunan bir mexanizmə çevrilir. Mənbələrdə bu proses məhz elə bu şəkildə də qeyd olunmuşdur: "Sovet dövründə "Koroğlu"dan tərcümə etmək tələbi rusca hazırlanan "Антология Азербайджанской поэзии" kitabının tərcüməçiləri qarşısında qaldırılır". XX əsrin ortalarında Azərbaycan folklorunun rus dilinə tərcüməsi ilə məşğul olan professional və savadlı tərcüməçi ordusu yetişir – V.Qafarov, B.Tahirbəyov, S.Məmmədzadə, M.Vəkilov, A.Axundova, A.Zöhrabbəyov və b.

Təqdirəlayiq haldır ki, Azərbaycan folklorunun ruscaya tərcümələri yalnız ənənəvi janrları deyil, həm də aşıq yaradıcılığını əhatə edirdi. Azərbaycan aşıq sənətinin zirvəsində özünə əbədi yer qazanmış, bu gün 200 illik yubileyinə yığışdığımız Aşıq Ələsgərin poetik irsi də rus tərcümələrinin içərisindədir. Təbii ki, Azərbaycan aşıq sənətinin bu korifeyinin əsərləri mütləq şəkildə digər dillərdə çap edilmiş aşıq şeiri antologiyalarına salınmalı idi. Qeyd edək ki, Aşıq Ələsgər sağlığında o dövrün məşhur rus şairi Yakov Polonski ilə görüşmüş, sonradan aşıqla və bütövlükdə aşıq sənəti ilə yaxından tanış olan Polonski öz heyrətini gizləyə bilməmiş və görüş təəssüratlarını məqalə yazaraq bildirmişdir.

Onun bu məqaləsi rus oxucularının Aşıq Ələsgərlə ilk tanışlığı hesab edilə bilər: "Aşıq Ələsgərin həyatındakı diqqətəlayiq hadisələrdən biri 1851-ci ildə Tiflis yaxınlığında məşhur rus şairi və yazıçısı Yakov Polonski ilə görüşü olmuşdur. Aşıqla görüşdükdən sonra qonaq "Кавказ" (1851, № 1-2) qəzetinin səhifələrində ustadın yalnız virtuoz saz çalmasına və ya güclü səsinə deyil, həm də repertuarının genişliyinə səmimi qəlbdən heyran qaldığını yazmışdır" (1).

Aşıq Ələsgər irsinin rus dilinə tərcümələrini ümumiləşdirərək iki qrupda birləşdirmək mümkündür:

- Pərakəndə şəkildə edilmiş tərcümələr;
- Aşıq Ələsgərin irsinin rus dilində məqsədyönlü nəşri.

**Birinci qrupa** Aşıq Ələsgər barəsində rusca yazılmış məqalələrdə edilmiş fraqmentar səpkili tərcümələr və ümumi antologiyalar və ensiklopediyalara salınmış Aşıq Ələsgər şeirlərinin tərcümələri daxildir. Qeyd etdiyimiz kimi, bu qrupa daxil edilən tərcümələr əsas məlumat xarakterli mətnə və ya ensiklopediyalardakı oçerklərə əlavə kimi verilmişdi və Aşıq Ələsgər irsi barədə ilkin təəssüratın formalaşmasına xidmət edirdi.

"Большая советская энциклопедия", "Краткая литературная энциклопедия" kimi ensiklopediyalardakı tərcümələr buna misal ola bilər.

Belə tərcümələrə həm də antologiyalara salınmış əsərlər də aid edilə bilər.

Belə ki, 1939-cu ildə Bakıda işıq üzü gormüş "Антология Азербайджаской поэзии" kitabındakı Ələsgər tərcümələri Konstantin Simonovun qələminə məxsusdur. Qeyd edək ki, Konstantin Simonov Vladimir Qafarovdan sonra Aşıq Ələsgər irsinin rus dilinə tərcüməsi ilə ardıcıl məşğul olan ədiblərdəndir. Yuxarıda göstərilən antologiyaya aşığın "Горы", "Гюландам", "Да знаешь ли ты", "Красавица..", "Творец тебя создал", "Я выглянул как-то", "Желтеет колос…" qoşmaları salınmışdır.

Simonovun tərcümələrinin bədii-estetik dəyərini anlamaq üçün onlardan birinə nəzər salaq:

Səni gördüm, əl götürdüm dünyadan,
Ala gözlü, qələm qaşlı Güləndam!
Alma yanağını, ay qabağını
Görən kimi ağlım çaşdı, Güləndam!

*От мира отрёкся, увидев тебя,*
*Красавица, мира венец, Гюляндам,*
*Взглянув на ланиты, на губы твои,*
*Стою, как последний глупец, Гюляндам.*

Tovuz kimi şux bəzənib durubsan,
Ala gözə siyah sürmə vurubsan.
Sağ ol səni, yaxşı dövran qurubsan,
Bu dünyanın sonu puçdu, Güləndam!
*Одевшись, как пава, ты мимо прошла.*
*Ты синие очи сурьмой подвела.*
*Не мало ты дней золотых провела.*
*Прощаешься? Значит, конец Гюляндам?*

Heç demirsən, Ələsgərim hardadı?
Səbəb nədi, gülün meyli xardadı?!
Mənim gözüm sənin kimi yardadı,
Hər cəfası mana xoşdu, Güləndam!
*Не знаешь, где Алескер, Гюляндам?*
*Зачем же, как роза, тянусь я к шипам?*
*В груди твоей место нашёл я мечтам.*
*Останься! Так молит певец, Гюляндам.*

1960-cı ildə Moskvada Qoslitizdatda "Антология Азербайджанской поэзии" 3 cilddə işıq üzü görür. Həmin üçcildliyin birinci cildində "Мне этой встречи не забыть", "Моллы, знаю я..", "Не говори..", "О люди, слушайте..", "Перед тобой повинен я..", "Чтоб трус..", "Я скажу от души всем.." qoşmaları A.Korçaginin tərcüməsində, "Творец тебя создал..", "Я выглянул как-то.." qoşmaları Konstantin Simonovun tərcüməsində verilmişdir.

1989-cu ildə Moskvada "Антология педагогической мысли Азербайджанской ССР" adlı antologiyaya aşığın 6 şeiri ("По своему любой из нас..", "В собрании мудрых я слово скажу", ".. Люди так же, как деревья, от корней своих растут..", "Душевность обращенья души не обеднят", "Любому любовь отзывается болью..", "Мужской неразрывен до смерти союз..") salınır.

2009-cu ildə Xalq yazıçısı Anarın redaktorluğu ilə işıq üzü görən "Антология Азербайджанской поэзии" kitabının birinci cildində 379-382-ci səhifələr arasında Aşıq Ələsgərin də qoşmaları yer alır.

Bu qrupa həm də Aşıq Ələsgər haqqında yazılan elmi, elmi-publisistik məqalələri də aid etmək olar. Bu məqalələr sayca çox, məzmunca isə rəngarəngdir.

**İkinci qrupa** isə təbii ki, Aşıq Ələsgər irsinin rusca tərcümədə ayrıca kitab kimi nəşri daxil edilməlidir. Mütləq şəkildə qeyd etməliyik ki, bu kitabların işıq üzü görməsində Azərbaycan folklorunun rus

dilinə ən məhsuldar və kamil tərcüməçisi Vladimir Qafarovun böyük rolu olmuşdur.

Beləliklə, Aşıq Ələsgərin rusca ilk kitabı 1972-ci ildə Bakıda işıq üzü görür. "Ашуг Алескер. Стихи" (Введение и послесловие В.Кафарова. Баку: Язычи, 1972.) adlanan bu kitaba Vladimir Qafarovun tərcümələri ilə yanaşı, Konstantin Simonovun da yeddi tərcüməsi daxil edilmişdir. Kitaba son sözü Vladimir Qafarov yazmışdır.

"Проповедь добра и справедливости" ("Xeyirxahlıq və ədalət carçısı") adlanan bu ön sözdə "*Ашуг Алескер, знаток слова и сердца человеческого, стал патриархом народного искусства*"// "Sözün və insan ürəyinin bilicisi Aşıq Ələsgər xalq yaradıcılığının patriarxı" və ya "*Ашуг Алескер занимал высшую ступень в неписанном табеле о рангах, в единственном числе олицетворяя целый коллектив, слаженный и полнокровный, состоящий из поэта, композитора, певца, виртуоза игры на сазе, расказчика и танцора. Индивидуальное творчество Ашуга Алескера – классическое воплощение лучших традиций ашугского искусства* // "Aşıq Ələsgər rütbə cədvəlində ən yüksək mövqeni tutaraq, tək özü şair, bəstəkar, müğənni, saz virtuozu, hekayəçi və rəqqasdan ibarət böyük bir kollektivi təmsil edirdi. Aşıq Ələsgərin fərdi yaradıcılığı – aşıq sənətinin ən yaxşı ənənələrinin klassik təcəssümüdür" (2, c. 7) – deyərək əsərlərini tərcümə etdiyi aşığa öz münasibətini də bildirmişdir.

Aşıq Ələsgərin ən məşhur "Çərşənbə günündə...." qoşmasının tərcüməsi də bu kitabdadır:

Çərşənbə günündə, çeşmə başında
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxun keçdi sinəmdən
Cadu qəmzələri qanıma düşdü.
*В четверг у ручья я ее повстречал,*
*Мне в сердце глаза чаровницы запали,*
*Лукавая бровь изогнулась, как лук,*
*И в грудь мою стрелы-ресницы попали.*

İşarət eylədim dərdimi bildi,
Gördüm həm gözəldi, həm əhli-dildi,
Başını buladı, gözündən güldü,
Güləndə qadası canıma düşdü.
*Я понял – она хороша и умна:*
*Глубокий намек разгадала сполна*

*И мне отказала с улыбкой она –*
*Несчастья и счастья границы совпали.*

Ələsgərəm hər elmdən halıyam,
Dedim, sən təbibsən, mən yaralıyam,
Dedi nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım, yanıma düşdü.
*Я что ей сказал? Я сказал у ручья:*
*"Ты в горе, как я, оттого, что ничья"*
*Она же сказала: "Просватана я", -*
*И руки мои, словно птицы, упали* (2, с. 38).

Aşığın qəhrəmanı aşiq alagöz xanımla çeşmə başında çərşənbə günündə görüşür. Əgər fikir verdinizsə, tərcümədə bu görüş çərşənbə günü deyil, cümə axşamı baş verir. Əvvəlcə, bu, oxucuda bir çaşqınlıq yaradır, çünki Azərbaycan dilini belə incəliklərinə qədər bilən tərcüməçi sözsüz və şübhəsiz ki, günləri səhv sala bilməz. Bəs tərcümənin bu şəkildə edilməsinin səbəbi nədir? Sən demə, bu, tərcüməçi tərəfindən məqsədyönlü şəkildə edilmiş bir "səhv"dir. Həmin nəşrə Vladimir Qafarovun yazdığı "Продолжая ашугские традиции" ("Aşıq ənənələrini davam etdirərkən") son sözündə deyilir: "В четверг у ручья я ее повстречал". В оригинале – в среду. Четверг употреблен для усиления аллегории, имеющейся в первой строке оригинала: «Чэршэнбэ гюнюндэ чешмэ башында» // "Çərşənbə (cümə axşamı) çeşmə başında. Orijinalda çərşənbə günündə. Amma rus mətnində çetverq sözü orijinalın birinci misrası ilə alleqoriya yaratmaq üçün belə yazılıb".

Maraqlı tərcümələrdə biri də "Gərəkdi" qoşmasının tərcüməsidir:

Aşıq olub, tərki-vətən olanın,
Əvvəl, başda pür kamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.
*Ашуг, что вышел в дальнюю дорогу,*
*Разумен, первым делом, должен быть.*
*Участливым, учтивым и ученым –*
*В любом понятье зрелым должен быть (2, с. 24).*

1984-cü ildə Vladimir Qafarovun tərcüməsində Aşıq Ələsgərin şeirləri "Alesker" adı ilə yenidən Bakıda çap olunur. 61 səhifədən ibarət bu kitaba aşığın 40-dan artıq ən məşhur qoşmaları daxil edilmişdir.

Vladimir Qafarov bu kitablardan əlavə, etdiyi tərcümələri qəzet və jurnallarda ardıcıl olaraq dərc etdirir.

Məsələn, 1960-cı ildə “Литературный Азербайджан” jurnalında “Любой молла похож на блеклый пустоцвет”, “Хмельного нам нельзя” qoşmaları, 1961-ci ildə “Стихи” “Бакинский рабочий” qəzetində, 1971-ci ildə “Захочешь казни, иль рабом назови” şeiri “Вышка” qəzetində, “Послушайте, что скажет вам ашуг..” şeiri “Баку” qəzetində nəşr olunur.

Bu cəhətdən ən məhsuldar il 1972-ci il hesab olunur. Həmin il də Vladimir Qafarov “Вышка”, “Бакинский рабочий”, “Баку” qəzetlərində aşığın şeirlərini çap etdirir. Bu şeirlər elə həmin il 1972-ci ildə işıq üzü görmüş və yuxarıda adıçəkilən kitaba salınmışdır. Qeyd edək ki, 1971-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyi keçirilir və bu yubiley tədbirləri 1972-ci ildə də davam etdirilir.

1981-ci ildə “Литературный Азербайджан” jurnalında V.Qafarovun tərcüməsində aşığın şeirləri çap olunur.

Vladimir Qafarov aşığın irsinin tərcüməsi ilə yanaşı, onun yaradıcılığı barəsində məqalələr də yazmış, zaman-zaman onları dövri mətbuatda nəşr etdirmişdir.

1989-cu ildə artıq 71 səhifə həcmlə yenə də Bakıda “Aşuq Alesker. Lirika” nəşr olunur.

Nəhayət, 1999-cu ildə Elçin Əfəndiyevin tərtibatında “Вдвоем с Алескером отправившись в сад” adlı 131 səhifəlik kitab nəşr edilir. Kitaba ön sözü Elçin Əfəndiyev yazmış, yenə də Simonovun 7 tərcüməsi və Vladimir Qafarovun yuxarıda nəzərdən keçirdiyimiz tərcümələri kitaba salınmışdır.

Aşıq Ələsgərin rus dilinə tərcümələrindən başqa türk dilinə uyğunlaşdırmaları, fars və gürcü dilinə tərcümələri də vardır. Beləliklə, öz yaradıcılığı ilə Azərbaycan aşıq sənətinin zirvəsində və xalqın qəlbində özünə əbədi yer tutmuş Aşıq Ələsgərin rus dilinə tərcümələrinin Azərbaycan aşıq sənətinin Vətənimizin hüdudlarından kənarda da tanınmasında böyük əhəmiyyəti vardır.

## QAYNAQLAR


1. Багиров А. Патриарх ашугской поэзии // https://irs-az.com/new/files/2017/192/2444.pdf
2. Ашуг Алескер. Стихи / Введение и послесловие В.Кафарова. Баку: Язычи, 1972

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA ÜRFANDAN DİDAKTİKAYA KEÇİD

# THE TRANSITION FROM SUFI SPIRITUAL TEACHING (URFAN) TO DIDACTICS IN THE WORKS OF ASHYG ALASGAR

# ПЕРЕХОД ОТ СУФИЙСКОГО ДУХОВНОГО УЧЕНИЯ (УРФАН) К ДИДАКТИКЕ В ТВОРЧЕСТВЕ АШЫГА АЛЕСКЕРА

**Ağaverdi XƏLİL**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*aqaverdi@yandex.ru*

**Summary**

The article examines the work of the outstanding master of Azerbaijani Ashig art, Ashyg Alasker. Ashig's creativity was analyzed in the context of changes in Sufi values. Also, as a result of the analysis, it was found out that the creativity of the ashig is a rich source for the study of Sufi spiritual values (urfan). In the poems of the ashig, there is a decline in Sufism, the inertia of the values of "urfan" and their transformation into a model of didactic education.

**Key words:** Azerbaijan, ashig, Alaskar, poetry, art, Sufism, values, urfan, didactics

**Резюме**

В статье исследуется творчество выдающийся мастер азербайджанского ашыгского искусства Ашыга Алескера. Творчество ашыга анализировался в контексте изменений в суфийских ценностях. Так же в результате анализа были выяснены, что творчество ашыга является богатым источником для изучения суфийские духовные ценности (урфан). В стихотворениях ашыга наблюдаются спад суфизма, инерция ценностей «урфана» и трансформации их в модель дидактического воспитания.

**Ключевые слова:** Азербайджан, ашыг, Алескер, стихи, искусство, суфизм, ценности, урфан, дидактика

**Giriş.** Azərbaycan sufi-ürfani mahiyyətli aşıq sənətinin inkişaf yolu sonuncu zirvəsinə haqq aşığı Aşıq Ələsgərin yaradıcılığında çatır və onunla da tamamlanır. Ələsgərin yaşadığı dövr təriqətlərin tənəzzül etdiyi bir dövrdür. Mərkəzdən ucqarlarda sağ qalmış nadir təriqət mənsubları mövcud olsa da, bütövlükdə sufi fəlsəfə bir metodologiya kimi sıradan çıxmışdı. Bu proses kontekstində Ələsgər yaradıcılığına da təsəvvüf düşüncəsinin ətaləti çərçivəsində baxmaq lazımdır.

Aşıq Ələsgərin yaradıcılığı davam etdirdiyi sənət şəcərəsinə daxil olan əvvəlki dövrlərdə yaşamış aşıqlardan fərqli olaraq daha dəqiq material əsasında öyrənilmişdir. Çünki aşığın həm öz ailə üzvləri, övladları, həm də şagirdləri onun yaradıcılığının yazıya alınmasında və onunla bağlı rəvayətlərin toplanmasında etibarlı qaynaq kimi iştirak ediblər. 1930-cu illərdə nəşr olunmuş aşıq şeiri kitablarında Aşıq Ələsgərdən də nümunələr vardır. Sovet dövründə Aşıq Ələsgərin 150 illik yubileyi keçirilib (3), heykəli qoyulub, yaradıcılıq nümunələri nəşr edilib. Aşığın bizimlə bir müddət birlikdə işləmiş nəvəsi İslam Ələsgərin aşığın irsinin toplanmasında və nəşr olunmasında xidmətləri böyükdür.

Sovet dövründə və ondan sonra da aşıq yaradıcılığı ilə bağlı aparılan araşdırmalarda Aşıq Ələsgər yaradıcılığı da önəmli bir yer tutur. Qara Namazovun, Mürsəl Həkimovun, Hüseyn İsmayılovun, Məhərrəm Qasımlının və b. tədqiqatlarında Aşıq Ələsgərin yaradıcılığı da müxtəlif aspektlərdən öyrənilmişdir (4; 5; 6; 7; və b.).

Aşıq Ələsgərin yaradıcılığının nisbətən az öyrənildiyi sahə onun sufi-ürfani dəyərlər kontekstini də əhatə etməkdədir. Göyçə folklor mühitini geniş şəkildə öyrənən Hüseyn İsmayılov Aşıq Ələsgər yaradıcılığını da sufi dəyərlər kontekstində araşdırmışdır (2). Fəxrəddin Baxşəliyevin tədqiqatlarında da sufizm və aşıq yaradıcılığında ürfan məsələsi tədqiqat mövzusu kimi Hüseyn İsmayılovun rəhbərliyi altında işlənmişdir. Bu tədqiqatlarda Aşıq Ələsgər yaradıcılığı sufi kontekstdə öyrənilməyə başlanmış və irəlidə aparılacaq tədqiqatlar üçün də əlverişli zəmin yaradılmışdır.

Aşığın yaradıcılığına dərindən bələd olmasına baxmayaraq nəvəsi İslam Ələsgər sufizm mövzusuna toxunmamışdır (8; 9; 10). O, Ələsgər yaradıcılığının sufizmlə əlaqəli öyrənilməsinə də sovet dövrünün metodologiyasından baxırdı. Əlbəttə, bu metodologiya Ələsgər yaradıcılığını sufi-ürfani dəyərlər kontekstində öyrənmək üçün əlverişli deyildi.

Görkəmli ədəbiyyatşünas Yaşar Qarayev Göyçəyə qayıdan yolun folklordan keçdiyini Göyçə folklorunun ön sözündə yazmışdı (1, 3). Bu fikir həm də Göyçəyə qayıdışın Ələsgər yaradıcılığından keçməsi deməkdir. Başqa deyilişlə, milli-mənəvi dəyərlərimizi daşıyan Ələsgər yaradıcılığını mənimsəməklə, milli həmrəylik və mənəvi kamilliklə milli kimliyimizi müəyyənləşdirən dəyərlərimizin sahiblik haqqını özümüzə qaytara bilərik.

Göyçə mühitində fəaliyyət göstərən aşıqları vahid bir ənənənin davamı kimi bütöv bir sistem halında tədqiqata cəlb edən Hüseyn İsmayılov Azərbaycan aşıq sənətinin təşəkkülündə təsəvvüfün yerini və

rolunu müəyyənləşdirib. Tarixi-müqayisəli və struktur-tipoloji təhlillər nəticəsində sənətin inkişaf yolu haqqında aydın təsəvvür yaradılıb (2). Burada Ələsgərin yeri və rolu da aydın şəkildə göstərilib.

Aşıq Ələsgər yaradıcılığının zənginliyi onun gələcək tədqiqatlarda da araşdırmalara cəlb edilməsini zəruri edir. Sufi-ürfani dəyərlərin də aşıq şeirinin ideya əsaslarındakı yeri və onun sosial-mədəni aspektləri tədqiq olunmalı məsələlər sırasındadır.

Aşıq sənəti ənənəvi xalq söyləyici tiplərinin islam və təsəvvüf dəyərləri ilə qarşılıqlı əlaqəsində yaranmış bir sənətdir. İslamiyyətdən sonra meydana gələn sufi təriqətlər islamiyyətlə əski dini inancları özündə birləşdirməsi ilə səciyyələnirdi. Şiəlik, ələvilik, səfəvilik, qızılbaşlıq anlayışları qızılbaşlıqda birləşir. Dincə İslam, məzhəbcə Cəfəri, şiə, təriqətcə Ələvi olmaq qızılbaşlığın tərkib hissəsi idi. Əslində, qızılbaşlıq sufi mahiyyətli bir ideologiya kimi meydana çıxmışdı. Həzrət Əlinin və İmam Cəfər Sadiqin kəlamları bu ideologiyanın fəlsəfi əsaslarını formalaşdırırdı. Şeyx Səfi, Şeyx Cüneyd, Şeyx Heydər və Şah İsmayıl Səfəviyyə təriqətinə mənsub ələviliyin və qızılbaşlığın qurucuları idi. XVI əsrin əvvəllərində Şah İsmayılı taxta çıxaran da ələvi-qızılbaş hərəkatı olmuşdu.

Ələvi-qızılbaş hərəkatının İran, Azərbaycan və Şərqi Anadoluda genişlənməsi ilə birlikdə ənənəvi türk mədəniyyətinin də dirçəlməsi və yüksəlişi başlanır. Şeirlərini farsca yazan Osmanlı saray mənsublarından fərqli olaraq, qızılbaşlar əski türk mədəniyyətinin ehyasına çox önəm verirdilər. Türk dilinin istifadə dairəsinin genişlənməsi, xalq mədəniyyətinin əski ənənələrə dönüşü, xalq ədəbiyyatına dayanan heca şeirinin inkişafı, xalq musiqi sənətinin inkişaf etdirilməsi və onun təsəvvüflə birləşərək yeni bir fəlsəfi məzmun qazanan aşıq sənətinin inkişafı və digər türk milli mədəniyyətinin inkişafı məsələləri həmin dövrdə gerçəkləşir. Səfəvi xanədanı süqut etdikdən sonra qızılbaşlıq Anadoluda Ələvi-Bəktaşi təriqətlərində, Azərbaycanda şiəlik məzhəbində, İranda isə ələvi yönümlü müxtəlif təriqətlərdə öz izlərini saxlayır.

Bəzi tədqiqatçıların əski oğuz ozan sənətinin davamı olaraq izah etdikləri aşıq sənəti ələvi təriqətləri içərisində meydana gələn bir sənət nümunəsidir. Ozan ənənəsinin bu sənətin yaranmasındakı rolu sənətin texniki cəhətdən təşəkkülü ilə bağlı aspektinə aiddir. Lakin sənət özünün fəlsəfi məzmunu ilə ələvi təriqətlərinə xas olan xüsusiyyətləri özündə ehtiva edirdi.

Sevən anlamındakı aşiq sözü ərəb mənşəli olsa da "ilahi eşq" fəlsəfəsini tərənnüm etmək baxımından ələvi sufilərin yaratdığı mü-

kəmməl bir sənət nümunəsi idi. Aşıqlıq bir sənət olaraq sufizmin, ələvliyin içində yaranmış, qızılbaşlıq onun inkişafına təkan vermişdi.

Şah İsmayılın sarayında Ələvi dədələri ilə birlikdə qızılbaş ərkanını təbliğ edən aşıqların böyük hörmət və ehtiram sahibi olduğu məlumdur. Sarayda saz məclisləri təşkil edilir və bu məclislərdə ələvi – qızılbaş ideologiyasını tərənnüm edən şeirlər oxunur, mənəvi kamilləşməni dəstəkləyən saz musiqisi ifa edilirdi. Şahın da iştirak etdiyi belə məclislər aşıq sənətinin inkişafına təkan vermiş olurdu.

Ələvi təriqətlərinə mənsub olan aşıqlar "ilahi eşqi" tərənnüm edir, "vəhdəti-vücud" fəlsəfəsini müxtəlif formalarda təbliğ edirdilər. Allahın, Məhəmməd peyğəmbərin, Həzrət Əli başda olmaqla 12 imamın tərənnümü aşıq yaradıcılığında önəmli bir yer tuturdu. Səfəvi-qızılbaş hakimiyyəti dövründə Həzrət Əli və Şah İsmayıl şəxsiyyətinin mübarək simalar olaraq tərənnümünə aşıq şeirində geniş yer verilirdi.

İlahi eşq aşıq sənətində haqq aşiqliyi deyilən yeni bir qəhrəman tipinin formalaşmasına şərait yaratdı. Eşqi tərənnüm edən və Allaha aşiq olan sənətçi tipi də bu əsasda formalaşır. Əski qəhrəmanlıq dastanlarındakı sevgi motivləri əsasında ilahi eşqin əsas ideyaya çevrildiyi eşq dastanları tipi yaranır. Bu dastanların əsas qəhrəmanı da haqq aşiqləri olur.

Azərbaycan aşıq sənətinin ilk nümayəndələri içərisində Qurbaninin adı qeyd olunur. Tarixi şəxsiyyət kimi təriqət mənsubu olan Qurbaninin şeirilərinin və haqqında dastanın dövrümüzədək gəlib çıxmasına baxmayaraq, onun yaradıcılığını ürfani baxımdan dəyərləndirmək imkanları məhduddur. Bu yaradıcılıq nümunələri şifahi ənənədə çox müasirləşib və öz ürfani əsasından uzaqlaşıb.

Təsəvvüfün mənəvi dəyər konseptlərini Qurbanidən bir neçə əsr sonra yaşamış Xəstə Qasımın və Abbas Tufarqanlının yaradıcılığında daha aydın şəkildə müşahidə edirik. Güney Azərbaycan sahəsində aşıq ənənəsində ürfani dəyərlərin qorunması imkanları təbiidir. Çünki şimaldan fərqli olaraq orada bir sıra təriqətlər gizlin də olsa öz fəaliyyətlərini davam etdirmiş və ənənəyə xas olan xüsusiyyətləri yaşada bilmişdir.

Azərbaycanın bir sıra qərb bölgələrində də aşıq sənəti öz mühiti ilə qorunmuşdur.

1988-ci ilə qədər Qərbi Azərbaycanın Göyçə mahalında da aşıq mühiti yaşayırdı. Bu mühit Azərbaycan aşıq sənətinin inkişafında önəmli bir mövqeyə malikdir. Xüsusilə, burada sufi qızıl-baş ocaqlarının olması bölgədə ürfan təliminin də yayılmasına geniş şərait yaradıb.

Aşıq Ələsgərin doğulduğu və fəaliyyət göstərdiyi Göyçə mahalı aşıq ənənəsini qoruyub yaşadan mühafizəkar bir mühit olub. Burada

sənətin və təriqətin əsasları qədimdir. Səfəvi-qızılbaş hökmdarı Şah İsmayılın zamanında (XVI əsrin əvvəlləri) Göyçə qızılbaş dərvişlərinin yaylaq yeri olub. Şah İsmayılın sarayında hörmət və nüfuz sahibi olan Seyid Hüseyn Miskin Abdal dövlət xidmətini yerinə yetirdikdən sonra yaşlı vaxtlarında şahın fərmanı ilə ona bağışladığı Göyçə mahalındakı əraziyə gəlib və orada təriqət fəaliyyətini davam etdirib. Miskin Abdal ocağının nəsil şəcərəsi hal-hazırda da davam etməkdədir. Miskinli adı ilə tanınan yerlər Miskin Abdal ocağına mənsub dərvişlərin təriqət fəaliyyəti göstərdiyi yerlərdir.

Ürfanın bir təlim kimi yaranması və formalaşması prosesi orta əsrlər dövrü təsəvvüf cərəyanları içərisində baş verib. Ürfan özündə ənənəvi türk xalq hikmətini və dini tərbiyəni ehtiva etsə də, bu, keyfiyyətcə yeni bir mənəvi dəyər konsepti kimi meydana gəlib. Bu mənəvi dəyər konseptinin daşıyıcılarına arif deyilib. Ürfan arif və mərifətlə birbaşa əlaqəli anlayışdır və bunları bir kontekstdə də araşdırmaq lazımdır.

İslam dəyərlərini təbliğ edən bir sıra institutlar orta əsrlər dövrü Azərbaycan üçün də xarakterikdir. Hədis izah edən mühəddisləri, din hüququnu aydınlaşdıran fəqihləri və başqalarını ürfan əhli olan ariflərlə eyniləşdirmək olmaz. Cəmiyyətin mənəvi təkamülünə xidmət edən institutlar olmasına baxmayaraq bunların fərqli xüsusiyyətləri vardır. Xüsusilə, ariflər sufi təcrübəyə əsaslanmaları, hal ilə mənəvi təkamülə nail olmaları baxımından fərqlənirdilər. Ariflər haldan anlayan həssas duyumlu insanlar idi və onların mənəvi tərbiyə təlimi gerçək yaşantıya əsaslanırdı. Bu təlim sufi övliyaların yaratdığı bir təlimdir və ariflər məclisində, sufilərin mərasimlərində yaşadılıb.

Aşıq Ələsgər də Göyçə mahalındakı arif məclislərini görüb, ustad Aşıq Alıdan dərs alıb, sənəti və ürfanı mənimsəyib və onu öz yaradıcılığında təbliğ edib. Ələsgər yaradıcılığı ürfani dəyərləri müasir dövrə daşıyan və onu yaşadan çox dəyərli sənət nümunəsidir. Burada təkcə şeir sənətindən və saz musiqisindən bəhs etmək məsələyə tam şəkildə yanaşmağı məhdudlaşdırmış olar. Ələsgər yaradıcılığındakı əsas ideya ürfan təlimi üzərində qurulub. "Hər elmdən hali olan" Ələsgər ona verilmiş mənəvi əmanəti diqqətlə və həssaslıqla özündən sonrakı nəslə çatdırır:

Ələsgər, elmdə olma nabələd,
Doğru söylə, sözün çıxmasın qələt (8).

Ona görə ki, dövr dəyişib, vəziyyət ağırlaşıb, ölkə müstəmləkə şəraitində yaşamağa məcbur olub. Belə bir ağır şəraitdə fəaliyyət göstərən aşıq üzərində ciddi bir mənəvi məsuliyyət hiss edir. Bu mənəvi dəyərlərin qorunması uğrunda verilən bir mücadilədir və milli bir məsu-

liyyətdir. Ələsgər ürfanın ənənədə yaşayan dəyərlərini aşıqdan aşığa çatdırılmasında önəmli bir keçid rolunu oynamışdır. Bu keçid Miskin Abdaldan Göyçənin digər təriqət mənsublarına, dədələrə keçidindən, Ağ Aşıqdan Aşıq Alıya keçiddən fərqlidir. Ələsgərin fəaliyyət dövrü gerçəklik əsaslarından qopmuş, cəmiyyətdən ayrılmış, qırılmış ənənənin ətalətlə zəif bir şəkildə davam etdiyi bir dövrdür. Ələsgərin yaratdığı və onun ətrafındakı aşıq mühiti Ələsgər sayəsində ənənəni davam etdirə bilib. Bütün ürfan dəyərləri Ələsgərin ətrafında və ya ustad-şagird şəcərəsinin əhatə etmədiyi, ondan nisbətən kənarda yerləşən, Ələsgərə əli çatmayan mühitlərdə passivləşib, arxaikləşib və funksionallığını labüd səbəblər üzündən itirib. Belə şəraitdə Ələsgər nadir bir arif kimi ürfanı yaradıcılığında tərənnüm edir. Güzəran fəlsəfəsi, dolanışıq sıxıntıları, ədalətsiz idarəçilik cəmiyyəti mənəvi cəhətdən tənəzzülə doğru aparırdı. Ələsgərin şeirlərində kifayət qədər sosial problemlərin tənqidinə rast gəlmək mümkündür və bunların heç biri təsadüfi deyildir.

"Əlstü birəbbikum, qalu bəla" (Ələst aləmində rəbbinizin kim olduğunu bilirsinizmi – deyə soruşdular, "bəli" dedilər) müqəddəs kəlama münasibətdən aydın olur ki, Ələsgər sufi haqq aşiqliyindən gələn ənənəyə bağlı bir haqq aşığıdır. O, Allahın insan övladına dünyaya gəlmədən öncə verilən müqəddəs məlumatdan xəbərdar olduğunu və onu bir məsuliyyət duyğusu ilə dərk etdiyini ifadə edir:

"Ələstdə "Bəli" dedim, əcəb xoş haldı yüküm,
Beş gözəlin aşiqiyəm, vəsfi-camaldı yüküm.
Həm dayazdı, həm dərindi, həm acıdı, həm şirin
Zəhmətdə zəhir-həlayiq, ləzzətdə baldı yüküm".

Bu ürfani bir yükdür və bu yükü daşımaq həm xoşdur, həm də əziyyətlidir. Ələsgər haqq aşiqi kimi öz ilahi aşiqliyinə sonadək sadiq qalır. Ələsgərin üzərinə düşən müqəddəs missiya ürfan dəyərlərini qorumaq və onları itkisiz və zədəsiz bir şəkildə gələcək nəsillərə çatdırmaqdan ibarət idi. Ələsgər gerçək aşıqlıq fəaliyyətində, məişət mərasimlərində, toylarda və el şənliklərində xalqın başa düşdüyü şəkildə dəyərləri təqdim etmək məcburiyyətində idi. Çünki sufi dərvişlər, təriqət mənsubları, ariflər və arif məclisi artıq həmin dövrdə sıradan çıxmışdı. Ələsgərin qıfılbəndlərini açacaq aşıq yox idi, çünki o bəndlərdəki qıfılların açarları artıq arxaikləşmiş sufilikdə, ariflikdə və ürfanda qalmışdı.

XIX əsrin sonları XX əsrin əvvəlləri müstəmləkə rejiminin sərtləşdiyi və qəddarlaşdığı bir dövrdür. Həmin dövrdə ənənəvi mədəni institutlar və milli-mənəvi dəyər konseptləri ağır zədələr alıb. Bu

proses Azərbaycan milli istiqlalını təsdiqlədiyi Cümhuriyyətin qurulmasına qədər davam edib.

Yeni dövrün gətirdiyi realist düşüncə tərzi ilə sufi mənəvi yaşantının hal, məqam kimi dəyərlərini anlamaq çətindir. Aşıq öz sağlığında bu reallığı aydın şəkildə dəyərləndirib və ürfandan didaktikaya keçid edib. Formal baxımdan ürfanda olan, lakin müasir cəmiyyətin fəlsəfi-etik düşüncəsinə uyğun ədəb, əxlaq anlayışları ilə bir mənəvi tərbiyə modeli təqdim edib:

"Aşıq olub tərki-vətən olanın,
Əzəl başdan pür kamalı gərəkdir.
Oturub-duranda ədəbin bilə,
Mərifət elmindən hali gərəkdir" (8).

Burada "tərki-vətən" olmaq aşığın el məclislərində iştirak etmək üçün müxtəlif yerlərə səfər etdiyi mənasında anlaşılacaqdır. Çünki "tərki-vətən"in sufi mənəvi təkamülündəki yeri və rolu haqqında məlumat unudulmuşdur. Sufinin "seyri-süluk" halında olması təcrübəsi də arxaikləşmişdir. Sufinin mənəvi təkamül yolu və ərkanı haqqında təcrübə də həmin şəraitdə mövcud deyil. Burada ürfandakı ərkan profan kamala çevrilib, ağıllı-kamallı olmaq mənasını bildirib. Sufi yol realist düşüncədəki etik normativə uyğun davranışı bildirən ədəb şəklində ifadə olunmuşdur. Əlbəttə, aşığın mərifət elmindən hali olması, xəbərdar olması həmin dövr üçün artıq simvolik səciyyə daşıyır. Çünki mərifət konseptinin mənəvi məzmunu kiçilmiş və təxminən ədəbli olmaq mənasına gəlmişdir. Halbuki, "mərifət elmi" sufi təcrübəsində mənəvi kamilləşmənin əsasını təşkil edən ürfani bir kateqoriyadır.

Təsəvvüf şeiri Nəsimi, Füzuli, Xətai, Yemini, Kul Himmet, Virani, Pir Sultan Abdal kimi ulu ozanların yaradıcılığında həm forma, həm də məzmun baxımından özünün zirvə məqamına yüksəlir. Əlbəttə, bu sırada Xəstə Qasım, Tufarqanlı Abbas kimi mütəsəvvüflərin də önəmli yeri vardır.

Təsəvvüf şeirinin fəlsəfi əsası vəhdət ideyasıdır. Bu ideya şeirdə ən müxtəlif şəkillərdə öz ifadəsini tapır. İlahi eşq vasitəsi ilə mənəvi kamilləşmədən keçən aşiqin haqqa qovuşmağa doğru gedən yolu nəfslə mübarizədən, dünya malı və mülkünə bağlanmamaqdan keçir.

Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgər şeiri xalq fəlsəfəsinin ən nikbin şəkildə ifadə olunduğu yaradıcılıq nümunəsidir. Bu yaradıcılıq da digər fəlsəfi-estetik fəaliyyət sahələri kimi özündə dünyanın zəngin bədii mənzərəsini ehtiva etməkdədir (7).

Ələsgər şeirində gerçəkliyi gözəllik kateqoriyaları ilə vəsf edir, onu mənalandırır və insanların mənəvi dünyası ilə əlaqələndirir.

Ələsgər şeirlərində haqqın gözəlliyinə və ya haqqın yaratdığı gözəlliyə bağlıdır. Bu poeziya reallığı diaxron bir şəkildə əks etdirməkdədir. Başlanğıcda ilahi gözəlliyin aşiqi olan aşıq real gözəlliyin aşiqinə çevrilir. "Mərifət elmi", "ürfan" təlimi tədricən "ədəb-ərkan" kimi tamamilə tərbiyəvi, didaktik bir mahiyyət qazanır. Aşıq poeziyasında intensiv olaraq müşahidə etdiyimiz "tərki-vətən" olmaq, "diyar-diyar gəzmək", baş götürüb getmək" və s. kimi köç konsepti ruhi-mənəvi hərəkəti, yüksəlişi və təkamülü bildirir. Şeirdə bu tipli seqmentlərin iştirakı artıq profan dəyərlərdən uzaqlaşmaq üçün mənəvi təbəddülatın başlandığını göstərir. Belə ruhi-mənəvi yaşantı insanı sakral sferaya doğru yönəldir, poeziyadakı profan ifadə şəkillərində isə bu ürfan təlimini sosial səviyyəyə sıxışdırır və yaxşılıq, xeyirxahlıq və s. bu kimi real didaktik ideyaların tərənnümünə yönəldir. Mənəvi yüksəliş maddidən tamamən imtina şəklində deyil, onların arasındakı əlaqəni təmin etmək, tarazlığı və çərçivələri müəyyənləşdirməklə başlanır. Bunları müəyyənləşdirən əsas mənəvi faktorlar "pür kamal" və "mərifət elmi"-dir. Belə olduğu halda "ədəb-ərkan" praktikasında problem yaşanmır. Amma şeirin daxili dramatizmi, "yaxşı-yaman", daha çox "nəfs-mərifət" kateqoriyaları ilə ifadə olunan dual sistemdəki binar oppozisiyaların, ziddiyyətlərin hesabına təmin edilir.

**Nəticə.** Aşıq Ələsgər yaradıcılığı üzərində apardığımız araşdırmadan gəldiyimiz qənaət belədir ki, aşığın yaradıcılığı ənənədən və təsəvvüfdən gələn mənəvi dəyər konseptlərinin ifadəsi baxımından zəngin material verir.

Aşıq Ələsgərin yaradıcılığı sufi ənənədə mövcud olan ideyaları özündə dolğun şəkildə əks etdirir. Bu baxımdan sufi haqq aşiqliyi Ələsgər şeirlərində öz dolğun ifadəsini tapıb. Bu nümunələr əsasında Azərbaycan aşıq sənətində sufizmin rolunu müəyyənləşdirmək üçün geniş imkanlar vardır.

Aşıq Ələsgərin yaradıcılığı sufi-ürfani dəyərləri yaşadan və onu müasir dövrə qədər daşıyan zəngin qaynaqdır. Bu qaynağa əsasən orta əsrlər dövrü Azərbaycan təsəvvüf ənənəsində mövcud olmuş mənəvi kamilləşmənin sufi təcrübəsini öyrənmək mümkündür.

Aşıq Ələsgər yaradıcılığında ürfan bir mənəvi dəyər konsepti kimi geniş ifadə olunub. Bu qaynağa əsasən Azərbaycan ariflik mədəni institutunu və ürfan dəyər konseptini ətraflı təhlil etmək və onun

milli-mənəvi dəyərlər sistemindəki yerini, milli kimliyini müəyyənləşməsindəki rolunu aydınlaşdırmaq olar.

Aşıq Ələsgər yaradıcılığında ürfan bir mənəvi dəyər konsepti kimi arxaikləşmə prosesinin tərkib hissəsi kimi müşahidə edilir. Cəmiyyətdəki müasirləşmə və müxtəlif siyasi səbəblərdən ənənəvi mədəni dəyərlərin passivləşməsi və sıradan çıxması ürfan konseptinin realist ictimai tərbiyə modelinə transformasiya olunmasını şərtləndirib.

Beləliklə, aşığın yaradıcılığında sufizmin süqutu, bitmiş bir təsəvvüf dövrünün qalıqları, ürfan təliminin hərəkətsiz vəziyyətdəki məlumat resursları müşahidə olunur. Materialist fəlsəfənin və realist düşüncənin cəmiyyətdə hakim metodologiyaya çevrilməsi ilə ürfanın didaktiya keçidi baş verib. Bu keçiddə ətalətlə davam edən sufi məlumatla ənənəvi tərbiyənin yeni dövrün reallığına uyğunlaşdığını görürük.

Aşıq Ələsgər yaradıcılığı ehtiva etdiyi keçid prosesi ilə birlikdə mənəvi dəyərlərin zəngin məcmusunu özündə birləşdirir. Bu dəyərlər diqqətlə öyrənilməlidir və cəmiyyətimizin mənəvi tərbiyə sisteminin aktiv hissəsinə daxil edilməlidir.

## QAYNAQLAR


1. Qarayev Y. Göyçəyə qayıdan yol folklordan keçir. Azərbaycan folklor antologiyası. III cild. Toplayanı və tərtib edəni H.İsmayılov. Bakı: Səda, 1999, s. 3-14. 430 s.
2. İsmayılov H. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı: Elm, 2002
3. Təhmasib M. Aşıq Ələsgər – 150. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri. 2 cilddə. I c. Bakı: Mütərcim, 2010, s. 318-327
4. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı: 1984
5. Həkimov M. Aşıq sənətinin poetikası. Bakı: 2004
6. Qasımova Ş. Aşıq Ələsgər şeirinin üslubi xüsusiyyətləri. Bakı: 2005, 186 s.
7. Əfəndiyev O. Aşıq poeziyasının estetik problemleri. Bakı: 1983.
8. Aşıq Ələsgər (toplayıb tərtib edəni İ.Ələsgər). I kitab. Bakı: Elm, 1972, 326 s.
9. Aşıq Ələsgər (toplayıb tərtib edəni İ.Ələsgər). II kitab. Bakı: Elm, 1972, 327 s.
10. Aşıq Ələsgər (Əsərləri, dastan-rəvayətlər, xatirələr) (Toplayıb tərtib edəni İ.Ələsgər). Bakı: Şərq-Qərb, 1999, 578 s.

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA KAMİL İNSAN OBRAZI

# THE IMAGE OF AN ENLIGHTED PERSON IN THE WORKS OF ASHUG ALESKER

# ОБРАЗ ПРОСВЕЩЕННОГО ЧЕЛОВЕКА В ТВОРЧЕСТВЕ АШУГА АЛЕСКЕРА

**Almara Vəzir qızı NƏBİYEVA**
*Filologiya üzrə fəlsəfə doktoru*
*BDU, Filologiya fakültəsinin "Dədə Qorqud" elmi tədqiqat laboratoriyasının müdiri*
*nebiyeva_almara@mail.ru*

**Summary**

The poetry of ashug Alaskar is rich in instructions, the essence of which are the dreams and wishes of the people. The ustad dictums are the reflection of the spirit of the people.

Almost all verses praise the model of an educated person, his significance for society, moral qualities that a noble person should have.

**Key words:** ashug Alaskar, enlightened person, instructions, moral qualities, nobility

**Резюме**

Поэзия ашуга Алескера богата наставлениями, сутью которых являются мечты и пожелания народа. Изречения устада – это отражение народного духа.

Почти во всех стихах воспевается модель просвещенного человека, его значимость для общества, моральные качества каковыми должен обладать благородный человек.

**Ключевые слова:** ашуг Алескер, просвещенный человек, наставления, моральные качества, благородство

Aşıq Ələsgər poeziyası hikmət, nəsihət, öyüdlərlə zəngin olub, xalqın arzu-istəklərini, halallığı, xeyirxahlığı, nəcib insani duyğuları əks etdirməsi baxımından ürəkləri fəth etmiş, dillər əzbərinə çevrilmişdir. El sənətkarı həmişə halallığa, zəhmətkeşliyə, yaxşı işlərə böyük önəm vermiş, insanlarda kamilliyə, ağıl-kamal sahiblərinə rəğbət və sevgisini bildirmişdir. "Aşıq Ələsgər pərvanə kimi özgə atəşinə yox, öz atəşinə yanır, öz yanğısı ilə oxucunu da yandıra bilirdi" (Bədəlzadə A., 2017: 12-13). "Aşıq Ələsgər öncə qəlbləri oxşayan, səmimi məhəbbət duyğularını tərənnüm edən, vətəninə, elinə qırılmaz

tellərlə bağlanan, insanlara bir çox müsbət keyfiyyətlər aşılayan qüdrətli söz ustasıdır" (Ələsgər İ., 2003: 14). Bəli, el sənətkarı kamil insana, kamil insan obrazına xüsusi dəyər və əhəmiyyət verir. Onun düşüncəsinə görə kamil insanlar adamlara, cəmiyyətə fayda verənlər, işıqlı adamlardır. Böyük aşıq deyir:

Ələsgər söyləyər söz müxtəsərin,
Ağlı kamil ola, kamalı dərin.
Eşidənlər deyə "əhsən", "afərin",
Əgər məclisində yüz qanan ola (Aşıq Ələsgər, 2003: 89).

Aşıq Ələsgər adamlara ağıllı, dərrakəli, dünyagörüşlü olmanın hər kəsə xeyir gətirib fayda verdiyini göstərməklə bərabər, cahilliyin, qabiliyyətsizliyin, yüksək əxlaqın olmamasının xeyirli olmadığını da dilə gətirir:

Ustad dərin, kamal dərin, söz dərin,
Qoydum sinəm üstə eşqin gözlərin.
Qabiliyyətsiz, mərifətsiz qızların
Yüzü bir dərdimənd dul ola bilməz (Aşıq Ələsgər, 2003: 101).

Müəllif yaradıcılığında doğruluğa, haqqa inanışa, halallığa, mərdliyə çox önəm verir. "Çünki sadəlik və səmimiyyət Aşıq Ələsgər üslubunun ayrılmaz müdriklik keyfiyyətidir" (Hüseynov M., 2017: 167). Bu xüsusiyyətlərin kamil insanda toplandığını bildirərək əyri yoldan çəkinməyi və bunların bir hikmət elmi olduğunu deyir:

Könül, doğru yoldan gəl olma kənar,
Əyri yola gedən haqdan utanar.
Bu bir müəmmadı, ariflər qanar,
Nadan bu elmdən halı ola bilməz (Aşıq Ələsgər, 2003: 101).

Aşıq Ələsgər mərdliyə, comərdliyə də dəyər verir, çünki bu da insanlığın ən vacib müsbət cəhətlərindəndir, təbii ki, bu, kamil insanın da kamilliyinin, haqq yolu ilə addımladığının göstəricisidir. Heç təsadüfi deyildir ki, ustad aşıq namərdin adının yaşamadığını, amma mərdlərin adlarının əziz tutulduğunu göstərir:

Heç namərdin adı gəlməz hesaba,
Mərd bir olur, onda iki ad olmaz (Aşıq Ələsgər, 2003: 109).

Aşıq Ələsgər adətən harada ağlı kamil, xoşa gələn, insanlığa layiq olanlar var onları bəyənib, tərifləyib. "Dünyaya tək gələn, dünyadan tək gedəndi Ələsgər. Aşıq sənətinin həm sələflərinin, həm də xələflərinin zirvəsiydi Ələsgər" (Bünyadov T., 1993: 153). Təbii ki, bunların arasında sayılıb-seçilən gözəllər, qız-gəlinlər də var, el-obanın tanınmış igidləri də. Bu poetik örnəklərdə bir cəhət var ki,

müəllif insan kamilliyini insanın zahiri gözəlliyindən daha önəmli bilir. Odur ki, onun şeirlərində bəhs etdiyi gözəllərin, igidlərin həm də mənəvi aləmi, kamalı, ağlı yığcam da olsa əks olunub. Sanki müəllif bununla demək istəyir ki, hər kəs belə ağlı kamil, sifətcə gözəl olmalıdır ki, dünyamızın gözəlliyinə gözəllik qatsın.

Düşünürük ki, öncə gözəllərin vəsfi ilə bağlı örnəklərə, daha sonra igidlərlə, cəsur şəxslərlə bağlı şeirlərə nəzər salıb böyük aşığın kamil insan obrazının hansı çalar və rənglərlə işlənməsinə göz gəzdirək. Əvvəlcə "Olmaz" adlı qoşmaya baxaq. Bu poetik örnəyin əhəmiyyəti çox olduğuna görə təxminən yarısını verməyi zəruri sayırıq, çünki burada mədh edilən gözəlin adı bəlli olmasa da, onun ağıl-kamal sahibi olması, hətta təmkində qeyri-adi üstünlüyü ilə bərabər, gözəlliyinin özünəməxsusluğu sanki mahir bir rəssam fırçası ilə həkk olunub. Aşıq deyir:

Qabiliyyətdə, mərifətdə, kamalda
Bu cahanda sənin kimi can olmaz.
Camalını görən tapar imanı,
Görüb ayrı düşən müsəlman olmaz.

Səni görən aşıq düşməz həvəsdən,
Əl götürməz bu söhbətdən, bu bəhsdən.
Müxtəsəri, meylin dönsə hər kəsdən,
Gözündə nur, cəsədində qan olmaz.

Gözəlliyin haqq isbata yetirib,
Əsmər yanağında güllər bitirib.
Züleyxa təmkini səndən götürüb
Səni tək nə mələk, nə qılman olmaz (Aşıq Ələsgər, 2003: 106).

Aşıq Ələsgər əhli-dil, gülərüz, xoşdavranışlı gözəlləri təqdir edir:

Canım qurban olsun o əhli-dilə,
Qaşların oynada, gözündən gülə.
Dilin tərpənməmiş dərdini bilə,
Qurbanam gözünə göz qanan ola (Aşıq Ələsgər, 2003: 89).

Ustad aşıq "Malades" adlı divanisində bəyəndiyi gözəli kamil bir gözəl kimi təqdim edir. Yəni o həm sifətdən gözəldi, həm də qabiliyyət, mərifət sahibidir:

Aşıq Ələsgər deyər,
Bu duruşun xan kimidi.
"Xam" deyib səhv olmuşam,
Hürüyü qılman kimidi.
Qabiliyyət, mərifətin,

Kamalın loğman kimidi.
Məclisdə dolanmağın
Alıcı tərlan kimidi.
Hansı evə qədəm qoysan
Qızıl dirəksən, malades (Aşıq Ələsgər, 2003: 209).

Müəllifin "Giləyə" divanisi də bu şeirlə səsləşməkdədir:

Ariflər, qulaq asın,
Deyim bir dastan Giləyə.
Qabiliyyətdə, mərifətdə
Çatmaz bir insan Giləyə;
Bu təmkində gözəl yoxdu,
Olmuşam heyran Giləyə;
Yetmiş iki millət görsə
Gərək desin "can" Giləyə;
Lazımdı kəsdirəsən
Gündə yüz qurban Giləyə (Aşıq Ələsgər, 2003: 199).

İndi də Aşıq Ələsgərin bəyənib təriflədiyi igidlərlə bağlı şeirlərinə nəzər yetirək. Bunun ən yaxşı örnəyi Dəli Alı ilə bağlı deyilən "Kimi" adlı divanisidir. Bu şeirin bir parçasına baxaq:

İyidliyin səbəbinə
Ona deyirlər "Dəli Alı";
Şücaətdə Qəhrəmandı,
Loğmana bənzər kamalı;
Barilahim, irəhim eylə,
Pozulmasın bu calalı.
Bir sərkərdə camışı var,
Üç sərkarda qoyun-malı.
Mehtərdə qırx atın gördüm,
Calalın türkmanı kimi.

Alı kimi iyid yoxdu,
Onu tək doğub anası;
Süzən əldə, ətək beldə,
Var iyidlik nişanası;
Vallahül-əzim belədi,
Açıq sözün mərdanası.
On beş gün şülən çəkildi,
İşlədi aşpazxanası;
Erkək yan-yana kəsildi,
Minanın qurbanı kimi.

Alı məclisə gələndə
Mətəl qaldım işlərinə;
Atamın sərdar oğludu,
Sərim qurbandı sərinə;
Səxavətdə əla gördüm,
Yardım Hatəm dəftərinə;
Şabaşa beşlik qızıllar
İşləndi qəpik yerinə;
Neçə mücrülər açıldı,
Sərrafən dükanı kimi (Aşıq Ələsgər, 2003: 206).

Bu nümunədən də göründüyü kimi, Aşıq Ələsgər Dəli Alını əsl qəhrəman kimi, el-obanın adlı-sanlı şəxsi gözündə görmüş, şücaətli igid, cəsur, kamallı, on beş günlük məclis keçirən səxalı kişi, qızılları qəpik yerinə xərcləyən birisi kimi təsvir etsə də, ona olan rəğbətini "sərim qurbandı sərinə", yəni başım başına qurbandı" – deyə bildirmişdir. Bu nümunədən də el sənətkarının Dəli Alıya ehtiramının çox olduğunu görməmək mümkün deyil. Həm də müəllif bu adı çəkilən şeirdə Dəli Alının qaçaq yoldaşlarının da adlarını (Aslan, Cəfər ağa, Məşədi Məhəmməd, Oruc, Qəfər, İsgəndər, Tat oğlu, Bala Məşədi) çəkir, onları da tərifləyir. Bu, Dəli Alının şöhrət və el-oba arasında hörmət-izzətinin olduğunu, daha doğrusu, Aşıq Ələsgərin kamil insan obrazını əks etdirir. "Aşığın tərifədiyi insanların tərifəlayiq cəhəti onların gözəlliyidir, əxlaqıdır" (Ələsgər İ., 1999: 127).

## QAYNAQLAR

1. Aşıq Ələsgər (2003). Şeirlər, aşıq rəvayətləri, xatirələr. Bakı: Çinar-çap
2. Bədəlzadə A. (2017). Bir söz ümmanının kamil qəffası. Hüseynov M. Aşıq Ələsgərin söz ümmanı. Bakı: Elm və təhsil
3. Bünyadov T. (1999). Əsrlərdən gələn səslər. Bakı: Gənclik
4. Ələsgər İ. (1999). Haqq aşığı Ələsgər. Bakı: Maarif
5. Ələsgər İ. (2003). Ulu ustad. Aşıq Ələsgər: şeirlər, aşıq rəvayətləri, xatirələr. Bakı: Çinar-çap
6. Hüseynov M. (2017). Aşıq Ələsgərin söz ümmanı. Bakı: Elm və təhsil

# ТРАДИЦИЯ АШУГОВ В СОВРЕМЕННОЙ ТАТАРСКОЙ ПОЭЗИИ (на примере поэзии Радифа Гаташа и Фарита Яхина)

# TRADITIONS OF ASHUGS IN MODERN TATAR POETRY (on the base of poetry by Radif Gatash and Farit Yakhin)

# MÜASİR TATAR POEZİYASINDA AŞIQ ƏNƏNƏSİ (Radif Qataş və Fərit Yəhinin poeziyası əsasında)

**Алсу Атласовна ШАМСУТОВА**
*канд.филол.наук*
*Старший научный сотрудник ИЯЛИ АН РТ*
*aatlas1@mail.ru*

**Summary**

The national culture and literature of the Tatar people is very colorful. It takes us back thousands of years. Based on the materials of Ancient literature, we can witness the development of the poetic genre of the Ashygs among the Tatars. In Tatar folklore, there were poetic incantations, theatrical games, wise tales and songs [Bakirov]. In the period from the XVII century to the beginning XIX Tatar poetry was called "primitive". But it has retained the same standard poetic forms that were passed down to us from our grandfathers. The tradition of the Ashug poets in the latest form appeared after the 60s. Today we can say that this tradition continues in the works of the famous Tatar poets Radif Gatash (1941) and Farit Yakhin (1961).

**Key words:** the Tatar poetry, the Tatar folklore, tradition of "ashug"

**Резюме**

Национальная культура и литература татарского народа очень колоритна, она уходит корнями вглубь тысячелетий. На материалах по Древней литературе мы можем проследить развитие поэтического жанра ашыгов у татар. В татарском фольклоре существовали поэтические заклинания, театрализованные игры, мудрые сказания и песни (Бакиров). В период с XVII века до нач. XIX в. татарская поэзия называлась как "примитивная". Но в них сохранились те же стандартные поэтические формы, которые перешли нам от наших предков. Традиции поэтов-ашугов в новейшей форме проявилась уже после 60- х гг. XX столетия и сегодня мы можем говорить о том, что эта традиция продолжается и в наши дни в творчестве выдающихся татарских поэтов Радифа Гаташа (1941) и Фарита Яхина (1961).

**Ключевые слова:** татарская поэзия, традиции ашугов, татарский фольклор.

Тема ашугов и их традиции в татарской литературе является малоизученным. Казанские татары, как и все тюркские народы, как самые северные народы, продолжали поэтические традиции, заложенные еще в Волжской Булгарии и в литературе Золотой Орды. Были у татар свои ашуги-сказители. Однако после падения Казанского ханства (в 1552 году) вся эта традиция исчезает как вид искусства, но все продолжала жить среди народа, перевоплащаясь в другие жанры, как "мунаджаты", "баиты", "жырау" и порой переплетаясь с "суфийской поэзией".

О богатом песенном наследии татар написано в трудах доктора филологических наук Кима Миннуллина "Песня как искусство слова" (Миннуллин, 2001) и "Һәр чорның үз җыры" ("В каждой эпохе – своя песня") (Миннуллин, 2003), в монографии профессора Резеды Ганиевой "Традиции Восточного Ренессанса в тюркских литературах Средневековья и Нового времени" (Ганиева, 2002) и в учебном пособии для студентов вузов профессора Фарита Яхина "Урта гасырлар әдәбияты" ("Татарская литература Средних веков") (Яхин, 2003).

При изучении степени проявления традиций ашугского искусства необходимо учесть подвергание национального тюрско-булгарско-татарского искусства и культуры основательным изменениям в XVI в. и второй раз в 20-гг XX столетия. До настоящего времени такого рода произведения рассматривались, в основном, как жанр фольклора (дастаны, эпосы), поскольку данное искусство продолжало жить в недрах народных масс и противостояло полному исчезновению национальной культуры во время христианизации. Однако не смогло сберечь свои классические традиции после революции большевиков в начале XX столетия. О поэтических формах фольклора, которые сохранили следы и ритмические формы ашугов, можно найти информацию в монографии профессора Марселя Бакирова "Татарский фольклор" (Бакиров, 2018). В свете современных взглядов на литературу Казанских татар и на Средневековую татарскую литературу, современным ученым предстоит более подробно изучить отдельные произведения тюрко-татарских поэтов и обозначить традиции ашугов в каждой эпохе нашей культуры до начала XIX столетия. Необходимо отметить, что искусство и деятельность ашугов помогли сформировать систему традиционных знаний многих тюрских народов, способствовали определению ценностных ориентаций, эстетического восприятия окружающего

мира и Космоса. Таким образом накапливался огромный человеческий опыт – созидательный творческий опыт народов и поколений.

Значение слова “ашыг” (или “ашуг”) уходит в глубины истории тюрских народов. Это слово переводится как “носитель живого слова” или “хранителя, сказителя” коллективной памяти народа и народного искусства слова. До сегодняшнего дня относительно генезиса данного термина идут споры. Одни ученые считают, что “ащыг” – это арабское слово и означает “страстно влюбленный в Творца”. Другие ученые считают, что “аш” – это архаическое тюркское слово и означает “песня”, “читать под распевку”. “Другие относят это слово к древнетюркскому глагольному корню “аш”, который в архаическом прошлом имел значение “песня” (от слова “ашула”)” (Мамедов). С древнетюркским словом “аш” и “ащыг” созвучен процесс “аш уздыру”, который проходит в татарских деревнях, где собирались родственники, друзья и читали Коран, хадисы, баиты и мунаджаты. В центре стола садился мужчина, в основном, который умеет читать по-арабски и умеет читать (петь) Коран под определенные макямы. Эти два события схожи по своему концептуальному содержанию.

В древние времена странствующие ашуги ходили по населенным пунктам и устно передавали события жизни или старинные сюжеты на излюбленные слушателями темы. В своих произведениях они бережно хранили каноны эпического наследия (эпоса, дастанов) и в то же время, пропагандировали современные литературные сюжеты и актуальные проблемы жизни. “Исходя из мифологических представлений древних тюрков, известный турецкий исследователь Ф.Кёпрюлюзаде считал, что слово “ашыг” происходит от тюркского “ишыг” (свет, огонь). Аналогично ему, русский востоковед-тюрколог, академик Вл.Гордлевский обращает внимание на то, что представителей мистико-аскетического суфийского движения “календарийэ” называли и как “ишыг” (по-турецки “огонь”, “свет”), и как “ашик” (по-арабски “сгорающий от любви к божеству”), т.о. слово “ишыг” здесь представлено в качестве народной этимологии суфийского термина” (Мамедов).

В эпоху оседлого образа жизни у татарского-булгарского народа ашыги стали именоваться шаирами (шагыйрь-поэтами) и создавали литературные образы искусства слова. В истории известны имена поэтов, которые служили при дворе и сочиняли страницы истории в стихотворной форме (поэтический эпос, дастан).

Задачей же нашего исследования является проследить развитие и трансформацию традиций ашугов в татарской литературе второй половины XX столетия. Как известно, вся советская литература с 1917 года до 1990-ее годы основывалась на методе социалистического реализма. Этот метод был основным и в поэзии тюркских народов, которые проживали на территории СССР. Метод соцреализма не позволял писателям и поэтам "самовольничать", то есть писать так, как бы им хотелось. "...Вопрос даже стоял, как называется, ребром: "А воссоздают ли такого рода произведения действительность в ее законах и устоях? ". Ответ со стороны старейшин искусства слова звучал однозначным: …. свободно нарушает каноны социалистического реализма, и реализма в целом" (Шамсутова, Каримова, 2021).

Однако в 60-е годы XX столетия в национальной литературе возникла новая волна молодых поэтов, в поэзии которых начали звучать восточные и древнетюркские мотивы, образы и жанры искусства слова. Это – Роберт Ахметжанов, Радиф Гаташ, Мударрис Аглямов, Фанис Яруллин, Равиль Файзуллин, Наис Гамбар, Харрас Аюпов. Наиболее ярко эта традиция проявилась в поэзии Радифа Гаташа. Его называют поэтом любви, современным татарским поэтом-ашугом (Гаташ, 2005). Именно в его лирике мы можем проследить восточный колорит, восточные и древнетюрские образы, мотивы. Он вернул татарской поэзие утраченные жанры "газаль", "касыйда", "маснави". Его творчество пробуждает в народе далекие тюрские мотивы, где поется о любви, о прекрасной жизни, о смысле жизни Человека.

В поэзии Радифа Гаташа мы можем выделить несколько важных пластов, где ярко звучит голос наших предков-"ашугов". Во-первых, это – его любовная лирика. Как известно, одним из главных жанров творчества ашугов является любовная лирика. Любовная лирика могла читаться, ее могли петь под музыку, и читать во время музыкально-поэтических турниров-"дэйишма" (Мамедов). В таких турнирах ашуги соревновались в поэтических вопросах, им нужно было в поэтической форме ответить на вопросы и загадки своих поэтических соперников.

Основной темой в любовной лирике Радифа Гаташа стало "меджнунство". "Меджнунство" рассматривается поэтом как "живительная сила", пропитанная восточным колоритом, духом древнетюркской степи. Она выражается посредством обще-

тюркских и характерных для ашугов мотивов, образов, сюжетов. "Именно любовь — "вечное чувство" — в поэзии Р.Гаташа вступает в диалог с вечностью", — пишет Ю.Нигматуллина (Нигматуллина, 2008): Смотри — две звезды разговаривают, / Путешествуя в Бесконечности. / Это наши сердца светятся сегодня в Вечности (Гаташ, 2005).

Тема любви, как и у ашыгов, у Радифа Гаташа звучит в пантеистическом духе и переплетается мотивами суфийской поэзии, создавая второй пласт его произведений. Поэт размышляет об отношениях Человека (микрокосма) с Макрокосмом, сопоставляя чувства любви к женщине с любовью к Богу. Даже когда ты уходишь — в природе остается Твое слово / Даже когда один брожу в осеннем лесу,/ Тебя слышу, каждая травка, шелестя, / Каждый кустик говорят со мной /голосом Твоим… Молитву читаю, /преклонив колени — Глаза устремляю к небу / Слышу голос… Ей-богу, это Тебя я слышу. ("Даже когда ты уходишь…") (Гаташ,2005). В этом плане Радиф Гаташ развивает традиции суфийских поэтов – Омара Хайяма, Джалялетдина Руми. Его лирический герой, сгорая в огне любви к Возлюбленной, уходит в Вечность.

Анализируя творчество Радифа Гаташа, ученый-профессор **Ю.Нигматуллина замечает,** что "лирический герой в поэзии Радифа Гаташа, как восточного поэта, ощущал себя не только представителем своего народа, но и землянином, возложившим на себя ответственность за все происходящее" (Нигматуллина, 2008).

Нужно сказать, что поэзие Радифа Гаташа присуща не только романтическое восприятия жизни. Общей тенденцией второго пласта его восточной лирики является философское осмысление проблем и смысла жизни, истоков бытия вообще и первооснов национальной истории. В них он продолжает традиции древних ашугов. Однако его поэзия обходит стороной выражение национальных мотивов в социально заостренных образах, национальных атрииибутах, встречающихся в поэтическом арсенале других народных поэтов. Таким образом, мы можем сказать, что в произведениях Радифа Гаташа устно-слуховая культура древних тюркских ашугов трансфирморавалась в индивидуально авторскую концепцию передачи живительной тысячелетней истории татарского-булгарского народа.

В 80-е годы XX столетия в поэзии возникло новое имя – имя Фарита Яхина (Яхин, 2015). В его стихах мы можем проследить стиль "великолепия", созданный еще в далекие столетия ашугами

и наиболее распространенную “любовную лирику». В его поэзии ощущаться тенденции непосредственного участия читателя (слушателя) в создании, сохранении истории, языка, культуры татарского народа. Фарит Яхин путем сказаний в поэтической форме демонстрирует нам изменение системы традиционных ценностей народа, национальных ориентаций и, что еще важнее, систему традиционных знаний татарского народа. Поэт громким голосом призывает обратить внимание, что видоизменяется и искажается вся традиция, история и культура. В его стихах мы слышим голоса “озанов”, “ашыгов”, “Деде”, “жырау”. Фарит Яхин не только доволствуется рассказами о повседневной жизни татарского народа, он как советчик, лечит душу нации. Здесь нам вспоминаются советчики-патриархи древнего общества, которые своими советами помогали сохранить государства. Он сказитель, мудрец и поэт в одном лице.

Хочется заметить, что, когда мы сегодня говорим о традициях ашугов в национальной поэзии, мы должны учитывать несколько моментов. Во-первых, “возврат к традиционным темам и традициям ашугов не может быть воспринят как возврат в прошлое”, чтобы такие же формы мы могли найти в современной нашей литературе (Гасабова, 2013). Обозначение традиций искусства слова ашугов является попыткой изучения этих канонических законов. Поскольку они были отшлифованы веками ашугского искусства, в них сохранились “творческие принципы, делающие ашуга ашугом” (Гасабова, 2013). Именно эти творческие принципы приближают современные поэтические произведения наших поэтов к ашугскому искусству.

Фарит Яхин в своей лирике возобновляет “голоса” ашугов: ритмы и рифмы его стихов, интонации, мотивы, манеры – все это созвучны поэзии древних ашугов. Он смело обращается в проблемам национальных исторических и культурных ценностей. Например, в его стихотворении «Немного о татарской истории”, вспоминая трагедии 1552 года, поэт вопрошает у современников: “Илең кайда?” – дип сорасаң татардан, “Урыс алды,” – дип зарлана кайчаннан.../ Бирдем, диген, / Ник әйтмисең дөресен?/ Кем кемлеге оныкларга беленсен! (Яхин, 1998). В этих строках поэт раскрывает истинные причины утери государственности татарами. Во все века, по его мнению, великие государства пали от предательства больше, чем от бессилия. Это должно прослужить на-

ставлением для молодого поколения, чтобы они смогли сберечь остатки былой исторической государственности.

В стихотворении “Нет, видно не татары мы…” Фарит Яхин описывает историческую мощь татарского народа и параллельно подчеркивает, что сегодня от былой славы осталось немного. Стихотворения Фарита Яхина очень близки к одному из жанров ашугского искусства – жанру “устаднамэ”, где традиционно поэт-ашуг дает наставления и делает нравоучительные выводы: Безме татар? Ярты дөнья тоткан/Каннан тумас мондый куркаклар, / Бабаларның каршысында оят, /Белә калса, тотып тураклар! (Яхин, 1998).

Следует заметить, что у поэта Фарита Яхина в разных жанрах используются разные по смысловой нагрузки мотивы, образы и сюжеты. Например, если одни мотивы предназначены для общественно-героических произведений, другие мотивы встречаются в любовной лирике. Даже манера письма в разных стилях различна и зависит от концептуального содержания послания. Наиболее распространенным жанром в лирике поэта являются “устаднамэ”, дастаны, эпосы в стихах, любовная лирика, в стиле «великолепия”.

Произведения в жанре “устаднамэ” посвящены раздумьям об эпохе, бытию человека: “Тарихка тасвир” (“Описание истории”), “Замана килер, китәр...” (“Эпоха приходит и проходит..”), “Колшәриф монологы” (“Монолог имама Кул Шарифа”), “Туган телем” (“Родной мой язык”), “Милләткә юату сүзе” (“Слова утешения народу”), “Татар”, “Урда” (“Орда”), “Хөтбә” (“Наставление”). В поэтическом произведении “Тарихка тасвир” (“Описание истории”) поэт размышляет вслух для своих современников и в своих раздумьях вспоминает масштабы тюркско-татарских границ: Татар иле, кайда аның чиге,/ Дунай, Байкал, Кавказ? Каян белим, җавап эзли-эзли / Тарихчылар ашкач.

Воспитанному в духе социалистического реализма и наряду с этим утерявшему свое концептуальное самосознание как части великого и масштабного тюркского мира татарскому читателю поэзия Фарита Яхина кажется не совсем “традиционным”. Здесь читатель, да и поэты татарской литературы даже сами не могут ответить на вопрос “А что значит традиционный?”. О каких традициях мы должны говорить, когда речь идет о татарской поэзии? Ведь татарская культура претерпела несколько трансформаций: в XVI веке и в XX веке. Изучая поэтические произведения поэта, мы пришли к выводу. Одна часть поэзии Фарита Яхина

написана в стиле “философии тишины”. Она тяготеет, скорее, к суфийским традициям, где поэт размышляет о смысле Жизни, Бытия, о Душе как о части Вечности. Другая часть поэзии поэта требует громкого прочтения, именно она звучит как продолжение традиций некогда утраченного ашугского искусства. Поэтому мы можем сказать, что наряду с верностью к классическим традициям татарской поэзии, которые были заложены в начале XX столетия еще поэтом Габдуллой Тукаем, поэзия Фарита Яхина сохранила в себе и оттенки, жанры, звучание поэзии ашугов. А поскольку эта традиция, практически, утрачена в самосознании современного татарского народа, читателя, то и поэзия такого рода кажется не совсем “модным”, “традиционным”, “новаторским”. Об этом подчеркивает и Ринат Бекметов: “…в свете текущих предпочтений тот, кто сохраняет преемственную традиционность письма, варьируя ярким индивидуальным своеобразием в строго очерченных пределах, оценивается как нечто непохожее и, стало быть, автоматически “периферийное” (Бекметов, 2018).

В поэтическом творчестве Фарита Яхина мы можем увидеть тематическое разнообразие, виды стихотворений, стилистические выражения и формы слогов, входящие в классические традиции ашугов: это и манера обращения к слушателю, народу, репертуар. Все это делает поэзию Фарита Яхина “независимой и свободной поэзией”, которой некогда славилась поэзия ашугов. Его поэзия на первый взгляд может казаться самобытным; это обеспечивается за счет жизненности его стихотворений в различных формах и жанрах. Поэт Фарит Яхин никогда не боится высказать правду. Он неустанно продолжает обращать внимание читателя на существующую национальную трагедию – это утеря национального языка, главного фактора сохранения нации: Туган телем, сине саттылар, /Кирәксез дип, читкә аттылар, / Телен саткан ата-ана урыс /Булып туган бала бактылар.

Ашуг всегда пел об актуальных проблемах общества, не боялся указывать на его духовные “болезни”, политические минусы. Так и Фарит Яхин указывает на “исчезновение” нации путем изменения сознания ее молодежи. Это явление “манкуртства”, впервые озвученное в романе Чингиза Айтматова, настигло сегодня и татарский народ: Бабаларын саткан балалар / Илен, динен, телен сатсалар, /Туган телем, кайт син аларга, / Алар да шул безнең татарлар.

Еще в XX веке и в 90-е гг. XX столетия велико было Слово поэта. Было и действенным, как и слово ашуга. Слово поэта лечило духовные болезни народа, указывало на недостатки общества, актуальные проблемы самосохранения нации. Но сегодня, в начале 2020 – х гг. поэты теряют свою значимость, силу действия на сознания народных масс. Народ перестает читать литературные произведения, все увлечены социальными сетями, демонстрацией своего "профиля". Это не только болезнь века, это болезнь эпохи – а значит и конец цивилизации. Не зря еще в Коране говорилось, что придет Время и исчезнит Книга. Здесь речь идет не только о Коране как о священной Книге, посланной от Творца. Мы видим, что речь идет о Книге написанной и напечатанной, речь идет о Знаниях, культуре, которые служат народу. Книга становится не нужной, потому что сознания масс находится в "другой реальности" – в вертуальной (невидимой для глаза) реальности. И поэт Фарит Яхин констатирует этот факт как конец духовной культуры, духовного наследия народа: "Жизнь есть обман. В обман мы верим свято. / Нам голос правды дан в помехах лжи. / Вот и сегодня, получив зарплату, / Две книги я купил, чтоб сжечь в печи. / Ах, как же был влюблен я с детства в книги! / Как их читал ночами напролет! / Но мудрецы всегда одно твердили, / А в жизни было все наоборот. / Теперь я сам знаток, пишу романы, / Сам искушаю словом добрый люд. / И мудрецы, листая вечерами, / С насмешкою бросают в печь мой труд. / О сколько сил уходит в слово правды! / Жизнь ведь течет как быстрая река. / Найдется ль тот, кто идеала ради / Плод дум моих исторгнет из огня?.." (Бекметов, 2018).

Таким образом, мы можем сказать, что поэзия двух татарских поэтов (Радифа Гаташа и Фарита Яхина), как и ашугское искусство, тесно связаны с жизнью народа. В них мы можем увидеть традиции ашугов, которые подверглись изменениям в зависмости от требования времени и прошлы разные этапы развития. Ашугские традиции, которые оставались неотъемлимой частью народного фольклора, продолжаются в творчестве поэтов и XX века. В них отражение мышления народа, выраженное в поэтической форме, в них отражается жизненная философия, картина мира, единство поэтического и музыкального восприятия жизни и силы слова татарского народа.

# ИСТОЧНИКИ


1. Бакиров М. Татарский фольклор. Монография. Казань: Изд-во Академии наук РТ, 2018. 406 с. 23, 24
2. Бекметов Р. “Родина” и “Чужбина” в поэзии Фарита Яхина //Филологические науки. Вопросы теории и практики. Тамбов: Грамота, 2018. № 9 (87). Ч. 2. С. 228-232. ISSN 1997-2911. www.gramota.net/materials/2/2018/9-2/
3. Ганиева Р.К. Традиции Восточного Ренессанса в тюркских литературах Средневековья и Нового времени. Казань: Изд-во “Фэн” АН РТ, 2014. 272 с.
4. Ганиева Р. Татарская литература: традиции, взаимосвязи. Казань: Изд-во КГУ, 2002. 272 с.
5. Гасабова И. Классическая поэтическая традиция в Казахской ашугской среде XX века // Ученые записки Таврического национального университета имени в. И. Вернадского. Серия “Филология. Социальные коммуникации”. Том 26 (65). № 1, ч. 1. 2013 г. с. 198–202
6. Гаташ Р. Мәңгелек сусау. Шигырьләр, газәлләр, робагыйлар. Казан: “Рухият” нәшр., 2005. 512 б.
7. Мамедов Т. Ашыги Азербайджана // http://www.musigidunya.az/new/added.asp?action=print&txt=1293
8. Миннуллин К. Песня как искусство слова. Автореферат дис...канд. филол. наук. Казань, 2001. 75 с.
9. Миннуллин К.Һәр чорның үз җыры. Казан: “Мәгариф” нәшрияты, 2003. 400 б.
10. Нигматуллина Ю. Поэзия вечного чувства // Республика Татарстан, 2008, № 60-61 (26177) от 25.03.2008 // http://rt-online.ru/p-rubr-kult-35472/
11. Яхин Ф. Хис керфегемдә күз яшең. Шигъри әсәрләр җыентыгы. Казан, 1990. 157 б.
12. Яхин Ф. Урта гасырлар татар әдәбияты. Казан, “Раннур” нәшрияты, 2003. 416 б.
13. Яхин Ф. Шигырьләр һәм поэмалар: Поэзия. Бишенче том. Казан: “Сүз” нәшрияты, 2015. 429 б.
14. Шамсутова А., Каримова Р. Мифологизм и фольклорные мотивы в современном татарском романе // Материалы Всероссийской научно-практической конференции “Роман в литературе и культуре народов России”. 19–21 мая 2021 г. Улан-Удэ, 2021.

# SÖYLƏYİCİLİK ZİRVƏSİNİN FATEHİ
## (Göyçə aşıq gələnəyinin Aşıq Ələsgər mərhələsi)

# THE CONQUEROR OF THE PEAK OF TELLING
## (Ashug Alasgar stage of Goycha ashug tradition)

# ПОКОРИТЕЛЬ ВЕРШИНЫ СКАЗИТЕЛЬСТВА
## (Период Ашыга Алескера ашыгской традиции Гойчи)

**Ataş ƏHMƏDLİ**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*atesehmedli@gmail.com*

**Summary**

In the article it is said about Ashug Alasgar’s poetic heritage and performing qualities. In particular, the brief explanations about function of ashug as a listener, the function of which is based (traditional or individual source), the principles of execution, etc. are given. It is known that ashug’s activity in this field has given impetus to the formation of many legends told about him at the moment. One important point in the investigation is to characterize the facts about Ashug Alasgar’s being a master of talent. The qualities such as to have phenomenon memory and intuition, retelling poems by heart are mentioned especially in the article. The result is that these qualities played an exceptional role in raising him to the level of a perfect narrator, determining the carrying of a sacral mission on the way of the people. Finally, we can say that the unexplored intentions of Ashug Alasgar’s poetic heritage still remain and we hope that the conceptual investigation of ashug’s life and activities will contribute to their opening.

**Key words:** ozan, ashug, teller, mission, poem, poetical heritage, epos-legend

**Резюме**

В статье речь пойдет о поэтическом наследии и исполнительных достоинствах Ашыга Алескера. В особенности, здесь даются краткие толкования о том, какова функциональная роль ашыга в качестве сказителя, на какой механизм (традиционный или индивидуальный источник) основывается эта функция, принципы ее выполнения и т.д. Выясняется, что деятельность ашыга в этой области дала толчок появлению рассказываемых о нем сейчас многих эпосов-легенд. Еще одним важным моментом в исследовании является характеристика о том, что Ашыг Алескер был отмеченным (одаренным). В статье особо подчеркиваются его такие качества, как феноменальная память, предчувствие будущего, импровизационный дар чтения стихов и т.д. Вывод заключается в том, что эти качества сыграли

исключительную роль в его восхождении до уровня совершенного сказителя, определили выполнение им сакральной миссии на народном пути. В заключение можно сказать, что все еще остаются нераскрытые сюжеты поэтического наследия Ашыга Алескера, и мы надеемся, что концептуальное исследование жизни и деятельности ашыга внесет вклад в их раскрытие.

**Ключевые слова:** озан, ашыг, сказитель, миссия, стихотворение, поэтическое наследие, эпос-предание

Azərbaycan aşıq sənəti tarixi inkişaf səciyyəsinə və hazırki səviyyəsinə görə bir çox türk xalqları ilə ortaq olduğu gələnəkdə özünəməxsus yer tutmaqdadır. Bu da imkan verir ki, məhz bu gələnəkdən bəhrələnən ustad sənətkarların irsi diqqətlə öyrənilsin, onların ifaçılıq məziyyətləri lazımınca dəyərləndirilsin və ümumiyyətlə, bu sənətlə ilişkilərinin mübahisəli qalmış tərəflərinə yenidən baxılsın.

Aşıq Ələsgər məhz o aşıq-söyləyicilərdən idi ki, hələ sağlığında bu sənətin zirvədə qalması üçün böyük hünər göstərmişdir. Aşıq Ələsgər haqqında çox yazılsa da, bir aşıq-söyləyici kimi onun fəaliyyəti sənətinin diapazonuna görə araşdırılmamışdır. Məsələn, aşığın irsi geniş təhlil olunsa da, bu irsi hansı kanallarla mənimsəməsi, necə daşıması və ötürücülük funksiyası, bir sözlə, bu parametrdəki sakral missiyası hələlik kompleks halında tədqiqata cəlb olunmamışdır. Bütün bunları nəzərə alıb, aşığın fəaliyyətinə qeyd olunan istiqamətlərin fonunda baxmağı lazım bildik. Öncə “söyləyici” və “söyləyicilik” terminlərinin açılışına diqqət çəkək.

*Söyləyici* – sənətin subyekti, mühitin və janrın (poetik yaddaşın) struktur əlamətlərinin daşıyıcısı, söyləyicilik sənətini təşkil edən səviyyələri hərəkətə gətirən, bir-biri ilə bağlayan, əlaqələndirən və onları bir sistem kimi funksionallaşdıran mediatordur.

*Söyləyicilik* – bir sənət sahəsi olmasından dolayı müxtəlif səviyyələrdə (məs: aşıq, nağılçı, ağıçı, rəviçi, lətifəçi və s. qismində) aşkarlana bilir və hər səviyyənin özünəməxsus daşıyıcısı olur. Bu daşıyıcılıq, sənətin funksional olmasını şərtləndirir və əsasən də, varislik yolu ilə mənimsənilir. Söyləyicilik, həm də janrın tələbinə görə klassifikasiya olunur. Məsələn, nağıl – nağılçılığı, ağı – ağıçılığı, rəvayət – rəviçiliyi intişar və inkişaf etdirir. Bütün bunlar öz yerində, düşünürük ki, bu sahənin aparıcı siması aşıq olaraq qalır. Çünki o, peşəkarlığı və sənətinin yayğınlığı baxımından daha geniş kütləyə nüfuz edə bilir. Obrazlı desək, aşıqlıq söyləyicilik piramidasının zirvəsini təşkil edir.

Əslində, Aşıq Ələsgərin doğulub boya-başa çatdığı Göyçə mahalı ənənəsinə sıx bağlı idi və davamlı olaraq aşıq sənətinə yeni-yeni

simalar təqdim etməkdə idi. Təbii ki, Ələsgər də belə bir mühitə biganə qala bilməzdi, odur ki, ilk olaraq elə gələnəyin təsiri altında bu sənəti mənimsəməyə səy göstərmişdi. Ələsgərin ustad yanına getməzdən əvvəl sənətə maraq göstərməsi, şeir əzbərləməyə hüsn-rəğbət bəsləməsinə mənbələrdə də işarə olunmuşdur. Bu haqda bir neçə məlumat olsa da, Ələsgər ocağına munis insanların təqdim etdiyi məlumatlar, fikrimizcə, daha səhih hesab oluna bilər: "Aşığın oğlu, qızları, Ağkilsə kəndinin digər yaşlı adamlarının xatirələrinə görə, böyük ustad, həqiqətən də, yazı-pozu bilməmişdir. O, əsl el sənətkarı kimi folklor ədəbiyyatı ənənələri üzərində təlim-tərbiyə almış, müdrik xalq ağsaqqalı, ozanı zirvəsinə ucalmışdır" (1, 5). Şübhəsiz, aşığın qeyri-adi yaddaş tutumuna malik olması bu prosesdə həlledici rol oynamışdır. Əslində, bu xüsusiyyət söyləyicilik sənətinə yiyələnmənin müqəddəm şərti idi və növbəti mərhələyə keçidi üçün balaca Ələsgərə "özünü göstərmək" fürsəti qazandırmışdı. Tezliklə mühit və məktəb Ələsgərin timsalında çulğaşdı və bərqərar oldu: "Alməmməd kişi oğlunun gözəl şeirlər söylədiyini, çalıb-oxumağa sönməz həvəsini görüb saz bağlatdırmış, az sonra onu Göyçənin məşhur sənətkarı, Qızılvəngli Aşıq Alıya şəyird vermişdir" (1, 4).

Bir sənət məbədi kimi əxz etməsindən savayı, Ələsgər Göyçəni həm də Vətən misalında əziz tuturdu. Bu vətənin sərhədləri ilə bağlı təsəvvürlər o zaman dumanlı olsa da, hər halda bu səddin Göyçədən başladığına Ələsgər əmin idi. Odur ki, şeirlərində mahal qismində təqdim olunsa da, Ələsgərin poetik irsində Göyçə bütöv bir vətən qismində obrazlaşa bilmişdir. Şeirlərindən nümunə gətirməklə fikrimizə davam edək:

Adım Ələsgərdi, Göyçə – mahalım,
Dolanım başına, mən dərdin alım.
Hüsnün şöləsinə xəstə xəyalım,
Pərvanədi, şəmistanlar dolanır (1, 25).

"Dolanır" rədifli bu qoşmasından başqa Aşıq Ələsgərin belə bəndlə tamamlanan bir neçə qoşması da vardır. Bunlardan "Dəli Alı" rədifli (1, 24) və "Dürdanəni səngi-siyah içində" (1, 28) başlıqlı qoşmalarını qeyd etmək olar. Sonuncunun möhürbəndi forma və məzmunca daha müfəssəl çulğaşa bilmişdir və bunu müşahidə üçün həmin bəndin üzərinə gələk:

Adım Ələsgərdi, əslim Göyçəli,
Ələst aləmində demişəm "bəli!"
Həm aşığam, həm dərvişəm, həm dəli,
Canım gözəllərin yol qurbanıdı (1, 28).

Əsli Göyçəlidirsə, heç şübhəsiz, türk soylu olub və deməli, indi Qərbi Azərbaycan kimi bildiyimiz arealın da köklü sakini hesab olunub. Belə ki, o vaxtlar Göyçə bu arealın episentri sayılıb və sanki bütün gedərgələr burada kəsişib, buradan baş alıb, ünvanına yetişib. Kifayət qədər əsasımız vardır ki, folklorumuzun yayılma miqyası üzrə təsnifatını da məhz bu areal nəzərə alınmaqla aparaq. Belə ki, "Azərbaycanın söz, saz və sənət tarixindən bütövlükdə türk-turan aləminin çox aydın və sabit xəritəsi görünür. Dünyada türklərin yaşadığı ərazilər, türklərin saldığı izlər hamısı burada kəsişir və qovuşur" (2, 65). Deməli, folklorun təşəkkül tapdığı və yayıldığı miqyas həmin coğrafiyanın köklü sakinini dürüst təyin etməyə imkan verir. Fakta gəldikdə isə, bu ərazilərdə xalqımızın min illər boyu yaşanmış tarixinin nişanələri indi də qalır. Bu nişanələrin müəyyən bir qismi "Dədə Qorqud" dastanlarında daşınmışsa da, mühüm bir qismi də Göyçə dastanlarında təmərküzləşə bilmişdir: "Göyçə dastanlarında qəhrəmanlıq motivi olduqca güclüdür; burada aşıq həm aşiqdir, həm də nominal mənada qəhrəmandır (döyüşçüdür). Sadəcə olaraq, o, mübarizəsini qılıncla və başqa silahla deyil, sazla və sözlə aparır, qalib gəlir və rəqibi olaraq basdığını kəsmir, onu ifşa etməklə kifayətlənir. Həmin qəhrəmanlıq ruhu bu gün də mövcuddur və Vətən igidlərinin ulu məskənimiz uğrunda zəfər yürüşünə təminat verir" (3, 82). Nəticə isə ona dayanır ki, əgər Aşıq Ələsgər irsinə sahibliyimizi təmin etmişiksə, bu irsin təşəkkül tapdığı coğrafiyaya da sahibliyimizi bərpa etmək haqqında düşünməliyik! Müşkül iş olsa da, nə etmək, çarəsinə əlac axtarıb tapmaq da bizim işdir! Gec, ya tez, hər halda bunun da zamana ehtiyacı vardır...!

Deyilənə görə, Aşıq Ələsgər başına gələnlərin çoxuna elə dastandakı kimi yanaşmış, hələ onları yadda saxlamağı yaxınlarına da məsləhət bilibmiş: "Mənim başıma gələnləri düzgün danışsanız, sözlərimi yerli-yataqlı oxusanız, elə hərəsi bir dastandı" (1, 5). Qeyddən aydın olur ki, Aşıq Ələsgərlə bağlı meydana gəlmiş dastan-rəvayətlərin əksəriyyəti onun şəxsi həyatı ilə bağlı olub, real hadisələrlə ilişkilidir. "Aşıq Ələsgərnən Mir Məcid ağanın görüşü" dastan-rəvayəti bu anlamda yaxşı nümunədir və tamamilə real zəminə əsaslanmışdır (3, 81). "Aşıq Ələsgərin Türkiyə səfəri", "Aşıq Ələsgərin Qaraqoyunlu səfəri", "Aşıq Ələsgərnən Şəmkirli Aşıq Hüseynin görüşü" və s. onlarca bu tipli dastan-rəvayətlər vardır ki, onlarda da dəyərli faktlar, maraqlı təfsilatlar yer almışdır. Belə prototekstlərdən (mətn öncəki təfərrüatlardan) dastançılıqda geniş istifadə olunur və adətən dastandakı əhvalatlar elə bu səciyyəli faktlar, təfsilatlar əsasında qurulur. Odur ki, həmin dastan-rəvayətlərin də əyarı çox

yüksəkdir və aşığın həyat hekayəsini yaxşı anlamaq üçün onlardan lazımınca faydalanmaq olar.

Qeyddən o da aydın olur ki, Aşıq Ələsgərin özünün dastan düzüb-qoşmağa meyli olmamışdır. İfaçılıqda nadir rast gəlinən bu hal həm də maraq doğurduğu üçün diqqətdən keçirilə bilər. Əslində, yaradıcı aşıqlar dastan düzəltməkdə pərgar olublar və bununla da daha çox şöhrət tapıblar. Bəllidir ki, elə aşıqlar da olub ki, özləri dastan qoşmağı bacarmasa da, yaradıcı aşıqların ərsəyə gətirdiyi dastanları ifa etməklə ad-san çıxarıblar. Ələsgərə gəlincə isə o, yaradıcı aşıq olub və söyləyiciliyə xas olan bütün davranış və normaların fövqündə dayanıb. Yəni, "söyləyicilik sənəti xüsusi və uzun müddətli (adətən uşaq yaşlarından başlayaraq) təlim tələb edir; buraya müstəsna yaddaş, epik dünyaya orqanik daxil olma qabiliyyəti, səciyyəvi ifaçılıq vergisi və improvizasiya qabiliyyəti, eləcə də davranış norması və bir sıra ənənəvi tələblərə riayət olunması daxildir" (4, 113-114). Mübahisəli qalan odur ki, bu situativlikdə Aşıq Ələsgər söyləyiciliyin hansı fazası üzrə daha funksional mövqe nümayiş etdirir? Bilirik ki, söyləyicilikdə üç mühüm faza əsas kimi götürülür: öyrəncilik (hazırlıq mərhələsi), daşıyıcılıq (yetkinlik mərhələsi), ötürücülük (piranilik mərhələsi). Qeyd də əsaslandırır ki, Aşıq Ələsgər burada pirani çağındadır, deməli, o, ötürücülük funksiyasını yerinə yetirmişdir. Ümumi planda götürdükdə isə bu üç fazanın bir-biri ilə əlaqəsi qırılmazdır: belə ki, söyləyici ənənəni qəbul edir, bir müddət daşıyır, sonda varislərinə ötürür. Əslində, Ələsgərin yaradıcı aşıq olmasını onun dastan düzüb-qoşmağa meyilli olmaması şərtləndirmir. Sadəcə, o, öz missiyasını burada dolayısı ilə (xam material təqdim etmə yolu ilə) həyata keçirir və davamlı olması üçün (yəni ənənə üzrə) bu missiyanı gələcəyə daşımağı varislərinə həvalə edir. Bununla da mükəmməl bir söyləyici qismində artıq o, öz missiyasını başa çatdırmış olur.

Mükəmməl söyləyiciliyin bir özəl cəhəti də bu sənətə yiyələnənlərin əlahiddə fitrət sahibi olmaları ilə ilişkilidir. Buna isə "Dədə Qorqud", "Manas" nəhənglikdə dastanların daşınması və ifa proseslərinin hansı mexanizmə söykəndiyinin, yaxud da nə kimi sistemə əsaslandığının fonunda baxıla bilər. Məsələn, Qorqud Atanın qaibdən xəbər verməsinə dastanda işarə olunur, mənbələrdə "Manas"ın davamçılarının əlahiddə fitrət sahibi olmalarından danışılır. Əks təqdirdə, bu nəhənglikdə həcmi yadda saxlamaq sırf texniki məsələ kimi qiymətləndirilərdi və bu da özlüyündə yanlışlığa rəvac verərdi. Fil.ü.f.d. A.Cəmil məsələyə münasibətdə yazır: "Maraqlı cəhətlərdən biri də budur ki, xalqın qəbul etdiyi, inanıb qulaq asdığı manasçı "ilahi vəhyin

adamı" olmalı, yuxuda ona vergi verilməlidir. Ona görə də tanınmış manasçılar dastanı söyləməzdən öncə öz yuxuları barədə danışaraq tamaşaçı kütləsini inandırmağa çalışmışlar ki, guya onlar bu yuxuda Manasın, onun igidlərinin ruhu ilə görüşüb söhbət etmişlər" (5, 9).

Düzü, Ələsgərin vergili olmasına mənbələrdə toxunulsa da, bu məsələ ətrafında hələlik ciddi araşdırma aparılmamışdır. Hər halda Ələsgər ocağına mənsubların dilindən alınmış məlumatlardan bu məsələni aydınlatmada istifadə məqbul hesab oluna bilər. Aşığın nəvəsi olmuş və hazırda dünyasını dəyişmiş İslam Ələsgərin vaxtilə bu əsnada verdiyi məlumatlar indi də əhəmiyyətini saxlayır: "O öz həssas intuisiyası ilə gələcəklə bağlı bəzi hadisələri hamıdan əvvəl duyar, qabaqcadan xəbər verərmiş. Bəlkə də, bu xatirələrdə müəyyən mübaliğə vardır. Ancaq Aşıq Ələsgər poeziyasını bütövlükdə nəzərdən keçirdikdə, onun fövqəladə istedadına inanmamaq qeyri-mümkündür" (1, 7). Aşığa məxsus bu keyfiyyət onun öz dilindən alınmış etirafda daha aydın ifadələnmişdir. Olmuş əhvalatla bağlı həmin etirafın xalq arasında maraqlı təfsilatı da söylənilməkdədir. Belə ki, dedi-qoduya uyan Aşıq Alı şəyirdini pərt etmək qərarına gəlir və bunu camaatın gözü qarşısında nümayiş etdirmək istəyir. Ələsgər nə vədə ustadını bu işdən çəkindirməyə çalışsa da, heç cür buna nail ola bilmir. Nəhayət, ustadı ilə deyişmək məcburiyyətində qalır və nəticədə ona qalıb gəlir. İslam müəllimin digər bir açıqlamasında bu məqam çox maraqlı şərh olunmuşdur. Aşığın doğrudan-doğruya fitrət sahibi olduğuna işarə verdiyi üçün həm də bu şərh qiymətli hesab olunmalıdır: "Aşıq Alı ağzını açanda zil səslə indiyə qədər eşitmədiyim elə bir söz oxudu ki, başım qıcıldadı, gözlərim qaraldı, qulaqlarım batdı... Tez yönü qibləyə dayanıb, bir salavat çevirdim, sidq-dilnən ağamı çağırdım... Elə o saat başım sakitləşdi, gözlərim işıqlandı, qulağım əvvəlkindən də yaxşı eşitdi, ağlım-huşum cəm oldu. Aşıq Alı oxuduğu sözün cavabını verdim. Aşıq Alı ikinci sözü başladı, onun da cavabını verdim. Üçüncüsünü, dördüncüsünü... bəlkə, on qatara qədər söz oxudu, heç birini cavabsız qoymadım" (6, 19).

Əlavə şərhə daha ehtiyac qalmır. Amma bir məqamla bağlı qısaca açıqlama vermək yerinə düşər. Məqam odur ki, orta məktəbdə, yaxud da institutda təhsil aldığımız zaman (sovet dönəmində) Aşıq Ələsgəri sıradan bir aşıq kimi bizə təqdim etmişlər. Sadəcə, Ələsgəri digər aşıqlarla müqayisədə onunla fərqləndirirdilər ki, o, çox ilhamlı olub, aşıq ədəbiyyatına dodaqdəyməz, dildönməz kimi yeni şeir növləri bəxş edib və s. və ilaxır... İndi bizə bəlli olur ki, həddən artıq ilhamlı olmaq elə fitrət sahibliyi dərəcəsində olmaq imiş! O vaxtlar belə mətləblərə toxunmaq yasaq idi, nəinki mahiyyətlərinə varmaq olardı! Çünki məğzi

anlaşılardısa, həmin mahiyyətlər insanı Haqqa daha da yaxınlaşdırardı, o da öz növbəsində Haqqa olan şübhələrini qəlbindən birdəfəlik silib atardı! Eynilə indiki durumunda olduğu kimi!

Fikrimizcə, Aşıq Ələsgərin poetik irsinə ən optimal baxış multidissiplinar kontekstdən gerçəkləşdirilə bilər. Amma bir şərtlə ki, bu baxışda dünyəvi fənlərlə dini fənlər bir araya gətirilə və qarşılıqlı çulğaşa bilə: "Təbii ki, aşıq sənətinin qaynaqları və tərəqqi dinamikasının öyrənilməsi öncə bu sənət haqqında ən etibarlı informasiyaların saxlandığı aşıq ədəbiyyatının "dil, din, bədii təfəkkür, sosial-psixoloji davranış və s. kimi stereotiplərin, etnik atribut və elementlərin bir yerə cəm olduğu fondun" total mətn materialının elmi təhlilindən alınan sistemli bilgilərdən keçir" (7, 51).

Din bu irsi mənimsəmədə ayrıca önəm daşıyır, o anlamda ki, aşığın irsini təsəvvüfdən kənarda təsəvvür etmək ağılabatan deyil. Aşıq Ələsgərin fədakar tədqiqatçılarından olan prof. Hüseyn İsmayılovun fikrincə, aşığın adı ilə qoşa işlənən "Dədə" sözü onun timsalında səslənə biləcək ən uğurlu epitetdir: "Zaman anaxronizmini nəzərə almasaq, əgər orta çağ Oğuzu Ələsgərin adına kitab bağlasaydı, hökmən "Dədəm Ələsgərin kitabı" yazardı; eynilə "Kitabi-Dədəm Qorqud" kimi. Xüsusi kültür vahidinin işarəsi kimi "dədə" sözünün semantik məzmununa bələd olmadan kökləri və qaynaqları təsəvvüfdən və ürfan fəlsəfəsindən gələn Ələsgər poeziyasının və Ələsgər fenomeninin sehr və möcüzə pərdəsini qaldırmaq mümkün deyil" (7, 214-215).

Göründüyü kimi, aşığın həyat və fəaliyyəti ilə bağlı hələ çox pərdələr qaldırılmalı, çox qatlar üzə çıxarılmalıdır. Bu isə bizlərdən həssas olmağı və aşinalıqla bu irsə bağlanıb onu qorumağı, yaşatmağı tələb edir. Ucaltmağımıza əsla ehtiyacı yoxdur, hələ ki, Dədə Ələsgərin özü söz ucalıqdakı zirvənin ən qüdrətli fatehidir!

## QAYNAQLAR


1. Aşıq Ələsgər. Bakı, Yazıçı, 1988, 184 s.
2. Qarayev Y. Tarix yaxından və uzaqdan. Bakı, Sabah, 1996, 710 s.
3. Göyçə dastanları və aşıq rəvayətləri. Bakı, 2001, Səda, 700 s.
4. Путилов Б.Н. Сказитель / Свод этнографических понятий и терминов. Народные знания, фольклор, народное искусство, вып. 4. Москва: Наука, 1991, стр.113-114
5. Cəmil A. "Manas" eposu və türk dastançılıq ənənəsi. Avtoreferat. Naxçıvan: 2004, 24 s.
6. İslam Ələsgər. Haqq aşığı Ələsgər. Bakı, Maarif, 1999, 264 s.
7. Hüseyn İsmayılov. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı, Elm, 2002, 404 s.

# AŞIQ ƏLƏSGƏR POEZİYASINDA VAHİD ALLAH İNANCININ BƏDİİ İNİKASI

# THE ARTISTIC REFLECTION OF THE ONLY ALLAH BELIEF IN ASHUG ALASGAR'S POETRY

# ХУДОЖЕСТВЕННОЕ ВОПЛОЩЕНИЕ ВЕРЫ ЕДИНОГО БОГА В ПОЭЗИИ АШУГА АЛЕСКЕРА

**Atif İSLAMZADƏ**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*atif.islamzade@mail.ru*

**Summary**

In the article the artistic reflection of the Only Allah belief in Ashug Alasgar's poetry is delivered to the scientific community. Thus, the ashug poetry was established on the same column until Ashug Alasgar. It means the first pillar that forms the foundation of the people's masters is belief in Allah. Like all masters Ashug Alasgar's poetry is also based on the belief of the Only Allah. As investigating Ashug Alasgar's activity, one can meet in classical literature the poetic examples known as the "Munajat" genre or literary form that draw attention to the same essence as the examples describing the High Allah love. The artistic reflection in Ashug Alasgar's activity appears with high craftsmanship. Thus, in Alesker's poetry, we observe the artistic manifestation of the belief of the Only Allah as content and genre. Unfortunately, for years Alasgar's poems have been published in retail form, but in recent years these shortcomings have been eliminated. It is more appropriate to study Alasgar's activity on the basis of the source of its use. Because in Alasgar's poetry, the belief in the Only Allah is the basis, the artistic glorification of all the creations of the Creator is unity. This is due to the fact that belief in Allah is important for Ashug Alasgar. At the same time this belief forms the morality in society. The propaganda of belief and morality in society is very necessary from this point of view. It is necessary to study and present the artistic reflection of the belief in the Only Allah to society from a scientific and social point of view in Ashug Alasgar's poetry.

**Key words:** the belief in the Only Allah, Ashug Alasgar, ashug poetry, folk literature, "munajat"

**Резюме**

В этой статье научному сообществу будет представлено художественное воплощение веры в Единого Бога в поэзии А. Алескера. Так как, до Алескера ашугская поэзия стояла на одной колонне. То есть первая опора, лежащая в основе творчества народных мастеров, — это вера в

Бога. Как и все деятели литературы, поэзия Алескера была сформирована на основе веры в Единого Бога. Изучая творчество А. Алескера, мы видим в поэтических примерах, известных в классической литературе как жанр или литературная форма стихотворений «Мунаджат», которые привлекают внимание в той же сути, что и примеры описания Всемогущего Бога. Художественное отражение веры с большим мастерством проявляется в творчестве А. Алескера. Таким образом, в содержании и жанре поэзии Алескера мы наблюдаем художественное проявление Веры в Единого Бога. К сожалению, стихи Алескера годами публиковались в рознице, но в последние годы эти недостатки были устранены. Более уместно изучать работу Алескера на основе источника использования, который мы представляем в контексте нашей темы. Потому что в поэзии Алескера составляет основу вера в Единого Бога, художественное воспевание всех творений Творца. Это связно с тем, что, по мнению А. Алескера, важна вера в Единого Бога. Эта вера также формирует нравственность в обществе. В связи с этим очень важно продвижение веры и нравственности в обществе. С научной точки зрения необходимо и общественно-социально важно изучить и представить публике художественное отражение Веры Единого Бога в поэзии Алескера.

**Ключевые слова:** вера в единого бога, Ашуг Алескер, ашугская поэзия, народная литература, мунаджат

Aşıq Ələsgər yaradıcılığı zaman-zaman müxtəlif aspektlərdən araşdırılmışdır. Ancaq nə qədər tədqiqatlar yazılsa da, yenə də bu geniş və dərin bədii irs araşdırmalar üçün açıq qalır. Bu baxımdan Ələsgər yaradıcılığına müraciət etmək ehtiyacı hər zaman gündəmdə qalır. Bu məqalədə də A.Ələsgər yaradıcılığında Vahid Allah inancının bədii təcəssümü elmi ictimaiyyətə çatdırılacaqdır. Belə ki, Ələsgərə qədər Aşıq poeziyası eyni sütun üzərində bərqərar olmuşdur. Yəni xalq sənətkarlarının yaradıcılığında təməl təşkil edən ilkin sütun Allaha inancdır. Bütün sənətkarlar kimi A.Ələsgər poeziyası da Vahid Allah inancı əsasında təşəkkül tapmışdır. Biz A.Ələsgər yaradıcılığını tədqiq etdikcə klassik ədəbiyyatda "Minacat" janrı və yaxud ədəbi forması kimi tanınan poetik nümunələrdə Uca Allahın vəsfinə aid olan örnəklərlə eyni mahiyyətdə diqqət çəkən şeirləri görürük. İnancın bədii əksi A.Ələsgər yaradıcılığında yüksək sənətkarlıqla üzə çıxır. Belə ki, Ələsgər poeziyasında məzmun və janr etibarilə Vahid Allah inancının bədii əksini müşahidə etmiş oluruq. Gəraylı, qoşma, müxəmməs, divani, təcnis, hətta aşıq rəvayətlərində də biz bu sistemi görə bilirik. Bu da ondan irəli gəlir ki, A.Ələsgərə görə Vahid Allaha inanc vacibdir. Bu

inanc eyni zamanda cəmiyyətdə əxlaqı formalaşdırır. İnanc və əxlaqın cəmiyyətdə təbliği bu baxımdan çox gərəklidir.

A.Ələsgər poeziyasında Vahid Allah inancınının bədii əksini tədqiq edib cəmiyyətə təqdim etmək elmi cəhətdən zəruri, ictimai-sosial baxımdan da əhəmiyyətlidir. Belə ki, Vahid Allah inancı toplumda mənəvi-fiziki tələbatı əxlaq əsasında müəyyən edir. Təbiidir ki, bu da cəmiyyətdə bütün dəyərlərin formalaşmasına və doğru istiqamətdə təbliğ olunmasına gətirib çıxarır.

Sovet dönəmində materialist-ateist ideoloji baxış tərzi əsas götürüldüyü üçün demək olar ki, dini-ruhani istiqamətdə olan yazılara diqqət göstərilmirdi. Ancaq buna baxmayaraq sənətkarlarımızın yaradıcılığında, folklorda və yazılı ədəbiyyatda bu mövzu çətinliklə olsa da qələmə alınır, el ağzında yayılır, aşıq ədəbiyyatında da bədii inikasını tapırdı. Xüsusilə, sovet dövrünə düşməyən sənətkarların yaradıcılığında Vahid Allah ideyası əhəmiyyətli yer tuturdu. Sovet dönəmində bu sənətkarların bu mövzuda əsərlərinin nəşrində müəyyən problemlər yaransa da, yenə də buna nail olmaq üçün tədqiqatçılar mübarizə aparırdılar. Biz Ələsgər yaradıcılığının nəşrində də bunu aydın şəkildə müşahidə edə bilirik. Elə A.Ələsgər yaradıcılığının ciddi tədqiqatçısı, toplayıcısı və redaktoru, eyni zamanda aşığın nəvəsi İ.Ələsgər 2003 və 2004-cü illərdə Aşıq Ələsgərin kitabını nəşr etdirərkən ilk şeir olaraq “Allahın adı ilə”, ardınca isə “Peyğəmbərin meracı” şeirini kitaba daxil etmişdir (9, 23-25).

A.Ələsgərin 1988-ci ildə eyni tədqiqatçı, yəni İ.Ələsgər(ov) tərəfindən çapa hazırlanan kitabında isə biz bu sistemi görmürük. Bu kitab əvvəlki illər kimi elə adi qaydada, “Qoşmalar” başlığı altında təqdim olunur (10, 10).

Təsadüfi deyil ki, Q.Zimistanoğlu da bu şeiri ilk şeir olaraq A.Ələsgərin kitabına daxil etmişdir ki, bu kitab da müstəqillik dövründə, yəni 2014-cü ildə nəşr olunmuşdur (8, 9, 10).

Bizə belə gəlir ki, A.Ələsgər yaradıcılığını daha düzgün qiymətləndirmək baxımından İ.Ələsgərin nəşr etdirdiyi kitab (2004) istifadə mənbəyi kimi daha məqbuldur. Bu kitab Ələsgər yaradıcılığını sistematik formada təqdim etdiyi üçün əsas mənbə kimi praktik vəsait olaraq ona müraciət etməyi münasib bildik. Halbuki, A.Ələsgərin digər kitablarından da köməkçi vəsait olaraq istifadə etməyi qarşımıza məqsəd qoymuşuq. Ancaq bu mövzunu daha geniş səviyyədə nəzərə çatdırmaq baxımından bu kitab əsas istifadə materialımızdır.

Məlumdur ki, İ.Ələsgərin tərtib etdiyi kitabda “Allahın adı ilə” şeiri janr etibarilə gəraylı, “Peyğəmbərin meracı” şeiri isə qoşmadır.

Onu da qeyd etməyə ehtiyac yoxdur ki, gəraylı ölçü baxımından səkkiz (8), qoşma isə on bir (11) heca təşkil edir (6, 103).

Təqdim etdiyimiz bu kitabda qoşmalardan əvvəl ilk olaraq bu gəraylı yer almışdır. Halbuki, kitabda "Gəraylı" rubrikası altında gedən gəraylılar 157-ci səhifədən başlanır (9, 157-162).

Təbiidir ki, burada Uca Allahın adı ilə kitaba başlamaq sistematik səviyyədə qəbul olunduğu üçün janr baxımından deyil, məzmun baxımından kitab bu şəkildə tərtib olunmuşdur.

Ümumiyyətlə, biz bu sistemi əsas etibarilə yazılı ədəbiy-yatda müşahidə edirik. Kitabların əksəriyyəti bütün şərq ədəbiyyatında münacatla başlanır, nətlə davam edir. Minacat Uca Allahın vəsfini və sifətlərini, nət isə islam peyğəmbəri Muhamməd əleyhissəlamın vəsfini ifadə edir (6, 127; 7, 82, 89).

Ancaq onu da qeyd etmək lazımdır ki, eyni sistem yalnız yazılı ədəbiyyatda deyil, folklorda da mövcud olmuşdur. Ancaq sovet dönəmində folklorun üzərinə basqı çox olduğu üçün kitablarda bu etiket forması əsas etibarilə öz əksini tapmamışdır. Folklorun ən yayğın janrlarından olan nağılların və bir sıra janrların başlanğıc formulunda biz bu sistemi müşahidə edə bilirik. Nağıllarımız əsas etibarilə bu başlanğıc ilə diqqət çəkir: "Biri varıymış, biri yoxuymuş, Allah varıymış, şəriki yoxuymuş"; "Biri varıymış, biri yoxuymuş, Allahdan başqa heç kəs yoxuymuş"; "Biri var idi, biri yox idi, Allahdan başqa heç kəs yox idi"; "Biri varıydı, biri yoxuydu, Allahdan başqa heç kəs yoxuydu" (2, 44, 149, 253, 307) və s.

Biz "qaravəlli" janrında da eyni sistemə rast gələ bilirik: "Biri vardı, biri yoxdu, Allah vardı, şəriki yox idi" ; "Biri vardı, biri yoxdu, Allahdan başqa heç kəs yoxdu"; "Biri vardı, biri yoxdu, Allahdan başqa heç kim yoxdu" (3, 88, 136, 155) və s.

Biz paremioloji vahidlərdə, atalar sözləri və məsəllərdə də Vahid Allah inancını görürük: "Allah bir, söz bir", "Allah əli hamu əllərdən ucadı", "Allah var, rəhmi də var", "Allahu-Təala məsləhət olsaydı, bir dənə özüyçün ortaq yaradardı" (1, 37-39) və s.

Biz, aşıq rəvayətlərinin başlanğıc formulunda da eyni sistemi müşahidə edirik. Aşıq rəvayəti Rəhman və Rəhim Allahın adı ilə başlanır, "Bilmillahir-Rəhmanir-Rəhim" deyilib rəvayət söylənir (12, 660).

Göründüyü kimi, toplum Vahid Allah inancı daşıyır, bütün əməllərin başlanğıcında Uca Allahın adını çəkib daha sonra düşündüklərini həyata keçirir. Təbiidir ki, bu, təsadüf deyil, Allah inancının toplumun qəlbində və düşüncəsində bərqərar olmasıdır.

Biz möhtəşəm oğuz abidəsi olan "Dədə Qorqud kitabı"nda da bu sistemi görə bilirik. Əsl adı "Kitabi-Dədə Qorqud Əla-lisani-taifeyi-Oğuzan" olan bu kitab əlyazma nüsxəsində – faksimilesində eyni qaydada münacat ilə başlanır (14, 619).

Elə kitabı müasir Azərbaycan türkcəsinə uyğunlaşdıran S.Əlizadə də bu başlanğıcı bu şəkildə - olduğu kimi təqdim edir: **BİSMİLLAH İR-RƏHMAN İR-RƏHİM VƏ BİHİ NƏSTƏİN**" (14, 36).

Kitab daha sonra "Rəsul əleyhissəlam" adı ilə davam edir ki, bu da göstərdiyimiz kimi münacatdan sonra nət üsuluna uyğundur. "Dədə Qorqud kitab"ı elə Rəsul əleyhissəlam adı ilə də bitir (15, 31, 126).

Məlumdur ki, "Dədə Qorqud kitabı" sovet dönəmində bu şəkildə təqdim olunmamış, bu ənənəvi davranış modeli məcburən pozulmuşdur. Ancaq müstəqillik illərində (2000-ci ildə) kitaba Uca Allahın adı ilə başlamaq ənənəsi yenidən bərpa olunmuşdur. Yəni biz demək istəyirik ki, A.Ələsgərin də kitablarının bu illərdə bu sistemdə təqdim olunması yazılı ədəbiyyatla bağlılıqdan daha çox sovet dönəmində məcburi olaraq pərakəndə şəkildə təqdim olunan aşıq yaradıcılığının yenidən mahiyyətinə uyğun formada nəşr olunmasından irəli gəlir.

Sovet dönəmində tariximizə, ədəbiyyatımıza, musiqimizə, maddi-mənəvi mədəniyyətimizə ciddi ziyan vurulmuşdur. Bu kimi ideoloji-siyasi təcavüzlərin qarşısını kəsmək, irsimizi yenidən əslinə uyğun şəkildə cəmiyyətə təqdim etmək ehtiyacı hər zaman hiss olunur. Bu, A.Ələsgər yaradıcılığında da özünü göstərir. Düşünülmüş şəkildə A.Ələsgəri yalnız dünyəvi mövzulara bağlamaq onu dərindən anlamamaqdan və düşünülmüş məkrli siyasəti bilməyərəkdən həyata keçirməkdən irəli gəlir. Halbuki, Ələsgər yaradıcılığı başdan-başa dini-ruhani mövzular üzərində köklənir. Biz A.Ələsgərin yaradıcılığında dünyəvi mövzuları inkar etmirik. Ancaq qeyd etdiyimiz kimi bunun sistemli şəkildə müşahidə olunmasının tərəfdarıyıq. Sovet dönəminə kimi bu məsələ demək olar ki, mübahisə mövzusu olmamışdır. Belə ki, A.Ələsgər yaradıcılığının da əsası Vahid Allaha inancla başlanır, Uca Allahın vəsfi, Muhammədə əleyhissəlamın tərifi, Əli əleyhissəlamın, peyğəmbər ailəsinin (ali-əba) və imamların təbliği başqa sənətkarlar kimi Dədə Ələsgər yaradıcılığında leytmotiv təşkil edir. Bütün yaradılışın Yaradan tərəfindən yaradılması, bu qavramın mahiyyətcə vəhdət təşkil etməsi də böyük sənətkarın poeziyasında diqqət çəkilən məsələlərdən biridir. Çünki vəhdət say anlamını ifadə etmir, Vahid Allah inancı bütün yaradılışın mahiyyətini ifadə edir. Yəni burada dünyəvi mövzularda danışmaq bu sistemi inkar etmir, əksinə yaradılış

əslinə uyğun şəkildə öyrənilir. Ancaq biz ilkin olaraq “Allahın adı ilə” təqdim olunan ilk şeirə diqqət çəkmək ehtiyacı hiss edirik.

A.Ələsgərin “Allahın adı ilə” şeiri qeyd etdiyimiz kimi poetik səviyyədə araşdırıldıqda gəraylı, məzmun səviyyəsində inancdır. Allahın adı ilə elə “Bismillahir-Rəhmanir-Rəhim”, Rəhman və Rəhim Allahın ismi ilə deməkdir. Bu şeir təbiidir ki, ilkin olaraq Vahid sistemin ənənəvi davranış forması kimi diqqət çəkir. Toplum Uca Allaha inancını hər bir işə Onun adı ilə başlamaqla həyata keçirdiyi kimi, kitablar da Allahın (CC) adı ilə açılır, daha sonra sonuncu peyğəmbərin (xatəmül-ənbiya) adı çəkilir, daha sonra əsərin süjeti təqdim olunur, hadisələr təsvir edilir və final ilə kitab başa çatır. Bu da onu göstərir ki, toplum inanır ki, yaşadığı bütün hadisələrin kökündə Uca Allahın Varlığı təcəssüm edir. Çünki O, Yaradan, yerdə qalanlar isə yaranandır. O, Xaliqdir. Xəlq olunmuş Xaliqi özündə daşıyır. O, Vahiddir. Hər şey vəhdətdədir. Ona görə bütün hadisələrdə onun iştirakı vacibdir. Ən azından bu şəkildə oxumaq əslinə uyğun oxumaqdır. Biz Ələsgər yaradıcılığında da bu mahiyyəti aşkar şəkildə görürük. Yəni A.Ələsgər bütün yaradılışı Uca Allahın Qurani-Kərimdə, ilk ayətdə buyurduğu kimi “İkra biismi rabbukə əlləzi xalak” (Yaradan Rəbbinin ismiylə oxu) kimi oxuyur (Ələq surəsi, 1-ci ayə) (17, 597 (٥٩٧).

Məlumdur ki, “Ələq” (Ələk) surəsi Qurani-Kərimin nazil edildiyi ilk ayətidir, ancaq ardıcıllıqda ilk olaraq “Fatihə” surəsi (kitabı açan) əsas götürülmüş, daha sonrakı surələr həcm baxımından böyükdən-kiçiyə düzüldüyü üçün “Ələq” surəsi də 96-cı surə olaraq Qurani-Kərimdə yer almışdır (18, 13, 14, 113).

A.Ələsgərin “Allahın adı ilə” şeiri eyni zamanda çox incə şəkildə həm əbcəd, həm hərflərə məna yükləmək baxımından maraqlıdır. Eyni zamanda bu şeir hürufi ideyalarının da bədii təcəssümünü ifadə edir. Biz eyni poetik strukturu İ.Nəsimidə də görürük. Nəsimi yaradıcılığında “Əlif-Lam, və yaxud tərs əlifba” başlığı altında bu kimi bir sıra şeirlər müşahidə olunur:

Əlif – Allah, sidrə boyun münəhadır müntəha,
Çün cəmalındadır ərrəhman ələl-ərş istiva.
Bey – Bilindi qəddinin həddi nə miqdar olduğu
Bildilər kim, tuləhu sittun zə’rən fissəma.
Tey – Türabilər əlində Zülfiqar şəmşirü tiğ,
Fəzrəbu buyruldu Həqdən, həm buyurdu Mustafa (İ.Nəsimi) (22, 215).

A.Ələsgərin “Allahın adı ilə” şeiri isə bu şəkildə diqqət çəkir:

İbtidada “əlif ’ – Allah,
“Be” – birliyə dəlalətdi.
“Te” – təkdi vahidi-yekta,
Arif be elmə bələddi.
“Se” – sabitdi doğru yola,
“Cim” – ucadı, bax calala,
“He” – mehribandı halala,
Münkir ondan xəcalətdi (9, 23, 24).

Göründüyü kimi hər iki şeir janr fərqi və folklor və yazılı ədəbiyyat sərhədi ilə bərabər eyni poetik struktura malikdir. Məlumdur ki, ərəb əlifbası 28 hərf, fars əlifbası 32 hərf və Quran əlifbası 29 hərfdir (20, 5, 6; 23, 7; 19, 8, 9).

İ.Nəsimidə bu tipli silsilə şeirlər mövcuddur ki, rəmz etibarilə müxtəlif şəkillərdə verilmişdir (22, 215-226).

A.Ələsgərdən təqdim etdiyimiz şeir isə Quran əlifbası əsasında söylənmişdir. Eyni zamanda burada hər hərfdən gələn söz ya əsas etibarilə həmin hərflə başlanır, yaxud həmin hərflə ifadə edilən sözə vurğunu açıq-aşkar hiss etmək olur. Bu hər iki sənətkarda eynidir. Burada hərfin söz alliterasiyası yaradılıb mənanı ahəngdar səviyyədə və bədii səciyyədə ifadə etmək poetik cəhətdən yüksək sənətkarlıqla nizamlanmışdır (9; 22).

Bu elə ədəbiyyat nəzəriyyəsi baxımından da öyrənilməlidir. Çünki alliterasiya (samit səslərin təkrarı) və assonans (sait səslərin təkrarı) hərflərin təkrarından yaradılırsa (7, 8 ; 4, 441), burada hərfin təkrarı hərflər deyil, həmin hərflə başlanan sözlərdir.

Bundan əlavə əlif hərfinin burada mənası əbcəd əlifbası ilə izah olunur. Məlumdur ki, əlif hərfi əbcəddə bir (1) rəqəmini ifadə edir (11, 1).

Bir ədədi əlifi işarələməklə burada eyni zamanda Allahu-Təalanın təkliyini (Əhəd olduğunu), daha geniş anlamda isə vahidliyini ifadə etməklə Vahid Allah inancının bədii təcəssümü kimi aşkara çıxır. Bu qavram bütün şərq ədəbiyyatında mövcuddur. Əlif hərf olmaqla bərabər şəkli etibarilə, düz duruşu görüntüsüylə Vahid Allahı əks etdirir. S.Karaköse təsadüfi olmayaraq bu barədə yazır ki, “Elif alfabenin düz biçimde ilk harfi olduğu için Allah’ı işaret eder (13, 200).

Onu da unutmaq olmaz ki, əlif hərfinin qarşılığında “Allah” deyilməsi ərəb əlifbasını doğru bilməkdən irəli gəlir. Çünki Allah sözünün bizim dilimizdə olduğu kimi Allah deyil, Əl-İlah sözündən meydana gəldiyi fikri ən qüvvətli mühakimələr arasındadır. Eyni zamanda sözün qalınlaşdırılaraq “Allah” olaraq oxunması da inkar olunmur (5, 18).

Onu da unutmaq lazım deyil ki, Allah və yaxud İlah sözü əliflə yazılır (11, 28, 29).

Elə A.Ələsgər də şeirin ilk misrasında "İbtidada "əlif ' – Allah" deməklə bu qavramı ifadə edir. Onu da qeyd edək ki, əlif bir çox hallarda bu mənalarla bərabər Uca Allahın birliyini – tovhidi də işarələyir. Ancaq A.Ələsgər burada bu anlamı hərf, məna və ahəng (burada; alliterasiya) baxımından "be" hərfində izah edərək "Be" – birliyə dəlalətdi" söyləmişdir.

Sənətkar eyni zamanda Uca Allahın təkliyini və vahidliyini də əlifdə deyil, "te" hərfində izah edərək "Te" – təkdi vahidi-yekta" deyimində bu qavrama diqqət çəkmişdir. Burada yekta yek sözü olmaqla tək, vahid isə Vahid olan Allah inancını ifadə etməklə, A.Ələsgər "Təkdi, tək olan Vahid" təkriri ilə poetik baxımdan öz düşüncəsini yüksək səviyyədə dilə gətirmişdir (9, 23).

A.Ələsgər bu mənaları şeirin sonunda başqa hərflərdə də ifadə edir:

"Lam – əlifla" – birdi Allah,
"Ye" – yekdi adil padişah (9, 24).

Buradan göründüyü kimi, "Lam-əlifl"ə, yəni "la" ilə "La İlahə İlləllah" (Allahdan başqa Allah yox) düsturu ilə Allahın Bir olduğu, Allahdan başqa Allah olmadığı, Vahidliyi, "ye" hərfi ilə isə yenə də Tək olduğu ifadə olunur. Burada A.Ələsgər Vahid Allah inancının bədii təcəssümünü diqqətə çatdırır.

Eyni zamanda qeyd etmək lazımdır ki, bu əlifnamələr xalq ədəbiyyatında və klassik poeziyada əsas etibarilə inancı ifadə etmək üçün özünə yer tapmışdır. Bu barədə L.Taşkesenlioğlu yazır ki, "Divan ve halk edebiyatının müşterek unsurlarından biri olan elifnameler, çok eski dönemlerden itibaren edebiyatımızda yazılmaya başlanmış, özellikle dinî ve tasavvufi konularda eser veren şairlerin itibar ettiği bir tarz olmuştur" (26, 159).

Müxtəlif elmi baxışlarda Allah inancına səthi yanaşılaraq bu inancın sonrakı mərhələləri təşkil etdiyi, öncə mifoloji şüurun mövcud olduğu, burada animizm, fetişizm, totemizm və s. ibtidai ideoloji dinlərin öncə gəldiyi, daha sonra tarixi şüurun olduğu və səmavi dinlərin daha sonrakı mərhələdə yayıldığı iddia olunur. Halbuki, biz Vahid Allah inancını izah edərkən bu müddəaların yanlışlığını, materialist-ateist görüşlərindən qaynaqlandığını və bir sıra qəbilələrin batil inanclarından törədiyini qeyd etməyə bilmərik. Bu barədə Z.Bünyadov görkəmli ilahiyyatçı alim V.Məmmədəliyevin məqaləsini

təqdim edərək göstərmişdir ki, “Araşdırmalar göstərir ki, Vahid Allaha inam ilkin dinlərin hamısına xasdır” (5, 18).

V.Məmmədəliyev ibtidai qəbilə inanclarında da Vahid Allah inancınının psixoloji səviyyəsindən, təfəkkürün alt hissəsində belə mövcudluğundan da yazmışdır: “İbtidai inkişaf tərzli qəbilələrin inanc sistemində vahid, uca bir varlığa etiqad hissi mövcuddur” (5, 19).

Ümumiyyətlə, görkəmli şərqşünas və ilahiyyatçı alim burada bu kimi məsələlər haqqında gəldiyimiz qənaətə uyğun şəkildə geniş elmi açıqlamalar vermişdir ki, bu da başqa bir tədqiqatın mövzusudur (5, 18, 19).

V.Məmmədəliyevin bu məqaləsini öz kitabına daxil edən Z.Bünyadovun da bu barədə ziddiyyətli fikirdə olmadığı öz təsdiqini tapmış olur (5, 5).

Bu elmi mövqeyi hələ əsrin əvvəlində Aşıq Ələsgər “İbtidada Əlif Allah” deməklə bədii səviyyədə həll etmişdir.

Biz A.Ələsgərin “Allahın adı ilə” şeirindən sonra təbiidir ki, “Peyğəmbərin meracı” qoşmasına da diqqət yetirməyi vacib bilirik. Çünki qeyd etdiyimiz kimi, bu həm də folklorda və klassik ədəbiyyatda etiket forması olaraq və məna süzgəcindən keçirilərək böyük bir sistemin, vəhdətdə olan hissələri kimi müşahidə olunur. Yəni öncə Uca Allahdan bəhs etmək, daha sonra onun sonuncu peyğəmbəri haqqında bəhs açmaq Vahid Allah inancını daha aydın şəkildə qavramağa imkan verir. Biz növbəti şeirdə görəcəyik ki, bu şeir də Vahid inanc sistemini daha sistematik səviyyədə öyrənməyə imkan verir. Ancaq bunun üçün qeyd etdiyimiz kimi, öncə bilmək lazımdır ki, vəhdət say deyil, bütövü əhatə edir. Yaradan var, yaranan var. Yaradan Vahid Allah, yaranan isə bütün yaradılışdır. Materiya da yaradılış olaraq əslində onu Yaradanı inkar etmir. Hər hansı bir sahənin materiya, təbiət əsasında öyrənilməsi yalnız Vahid Allahı, onun xəlq etmə iradəsini nümayiş etdirir. A.Ələsgərə müraciət edək:

Əşrəfı-məxluqat, aləm sərvəri,
Oxudu təşəhhüd, qayıtdı geri.
Huri, qılman, mələk, neçə min pəri...
Əmr eylədi Haqq, göyləri bəzətdi (9, 25).

Bu bənddə deyilir ki, “Məxluqatın şərəflisi, aləmlərin rəhbəri Sonuncu peyğəmbər Muhamməd əleyhissəlam merac edib kəlimeyi-şəhadət oxudu və geri qayıtdı. Haqq-Təala onun şərəfinə əmr edib mələklər, huri-qılman vasitəsilə göyləri bəzədi”.

Bu kontekstdə Vahid Allah inancı aynada olan əks kimi daha aydın görünür. Burada vəhdətdə olmaq aşkara çıxır:

1. Vahid Allah və aləmi-məlakut (mələklər aləmi);
2. Şərəfli insan (Muhammməd əleyhissəlam timsalında);
3. Aləm, göylər və yerlər (yerləri geri qayıtma işarələyir).

Göründüyü kimi, Vahid Allah inancı bütün aləmi vəhdətdə götürür və burada Allaha inanc bütün varlığı simvollaşdırır.

Biz bu şeirdə Həzrəti Muhammməd əleyhissəlamın necə merac etməsinin, meracın haradan baş verməsinin, meracda baş verən möcüzələrin, ümmətin bağışlanmasının, namaz əmri verilməsinin, namazın Uca Allahın mərhəməti ilə daha az vaxt təşkil etməsi və daha çox qazanc əldə olunmasının, həzrət Əli əleyhissəlamla bağlı bilgilərin və s.-nin izahını vermək imkanında deyilik. Bu, daha geniş bir tədqiqatın mövzusudur. Ancaq qeyd etməyə bilmərik ki, A.Ələsgər bu bilgiləri öz şeirinə daxil etməklə çox geniş elm nümayiş etdirir. Elə elmin də, xüsusilə humanitar elmlərin də əsas istiqaməti mətnlərdə olan bilgiləri mənbələr əsasında tədqiq etməkdir. Məhz Ələsgər poeziyası Vahid Allah inancı və ona bağlı dini-irfani bilgilərin öyrənilməsi ilə daha aydın şəkildə qavranıla bilər. Qeyd etdiyimiz kimi A.Ələsgərdə dünyəvi şeirlərin olması onun əsasını təşkil edən Vahid Allah inancını inkar etmək üçün əsas vermir. Qeyd etdiyimiz kimi yaradılış Yaradanın məhsuludur. Bir çiçəkdən, bir gözəldən, bir obadan və s. bu kimi dünyada mövcud olanlardan bəhs etmək Yaradanın yaratdığından bəhs etməklə vəhdətdə olan bütün varlığı və bu varlığı Yaradanı tərənnüm edir.

Vahid Alah inancını ardıcıllıqla ifadə edən üçüncü şeir “Pənc ali-Əba” qoşmasıdır. Məlumdur ki, bu ifadə sevgili peyğəmbərimizi və onun əbası (cübbəsi) altında tutduğu ailəsini, daha doğrusu, Həzrəti Muhammməd (səs), Həzrəti Əli (əs), Həzrəti Həsən (əs), Həzrəti Hüseyn (əs) və Fatimeyi-Zəhranı (sə) ifadə edir. Elə pənc (beş) ədədi də buradan meydana çıxır (24, 539). Bu mövzu bütün klassik ədəbiyyatda və folklorda hələ də ciddi şəkildə işlənməyən rəvayət və əfsanələrdə özünə yer almışdır.

Biz bu barədə ona görə qeyd etməyi unutmuruq ki, A.Ələsgərə görə də Vahid Allah inancını ifadə edən mahiyyət bir-birindən ayrı deyil, bir mübarək vəzifənin ardıcıllığıdır.

Təsadüfi deyil ki, A.Ələsgər elə bu şeirdə Vahid inanc sistemini bu səciyyə ilə təqdim edir:

Xaliqi-ləmyəzəl vahid əl-yektay,
Qüdrətindən kamal verib mana pay ( 9, 26).

Məhz bu sistemin də hissələrini burada qeyd etdiyimiz kimi beş mübarək isimdə işarələyir. Çünki bu adlar Vahid inanc sistemini

simvollaşdırır. Həzrəti Muhammməd, Həzrət Əli, Həzrət Həsən, Həzrət Hüseyn və Fatimeyi-Zəhra (Əleyhüməssəlam) inancın obrazları olaraq Dədə Ələsgərə görə də Vahid Allah inancının mübarək vəzifə olaraq daşınmasında iştirak edir.

İbtida "əlif 'dən dərsim almışam,
Ələst aləmində demişəm "bəli" .
Həqiqətdən iki gözəl sevmişəm,
Birisi Məhəmməd, birisi Əli ( 9, 26).

Göründüyü kimi, burada ilk iki misrada A.Ələsgər yenə də klassik ədəbiyyatda geniş yayılan və Qurana əsaslanan motivi öz şeirlərində əks etdirməklə yazılı və şifahi ədəbiyyat arasında olan sərhədləri dağıdır, hər iki ədəbiyyat tipinin vahid inanc və mədəniyyəti məzmun baxımından eyni şəkildə, üslub və yaxud vəzn və janr etibarilə fərqli ifadə tərzi ilə yaşatmaqda olduğunu təsdiq etmiş olur. Bəs Dədə Ələsgər bu misralarda nə demək istəyir? Qurani-Kərimin Əraf surəsinin 172-173-cü ayətlərində yaradacaqlarından əhd alaraq bəyan edir ki, "Ələstu-birabbikum kalu bəla" (Mən sizin Rəbbiniz deyiləmmi? Dedilər bəli!"). Ondan sonra qiyamətə qədər insanlar Allahla əhd bağlayıb, Rəbb olaraq tanıdıqlarına söz vermişlər. Yer üzündə isə az bir qismi çıxmaqla bir çoxları bu əhdi pozub, öz nəfslərinin dediyi ilə hərəkət etmişlər. Buna görə hesab günündə cavab verəcəklər. Bu ayətlər Qurani-Kərimdə tam olaraq bu şəkildədir: (Ey Peyğəmbərim!) Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxardıb onların özlərinə (bir-birinə) şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?" – soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!" – deyə cavab vermişdilər (Belə bir şahidliyin səbəbi) qiyamət günü: "Biz bundan qafil idik";

Və ya: "Atalarımız daha əvvəl (Allaha) şərik qoşmuşdular, biz də onlardan sonra gələn bir nəsil idik (onların izi ilə getdik). Məgər biz batilə uyanların (haqq yoldan sapanların) törətdikləri əməllərə görə məhv edəcəksən?" – deməməniz üçündür (Əraf, 172-173) (17, 172 (١٧٢) ; 18, 245).

Bu hadisə bütün səmavi kitablarda və sühuflarda keçərlidir. Təsadüfi deyil ki, "Bibliya"nın birinci hissəsi – Tövrat olan hissəsi Əhdi-Ətiq (Köhnə Əhd), ikinci hissəsi – İncil olan hissəsi də Əhdi-Cədid (Yeni Əhd) adlanır ki, burada məhz eyni Əhddən söhbət gedir (25, 95, 104).

Dədə Ələsgər klassik ədəbiyyatda da geniş yayılmış bu mövzudan bir çox əsərlərində söhbət açır və Allahdan aldığı əhdi pozmadığını bəyan edir. Örnəklərə diqqət yetirin:

İbtida "əlif 'dən dərsim almışam,
Ələst aləmində demişəm "bəli";

Adım Ələsgərdi, əslim Göyçəli,
Ələst aləmində demişəm "bəli!";

Ələstü bürəbbüküm qalu bəladan
Mərdin mövlasına nökər olmuşam;

Ələstidən "bəli" deyən Sübhana baş endirir.
Məhəmmədə tabe olan Qurana baş endirir;

Ələstidən "bəli" dedim, əcəb xoşhaldı yüküm;
Beş gözəlin aşiqiyəm, vəsfı-camaldı yüküm
(9, 26, 44, 72, 111, 120) və s.

Göründüyü kimi, eyni zamanda A.Ələsgər "gözəl" deyəndə yalnız dünyəvi gözəli, üzü gözəl olan qadını deyil, ilkin olaraq Uca Allahı, daha sonra sevgili peyğəmbərimiz Muhamməd əleyhissəlamı, daha sonra Əli əleyhissəlamı və ardıcıllıqla gələn mübarək şəxsiyyətləri, xüsusilə "Ali-əba" dediyimiz sonuncu peyğəmbərin sevgili ailəsini nəzərdə tutur. Biz əvvəldə A.Ələsgərdən çəkdiyimiz misalda onun iki gözəl və beş gözəl epiteti və yaxud məcazı ilə rastlaşırıq. Sənətkar öz aşiqliyinin öncə Vahid Allaha olan eşq olduğunu elə onun ən yüksək məqamda olan mübarəklərinə göstərdiyi eşqdə bəyan edir. Bu gözəllərin kim olduğunu isə tam olaraq semantik səviyyədə deyil, aşkar şəkildə bəyan edir:

Həqiqətdən iki gözəl sevmişəm,
Birisi Məhəmməd, birisi Əli (9, 26).

Bir qədər əvvəl başqa kontekstdə diqqət çəkdiyimiz bir "divani"sində A.Ələsgər deyir:

Beş gözəlin aşiqiyəm,
Vəsfı-camaldı yüküm (9, 120).

Birincidə duyğu aşkar şəkildə bəyan edilsə də, ikincidə semantik səviyyədə mətndə klişeləşir. Ancaq beş gözəlin kimliyi düşüncə tərzindən aydın olur. Məlum olur ki, beş gözəl elə əvvəldə olan iki gözəli öz daxilinə alan eşq ifadəsidir. A.Ələsgər təfəkkürümüzdə canlandırır ki, Bir Uca Allahdır, iki Muhamməd və Əli əleyhimüs-səlamdır, Beş gözəl isə Muhamməd əleyhissəlam, Əli Əleyhissəlam, Həsən əleyhissəlam, Hüseyn əleyhissəlam və Fatimeyi-Zəhra səlamüllahi əleyhdir. Birdən-beşə qədər ədəd hikməti aydındır. Altı kainatın Allahu-Təala tərəfindən yaradılmasıdır:

Altı gündə xəlq eylədi
Aləmi sübhanı mərd;
Aya, Günə qərar qoyub,
Dolanır dünyanı mərd ( 9, 117).

Yeddi ilə göyün və yerin yeddi qat olması və s. bu kimi ədəd və rəqəm simvolikasını da A.Ələsgərdə təsadüfən müşa-hidə etmirik:

Yeddi qat göy nə növ ilə quruldu?
Neçə qəndil, neçə sütun vuruldu?
"Sən kimsən?", "Mən kiməm ?" – kimdən soruldu?
Ustadlar ustası ay nədən oldu? (9, 163).

Eyni zamanda bu qavramı A.Ələsgər bir qoşmasına da sığdırır və burada cənnətin səkkiz olduğunu deyərkən, cəhənnəmin (damu) yeddi mərtəbə olmasını da işarələyir:

Yaradan yaradıb külli-aləmi,
Arif olan bu fərmana "can" desin.
Yeddi yer, yeddi göy, yeddi də damu,
Səkkiz Cənnəti-Rizvana "can" desin (9, 32).

Məgər Ələsgər yaradıcılığında bu ədədlər yalnız bu mənada işlənirmi? Xeyr! Ancaq sənətkar müdrik şəxsiyyət olaraq göstərir ki, kainatda hər nə varsa vəhdətdədir. Bu vəhdətin öncəliyində isə Uca Allahı ifadə edən say arxetipi dayanır. Yoxsa digər saylar necə meydana gələrdi? Bu baxımdan da biz, A.Ələsgər yaradıcılığında Vahid Allah inancını say simvolikası ilə aydın görə bilirik. Təsadüfi deyil ki, riyaziyyatda da vahid bir (1) ədədini ifadə edir. Bu barədə Q.Namazov yazır ki, "Riyaziyyat elminin öyrəndiyi ölçüsüz kəmiyyətlərin, adsız ədədlərin "ölçü vahidi" 1 ədədidir" (21, 14).

Q.Namazov eyni zamanda istinad edərək bütün çoxluğu bir arada elə vahid adlandırır. "Çoxluq ilkin riyazi anlayışlardan biridir. Odur ki, ona məntiqi tərif verilmir. Alman riyaziyyatçısı Kantora görə: çoxluq dedikdə vahid tam halında birləşmiş çox şey başa düşülür" (21, 4).

Göründüyü kimi, təfəkkürümüzdə olan bütün yaradılışın riyazi modeli də elə Bir olan Vahid Allah inancının Ələsgərin də bədii səviyyədə ifadə etdiyi anlayışından heç də fərqli deyil. Biz əvvəldə də qeyd etmişdik ki, bir ədədi əbcəddə Uca Allahı işarə edir.

Əvvəldə nəzər yetirdiyimiz "gözəl" anlayışı da A.Ələsgərdə yalnız inanc əsaslı deyil, eyni zamanda dünyəvi cəhətdən də işlənir. Qadına, xanıma gözəl demək məlumdur ki, elə aşıq ənənəsində olan "gözəlləmə" və yaxud ictimai lirika kimi diqqət çəkir:

Ələsgərəm, doğru yoldan azmaram,
Hərcayi gözələ tərif yazmaram;
Bəzənər gözəllər, çıxar yaylağa,
Mənzilgahlar ol mehmana "can" desin;
Seyr etmir köysündə türfə gözəllər,
Sancılmır buxağa güllərin, dağlar!;
Hər yetən gözələ "gözəl" demərəm,
Gözəldə gərəkdi işvə-naz ola. (9, 30, 33, 37, 67) və s.

A.Ələsgərin bu düşüncə tərzi elə qeyd etdiyimiz kimi Vahid Allah inancını ifadə edir. O, kimdən və nədən bəhs etsə də, orada elə Yaradan və yaradılış qavramını öz əsərlərində ifadə edir. Bu hikmət dünyagörmüş sənətkarın bir çox şeirlərində təcəssüm edir. Elə diqqət çəkdiyimiz "Can desin" qoşmasında aşıq şeiri Uca Allahın adı ilə başlayır, Allahu-Təalanın yaradılışı yaratmasını bəyan edir, dini-irfani mövzulardan ictimai mövzulara keçir, oradan da ictimai lirika nümunəsi təqdim edir:

Yaradan yaradıb külli-aləmi,
Arif olan bu fərmana "can" desin.
Yeddi yer, yeddi göy, yeddi də damu,
Səkkiz Cənnəti-Rizvana "can" desin

Aranda qalanlar meyl eylər bağa,
İsti vurar, bürkü dolar otağa.
Bəzənər gözəllər, çıxar yaylağa,
Mənzilgahlar ol mehmana "can" desin (9, 32, 33).

Sanki sənətkar Uca Allahın yaradılışı yaratdıqdan sonra gördüyü mühiti təsvir edir. Bu şeirdə gözəldən, arandan, yaylaqdan, istidən, sərindən, çeşmədən, alaçıqdan bəhs etməklə tərəkəmə məişətinin rəsmini çəkir, ancaq şeiri Yaradan və yaradılış xətti ilə bu mövzulara gətirir. Burada da A.Ələsgərin hər nə varsa vəhdətdə olduğunu, Vahid Allahın onu yaratdığını, bütün yaradılışın Yaradandan ayrı olmadığını ifadə etməsi bu inancın Ələsgər şeirlərində bir daha əsas təşkil etməsini və mahiyyətcə bütün mövzuların səbəbini nümayiş etdirməsini aydın biçimdə göstərir.

Biz M.P.Vaqifin məşhur "Görmədim" müxəmməsində də eyni məzmunu, eyni düşüncə tərzini müşahidə edirik. Burada da ictimai-sosial tənqid üzərində qurulan müxəmməsin şah bəndində şair mübarək şəxsiyyətlərin adını çəkərək Allahu-Təalanın sevdiklərini sevməyin məziyyətindən bəhs edir:

Ey xoş onlar kim, Məhəmməd-Mustafanı sevdilər,
Oldular aşiq, Əliyyül-Mürtəzanı sevdilər,

Sidqü-ixlas ilə pənc Ali-əbanı sevdilər,
Çardəh məsum tək mükülgüşanı sevdilər,
Dəxi onlardan gözəl, yaxşı cəmaət görmədim (16, 187).

Çox təəssüf ki, bu bənd çox məşhur müxəmməs olduğuna baxmayaraq bir çox hallarda diqqətdən kənarda qalmışdır. Bu ideoloji-siyasi yanaşmadan irəli gəlmiş, məşhur müxəmməsin bu bəndi bir çox nəşrlərdə şairin kitablarında yer almamışdır. Halbuki, ilk ədəbiyyatşünaslardan və Azərbaycan ədəbiyyatının toplayıcılarından məşhur ədəbiyyatşünas F.Köçərli müxəmməsi bu bənd ilə birlikdə özünün şöhrətli "Azərbaycan (Türklərinin) ədəbiyyatı" kitabına daxil etmişdir (16, 187).

A.Ələsgərin təqdim etdiyimiz kitabda Vahid sistemi ifadə etmək baxımından dördüncü şeiri məhz "İmamlar" qoşmasıdır. Elə M.P.Vaqif də yuxarıda təqdim etdiyimiz bənddə bu sistemi bu şəkildə səciyyələndirir. Dədə Ələsgər bu qoşmada on iki (12) imamı tərənnüm edir, onların Vahid Allah inancını daşıdığını bədii səviyyədə aşkara çıxarır. Təsadüfi deyil ki, o, bu şeirin ilk misrasını yenə Allahın adı ilə başlamaqla Vahid inanc sistemini təzahür etdirərək, yalnız bir bütövdən və onun hissələrindən bəhs etdiyini təbliğ edir:

"Bismillahir-rəhmanir'rəhim !"- deyib,
Sidq ilə çağırram şahi-Heydəri.
Xişmə gəlib, bir əlində götürdü,
Səksən min batmanlıq dəri-Xeybəri (9, 26).

Təbiidir ki, biz yalnız burada bircə bəndi dərinliklə izah etməli olsaq, o zaman mövzudan kənara çıxmış olarıq. Ancaq qeyd etmək lazımdır ki, A.Ələsgər burada bir çox mətləblərə toxunmuşdur ki, bu da bir çox tədqiqatların əsas mövzusudur.

A.Ələsgərin bu kitabında biz daha sonra bütün yaranışa aid müxtəlif mövzuları görürük. Ancaq bu mövzuların əksəriyyətində elə dini-irfani mövzular bilgi səviyyəsində işarələnir. Ancaq bütün varlığı vəhdətdə götürən Dədə Ələsgər öz yaradıcılığında Vahid Allah inancını bədii səviyyədə diqqətə çatdırır. Təbiidir ki, qeyd etdiyimiz kimi burada hər hansı bir nüans inancı inkar etmir, əksinə təsdiq edir. Bütün mövzular yaranışdan bəhs edir və yeri gəldikcə bu yaranışda Xaliqin varlığı hiss olunur. Hətta üzdə görünməsə belə bütün yaranış yaradılış əsəri olaraq vəhdətdə götürüldüyü üçün Vahid Allah inancını düşüncəyə gətirir. Biz A.Ələsgər yaradıcılığına bu kontekstdə yanaşdıqda aydın olur ki, onun poeziyası adi şeir sənəti yox, daşınan bir missiyanın bədii ifadəsidir.

## QAYNAQLAR


1. Atalar sözləri. Tərtib edən M.Yaqubqızı. Bakı: Nurlan, 2013
2. Azərbaycan ədəbiyyatı inciləri (nağıllar). Tərtib edən N.Seyidov. Bakı: Yazıçı, 1985
3. Azərbaycan xalq ədəbiyyatından seçmələr. Tərtib edənlər: H.İsmayılov, T.Orucov. Bakı: Şərq-Qərb, 2005
4. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. I cild. Bakı: 1976
5. Bünyadov Z.Dinlər, təriqətlər, məzhəblər. Bakı: Şərq-Qərb, 2007
6. Cəlal M., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları (Ali məktəblər üçün dərslik). Bakı, Maarif nəşr., 1972
7. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Tərtib edəni Ə.Mirəhmədov. Bakı: Azərnəşr, 1965
8. Ələsgər A. Bütün əsərləri. Tərtib edəni Q.Zimistanoğlu. Bakı: "OL" MMC, 2014
9. Ələsgər A. Əsərləri. Tərtib edəni İ.Ələsgər. Bakı: Şərq-Qərb, 2004
10. Ələsgər A. Seçilmiş əsərləri. Şerlər. Tərtib edəni İ.Ələsgərov. Bakı: Yazıçı, 1988
11. Ərəbcə-Azərbaycanca lüğət. II cillddə, I cild. Tərtib edən R.Əliyev. Bakı: Şərq-Qərb, 2007
12. Göyçə dastanları və aşıq rəvayətləri. (toplayanı və tərtib edəni H.İsmayılov). Bakı, Səda, 2001
13. Karaköse S. Bir elif çekmek: Klasik edebiyatımızda elif / Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi. Sayı: 2/1 2013 s. 199-228, Türkiye. International Journal of Turkish Literature Culture Education Volume 2/1 2013 p. 199-228, Turkey
14. Kitabi-Dədə Qorqud Ensiklopediyası. İki cilddə. I c. Bakı: Yeni Nəşrlər Evi, 2000
15. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988
16. Köçərli F. Azərbaycan ədəbiyyatı, 2 cilddə, I cild. Bakı: Elm, 1978
17. Qurani-Kərim. Ərəb dilində. Orijinal nüsxə. Türkiye, Diyanet İşleri Başkanlığı Yayınları, V baskı, İstanbul, 2018
18. Qurani-Kərim. Tərcümə edənlər Bünyadov Z., Məmmədəliyev V. Bakı: Çıraq, 2004
19. Quran oxumağa giriş (əlifba). Azərbaycan türkcəsinə çevirən A.Əliyev. Ankara: Diyanət İşləri Başqanlığı, 1993
20. Məmmədova K., Əkbərova T. Ərəb dili. Bakı, 2015
21. Namazov Q.M. "Ali riyaziyyat" dərs vəsaiti. Bakı: Bakı Biznes Universiteti, 2012
22. Nəsimi.İ. Seçilmiş əsərləri, II cilddə, II cild. Bakı: Lider, 2004
23. Rüstəmova T. Fars dili. Bakı: Elm və Təhsil, 2013

24. Seyyid Eyyub bin Sıddik. Menakibi çihari-yari-güzin (Dört halifenin üstünlükleri). Hakikat kitabevi, Fatih-İstanbul, 2014
25. Tanyu H. Yahudiliğin kutsal kitapları ve esasları, ilmi inceleme ve tenkidi / Ankara Universitesi, İlahıyat fakültesi dergisi. Ankara: Ankara Universitesi basımevi, 1967
26. Taşkesenlioğlu L. Divan edebiyatında elifnameler ve bilinmeyen iki elifname örneği: Memi Can Saruhani ve Ömer Karibi elifnameleri / Atatürk Universitesi Türkiyat Araştırmaları Enstitüsü dergisi, (TAED), 58, Türkiye, Erzurum, 2017, s. 159-202

# OZAN SƏNƏTİNDƏ TƏBİƏT GÖZƏLLİKLƏRİNİN TƏRƏNNÜMÜ

# DESCRIPTION OF NATURAL BEAUTIES IN THE ART OF POETRY

# ОПИСАНИЕ ПРИРОДНЫХ КРАСОТ В ИСКУССТВЕ ПОЭЗИИ

**Aybəniz ƏSGƏROVA**
*Sumqayıt şəhəri 15 nömrəli tam orta məktəb*

**Summary**

Ashug creativity is an important field of Azerbaijani oral folk literature. This rich creativity, which began and developed in very ancient times, is still continuing and developing. Ashug was an artist who sang in ancient times, perhaps under different names, combining three types of art: music, dance and poetry.

Ashug art, in the true sense of the word, means playing the saz, dancing, singing, telling and spreading fairy tales, epics and other types of oral folk literature at weddings and gatherings. However, there were such artists among these performing ashugs who performed the compositions they composed, the epos they composed, and differed from other professional ashugs.

The art of ozan-ashug, which flowed from the depths of the Turkic world, lived in the greatness of Gorgud Ata through the ups and downs of history, and from the Middle Ages it was in the person of Karam, Sari Ashug, Gurbani, Abbas Tufarganli, Khasta Gasim and finally Alasgar.

Ashug's poem also describes the nature of the homeland. That is why Azerbaijani ashugs tried to glorify all the subtleties of natural beauty. They dedicated a separate poem to the flight of an eagle, the gait of a gazelle, the pleasant appearance of a rose, the bent neck of a violet, and described the peculiarities of spring, summer, autumn and winter in Azerbaijan.

**Key words:** ashug poetry, folk literature, Ashug Alasgar

**Резюме**

Творчество ашугов-важная область азербайджанской устной народной литературы. Это богатое творчество, зародившееся и развившееся в очень древние времена, продолжается и развивается. Ашиг был артистом, пел в древности, возможно, раньше под разными именами, сочетая в себе три вида искусства: музыку, танец и поэзию.

Искусство ашуга в прямом смысле этого слова означает игру на сазе, танцы, пение, рассказывание и распространение сказок, эпосов и других видов устной народной литературы на свадьбах и собраниях.

Однако среди этих ашугов-исполнителей были такие артисты, которые исполняли сочиненные ими сочинения, сочиненные ими эпосы и отличались от других профессиональных ашугов.

Искусство озан-ашуг, истекшее из глубин тюркского мира, пережило величие Горгуд Ата через взлеты и падения истории, а со времен средневековья оно было в лице Карама, Сари Ашига, Гурбани, Аббас Туфарганлы, Хаста Касым и, наконец, Алескер.

Поэма Ашуга также описывает природу Родины. Именно поэтому азербайджанские ашуги старались воспитать все тонкости природной красоты. Они посвятили отдельное стихотворение полету орла, походке газели, приятному виду розы, изогнутой шее фиалки и описали особенности весны, лета, осени и зимы в Азербайджане.

**Ключевые слова:** ашугская поэзия, народная литература, Ашуг Алескер

Aşıqlıq ənənəsi türk mədəniyyət tarixində əhəmiyyətli yerə sahibdir. Bu ənənə əsrlərlə davam edən sənət sınaqlarından keçərək cilalanmış, özünəməxsus ifa tərzinə, yaradıcılığa malik, öz qayda-qanunları olan bir sənət sahəsi kimi inkişaf etmişdir. Aşıq ədəbiyyatı, ozan-baxşı ənənəsinin dəyişməsi və tamamilə ortadan qalxması ilə XV-XVI əsrdən sonra Azərbaycanda və Anadoluda çiçəklənmişdir. XVII əsrin sonlarından başlayaraq Qafqazda, İran və Şərqi Anadoluda aşıq mühitlərinin çiçəklənmə prosesi davam edirdi. Bu ərazilərdəki mühitlər aşıq sənətinin fərqli və ortaq xüsusiyyətlərinə, yerləşdiyi coğrafiyaya görə bir-birindən kifayət qədər fərqlənirdi.

Aşıqlıq sənəti əsl mənada şairlikdən fərqli olaraq, saz çalmaq, rəqs etmək, oxumaq, şifahi xalq ədəbiyyatının nağıl, dastan və başqa növlərini toylarda, məclislərdə söyləyib yaymaq deməkdir. Lakin bu ifaçı aşıqlar sırasında elə sənətkarlar olmuşdur ki, onlar qoşduqları qoşmaları, düzəltdikləri dastanları özləri ifa etmiş, başqa peşəkar aşıqlardan fərqlənmişlər.

XVI əsrin sonu XVII əsrin əvvəllərində yaşayıb yaratmış aşıq poeziyasının görkəmli nümayəndələrində biri Abbas Tufarqanlıdır. Onun haqqında bizə məlumat demək olar ki, gəlib çatmamışdır. Aşığın bir sıra şeirlərində və “Abbas və Gülgəz” dastanında həyat və yaradıcılığı haqqında məlumat əldə edilib. Qul Abbas, Şikəstə Abbas, Bayat Abbas və başqa təxəllüsləri ilə şeir yazmışdır. Abbas Tufarqanlı yaradıcı aşıqlardan olmuşdur. Tədqiqatçıların verdiyi məlumata görə Abbas Tufarqanlı mükəmməl təhsil görmüş, ərəb və fars dillərini öyrənmiş, qəzəl, qəsidə, rübai müəllifi kimi də tanınmışdır. Aşıq Abbas Tufarqanlı zəngin, geniş və rəngarəng bir yaradıcılığa malikdir.

Tufarqanlı Abbasın gəraylıları da gözəl, səmimi, axıcı və xoşagələndir. Bu şeirlərdə təbiət gözəllikləri həqiqi sənət dililə təsvir olunur:

Budur gəldi bahar fəsli
Dağların lala vaxtıdır.
Açılıbdır qızıl güllər,
Bülbülün bala vaxtıdır.

Aşığın yaradıcılığına müraciət etdikdə görərik ki, onun şeirlərində vətən həsrəti təsvir olunur.

Ay ariflər, qanlı fələk cəbrindən,
Qohumdan, qardaşdan, eldən ayrıldım.
Fərhad kimi çəkdim Şirin qəhrini,
Cığa pərvaz etdi, teldən ayrıldım.

Hərdən ayrılıqdan sarsıntılı, təzadlı duyğular hiss edən aşıq könül dünyasındakı tufanlı dalğaları hüsnünü bürümüş buluda bənzədir. Çəkdiyi ağrılardan azad olmasını dağlardan çənin, dumanın çəkilməsinə bənzədir. Bu mənada Abbas Tufarqanlı qoşmaların birində deyir:

Duman, gəl get, bu dağlardan
Dağlar taza bar eyləsin.
Nə gözlərim səni görsün,
Nə könlüm qurban eyləsin.

Təbiətlə insanın vəhdətini, ahəngdar bağlılığını bədii-estetik mənada təsəvvür edən aşıqlar istəkli sevgilisinin ayrılığını çəkəndə elə bil təbiət özü də ona yabancı görünür. Aşığın nəzərində təbiət insansız öz mənasını itirir.

Abbas Tufarqanlı şeirlərinin birində sevgilisindən ayrı düşdüyündən gileylənir, bununla bağlı olaraq bir növ vətənin özünə etirazını bildirir. Aşığın sevgilisindən ayrı düşməyi eyni zamanda vətəndən ayrılmağı kimi duyulur. Aşıq nə qədər sevgilisi ilə bağlıdırsa, bir o qədər də vətənə bağlıdır.

Vüsal həsrəti ilə alışıb-yanmaq aşığa vətənə vəhdətini dərindən duymağa elə bil mane olur. Ayrılığı özünün dönük taleyi ilə bağlayan aşıq etiraz səsini ucaldanda vətənin özünə qarşı çıxır. Onun nəzərində sevgilisi olmayan yerdə, sevgilisinin gözəlliyindən zövq almadığı yerdə vətənin gözəlliyi də gözündə tutqunlaşır.

Sənsiz görüm xarab qalsın bu bağı,
Şeyda bülbül nə zövq eylər, nə zağı,
Zülfü dal gərdanda açıb məzağı,
Ağ üzü münəvvər xalınan oynar.

XVII əsr aşıq poeziyasının görkəmli nümayəndəsi Sarı Aşıqdır. Azərbaycan aşıqları içərisində xüsusi bir yer tutan Sarı Aşıq bayatı ustası kimi məşhurdur. Yaratdığı bayatılar mövzu baxımından dolğun və rəngarəngdir.

Onun məhəbbət bayatılarında sevən bir aşiqin həsrətlə döyünən qəlbinin kövrək sədaları eşidilir. Bu bayatılar adi bir Azərbaycan gözəlinin tərənnümünə həsr edilsə də, burada yüksək insani xüsusiyyətlər məhəbbətin ən böyük və son dərəcə nəcib keyfiyyət olması şairanə bir dildə təsvir olunmuşdur (3, 144).

Aşıq gözəldən səni,
Seçdim gözəldən səni
Könül əldənmi qoyar,
Qoysa göz əldən səni.

Bayatıları ilə məşhur olan aşığın yaradıcılığında qoşmalara da rast gəlinir.

Sarı aşığın həyatı haqqında demək olar ki, məlumat yoxdur. Tədqiqatçılar "Yaxşı və Aşıq" dastanının aşığın həyat və yaradıcılığını əks etdirdiyini söyləyirlər.

Eləmi, tərsinə qoy,
Tər təni, tər sinə qoy.
Yaxşını qibləsinə,
Aşığı tərsinə qoy (2, 41).

Sarı Aşığın kamal dünyasında vətənpərvərlik motivləri güclü və son dərəcə təsirlidir. Onun qəribliyi ürəyə həsrət dağı çəkir, hicran yarasının oxunu tuşlayır:

Aşıq, vətən yaxşıdır.
Köynək kətan yaxşıdır.
Qəriblik cənnət olsa,
Yenə vətən yaxşıdır.

XVIII əsr aşıq poeziyasının nümayəndələrindən biri Xəstə Qasımdır. Həm lirik, həm nəsihətamiz şeirləri ilə məşhurlaşan Xəstə Qasım yüksək istedada, dərin biliyə, böyük yaradıcılıq qabiliyyətinə malik olmuşdur. Həyatı haqqında dəqiq məlumat yoxdur. Xəstə Qasım aşıq şeirinin bağlama, qıfılbənd, təcnis, qoşma, cığalı qoşma, deyişmə, gəraylı kimi şəkillərindən istifadə etmişdir.

XVIII əsr aşıq poeziyasının nümayəndələrindən biri də Aşıq Valehdir. Daha çox lirik şeirləri ilə məşhur olmuş Aşıq Valehin ustadı Aşıq Səməd olmuşdur. "Valeh və Zərnigar" dastanı onun şeirləri

əsasında yaradılmış və bu dastanda Aşıq Səmədin onun ustadı olması haqqında məlumat verilmişdir.

Bu dövrdə "Əsli və Kərəm", "Şah İsmayıl", "Tahir və Zöhrə", "Abbas və Gülgəz", "Aşıq Qərib" kimi məhəbbət dastanları aşıqlar tərəfindən yaradılırdı.

XIX əsr isə Azərbaycan aşıq poeziyasının intibah dövrüdür. Bu dövrdə aşıq yaradıcılığında bir canlanma baş verir. Bu dövrdə məhəbbət mövzusu aşıq poeziyasında başlıca mövzudur. XIX əsrdə də aşıq yaradıcılığının görkəmli nümayəndələri yetişirdi. Aşıq Alı, Şəmkirli Aşıq Hüseyn, Aşıq Musa, Molla Cümə, Aşıq Mahmud, Aşıq Əhməd, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı bu dövrün sənətkarlarındandır. Eyni zamanda dastanlar yaranırdı ki, bunların içərisində ən möhtəşəmi "Koroğlu" eposudur. Xalqın həyat tərzi, mübarizəsi, qəhrəmanlıq tarixi dastanda öz əksini tapmışdır.

XIX əsr aşıq lirikasında vətənə məhəbbət motivləri də çox güclüdür. Bu motivlər özünü əsasən dağlar mövzusunda göstərir. Dağlar mövzusu bu dövr aşıq yaradıcılığında yeni deyil. "Koroğlu" və "Novruz" dastanlarında, Miskin Abdalın yaradıcılığında dağlar haqqında gözəl sənət incilərinə rast gəlirik. Bu əsərlərin əksəriyyəti qoşmadır, formaca eynidir, yəni "Dağlar" rədiflidir. Lakin buna baxmayaraq onların hər birini öz təravəti, öz rahiyəsi, öz gözəlliyi vardır. Bu şeirlərin hansı ruhda, hansı motivdə, nə tərzdə deyilməsi zamanla, dövrlə, şəraitlə, ilk növbədə isə onun müəllifinin şəxsi keyfiyyətləri ilə bağlıdır:

Taladım şahları, hələ az dedim,
Türfə gözəllərə işvə, naz dedim,
Neçə tacir-tüccar səndə gizlədim,
Açmadın sirrimi, sirdaşım dağlar.

Koroğlu əyilməz vüqarlı dağları özünə sirdaş bilir. Dağlar onun əzəli məskəni və həmdəmidir. O keçirdiyi qovğalı günləri böyük fəxrlə xatırlayır, gənclik çağlarını itirməsinə heyfsinir. Şeiri oxuduqca sanki dağlar bütün əzəməti ilə Koroğlu dəliləri kimi gözlərimiz önündə sıralanır.

Bu ölməz epos əsrlər boyu ədalətsizliyə, zülmə, insanın insan tərəfindən istismarına qarşı mübarizə aparan geniş xalq kütləsinin bədii təfəkkürünün məhsulu olan nadir sənət incilərindən biridir. Məhz bu ideyanı özündə ümumiləşdirdiyinə, eyni zamanda yüksək sənətkarlıq xüsusiyyətlərinə görə "Koroğlu" eposu əsrlərdən bəri nəinki onu yaradan və yaşadan doğma xalqın, həm də onun nəfəsi isitdiyi, şüası işıqlandırdığı başqa xalqların şifahi ədəbiyyatında da özünə yuva

tapmış, onların öz dilində eyni adla ədalətsizliyə, zülmə qarşı mübarizə aparan qəhrəmanlıq simvoluna çevrilmişdir.

XIX əsr aşıq poeziyasının görkəmli nümayəndələrindən biri olan Molla Cümənin yaradıcılığı ondan sonrakı aşıqlar üçün bir məktəb olmuşdur. Savadlı, elmli, bilikli olduğuna görə ona molla demişlər. Molla Cümə incə zövqə malik, insanın daxili, ruhi hisslərini gözəl, təsirli ifadələrlə ifadə etməyi bacaran lirik bir şairdir (1, 208).

Molla Cümə aşıq şeirinin qoşma, gəraylı, təcnis, müxəmməs kimi şəkillərindən istifadə etmişdir. Onun məhəbbət mövzusunda olan "Amandı", "Pəri", "Gəlin", "Demişəm", "Kağız" və s. adlı müxəmməsləri aşıq şeirinin bu şəklində olan ən yaxşı nümunələrindən hesab olunur.

Tədqiqatçıların məlumatına görə Molla Cümənin "Cümə və Könül", "Səyyad və Səyalı" adlı dastanları var.

Doğma yurdumuzun təbii mənzərəsi, quş qonmaz uca dağları, səfalı yaylaqları, durna gözü kimi şəffaf, soyuq bulaqları bədii əsərlərimizin tərənnüm obyekti olmuşdur. Digər tərəfdən, dağlar mövzusunun şifahi xalq yaradıcılığında və yazılı ədəbiyyatımızda geniş yer tutmasının səbəbi, həm də dağların daxili və xarici düşmənlərə qarşı azadlıq mübarizəsində "qüdrətdən səngərli və qalalı" olmasıdır. Babək, Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəm kimi xalq qəhrəmanları dağlara pənah aparmış, xalqımızın azadlıq idealları uğrunda vuruşmuşlar. Beləliklə, dağlar təbii gözəlliyindən başqa, bir də xalqımızın iqtisadi və siyasi həyatında mühüm bir amil olduğundan aşıq poeziyasının tərənnüm obyektinə çevrilmişdir. Odur ki, söz ustalarının dağların tərənnümündə işlətdikləri romantik boyalar, təşbehlər xalqın real həyatı ilə bağlı olmuşdur.

"Koroğlu" dastanında Qırat və Misri qılıncla yanaşı, Çənlibel də eyni məhəbbətlə tərənnüm olunur. Koroğlu "Şah da gəlsə Çənlibelə qoymaram" – deməklə, məskən saldığı bu yerin təbii gözəlliyindən daha çox, onun əlverişli yaşayış məkanı olduğunu əsas götürür.

Üst yanı dağ, təpə, dərə
Müxənnətlər düşər girə,
Mərd igidə olan bərə,
Nigar, Çənlibel budu, bu!

Göründüyü kimi, Çənlibel kənar qüvvələr tərəfindən ayaq basılması mümkün olmayan bir qalaya çevrilmişdir. Dastan və nağıllarımızda "...Quş gəlsə qanad salar, qatır gəlsə dırnaq tökər" ifadələri Çənlibel kimi yerlər nəzərə alınaraq deyilmişdir.

Aşıq poeziyasında dağların gözəlliyi deyil, keçmişdə Koroğlunun, Qaçaq Nəbinin, Kərəmin, Dəli Alının arxası, köməyi, yurdu kimi təsvir

edilmişdir. Dağlar aşıqların həyatdan, öz zəmanəsindən, vəfasiz sevgilisindən şikayət etdiyi bir obyekt, pənah nöqtəsi olmuşdur. Aşıqlar dağlara tərifnamələr söyləmişdilər. Müasir aşığın vəsf etdiyi dağlar ağasız, nökərsiz, qaçaqsız, quldursuz dağlardır. Bu dağlarda sevgililər də gizli deyil, açıq aşkar görüşürlər. Buna görə də istər yuxarıda Aşıq Şəmşirin misal çəkdiyimiz qoşması, istərsə də Aşıq Əlinin, İsmayıl Katibin, Şeyda Əzizin dağlar haqqında söylədikləri qoşmalar yeni səpkidə, yeni ruhda yazılmışdır. Doğrudur, bu şeirlərdə də keçmiş qaçaqlardan, vurub-tutanlardan, gəlib getmiş fatehlərdən söhbət gedir. Lakin bu şeirlər xatirə kimi bizi bir anlıq dağların keçmiş həyatına, at nallarından sinəsi deşik-deşik olmuş dağların cəngavərlik dünyasına qaytarır. Bu qəbildən olan şeirlərdə dağlar şahid rolunu oynayır:

Nə Nadir var, nə İsgəndər
Kim yaşadı başa qədər!
Sənə qonaq gələn gedər,
Bivəfasan nədən dağlar?

Neçə-neçə Rüstəmi-Zal,
Teymur, Şəddad, Bəhram, Salsal
Yedi, gəzdi köksündə bal,
Hanı o bal yeyən dağlar?

Köhnə yurdsan, o zamandan
Nələr keçdi imtahandan.
Bir nişana Süleymandan
Varsa göstər, de sən dağlar!

Aşıq Ələsgər özünəməxsus təbii gözəllikləri ilə seçilən, qədim yurd yerlərimizdən olan Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Atası Alməmməd kişi əkin-biçinlə, dülgərliklə məşğul olmuş, uşaqları böyüdükdən sonra güzəranını yaxşılaşdırmaq üçün dəyirman işlətmişdir.

Ələsgər xüsusi təhsil almasa da, el məclislərində hədislərə, nağıllara, dastanlara böyük maraq göstərmiş, eşitdiklərini güclü yaddaşında hifz edib saxlamışdır. El aşıqlarının məclisləri, toy-şənliklər onda saza, sözə ciddi maraq oyatmış, ilk şeirlərinin yaranmasına səbəb olmuşdur.

Oğlunun istedadını görən atası onu aşıq sənətinin sirlərini öyrənmək üçün Aşıq Alının yanında şəyirdliyə qoymuşdur. Aşıq Alıdan aldığı ustad dərsləri Ələsgərin sənətkar kimi püxtələşməsində böyük rol oynamışdır. Çox keçməmiş Aşıq Ələsgərin apardığı məclislərin sorağı hər tərəfə yayılmış, o, Göyçə ilə yanaşı, İrəvan, Naxçıvan, Qazax, Qarabağ, Gəncə, Kəlbəcər və digər yerlərə toy, şadlıq məclis-

lərinə dəvət edilmişdir. Aşıq sazı, sözü, ədəb-ərkanı ilə el-oba içində ustad sənətkar kimi böyük şöhrət qazanmışdır.

Təbiətə həsr olunmuş şeirlərində aşığın vətənpərvərliyi, xalqına bağlılığı qabarıq ifadə olunub. Aşığın "Yaylaq", "Gördüm", "Dağlar" rədifli qoşmaları ədəbiyyatımızda doğma yurdun gözəlliyinə həsr olunmuş ən maraqlı əsərlərdəndir. "Yaylaq" rədifli qoşmasında və gəraylısında yazda el-obanın üz tutduğu, el gözəllərinin, igidlərin qaynaşdığı, aşıqların çal-çağırı eşidilən səfalı yaylaqlar, seyrəngahlar tərənnüm edilir.

Bu böyük el sənətkarı aşıq şeirinin, demək olar, bütün janrlarına müraciət etmiş və hər birində böyük uğur qazanmışdır. Tükənməz xalq yaradıcılığı çeşməsindən süzülüb gələn bu təkrarsız sənət nümunələri xəlqiliyi, dil sadəliyi, üslub gözəlliyi, forma əlvanlığı ilə dinləyicinin, oxucunun bütün dövrlərdə zövqünü oxşamış, onda gözəl hiss və duyğuların baş qaldırmasına səbəb olmuşdur. Qoşma, gəraylı, təcnis və dodaqdəyməzləri məna dərinliyi, səmimilik, təbiilik, həyatilik, forma bitkinliyi baxımından yarandığı gündən örnək olmuşdur. Bu əsərlər sözlərin sərrast seçimi, qafiyə əlvanlığı, məzmuna uyğun epitet, təşbeh, metafora, mübaliğə, təkrir, təzad və s. istifadə məharəti ilə diqqəti həmişə cəlb etmişdir. Saz havalarına uyğun yaradıldığı üçün onun şeirləri ahəngdar və axıcıdır.

Aşıq Ələsgərin qoşmalarının bir qismində Azərbaycanın füsunkar təbiəti, təbii gözəllikləri tərənnüm olunur. Aşığın belə qoşmalarında doğma yurdun başı qarlı uca dağları, güllü-çiçəkli yaylaqları, saf sulu bulaqları, lalə-nərgizli yamacları, dibi görünməyən yaşıl meşələri, şaqraq səsli quşları yüksək bir ustalıqla təsvir olunur, göz önündə əsrarəngiz təbiət mənzərələri canlandırılır.

Əsrarəngiz təbiətimizin göz oxşayan yaraşığından tutmuş el gözəllərinin vəsfini, mərd igidlərin tərifini saz-söz sehriylə ucalardan-ucalara qaldıran böyük ustadın ilk kəlməsindən son kəlamınacan bütün söz dünyasında Azərbaycan ruhunun və Azərbaycan dilinin saflığı hakimdir. Əzəmətli Aşıq Ələsgər sənətini yüzillikləri fəth etməyə aparan da onun bağrındakı saf və yenilməz xalq qüdrətidir.

Aşıq Ələsgər yaradıcılığı mövzu baxımından çox rəngarəngdir. O, Vətənin gözəllərini necə ilhamla tərənnüm edirdisə, Vətənin igidlərini də o cür qürurla tərifləyir, onların mərdliyindən vəcdə gəlir, şəninə dastanlar yazırdı. O həmçinin dastan yazmaqla kifayətlənmir, şəyirdlərindən tələb edir ki, həmin dastanları hər yerdə oxusunlar, yaysınlar. Aşıq Ələsgər M.P.Vaqif kimi gözəlliyi, gözəlləri öz dastanlarında həmişə tərənnüm edirdi. Dastanlarında yer alan Gülpəri, Müşgünaz, Güllü, Gülxanım, Güləndam, Salatın, Telli, Şəkər, Nənəpəri

həmin gözəlllərin hələ tam olmayan siyahısıdır. Qeyd etdiyimiz kimi, Aşıq Ələsgərin gözəllik barəsindəki təsəvvürü daha genişdir. Onun Vətənin gözəlliyi, təbiəti haqqında yazdığı dastanlar daha çox diqqəti cəlb edir. Məsələn, Dəlidağ, Şəki, Kəlbəcər, Qarabağ, Şirvan, Qoşqar, Muğan, Göyçə, Xaçın, Narışdar, Murov, Çilgöz, Uzunyoxuş və s.

Aşıq Ələsgər çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhuyla həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmişdir. Sənətkarın doğma təbiətə məhəbbət və vətənpərvərlik hisslərini vəhdətdə aşılayan, ana dilimizin saflığını, məna potensialını və hüdudsuz ifadə imkanlarını özündə cəmləşdirən dərin koloritli yaradıcılığı Azərbaycan ədəbiyyatının parlaq səhifələrindəndir. Aşıq Ələsgər çox sayda yetirmələrindən ibarət bir məktəb formalaşdırmış və gələcəyin məşhur el şairlərinə qüvvətli təsir göstərmişdir. Azərbaycan aşıq sənətinin ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınması həm də Aşıq Ələsgər sənətinə ehtiramın təzahürüdür.

XX əsrdə aşıq yaradıcılığında inkişaf gedirdi. Bu dövrdə də aşıq poeziyasının görkəmli nümayəndələri yetişirdi. Aşıq Musa, Bağban Məhəmməd, Dollu Mustafa, Aşıq Rəcəb, Aşıq Qurban, Aşıq Mehdi, Zodlu Usta Abdulla, Çoban Əfqan, Aşıq Pənah Seyfəli, Şair Nəbi Borçalı, Xəyyat Mirzə, Miskin Əli, Aşıq Mirzə, Sarı Vəli, Növrəs İman, Aşıq Əmrah Gülməmmə-dov, Aşıq Hüseyn Cavan, Aşıq Hüseyn Saraclı, Aşıq Mikayıl Azaflı, Aşıq Əhməd, Aşıq Pənah, Aşıq İmran, Aşıq Əkbər və başqaları aşıq şeirinin qoşma, gəraylı, təcnis və s. kimi şəkillərində gözəl sənət nümunələri yaratmışlar.

Aşıq Hüseyn Cavan dövrümüzün ustad aşıqlarındandır. Aşıq Hüseyn Cavan klassik şeir poeziyamızın ən yaxşı ənənələrini müasir dövrümüzün pafosu, tələb və əhvali-ruhiyyəsi ilə çox məharətlə birləşdirən bir sənətkardır. Onun hər bir qoşmasında, mahnısında, dastan və xatirələrində Qurbani, Abbas Tufarqanlı, Valeh, Ələsgər, Molla Cümə, Hüseyn Bozalqanlı və başqalarının yaradıcılıq nəfəsi duyulur (1, 363). Aşıq Hüseyn Cavan aşıq şeirinin qoşma, gəraylı, təcnis kimi şəkillərində yazdığı şeirlərində təbiətimizin gözəlliyini təsvir etmişdir.

Şəlaləli qoca Tərtər,
Xaçın çayı, dəli Qarqar,
Cəbinindən axan tərlər,
Coşdurur çayların dağlar!

Qoşqar, Kəpəz, Murtuz, Murov...
Qaşlarından getmir qrov,
Dəli dağından qalxanda ov,
İzlər ovçuların, dağlar!

Aşıq Hüseyn Cavan aşıq şeirini cığalı gəraylı, divani, deyişmə, təcnis, qoşayarpaq, gözəlləmə və digər şəkillərində gözəl sənət nümunələri yaratmışdır.

## QAYNAQLAR


1. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1981, 404 səh.
2. Seçmə aşıq şeirləri. 3 cilddə, I cild. DGTYB yayını. Bakı, “Nurlan”, 2011, 201 səh.
3. Vəkilov Qiyas. XIX əsr aşıq lirikası. Bakı, 1993, 244 səh.

# HAQQ SÖZÜN İSBATIN VERƏN ƏLƏSGƏR
# ALASGAR PROVING THE DIVINE WORD
# АЛЕСКЕР ДОКАЗЫВАЮЩИЙ БОЖЕСТВО СЛОВА

**Aynur CƏLİLOVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*celilova1976@mail.ru*

**Summary**

Ashug Alasgar, a prominent representative of ashug literature, enriched the Azerbaijani folk literature and brought a new breath to it. Among the people he was called as a lover of god. This is due to the fact that ashug is fair in the literature. In fact, the name as the lover of god was given to him because he told the divine word about the secrets of the sect. The ashug has used the word combination "I am aware of every science" in this meaning.

The legends about Ashug Alasgar confirm his idea of being aware of the mysterious secrets, understanding the opinion of people and being a lover of god as it is said. Ashug Alasgar can be regarded as the successor of the Azerbaijani Sufi poet Shah Khatai, because he wrote his poems in the form "goshma", "garayli", "tejnis", "mukhammes" in the simple folk language against the background of Shia Sufism's dogmas in the people's spirit. Even in his poems dedicated to the beauties, he used Sufi terms, verses of the Quran. In the article Ashug Alasgar's poems written in the religious content are explained and the samples of stories spread among the people about ashug are given.

**Key words:** ashug literature, a lover of god, sect, Shia Sufism, legend

**Резюме**

Выдающийся представитель ашугской литературы ашуг Алескер своим творчеством обогатил и привнес новизну в народную литературу Азербайджана. Среди народа он прославился как ашуг глаголющий божественным словом. В литературе его представляют как ашуг поющий об истине. На самом деле нарекая его именем божественный ашуг, имелось в виду, что он ведал тайнами и правдивыми изречениями сект. Выражение ашуга: «я ведаю всеми науками», было сказано в этом смысле. Предания об ашуг Алескере и о его тайнах, о том, как он предугадывал мысли людей, утверждал истинность божественного ашуга.

Ашуга Алескера можно считать последователем суфийского поэта шаха Хатаи, потому, что все стихотворные формы и размеры такие как, гошма, герайлы, теджнисы, мухаммасы были написаны в народном духе и на фоне догмы шиитских суфистов. Даже стихам посвященным краса-

вицам, он применил суфийские термины, и воспользовался цитатами из Корана.

В статье приведены примеры из преданий об ашуге Алескер, которые были распространены среди людей, и поясняется, что эти стихи написаны в суфии - ирфанском содержании. Прилагается к работе оригинальный текст собранный у сказителя.

**Ключевые слова:** ашугская литература, божественный ашуг, секта, шиитский суфизм, предание

Göyçə elinin yetirdiyi ustad aşıqlardan biri xalq arasında haqq aşığı kimi tanınan Aşıq Ələsgər Azərbaycan aşıq poeziyasının zənginləşməsində müstəsna rolu olan sənətkarlardandır. Aşığın yaradıcılığı haqqında yazan araşdırıcılar haqq aşığı ifadəsini aşığın ədalətli, haqqın tərəfində olması ilə izah edirlər (8). Haqq aşığı ifadəsinin folklordakı məna tutumu folklorşünaslar tərəfindən izah olunmuşdur (4, s. 142). Əlbəttə, real həyatda çox aşıq ədalətli, insaflı ola bilər və vardır, amma onlara haqq aşığı deyilmir. Haqq aşığı, Aşıq Ələsgərin özünün dediyi kimi haqq sözün isbatını verən, təriqətin yol-ərkanını bilən, mərifət elmindən bəhrələnib həqiqət mülkünə ucalan aşıqlardır.

Aşıq Ələsgərin haqq aşığı olmasının əlaməti mistik badə içməsidir. Məhəbbət dastanlarında baş qəhrəmanın badə içib haqq aşığına çevrilməsi epizodu ilə tanışıq. Bu mistik badə acı eşq badəsidir və hər adama bu badə verilmir. Ancaq ürəyi təmiz, qəlbi saf insanlara verilir. Aşıq Ələsgər də pirin əlindən badə alıb içən, müqəddəs kəlmələr deyən sənətkarlardandır:

Ələsgərəm, mən də içdim badə hey,
Əbcəd hesabıynan seçdim badə hey,
Xəstə cismim tab eyləmir bada hey,
Heç demirsən, gir qoynuna sin, isin (3, s. 99).

Aşıq burada cinas qafiyələrlə özünün haqq aşığı olduğunu diqqətə çatdırır. 1-ci misrada eşq badəsindən söhbət gedir, onu içən aşiq təsəvvüf elminə, ilahi sirlərə vaqif olub haqq kəlmələri söyləyir, saz çalır, 2-ci misradakı badədə “ba” və “hey” hərflərinin məna çaları ifadə olunmuşdur, əbcəd hərflərinin ilahi qatında ifadə etdiyi məna açıqlanmışdır. Burada badə verənin (Hz. Əli “ba” ( ب) hərfinin simvoludur) ilahi sifətlər daşıdığı tərənnüm olunur. 3-cü misrada isə bad, külək mənasında işlənmişdir.

Aşıq Ələsgər təsəvvüf elminin sirlərini Aşıq Alıdan öyrənmişdir. Aşıq Alı da pir əlindən badə içən pürkamal haqq aşığıdır:

İçdim mərd əlindən eşqin badəsin,

Bais oldu canda marağa yazdım.
Canan eşqi can evinə düşəndə
Düşdüm diyar-diyar sorağa, yazdım (2, s. 71).

Aşıq Ələsgər sözdə, fəhmdə ustadı Aşıq Alını keçsə də, onun şeirlərində Aşıq Alının təsiri duyulur. Hətta bir-birinə çox oxşayan qoşma, gəraylılara da rast gəlmək olur.

Aşıq Ələsgərin şeirlərindən aydın olur ki, o da ustadı Aşıq Alı kimi şiə sufisi olmuş, Əli bin Əbu Talibi pir kimi qəbul etmişdir. Aşıq özü bunu əsərlərində dəfələrlə dilə gətirir. Məsələn, "Bəli deyib yol-ərkana gəlmişəm" qoşmasında aşığın işlətdiyi sufi ədəb-ərkanını biz Xətayidə, Yunus Əmrədə, Quşçuoğluda da görə bilirik. Onlar da sazla, sözlə ilahi eşqi tərənnüm edən aşıq-şairlər olmuşlar. Baxmayaraq ki, onlar da sadə xalq dilində qoşma, gəraylı yazmışlar, amma biz onları klassik təsəvvüf şairləri kimi tanıyırıq. Prinsipial olaraq haqq aşıqları ilə sufi şairlər arasında elə bir ciddi fərq yoxdur.

Aşıq Ələsgərin "Qabaqda" rədifli qoşması təriqət məclisinin təsvirini açmaq baxımından maraqlıdır:

Şəhrin şöləsindən buldum bələdi,
Xoş gəldi xoşuma halı qabaqda
Pir mana göstərdi şah məqamını
Gördüm cəmdi çox cəlalı qabaqda.

Neçə taxt qurulub nuri-münəvvər,
Neçəsi zəbərcəd, neçəsi gövhər
Sağda, solda səf-səf yerir mələklər
"Ya hu!", "ya hu" deyir qulu qabaqda.

"Ya hu!" – deyib bir-birinə uydular,
"Ya mən hu" deyəndə taam qoydular,
Cümlə məxluq yemədilər, doydular,
Qaldı məcməyilər dolu qabaqda.

Neçə sirri gördüm, sirr qaldım aşkar;
Səxavət əhlini yandırmadı nar,
Salavatnan işlər hər dükan-bazar,
Zay oldu dünyanın malı qabaqda.

Dünyada əl çəkmə sövm-səlatdan,
Təmiz ver, qalmasın xüms-zəkatdan.
Ələsgər, xof etmə puli-Siratdan,
İrəhbərdi cənab Əli qabaqda (3, s. 59).

Bu qoşmanın oxşar variantı Aşıq Alı yaradıcılığında da yer almışdır (2, s. 73). Bitkinlik və orijinallıq baxımından qoşma Aşıq Ələsgər üslubuna daha yaxındır. Burada pir deyiləndə təriqət başçısı nəzərdə tutulur, təriqət üzvləri ona tabedir. Şah deyiləndə isə Əli bin Əbu Talib nəzərdə tutulur. Bütün haqq aşıqları Hz. Əlini bu ünvanla çağırmışlar. 2-ci beytdə isə tanrı məqamında qurulan məclis təsvir olunur. Ya hu – O – deyib Allaha xitab edən tərkidünya sufilər ilahi eşqin vəcdindən yeməmiş doyurlar. Dünya malı onların gözündə bir heçdir, yalnız səxavət və Allahı zikr etməklə tanrı məqamına yüksəlmək olar. Nə qədər ki, Cənab Əli qabaqdadır, Sirat körpüsündən qorxmağa dəyməz. Dünya malından xüms (hər bir şiə müsəlmanın üstünə qoyulan vergi, gəlirin 1/5-i), zəkat (gəlirin 1/10-i) verməklə borcunu yerinə yetirən müsəlmanın cəhənnəm qorxusu olmayacaq.

Aşıq Ələsgər şeirlərində hansı təriqətə mənsub olduğunu bildirməyib, amma şeirlərin məzmunundan onun Səfəvi təriqətinə mənsub olması aydın hiss olunur. Bundan başqa "Miskin Abdalnan Şah İsmayıl" dastanında Hüseyn Lələ ilə Şah İsmayıl arasında olan söhbətdən belə məlum olur ki, Göyçə aşıqları Səfəvi təriqətinə mənsub olmuş, şiə sufiliyini təbliğ etmişlər (6, s. 180). Bu fakta əsaslanaraq Aşıq Ələsgərin də Səfəvi təriqətinə mənsub ənənəyə sadiq haqq aşığı olmasına şübhə yeri qalmır. [Heyf, haqq aşıqları yetirən müqəddəs torpağımız Göyçəyə].

Aşığın "Biləsən" rədifli bağlaması sufi ərkanına həsr etdiyi şeirlərindəndir. Bu şeir məna etibarilə Nəsiminin "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" qəzəlinin aşıq tərzində yazılmış variantıdır. Burada həqiqətə çatmaq üçün şəriət elmlərini bilib təriqət yolu gedən sufinin kainat, yaranış haqqında fikirləri ifadə olunmuşdur. Göy, yer, varlıq ağacı, onun budaqları, yarpaqlarının sayı, Əshabi-kəhf dağında qeybə çəkilən yeddi kimsənə, dünyaya meydan oxuyan Süleyman peyğəmbər, İsgəndər Zülqərneyn və onlara qalmayan fani dünyanın puçluğu, ancaq yaradanın əbədi hökmranlığı mövzuları diqqətə çatdırılır. Aşıq bunları bağlama şək-lində təqdim edir. Bu bağlamanı o adam aça bilər ki, təsəvvüf elmindən, təriqət yol-ərkanından xəbərdar olsun. Adətən aşıqlar bir-birini bağlamaq istəyəndə belə mövzulardan suallar verməklə qarşıdakının dini və fəlsəfi biliyini yoxlayırlar. Əgər aşığın dünyagörüşü zəngindirsə və ən əsası aşıq haqq aşığıdırsa belə tapmaca şeirin cavabını verib sazını özündə saxlayır. Aşıq Ələsgərlə Aşıq Musanın deyişməsindən aydın olur ki, ikisi də təriqətə mənsub haqq aşığıdır və haqq elmindən xəbərdardır. Aşıq Ələsgər onu sınağa çəkir, dolaşdırmağa çalışır, amma Aşıq Musa özünün kimliyini meydana qoyur:

Oxumuşam həqiqəti,
Mərifətdən halıyam,
Şəriətdən dərs almışam
Təriqəti tanıyam.
İsmimdi Aşıq Musa,
Şahi-Mərdan quluyam

Əhli-ariflər yanında
Min bir cəlaldı yüküm (1, s. 213).

Bu deyişmədə Aşıq Ələsgərin əvvəldə ifadə etdiyi fikirlər onun həqiqətən də kamil insan kimi hər elmdən xəbərdar olduğunu ortaya qoyur:

Ələstidən "bəli" dedim,
Nə xoş kam aldı yüküm
Beş gözəlin aşiqiyəm,
Vəsfi camaldı yüküm

Həm dərindi, həm dayazdı,
Həm acıdı, həm şirin,
Zəhmətdə zəhri-həlahil,
Ləzzətdə baldı yüküm (1, s. 211).

Ələstidən bəli dedim – ifadəsi aşığın dilində tez-tez işlənir. Bu ifadə başqa türk sufilərinin dilində də vardır. Bu ifadə Qurandan götürülmüşdür. Quran ayəsinə görə Allah insanlara: "Mən sizin rəbbiniz deyiləmmi?" (Ələstu rəbbikum?) – deyə soruşmuş, insanlar cavabında: "Bəli" (Qalu bəla) demişlər (Əraf; 172). "Beş gözəlin aşiqiyəm" – dedikdə isə islam peyğəmbəri Məhəmməd və ondan sonra islam ümmətinə başçılıq edən dörd xəlifə (Əbubəkr, Ömər, Osman, Əli) nəzərdə tutulur. Aşıq: "vəsfi-camaldı yüküm" – deməklə bu dünyada vəzifəsinin insan üzünü vəsf etmək olduğunu bildirir. İnsan üzünü Allaha bənzədən sufilər haqqın insanda təcəlli etdiyinə inanırdılar. Ənə-əl-həqq ifadəsi də buradan meydana çıxmışdır. Haqq yolunun dərini, dayazı olduğu kimi, şirini və acısı da var, min əziyyət hesabına başa gələn bu eşqin dadı bal kimi şirindir.

Aşıq Ələsgərin elə şeirləri var ki, onların təfsiri, açılması bir kitab həcmində olar. Sufi fəlsəfəsini, təriqət ehkamlarını sadə, axıcı xalq dilində ifadə etmək hər aşığın işi deyil. Təkcə təriqət elmlərini öyrənmək, islam dininin vacib əməllərini yadda saxlayıb əməl etmək, kamilliyə çatmaq üçün sufinin etməli olduğu ibadət üsullarını həyata keçirmək özü bir ömür istəyir. Bu qədər biliyin sahibinə necə savadsız demək olar? Böyük türk sufiləri – Yunus Əmrə, Nəsimi, Xətai, Quşçuoğlunun savadı nə qədərdirsə, Aşıq Ələsgərinki də o qədərdir.

Aşıq Ələsgər gözəllərə həsr etdiyi şeirlərində də sufi ədəb-ərkanına sadiq qalmış, gözəlin hüsnünü tanrı təcəllası hesab etmişdir. Məsələn, onun Xurşuda, Həcərə, Gülpəriyə, Telliyə və b. yazdığı şeirlərdə gözəlin üzünü haqqa bənzətdiyini görə bilirik. Aşığın Həcərlə deyişməsindən bir parçaya baxaq:

Həcər xanım, qaşın gözün təhrində
Xətt yazsam, Quranda ayə düşərmi?
Götürsən niqabı mah camalınnan
Hüsnün nuri-təcəllaya düşərmi? (1, s. 355)

Bu şeirdə aşıq Fatihə surəsinə işarə edərək gözəlin üzünün xətlərinin Quran ayəsində əks olunduğuna diqqətə çəkir. İnsan üzündə yeddi xətt tük cizgisi var və Fatihə surəsi də yeddi ayədir. Gözəlin iki qaşı, dörd kirpiyi və saçı yeddi xətdir, bu uyğunluq Quran ayələri ilə üst-üstə düşür. Gözəlin üzündən örtük götürülsə onda olan gözəlliyin Allahın nurundan ibarət olduğu bəlli olar.

Aşıq Ələsgərin nəvəsi İ.Ələsgər aşığın nəslindən olan adamların intuisiyalı, hər şeyi qabaqcadan hiss eləmək qabiliyyətinə malik olduğunu yazır (7, s. 10, 19). Aşıq Ələsgərin ulu babası Talıbxan xalq arasında pir, şeyx kimi tanınmış və onun ocağı müqəddəs hesab olunmuşdur. Xalq arasında onun evinə “Talıbxanın maral gələn ocağı” deyirmişlər (7, s. 11). Maral türk ovçuluğunda totem heyvan sayılır. Xalq inancına görə marallar ancaq seyid, şeyx, pir ocağına gedir, hətta kəsilmək üçün də maral ruzi olaraq öz ayağı ilə şeyxin qapısına gedir. Bu rəvayətə əsaslanaraq Aşıq Ələsgərin babasının sufi şeyxi olduğunu və ondakı övliyalıq əlamətlərinin irsən nəvəsinə keçdiyini söyləyə bilərik. Aşığın nəsil şəcərəsinin Səfəvilərə qədər uzandığı da danışılan rəvayətlər arasındadır (5, s. 3).

Aşığın şeirlərindən məlum olur ki, həyatda bəxti gətirməyib, dul, tənbəl, deyingən arvad almalı olub, o da ürəyincə olmayıb. Bu, taleyin hökmüdür: əsl məhəbbətlə sevən haqq aşıqları sevgisinə qovuşmur, Kərəm, Qəmbər, Qurbani, Məcnun eşq badəsini içib eşqin vüsalını dadmayan aşiqlərdir. Aşıq Ələsgər də butası Səhnəbanıya qovuşmadan eşq oduna yana-yana kül olur, amma onun yanmağını adi adamlar görmür:

Kamil ovçu ölməyincə usanmaz
Əldən qoymaz belə sərxoş maralı
Eşq oduna yanan aşkara yanmaz
Pünhan-pünhan mənim kimi saralı (1, s. 57).

Ələsgər bütün yaradıcılığı ilə özünün haqq aşığı olduğunu sübuta yetirib, özünün dediyi kimi pürkamal, ədəbli, sözünün qədir-qiymətini

bilən, abırlı-həyalı, insaflı, ədalətli, təmiz ürək və əməl sahibi olduğunu, şəriətində imanlı, təriqətində sədaqətli olduğunu göstəribdir:

Ələsgər, haqq sözün isbatın verə,
Əməlin mələklər yazar dəftərə,
Hər yanı istəsə baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi (1, s. 50).

**Nəticə.** Aşıq Ələsgər yaradıcılığı Azərbaycan aşıq ədəbiyyatının parlaq səhifələrindən biridir. Aşığın haqqında qoşulmuş dastan və rəvayətlərdən aydın olur ki, söz qoşmaqda, cinas yaratmaqda, dərin fəlsəfi məzmunlu şeirlər söyləməkdə ona çatan olmazmış, onunla söz güləşdirməyə heç kimin gücü yetməzmiş. Xalqın xeyirini, şərini yola salan el aşığı, el ağsaqqalı olduğuna görə, ağzından çıxan hər kəlməsi tutarlı olduğuna görə ona Dədə Ələsgər demişlər. Aşıq butasına qovuşmamış və bu həsrəti həmişə ürəyində gəzdirmişdir. Aşıq Ələsgərin getdiyi məclislərdə onun haqq aşığı olduğunu sübut edən əhvalatlar çox olmuşdur. Onlardan biri də Naxçıvanda olan əhvalatdır ki, burada orijinal variantı verilmişdir.

Aşıq Ələsgər sələfləri Aşıq Alının, Yunus Əmrənin, Xətayinin, Quşçuoğlunun davamçısıdır. Onun həm təriqət, həm də yaradıcılıq baxımından Xətayiyə daha çox yaxın olduğu hiss olunur. Aşıq Ələsgər Səfəvi təriqətinə mənsub olmuş və şeirlərində şiə sufiliyini təbliğ etmişdir. Qoşma, gəraylı, müxəmməs, təcnislərində sufi terminlərindən sıx-sıx istifadə etmişdir. Gözəllərə həsr etdiyi şeirlərində ilahi nurun gözəlin üzündə təcəlli etməsini sadə aşıq şeiri üslubunda diqqətə çatdırmışdır. Aşıq Ələsgərin dədə-babası xalq arasında hörmət qazanmış, seçilmiş adamlar olmuşlar. Aşıq Ələsgərin ulu babası Talıbxanın övliyalıq əlamətlərinin nəvəsinə, nəvəsi Ələsgərdən də sonrakı nəslə keçməsi danışılan rəvayətlər arasındadır.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. Bütün əsərləri. Bakı, Ol MMC, 2014, 504 s.
2. Aşıq Alı. Əsərləri. Bakı, Avrasiya press, 2006, 192 s.
3. Aşıq Ələsgər. Əsərləri. Bakı, Lider, 2004, 400 s.
4. Bəydili Cəlal. Türk mifoloji sözlüyü. Bakı, Elm, 2003, 418 s.
5. Ələsgər ocağı. Şeirlər. Bakı, Yazıçı, 1991, 304 s.
6. Göyçə dastanları və aşıq rəvayətləri. Bakı, Səda, 2001, 700 s.
7. İslam Ələsgər. Ələsgər ocağı ilə bağlı yaradılmış dastan-rəvayətlər haqqında. Bakı, Nurlan, 2007, 188 s.
8. http://goyce.az/news.php?id=258.

# “KOROĞLU-GOROĞLU” DASTANINDA SAZLA SÖZÜN VƏHDƏTİ. AŞIQ CÜNUN

# THE UNITY OF THE WORD WITH THE “SAZ” IN THE EPIC “KOROGLU-GOROGLU”. ASHUG JUNUN

# ЕДИНСТВО САЗА И СЛОВА В ЭПОСЕ “КОРОГЛУ-ГОРОГЛУ”. АШУГ ДЖУНУН

**Aynur Aydın qızı İBRAHİMOVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*ibrahimova_a@mail.ru*

**Summary**

The series epics “Koroglu-Goroglu” are typical literary events for the general Turkic folklore. In Turkish, Kazakh, Turkmen, Uzbek, Altai variants and versions of the epos Koroglu is not only the son of the blind man, but he is also the son of the land, mountain, light, wood, fire. The epos “Koroglu-Goroglu” is a love epic as well as a heroic epic and the artistic aesthetic attraction of Koroglu’s sword “Misri” in this epic is not less than the artistic-aesthetic gravity of his instrument “saz”. The sword “Misri” and the instrument “saz” are always together with Koroglu. Of course, Koroglu is a hero, a knight, a lover and an ashug. Ashug and “saz” have become the leading unit and symbol in the structure of epos poetry. From “The Book of Dede Gorgud” till Koroglu on the road one can see the transformation of the Turkic-Oghuz bard to the ashug Koroglu – Ashug Junun. Ashug Junun is one of the coloring characters in the epos. The arrival of Ashug Junun to Chanlibel has a new form and content. The status division between Koroglu and Ashug Junun is very interesting. In the moments when Koroglu has a sword in his hand, Ashug Junun has saz in his hands. When Koroglu draws the sword, Ashug Junun gives power to the word and tells quatrains. Even in some parts of the epos Ashug Junun is shown in the same level with Koroglu. In the essence and content of the image of Ashug Junun in the epos “Koroglu” the issues such as the supremacy of ashug art, attitude to the word, etc. are studied. Ashug Junun is a carrier of extremely necessary functions in the epos “Koroglu”. In the epos the presence of a brave ashug near Koroglu’s brave men is one more proof of Koroglu’s desire about formation of a perfect and cultural society.

**Key words:** Koroglu, Ashug Junun, saz, word, epos

**Резюме**

Цикл эпоса «Короглу-Гороглу» - типичное литературное явление для общетюркского фольклора. В турецкой, казахской, туркменской, узбекской, алтайской версиях и вариантах эпоса Короглу - не только сын

слепца, но также сын земли, горы, света, дерева и огня. «Короглу-Гороглу» - это эпос как героический, также и любовный, и в этом эпосе художественно-эстетическое притяжение меча Мисри Короглу не уступает художественно-эстетическому притяжению его саза. Меч Мисри и саз сопровождают Короглу повсеместно. Короглу, конечно же, герой, рыцарь, любовник и ашуг. Ашуг и саз стали ведущей единицей и символом в поэтической структуре эпоса. Можно наблюдать трансформацию тюрко-огузского озана в ашуга Короглу – Ашуга Джунуна в долгом пути от «Книги моего Деда Коркута» до «Короглы». Ашуг Джунун является одним из ярких и колоритных образов эпоса. Прибытие Ашуг Джунуна в Чанлибель обладает новой формой и содержанием. Интересен раздел статуса между Короглу и Ашуг Джунуном. Если Короглу держит в руке меч, то в руках ашуг Джунуна появляется саз. Когда Кероглу обнажает меч Мисри, Ашуг Джунун усиливает свое слово и поет баяты. Даже в некоторых частях эпоса Ашуг Джунун возвышается на тот же уровень, что и Короглу. Где бы ни был Ашиг Джунун, он владелец саза и слова. В эпосе «Короглу» в сущности, и содержании образа Ашуг Джунуна стоят такие понятия как, возвышенность ашугского искусства, трепетное отношение к слову и сазу, понимания халяль и харам. В эпосе «Короглы» Ашуг Джунун носитель и исполнитель исключительно важных функций. То, что в эпосе рядом с храбрецами Короглу есть и безумный ашуг, - еще одно доказательство стремления Короглу построить совершенное цивилизованное и культурное общество.

**Ключевые слова:** Короглу, Ашуг Джунун, саз, слово, эпос

Azərbaycan mədəniyyəti və incəsənəti tarixində xüsusi yer tutan aşıq sənəti qədim keçmişə və zəngin ənənələrə malikdir. Aşıq sənəti öz kökləri və tarixi qaynaqları ilə çox qədimlərə bağlanır. Bu sənət hadisəsi ibtidai düşüncədən günümüzə qədərki etnomədəni yaddaşı ifadə edən bədii təfəkkür hadisəsidir. Aşıq sənətini sazsız, sözsüz və aşıqsız təsəvvür edə bilmərik. Saz ən qədim çalğı alətimizdir. Başqa çalğı alətləri əsasən oturaqlığı sevirsə, saz at beli alətidir. Qılınc bir yandan asılır, saz bir yandan. Koroğlu babamızı yadımıza salsaq görürürük ki, Misri qılıncla, telli sazla – sözlə qoşa gedib döyüşə. Aşıq sözü bir titul kimi XI-XII əsrlərdən bizə məlumdur. Qara Namazova görə bir istilah kimi "aşıq" sözünün mənasına gəldikdə indiyə qədər deyilən fikir və mülahizələri üç qismə bölmək olar:

1. Aşıq – ərəb dilindəki "aşiq" sözündən olub vurulmaq, məhəbbət bağlamaq, bənd olmaq deməkdir. Ü.Hacıbəyov aşıq sənətinə dair məqalələrində bu fikri dəfələrlə xatırladıb. Aşıq Tələt və H.K.Qədri də əsasən bu fikirdədirlər.

2. “Aşıq” sözü türkdilli xalqların “işıq” sözündəndir. V.Çələbi “eşq” və “aşiq” sözlərinin türkcə “işıq” sözündən əmələ gəldiyini xatırlatmaqla bərabər, aşığın “ürəyi eşq ilə yanan, qəlbi məhəbbətlə nurlanan kimsə” adlandırıb. F.Köprülü də “aşıq” sözünün türk dillərində işlənən “işıq” sözündən olduğunu söyləyir və belə hesab edir ki, işıq, nur, haqq, “haqq aşığı” orta əsr təriqətlərinin (qələndəri, bəhayi, bəktaşi, hürufi və b.) rəmzi mənası, əqidəsidir.

F.Köprülü ilə eyni mövqedə dayanan V.Qordlevski yazır: “Qələndəri XVI əsrdə çox geniş yayılmış istilah olan “işıq” adlandırırlar. Burada bəlkə də türkcə “od” demək olan “işıq” sözü ilə ərəbcə “Allaha məhəbbətlə yanan” demək olan “aşiq” sözünün kontaminasiyası baş verib.

3. “Aşıq” sözü “aşılamaq” sözündən əmələ gəlib. M.H.Təhmasib “aşıq” sözünün çoxçalarlığından bəhs etməklə yanaşı, “aşıq” sözünün aşılamaq sözündən əmələ gəlməsinə daha çox diqqət yetirir və yazır ki, “Aşiq”in kökü ərəbcənin “eşq”, “aşığ”ın kökü isə, bizcə, türkcədə indi artıq tamamilə arxaikləşmiş olan qədim “aş”dır. Bu sözün öz fikrini, məqsədini, istəyini başqalarına təlqin etmək mənasında işlədilən “aşılamaq” forması bu saat da dilimizdə işlənməkdədir.

M.H.Təhmasibin dediklərində uyğunluq var. “Aşula” aşıq havasının olması da bunu təsdiq edir. Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, aşiq – aşıq – aşılamaq sözləri şəkilcə bir-birilərinə bənzədikləri kimi, daxili məzmun və mahiyyət etibarilə də yaxındırlar. Deməli, aşıq istər-istəməz işıqdan, nurdan, günəşdən nəşət tapır, qopuzu müqəddəs, diləyi hasil olan Dədə Qorquda sığınır, özünü onda tapır. Bununla da Dədə Qorqud aşığın özülü və nüvəsi olaraq qalır.

Aşıq sənətində yazıya almaya qədərki bütün dövrlərdə musiqini, şeiri, epik dastan yaradıcılığını, müxtəlif formalı xalq ədəbiyyatı nümunələrini yaddaşa həkk edib nəsil-nəsil yaşatmaq qanuna çevrildi. Bu, sənətin tələbindən doğan qanun idi. Çünki aşıq məclis aparanda xalq qarşısında saatlarla, bəzən bir neçə gün dalbadal çalıb oxumalı idi. Buna görə də istər-istəməz ifaçı aşıq ustadların yaratdığı yaxşı nə varsa əzbərdən bilməlidir. Aşığa bəzən məclislərdə bu və ya başqa şeiri, dastanı ifa etməyi sifariş verirlər. Aşıq bu sifarişi yerinə yetirə bilməsə, bir daha məclis keçirə bilməz. Mükəmməl qabiliyyətə, gözəl səsə və mahir ifaçılıq məharətinə malik olan sinədəftər ifaçı aşıqlara da ustad aşıq deyirlər. Hətta xalq onları canlı kitab adlandırır. Bu «canlı kitablar» yüzlərlə zəngin mündəricəli aşıq havalarını, çox mürəkkəb şəkilli aşıq şeirini, geniş məzmunlu dastanları, möhtəşəm “Koroğlu” eposunu bu günümüzə qədər yaşadıb gətiriblər.

Azərbaycan xalq epik yaradıcılığının ən möhtəşəm örnəklərindən biri olan "Koroğlu" eposu öz poetik kamilliyi, informativ məlumat tutumunun zənginliyi, yayılma arealının heç bir eposla müqayisə oluna bilməyəcək qədər genişliyi, hətta bir-birindən mənşəcə fərqli xalqlar arasında hədsiz populyarlığı ilə əksər epik abidələrdən fərqlənir. Qəhrəmanlıq eposu olaraq "Koroğlu" Azərbaycan xalqının qəhrəmanlıq və azadlıq haqqında düşüncələrini, arzu və istəklərini, ümid və xəyallarını təcəssüm etdirir. Koroğlu bir çox türk xalqlarında, o cümlədən Azərbaycan xalqı üçün qəhrəmanlıq simvoludur. Qeyd etmək lazımdır ki, "Koroğlu" eposunun formalaşmasında və yaşadılmasında Azərbaycan xalq nəğməkarları olan aşıqların mühüm rolu olmuşdur. "Koroğlu" dastanı Azərbaycan aşıqlarının repertuarında uzun müddət əsas yerlərdən birini tutmuşdur.

Dastan millətimizin ruh – mənəviyyat daşıyıcısıdır. Bir ergenekon yaddaşıdır, qaranlıqdan işığa, dardan genişliyə qurtuluşa çıxışıdır.

Koroğlu dastanı xalqın mifoloji inamından ruh dünyasından doğub. Mifoloji inamdan doğan Qırat, Dürat üst insan dəyərləri olan Koroğlu, 7777 dəli, Çənlibelin xanımları, tanrısal varlıqlardır, ölümsüz insanlardır. Koroğlu Ulu köçə, oğuz ellərinə qoşulub Gündoğandan Günbatana iqlimlər adlayıb, yollar yorub, yurd salıb, yuva qurub, qılınc çalıb, at oynadıb, haqqın yanında olub. Koroğlu Türk toplumlarının ellərinin yaşadığı yerlərə yön çevirib harda adı bəlli gözəl, seçmə - saytal igid varsa, seçib soraqlayıb Çənlibelə gətirib. O Çənlibelə ki, türk oğuz ruhunun başkəndidir. O Çənlibelə ki, Tanrıya bir boy yaxındır. Hər dövrün bir aşığı var, Aşıq Cünun da Koroğlu dövrünün aşığıdır. Aşıq Cününun Çənlibelə gəlişi tam fərqli bir gəlişdir. Dastan qollarında dəlilərin Koroğlu ətrafına toplaşmaq mexanizmindən fərqli olaraq Aşıq Cününun Çənlibelə gəlişi tamamilə yeni forma və məzmuna malikdir. İlk növbədə Alı kişinin vəsiyyətində Aşıq Cününu Çənlibelə gətirmək tapşırığı durursa, bir də Cününun özünün "aşıq gördüyünü çağırmaq" istəyi durur.

"Aşıq Cünun çoxdan idi ki, Çənlibelə gedib, Koroğlunu görmək istəyirdi. Amma Cəfər paşadan qorxurdu" (2, s. 54). Yaxud Aşıq Cünun öz-özünə deyirdi: "Ey dili-qafil, bu necə ola bilər ki, mən Aşıq Cünun olam, ayağım dəyməmiş yer, gözüm görməmiş adam olmaya, amma Çənlibelə gedib Koroğlunu görmüyəm" (2, s. 55).

Beləliklə, həm söyləyicinin diktəsində, həm də Aşıq Cününun Çənlibelə gəlmək istəyində axtarış və bir dəqiqləşdirmə var.

Dastan yaradıcılığının ilkin çağlarında hünər və igidlik meydanı ilə saz və söz meydanı bir olmuşdur. Bu proses eposda özünü yetərincə göstərir. Saz və sözün gücü, misri qılıncdan öndə gəlir. Dastanın Aşıq Cünün qolunda; Qan vurdu Koroğlunun beyninə, əvvəl Misri qılınca əl atmaq istədi. Sonra lənət şeytana deyib üç telli sazı döşünə basıb görək nə dedi.

Gəl sənə söyləyim bəzirganbaşı,
Gəlmişəm mən səndən bac alam, gedəm!
Dağıdam qəfləni, tökəm malını,
Gəlmişəm mən səndən öc alam, gedəm!

Bəzirganbaşının yola gəlmədiyini görən Koroğlu sazla dediyi kimi sözlə də dedi:

Bəzirganbaşı! Mən səninlə dava eləmək istəmirdim. İndi ki, bac vermədin, öz xoşunla dava-dalaşsız karvanı Çənlibelə çək! Yoxsa zorla aparacağam. Karvanbaşının sazla, sözlə qanmadığını görən Koroğlu aşdı, daşdı aslan kimi coşdu, qaplan kimi qeyzə gəldi. Misri qılıncı çəkdi. Və elə bu məqamda Koroğlu Tayların içində bir böyük dəmir sandıq. Sandığın da içində saçı çiynində bir adam görür. Karvanbaşına; Mal dövlətin nəin var yığışdır, Yolun açıqdı. Mənim axtardığım Aşıq Cünunuydu. Deyir. Karvan yola düşür və Aşıq Cünun o gündən bu günə qalır Çənlibeldə. Ağır yığnaqlar yola verir, çalır, oxuyur. Sazını, köşkülünü asır çiyninə Sufi dərvişlər təkin düşür yolların ağına. Obalar oymaqlar gəzir, məmləkətlər dolaşır. Harda bəlli gözəl. Harda igid görür özü gətirir Çənlibelə, ya da Koroğluya nişan verir. O gündən Aşıq Cünun Koroğlunun aşığı olur. Harda dövran keçirir, orada Koroğludan oxuyur. Və necə deyirlər aşıq gördüyünü çağırır.

Mərd meydanda qaçmayıbdır yaşında,
Dəlilərin cəm görmüşəm başında,
Düşməni sındırır tər savaşında,
Cünun deyər şirə bənzər Koroğlu (2, s. 59).

Aşıq Cünunun Çənlibeldən qayıtdıqdan sonra Cəfər paşanın bacısı Telli xanıma orada gördüklərini geninə-boluna danışması bir yana, o, Cəfər paşanın özünə də Koroğlunu ağızdolusu – o ki var tərifləyir. Cəfər paşanın hüzurunda Koroğlunun tərifini göylərə qaldırmaq da hər aşığın işi deyildi. Bu, ancaq Koroğlu aşığının, dəli aşığın işiydi. Bunun müqabilində isə Aşıq Cünunu qaranlıq bir zindan gözləyirdi. Elə belə də olur: aşığı zindana salırlar. Telli xanımın səyi ilə zindandan azad olan Aşıq Cünun yenidən Çənlibelə qayıdır.

Cünuna qədərki qollarda məclislərin sonunu sözün, sazın gücü ilə məhz Koroğlunun özünün başa çatdırdığını görürük, "Eyvazın Çənlibelə gətirilməsi" qolunda isə artıq Aşıq Cünun Çənlibeldədir Aşıq Cünun sazını kökləyib ortaya çıxdı. Çaldılar, oxudular, dedilər, güldülər, Nigar xanım Eyvazın gözlərindən öpdü, köynəyinin yaxasından keçirib özünə oğul elədi (2, s.114). Tam aydındır ki, "Koroğlunun İstanbul səfəri" qolunun finalı Koroğlunun məclis aparmağı ilə tamamlanırsa, "Eyvazın Çənlibelə gətirilməsi" qolunda həmin funksiyanı Koroğlu dura-dura məhz Aşıq Cünun yerinə yetirir. Burada biz epik ənənəni müşahidə edirik. "Dədə Qorqud" eposunda hər boyun axırında Dədə Qorqud gələrək söz söyləyib, boy boylayır". Başqa sözlə, Çənlibelə gələn Aşıq Cünun qeyd-şərtsiz baş qəhrəman Koroğlunun, hətta epik ənənəyə nəzər salmış olsaq, müəyyən mənada Dədə Qorqudun da statusunu mənimsəmiş olur. Aşıq Cünun Çənlibeldə Koroğlunun sazına və sözünə dayaqdır. Aşıq Cünun ayağı sayalı aşıqdır. Aşıq Cünun haqqı nahaqa, halalı harama qatmayan aşıqdır.

Epos poetikasının elə mühüm elementləri də vardır ki, əsas qəhrəmanla deyil, digər obrazlar və digər struktur vahidləri ilə təmsil olunur. Belə obraz çeşidini aşıq, bakşı və ozan surətlərində, saz, qopuz, dombra simvollarından kifayət qədər aydın görmək və təsəvvür etmək mümkündür. Bu məsələ yalnız ona görə deyildir ki, dastanlar aşıqlar tərəfindən söylənilir, yeni əsrlərə və yeni nəsillərə ötürülür, məhz ona görədir ki, dastanın ritmi birbaşa aşıqdan və sazdan asılı olur. Beləliklə, aşıq və saz epos poetikasının özündə – strukturda aparıcı vahidə və simvola çevrilir.

"Koroğlu" eposundakı Aşıq Cünun da məhz belə obrazlardandır. "Koroğlu" dastanı türk-oğuz eposunun fasiləsiz davamı prosesində bir halqa olmaqla, əski modelləri birbaşa və ya dolayısı ilə təkrarlayır. Qeyd edək ki, eposun Azərbaycan variantlarında həm Koroğlunun doğuluşu, həm də sonu (ölümü) ilə bağlı süjetlər intişar tapmayıb. Xüsusən Koroğlunun törəyişindən bəhs edən qollara nadir hallarda təsadüf edilir. "Koroğlu"nun hər bir qolu ayrı-ayrılıqda müstəqil, bitkin hekayət olsa da, bütövlükdə vahid bir süjet ətrafında birləşir. Aparıcı qəhrəman qütbünü təşkil edən obrazlar (Koroğlu, Dəli Həsən, Eyvaz, Dəmirçioğlu və b.) əksər qollarda iştirak edir və bütün əsər boyu fəaliyyət göstərirlər. İkinci qisim obrazlar (Həsən paşa, Cəfər paşa, Aslan paşa, Bolu bəy, Camal paşa, Qəcəralı, Muştuluq, Mehtər Murtuz, Keçəl Həmzə, Mahmud paşa, Ərəb Reyhan, Xotkar Murad, Qaraxan, Ərəb paşa və b.) ayrı-ayrı qollarda fəaliyyət göstərirlər. Koroğlu öz Qıratı və Misri qılıncından ayrı təsəvvür olunmur. "Koroğlu" digər Azərbaycan dastanları kimi nəsr və

nəzm hissələrinin bir-birini əvəzləməsi şəklində qurulub. Nəsr hissədə adətən hadisə nəql edilir, qəhrəmanın istək, arzu, çağırışları isə nəzmlə (Azərbaycan xalq şeirinin qoşma və gəraylı janrında olan şeirlərlə) verilir. Ümumiyyətlə, "Koroğlu"dakı lirik-poetik nümunələrin əksəriyyətini təşkil edən qoşma və gəraylılar poetik mükəmməlliyinə görə Azərbaycan xalq poeziyasının ən gözəl örnəklərindən sayıla bilər. Onların yarıdan çoxu qəhrəmanın (əsasən Koroğlunun) ovqatını, istəklərini və müraciətlərini (öyüd, çağırış) ifadə edir. "Koroğlu" eposunun şeirlərində lirizm kifayət qədər güclü olsa da, onların əksəriyyəti tarixi qəhrəmanlıq nəğmələridir. "Koroğlu"dakı lirik-poetik nümunələrin əksəriyyətini təşkil edən qoşma və gəraylılar poetik mükəmməlliyinə görə XVI-XIX əsrlər Azərbaycan xalq şeirinin ən gözəl örnəklərindən sayıla bilər.

## QAYNAQLAR


1. İ.Abbaslı Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri. Bakı: Nurlan, 2007
2. Kamran Əliyev. Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu", Bakı, "Elm və təhsil", 2011
3. Koroğlu / Toplayıb nəşr edəni Vəli Xuluflu. Bakı: Azərnəşr, 1927
4. Koroğlu / Toplayıb nəşr edəni Vəli Xuluflu. Bakı: Azərnəşr, 1929
5. Koroğlu / Tərtib edəni H. Əlizadə. Bakı: Azərnəşr, 1941
6. Koroğlu / Tərtib edəni, müqəddimə və şərhlərin müəllifi M.H.Təhmasib. Bakı: Elm, 1949
7. Koroğlu / Çapa hazırlayanı və ön sözün müəllifi M.H.Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1956
8. Koroğlu. Rza Zaki nəşri / Transliterasiya, tərtib, ön söz, şərh və lüğətin müəllifi E.Tofiqqızı. Bakı: Elm, 2000
9. Koroğlu. Abbas Rəcəbli nəşri / Tərtib, ön söz və şərhlərin müəllifi E.Tofiqqızı. Bakı: Elm, 1999
10. Koroğlu. Əli Kamali arxivindəki variantlar / Çapa hazırlayanı Ə.Şamil. Bakı: Nurlan, 2009
11. Koroğlu / Mətni hazırlayıb tərtib edənlər: İ.Abbaslı, B.Abdulla. Bakı: Lider, 2005
12. F.Bayat. Köroğlu: şamandan aşıka, alptan erene. Ankara, Akçağ, 2003
13. A.Şamil. Azerbaycanda Köroğlu destanının derlenmesi, yayımlanması ve araştırılması tarihinden/ "Köroğlu" kitabı" (Hazırlayan M.Sabri Koz). İstanbul, Kitabevi yayınları, 2014, səh. 333-354
14. И.Аббаслы. Арэал распространения и влияния азербайджанских дастанов. Баку: Седа, 2001
15. М.Велизаде. Предание о разбойнике Короглу // СМОМПК, IX, Тифлис, 1890, с. 121-126

16. А. Гакстгаузен. Татарское предание о слепом Обеиде и его сыне Кероглы // «Закафказский край». Заметки о семейной и общественной жизни и отнешениях народов, обетаюших между Черным и Каспийским морями, 1 ч., СПб., 1857, с. 149-153
17. F.D.Montpereux. Voyage autour du Caucase, chez les Tcherkesses et les Abkhases, en Colechide, en Georgie, en Armenie et en Cremee; 6 volumes, tome III, Paris, 1839, pp. 455-457
http://www.anl.az/down/meqale/xalqcebhesi/2015/may/435753.htm

# AŞIQ YARADICILIĞININ “DƏDƏ ƏLƏSGƏR” ZİRVƏSİ
# “DADA ALASGAR” PEAK OF ASHUG`S CREATIVITY
# ПИК ТВОРЧЕСТВА АШЫГА В ЛИЦЕ «ДАДА АЛЕСКЕРА»

**Aynur SƏFƏRLİ**
*DİN-in Polis Akademiyası, BDU-nun doktorantı*
*seferli_1988@bk.ru*

**Summary**

Every person who has read at least one couplet of Ashig Alasgar's works in his life, whose heart beats with poetry, has not been indifferent to this treasure. Ashig Alasgar's work is a deep, mysterious, magical, enigmatic, miraculous ocean, shaken by beauty, wisdom and perfection of human understanding. As one delves into the depths of this ocean, one becomes helpless in the face of Alasgar's genius. M.H. Tahmasib, H.Arasli, A.Akhundov, Y.Garayev, M.Hakimov, G.Namazov and others were among the leading literary critics of the Dada Alasgar phenomenon, which was created in the first half of the last century and is still developing. tried to find out. He learned from a number of prominent ashugs, had a strong influence on the ashugs who came after him, applied to all areas of ashug art and left a great mark on Azerbaijani literature. created such types of poetry. Ashig Alasgar's poems, which are multifaceted and multifaceted, are divided into three parts according to the principle of scope and content: descriptions of nature, lyrical-romantic depictions and socio-political motives with a social content. The rich poetic heritage of Ashig Alasgar, which has a glorious place in the history of Azerbaijani literature, has become a real school of art for many ashugs in Azerbaijan.

**Key words:** ozan, ashug, ashug creativity, Dada Alasgar, Haqq ashug

**Резюме**

Каждый человек, прочитавший в своей жизни хотя бы один куплет произведений Ашига Алескера не остался равнодушным к этому сокровищу сердце которого будет биться стихами. Творчество Ашига Алескера - это глубокий, таинственный, волшебный, загадочный, чудесный океан, потрясенный красотой, мудростью и совершенством человеческого понимания. Погружаясь в глубины этого океана, человек становится беспомощным перед гением Аласгара. М. Х. Тахмасиб, Х. Араслы, А. Ахундов, Ю. Гараев, М. Хакимов, Г. Намазов и другие. Среди ведущих литературных критиков феномена Ашыга Алескера, который был создан в первой половине прошлого века и до сих пор существует, развивается, он учился у ряда выдающихся ашугов, которые оказали сильное влияние на ашугов, пришедших после него, применил ко всем областям ашугского искусства и оставил большой след в азербайджанской литературе. Стихи Ашыга Але-

скера многогранны, по принципу объема и содержания разделены на три части: описания природы, лирико-романтические изображения и социально-политические мотивы социального содержания. Богатое поэтическое наследие Ашыга Алескера, занимающего славное место в истории азербайджанской литературы, стало настоящей художественной школой для многих ашугов Азербайджана.

**Ключевые слова:** озан, ашыг, творчество ашыга, Дада Алескер, Хакк ашыг

Əsrlərin və minilliklərin qovşağında öz milli müstəqilliyinə qovuşmuş Azərbaycan xalqı sabahını qorumaq üçün milli, mənəvi, mədəni, ictimai, siyasi dəyərlərinə yenidən nəzər salmaq, onları saf-çürük edib gələcəyə həmişəyaşar dəyərlərlə yollanmaq zərurəti ilə üzbəüz qalmışdır. Gələcəyə gedən yol millətdən öz mənəvi-mədəni potensialını aktivləşdirməyi tələb edir. Aşıq Ələsgər yaradıcılığına marağın güclənməsi, televiziya ekranlarında onun şəxsiyyəti və yaradıcılığı ilə bağlı müzakirələrin açılması təsadüfü tamamilə təbii və çox əhəmiyyətlidir. Həyatında Aşıq Ələsgər yaradıcılığının heç olmasa bir qoşmasını oxumuş, ürəyi poeziya ilə döyünən hər bir insan bu xəzinəyə biganə qalmayaraq onun dərinliklərinə can atıb. Çünki Aşıq Ələsgər yaradıcılığı gözəlliklə, müdrikliklə, bəşər idrakının kamilliyi ilə çalxalanan dərin, sirli, sehrli, müəmmalı, möcüzəli bir ümmandır! Bu ümmanın dərinliklərinə baş vurduqca hətta poeziyanı az-çox bilən, onu sevən insan Ələsgər dühasının düşüncə, fikir tərzinin poetik-fəlsəfi ifadəsini bütövlüklə başa düşmək qarşısında aciz qalır. Keçən əsrin birinci yarısında yaranıb bu günə qədər inkişaf edən, Dədə Ələsgər fenomeninin, sirlərlə dolu yaradıcılığının sehrini açmağa, təhlil və tədqiq etməyə yönələn ələsgərşünaslıq, korifey ədəbiyyatşünaslarımız M.H.Təhmasib, H.Araslı, Ə.Axundov, Y.Qarayev, M.Həkimov, Q.Namazov və bir çox başqalarının ciddi tədqiqatlarına baxmayaraq hələ də bu əzəmətli xəzinənin müəmmalarını, sirlərini bütövlüklə tam aşkar edə bilməmişdir.

Aşıq yaradıcılığı Azərbaycan folklorunun mühüm qollarından birini təşkil edir. Bu ədəbiyyatın janr və mövzu baxımından zəngin nümunələrinin yaradıcıları sırasında Aşıq Ələsgərin adı xüsusilə qeyd edilir. Çünki çoxəsrlik aşıq sənətinin ən yüksək zirvəyə qalxmasında ustad aşığın misilsiz xidmətləri olmuşdur. Aşıq Ələsgərin belə xidmətlərindən biri də onun çox sayda yetirmələrinin olması və gələcəyin məşhur aşıqlarının da məhz onun tələbələri arasından çıxmasıdır. Həmin aşıqlar üçün Aşıq Ələsgərin zəngin poetik irsi əsl sənətkarlıq məktəbi olmuşdur.

İslam dinini qəbul edənədək bizdə aşıqlara ozan deyirmişlər, İslam dinini qəbul etdikdən sonra bu ad aşıq adı ilə əvəzlənmişdir. Bunun da dərin və köklü səbəbləri var. Ozan sözü sazın, yəni alətin səslənməsinin adı ilə bağlıdır. Əlbəttə, qədimdə saz aləti bu qədər mükəmməl quruluşa malik olmamış və səslənən zaman "zan-zan-zan" kimi səslənmişdi. Bildiyimiz kimi, "o" hərfi "zan" səsinin əvvəlinə artırılaraq şəxsiyyəti ifadə etmiş və "**o ifaçı**" yəni **"Ozan"** adlanıb. İslamdan sonra isə sənətin sahibləri müəyyən dini qadağalara rəğmən "Qurani-Kərim"in hikmətlərini təbliğ etməklə aşiqlik etmişlər.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan aşıq ədəbiyyatında Aşıq Ələsgərin söz xəzinəsi ilə sazın, sözün yeni ömrü başladı. "Haqq aşığı" ifadəsi Dədə Ələsgərin simasında yenidən dirilib gerçəkləşdi.

1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olmuş Aşıq Ələsgərin dülgərliklə məşğul olan, kəndin hörmətli şəxslərindən sayılan atası Alməmməd kişi eyni zamanda, bədahətən söz demək, şeir qoşmaq istedadına da malik idi. Ara-sıra qoşma, bayatı, gəraylı söyləyən Alməmməd kişi 6 övladını (dörd oğlan, iki qız) saxlamaq üçün Kəlbəcərin Cavanşir mahalının meşələrindən gətirdiyi ağacdan təsərrüfat alətləri düzəldib kəndlərində satar, 8 nəfərlik külfətini dolandırardı. O, oğlanları böyüyəndən sonra mal-heyvanı artırıb, bir dəyirman tikib, ailənin güzəranını xeyli yaxşılaşdırıb. Dədə Ələsgərin ata ocağında Ələsgər (Əliəsğər aşığın uşaqlıq adı olub, mənası İmam Əlinin kiçiyi deməkdir), Salah, Xəlil, Məhəmməd qardaşları və iki bacısı Fatimə, Qızxanım olmuşlar (1). Atası Alməmməd kişi özü dəyirmanda durar, Ələsgər aşıqlıq edər, Salahla Xəlil əkin-biçinlə məşğul olardılar. Qoyunları otarmaq isə Məhəmmədin öhdəsinə düşmüşdü. Qardaşlar ayrılıb ev-eşik sahibi olandan sonra Məhəmməd uzun müddət çobanlıq edib. Bu səbəbdən ona "Çoban Məhəmməd" də demişlər. Şair Məhəmmədin günümüzə "Şair Məhəmmədin Qars səfəri" (bunu bəzi aşıqlar "Şair Məhəmmədlə Sərvxuraman xanım" da adlandırırdılar), "Şair Məhəmmədin Yalanbol səfəri" və "Şair Məhəmmədin çuxa əhvalatı" adlı üç dastanı var. Sonrakı iki dastan Məhəmmədin qaçqın olduğu zaman və Şura hökumətinin ilk illərində keçirdiyi ağır güzəran, maddi və mənəvi sıxıntılarla əlaqədar yaradılıb. Ancaq aşıqlarımızın repertuarında daha çox yer tutan "Şair Məhəmmədin Qars səfəri" dastanının əsasında heç bir real həyat hadisəsi durmur. Bu dastan bütövlükdə şair xəyalının məhsuludur (2, s.14).

Ələsgər bir müddət Kərbəlayı Qurbanın həyətində nökərçilik etsə də, Kərbəlayi ilə onun münasibəti zaman-zaman ata-oğul münasibətinə çevrilmişdi. Kərbəlayinin evində ibadət əhli kimi formalaşmış, müəyyən dini təlim və şifahi savad almışdır. Ələsgər Kərbəlayı Qurbanın qızı Səhnəbanuya aşiq olsa da, bu sevda baş tutmur (qızın pullu əmisi onu oğluna alıb, Ələsgəri oradan qovdurur). İllər keçir, Ələsgər nakam məhəbbətin ağrı-acısını yaşayır, uzun illər ilk məhəbbətini unuda bilmir, çətinliklərdən, sınaqlardan keçə-keçə sazla-sözün qovuşduğu dəryaya can atır. İlk məhəbbəti daşa dəyəndən sonra uzun müddət Səhnəbanını unuda bilməyən Ələsgər 40 yaşına qədər subay qalmış, sonra Kəlbəcərin Yanşaq kəndindən Nağı kişinin qızı Anaxanım adlı bir qızla evlənmiş, 9 övladı – Bəşir, Əbdüləzim, Talıb adlı 3 oğlu, Nigar, Xeyransa, Gülnisə, Bəsti, Əsli, Zümrüd adlı 6 qızı olmuşdur (1).

Bir sıra görkəmli aşıqlardan dərs almış, özündən sonra gələn aşıqlara qüvvətli təsir göstərmiş, aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmiş və Azərbaycan ədəbiyyatında böyük iz buraxmış Aşıq Ələsgər yaradıcılığında dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divani və s. bu kimi şeir növləri özünü ən gözəl şəkildə büruzə vermişdir. Görkəmli Azərbaycan şairi Səməd Vurğun öz çıxışlarının birində bele demişdir: *"Hansı mövzuya əl atıram, hansı daşı qaldırıram altında Dədə Ələsgərdən bir nişanə görürəm"* (4, s. 4).

Aşıq Ələsgərdə elə keyfiyyətlər olub ki, bunu ancaq övliyalarda görmək mümkün idi. Onun alqışı da, qarğışı da təsirsiz ötüşməzmiş. Hansısa işdən narazı qalsaydı, o iş baş tutmazmış. Həmsöhbət olduğu adamların fikrini "oxuyar", baş verəcək hadisələri əvvəlcədən xəbər verdiyi üçün, yuxuda Ələsgərə badə verilməsi haqqında da söhbətlər eşidilirdi. Öləcəyi günü belə bir gün öncədən öz yaxınlarına xəbər verən Dədə Ələsgər yaradıcılığında nəsihətamiz şeirlərə geniş yer vermiş, xalq tərəfindən sevib sevilmiş və el ağsaqqalına çevrilmişdir.

Dövrünün qüdrətli sənətkarı Aşıq Alı onun gələcək taleyini büsbütün dəyişmişdir. Oğlunun istedadını görən atası onu aşıq sənətinin sirlərini öyrənmək üçün Aşıq Alının yanında şəyirdliyə qoymuşdur. Aşıq Alıdan aldığı ustad dərsləri Ələsgərin sənətkar kimi püxtələşməsində böyük rol oynamışdır. Çox keçməmiş Aşıq Ələsgərin apardığı məclislərin sorağı hər tərəfə yayılmış, o, Göyçə ilə yanaşı, İrəvan, Naxçıvan, Qazax, Qarabağ, Gəncə, Kəlbəcər və digər yerlərə toy, şadlıq məclislərinə dəvət edilmişdir. Aşıq sazı, sözü, ədəb-ərkanı ilə el-oba içində ustad sənətkar kimi böyük şöhrət qazanmışdır (9).

Ələsgər Alının şəyirdi olmuşdur. Bir müddət ustad yanında şəyirdlik edən Ələsgər aşıqlıq sənətinin sirləri ilə bərabər, ədəb və mərifət qaydalarını da öyrənmişdir. Aşıq Alı onu tamam hazırlayandan sonra bir toy məclisində Ələsgərlə deyişmiş və şəyirdinin şöhrətini qaldırmaq, onu el içində ucaltmaq məqsədilə özünü qəsdən məğlub edərək sazını qalib tərəfə – Ələsgərə təslim etmək istəmişdir. Ələsgər isə böyük təvazökarlıq hissi ilə ustadının qarşısında baş əyib, ona öz ehtiramını belə ifadə etmişdir:

*Bir şəyird ki, ustadına kəm baxa,*
*Onun gözlərinə qan damar, damar* (7).

Əvvəlcə Göyçədə aşıqlıq etmiş Ələsgər, ağır toy məclisləri aparmış, şəyirdlik dövrünü başa vurduqdan sonra, İrəvana, Naxçıvana, Qazaxa, Qarabağa, Cavanşir ellərinə, Gəncəyə, Kəlbəcərə çağırılmış, hər yerdə özünün yüksək mərifəti, ədəbi, gözəl səsi, bənzərsiz ifası ilə məclisdəkiləri heyran qoymuşdur.

Aşıq Ələsgərin səsi, nəfəsi, mənəvi-əxlaqi zənginliyi kimi sanki zahiri görkəmi də aşıqlıq sənəti üçün biçilmişdi. Müasirlərinin dediyinə görə o, ucaboy, enlikürək, bədəncə sağlam, qüvvətli imiş. Qara gözləri, qalın çatma qaşları, dolu sifəti, iri burnu varmış. Əyninə uzun ətəkli arxalıq, üstündən çuxa, ayağına məst geyər, başına buxara papaq qoyarmış. Başını təmiz qırxdırıb saqqal saxlarmış. Sazı sol əli ilə çalar, sağ əlini pərdələr üzərində gəzdirər, zil nazik səsi ilə çox şirin və məlahətli oxuyarmış. Bu keyfiyyətlər onu Azərbaycanın hər yerində şöhrətləndirmiş, ustad bir sənətkar kimi məşhurlaşmışdır. Tezliklə aşığın ətrafına çoxlu şəyirdlər toplaşmış, Ələsgər onlara aşıqlıq sənətinin sirlərini başa salmış, saz tutub söz deməyi öyrətmişdir. Bu aşıqların çoxu sonralar görkəmli sənətkar kimi tanınıb məşhurlaşmışlar. Ustad özü şeirlərinin birində çoxlu şəyirdlər yetişdirməsini xatırlayaraq iftixarla deyirdi: *Adım Ələsgərdi, mərdi-mərdana, On iki şəyirdim işlər hər yana* (4).

1918-1919-cu illərdə daşnakların türklərə törətdiyi qırğın nəticəsində Göyçə mahalının var-yoxu talanmış, əhali öz dədə-baba yurdunu tərk edib başqa yerlərə köçməyə məcbur olmuşdur. İki ilə qədər Yanşaqda yaşayan aşıq-şair sonra Tərtərə köçmüş, bir neçə ay da orada qalmışdır. Bu yerlərin hər birində aşığı hörmətlə qarşılasalar da, onun qəlbi qubarlanır, gözünü açıb gördüyü doğma yerlər – Sarınər, Murov, Muşoy dağları, Xaçbulaq yaylaqları üçün darıxarmış.

Nəhayət, 1921-ci ildə o, Ağkilsəyə qayıtmış, ömrünün son illərini doğma kəndində yaşamışdır. Ancaq onun çal-çağırlı günləri qurtarmışdı. Yaradıcılığının bənzərsizliyi ilə söz dünyamızı bəzəmiş, xalqın ru-

huna, yaddaşına köçmüş aşıq ömrünü toylarda, şadlıqlarda keçirdiyindən, evdə oturanda darıxır, qocalıqdan, xəstəlikdən şikayətlənirdi.

Deyilənlərə görə, Aşıq Ələsgər yüz ildən çox ömür sürsə də, qəddi əyilməmiş, eşitməsində heç bir problem olmamış, gözləri zəifləməmiş, saçları da tamamilə ağarmamış qalmışdır. Aşıq Ələsgər 1926-cı il mart ayının 7-də 105 yaşında doğulduğu kənddə vəfat etmiş, Ağkilsə qəbiristanlığında dəfn olmuşdur. Dünyasını dəyişsə də, haqqında dastanlar, rəvayətlər, xatirələr bitib-tükənməmiş, zəngin yaradıcılığı ona ölümsüzlük qazandırmışdır.

Aşıq Ələsgərin zəngin bədii irsi toy və şənlik məclislərində, çeşmə başında, yaylaqlarda bədahətən dediyi gəraylı, qoşma, təcnis, deyişmə, ustadnamə, müxəmməs və digər janrlarda olan əsərlərdən ibarətdir. Şeirlərində başlıca yeri məhəbbətin tərənnümü, gözəllərin tərifi, təbiətin təsviri, əxlaqi-tərbiyəvi fikirlərin təbliği, ictimai eyiblərin tənqidi tutur. Aşiqin sevgi yolunda qarşılaşdığı çətinliklər, əzab və iztirabların təsviri məhəbbət mövzusunda yaratdığı qoşmalarının əsas motivini təşkil edir. Onun el gözəllərinin tərifinə həsr olunmuş şeirlərində nikbin, şən, şux ruh hakimdir. Gözəlləmə adlanan bu şeirlərdə el qızının zahiri gözəlliyinin təsviri ilə yanaşı, saf, incə təbiəti, vəfalı, düz ilqarlı olması da öz əksini tapmışdır. "Güləndam", "Bəyistan", "Düşdü" və s. şeirlərində Azərbaycan gözəlinin mənəvi-əxlaqi keyfiyyətləri tərənnüm edilir, bədii portreti çəkilir.

Təbiətə həsr olunmuş şeirlərində aşığın vətənpərvərliyi, xalqına bağlılığı qabarıq ifadə olunub. Aşığın "Yaylaq", "Gördüm", "Dağlar" rədifli qoşmaları ədəbiyyatımızda doğma yurdun gözəlliyinə həsr olunmuş ən maraqlı əsərlərdəndir. "Yaylaq" rədifli qoşmasında və gəraylısında yazda el-obanın üz tutduğu, el gözəllərinin, igidlərin qaynaşdığı, aşıqların çal-çağırı eşidilən səfalı yaylaqlar, seyrəngahlar tərənnüm edilir.

Aşıq Ələsgərin yaradıcılığında nəsihətlərin əks olunduğu şeirlər – ustadnamələr mühüm yer tutur. Aşığın əxlaqi-tərbiyəvi mövzuda olan "Gərəkdi", "Olmaz" şeirləri xalq müdrikliyini, sənətkarın böyük həyat təcrübəsini əks etdirir.

Aşığın yaradıcılığının bir qismini cəmiyyətdəki nöqsanları, ədalətsizliyi, istismarı tənqid edən ictimai motivli şeirlər təşkil edir. "Çıxıbdı", "Görmədim" əsərlərində həyatın bərkini-boşunu görmüş müdrik aşıq zəmanəsində müşahidə etdiyi nöqsanlara, zülm və haqsızlığa, özbaşınalığa kəskin tənqidi münasibətini bildirir. Belə şeirlərdə tənqid hədəfləri "bivəfa," "nakəs", "müxənnət", "namərd" mahalda, kənddə özbaşınalığa rəvac verən çar hakimləri – naçalnik,

pristav, koxa, eləcə də istismarçı ağalar, quldurlar, ikiüzlü, fırıldaqçı ruhanilərdir. Qoşma, gəraylı, təcnis və dodaqdəyməzləri məna dərinliyi, səmimilik, təbiilik, həyatilik, forma bitkinliyi baxımından yarandığı gündən örnək olmuşdur. Bu əsərlər sözlərin sərrast seçimi, qafiyə əlvanlığı, məzmuna uyğun epitet, təşbeh, metafora, mübaliğə, təkrir, təzad və s. istifadə məharəti ilə diqqəti həmişə cəlb etmişdir. Saz havalarına uyğun yaradıldığı üçün onun şeirləri ahəngdar və axıcıdır. İctimai motivli şeirləri üçün həyat həqiqətlərinə sadiqlik, cəmiyyətdəki bəlaların doğru-dürüst təsviri, məzmun dolğunluğu, kəskin tənqidi ruh daha səciyyəvidir.

El kədərini özünün "Gözlə, gözlə sən", "Bu yerdə tapılmaz", "Dolansın" şeirlərində ifadə edən aşıq 1924-cü ildə dövlət tərəfindən İrəvana dəvət olunsa da, bu təklifdən imtina etmişdir. Məhəbbət mövzusunda yazılmış "Dönübdü", "Gedibdi", "Öldürür" qoşmalarının əsas motivini lirik qəhrəmanın sevgilisinin gözəlliyinə heyranlıqla, saf, təmiz sevgi hissləri ilə yanaşı, ayrılığın doğurduğu duyğu və düşüncələr təşkil edir. Məhəbbət mövzusunda şeirlərin bir qismi aşığın Səhnəbanuya olan nakam sevgisinə həsr olunub. Bu şeirlərdə ilk məhəbbətin uğursuzluğunun lirik qəhrəmanda doğurduğu kədər, ah, nalə, göz yaşı təbii və təsirli dillə əks olunur. "Düşdü" qoşması süjetli lirika nümunəsidir. Əsərdə lirik qəhrəmanın çeşmə başında bir gözələ aşiq olması, qızın artıq başqasına nişanlandığını biləndə keçirdiyi hisslər öz əksini tapıb. Aşıq Ələsgərin el gözəllərinin tərifinə həsr olunmuş "Xoş gəldin", "Getmə amandı", "Sarıköynək", "Bəyistan" şeirlərində Azərbaycan gözəlinin mənəvi-əxlaqi keyfiyyətləri tərənüm edilir, bədii portreti çəkilir. Aşıq toy və şənlik məclislərində qarşılaşdığı el gözəlinə səmimi münasibətini, heyranlığını ifadə edir. Təbiətə həsr olunmuş şeirlərində yurdumuzun zəngin təbiətinə vurğunluğu, onun sərvətlərinə qayğıkeş münasibəti qabarıq şəkildə əks etdirib. "Gördüm" şeirinin lirik qəhrəmanı təbiət aşiqidir. Zalım ovçunun yaraladığı maralın iniltisi, balasını axtaran gözləri onun qəlbində ağrılı-acılı hisslər oyadır. Yuxarıda da qeyd etdiyimiz kimi, Aşıq Ələsgərin yaradıcılığında dinləyicilərə əxlaqi nəsihətlər, mənəvi dəyərlər aşılayan şeirlər – ustadnamələr mühüm yer tutur. Aşağın əxlaqi-tərbiyəvi mövzuda deyilmiş "Olmaz", Gərəkdi" şeirləri xəlqi mahiyyət daşıyır, xalq müdrikliyini, sənətkarın böyük həyat təcrübəsini əks etdirir. Bu əsərlərdə atalar sözləri, məsəllərdən istifadə edən aşıq "namərd", "nakəs", "müxənnət" insanların şər təbiətini ifşa edir, dinləyicini mərdliyə, saflığa, düzlüyə, namuslu olmağa səsləyir. Aşıq Ələsgərin yaradıcılığında dövrün ictimai eyiblərinin tənqidinə həsr olunmuş əsərlər mövzu aktuallığı, satirik-tənqi-

di məzmunu, ideya-bədii məziyyətləri ilə diqqəti cəlb edir. “Görmədim” rədifli qoşmada aşığın əsas tənqid hədəfləri yalançı şahidlər, zalım bəylər, ikiüzlü qazılardır (6).

“Çıxıbdı” rədifli qoşmada riyakar ruhanilər, “məşədi” və “kəlbəlayılar”, dərəbəylik mühitində at oynadan, günahsız insanların qanını tökən, soyğunçuluq edən qoçular, quldurlar, harınlıq edib rəiyyəti qamçılayan pristav, naçalnik kimi çar hakimləri, kəndlinin var-yoxunu əlindən alıb dilənçi kökünə salan ağalar, bəylərin cinayətləri sadalanır. Xalqın ağır həyat şəraiti, vergilərin insanları müflis vəziyyətə salması, zəhmət adamının düşdüyü dözülməz durum aşığın qəlbində hiddət, qəzəb hissi doğurur. Soydaşlarının dərdlərinə laqeyd qala bilməyən aşıq Allaha üz tutaraq padşahın insanlara dərd, kədər, “sitəm” gətirməsindən şikayət edir, xalqın vəziyyətinin, gördüyü cəfaların dözülməz olduğunu söyləyir. Zülm əlindən cana doymuş insanların çara yazdığı ərizələrə baxılmaması aşığın kəskin etirazına səbəb olur.

Bu gün farslar fars dilində yazan qüdrətli şairləri – Nizamini, Nəimini, Nəsimini, Füzulini və bir çoxunu öz şairləri hesab edir və demək istəyirlər ki, türklərdən belə şairlər çıxa bilməz. Amma Dədə Ələsgər sübut edir ki, türklərdən şairlər, söz ustadları, ürfan şairləri də çıxa bilir. Müfəssəl tədqiqat əsərləri yazılmasa da, Aşıq Ələsgər irsinin toplanıb üzə çıxarılmasında, ustada layiq şəkildə xalqa çatdırılmasında görkəmli alim və şairlərimizin – Hümmət Əlizadənin, Əhliman Axundovun, İslam Ələsgərlinin, Həmid Araslının, Mürsəl Həkimovun, Səttar Axundovun, Osman Sarıvəllinin, Hüseyn Arifin, Məmməd Aslanın, İlyas Tapdığın, Vaqif Vəliyevin və digər insanların böyük və danılmaz xidmətləri olub. Xüsusən, Aşıq Ələsgər irsinin geniş şəkildə araşdırılmasında Hümmət Əlizadə və İlyas Tapdığın daha çox xidməti olub. Aşıq Ələsgərin sağlığında kitabı nəşr edilməyib. İlk nəşri 1937-ci ildə Hümmət Əlizadənin tərtib etdiyi “Aşıq Ələsgər” adlı kitab olub. Bu əsər yeganə əsərdir ki, aşıq ədəbiyyatına, ələsgərşünaslığa tamam başqa mövqedən yanaşır və poeziyamızın açılmayan sirli, sehrli məzmununu ifadə edə bilir. Aşıq Ələsgərlə Aşıq Hüseyn Bozalqanlı arasında, sözsüz ki, yaxşı münasibətlər olub. El içində dolaşan söhbətlərdən bəlli olur ki, onlar qarşılaşıblar və deyişmələri də olub. Bəlkə də, Aşıq Hüseyn Dədə Ələsgərdən təxminin 40 yaş kiçik olub. O dövrün ədəb-ərkan qaydalarına nəzər salsaq, deyə bilərəm ki, Aşıq Hüseyn indiki aşıqların rəvayət etdiyi kimi, heç zaman Dədə Ələsgərlə onlar danışan kimi davranmazdı, onun qarşısında ədəbsizlik etməzdi. Sadəcə, onlar bir-birilə ədəblə qarşılaşmış, çalıb-oxumuşlar. O ki qaldı deyişmələrə Aşıq

Ələsgərlə Aşıq Hüseyn arasındakı oxunan deyişmələr məna və məzmun etibarilə tamam fərqli fikirlərdir. Sözsüz ki, şairlər, aşıqlar bir-birinin şeirlərinə nəzirələr yazır, eyni rədifli şeirləri qarşı-qarşıya oxuyurlar. Bu mənada da Dədə Ələsgərlə Aşıq Hüseyn arasındakı "Mərd", "Qıj-qıj" kimi digər şeirlərin qarşı-qarşıya oxunması qəbul olunandır. Niyə də olmasın ki, axı o zamanlar həmin ellər bir-birilə dolanır, münasibətlər saxlayırdılar. Sözsüz ki, elin, obanın Dədə Ələsgər kimi, Aşıq Hüseyn kimi sayılan sənətkarları arasında olan münasibətlər danılmazdır (8).

Aşıq poeziyasının Nizamisi sayılan Aşıq Ələsgər XIX əsrdə yaşamış el sənətkarlarının ən istedadlısıdır. Bir dağa bənzəyən aşıq sənətinə hansı səmtdən baxsaq, oradan yenə də Ələsgər zirvəsini görmüş olarıq.

Aşıq Ələsgərin bir çox şagirdi olmuşdur. Göyçə-Daşkənddən Aşıq Nəcəf, Qızılvəngdən Aşıq Mustafa və Aşıq Yusif, Nərimanlıdan Aşıq Mikayıl, Aşıq İsa, Zoddan Aşıq Qasım və Aşıq Ağayar, Böyük Qaraqoyunludan Aşıq Əsəd, Böyük Məzrədən Aşıq Qiyas, Zərzibildən Aşıq Nağı və Aşıq Sayad, Ağkilsədən Aşıq Qurban, qardaşı oğlanları Növrəs İman və Aşıq Musa və başqaları onun istedadlı şagirdlərindən olmuşlar.

Aşıq Ələsgər aşıqlıq sənətinin bütün sirlərinə bələd idi. Müəyyən bir məktəb bitirməsə də, yazı-pozu bilməsə də, dövrünün, mühitinin alimi idi. Aşıq Alı kimi kamil bir ustaddan dərs almış, köhnəliklə yeniliyin mübarizə apardığı oyanmış, dirçəlmiş Göyçə mühitində yetişmişdir. Professor Sədnik Paşa Pirsultanlının təbirincə desək, "Aşıq Ələsgər xalq akademiyasını bitirmiş bir dahi idi". Qəlbimizdə, sazımızda, sözümüzdə, şüurumuzda, zehnimizdə, yaddaşımızda olan Aşıq Ələsgər poeziyası Azərbaycan mədəniyyətinin hissiyyat zirvəsi, varlığın bədii söz vasitəsi, estetik duyğu kəhkəşanıdır. Milli düşüncənin intellektual potensiyası ilə idrak olunan şüur hadisəsi olan Ələsgər poeziyasında zehnin intellektual imkanları bədii düşüncə kodu ilə dərk olunmuş estetik reallığa çevrilmişdir.

Aşıq Ələsgər poeziyası milli düşüncənin bütün fiziki-mənəvi təcrübəsini özündə kodlaşdıran bədii yaddaş potensiyasıdır. Bu poeziyanın daşıyıcısı olan etnik-mədəni sistem həm bir fərd (yaradıcı subyekt), həm də bir kollektiv (etnos) olaraq bütün kosmoetnik atributları səviyyəsində Ələsgər yaradıcılığında tarixə - yaddaşa kodlaşıb.

Aşıq Ələsgərin şeirləri mövzu əhatəsi və məzmun prinsipinə görə üç qismə ayrılır: təbiət təsvirləri, lirik-aşiqanə motivli gözəllərin vəsfi, ictimai məzmunlu sosial-siyasi motivlər.

İstismar dünyasına, haramçılığa, ziyankarlara, istismarçı və talançılara nifrət edən aşıq, imkanı olanları imana, düz yola, kasıbın, fəqir-

füqəranın qeydinə qalmağa çağırırdı. Aşıq Ələsgərin bu qəbil öyüd-nəsihətlərində Nizami didaktikasının ruhu görünür. Ustad sənətkarın özünəməxsus həyat fəlsəfəsinə görə haqqı nahaqqa vermək istəməyən hər deyilənə yox, gözü ilə gördüyü, qulağı ilə eşitdiyinə inanmalıdır. Aşıq nəinki saz-söz meydanında həddini aşan, cızığından çıxan ustadları, eyni zamanda qarşısındakını yaxşı tanımayanları kəskin hərbə-zorba ilə susdurmuşdur.

Aşıq Ələsgərin "Yeddidi", "Ay nədən oldu", "Deyilmi", "Danışaq" və başqa qıfılbəndləri hələ də sirr dolu qalır: *Bir kasa içində on dörd irəng var, Qarası yeddidi, ağı yeddidi* (5).

*"Bir kasa dünya, on dörd rəng gecə-gündür, 7 gecə qara, 7 ağ gündüz deməkdir"* desələr də, bu dəryada bir damladır. S.P.Pirsultanlı 1990-cı ildə çap etdirdiyi "Aşıq Ələsgər sənətkarlığı, Aşıq Ələsgər ucalığı" adlı məqaləsində yazmışdır: *"Hər bir sənətkarın sənət meydanında yerini müəyyənləşdirən onun sənətkarlığıdır, sənətə bələdçiliyidir. Dərin biliyinə, zəkasına və fitri istedadına görə Aşıq Ələsgəri aşıq sənətinin memarı hesab edirlər"* (3, s. 24). XVI əsrdə Dirili Qurbani, XVII əsrdə Tufarqanlı Abbas, XVII-XVIII əsrdə Tikmədaşlı Xəstə Qasım, XVIII əsrdə Abdalgülablı Valeh, XIX əsrdə Şəmkirli Hüseyn kimi sənətkarlar arasında sənətin fövqünə, sənətin zirvəsinə qalxa bilən Aşıq Ələsgər aşıq sənətinin həqiqi memarıdır. Ona görə də Aşıq Ələsgər aşıq yaradıcılığının poetik və melodik sistemini, üsullarını, qaydalarını çox əsaslı mənimsəmiş, aşıqlıq sənətinin zirvəsinə yüksəlmişdir.

Dirili Qurbani yaradıcılığı boyu iki təcnis yaratmışdırsa, Aşıq Ələsgər buna cavab olaraq 25 təcnis yaratmışdır. Aşıq Abbas Tufarqanlı cığalı təcnisin bir nümunəsini ("Gözəl, göz ola") yaratmışdırsa, Aşıq Ələsgər bunun qarşılığında dörd cığalı təcnis yaratmışdır. Xələflərindən və sələflərindən fərqli olaraq Aşıq Ələsgər aşıq poeziyasına dodaqdəyməz təcnislər və cığalı təcnislər gətirmişdir. Aşıq yaradıcılığında təcnislərin yaradılmasında və təcnislərin inkişaf etdirilməsində Tikmədaşlı Xəstə Qasım və Aşıq Ələsgərin şərəfli xidmətləri olmuşdur. Xəstə Qasımın qıfılbəndlərini Aşıq Ələsgər və qardaşı oğlu Növrəs İman açsa da, xeyli qıfılbəndi açılmamış qalır. Aşıq Ələsgər müstəzad təcnisin gözəl nümunələrini yaratmışdır. Onun yaratdığı dodaqdəyməzi, dodaqdəyməz cığalı təcnisi, divan təcnisini indiyə qədər yarada bilməmişdilər. Anonim cinaslarla təcnis göydələnləri ucaldan ustadın dodaqdəyməz yaradıcılığını heç kəs bacarmamışdır. Türk dünyasının ozan-aşıq poeziyasında Aşıq Ələsgər kimi

dodaqdəyməz təcnisləri Molla Pənah Vaqif, Qasım bəy Zakir, Nəbati kimi təcnis yazmağa cəhd edən sənətkarlar ərsəyə gətirmişlər.

Aşıq Ələsgərin sələfləri olan Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Abdalgülablı Valehin dastan yaratdığını düşünəndə, Aşıq Ələsgərin nə üçün dastan yaratmadığı sualı düşüncələrə gəlir. XIX əsrin realist sənətkarı olan Aşıq Ələsgərə məclislərdə dastan söyləməyə macal qalmamışdır. Həcər xanım, Zöhrə xanım, Nəfslə Mərifət haqqında şeirləri və deyişmələri real tarixi dastanlardır. Aşıq Alının "Səfərnamə"sindən sonra Çoban Məhəmmədin "Qars səfəri" meydana çıxmışdır. Dastan yaradıcılığının poetik və melodik sistemini gözəl bilən Aşıq Ələsgər özünün dastan yaradıcılığını bu real ənənələr üzərində qurmuşdur.

Bu böyük el sənətkarı aşıq şeirinin, demək olar, bütün janrlarına müraciət etmiş və hər birində böyük uğur qazanmışdır. Tükənməz xalq yaradıcılığı çeşməsindən süzülüb gələn bu təkrarsız sənət nümunələri xəlqiliyi, dil sadəliyi, üslub gözəlliyi, forma əlvanlığı ilə dinləyicinin, oxucunun bütün dövrlərdə zövqünü oxşamış, onda gözəl hiss və duyğuların baş qaldırmasına səbəb olmuşdur. Azərbaycan ədəbiyyatı tarixində şərəfli yer tutan Aşıq Ələsgərin zəngin poetik irsi ölkəmizin bir çox aşıqları üçün əsl sənətkarlıq məktəbi olmuşdur. Araşdırma istedadlı el sənətkarının ömür yolu, çoxcəhətli yaradıcılığı, sənətkarlığı barədə əhatəli məlumatın əldə olunmasına və qiymətləndirilməsinə imkan verir.

Azərbaycan ədəbiyyatı tarixində şərəfli yer tutan Aşıq Ələsgərin zəngin poetik irsi Azərbaycanda bir çox aşıqlar üçün əsl sənətkarlıq məktəbi olmuşdur.

## QAYNAQLAR


1. Babacan L. Hətta ermənilər də Aşıq Ələsgərin bütün şeirlərini bizim dildə əzbər bilirdilər. Modern.az informasiya agentliyi. 2018, 29 aprel
2. Ələsgərov İslam. Aşıq Ələsgərin yaradıcılığı / Şair Məhəmməd onun doğma qardaşıdır. Xalq Cəbhəsi. 2010, 6 avqust. s. 14.
3. Pirsultanlı S.P. Azərbaycan aşıq yaradıcılığına dair araşdırmalar // Aşıq Ələsgər sənətkarlığı, Aşıq Ələsgər ucalığı. Elmi redaktor: M.Qasımlı. Bakı: Azərnəşr, 260 səh s. 24
4. Vahid T. Aşıq Ələsgər möcüzəsi (Haqq aşığı) Mədəniyyət qəzeti, 18 avqust 2011-ci il
5. https://azkurs.org/azerbaycan-respublikasi-tehsil-nazirliyi-gence-dovlet-universi.html?page=9
6. https://edebiyyat.ucoz.com/index/0-68
7. https://medeniyyet.az/page/news/21418/Asiq-Elesger-mocuzesi.html
8. https://modern.az/az/news/163719
9. https://portal.azertag.az/az/node/13616

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞINA BİR BAXIŞ
# A VİEW AT THE WORK OF ASHUG ALASGAR
# ВЗГЛЯД НА ТВОРЧЕСТВА АШУГА АЛЕСКЕРА

**Aynurə SƏFƏROVA**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*aynura.safarova1@gmail.com*

**Summary**
Ashug Alasgar is one of the most famous representatives of ashug literature. His goshmas, divanis, geraylis and tajnis are perfect examples of ashug poetry. The subject matter of these examples is diverse, but they are also very powerful and perfect in terms of language. In Ashug Alasgar's poems, the description of the natural landscape in an original and unique language, the description of the social landscape of the time, human relations, the means of expression of pure feelings - friendship, love and longing - attract attention. His deep knowledge of the subtleties of the Turkish language and his rich poetic thinking can be seen in all his poems and poems. Ashug Alasgar's use of metaphors, similes and epithets in his poems proves that he can deeply feel the richness of his native language. Ashug Alasgar is also the author of beautiful tajnis. It is known that rhymes should prevail in tajnis. From this point of view, we see the mastery of Ashug Alasgar as the author of the tajnis. Among the images of ashug poetry, dodagdaymaz, cighali, goshayarpag tajnis are distinguished by their originality. We notice that Alasgar uses words and phrases with great skill and skill while reading his dodagdaymazs. This, in fact, proves that he is a powerful artist of ashug poetry. In general, Ashug Alasgar's work is not only wide and comprehensive in terms of art, but also original. In addition to preserving the classical traditions of ashug art in his poems and other poems, he also created unique individual examples. His poetic examples are considered to be one of the most beautiful pearls of Azerbaijani ashug art, and these examples always retain their freshness.

**Key words:** poet, ashug, Ashug Alasgar, ashug poem

**Резюме**
Ашуг Алескер – один из самых известных представителей ашугской литературы. Его куплеты, диваны, герайли и таджнисы - прекрасные образцы ашугской поэзии. Тематика этих примеров разнообразна, но они также очень эффективны и совершенны с точки зрения языка. В стихах Ашуга Алескера обращают на себя внимание описание природного ландшафта оригинальным и неповторимым языком, описание социального ландшафта того времени, человеческих

отношений, средств выражения чистых чувств - мыслей о дружбе, любви и тоске. Его глубокое знание тонкостей азербайджанского турецкого языка и его богатое поэтическое мышление можно увидеть во всех его стихах и в гошмах (одной из форм ашугского творчества). Использование Ашигом Алескером метафор, сравнений и эпитетов в своих стихах доказывает, что он может глубоко почувствовать богатство своего родного языка. Ашуг Алескер также является автором красивых техник. Известно, что в таджнисе должны преобладать джинас рифмы. С этой точки зрения мы видим мастерство Ашуга Алескера как автора тех-ники. Среди образов ашугской поэзии своей оригинальностью выделяются безгубые (додагдеймез), писклявые (джигалы), двулистные (гошаярпаг) приёмы. Мы видим, что Алескер с большим мастерством и умением ис-пользует слова, читая додагдеймезы. Это, по сути, доказывает, что он мощный художник ашугской поэзии. В целом творчество Ашуга Алескера не только обширно и содержательно в художественном отношении, но и оригинально. В своих гошмах и других стихотворениях он не только сохранил классические традиции ашугского искусства, но и создал новые собственные образцы. Его поэтические образцы считаются одной из красивейших жемчужин азербайджанского ашугского искусства, и эти образцы всегда сохраняют свою свежесть.

**Ключевые слова:** поэт, ашуг, Ашуг Алескер, ашугская поэма

***Aşıq Ələsgərin həyatı haqqında qısa bilgi.*** Azərbaycan aşıq sənətinin inkişafında və zənginləşməsində önəmli yer tutan aşıqlardan biri Aşıq Ələsgərdir. Mənbələrdə göstərilir ki, o, 1821-ci ildə İrəvanda Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Ələsgərin atası Alməmməd kişi kəndin hörmətli insanlarından idi. Onun əsas məşğuliyyəti əkinçilik və dülgərlik idi, arada bədahətən şeirlər də qoşurmuş, qoşma, bayatı, gəraylı deyirmiş. Ələsgər ailədə 8 uşaqdan biri idi. O, uşaqlıq və yeniyetməlik illərində təhsil ala bilməmişdi, lakin yaddaşı güclü olduğuna görə iştirak etdiyi müxtəlif məclislərdə danışılan rəvayət və nağılları, aşıqların dastanlarını yaddaşında saxlayır, sonra özü də onları nəql edirmiş. Belə qabiliyyətini görən atası Ələsgəri Aşıq Alının yanına şəyirdliyə verir. Beləliklə, Ələsgər Aşıq Alıdan aşıqlıq sənətinin sirlərini öyrənmiş, ədəb və mərifət qaydalarını ustadından əxz etmişdir. Bir dəfə Aşıq Alı şəyirdi Ələsgərlə toy məclislərindən birində deyişmiş, el içində Ələsgərin şöhrətini ucaltmaq üçün deyişmə zamanı ona qəsdən məğlub olmuş, sazını qalib gələn Ələsgərə təslim etmək istəmişdir. Ələsgər ustadının qarşısında baş əymiş, ustadı Alıya olan ehtiramını bu sözlərlə ifadə etmişdir:

Bir şəyird ki ustadına kəm baxa,
Onun gözlərinə qan damar, damar...

Ələsgər öz ustadını həmişə hörmətlə yad etmiş, ömrünün axır illərinə qədər Aşıq Alı sənətindən ehtiramla danışmışdır (5, 4).

Əvvəlcə Göyçə mahalında aşıqlıq edən Ələsgərin şöhrəti ətrafa yayıldıqca digər bölgələrin də toy-düyünlərində iştirak etmək üçün dəvət almışdır. Beləliklə, o, İrəvanla yanaşı, Naxçıvanda, Qazaxda, Qarabağda, Gəncədə, Kəlbəcərdə və digər mahallarda da tanınmış, xalq tərəfindən sevilmişdir. Yüksək mədəniyyəti, ədəbi və əxlaqi keyfiyyətləri, gözəl şeir qoşmaq qabiliyyəti, bənzərsiz səsi və ifası onu hər kəsə sevdirmiş, beləcə aşığın dinləyici və tamaşaçı auditoriyası genişlənmişdir. "Aşıq Ələsgər zəngin bir irs qoyub getmişdir. H.Əlizadənin yazdığına görə, o, sağlığında öz şeirlərini bir yerə toplamaq istəmişsə də, buna müvəffəq ola bilməmişdir. Aşıq gördüyü, müşahidə etdiyi hadisə və əhvalatlar haqqında yerindəcə, bədahətən şeirlər demək qabiliyyətinə malik imiş. Onun saysız-hesabsız şeirləri olmuşdur. Lakin bunların çoxu yazılmadığı, qeyd edilmədiyi üçün itib-batmışdır" (4, 302).

***Aşıq Ələsgər poeziyasının özəllikləri.*** Aşıq Ələsgərin poeziyası bədii dil xüsusiyyətləri cəhətdən xeyli zəngindir. O, öz şeirlərində Azərbaycan dilinin zəngin söz xəzinəsindən ustalıqla istifadə etmiş, poeziyamıza gözəllik və yenilik gətirmişdir. Onun qoşma və divaniləri, gəraylı və təcnisləri aşıq şeiri şəklinin ən mükəmməl örnəklərindəndir. Bu örnəklərin mövzusu müxtəlif, bir-birindən fərqli olmaqla yanaşı, dil baxımından çox qüdrətli və mükəmməldir. "Ələsgər elə qüdrətli lirika yaratmışdır ki, özündən həm əvvəl, həm də sonra aşıq şeiri belə bir zirvəyə yüksələ bilməmişdir. Bu lirikanın gözəlliyi bir tərəfdən Aşıq Ələsgərin həyata baxışı, dünyagörüşü, milli-mənəvi dəyərlərə və şifahi yaradıcılıq ənənələrinə bələdliyi ilə bağlıdırsa, digər tərəfdən onun fitri istedadı, sənətkarlıq məharəti, Azərbaycan türkcəsinin zəngin poetik imkanlarını üzə çıxarmaq səriştəsiylə əlaqədardır" (9, 195).

Qoşma və gəraylılarına diqqət etdikdə Aşıq Ələsgər yaradıcılığında təbiət mənzərəsinin orijinal və özünəməxsus dillə təsvirini görürük. Vətən təbiətinin gözəlliklərini "Yaylaq", "Şah dağı", "Dağlar" kimi şeirlərində tərənnüm etmişdir. Aşıq "Dağlar" adlandırdığı iki fərqli qoşmasında sanki əsl rəssam fırçası ilə onların tablosunu yaratmış, dağların hər mövsümdə özünəməxsus heyrətamiz gözəlliyə büründüyünü nəzmə çəkmişdir. Doğma yerlərin təbiət gözəlliklərini gah bahar mövsümündə təsvir etmiş, əl-çatmaz, ünyetməz, uca dağların süsənli, sünbüllü, laləli çağlarını vəsf et-miş, gah da ağappaq libasa qərq

olduğunu göstərmişdir. Aşıq dağları bu füsunkar gözəlliklərilə yanaşı, həm də canlı bədii obraza çevirmiş, onların insanlar arasında heç bir ayrımçılıq qoymadığını, hamıya eyni yanaşdığını qeyd etmişdir. Ən uca zirvəsində daim qar olduğunu vurğulamış, çeşməsindəki "abi-həyat suyu"nun dərdi-möhnəti dağıtdığını göstərmişdir:

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, laləzar olur.
Çeşməsindən abi-həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar (1, 21).

Aşıq dağları təsvir edərkən insana məxsus xarakteri təbiət hadisəsi kimi təsvir edir, dağları obrazlaşdırır, insan xislətilə bağlı bəzi məqamları onların üzərinə köçürür, maraqlı paralellər aparır.

Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib-gedəni peşiman eylər.
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinşəməz haramı, halalı dağlar.

Ağ xələt bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib keyfinə dəyməz.
Sərdara söz deməz, şaha baş əyməz
Qüdrətdən səngərli, qalalı dağlar (1, 21).

Aşıq Ələsgərin yaradıcılığında insan münasibətlərinin təsviri, saf duyğuların – sevgi və həsrət məzmunlu fikirlərin ifadə vasitələri diqqəti çəkir. Aşıq Ələsgər üçün sevgi hər şeydən ucadır. Onun yaradıcılığında həm ilahi sevgini, həm də bəşəri sevgini vəsf edən şeirlərə rast gəlinir. Ələsgər bu mövzunu əsasən iki aspektdən işləmişdir. Yaradana olan ilahi eşq və bəşəri eşq. Allahın vəsfinə həsr etdiyi şeirlərindən məlum olur ki, Ələsgər dinimizi dərindən öyrənmiş, Allaha sidq ürəkdən bağlı olmuşdur. Yaradanı ilahi eşqlə sevmiş və gerçək sevgini Ona olan sevgidə tapa bilmişdir. "Allahın adı ilə", "Peyğəmbərin meracı", "Rənc Ali-əba" və d. şeirlərində Yaradana olan sevgisini dilə gətirmişdir. İslam Ələsgərin yazdığına görə, "dinimizin qanun-qaydalarına həmişə ləyaqətlə əməl edən, həqiqəti, təriqəti, şəriəti, mərifəti dəqiq bilən, hər zaman Yaradana ibadət edən aşıq, hamını mömin müsəlman görmək istəyirdi.

Mən istərəm, alim, mömin yüz ola,
Meyli haqqa doğru, yolu düz ola.
Diliylə zəbanı üzbəüz ola,
Ələsgər yolunda can qurban eylər" (6, 16).

Aşığın şeirlərində bəşəri sevgi mövzusu da geniş yer tutur. Şairin insan sevgisi çox dərindir. O, gözələ olan sevgisini təsvir edərkən səmimidir, gözəlin həsrətindən hiss etdiyi duyğuları ifadə edərkən dilimizin zəngin söz xəzinəsindən – frazeoloji birləşmələrdən, məcazlardan geniş istifadə edir. "Dönübdü" rədifli qoşmasında "insafsız" gözələ "a bimürvət" deyərək xitab edir. Onun sevgisi aşığın "bağrını qana döndərib", "qəddini əyib", "gül rəngini soldurub", "xəzan dəymiş gülüstana" döndərib:

A bimürvət, axı səndən ötəri
Ah çəkməkdən bağrım qana dönübdü.
Qədd əyilib, gül irəngim saralıb,
Xəzan dəymiş gülüstüna dönübdü.

Dindirirəm, danışmırsan, gülmürsən,
Xəbər alıb ev halını bilmirsən,
Endiribən məclisimə gəlmirsən,
Yoxsa, taxtın Süleymana dönübdü?! (2, 42)

Aşığın təsvir etdiyi gözəllər onun görüb bəyəndiyi, sevdiyi, "lalə yanaqlı", "büllur buxaqlı", "ay qabaqlı", "şahmar zülflü" gözəllərdir. Ələsgərin dilində onların zahiri gözəl olduğu kimi, daxili də gözəl olanlardır. Böyük söz ustadı bu gözəlliyin ən incə detallarını elə ustalıqla açıqlayıb vəsf edir ki, həmin gözəllik bütün çalarları ilə gözlərdə canlanır.

Axşam-sabah, çeşmə, sənin başına
Bilirsənmi, necə canlar dolanır?!
Büllur buxaq, lalə yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır.

Afərin xudanın haqqı-sayına!
Camalları bənzər bayram ayına,
Belə gözəllərin xaki-payına
Mənim kimi çox qurbanlar dolanır (2, 40).

Ələsgərin gördüyü gözəllər onun "könlünü qəmdən ayıldır", ağlını başından alır, gözəlin camalından şölələnən nur, işıq xəstələrə şəfa verir.

Gözüm gördü, könlüm qəmdən ayıldı,
Çıxdınız qarşıma dəstə, gözəllər!
Camalın şöləsi nuri-təcəlla,
Görsə şəfa tapar xəstə, gözəllər!
Qəmgin idim, sizi görüb gülürəm,
Qaşınız qiblədi, səcdə qılıram.
İkram ilə sizə sarı gəlirəm,
Siz də gəlin asta-asta, gözəllər (2, 52).

Ələsgərin qoşmalarında ifadə etdiyi fikirlər lirik qəhrəmanın psixoloji aləmi, daxili mənəvi dünyası ilə sıx bağlıdır. O, klassik şeir ənənəsinə dərindən bələd idi. Bu mənada "o, öz sələfləri Sarı Aşıq, yaxud Molla Pənah Vaqif kimi özünü sevdiyi gözəlin ayağı altında payəndaz etmirdi, daha zərif, daha incə bənzətmədən istifadə edərək sevdiyi gözəli həmişəlik gözlərinin üstdə gəzməyə çağırırdı. O, bu çağırışı ilə sevgilisinin onun dərdini bilməsini, gözünün yaşını silməsini istəyirdi. Bu, aşıq şeirində yeni deyim tərzi, yeni ifadə üslubu idi" (9, 199).

Aşıq Ələsgərin qədrini bilsən,
Ağlayıb çeşminin yaşını silsən,
Əgər qədəm qoyub bir bizə gəlsən,
Yerin var göz üstə gəz, qadan alım (1, 16).

Aşıq Ələsgərin müxtəlif mövzulu şeirləri, onun aşıq şeiri şəkillərinə aid düzüb-qoşduğu bütün növ və janrları xüsusi bədii məharətlə təqdim etdiyini təsdiqləyir. Ələsgər həm təbiəti təsvir edərkən, həm də müxtəlif lirik mövzulara müraciət edərkən aşıq şeirinin gəraylı, qoşma, müxəmməs və digər şəkillərindən böyük məharətlə istifadə edir ki, həmin şeirlər aşığın daxili duyğularının, narahatlığının, həyəcanının bədii-poetik tərənnümünə çevrilir.

Çərşənbə günündə, çeşmə başında,
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxun, keçdi sinəmdən,
Cadu qəmzələri qanıma düşdü (1, 29).

Burada Ələsgər özündən əvvəlki aşıqların poetik ənənələrindən bəhrələnmiş, qoşmanın məna gözəlliyinə diqqət yetirmiş, nəticədə səs və söz ahənginin vəhdətindən yaranmış gözəl sənət nümunəsi ortaya çıxmışdır. Aşıq çeşmə başında gördüyü gözələ olan duyğularını bildirəndən sonra onun başqasına nişanlı olduğunu öyrənib təəssüflənir, obrazlı şəkildə aşığın öz diliylə desək, "qolu-qanadı sınıb" yanına düşür.

Ələsgərəm, hər elmdən halıyam,
Dedim: sən təbibsən, mən yaralıyam.
Dedi: nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım, yanıma düşdü (1, 29).

***Aşıq Ələsgərin şeirlərinin dil sənətkarlığı.*** Aşıq Ələsgərin ana dilinin incəliklərini həssaslıqla duya bilməsi, dərin poetik təfəkkürə sahib olması onun bütün şeirlərində müşahidə edilir. "Bədii söz bu ulu korifeyin həyatı, daimi yol yoldaşı olmuşdur. Onun sözə həmdəm, şair-filosof qəlbi odu, alovu, işığı sözdən almışdır. Ən önəmlisi odur ki, bu poetik söz cəngavəri sözə borclu qalmamışdır, öz ürəyinin həra-

rəti ilə onu cilalamış, ona əbədi həyat vermişdir” (7, 31). Aşıq Ələsgər bütün qoşma və gəraylılarında məcazlardan, təşbeh və epitetlərdən yerli-yerində istifadə etmişdir. Bu, onun ana dilinə və aşıq şeirinin incəliklərinə vaqif olduğunu göstərir. Aşıq Ələsgər şeirlərinin mükəmməlliyinin səbəblərindən biri də həmin şeirlərin səs və ahəng vəhdətinin yüksək səviyyədə olmasıdır. Burada səs və ahəngin yaratdığı vəhdət deyərkən şeirlərdəki vəzn və qafiyə quruluşu, səs və söz təkrarı, eyni səslərin, samitlərin aktivliyi nəzərdə tutulur. Bu baxımdan, Aşıq Ələsgər şeirlərinə xarakterik olan harmoniya; vəzn və qafiyə quruluşu; kəlmə çeşidləri, alliterasiya, səslə məzmun arasındakı vəhdət bu şeirləri oxunaqlı edən səbəblərdəndir. “Azərbaycan türkcəsinin poetik imkanlarından və sələflərinin yaradıcılığından ustalıqla bəhrələnən sənətkar şeirlərində zəngin məcazlar, bədii metaforalar işlətmişdir. Aşıq gözəlin zahiri görkəmini, fiziki cazibədarlığını əyani əks etdirmək, dinləyicidə ona qarşı xoş duyğu, rəğbət və sevgi hissi oyatmaq üçün adətən, portret çəkmək üsulundan istifadə edir. Bu zaman aşığın təsvir etdiyi gözəlin bütün incəliyi, zərifliyi ilə bərabər, ay üzü, ağ biləyi, nazik əli, hətta gümüş kəməri oxucunun gözləri qarşısında canlanır” (3, 170).

Gümüş kəmər, incə belli,
Ağ biləkli, nazik əlli,
Ay qabaqlı, siyah telli,
Ürəyimi üzən gözəl.

“Aşıq Ələsgərin dili, ənənələrdən gələn bədii meyarlar zənginləşmə, büllurlaşma sanbalı ilə estetik hadisəyə çevrilib ki, bunun da kökü bilavasitə onun şeir təfəkkürünün yeniliyi, poetik dil axtarışlarının təravəti ilə bağlı idi. Aşıq Ələsgərin təmsil etdiyi dövrün şeir dilinin yeni bədii keyfiyyətlər əldə etməsi məhz şeirin mədəni səviyyəsinin yüksəlməsi, lirik düşüncənin təzələnməsi hesabına baş verdi” (7, 32). Ələsgər şeirlərinin bədii səviyyəsinin mükəmməlliyi, orijinallığı ona böyük şöhrət gətirməklə yanaşı, bənzərsiz sənətkar kimi məşhurlaşmasına səbəb oldu.

Bildiyimiz kimi, Aşıq Ələsgər yaradıcılığının əsas zirvəsi təcnis sənətkarlığı hesab edilir. Təcnis yaratmaq sənətkardan xüsusi istedad tələb edir. Folklorşünas Elxan Məmmədli təcnis yaradıcılığı barədə yazır: “Əsl təcnisləri – bədii siqləti, məna və mündəricəsi, estetik, emosional təsiri, fəlsəfi yükü, məntiqi axarı qabarıq nəzərə çarpan sənət incilərini ancaq fitri istedada sahib olan kamil sənətkarlar yarada bilər” (8, 141). Təcnis cinas qafiyələr üzərində qurulur. Təcnis yaradan ustad

sənətkar dilin leksikasını – sözlərin omonimliyini, sinonimliyini, çoxmənalılığını dərindən bilməlidir. Çünki təcnisdə bir söz ayrı-ayrı bəndlərdə fərqli şəkildə, fərqli mənalarda işlədilir. Aşığın yaradıcılığında təcnislər xüsusi yer tutur. "Ay ana, ana" rədifli təcnisinə baxaq:

Qarlı dağlar gəldi düşdü araya,
Qalmışam qürbətdə ay ana, ana!
Təbib yoxdu, dərman edə yaraya,
Sızıldaşır yaram a yana-yana.

* * *

Mən qurban eylərəm yara canımı,
Götürüb doğraya, yara canımı.
Alıb təpə-dırnaq yara canımı,
Bilmirəm dərmanı ay ana, ana (2, 89).

Təcnisin bütün bəndlərində cinas söz "ay ana" kəlməsidir. Xırda fonetik dəyişikliklə işlənən cinas sözdən başqa, ikinci bənddəki "yara canımı" ifadəsi də hər misrada fərqli mənada işlədilmişdir. "Aşıq Ələsgərdə cinas qafiyələr o dərəcədə orijinal və fərdi səciyyəlidir ki, diqqətli oxucu şeir müəllifini qafiyələrlə müəyyənləşdirə bilir. Dilimizə yatımlı, ruhumuza uyarlı cinas qafiyələr Aşıq Ələsgərin ifadə sistemində uğurlu üslubi əməliyyatın nəticəsi olaraq meydana çıxır. Ritm və intonasiya naxışları ovqatın yaranmasına təkan verir" (7, 48).

Ələsgərin təcnislərindən "Narın üz", "A yara məndən", "Ayağa – Qarqar", "A yüzə tək-tək", "Sarı görəndə", "Biri "sin" və digər təcnisləri nümunə göstərmək olar. Aşıq həmçinin dodaqdəyməz təcnislər, cığalı təcnislər, müstəzad təcnislər də yaratmışdır. Məlum olduğu kimi, dodaqdəyməz təcnisləri deyərkən dodaqlar bir-birinə toxunmamalıdır. Bu isə aşıqdan həm böyük söz ehtiyatı, həm də sözləri zərgər dəqiqliyi ilə seçməyi tələb edir. "Dodaqdəyməz təcnislərdə sənətkar elə sözlər tapıb işlətməlidir ki, onlarda qoşadodaq samitləri (**m, b, p**) olmasın" (3, 167).

Qışda dağlar ağ geyinər, yaz qara,
Sağ dəstinlə ağ kağıza yaz qara,
Əsər yellər, qəhr eyləyər yaz qara,
Daşar çaylar, gələr daşlar çata-çat (1, 99).

Ümumiyyətlə, Aşıq Ələsgərin yaradıcılığı sənətkarlıq baxımından geniş və əhatəli olmaqla yanaşı, həm də orijinaldır. "Aşıq Ələsgərin dil-ifadə vasitələrindəki təravət, obraz və təşbehlərindəki milli kolorit, xalq həyatı, ictimai mühitlə bağlılıq, bədii ləyaqət həddinə çatan üslub sadəliyi, bunlarda təcəssüm edən obrazlı təfəkkürün

aydınlığı və zənginliyi Aşıq Ələsgər poeziyasını bütün nəsillərin və bütün zamanların misli-bərabəri olmayan mənəvi sərvətinə çevirmişdir" (7, 37). Ələsgər aşıq yaradıcılığının klassik ənənələrini qorumaqla yanaşı, həm də özünəməxsus yeni örnəklər yaratmaqla yaddaşlara həkk olmuşdur. Onun yaratdığı poetik örnəklər Azərbaycan aşıq sənətinin ən gözəl incilərindən sayılır və bu örnəklər daim öz təravətini saxlayacaqdır.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. Bakı: Yazıçı, 1988
2. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004
3. Cəfərov Nizami; Kərimli Teymur; Əsgərli Zaman; Bakıxanova Afət. Ədəbiyyat. Bakı: Çaşıoğlu, 2014
4. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992
5. Ələsgər İslam. Aşıq Ələsgər // Ön söz / Bakı: Yazıçı, 1988
6. Ələsgər İslam. Ön söz // Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004
7. Hüseynov Məhərrəm. Aşıq Ələsgərin söz ümmanı. Bakı: Elm və təhsil, 2017
8. Məmmədli Elxan. Təcnis sənətkarlığı. Bakı: Naftapress, 1998
9. Nəbiyev Azad. Azərbaycan xalq ədəbiyyatı. II kitab. Bakı: Elm, 2006

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA DAĞ OBRAZI

# THE IMAGE OF THE MOUNTAIN IN THE WORKS OF ASHUG ALASGAR

# ОБРАЗ ГОРЫ В ТВОРЧЕСТВЕ АШУГА АЛЕСКЕРА

**Elçin Qaliboğlu (İMAMƏLİYEV)**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*elcin.galiboglu@gmail.com*

**Summary**

Ashug Alasgar had an exceptional contribution to the development of Azerbaijani ashiq art: his innate eloquence, sharp memory and mastery are still memorized today. In his work, the description of nature, especially the image of the Mountain, attracts attention. The mountain is praised and loved as a human being, it is presented as a symbol of protection of the country, halal, courageous, invincible address.

Mountain is a symbol of invincibility and strength in folklore. It is no coincidence that this image has always maintained its weight and was idealized in ancestral, civic thinking. The reason for idealization is the love for the image of the Mountain in the Turkish spirit. Today, the preservation of the sanctity of such a feeling means that the national character draws its strength from its union with nature.

In the works of Ashug Alasgar, the image of the Mountain is alive, native, helpful to the problem, overcomer to the problem. The ancient Turks were naturalists and worshipped nature. We can clearly see this attitude in our folklore examples. The Turkish spirit is creative, can feel the divine, creative power of nature (native), home, and be born with it. The Turkish spirit is also the protector of this spirit, to the extent that it feels and understands the divinity of nature.

Ashug Alasgar, who was forced to leave his district due to the Armenian genocide in the early 20th century, returned to Agkilsa two years later and faced a tragic situation, including the formation of the second “Mountains”. In addition, the losses of the people of the country are seen and known in the sadness, anger, rebellion and anger of the image of the mountain. The mountain suffers more than the afflicted, so Alasgar only expresses his sorrow to him and finds peace. The mountain is strong and unshakable, it does not blink or give up in the face of oil, it gives hope to the ancient inhabitants of the country, inspires them to live and rebuild. The Mountain-Man is in place, he has not gone anywhere. So, it is necessary to return home. The mountains are the refuge of Ashug Alasgar's hand and himself. The image of the Mountain

in mythological thought considers Man, not a slave, but a confirmation of his existence, and, conversely, for Man means the Mountain itself. Ashug Alasgar Dag does not consider slavery a shortcoming. This desire stems from the eternal love and trust in the invincibility of the Mountain, Vugar.

**Key words:** Ashug Alasgar, mythological thinking, mountain, invincibility, two “Mountains” combination

**Резюме**

Ашуг Алескер внес исключительный вклад в развитие азербайджанского Ашугского искусства: его врожденное красноречие, острая память и словесное мастерство до сих пор у всех на устах. В его творчестве обращает на себя внимание описание и воспевание красот природы, особенно изображение Гор. Мастер слова хвалит Гору и любит по-человечески, ее преподносит как символ защиты страны, мужественности, правдивости и непобедимости.

Гора в фольклорном мышлении является символом непобедимости и силы. Этот образ всегда идеализировался в мышлении предков и соплеменников. Даже сегодня сохранение святости этого чувства означает, что национальный характер черпает свою силу в гармонии с природой. В твор-честве Ашуга Алескера образ Горы - живой, родной, страстный и побеждающий боль.

Древние тюрки были натуралистами и поклонялись природе. Это отношение мы ясно наблюдаем в фольклорных образцах. Тюркский дух – творческий, чувствует божественную, творческую силу родной природы и составляет гармонию с ней. Тюркский дух также является защитником этого духа в той мере, в какой он чувствует и понимает божественность природы.

Ашуг Алескер, вынужденный покинуть родные края из-за геноцида армян в начале XX века, вернулся в Агкилсу два года спустя и столкнулся с трагической ситуацией, и это стало причиной написания второй гошмы под названием «Горы».

В гошме потери жителей этого края отражены в горе, бунте и гневе образа Горы. Гора сильная и непоколебимая, она не отступает и не сдается, она дает надежду духам коренных жителей края, вдохновляет их жить и восстанавливаться.

Гора-Человек стоит на месте, он никуда не уходит. Значит, нужно возвращаться родные края. Горы - прибежище и сила веры самого Ашуга Алескера. Образ Горы в мифологическом мышлении рассматривает Человека не как раба, а как подтверждение его существования, и, наоборот, для Человека означает саму Гору. Ашуг Алескер не считает «рабство» недостатком для Горы. Это желание проистекает из вечной любви и веры в непобедимость и гордость Горы.

**Ключевые слова:** Ашуг Алескер, мифологическое мышление, Гора, непобедимость, две гошмы "Горы".

**Giriş.** Dağ folklor düşüncəsində yenilməzlik, güc-qüvvət rəmzidir. Təsadüfi deyil ki, bu obraz həmişə özünün sanbalını qoruyub, əcdad, yurddaş düşüncəsində ideallaşdırılıb. İdeallaşdırılmanın səbəbi türk ruhunda Dağ obrazına olan sevgidən irəli gəlir. Bu gün də belə duyğunun müqəddəsliyini qoruyub saxlaması ulusal xarakterin təbiətlə birliyindən güc alması anlamına gəlir.

R.Qafarlı göstərir ki, türkün tapındığı ilkin təbiət varlıqlarından biri dağdır. Göy Tanrısına yaxınlığına görə ulu əcdadın təsəvvüründə dağ kultlaşdırılmış, insanları yaradana bağlayan əsas vasitə sayılmışdır (3, 3).

Azərbaycan folklorunda əcdad ruhu Təbiətin Günəşiylə, Səmasıyla, Səhəriylə, Gecəsiylə, Çayıyla, Bulağıyla (Su ilə), Ağacıyla birdir. Folklor düşüncəmizin mayası təbiətdən gəlir. Bu da təbiidir. Əcdad təsəvvüründə ilkinlik təbiətdəndir: hər şeydən öncə ona görə ki, insanın jest və mimikalardan nitq imkanına kimi yol keçməsi, dil yiyəsi olması, cəmiyyət qurması (cəmiyyətləşməsi) təbiətdə mümkün olub. Dünyanın bütün bölgələrində xalqlıq imkanına yetənlər bu aqibəti yaşayıblar. Ancaq əsas məsələ təbiətə ilahi, insani münasibətdədir. Şişirtmədən demək olar, türk düşüncəsində bu yön bəşər xalqları içərisində nadirliyi, bənzərsizliyi ilə seçilir.

V.N.Toporov yazır ki, dağın mifoloji funksiyaları fərqlidir. Dağ dünya ağacının transformasiyasının ən geniş yayılmış variantı kimi çıxış edir. Dağ daha çox dünya obrazı, kosmik quruluşun bütün əsas element və ölçülərinin inikas olunduğu kainat modeli kimi qavranılır (6, 311).

Aşıqlarımızın yaradıcılığında təbiətdəki Dağın, Göyün, Günəşin, Ağacın və s. insanlaşmış obrazlarının olması təbii olaraq folklorumuzdakı əcdad düşüncəsinin yaşarılığından gəlir. Ölməyən, yoxa çıxması mümkün olmayan bu duyğu yüzildən-yüzilə, soydan-soya keçir, ənənə beləcə qırılmadan yaşayır.

Aşıq Ələsgərin yaradıcılığında Dağ obrazı canlıdır, doğmadır, dərdə həyandır, dərdi yenəndir.

Məlumdur ki, Ələsgərin iki "Dağlar" qoşması var.

Birinci "Dağlar"da ilk bənd belə başlayır:

> Bahar fəsli, yaz ayları gələndə
> Süsənli, sünbüllü, lalalı dağlar.
> Yoxsulu, ərbabı, şahı, gədanı
> Tutmaz bir-birindən alalı dağlar.

Burada Dağ – vüqar, ləyaqət (ərdəmlik) rəmzidir. Təbiətin yenidən doğuluşuyla Dağın əzəməti, böyüklüyü yenidən görünür, bilinir. Ancaq Dağ həmişə möhtəşəmdir, yenilməzdir, çünki özündə ilahilik keyfiyyəti daşıyır. Elə buna görə də "yoxsulu, ərbabı, şahı, gədanı" bir-birindən ayırmır. Dağ burada əslində ilahilik mahiyyətli (yəni yenilməz, mənəvi keyfiyyətlərə yetmiş, iradəli) insan obrazında təqdim olunur.

Mifologiyada dağ insan kimi canlı varlıqdır. Ə.Tanrıverdi yazır ki, müasir Azərbaycan, o cümlədən türk xalqları onomastikasında dağ adları və dağ anlayışı ifadə edən sözlər əsasında yaranmış şəxs adları üstün mövqedə görünür: Altay, Dağbəy, Dağbəyi, Dağxan, Qafqaz, Qoşqar, Himalay, Elbrus... (5, 22).

Dağda insanı görmək özünü anlayan, duyan, təbiətin böyüklüyünü anladığı dərəcədə də özüylə onun arasında mənəvi birlik görən əcdad düşüncəsindən irəli gəlir. Türk tanrıçılığında İnsan özündəki qüdrəti Təbiətdə görür, Təbiətdəki qüdrəti özündə. Beləcə, qəribə, hardasa izaholunmaz, əslində ruhun gözüylə görünən, ağılüstü dərk olunan mənzərə göz önündə açılır:

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, laləzar olur,
Çeşməsindən Abi-Həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar.

Burada realizmdən, yəni gerçəkliyin təsvirindən o yana nəsə varmı? İlk baxışda görünmür. Ancaq dərinə varanda Dağın insanlaşmış-ilahiləşmiş obrazının varlığı aydınca sezilir. Buranın qarı başqa yerlərin qarına bənzəməz, ucalardadır. Bu səbəbdən də xəstə üçün dərmandır. Dağın bulağı adi bulaq deyil, dirilik suyudur.

Dirilik suyu – içənləri ölməzliyə qovuşdurduğuna inanılan əfsanəvi sudur. Dirilik suyu və ümumiyyətlə, əbədi, sonsuz həyat axtarışı ilə bağlı nə qədər çox süjet olsa da, bu süjetlər əski dünya mədəniyyətlərində Bilqamıs, Oğuz xan, İsgəndər Zülqərneyn və b. kimi yalnız bir neçə şəxsin adı ilə əlaqələndirilib (1, 105).

Abi-Həyatın mövcudluğu Dağa görədir. Dağsız onun xilasçı kəraməti mümkün deyil. Mifoloji düşüncənin məntiqi bizə bunu deyir. Dağ dərdə dərman ünvanıdır, dərdi dağıdıb yox edəndir, çünki ümid kanıdır...

Yayın əvvəlində dönərsən xana,
Son ayda bənzərsən yetkin bostana.
Payızın zəmhəri qoyur virana,
Dağıdır üstündən calalı, dağlar!

Burada Dağdan üstün qüvvə - obraz Payız var. Mifoloji düşüncədə Təbiətdəki hər varlığın başqasından ayrıcalığı (xüsusiliyi), habelə bir-birini yaşatması var. Burada hansının Xeyir, hansınınsa Şər obraz olduğu ağıldan keçmir. Əslində xəlqi düşüncədə payız təbiətin bəhrəli dönəmidir, bənddə də vurğulanır. Ancaq burada realist boyakarlığın arxasında ruhun gördüyü payız gələr-gəlməz soyuq havalı Dağın yalqızlığa mətanətlə sinə gərməsidir. Məlum olur ki, soyuğu gətirən, "üstündən cəlalı dağıdan" elə Dağın özüdür. Burada Dağ – həm Payızdır, həm ayrıca özüdür, Təbiətdir, deməli, İlahilik donunda İnsandır.

Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib-gedəni pərişan eylər,
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinşəməz haramı, halalı dağlar.

Hardasa Dağın hökmlülüyü haqqında yuxarıda deyilənlər təsdiqini tapır. Mifoloji duyumdakı gerçək olur. Dağ əcdad düşüncəsindəki Tanrıdır, hər şeyə qadirdir. Türk tanrısı Türk İnsanıdır. Türk özündəki qeyri-adi duyumla Tanrı obrazı arasında ilahi uyumlu bağlılıq tapır, təbiəti (təbiətdəkiləri) tanrılaşdırır.

Ələsgərin aşıq fitrəti burada özünü bütün əzəmətiylə göstərir. O, Dağdakı İnsanı görə və təsvir edə bilir. Çovğunlu dağ havasını dəli-dolu insan halıyla müqayisə etmək, bağ yaratmaq aşığın yüksək sənətkarlığının ifadəsidir.

Maraqlıdır, bəs ilahilik obrazı olan Dağ "Gahdan qeyzə gələr, nahaq qan eylər"mi, "haramı, halalı dinşəməz"mi? Burada mifoloji düşüncədəki ərkli Dağ obrazını açıq-aydın bütün xarakteriylə görürük. Türk İnsanının Dağ obrazı Təbiətdəki canlı, yaradıcı müşahidələrinin ifadəsidir.

R.Əlizadənin fikrincə, dağa pərəstiş, onun kultlaşdırılması Azərbaycan folklorunda özünün geniş izlərini saxlamışdır. Dağ ilkin mifoloji düşüncədə kosmoqonik stixiya (yaradılış başlanğıcı) olmuşdur. Onun kosmoqonik prosesin əsas obrazlarından birini təşkil etməsi folklorda geniş obrazlar silsiləsində təmsil olunmasını təmin etmişdir. Dağ kultunu təmsil edən obrazların araşdırılması göstərdi ki, dağ obrazı animistik görüşlərlə birləşmiş və folklorumuzda dağ ruhunun müxtəlif obrazları yaranmışdır. Bu cəhətdən dağ ruhunu cansız predmetlərdə, digər tərəfdən təbiətin canlı varlıqlarında, o cümlədən insanda təcəssüm olunmuş statuslarda aşkarlamaq mümkündür (4, 49).

Tanrı Türkə ərkli olduğu dərəcədə də Türk Tanrısına ərklidir. Ona görə də Dağ (İnsan) Tanrının "nahaq qan eləməsini" görür, ancaq

ondan küsmür, əlini üzmür. Dağın “nahaq qan salması” Təbiət halının ifadəsidir. Aşıq-tanrıçı bunu anladığı üçün qoşmanın sonunda da Dağı öyür, buna haqq tapır. Ona görə ki:

Ağ xalat bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib, xətrinə dəyməz.
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar.

Burada yenə Dağın əzəli ilahi xisləti – Vüqarı göz önündə canlanır.

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı.
Ələsgər Məcnun tək yardan yaralı,
Gəzər səndə dərdli, nalalı, dağlar!

Dağ həm dərddağıdandır, həm də ki, dərd çəkəndir. Ona görə ki, Dağ – İnsandır. Onun da İnsan kimi duyan ürəyi, düşünən beyni var.

B.Ögəl yazır ki, oğuz türkləri daş-dağ ruhundan güc almalarına dərin inam bəsləmələrinə görə dağları bir torpaq, daş yığını kimi deyil, hisslər və duyğularla yoğurulmuş, insanlaşmış varlıq kimi düşünmüşlər (2, 424).

Aşıq Ələsgərin eyniadlı başqa bir “Dağlar” qoşmasında da Dağın İnsanlaşmış obrazına daha geniş çalarda rast gəlirik.

20-ci yüzilliyin əvvəllərində ermənilərin törətdiyi soyqırımı səbəbindən yaşadığı mahalı tərk etməyə məcbur olan Aşıq Ələsgər iki ildən sonra Ağkilsəyə qayıdanda faciəvi durumla üz-üzə qalır, ikinci “Dağlar” qoşması belə yaranır:

Hanı mən gördüyüm qurğu-büsatlar?!
Dərdməndlər görsə, tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəşmir atlar;
Niyə pərişandı halların, dağlar?!

Dağ dərdkeşlikdə hamıdan güclüdür, səbirlidir. Yurdun yiyəsini tanıyır, onun dərdiylə yaşayır. Ələsgər Dağa ərklidir, dərdinin səbəbini bilir. Çünki onun dərdi Dağın da dərdidir.

Qoşmada yurdun insanlarının itkiləri Dağ obrazının kədərində, qeyzində, üsyankarlığında, hiddətində görünür, bilinir. Dağ dərdməndlərdən ötədir dərd çəkməkdə, ona görə də Ələsgər dərdini ancaq ona söyləyir, rahatlıq tapır. Dağ güclüdür, sarsılmazdır ki, yağılar qarşısında belə gözünü qırpmır, təslim olmur, yurdun əzəli sakinləri olan ruh yiyələrinə varlığıyla ümid verir, yaşamağa, yenidən yurd

salmağa ruhlandırır. Dağ-İnsan yerindədir, heç yana getməyib. Deməli, Yurda qayıtmaq gərək:

Həsənnənə, Həsənbaba qoşadı,
Xoşbulaq yaylağı xoş tamaşadı.
Arsız aşıq elsiz niyə yaşadı?!
Ölsün Ələsgər tək qulların, dağlar!

Aşıq Ələsgərin elinin, özünün güvənc yeri dağlardır. Mifoloji düşüncədəki Dağ obrazı İnsanı qul yox, varlığının təsdiqi sayır, habelə əksinə, İnsan üçün Dağ özü deməkdir. Aşıq Ələsgər Dağ üçün qul olmağı əskiklik saymır. Bu istək Dağın yenilməzliyinə, Vüqarına olan əzəli sevgidən, inamdan irəli gəlir.

**Nəticə.** Qədim türklər təbiətçi olublar, təbiətə səcdəli münasibət bəsləyiblər. Bu münasibəti folklor örnəklərimizdə aydınca görə bilirik. Türk ruhu yaradıcıdır, təbiətin (doğanın) ilahi, yaradıcı gücünü duya, öyə, onunla doğmalaşa bilir. Türk ruhu habelə təbiətin ilahiliyini duyduğu, anladığı dərəcədə özü də bu ruhun qoruyucusudur.

Azərbaycan türk ruhunun təbiət-insan birliyi sarıdan ən yetkin örnəyi aşıq sənətidir. Ayrıca olaraq aşıq sənətində – dastançılıqda, saz ifalarında türkün təbiətə səcdəli münasibətinin ifadəsini görürük. Klassik saz havalarımızda – "Yanıq Kərəmi"də, "Qaraçı"da, "Dilqəmi"də, "Misri"də və b.-da türk təbiətlə birdir, mahiyyətcə bir-birinin ağılda, düşüncədə yaradıcıları, yaşadıcılarıdır.

Aşıq Ələsgərin yaradıcılığında təbiətin, ayrıca olaraq Dağın ağılda, düşüncədə insanlaşmış obrazının vəsfi diqqəti çəkir. Dağ insan kimi öyülür, sevilir, yurdun qoruyuculuq simvolu, halal, mərd, yenilməz ünvanı kimi təqdim edilir.

## QAYNAQLAR


1. Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.
2. Ögel B. Türk Mitolojisi (Kaynakları ve Açıklamaları ile Destanlar), I cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1989, 644 s.
3. Qafarlı R. Günəş səhərlər dağlardan boylanır / Tanrıverdi Ə. "Dədə Qorqud kitabı"nda dağ kultu. Bakı: Elm və təhsil, 2013, s. 3-7
4. Əlizadə R. Azərbaycan folklorunda təbiət kultları. Bakı: Nurlan, 2008, 176 s.
5. Tanrıverdi Ə. "Dədə Qorqud kitabı"nda dağ kultu. Bakı: Elm və təhsil, 2013, s. 120 s.
6. Топоров В.Н. Гора / Мифы народов мира. В 2-х томах. Том 1. Москва: Советская энциклопедия, 1980, с. 311-315

# AŞIQ ƏLƏSGƏRİN ƏSƏRLƏRİNİN AZƏRBAYCAN GEYİM MƏDƏNİYYƏTİNİN ÖYRƏNİLMƏSİNDƏ ROLU

# THE ROLE OF ASHUG ALASGAR'S WORKS IN THE STUDY OF AZERBAIJANI CLOTHING CULTURE

# РОЛЬ ПРОИЗВЕДЕНИЙ АШУГА АЛЕСКЕРА В ИЗУЧЕНИИ АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ ОДЕЖДЫ

**Fəzail VƏLİYEV**
*Tarix elmləri doktoru, fazailveli@mail.ru*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
**Gülzadə ABDULOVA**
*Tarix üzrə fəlsəfə doktoru, abdulovaaxundova@gmail.com*
*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*

**Summary**

Clothes are one of the important atributes of material culture. In the course of the development of history, national costumes have become obsolete, and people who keep information about clothes in their memories have left the life. Written information about clothes is found in the works of travelers, diplomats, and historians of antiquity. Oral folk art plays a rich role in the study of national costumes. Beginning with the epos "Kitabi-Dada Gorgud", bayats, proverbs and folk tales, and even riddles are a carrier of knowledge about national costumes. In this regard, the work of ashugs is distinguished by its originality. Since the ashugs were always among the people, they got acquainted with the life of the population, while singing to the brides, they mentioned about their clothes and ornaments, and passed valuable ethnographic information to the present day. Ashug Alasgar's work is very rich in this regard. The great master of words, "I am an ashug, there is no prohibition on my language", "There is no prohibition on ashug" (160), paints a complete portrait of the bride and groom he sings, and creates a full picture of her beauty and dress. In Ashug's works kaftan, traditional female clothes such as "nimtənə" (kaftan), "mərnus dizlik" (trouser), scarf, kelaghayi, shoes, shirt, chukha, fabric belt etc., belt, necklace, bracelet, gold decoration, earing, and other decorations are mentioned. These examples of material culture found in the works of Ashug are valuable ethnographic information and serve as an important source in the study of the national costume culture of Azerbaijan.

**Key words:** Ashug Alasgar, clothing culture, jewelry, nimtana, kaftan, kelagay, shal, shoes

**Резюме**

Одежда является одним из важнейших атрибутов материальной культуры. В процессе исторического развития национальная одежда выходила из употребления, а люди, хранившие в памяти сведения о ней, покинули нас. Письменные свидетельства об одежде, встречающиеся в произведениях путешественников, дипломатов, трудах историков античного периода носят разрозненный характер. Богатым источником в изучении национальной одежды является устное народное творчество. Начиная с эпоса «Деде Горгуд», стихи «баяты», народные пословицы и поговорки, даже загадки являются носителями знаний о национальной одежде. В этом плане ашугское искусство отличается своеобразностью. Поскольку ашуги постоянно находились в народной среде, они были знакомы с бытом населения, поэтично воспевая наряды и украшения девушек на выданье, донесли до наших дней ценные этнографические сведения. Творчество ашуга Алескера отличается большим богатством с этой точки зрения. «Я ашуг, язык мой не знает запрета», «Ашугу ничто не возбраняется» утверждает большой мастер слова, рисуя полный портрет зрелой девушки, восхваляет не только ее красоту, но и создает обстоятельное представление об ее одежде и украшениях. В произведениях ашуга можно встретить название таких элементов национальной женской одежды как чепан, безрукавка, шерстяной наколенник, шаль, платок «герати», туфельки, чувяки, сорочка, душегрейка, пояс, а также украшений – ремень, ожерелье, резьба, серьги, коралловое ожерелье и т.д., и тканей – лоскутная, тирмя, шаль, кумач, атлас, цветастая. Ценные этнографические сведения об этих образцах материальной культуры, содержащиеся в творчестве ашуга, выступают в роли важного источника изучении национальной культуры одеяния в Азербайджане.

**Ключевые слова:** Ашуг Алескер, культура одежды, украшения, минтан, kaftan, келагай, шал, башмак

Bütövlükdə türk dünyasının, eləcə də bu böyük dünyanın etnik-mədəni sisteminin bir hissəsi olan Azərbaycan xalqının bədii təfəkkürünün, təxəyyül və fəhm imkanlarının, fəlsəfi düşüncəsinin, yaradıcılıq manera-sının yüzilliklər boyunca yaranıb biçimlənən, ilkin orta əsrlərdən üzü bəri daim inkişaf etdirilən, öz tarixi inkişaf yollarında müxtəlif mərhələlərdən keçərək təkmilləşən, müxtəlif adlarla (ozan, varsaq, yanşaq, aşıq və s.) mövcud olan saz-söz sənəti zəngin və tükənməz mədəni xəzinə, milli-mənəvi dəyər, xalqın məişət və mədəniyyətinin real mənzərəsini özündə əks etdirən sinkretik sənət növü kimi həmişə seçilmiş, bu sənətin aparıcıları və davamçıları el-oba içərisində xüsusi hörmətə-izzətə, sevgiyə, inama və güvən yerinə çevrilmiş, ümumxalq rəğbətinə layiq olmuşlar. Aşıq yaradıcılığı – bu zəngin

mədəni irs bu zamana kimi müxtəlif ədəbi-bədii prizmalardan tədqiqata cəlb olunmuş, onun bir çox xüsusiyyətləri (yaranışı, biçimlənməsi, müxtəlif sivilizasiya mərhələlərində durumu, aşıq mühitləri, poetikası, saz havacatları, ayrı-ayrı azman sənət ustadlarının həyat və yaradıcılığı və s.) mükəmməl şəkildə araşdırılmış, elmi ictimaiyyətin və geniş oxucu auditoriyasının ixtiyarına verilmişdir. Lakin təəssüflər olsun ki, aşıq yaradıcılığı, saz-söz sənəti bu vaxta qədər geniş etnoqrafik tədqiqatlardan kənarda qalmışdır (6, s. 193). Tarixi inkişafımızın müxtəlif mərhələlərində xalqın dərdinə həyan, onun maddi və mənəvi dünyasının danışan dili, görən gözü, eşidən qulağı və qan yaddaşı olan bir çox sənətkarlar meydana gəlmiş, bu sənət sahəsində çox zəngin irs qoyub getmişlər. Onların (Dirili Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Məmmədhüseyn, Molla Cümə, Ağdabanlı Aşıq Qurban, Aşıq Hüseyn Şəmkirli, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Aşıq Əsəd, Borçalı Şair Nəbi, Çoban Əfqan, Xəyyat Mirzə və b.) müxtəlif mövzulara həsr olunmuş qoşma, gəraylı, müxəmməs, təcnis və b. şeir janrlarında yazdıqları şeir düzgüləri, araya-ərsəyə gətirdikləri məhəbbət və qəhrəmanlıq dastanları Azərbaycan xalqının geyim mədəniyyətinin tarixi-etnoqrafik baxımından araşdırılmasında etibarlı mənbə kimi diqqəti cəlb edir. Bunlardan biri də bu il anadan olmasının 200 illik yubileyini böyük təntənələrlə qeyd etdiyimiz ustad sənətkar Aşıq Ələsgərdir. Folklorşünas alim M.Allahmanlı haqlı olaraq yazır ki, aşıq sənəti milli mədəniyyətimizdə heç bir xalqla şəriki olmayan müstəsna sənətdir. Onunla heç nə olmadan da dünya mədəniyyəti sisteminə daxil olub layiqli yer tutmaq olar (3, s. 33). Aşıq Ələsgərin poetik dünyası məhz belə "dünya mədəniyyəti sisteminə daxil ola biləcək" poetik dünyadır. "Mən aşığam, yasaq yoxdu dilimə", "Aşığa yoxdu qadağa" (4, s. 160) deyən böyük saz-söz ustası tərənnüm etdiyi qız-gəlinin tam portretini çəkir, onun gözəlliyi ilə yanaşı, geyim və bəzəyi haqqında da dolğun təsəvvür yaradır. Göyçə mahalında anadan olmasına baxmayaraq, Aşıq Ələsgər bütün Azərbaycan bölgələrini aranlı-yaylaqlı gəzmiş, ağır el yığnaqlarını, günlərlə davam edən toy məclislərini yola vurmuş, rast gəldiyi gözəllikləri vəsf etmiş, həm də gözəllər şəninə şeirlər qoşaraq: "Ələsgərəm, gözəllərdi əzbərim!" – demişdir. Şübhəsiz ki, böyük sənətkar bu misranı deməklə, təkcə vəsf elədiyi el qızlarının mənəvi gözəlliyini, diqqət çəkəcək zahiri göyçəkliyini, ağlı-kamalını deyil, həm də onların bu gözəlliklərini tamamlayan geyim və bəzəklərini nəzərdə tutmuşdur.

Türk etnik-mədəni mühitində yaranıb formalaşmış və onun ayrılmaz tərkib hissəsi olan, eyni zamanda lokal-məhəlli xüsusiyyətləri ilə seçilən Azərbaycan milli geyimlərinin böyük qismini qadın geyimləri təşkil edir. Aşıq Ələsgər şeirlərində, müxəmməslərində bahalı parçalardan zərrin libaslar geyinən, imkanları daxilində əllərindən gələn bəzək-düzəkləri libaslarına əlavə edən, qədd-qamətli, "mina gərdənli", "lalə yanaqlı", "qaymaq dodaqlı", "kaman qaşlı", "tərlan baxışlı", "imran dilli" el gözəlləri təriflənir. Aşığın məftunu olduğu gözəllər təkcə geyimləri ilə diqqəti cəlb etmir, o, elə gözəlləri tərif obyekti seçir ki, onlarda "libas əndamına layiq, əndam libasından gözəl" olur, davranışı, ağlı-kamalı ilə nümunə göstərilir. Aşıq Ələsgərin "Mələk", "Pəri", "Fatmanın", "Xırdaca qız", "Həcər", "Şahpəri" müxəmməsləri, "Gülxanım", "Kəklik", "Maral", "Ceyran" rədifli gəraylıları, "Bəyistan", "Yaraşır", "Kimi", "Köynəyinə", "Güləndam", "Güllü", "Gülpəri", "Leyli", "Müşkünaz", "Sarıköynək", "Telli", "Xurşid" kimi gözəlləmələri onun sözün həqiqi mənasında gözəllik aşiqi, gözəl vurğunu və bu gözəllikdən rişələnən gözəllik nəğməkarı olduğunu təsdiqləyir (6, s. 54), eyni zamanda onun əsərlərini geyim mədəniyyətimizin öyrənilməsi üçün dəyərli mənbəyə çevirir. Dədə Ələsgər tərifədiyi gözəli sanki bir rəssam fırçasının qüdrətilə təsvir edir, onun libasını rəng çalarlarına, parça materiallarına qədər dəqiqliklə göstərir, bəzək elementlərinin geyim dəstini tamamladığını diqqətimizə çatdırır. Bu mənada, Azərbaycan geyim mədəniyyətini araşdıran hər hansı bir tədqiqatçının Aşıq Ələsgər yaradıcılığına müraciət etməməsi mümkün deyil. Çünki aşığın özü demişkən:

Qınamayın Ələsgəri,
Gözəlliyin məddahıdı;
Qüdrətin naqqaşına
Olubdu heyran, dolanır (4, s. 131-132).

Qeyd etdiyimiz kimi, Aşıq Ələsgər təkcə el qızlarının özünü mədh (vəsf) eləməyib, onun geyim və bəzəklərindən də gözəlin obrazını yaratmaqda istifadə edirdi. Bildiyimiz kimi, xalq düşüncəsində "Gözəllik ondur, doqquzu dondur" anlamı mövcuddur, ona görə də gözəlin gözəlliyini qabardan bu elementlər saz-söz ustalarının, xüsusən Dədə Ələsgərin diqqətindən kənarda qalmamışdır. Aşığın yaradıcılığından bir nümunəyə diqqət yetirək:

Ağ ipəkdən dizliyi var,
Gül düzdürüb yaxasına.
Başında Herat kəlağay,

Bənzər göllər sonasına.
Libası əndama layiq,
Əndam uyur libasına.
Qızıldan kəmər yaraşır
Sinəsi meydan Giləyə.
…Ağ buxağa inci mərcan,
Üstünə sim-zər yaraşır.
Mina tək gərdəninə
Yaquti-əhmər yaraşır (4, s. 136).

Göründüyü kimi, ustad aşıq dizlikdən başlayaraq yaxasına gül tikmələnmiş köynəyə, qızıl kəmərə, inci-mərcandan, qızıldan tərtiblənmiş çənəbəndə qədər geyim və bəzəklərin təsvirini verə bilmişdir. Yaquti-əhmər, qızıl kəmər, inci-mərcan və digər geyim və bəzək növləri el qızı Gilənin zəngin bir ailəyə mənsub olduğunun əlamətidir.

Aşığın məharətlə çəkdiyi qadın obrazlarından biri al-yaşıl geyinmişdir, əynində atlas qəba var, belinə şal bağlamış, telinə daraq taxmışdır:

Ətlazdan qəbalı, belində şalı,
Gövhərdən bahalı üzündə xalı.
Geydi yaşıl-alı, yaxdı mahalı,
Əyri tellər ayna qabağa düşdü…
Tellərində şana, əlində hana,
Yəmən, yaqut əhmər dodağa düşdü (4, s. 86).

Aşığın ustalıqla verdiyi bu təsvir hər hansı bir rəssam və ya etnoqraf üçün XIX əsr qadınının obrazını yaratmağa, geyim tərzi haqqında fikir yürütməyə imkan verir.

Azərbaycan qadın geyimlərinin böyük qismini baş geyimləri təşkil edir. Azərbaycanın ənənəvi qadın geyim kompleksi içərisində baş geyimləri həmişə xüsusi yer tutmuşdur. XIX-XX əsrin əvvəllərində "abır-həya, ismət və bakirəlik, qadın gözəlliyinin ülviyyət meyarı sayılan baş geyimləri şərqli qadınların daim milli ləyaqət göstəricisi olmuşdur. Bu geyim növləri çeşidlərinin müxtəlifliyi, yüksək bədii tərtibatı və bəzək harmoniyası, başlıcası isə öz mühafizəkarlığı ilə digər geyim növlərindən daha çox fərqlənmiş, Azərbaycan qadınlarının sosial-iqtisadi vəziyyətini, estetik zövqünü, etnik və sinfi mənsubiyyətini aydın əks etdirmişdir. Şərq aləmində qadınların nəinki naməhrəm yanında, hətta evdə belə başıaçıq gəzməyi qəbahət hesab edildiyindən, onların həmişə başıörtülü olması sanki yazılmamış qanun şəklini almışdı" (9, s. 22). Dədə Ələsgərin yaradıcılığında bu

baş geyimlərinin bir neçə növünün adı çəkilir. XIX-XX əsrin əvvəllərində Azərbaycan qadınının geyim dəstində geniş yer alan heratı kəlağayın adı aşığın bir neçə əsərində keçir:

Sinəm dərd əlindən oldu yaralı,
Səni görənlərin çaşır xəyalı,
Bürüyüb zülfünü başının şalı,
Heratı kəlağay şala yaraşı! (5, s. 8).

Aşıq bu misralarla həm də başbağlama formaları haqqında dəyərli məlumat verir. Belə ki, Göyçə mahalının və ona yaxın olan ərazilərin qadın başbağlama üsullarında lokal-məhəlli xüsusiyyətlər özünü göstərirdi. Bu bölgədə qadınlar, xüsusən, cavan gəlinlər başına əvvəlcə dingə qoyur, üstdən kəlağayı bağlayır, sonra onun üstündən şalı başa elə salırdılar ki, o bədənin böyük hissəsini örtürdü. Bu üsul XIX-XX əsrin əvvəllərində İrəvan, Naxçıvan bölgələrində geniş yayılmışdı. Əksər hallarda kəlağayının altından qıyqac və ya ləçəklə baş bağlanır, üstdən kəlağayı örtülürdü. Qıyqac tellərin bir yerə yığılmasına, aşıq demişkən, telin üstdən basılmasına, gizlədilməsinə xidmət edirdi:

Gözəl, sənin nə vədəndi,
Kəsilib qısa tellərin?
Kəlağayı əlvan, qıyqacı
Üstündən basa tellərin (4, s. 60).

Milli geyimlər arasında köynəklər xüsusi yer tutur. Bu geyim növü aşıq yaradıcılığında ən çox vəsf olunan geyimdir. Aşıq Ələsgər isə köynəklə bağlı elə incə məqamlara toxunmuşdur ki, onların bir qisminə başqa aşıqların yaradıcılığında rast gəlinmir. Məsələn, geyimlərin bəzədilməsində istifadə olunan "güləbətin qıy"ı ustad nəzmə bu cür çəkmişdir:

Güləbətin qıyı tər sinən üstə,
Nə gözəl yaraşır qız köynəyinə ( 4, s. 58).

Üst geyimlərinin yaxası açıq olduğu üçün köynək diqqət çəkici olur, ona görə də onun yaxasının bəzənməsinə xüsusi önəm verilirdi. Bəzəklər əksər hallarda qızıl, gümüş sikkələrdən və zərgərlik məmulatından olurdu. Onlardan biri haqqında Aşıq Ələsgər belə məlumat verir:

Gözəl yaranıbsan qali-bəladan,
Yanağın göyçəkdi güldan, laladan.
Zərgər gül doğrasın zərin tiladan,
Əlindən gəldikcə düz köynəyinə (4, s. 59).

Aşığın Misirdən gəlmiş köynəkdən bəhs etməsi (4, s. 252) isə xalqlar və ölkələr arasındakı ticarət-iqtisadi və etnik-mədəni əlaqə-

lərdən soraq verir. Aşığın yaradıcılığında diqqət çəkən məqamlardan biri də geyimin ətəyinin muncuqla bəzənməsidir:

Ağ ipəkdən dizliyi var,
Köynəyini geyib sarı;
Gərdənə həmayıl salıb,
Ətəyə düzüb mirvarı (4, s. 140).

Azərbaycan geyim mədəniyyətində köynəyin ətəyinə qızıl və gümüş bəzəklər və sikkələr asılması geniş yayılmışdı. Bu bəzəklər "ətəklik" adlanır və gənc xanımların köynəyinə tətbiq olunurdu (2, s. 189). Köynək ətəyinə muncuq düzülməsinə isə rast gəlinməmişdir. Ona görə də aşığın adını çəkdiyi ətək tuman və ya küləcə ətəyi olduğu şübhəsizdir. Sənətkarın dizliyin adını çəkməsi də bu fikri təsdiq edir. Həmin tumanlar digər bölgələrə aid tumanlardan gödək olduğu üçün dizliklə və ya şalvarla (tumanla) geyilirdi (1, s. 95). Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında məhz İrəvan və Naxçıvan bölgələrinə aid muncuq tikmə üsulu ilə bəzədilmiş tumanlar və bir küləcə nümunəsi qorunur.

Mələk adlı bir el gözəlinin tərifinə həsr etdiyi müxəmməsdə Dədə Ələsgər nimtənənin adını çəkir ki, bu geyim əsasında həmin şeirin aşığın gənclik illərində yazıldığını söyləmək olar. Çünki orta əsrlər dövründə geniş yayılmış nimtənə artıq XIX əsrin ortalarında Azərbaycan milli qadın geyimləri sırasından çıxmışdır. Aşıq nimtənənin adını çəkməklə kifayətlənmir, onun parça materialı haqqında da dəyərli məlumat verir:

Geyinib əndamına
Əbrü ətlaz, alı gözəl;
Xara don, zərrin nimtənə,
Başındakı şalı gözəl (4, s. 147).

Zərrin adlandırılan parça XVIII-XIX əsrin birinci yarısında imkanlı təbəqənin geyim dəstində geniş istifadə olunurdu. Üzərində zərli naxışları olduğu üçün parça belə adlanırdı. Başqa folklor nümunələrindən də nimtənənin zər işləməli parçadan olduğu məlumdur (11). Şeir parçasında əksini tapan xara, atlas dövrün məşhur parçaları olmuşdur.

Çəpkən XIX əsrin sonlarına qədər qadın geyim dəstində əsas yer tutmuş, Qarabağda, Bakı-Şirvan bölgəsində geniş istifadədə olmuşdur. Onun adı aşıq yaradıcılığı və klassik poeziya nümunələrində, xüsusən M.P.Vaqifin əsərlərində dəfələrlə xatırlanmışdır. Aşıq Ələsgər isə bu geyimi özünəməxsus ustalıqla təqdim edir:

Çəpkəni hər rəng çalır,
Tovuzun cığası kimi;
Baratdı, behiştdən gəlib,
Geydirib qılman gözələ (4, s. 139).

Digər bir nümunədə isə aşıq çəpkənlə yanaşı, ilk dəfə rast gəldiyimiz mərnus dizliyin də adını çəkir:

Qüdrətdən çəkilib qaməti-şahbaz,
Mərnus dizlik geyib, çəpkəni atlas,
Buxaq düymələnib, kağızdan bəyaz,
Mərcan düzüb boyunbağı qırmızı (4, s. 62).

Aşıq Ələsgərin əsərlərində hətta ayaq geyimlərinin də adı çəkilir ki, bu geyimlərin bəzisinin adına aşıq yaradıcılığında ilk dəfə rast gəlinir. Böyük sənətkar sağrı başmaq, kalman çarıq və məs kimi ayaq geyimlərini öz əsərində tarixiləşdirmişdir:

Yaraşır əndamına
Yaşılı, alı gözəlin,
Ayağına sağrı başmaq,
Başına şalı gözəlin (4, s. 125).

Bundan başqa, Aşıq Ələsgər ustalıqla bir misrada iki ayaq geyimi (başmaq və məs) haqqında məlumat verə bilmişdir:

Əylən məclisinə gəl, məsini gör,
Sağrı başmaq geyib, gəlməsini gör (5, s. 24).

XVIII-XIX əsrlərdə qadın geyim dəstində "baharı", "katıbı" ("katıvı"), "küləcə" adı ilə tanınan geyim də əsas yer tutmuşdur. Yüksək təbəqənin geyim dəstinə daxil olan küləcələr bahalı tirmə, məxmər parçalardan tikilir, müxtəlif tikmə üsulları, geyim bəzəkləri ilə bəzədilir, yaxasına qızıl, gümüş qozalar düzülürdü. Bu geyimin adı aşıq yaradıcılığında və klassik poeziya nümunələrində az xatırlanır. Aşıq Ələsgər Şahpərinin tərifində onun küləcəsinə də yer verir:

Silkinir, qumrovları
Zey-zey deyir, gəlir səsi;
…Əynində xas güləçə,
Ətəyində zər baftası;
Qaməti ər-ər kimi,
Əcəb yaraşır libası;
Vəsfini söyləməyə
Olmuşam imran, Şapəri! (4, s. 155).

Dədə Ələsgər əhali arasındakı sosial bərabərsizliyin geyimlərdə özünü necə əks etdirdiyini ustalıqla bəyan edirdi:

Kimi atlas geyir, tirmə qurşayır,
Kimi üryan gəzir qarın içində (4, s. 55).

Aşığın yaradıcılığında rast gəldiyimiz maraqlı məqamlardan biri də niqab haqqında məlumatlardır. Niqabın adı "Kitabi-Dədə Qorqud" dastanında çəkilsə də, onu cəmi 4 adamın daşıdığı qeyd olunur (7, s. 218). Həmin niqablar xüsusi tərzdə, metaldan hazırlanırdı. Dastanda Burla xatunun Qazanın qarşısında niqab qaldırması isə rübəndlə qarışdırılsa da, digər boylarda qadınların geniş şəkildə niqab daşımadıqları, müstəsna hallarda yaşmaqlandığı məlum olur (6, s. 56). Azərbaycan qadınının niqab və ya rübənddən istifadə etməsi islamın gəlişindən sonra, xüsusən şəhər mühitində geniş yayılmışdır. Usdad aşığın yaşadığı Göyçə mahalı və ona qonşu olan Qarabağda niqabdan nadir hallarda istifadə olunmuşdur. Qadınlar əsasən yaşmaqdan istifadə etmişdir. Aşıq niqablı qadınlara səfər etdiyi ərazilərdə, Naxçıvan, Ordubad və s. ərazilərdə rast gələ bilərdi. Bununla belə, onun əsərlərində niqab adına tez-tez rast gəlinir:

Aç niqab altından mah camalını,
Aləmi hüsnünə ha mayıl eylə! (4, s. 96)

Yaxud da:

Yel vurdu, rübəndi atdı üzündən,
Elə bildim doğdu ay, sarıköynək!

Bəlkə də, aşıq yaşmaq sözünü niqabla əvəzləyərək istifadə etmişdir.

Geyim mədəniyyətinin vacib ünsürlərinin bir hissəsi də bəzəklərdir. XIX-XX əsrin əvvəllərində qadın geyim kompleksini bədii-dekorativ cəhətdən tamamlayan, onun milli koloritini və estetik bütövlüyünü təmin edən bəzəklər çoxçeşidli hazırlanmaqla, bir qayda olaraq, zər-ziba içində süstlənən bəy, ağa, xan, tacir-tüccar qadınlarının libaslarında üstün yer tutmuşdur (10, s. 324). İstər aşıq şeirində, istərsə də klassik poeziya nümunələrində ən çox adı çəkilən bəzək növü gümüş kəmərlərdir. Heç bir gəlini kəmərsiz təsəvvür etmək mümkün deyildi. Gəlin xonçasına gümüş kəmərin qoyulması vacib şərt idi. Kasıb ailələrdə bu kəmər misdən, daha imkanlı ailələrdə isə qızıldan olurdu (1, s. 195). Aşıq yaradıcılığı və klassik poeziya nümunələrində qızıl kəmərin adına çox nadir hallarda rast gəlinir. Bu da xalqın maddi durumu ilə bağlı idi. Aşıq Ələsgərin müxəmməslərindən birində qızıl kəmərin də adı çəkilir:

Libası əndamına layiq,
Əndamı uyur libasına.
Qızıldan kəmər yaraşır
Sinəsi meydan Giləyə (4, s. 136).

Gümüş kəmərin adı isə aşığın yaradıcılığında tez-tez və özünəməxsus ustalıqla çəkilir:

“Bəxtəvər gümüş kəmər
Qucur qəddi-qalı gözəl” (4, s. 147)
“Mənim yarım inci geyib, incidir,
İncə beldə gümüş kəmər, inci, dürr (4, s. 104) və s.

Aşığın işlətdiyi və bu günümüz üçün istisnasız olaraq arxaizmə, tarixizmə çevrilmiş ifadələrin – çəpkən, küləcə, sağrı başmaq, dizlik, güləbətin qıy, məs, həmayıl, tana, herat kəlağay, şal və s. haqqında muzey materialları əsasında məlumat almaq mümkündür. Amma mərnus dizliyin, Misirdən gəlmiş köynəyin necə olması haqqında məlumatların əldə olunmasına, “Kəsəmənli nə cür geyir papağı?” (4, s. 187) – sualına cavab tapmağa ehtiyac vardır. Aşıq Ələsgərin yaradıcılığı təkcə geyim mədəniyyətinin deyil, ümumiyyətlə, Azərbaycan etnoqrafiyasının öyrənilməsində qiymətli mənbədir. Ona görə də onun yaradıcılığı daim öz aktuallığını qoruyub saxlayacaqdır.

## QAYNAQLAR


1. Abdulova G. Azərbaycan qadın geyim və bəzəklərinə dair // AMEA Xəbərlər (ictimai elmlər seriyası), №4, Bakı 2015, s. 88-109
2. Abdulova G. Azərbaycan qadın geyim bəzəkləri. Bakı, 2010, s.185-198
3. Allahmanlı M. Aşıq yaradıcılığında genezis anlayışı // Ozan aşıq yaradıcılığının inkişaf yolları (tərtibçilər: M.Allahmanlı, Rza Xəlilov). Bakı, 2013
4. Aşıq Ələsgər. Seçilmiş əsərləri. Bakı, 2004
5. Azərbaycan aşıq şeirindən seçmələr. 2 cilddə, II cild, Bakı, 2005
6. İmranoğlu F.V. Azərbaycanın maddi mədəniyyəti aşıq yaradıcılığında. Bakı, Mütərcim, 2021
7. Kitabi-Dədə Qorqud. Bakı, 2004
8. Kitabi-Dədə Qorqud ensiklopediyası. İki cilddə. II cild. Bakı, 2000
9. Vəliyev F., Abdulova G. Örtübən başına şalı-zər gəzər... Azərbaycanın ənənəvi qadın baş geyimləri. // İşıq Qadın jurnalı № 4 (72), 2012
10. Vəliyev F. Azərbaycanın ənənəvi qadın bəzəklərinin tarixindən // Azərbaycan Tarixi muzeyi. 2006. Bakı, Elm, 2006
11. https://www.azeribalasi.com/showthread.php/49074-a-nimtene-nimtene

# QƏDİM AŞIQ SƏNƏTİNİN VARİSLƏRİ

# HEIRS OF THE ANCIENT ASHUG ART

# НАСЛЕДНИКИ ДРЕВНЕГО АШУГСКОГО ИСКУССТВА

**Firuzə SADIQOVA**
*Bakı Dövlət Universitetinin dissertantı*
*firuzeesgerova@icloud.com*

**Summary**

Elements of music, poetry, exploration, dance, pantomime, and theatrical art are organically combined in the art of ashug. In addition to the genres of ashug poetry, the couplet, gerayli, mukhammas, ustadname, along with the lock, there are the types of couplet's tajnis and jigali tajnis. One of the most common types of ashug music is solo singing accompanied by music. Playing the saz has gradually acquired an independent artistic significance in the process of historical development.

In the work of the ashug, the appendix covered a wide and diverse range of content, and the artists who used its opportunities were able to expand their spiritual, moral, philosophical and didactic views, reminders, exhortations and other moral values through it. It is one of the images of poetry used in epics of heroism and love. It is one of the most frequently used forms by many classical poets and modern poets who write in their mother tongue. Folk epic creativity, expressed in the artistic form of the saga, models the truth in a unique way within the artistic tradition, organizes the historical past in such a way that centuries-old experience is combined with the ideals, will and views of the people. The name of the saga, which embodies all the features of the ashug's work, creates a certain connection, because the names of most of the epic epics of the Turkic peoples are associated with the names of their heroes or the fathers of the heroes.

**Key words:** ashug, art, performance, creativity, literature

**Резюме**

В искусстве ашуга органично сочетаются элементы музыки, поэзии, исследования, танца, пантомимы и театрального искусства. Помимо жанров ашугской поэзии, двустишия, герайли, мухаммаса, устадname, наряду с замком, существуют виды куплетного таджниса и джигали-тайниса. Один из самых распространенных видов ашугской музыки - сольное пение под музыку. Игра на сазе постепенно приобрела самостоятельное художественное значение в процессе исторического развития.

В творчестве ашуга приложение охватывало широкий и разнообразный спектр содержания, и художники, использовавшие его возможности, могли распространять через него свои духовные, нравственные, философские и дидактические взгляды, напоминания, советы и другие моральные ценности. Это один из образов стихов, используемых в эпосах о героизме и любви. Это одна из наиболее часто используемых форм поэтами-классиками и современными поэтами, которые пишут на своем родном языке. Народное эпическое творчество, выраженное в художественной форме саги, уникальным образом моделирует истину в рамках художественной традиции, организует историческое прошлое таким образом, что многовековой опыт сочетается с идеалами, волей и взглядами люди. Название саги, воплощающее в себе все особенности творчества ашугов, создает определенную связь, ведь названия большинства эпических эпосов тюркских народов связаны с именами их героев или отцов героев.

**Ключевые слова:** ашуг, арт, перформанс, творчество, литература

Aşıq sənətinin izləri xalq arasında geniş yayılmış əfsanələrdə, söylənmələrdə, nağıllarda, xalq mərasimlərində qədimlərdən bəri yaşamaqdadır. Aşıq sənəti öz qədim köklərinə, ənənələrinə sadiq qalmaqla yanaşı, həm də incəsənətin bir çox sahələrini özündə birləşdirən sinkretik sənətdir. Sinkretizm sənətin çox qədim nümunələrinə xas olan cəhətdir. Aşıq sənəti şeir, musiqi və rəqsin ayrılmaz sintezindən ibarətdir. Babalarımızın sənət və gözəllik adına yaratdıqları: ən ulu, ən qədim, alətlərdən biri sazdır. Saz öz tərəf müqabili aşıqla ictimai şüurun yüksəlişində həmişə yaxından iştirak etmişdir. Bu baxımdan saz, aşıq sənəti ictimai quruluşların bütün dövrlərində xalqımızın mənəviyyatına güclü təsir göstərmişdir.

Şaman, qam, varsaq, baxşı, yanşaq, ozan və daha başqaları aşığın əcdadı olmuşlar. Aşıq sözü isə təxminən XI-XII yüzilliklərdən işlənir. Paşa Əfəndiyev isə aşıq sözünün XIII-XIV əsrlərdən işləndiyini söyləmişdir. Həmin bu sənət növlərini yaradıb yaşadan qəbilə və tayfaların tarixi eramızdan əvvələ gedib çıxdığından onların haqqında çox az məlumat dövrümüzə qədər gəlib çıxmışdır.

Şamanlar həyatın müxtəlif sahələrinə nüfuz edib xalqın bütün dərdi-sərinin bilicisi təsiri bağışlayır. O həm müğənni, həm təbib, həm ruhani ata, həm gələcəkdən xəbər verən peyğəmbər və s. səciyyə daşıyırdı. Şamanlar eyni zamanda musiqiçi idilər. Onlar öz nəğmələrini gözəl çalıb oxumaq qabiliyyətinə malik olmuşlar.

Varsaq isə Azərbaycanın qədim qəbilələrindən birinin adı ilə bağlıdır. Qara Namazov varsaqlar haqqında belə məlumat vermişdir:

“Varsaq tayfası Şah İsmayıl hakimiyyətinə qədər nüfuzlarını qorusalar da, digər türkdilli qəbilələr kimi vahid hakimiyyət tərkibində ərimişlər. Onların varisi sayılan və adını hifz edən varsaqların şeir və musiqi sənəti də öz yerini sonralar aşıq sənətinə vermişdir” (7).

Varsaqlar adı daşımış sənətkarların simasında IV-V əsrlərdə incəsənətin bir sıra sahələri toplanmışdır. Varsaq çalır, oxuyur, artistlik və rəqs edirmiş. Varsaq hazırcavab, səliqəli geyinmiş adamlara, söz ustadına və ümumiyyətlə, ustada deyilir. Belə sənətkarlar indi aşıq adlanır.

Varsaq, ozan, aşıq adlarının ümumi ərazi yayılma istiqamətinə nəzər saldıqda belə bir qənaətə gəlmək olar ki, bu sənəti yaşadanlar indiki Azərbaycan, Anadolu istiqamətində yaşayıb fəaliyyət göstərmişlər. Varsaq sözünün etimologiyası da göstərir ki, bu söz türkdili xalqlar arasında müdrik el ağsaqqalı kimi həssas ayıq-sayıq qayğıkeş və şan-şöhrət sahibinin ünvanına söylənərmiş.

Aşıq poeziyası folklorun başqa janırlarına nisbətən yazılı ədəbiyyatla daha yaxındır. Lakin təəssüflə qeyd edilməlidir ki, əsrlərdən bəri ağızdan-ağıza, nəsildən-nəslə keçən görkəmli söz ustalarının yaradıcılığı ətraflı tədqiq olunmamışdır. Xüsusilə, aşıq poeziyasının qüdrətli nümayəndələrinin Azərbaycan şeirinə gətirdiyi mütərəqqi təsir indiyə kimi geniş öyrənilməmişdir.

Aşıq poeziyası həm forma, həm də məzmunca çox rəngarəngdir. Görkəmli söz ustaları şifahi xalq şeirinin bütün növlərindən istifadə etdikləri kimi, eyni zamanda klassik poeziyamızın müxəmməs, qəzəl və b. janrlarına da müraciət etmişlər.

Aşıqları əsasən üç qrupa ayırmaq olar: birinci qrupa ustad aşıqlar daxildir. Onlar aşıq sənətinin ustalarıdır. Molla Qasım, Şirvani, Yunis İmrə, (XIII əsr), Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Qaraca oğlan, Şəmkirli Aşıq Hüseyn, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Növrəs İman, Molla Cümə, Bozalqanlı Aşıq Hüseyn, Aşıq Şenlik, Aşıq Əsəd, Aşıq Şəmşir, Mirzə Bilal, Hüseyn Cavan, Mikayıl Azaflı və b. bu qrupa daxildir.

Azərbaycan xalq şeirinin ən böyük nümayəndələrindən və bu şeirin ən uca zirvələrini fəth edən Aşıq Ələsgər 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində dünyaya gəlib. Dövrünün qüdrətli sənətkarı Aşıq Alı onun gələcək taleyini büsbütün dəyişir. Fitri istedadı, kəskin hafizəsi, şəxsiyyəti, nəcibliyi ilə hər kəsdən seçilən Ələsgər beş il Aşıq Alıya şəyirdlik edir, saz dünyasının sirlərinə bələd olur, ustadlıq mərtəbəsinə yetişir. Aşıq Ələsgər böyük Azərbaycan şairləri Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi və

Şərqin digər şairlərinin əsərləri ilə yaxından tanış olub. O həm də bəstəkar aşıq kimi tanınıb. Onun "Göyçəgülü", "Zarıncı", "Orta Şərili", "Şərili Dübeyti" havaları məşhurdur. Gözəlliyə, sevgiyə, torpağa, vətənə, təbiətə münasibət Aşıq Ələsgər yaradıcılığında yeni bir formada, real və səmimi boyalarla əks olunur. Onun yaradıcılığında dinləyicilərə əxlaqi nəsihətlər, mənəvi dəyərlər aşılayan şeirlər – ustadnamələr mühüm yer tutur. Aşıq Ələsgər poeziyasında dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divan şeir növləri özünü ən gözəl şəkildə, yüksək sənətkarlıqla büruzə verir. Azərbaycan ədəbiyyatı tarixində şərəfli yer tutan Aşıq Ələsgərin zəngin poetik irsi Azərbaycanın bir çox aşıqları üçün əsl sənətkarlıq məktəbi olub.

Ustad aşıqlar yalnız aşıq yaradıcılığını mükəmməl bilmələri ilə deyil, eyni zamanda coşğun şairlik təbinə malik olmaları, yaxşı saz çalmağı, məclis aparmaq bacarığı ilə də fərqlənirlər. Bu sənətkarların şeirləri əsasında xalq dastanları yaranır. Həmin dastanları bəzən ustad aşıqların özləri, bəzən də onların şeirləri əsasında başqa aşıqlar yaradır. Ustad aşıqların onlarla şagirdləri olur. Bu şagirdlər həmin sənətkardan aşıqlıq sənətinin sirrini, saz çalmaq, məclis aparmaq, məhəbbət və qəhrəmanlıq dastanlarını öyrənirlər. Aşıqlıq sənətinə mükəmməl yiyələndikdən sonra, ustadının razılığı ilə gənc aşığa müstəqil aşıqlıq etməyə icazə verilir. Hər bir ustad aşıq öz şagirdləri ilə fəxr edir, bəzən dəyişmələrdə, hərbə-zorbalarda özünün neçə nəfər şagird yetirdiyini fəxrlə qeyd edir. Ustad aşıqlar öz şagirdlərinə aşıq sənətinin bütün incəliklərini, zəngin xalq poeziyasının sənətkarlıq xüsusiyyətlərini öyrədir, aşıqlıq adının böyüklüyünü, müqəddəs peşə olduğunu anladır, xalqın etimadını doğrultmağı tövsiyə edir. Bu cəhətdən Ələsgərin aşağıdakı qoşması aşıq sənətinin mahiyyətini anlamaq üçün səciyyəvidir:

Aşıq olub tərki-vətən olanın,
Əzəl başdan pürkamalı gərəkdir...
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdir (1, 50).

Göründüyü kimi, bu nümunədə aşığın mənəvi aləmi, sənətkarlıq qüdrəti, onun xalq arasında müdrik bir məsləhətçi olması üçün hansı xüsusiyyətə malik olması təsvir olunmuşdur. Aşıq Ələsgərin dediyi keyfiyyətə malik olan ustad aşıqlar xalqın qeydinə qalan, onun mənəvi ehtiyacını ödəmək qabiliyyətinə malik aşıqlar nəsli yetişdirirlər. Bu aşıqlar ağıllı, bilikli, "xalqa həqiqəti başa salan" sənətkar olmalıdır.

İkinci qrupa daxil olan ifaçı aşıqlardır. Bunların şairliyi, fərdi yaradıcılıq istedadı olmasa da, gözəl səsə, yaxşı saz çalmaq və məclis aparmaq qabiliyyətinə malik olurlar. Onlar əsrlərdən bəri yaranan və ustad aşıqların indi də inkişaf etdirdiyi zəngin xalq poeziyasını, epik əsərləri öyrənir və gələcək nəsil üçün yaşadırlar. İfaçı aşıqların da şagirdləri olur.

Üçüncü qrupa aşıq poeziyası üslubunda şeir yaradan el şairləri daxildir. Onların çoxu məclis aparmağı bacarmır, saz çalmağı bilsələr də, yaxşı oxumaq qabiliyyətləri olmur. Lakin bu sənətkarlar aşıq poeziyasını zənginləşdirir, dövrün aktual məsələlərini öz şeirlərində əks etdirirlər. Bu mənada el şairləri aşıq poeziyasına yeni nəfəs, ictimai məzmun gətirirlər. Onların əsərləri klassik aşıq şeiri formasında olsa da, burada müasirlik son dərəcə güclüdür.

Vətən məhəbbəti, onun füsunkarlığı el-obadan didərgin salınan, qul edilib bazarlarda satılanların ifadəsində o qədər mənalı, əzəmətli və güclüdür ki, onu adicə bir gəraylıda, qoşmada, bayatıda eşidəndə belə, kimliyindən asılı olmayaraq hər kəs düşünüb-daşınır. Onun dərdinə, əleminə şərik olur.

Orta əsrlərdə aşıq lirikasında vətənlə əlaqədar deyilənlər diqqəti iki cəhətdən cəlb edir.

Birincisi, lirik qəhrəmanın vətəninə bütün varlığı ilə bağlılığı, ikincisi, bugünkü oxucusunda da belə qüvvətli vətənpərvərlik əhvali-ruhiyyəsi yaratmaq:

Qəribəm, yoxdur arxam,
Qanadım yoxdur qalxam.
Çıxıram qəlbi dağlara
Bir vətən sarı baxam (2, 16).

Orta əsr aşıq şeirində həyat eşqi, mübarizə və düşmənlərə qarşı qələbə meyli son dərəcə qüvvətlidir:

Dağlara bir ün düşər,
Bulud gedər, gün düşər:
Düşmənə düşən fürsət
Mənə də bir gün düşər.

Sanki bu bayatı yadellilərin təzyiqinə, istismarına qarşı xalqımızı mübarizə ruhuna hazırlayır. Mübarizəyə qalxanlarda güclü vətənpərvərlik hissiyyatı oyatmaq üçün qarı düşmənə boyun əyməməyin tərənnümü orta əsr aşıq lirikasında əsas motivlərdən biri kimi səslənməkdədir.

Vətən viran olsa, cənnətdən gözəl olması, qürbətdə xan olunca, vətəndə dilənib gəzmək, onun nəfəsini, şirin laylasını ana kimi həzin səsini duymaq klassik aşıq lirikasında əsas mövzunu təşkil etmişdir. Təsadüfi deyildir ki, vətən mövhumu çox haqlı olaraq bayatılarımızda ana müqəddəsliyi ilə müqayisə edilir.

Burda yolum oldu tən,
Varmı bu yoldan ötən,
Bu dünyada şirin şey
Bir anadır, bir vətən (2, 17).

Qədim azərbaycanlıların ən ulu və geniş yayılan bədii yaradıcılığı daha çox ozan sənətində qorunub yaşanmışdır. Ozan sənəti çoxşaxəli məna çalarlarına malik olub sənətin bir neçə növünü özündə birləşdirir. Ozanın çalğıçı bəstəkar, şair, ifaçı, rəqs edən, nağıl və dastançı, insanlara ağıllı, işıqlı yol göstərən onun gələcəyindən xəbər verən müdrik bilici və nəhayət, xəstələrə şəfa verən loğman olması söylənilir. Ozanların yaratdıqları oğuznamələr, şübəsiz, ilkin oğuzların bədii abidələrinin kökləri üzərində qol-budaq atmışdır. Ozanların yaratdıqları sonuncu Oğuznamə - "Dədə Qorqud" dastanları bizə gəlib çatmışdır. Bu nisbətən mükəmməl şəkildə dünya mədəniyyətinin xəzinəsinə daxil olan "Kitabi-Dədə Qorqud" dastanıdır (7, 19).

Müasir Azərbaycan aşıqlarının əcdadları olan qədim ozanların həyatından, sevgisindən, qəhrəmanlığından bəhs edən ən qədim epik əsər "Kitabi-Dədə Qorqud" dastanıdır. "Kitabi-Dədə Qorqud" qədim ozanlar tərəfindən yaradılmışdır. Dastanın boylarında qədim Azərbaycan ərazisində mövcud olan qəbilə quruluşu, onların yadelli basqınçılara qarşı mübarizəsi, feodal birləşmələrinin yaranması öz geniş bədii əksini tapmışdır. Dədə Qorqud boylarında ozanlar həmişə xalqın xeyir və şərində ağıllı məsləhətçi olmuş başbilən kimi təqdim və təqdir olunurlar (5, 15).

Ozandan sonrakı mərhələ aşıq mərhələsidir. Ozanın aşıq sözü ilə əvəz olunmasının dəqiq vaxtı məlum deyil. Bir çox ədəbiyyatlarda aşıq sözünün təxminən XII-XIV əsrlərdən işləndiyi haqda məlumat verilir. Tətqiqatçılar aşıq sözünün mənşəyindən danışarkən onun bir neçə mənasını açıqlamışlar. Bir sıra tədqiqatçılar aşıq sözünün ərəb dilindəki aşiq sözündən olduğunu, vurulmaq, bənd olmaq, məhəbbət bəsləmək anlamına gəldiyini söyləmişlər. Başqa bir qrup tədqiqatçılar isə aşıq sözünün türkdilli xalqların işıq sözündən olduğunu söyləmişlər. Aşıq sözünün aşılamaq sözündən əmələ gəldiyi fikrini də söyləyənlər olub.

Aşıq yaradıcılığı Azərbaycan ədəbiyyatının əsas, aparıcı bir qolunu təşkil edir. Aşıq yaradıcılığı geniş, çoxşaxəli olduğu qədər də qədimdir və zəngin, eyni zamanda keşməkeşli bir inkişaf yolu keçmişdir. Əsrlər keçdikcə nəsildən-nəslə ötürülərək bu günümüzə gəlib çıxan aşıq yaradıcılığı xalqın ruhunu, zövqünü oxşamış, dövrün ictimai-siyasi həyatını əks etdirmişdir. Xalqla möhkəm, qırılmaz əlaqədə olan aşıq yaradıcılığı həyatın və dövrün tələbinə uyğun inkişaf edərək müxtəlif mərhələlərdən keçmişdir.

Bu sənətin yaradıcısı aşıqlardır. Həmişə xalq içərisində yaşayan aşıqın yaradıcılığı üçün xalqın həyatı və mübarizəsi bir qaynaq, bir mənbə olmuşdur. Daim xalqın içində yaşamış Aşıq Ələsgərin yaradıcılığına müraciət etdikdə görərik ki, "Çıxıbdı" rədifli qoşmasında xalqın həyat tərzi əks olunub.

Pristav, naçalnik gələndə kəndə,
Obanı, oymağı vururlar bəndə,
Xərc üstə çoxları düşdü kəməndə,
Qamçıda belinin qatı çıxıbdı (1, 21).

Xalqın bədii düşüncəsi özünün ilk qaynağını təbiətlə insanın təmasından götürmüşdür. Hələ mifoloji mənəvi inkişaf mərhələsində ulduzlar aləminin sirli-sehrli varlığı, təbiətin ecazkar gözəllikləri ideallaşdırılardı. Getdikcə təbiət xalqın estetik idealının əsas məhvərindən birinə çevrilir. Təbiət bir tərəfdən maddi nemətlər ocağı kimi vəsf edilir. Bu baxımından xalq yaradıcılığının digər növləri ilə aşıq sənəti arasındakı yaxınlıq özünü daha aydın göstərir. El aşıqları təbiət gözəlliyinin insana ecazkar təsirini müxtəlif variantlarda öz dinləyicilərinə çatdırırlar. Əsasən gözəlləmələrdə vəsf olunan gözəlin təbiət gözəlliyi ilə müqayisəsinə fikir verilir. Aşıq insan varlığının uca olduğunu yaxşı anlayır, insanın həm fiziki, həm mənəvi gözəlliyini ülviləşdirir. Bununla belə, insanı təbiətdən ayırmır. Məsələn, Qurbani sevgilisi ilə görüşünü könül oxşayan, ruh təzələyən baharın gəlişinə bənzədir. Elə bil sevgilisində təbiət təzələyən bahar əyyamının bütün büsatını duyur (3, 58):

Gözlərin nərgizdir, hüsnün mahtaban,
Açılıb gül, süsən, sünbül, ərcavan,
Zanbağı, yasəmən, bərki-ireyhan,
Fəsli-bahar gülüstanım, xoş gəldin (6, 61).

Aşıqların babası Qurbaninin şeir gülüstanında vətən də var, vətənpərvərlik də, yurd da var, el sevərlik də, ayrılıq da var, həsrət də, vüqarlı dağlarımız da var, axar-coşar çaylarımız da, şır-şır bulaq-

larımız da, səfalı seyrəngahımız da. Çəmən də var, çiçək də. Tikanlıq da var, tər bənövşə də, ətir də var, ətirşah da. İsmətli sonalar da var, məhbublar, xublar da. Zəmanədən küsmək də var, çərxi-fələkdən şikayət də. Hamısı da qədərində, məqamında, vədəsində, bərəsində. Hamısı da sədəf düzümü, zərgər naxışı kimi.

Qurbaninin göz açdığı Dirili kəndi bağlı-bağatlı, tər bənövşəli, laləli-nərgizli, ətirli çiçəklərlə dolu olan Dirili dağının qoynunda olub, qalın meşəsi, uca çinarları, nar kolları, üzüm və əncir bağları, şirin bulaqları, hər cür ov heyvanları, gözəl zəmi və tarlaları, Xan Arazın gur suları ilə dünyanın ən zəngin və ən gözəl guşələrindən idi. Elə buna görə də şairi ən çox insan və təbiət, insan məhəbbəti, təbiət gözəllikləri əfsunlamışdır. O, öz ilhamını ana vətəndən, onun uca dağlarından, keçilməz meşələrindən, gur çaylarından almışdır.

Bu yerlər öz füsunkar təbiətini yenə də qoruyub saxlamışdır. Diri dağının zirvəsinə doğru uzanan dərələrdə əncir, üzüm və nar bağları insanı xəyalən 500 il əvvələ aparır. Qurbani bulağı uca çinarlara dirilik verir. Kəkliklərin qaqqıltısı yolçunu yoldan eyləyir.

Qurbani insanı, insanın daxili, ruhi aləmini, təbiətin gözəlliklərini dərindən duymuş, yüksək şair istedadının gücü ilə onları ustalıqla mənalandıra bilmişdir. Təbiətin gözəl guşəsində doğulan Qurbaninin təsvir etdiyi sevgili obrazı pəri də təbiətin özü qədər saf, gözəl, təravətli, zərif və sevimlidir. Qurbani pərisi bahar nəsimi kimi xoş, dağ çiçəkləri kimi ətirlidir. Onun qəlbində kədər də var, dodaqlarında təbəssüm də. Küsməyi də var, barışmağı da. Vətənin özü qədər sevimlidir. Bir qönçə kimi xarı da var, bir laçın kimi sarı da. Bəzən bu gözəlin öz əli ilə yandırdığı çırağı yaxmağı da var, oğrun-oğrun baxmağı da. Bunlar real insanın dərin duyğularının ifadəsidir.

Aşıq yaradıcılığı artıq XVI əsrdən başlayaraq yazılı ədəbiyyata təsir etməyə başlamışdır. XVI əsr aşıq yaradıcılığının bizə məlum olan ilk nümayəndəsi Dirili Qurbanidir. Onun yaradıcılığı bütöv bir şəkildə bizim dövrümüzə qədər gəlib çatmamışdır. Lakin "Qurbani" dastanından məlum olur ki, Qurbaninin zəngin bir ədəbi irsi olmuş və özündən sonra gələn aşıqların yaradıcılığına böyük təsir göstərmişdir (4, 186).

Qurbaninin lirik şeirləri onun qüvvətli bir sənətkar olduğunu sübut etməkdədir. Onun qoşmalarında insanın hiss və həyəcanları ilə təbiət gözəlliklərinin qarşılaşdırılması çox ustalıqla verilmişdir. Aşığın "Bənövşə" rədifli şeiri bu cəhətdən xarakterikdir. Bu şeir axıcılığı, oynaqlığı və səmimiliyi ilə seçilir.

Başına döndüyüm, ay qəşəng pəri,
Adətdi, dərərlər yaz bənövşəni.
Ağ, nazik əlinlə dər, dəstə bağla,
Tər buxaq altında düz bənövşəni (6, 47).

Qurbani aşıq şeirinin qoşma, gəraylı, təcnis və başqa şeir şəkillərində şeirlər yazmışdır. Yaradıcılığı ictimai, məhəbbət məzmunlu, təbiəti tərənnüm edən qoşmalarla zəngindir.

Təbiət gözəlliklərinin yüksək sənət dili ilə tərənnümü aşıq şeirində xüsusi yer tutur. Qüdrətli söz ustası Qurbani baharla qoşa doğulan, təbiətin oyanması ilə insanlarda yaşamaq, sevmək arzusunu daha da coşduran "boynu bükük bənövşə"ni böyük sənətkarlıqla təsvir etmişdir. Qurbanidən sonra yazılı və şifahi şeirimizdə bənövşə haqqında yüzlərlə şeir yazılsa da, yenə Qurbaninin "Bənövşə"si öz gözəlliyi ilə seçilir.

Qurbani eyni zamanda sevgilisindən ayrıldığını şeirdə mənalandıranda bunun təbiətdə rəmzini axtarır. Belə bir rəmz onun üçün bənövşədir. Bənövşənin boynunun əyriliyi ilə özünün ayrılıqdan çəkdiyi üzüntü arasında bir bənzəyiş görən aşıq belə deyir:

Qurbani der: könlüm bundan sayrıdır,
Nə etmişəm yarım məndən ayrıdır?
Ayrılıqmı çəkib boynu əyridir,
Heç yerdə görmədim düz bənövşəni (6, 47).

Aşıq sevgilisinin buxağından ətirlənən bənövşənin görkəminə poetik məna verir. Onun boynunun əyri olmasının səbəbini həsrətdə, intizarda görür. Qurbani özü də sevgisindən ayrı düşərsə bənövşənin vəziyyətinə düşə biləcəyinə işarə edir.

Miskin Abdalın qoşmasında isə dağlar tamam başqa rəngdə, başqa tərzdə görünür. Məğribdən məşriqə səf çəkən, belinə yaşıl tirmə qurşayan, ağ çeşmələrindən sellər car olan dağlar kövrəkləşərək dumana bürünür, gözlərindən çiskin tökür:

Nəs illərdən satın aldın pis günü,
Çağırdın dumanı, tökdün çiskini,
Gözü yaşlı qoydun cida Miskini,
Eylə gülə-gülə tamaşa, dağlar (9, 46).

Böyük sənətkarın dağları zahirən günahkar tutması, narazılıq edib ondan şikayətlənməsi özlüyündə bədii priyomdur, əslində onu gözü yaşlı qoyan, ayrılıq məngənəsində sıxan dövrün haqsızlığıdır, ictimai quruluşludur. Aşıq "duman", "çiskin" timsalında dövrün zülmünü, ədalətsizliyini, "dağlar" timsalında isə zəmanəni nəzərdə tutmuşdur.

Burada insanın vəziyyəti, hissləri təbiət lövhələri ilə qarşılaşdırılmışdır.

Ay həzarat, ay camaat,
Dağa qar düşdü, qar düşdü.
Özüm qaldım qürbət eldə
Yada yar düşdü, yar düşdü (8, 103). (Xəstə Qasım)

Bəllidir ki, zaman-zaman ustad aşıqlarımız öz haqlarını almayıblar. Ancaq bu da bir həqiqətdir ki, əvvəlcə gərək sənət öz haqqını alaydı ki, sənətkara da qiymət veriləydi. Şükürlər olsun Allaha ki, dövr dəyişdi, Azərbaycan dövlət müstəqilliyini yenidən əldə edərək dünya birliyində öz layiqli yerini tutdu və xalqımız, dövlətimiz öz milli mədəni sərvətlərinə sahib çıxdı. Bu gün sorağı dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq folklor festivallarından gələn sənətçilərimiz Azərbaycan mədəniyyətini, incəsənətini ləyaqətlə təmsil edirlər.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. Bütün əsərləri. Bakı “Ol” MMC, 2014, 504 səh.
2. Azərbaycan bayatıları. Bakı: Elm, 1984, 260 səh.
3. Əfəndiyev Osman “Aşıq poeziyasının estetik problemləri” Bakı, Azərnəşr, 1983, 115 səh.
4. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981, 404 səh.
5. Həkimov Mürsəl. Azərbaycan aşıq ədəbiyyatı. Bakı Yazıçı, 1983, 240 səh.
6. Qurbani. Əsərləri. Bakı, “Şərq-Qərb”, 2006, 232 səh.
7. Namazov Qara. Azərbaycan aşıq sənəti. Bakı, 1984, 331 səh.
8. Pirsultanlı (Paşayev) Sədnik. “Tikmədaşlı Xəstə Qasımın ədəbi irsinin tədqiqi”. Bakı “AZƏRNƏŞR”, 2011, 256 səh.
9. Səfəvilərin böyük övliyası – Miskin Abdal. Bakı, “Şəms” nəşriyyat, 2005, 386 səh.

# AŞIQ ƏLƏSGƏR ŞEİRLƏRİNDƏ PEYZAJ VƏ LİRİK QƏHRƏMAN

# THE LANDSCAPE AND LYRICAL HERO IN THE POEMS OF ASHUG ALESKER

# ПЕЙЗАЖ И ЛИРИЧЕСКИЙ ГЕРОЙ В СТИХОТВОРЕНИЯХ АШЫГА АЛЕСКЕРА

**Gülnar OSMANOVA**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*gulnar.osmanova05@gmail.com*

**Summary**

Ashug poetry of the 19 th century reached its highest peak precisely in the person of Ashug Alesker. Ashug's poems are rich in terms of the characteristics of high artistic skill. This article, as the title suggests, is devoted to the lyrical hero in the poetry of Ashug Alesker and the issue of landscape, which is one of the compositional elements in the work. So, one of the main features of ashug's poems is a poetic description of a person together,

Thus, one of the main features of ashug poems is a poetic description of a person in the form of unity with nature. Describing landscapes, he also talks about human beauty. Describing various landscapes, the author, who does not lose sight of every component of nature, tries, as it were, to express the feelings and excitements, the mood of the lyrical hero. All the beautiful views of the Motherland's nature, including mountains, yaylag (summer pastures in the mountains), springs, rivers, increase the emotionality, beauty of the master's poems, become a means of reflecting the psychological state of his heroes, revealing their character.

**Key words:** Ashug Alesker, lyrical hero, composition, component, landscape, emotionality, artistic praise

**Резюме**

Ашыгская поэзия XIX века достигла наивысшей вершины именно в лице Ашыга Алескера. Стихи ашыга богаты с точки зрения особенностей высокого художественного мастерства. Эта статья, как и видно по названию, посвящена лирическому герою в поэзии Ашыга Алескера и вопросу пейзажа, который является одним из элементов композиции в произведении. Итак, одной из главных особенностей стихотворений ашыга является поэтическое описание человека совместно,

Таким образом, одной из главных особенностей стихотворений ашугов является поэтическое описание человека в форме единения с

природой. Описывая пейзажи, он также рассказывает о человеческой красоте. Описывая различные пейзажи, автор, который не упускает из виду каждый компонент природы, пытается как бы выразить чувства и волнения, настроение лирического героя. Все прекрасные виды природы Родины в том числе, горы, яйлаг (летние пастбища в горах), родники, реки, повышают эмоциональность, красота стихов мастера, становятся средством отражения психологического состояния его героев, раскрытия их характера.

**Ключевые слова:** Ашыг Алескер, лирический герой, композиция, компонент, пейзаж, эмоциональность, художественное воспевание

Aşıq şeirinin ustad yaradıcılarından olan Aşıq Ələsgərin ədəbi irsi çox zəngindir. XIX əsr aşıq poeziyası məhz Aşıq Ələsgərin simasında ən yüksək zirvəyə yüksəlir. Onun məhəbbət, təbiət gözəllikləri, tərbiyəvi-əxlaqi və ictimai mövzularda olan şeirlərində mənəvi saflıq və əxlaqi təmizlik hisslərinin tərənnümü başlıca yer tutur.

Aşığın şeirlərinin əsas xüsusiyyətlərindən biri də insanın təbiətlə birgə, vəhdət şəklində poetik təsviridir. Belə ki, o, təbiət mənzərələrini təsvir edərkən insan gözəlliklərindən də söz açır. Aşıq Ələsgərin lirik qəhrəmanı sevinərkən təbiət də sevinir. Onun qəhrəmanı qəmgin, məyus olanda təbiət də sanki qəmə batır. Aşığın "Dağlar", "Yaylaq", "Ay ana, ana", "Yetmədi", "Ha lala çıxar", "Ay eylər qıj-qıj", "Çata-çat", "Ayağa Qarqar" və başqa şeirlərində peyzajın gözəl nümunələri yaradılmışdır. Təbiətin hər bir komponentini gözdən qaçırmayan müəllif müxtəlif mənzərələri təsvir etməklə sanki lirik qəhrəmanın hiss və həyəcanlarını, əhvali-ru-hiyyəsini ifadə etməyə çalışır.

Məlumdur ki, bədii əsərin strukturunda peyzajın çox mühüm yeri və rolu vardır. Bunu görkəmli ədəbiyyatşünaslar öz əsərlərində dönə-dönə vurğulamış, bədii faktlara istinadən fikirlərini əsaslandıra bilmişlər. Azərbaycan ədəbiyyatşünaslarından C.Xəndan, M.Rəfili, M.Cəlal, Y.Qarayev, N.Şəmsizadə, N.Muradəliyeva və başqalarının peyzaj haqqında maraqlı qənaətləri vardır. Professor Cəfər Xəndan "Ədəbiyyat teoriyası" kitabında yazır: "İnsanları və hadisələri təsvir edərkən onların mühitini, şəraitini, hadisələrin başlandığı yeri də təsvir edərək, əsərə şeylər və təbiət təsvirləri də daxil edilir. Əsərdə təbiət təsvirinə peyzaj deyilir" (3, 53). Ümumiyyətlə, ədəbiyyatda peyzaj əsərin kompozisiya sisteminə daxildir və yazıçının əhvali-ruhiyyəsini, həyata münasibətini ifadə edir. Təbiət səhnələrinin gücü və məlahəti məhz insanın ona münasibətində, insan hisslərinin qabarıq təcəssümündə, insan zehni və fikrinin ifadəsində göstərilir. Təbiət əsərin mərkəzində qoyulmuş hadi-

sələrə uyğun şəkildə canlandırıldıqda peyzaj daha cazibədar olur. Hadisələrin ümumi inkişafından doğan təbiət lövhələri əsərin dramatizmini, emosionallığını, təravətini artırır, qəhrəmanların psixoloji vəziyyətini əks etdirmək, onların xarakterini açmaq vasitəsinə çevrilir.

Tədqiqatçı Nailə Muradəliyeva "Ədəbiyyatda romantik peyzaj" kitabında yazır: "Bədii əsərlərdə peyzaj, əvvəla, təbiət təsvirlərinə aid detallardan başlayır. Peyzaj detalları bədii əsərlərdə əsas estetik rolu oynayır. Belə ki, peyzaj bədii əsərlərdə sadəcə olaraq təbiət lövhələrinin təsvirindən ibarət deyildir. Bu, hər şeydən əvvəl, əsərdə konkret funksiya daşıyan bir anlayışdır" (4, 110).

Peyzaj poetik surətdir, gerçəkliyə fərdi bədii münasibətdir, həyəcanı, duyğu və düşüncəni, əhvali-ruhiyyəni açan üsul, bədii vasitədir. Aşıq Ələsgər yaradıcılığında peyzaj Vətənin zənginliyinin, ona məhəbbətin və adət-ənənələrin tərənnümüdür.

Aşıq Ələsgərin peyzaj lirikasının əsas komponentlərindən biri də məğrurluq, yenilməzlik simvolu olan dağdır. Dağların poetik rəsmini çəkən müəllif bir neçə şeirində insan-təbiət vəhdətini, insan-təbiət harmoniyasını ustalıqla verə bilmişdir. Belə ki, zəngin folklor mühitində yaşayıb-yaradan ustad el aşığının şeirlərindəki dağ obrazları öz mükəmməlliyi, əzəməti ilə diqqəti cəlb edir. Dağların bədii obrazının yaradılmasında istifadə edilən səciyyəvi peyzaj cizgiləri sözün yaxşı mənasında oxucunu heyrətləndirir, onun qəlbindəki gözəllik duyğusunu cilalayır, təkmilləşdirir. Çox önəmli cəhətlərdən biri ondan ibarətdir ki, Aşıq Ələsgərin

Bahar fəsli, yaz ayları gələndə
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar (1, 35)

– bəndi ilə başlayan məşhur "Dağlar" qoşmasında dağların təkcə bir anı deyil, onların yazı, yayı, payızı, qışı bədii təsvir predmetinə çevrilir. Ustad aşığın sözlə çəkdiyi rəsm, tablo oxucunun gözləri önündə bənzərsiz, insan qəlbini duyğulandıran, kövrəldən mənzərələri canlandırır. Bu peyzajlar sadəcə bir fon deyil, onun hər cizgisində sanki insan qəlbinin döyüntüləri eşidilir. Bu qoşmada dağın əzəməti, vüqarı, hamıya eyni gözlə baxması xüsusi olaraq vurğulanır. Aşığa görə dağlar əsl kişilik, mərdlik və əyilməzlik nümunəsidir. Buna görə də onlar nə sərdara bir söz deyir, nə də şaha baş əyirlər.

"Dağlar" rədifli birinci qoşmadan fərqli olaraq, ikinci qoşmada güclü bir qəm-kədər əhvali-ruhiyyəsi özünü göstərir. Buna səbəb bir zamanlar igidlər məskəni, ərənlər yurdu olan dağların indi boş

qalmasıdır. Ermənilərin mənfur soyqırımı siyasəti nəticəsində Göyçə camaatı, o cümlədən qocaman sənətkar doğma el-obasından uzaq düşməli olur. İki ildən sonra Göyçəyə qayıdan aşıq dağların əvvəlki görkəmini yada salaraq kövrəlir:

Hanı mən gördüyüm qurğu-büsatlar?!
Dərdməndlərgörsə, tez bağrı çatlar.
Mələşmir sürülər, kişnəşmir atlar,
Niyə pərişandı halların, dağlar?! (1, 37)

Görkəmli folklorşünas alim M.H.Təhmasib Aşıq Ələsgərin ayrı-ayrı məqamlarda yazdığı, məzmunca da bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən iki "Dağlar" şeirini böyük ustalıqla təhlil edəndən sonra fikrini belə yekunlaşdırır: "Göründüyü kimi, bir-birinin tamamilə əksindən ibarət olan bu iki "Dağlar"ın heç birisində mücərrəd, qeyri-real heç nə yoxdur. Hər iki dağlar aşığın hər il gəzib dolandığı, hər fəslinə bələd olduğu doğma yaylağıdır, oylağıdır, yurdudur, seyrəngahıdır. Qoşmaların hər bəndi çox gözəl işlənmiş bir tablodur. Bu tabloların insana sevinc, fərəh verənləri də, dərd, kədər verənləri də var, üzləri güldürənləri də, gözləri dolduranları da vardır. Ancaq hər birisi bir sənət əsəri olmaq mənasında özünə görə gözəldir. Ələsgər məharəti, Ələsgər zövqü ilə incədən-incəyə təsvir edildikcə də gözlərimiz önündə daha gözəlləşir, bizə estetik zövq verir. Lakin bunların heç birisi ancaq bir dağ kimi, bir çeşmə kimi, bir çəmənzar kimi təsvir edilmir. Hamısı insanla, insanın həyatı, gündəlik məişəti, arzu və istəkləri, sevinc və kədərləri ilə bağlıdır. Aşığın heç elə bir təbiət təsvirinə rast gəlmək mümkün deyil ki, orada insan əsas olmasın" (5, 12).

Görkəmli alimin qənaətləri tamamilə doğrudur. Aşığın dağlar rədifli iki şeirində olduğu kimi, onun "Yaylaq" gəraylısında da peyzaj canlıdır və emosionaldır.

Gözəllər seyrangahısan,
Görüm səni var ol, yaylaq!
Açılsın gülün, nərgizin,
Təzə mürgüzar ol, yaylaq! (1, 161)

Aşıq Ələsgərin Vətən təbiətinin gözəlliklərindən bəhs edən məşhur şeirlərindən biri də "Yaylaq" qoşmasıdır. Qoşmanın ilk bəndində təbiətin gözəl bir guşəsi olan yaylağın çal-çağır dövrünü görən aşığın ruhunun təzələnməsindən, qəlbini bürüyən sevinc hisslərindən danışılır:

Könlüm qaranquş tək uçub qoynuna,
Gəzir hər yamacı, hər yanı, yaylaq!

Ruhum təzələnir, məst olur ürək,
Görəndə bu çağı, bu halı, yaylaq!

Bu şeirdə sənətkar Vətən torpağına olan sonsuz məhəbbətini ifadə edərək yaylaq nemətlərindən – kəkotu, qırxbuğum, qaymaqçiçəyi, qantəpərdən və yaylağa xüsusi gözəllik verən qoyun mələşməsindən, çoban tütəyindən söz açır, onun təbiətin qoynunda gördüyü şən həyatdan doğan coşğun ilhamı təsvir olunur.

Peyzajların yaradılması zamanı su, çeşmə də əsas element kimi həmişə diqqət mərkəzində olmuşdur. Xalq bulaqları həmişə duruluq çeşməsi kimi təqdim etmişdir. Duruluq rəmzi olan çeşmə, bulaq həm də sevgililərin görüş yeridir. El sənətkarı Aşıq Ələsgərin "Çərşənbə günündə, çeşmə başında gözünün bir alagöz xanıma düşməsi" də dediyimizi sübut edən maraqlı faktlardan biri hesab oluna bilər. Bundan başqa aşığın məhəbbət mövzusunda yazdığı "Dolanır" rədifli qoşması da maraq doğurur:

Axşam-sabah, çeşmə, sənin başına
Bilirsənmi, necə canlar dolanır?!
Büllur buxaq, lalə yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır (1, 40).

Bu qoşmada ustad aşıq bulağa bir canlı obraz kimi xitab edərək sanki onunla söhbət edir. Burada da təbiət və insan gözəlliyi vəhdətdə götürülür ki, bu da Ələsgər şeirinin qüdrətini daha da artırır.

Aşığın birbaşa təbiət təsvirlərinə həsr olunmayan digər məzmunlu şeirlərində də peyzaj cizgilərinə rast gəlmək mümkündür. Bu cizgilərdən bir qismi də ayla bağlıdır. Ən təmiz, pak insanların aya bənzədilməsi də təsadüfi səciyyə daşımır. Xalq həmişə aya gözəllik, təmizlik rəmzi kimi baxmışdır. Folklorda olduğu kimi poeziyada da gözəl qızların, qadınların üzünün aya oxşadılması ənənəsi olmuşdur. İstər klassik, istərsə də müasir ədəbiyyatımızda gözəl qızın üzünün aya bənzədilməsi ilə bağlı xeyli ədəbi faktlar vardır. Aşıq Ələsgərin "Sarı köynək" qoşmasından nümunə gətirdiyimiz "Yel vurub rübəndin açdı üzündən, Elə bildim doğdu ay, sarıköynək" misraları dediyimizə sübutdur. Burada Ayın bircə misra ilə obrazlaşdırılması maraqlı faktdır.

Aşıq Ələsgərin yüksək poetik xüsusiyyətləri, axıcılığı və ahəngdarlığı ilə seçilən təcnislərində də peyzajın gözəl nümunələrinə rast gəlinir ki, bunlardan biri də "Ayağa – Qarqar" təcnisidir. Vətən təbiətinin gözəllikləri mövzusunda olan bu şeirdə Qarabağı alqışlayan, onun Xaçın və Qarqar kimi çaylarının adını çəkən aşıq Göyçə və Muğanın da təbii mənzərələrindən söz açır:

Var olsun Qarabağ, əcəb səfadı,
Başa Xaçın axar, ayağa – Qarqar.
Göyçə qar əlindən zara gəlibdi,
Muğan həsrət çəkər: a yağa qar, qar... (1, 89).

"Ha lala çıxar" təcnisindən:

Addadı zimistan, gəldi nobahar,
İnşallah, dağlarda ha lala çıxar.
Neçə şey halaldan dönər harama,
Neçə şey haramdan halala çıxar (1, 96).

Və "Çata-çat" dodaqdəyməz təcnisindən gətirdiyimiz:

Qışda dağlar ağ geyinər, yaz – qara,
Sağ dəstinlə ağ kağıza yaz qara.
Əsər yellər, qəhr eyləyər yaz qara,
Daşar çaylar, gələr daşlar çata-çat (1, 102) –

kimi nümunələr də aşığın yaradıcılığında peyzajın gözəl örnəkləridir.

Şairlər bəzən peyzajdan ictimai problemləri qabartmaq üçün də istifadə edirlər. Romantizmin görkəmli tədqiqatçısı, ədəbiyyatşünas alim Kamran Əliyev bu barədə belə yazır: "İctimai problemlərin müqabilində məhəbbətdən danışmağa sanki vaxt tapa bilmədikləri üçün A.Şaiqin və eləcə də, digər romantiklərin yaradıcılığındakı peyzaj öz simvolik örtüyü ilə ictimai məzmun daşıyır" (2, 160-161). Bu fikirdən belə nəticəyə gəlmək olar ki, təbiət, peyzaj romantik poeziyada da ciddi simvolik məna kəsb edir.

Beləliklə, yüksək bədii sənətkarlıq xüsusiyyətləri baxımından olduqca zəngin olan Aşıq Ələsgər şeirləri mövzusundan asılı olmayaraq igidlik, dostluq, xeyirxahlıq, düzlük, sədaqət kimi keyfiyyətlərin carçısıdır.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. Əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 400 s.
2. Əliyev K. Romantizmin poetikası (Əsərləri, 10 cilddə, II cild). Bakı, "Elm və təhsil", 2018, 312 s.
3. Xəndan C. Ədəbiyyat teoriyası, Bakı, "Azərnəşr", 1940, 168 s.
4. Мурадалиева Н. Романтический пейзаж в литературе. Баку, «Язычы», 1991, 204 ст.
5. Təhmasib M.H. Gözəllik nəğməkarı (Ön söz) Aşıq Ələsgərin əsərlərinin iki cildliyi. I cild. Bakı, "Elm", 1972, 326 s.

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞININ İDEYA-MƏZMUN XÜSUSİYYƏTLƏRİ

# IDEA-CONTENT FEATURES OF ASHUG ALASGAR'S CREATIVITY

# ИДЕЙНО-СОДЕРЖАТЕЛЬНЫЕ ОСОБЕННОСТИ ТВОРЧЕСТВА АШЫГА АЛЕСКЕРА

**Həsən HÜSEYNİ**
*hesenhuseyni@mail.ru*

*Bismillahir – Rəhmanir – Rəhim!*
*Ya Allah ya Rəsul ya Əli səndən mədəd!*

**Summary**

Ashug Alasgar's work is rich, colorful and comprehensive in terms of ideas and content. These examples of poetry are surrounded by irreplaceable moral and ethical features of our people, eye-catching artistic depictions of Azerbaijani nature, poetic hymns of our sacred religion and beliefs, as well as motives of protest against social oppression and injustice. It is noted that religious sciences and especially our folklore have played a great role in the formation of the poetic-philosophical worldview of the master. The main reason for the love of handicrafts is to feed on these sources.

**Key words:** Ashug Alasgar, love and beauty, divine love, Holy Quran, acquired and forbidden by Shariat

**Резюме**

Творчество Ашыга Алескера богато, разнообразно и всесторонне с точки зрения идеи и содержания. Эти образцы поэзии окружены как незаменимыми духовно-нравственными особенностями нашего народа, радующими глаз художественными образами азербайджанской природы, поэтическим воспеванием нашей священной религии и убеждений, так и мотивами протеста против общественного гнета, несправедливости. Отмечается, что большую роль в формировании поэтико-философского мировоззрения мастера-художника сыграли религиозные науки и особенно наш фольклор. Основной причиной того, что народный мастер любим, является то, что он питается именно из этих источников.

**Ключевые слова:** Ашыг Алескер, любовь и красота, платоническая любовь, Курани-Керим, дозволенный и запретный

Azərbaycan şifahi xalq ədəbiyyatının görkəmli simalarından biri olan Aşıq Ələsgər Alməmməd oğlu 1821-ci ildə Göyçə mahalında

dünyaya gəlmiş, 1926-cı ildə 105 yaşında ikən doğma vətənində vəfat etmişdir. Ustadı Aşıq Alıdan saz sənətinin dərinliklərini, aşıq poeziyasının əvəzedilməz örnəklərini mənimsəyən Aşıq Ələsgər ömrü boyu el məclislərində çalıb-çağırmış, xeyirxahlığı, ağsaqqallığı, alicənablığı ilə dillər əzbəri olmuşdur. Tədqiqatçıların araşdırmalarından və xalq arasında dolaşan rəvayətlərdən görünür ki, aşığın ömür yolu keşməkeşli və çətin olmuşdur. Bütün bunlar Ələsgər poeziyasında özünün bədii əksini tapmışdır.

Bir çox görkəmli sənətkarlarımız kimi, Dədə Ələsgərin yaradıcılığı da ideya və məzmun baxımından zəngin, rəngarəng və hərtərəflidir. Bu poeziya nümunələrində həm xalqımızın əvəzedilməz mənəvi-əxlaqi xüsusiyyətləri, həm Azərbaycan təbiətinin gözoxşayan bədii təsvirləri, həm müqəddəs dinimizin və əqidələrimizin, əziz İslam Peyğəmbərinin (s) və onun pak Əhli-beytinin (ə) ruhi-mənəvi fəzilətlərinin poetik tərənnümü, həm də ictimai zülmə, haqsızlığa qarşı etiraz motivləri ilə qarşılaşırıq.

Aşıq Ələsgər hər şeydən öncə, eşq və gözəllik nəğməkarıdır. Onun yaradıcılığında həm həqiqi eşqi – bəndə və Allah arasında olan saf bağlılığı, həm də məcazi eşqi – ümumbəşəri sevgi və məhəbbət duyğularını tərənnüm edən şeirlər çoxdur. Ancaq sənətkarın ilahi eşq mövzusunda qələmə aldığı kamil insanın və yetkin aşiqin ülvi duyğu və düşüncələrinin bədii tərənnümünə həsr edilmiş şeirləri, söz yox ki, fəlsəfi tutumu və ideya-məzmun siqləti baxımından daha çox diqqət çəkməkdədir. Bu baxımdan biz Dədə Ələsgərin “Olacaqdı” rədifli qoşması haqda fikir və düşüncələrimizi oxucularımızla bölüşməyə çalşacağıq:

Dedim, könül, içmə eşqin camını,
İçsən, dünya sənə dar olacaqdı.
Ya dost olma, ya zəhmətdən incimə,
Dost yolunda boran, qar olacaqdı (Aşıq Ələsgər, 1988: 52).

İlahi eşqin səmimi tərənnümçüsü olan böyük sənətkar bu misralarla Allahı və onun sevdiklərini sevməyin, onlarla həqiqi dost olmağın nə qədər çətin və məşəqqətli olduğunu bizə çatdırmağa çalışır. “Eşq camı” həm klassik ədəbiyyatımızda, həm də aşıq poeziyamızda tez-tez qarşılaşdığımız bir ifadə olub, əsas etibarı ilə insan və Tanrı arasındakı əzəli-əbədi məhəbbət və itaət anlayışlarına bədii işarə kimi qəbul edilə bilər. Bu ifadənin məna və məzmun dairəsinə iman, təqva, yəqinlik, təvəkkül və s. bu kimi mühüm anlayışlar da daxildir. Ona görə də həyatı belə ülvi duyğu və düşüncələrlə keçən şəxslərin ömür yolu, taleyi əzablı, keşməkeşli və dözülməz çətinliklərlə dolu

olur. Yuxarıda qeyd etdiyimiz kimi, haqq aşiqi olan Dədə Ələsgərin öz taleyi, həyat tarixçəsi də belə keşməkeşli və ağır olmuşdur. Bunun bədii əksini şairin başqa şeirlərində də görürük:

“Ələst”idən bəli deyən Sübhana baş endirir,
Məhəmmədə tabe olan Qurana baş endirir.
Özü birdi, adı minbir, vəhdəhuəllaşərik;
Əhli-mömin görə bilməz pünhana baş endirir.
(Aşıq Ələsgər, 1988: 106).

Və yaxud:

“Ələst”üdən bəli dedim, əcəb xoşhaldı yüküm;
Beş gözəlin aşiqiyəm, vəsfi camaldı yüküm.
Həm dərindi, həm dayazdı, həm acıdı, həm şirin,
Zəhmətdə zəhri-həlahil, ləzzətdə baldı yüküm.
(Aşıq Ələsgər, 1988: 164).

Bu bədii parçalardan da görünür ki, Aşıq Ələsgər bütün varlığı ilə Allah sevgisinə, Onun və seçdiyi Peyğəmbərlərin (ə), din böyüklərimizin itaətinə bağlıdır. Haqq aşiqi Ələsgər bu yolda nə dünyanın ona dar olmağından, nə “boran, qar”dan, nə “acı və şirin”dən, nə də “zəhri-həlahil”dən (ən təsirli zəhər) çəkinmir, əksinə bu əzab-əziyyətlərə dözməyi əsl aşiqin vəzifəsi və iftixar mənbəyi bilir.

Həm klassik ədəbiyyatımız, həm də aşıq poeziyamız bu motivlərin bədii tərənnümü ilə zəngindir:

Ya Rəb, bəlayi-eşq ilə qıl aşina məni!
Bir dəm bəlayi-eşqdən etmə cüda məni!

Az eyləmə inayətini əhli-dərddən,
Yəni ki, çox bəlalarə qıl mübtəla məni! (Füzuli M., 1993: 52).

Çərxi-dun eşq əhlinin kamınca dövran eyləməz,
Ta ki, üşşaqı cəfadən xakə yeksan eyləməz.

Görsə nadanda əgər bir dərd, eylər yüz dəva,
Arifin yüz dərdi olsa bircə dərman eyləməz.

Mərdümi-dana iləndir kineyi-çərxi-dəni,
Yoxsa bu dövranı dönmüş qəsdi-nadan eyləməz
(Şirvani, 1967: 133).

* * *

Dəryayi-möhnətdə qərq oldu gəmim,
Ya Rəb, bu sevdanı qanan varmıola?

Saraldı gül rəngim, yoxdur həmdəmim,
Aşnadan adımı anan varmıola?

Tifil ikən mən də düşdüm sevdaya,
Xəstə Qasım sığınıbdır Mövlaya.
Bu fanidən yetişirmi üqbaya,
Ya Rəb, mən tək bəxti dönən varmıola
(Xəstə Qasım, 2010: 41).

Bu əzəli-əbədi Allah sevgisinin, ilahi eşqin Qurani-Kərimdə və hədislərimizdə də bir çox əsasları vardır. Məsələn, "Bəqərə" surəsinin 165-ci ayəsində oxuyuruq: "İnsanların içərisində Allahdan qeyrilərini (Allaha) şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır. Halbuki, iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir…" (Qurani-Kərim, 2005).

Ustad Ayətullah Möhsün Qiraəti bu ayənin təfsiri ilə bağlı gözəl açıqlamalar verir: "Kamal və camal sevgisi məhəbbətin kökündür. Möminlər bütün kamillik və gözəllikləri Allahdan görürlər. Ona görə də ən böyük eşqləri Ona ünvanlanmışdır. Möminlərin eşq və məhəbbəti məşuqun (Allahın) ləyaqətinə əsaslanır. Bu eşq heç vaxt soyumur, sönükmür. Müşriklərin eşqi isə xəyala, cəhalətə, təqlidə və boş istəklərə əsaslanır. Allahdan qeyrisinə pərəstiş və məhəbbət qadağandır. Hisslər etiqadlarla bağlı olmalıdır. Bəziləri nə qədər ki, pərdələr qaldırılmayıb və qiyaməti müşahidə etmirlər, öz yol və düşüncələrinin puçluğunu anlamırlar. Belədirsə, Allahdan qeyrisinə meyl etməyin" (Ayətullah Möhsün Qiraəti, 2014: 209).

Bu mövzu ilə bağlı bir neçə hədisə də işarə edək:

Həzrət Əli (ə) buyurur: "Allahı sevirsinizsə, dünya sevgisini qəlbinizdən çıxarın". "Qəlbini dünya məhəbbəti tutan kəs Allah sevgisini necə iddia edə bilər?!" ("Nəhcül-Bəlağə", 2017).

Filosof aşıq olan Dədə Ələsgər quru eşq iddiasının insana heç bir şey qazandırmayacağını çox gözəl bildiyindən qoşmanın ikinci bəndində sözü eşq ilə əməlin, əqidə ilə düzgün həyat tərzinin vəhdətinə doğru yönəldir:

Aldanma dövlətə, uyma dünyaya,
Halaldan kəsb eylə özünə maya.
Zinakar, haramxor yetişməz baya,
Dosta xain baxan kor olacaqdı (Aşıq Ələsgər, 1988).

Həyatın və dünyanın mənasını mənəvi gözəlliklərdə axtaran görkəmli sənətkar bütün insanları dünyasevərlikdən, sərvət və vəzifə aşiqi

olmaqdan, nəfsə və şəhvətə uymaqdan uzaqlaşmağa, hər bir zaman və məkan çərçivəsində halal və haram anlayışlarını, ilahi və ümumbəşəri əxlaq normalarını nəzərə almağa çağırır. Söz yox ki, Dədə Ələsgərin poetik-fəlsəfi dünyagörüşündə həlledici yer tutan bu mətləblər bu milli-dini, ruhi-mənəvi dəyərlər öz kökləri ilə müqəddəs dinimizə və mənəviyyatımıza bağlıdır: “Dünya həyatı sizi aldatmasın” (Qurani-Kərim, 2005: “Fatir”, ayə 5). “Xeyr, xeyr! Siz tez keçib gedəni (fani dünyanı) sevirsiniz. Axirəti isə tərk edirsiniz” (Qurani-Kərim, 2005: “Qiyamət”, ayə 20-21). “Ey insanlar! Yer üzündəki qidaların təmiz, halal olanlarını yeyin. Şeytanın izi ilə getməyin! Həqiqətən, o (şeytan) sizinlə açıq-açığına düşməndir” (Qurani-Kərim, 2005: “Bəqərə”, ayə 168). “O kimsə ki, mal yığıb, onu dönə-dönə sayar (çoxaldar) və elə zənn edər ki, mal-dövləti onu əbədi yaşadacaqdır” (Qurani-Kərim, 2005: “Huməzə”, ayə 2-3). “Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin. Xalqın malının bir qismini (onun sizə haram olduğunu) bilə-bilə günah yolu ilə yeməyiniz üçün onu (malınızı) hakimlərə (rüşvət) verməyin!” (Qurani-Kərim, 2005: “Bəqərə”, ayə 188). “Zinaya da yaxın düşməyin. Çünki o, çox çirkin əməl və pis bir yoldur” (Qurani-Kərim, 2005: “İsra”, ayə 32).

Bu mühüm məsələlər hədislərimizdə də geniş yer tutur. Peyğəmbər (s) buyurur: “Haram gələndə iki pay gələr, halal isə gələndə qətrə-qətrə gələr”.

İmam Baqir (ə) buyurur: “Dünyaya həris olan insan barama qurduna bənzəyir. Öz ətrafını torla nə qədər çox bürüsə, bir o qədər burdan xilas olamağı gecikər. Axırda isə qəm-qüssədən bağrı çartdıyıb ölər” (“Vəsail əl-şiə”, c. 16, s. 20).

İmam Hüseyn (ə) buyurur: “İnsanların çoxu dünya quludurlar. Din isə dillərində gəzir. Din sayəsində yaşadıqları müddətdə onu müdafiə edirlər. İmtahan zamanı gəlib çatdıqda isə dindarlar azalırlar” (Altan F., 1995 (hədis 7): 95).

İmam Məhəmməd Baqir (ə) buyurur: “Dünyanı bir saat sakini olacağın və sonra çıxıb gedəcəyin bir ev kimi hesab et, yaxud yuxuda görüb istifadə etdiyin və xoşhal olduğun, ayıldıqdan sonra isə əlindən çıxdığını gördüyün bir sərvət kimi hesab et” (Altan F., 1995 (hədis 31): 141).

Qeyd etməliyik ki, bu ayə və hədislər yalnız yuxarıdakı misraların deyil, bütün Ələsgər yaradıcılığının poetik-fəlsəfi özülünü təşkil edir. Ustadın şeirlərindən gətirəcəyimiz bəzi örnəklər də bunu təsdiq edir:

Bilin, bu dəhri-dünyada hərə bir növ cəlal istər,
Kimi talibdir üqbaya, kimi dünyada mal istər.

Ona dağdan verir ruzi, buna ol qər'i-dəryadan,
Bu mətləbi qanan kimsə haram gəzməz, halal istər.
Bilirsən dünyada qafil, qalır bu dünyanın malı,
Beş arşın ağ geyən kimsə utanmaz, yaşıl, al istər.
(Aşıq Ələsgər, 1988: 155).

* * *

Süleyman, İskəndər Zülqədər hanı?!
Dolandı nə qədər gəzdi hayanı?
Belə qərar qoyub kərəmin kanı:
Vacibdir dünyanı fani biləsən (Aşıq Ələsgər, 1988: 78).

Aşıq Ələsgərin bu poetik düşüncələri istər klassik, istərsə də aşıq ədəbiyyatımızdakı bir çox bədii nümunələrlə yaxından səsləşir:

Halal ye, tərlan tək halal ov ara,
Bənzəmə leş üstə qonan quşlara (Gəncəvi N., 1981).

* * *

Namərd ilə yoldaş olma,
Uzun ağrı çəkər başın.
Halal ilə ərsəyə çat,
Daş-qalalar sökər başın. (Abdal M., 2001: 28).

* * *

Dünya duracaq yer deyil ey can, səfər eylə!
Aldanma anın alına, andan həzər eylə.

Gər aşiq isən, sidq ilə şol dilbər üçün, gəl,
Can ilə cahan ortaya qoy, tərki-sər eylə!

Dünya evinin səltənəti beş gün imiş çün,
Bünyadını yığ, ər kimi, zirü zəbər eylə (Nəsimi İ., 1973: 42).

* * *

Dəli könül, məndən sənə əmanət,
Demə, bu dünyada qalım, yaxşıdır.
Bir gün olar, qohum, qardaş yad olar,
Demə ulusum var, elim yaxşıdır.

* * *

Qoçaqdan olubsan, qoçaq olginən,
Qadadan, bəladan qaçaq olginən.
Aşıq ol, comərd ol, alçaq olginən,
Demə, varım çoxdur, pulum yaxşıdır (Xəstə Qasım, 1975: 22).

Həqiqi Allah aşiqi olan və mənəvi kamilləşmə yolunu seçən Dədə Ələsgər yuxarıda bir sıra mənəvi-əxlaqi üstünlüklərə və insanı dəyərsizləşdirən fərdi-ictimai rəzalətlərə toxunduqdan sonra şeirin üçüncü bəndində dünyadan şikayət motivlərinə üz tutur:

Sərgərdən qalmışam mən bu hesaba,
Fələk qurğusuna əhsən, mərhaba!
Növrəstə gözəllər tapmasın hava,
Qönçənin həmdəmi xar olacaqdı (Aşıq Ələsgər, 1988).

Şair "fələk qurğusuna əhsən, mərhaba!" deyərək incə bir kinayə ilə zəmanənin bütün hesabları, ağıl və məntiq ölçülərini alt-üst edən qəribə işlərinə təəccübünü dilə gətirir. Azərbaycan ədəbiyyatında çox işlək "qönçə" və "xar" motivindən, qarşılaşdırmasından ustalıqla yararlanmaqla sənətkar aşiqanə və lirik bir dillə dəyərli şəxsiyyətlərin, uca amalların, gözəl əməllərin öz həqiqi qiymətini tapa bilmədiyindən, nəticə etibarilə meydanın yenə də zülmə, haqsızlığa, zorakılığa qaldığından şikayətlənir.

Bu səpkili bədii parçalara istər Aşıq Ələsgərin öz yaradıcılığında, istərsə də başqa görkəmli sənətkarlarımızın əsərlərində tez-tez rast gəlirik:

Ələsgər, elmində olma nabələd,
Doğru söylə, sözün çıxmasın qələt,
Şahiddə iman yox, bəydə ədalət,
Qazıların düz bazarın görmədim (Aşıq Ələsgər, 1988: 44).

* * *

Müxtəsər kim, böylə dünyadan gərək etmək həzər,
Ondan ötrü kim, deyildür öz yerində xeyrü şər.
Alilər xaki-məzəllətdə, dənilər mötəbər,
Sahibi-zərdə kərəm yoxdur, kərəm əhlində zər,
İşlənən işlərdə əhkami-ləyaqət görmədim (Vaqif M.P., 2004: 77).

* * *

Dust bipərva, fələk birəhm, dövran bisükun,
Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.

Təfriqə hasil, təriqi mülki-cəmiyyət məxuf,
Ah bilmən neyləyim, yox bir müvafiq rəhnümun
(Səduqi Ə., 1996: 162).

Kinayəli bir dil, incə bir üslubla öz dövrünün bəzi mənəvi-ictimai bəlalarını, çatışmazlıqlarını ifşa edən ustad aşıq sonrakı bənddə çağdaşlarını, haqsevər insanları ümidsiz olmamağa, haqqın və ədalətin qələbəsinə inanmağa çağırır:

Hesabdarlar gələr, çəkər hesabı,
Günahkarlar necə gətirər tabı?!
Mizan, sirat, sual, qəbir əzabı –
Bu işlər qabaqda var olacaqdı (Aşıq Ələsgər, 1988).

Həqiqi bir Allah aşiqi və yetkin bir şəxsiyyət kimi aşıq Ələsgər eşqin, əxlaqın, mənəvi paklığın doğru-düzgün etiqaddan ayrı olmadığına inanır. Bunu bütün varlığı ilə, dərin qəlb çırpıntıları ilə dilə gətirir. Bunun üçün şair "hesab", "mizan", "sirat", "sual", "qəbir əzabı" kimi dini-əqidəvi anlayışlardan bədii ustalıqla istifadə edir. Sənətkarın məqsədi insanlarda ilahi aləm, qiyamət və axirət inancları ilə bağlı heyvani qorxu hissi yaratmaq deyil, əksinə onları sevgi, ədəb-ərkan, hörmət və mərifət kimi sarsılmaz və həmişəyaşar bəşəri duyğulara yönəltmək, Allah, cəmiyyət və öz vicdanları qarşısında sonsuz məsuliyyət duymağa hazırlamaqdır. Haqq aşiqi Ələsgərin bu ülvi niyyəti, bu narahat qəlb çırpıntıları müqəddəs kitabımızın qayəsi ilə nə qədər də üst-üstə düşür: "İnsanların haqq-hesab vaxtı (qiyamət günü) yaxınlaşır. Onlar isə hələ də qəflət içindədirlər və (qiyamətə inanmaqdan) üz döndərirlər. (Qiyamət insanlar üçün nə qədər uzaq isə, Allah dərgahında bir o qədər yaxındır. Fani dünyaya, şan-şöhrətə meyil, varlanmaq həvəsi insanların başını elə qatmışdır ki, qiyamət günü barəsində əsla fikirləşmirlər).

Bu ayələrdən doğan ədəbi-bədii duyğu və düşüncələrə həm aşığın öz yaradıcılığında, həm də başqa şairlərimizin şeirlərində rast gəlmək olur:

Xaliqindən utan, mənqdən utanma!
Şəcərətil-mövti heç səhl sanma.
Miada qail ol, qafil dolanma,
Haqq-mizan, sirat, qəbir əzabı (Aşıq Ələsgər, 1988: 12).

Sirat-sual qabaqdadır, nə damaqdır dünyada?!
Kəlmeyi-şəhadət lazımdı ölən vaxtı dünyada.
Tut orucun, qıl namazın, şükr eylə Allaha,
Qul olma dünya malına, qalacaqdır dünyada
(Aşıq Ələsgər, 1988: 108).

* * *

Dünyada bina cahi-cəlal eyləmək olmaz,
Qəmxana olan mülkidə hal eyləmək olmaz.
Bidar olursan qəbrdə qəflət yuxusundan,
Onnan sora dünyanı xəyal eyləmək olmaz.

Seyyid, hərəmi-həşrdə Xaliq əməl istər,
Məhşərdə durub cəngi-cidal eyləmək olmaz (S.Ə.Şirvani, 1967:47).

* * *

Vaxt olar Əzrayıl alar canını,
Can çıxar cəsəddən sinaya sin, sin.
Vədə başa gələr, ömür qurtarar,
Düşərsən nəfəsdən sinayə sin, sin.

O dəmdə millətin olmaz nəfəsi,
Səs gələr: "Kim mənlə eylərdi bəhsi",
Bütün kainatın mənəm yiyəsi,
Rəbbiniz bil, mənəm sinayə sin, sin (Xəstə Qasım, 2010: 54).

Ümid, inam və əzmkarlıq motivləri möhürbənddə davam edərək məntiqi sonluğa çatır:

Ələsgər, axtarma qüdrətin sirrin,
Zülmətə işıq var, acıya – şirin.
Zikr eylə dilində mərdlərin pirin,
Qorxma, dar günündə yar olacaqdır (Aşıq Ələsgər, 1988).

"Ələsgər, axtarma qüdrətin sirrin" – deyərkən aşıq hər şeyin – baş verməkdə olan bütün hadisələrin Uca Yaradanımızın hikməti daxilində meydana çıxdığına işarə edir. Bu təfəkkür öz-özlüyündə insana, xüsusən də ilahi eşq və müqəddəs əxlaq duyğuları ilə çırpınan haqq aşiqinin qəlbinə sonsuz bir təsəlli, təskinlik, ümid və inam bəxş edir.

"Zülmətə işıq var, acıya şirin" misrası bu təskinlik və inamın, gələcəyə nikbin və sarsılmaz aşiq baxışının aydın təzahürüdür. Bu poetik duyğu və düşüncələr Qurani-Kərimin həyata, zamana və insan taleyinə ictimai-fəlsəfi baxışları ilə tam bir vəhdət təşkil edir: "Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr!" ("Asanlıq yalnız çətinliklə hasil olar!"); həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! (buna görə də çətinliklərə səbrlə dözmək lazımdır!)". (Qurani-Kərim, 2005: "İnşirah" ayə 5-6)

Aşıq Ələsgərin həyata, gələcəyə nikbin baxışının məntiqi sonluğu olaraq şeir Əhli-beytin (ə) məhəbbətinə və tanrı dərgahındakı uca məqamlarına sığınmaqla, pənah gətirməklə tamamlanır:

"Zikr eylə dilində mərdlərin pirin,
Qorxma, dar günündə yar olacaqdır".

Əziz İslam Peyğəmbərinin (s) məşhur "Əlini zikr etmək ibadətdir" hədisini qızıl hərflərlə məhəbbətlə çırpınan qəlbinə həkk edən Aşıq Ələsgər söz yox ki, "mərdlərin piri" deyərkən Həzrəti-Əlini (ə)

nəzərdə tutur. Onun və pak Əhli-beytin (ə) hər zaman haqq aşiqlərinin, zülmə uğrayanların mənəvi xilaskarı olduqlarını sevə-sevə və qətiyyətlə dilə gətirir. Mayası sevgi və ümiddən yoğurulmuş bu səpkili ədəbi-bədii düşüncə və duyğulara Dədə Ələsgərlə yanaşı bir sıra el sənətkarlarımızın şeirlərində də rast gəlirik:

Ölməyincə bu sevdadan çətin dönəm, usanam;
Həqiqətdən dərs almışam, təriqətdən söz qanam;
Şahi-Mərdan sayəsində elm içində ümmanam;
Dəryaların qaydasıdır, ümmana baş endirir
(Aşıq Ələsgər, 1993: 94).

Günahkar, kəmtər qulunam, qəbul eylə duamı!
Zahir sənsən, batin sənsən, dü cahanın imamı
Yet dada şahi-Qəşəmşəm, darda qoyma islamı!
Təbdil olub fani dünya, gəc dolanır nizamı,
Mərd igidi xilas eylə, böhtandan, şərdən Ağa!
(Aşıq Ələsgər, 1993: 104).

* * *

Mənim pirim kövsər üstə saqidir,
Möminlərin yeri cənnət bağıdır.
Qurbaninin bu gün müşkül çağıdır,
Cəmi müşkülləri bitirən Əli (Qurbani, 1990: 141).

* * *

Xəstə Qasım, sən düşmanın atgınan,
Mətahını xiridara satgınan.
Şahi-Mərdan damənindan tutginan,
Allahı sən çağır, etmə təşvişi (Xəstə Qasım, 2010: 28).

Bütün bu deyilənlərdən görünür ki, Aşıq Ələsgərin “Olacaqdı” rədifli qoşmasından bəzi fərdi və ictimai çatışmazlıqlara, əxlaqi rəza-lətlərə toxunulsa da, şeirin ümumi ruhu aşiqanə və nikbindir. Yeri gəlmişkən qeyd edək ki, bu cəhət bütövlükdə Azərbaycan aşıq ədəbiyyatı üçün səciyyəvi xüsusiyyətdir; başqa sözlə desək, aşıq ədəbiyyatımıza əsas etibarilə nikbin ruh, gələcəyə inamlı və ümidvar baxış, ədalətin qələbəsinə sarsılmaz inam hakimdir. Biz bu nikbin ruhu və qələbə inamını “Yaman günün ömrü az olar”, “Elnən gələn xəta-bala toy-bayramdır” kimi atalar sözlərimizdə, əksər Azərbaycan xalq nağıllarının xoşbəxt sonluqla, müsbət qəhrəmanların maddi və mənəvi qələbəsi ilə bitməsində də görürük. Deməli, istər Dədə Ələsgərin, istərsə də başqa ustad aşıqlarımızın poetik-fəlsəfi dünyagörüşünün formalaşmasında dini elmlər və bilgilərlə yanaşı milli-mədəni qaynaqlarımızda (bayatılar,

nağıllar, atalar sözü, zərb-məsəllər, dastanlar və s.) geniş yer tutur. Həm Dədə Ələsgərin, həm də görkəmli el sənətkarlarımızın qələmlərindən çıxan əsərlərin mənəvi ömrünün uzun və bərəkətli olmasının, bu qədər sevilə-sevilə qarşılanmasının əsl səbəbi də elə bunda, yəni milli və dini düşüncənin vəhdətindən, qovuşmasından doğulmasındadır.

Məqaləni müasir dövr ədəbiyyatının tanınmış simalarından biri olan Mirzə Dahi Almaslının yuxarıdakı fikri nəzmlə ifadə edən bu beyti ilə bitiririk:

Eşq camın xalis al, nuş eylə "Bismillah" ilə,
Vadiyi vəhdətdə bir məclis düzəlt Allah ilə!
(Almaslı M.D., 2019).

## QAYNAQLAR


1. Abdal M. (2001). Bakı: Səda
2. Almaslı M.D. (2019). İşığın aşiqiyəm. Bakı:
3. Altan F. (1995). Könlü oxşayan sözlər. Bakı:
4. Aşıq Ələsgər (1988). Seçilmiş əsərləri (Şeirlər). Bakı: Yazıçı
5. Aşıq Ələsgər (1993). "Gözüm bir alagöz xanıma düşdü". Bakı: Yazıçı
6. Füzuli M. (1993). Leyli və Məcnun. Bakı: Yazıçı
7. Gəncəvi N. (1981). "Xəmsə". Bakı: Gənclik
8. Xəstə Qasım (1975). 46 şeir. Bakı: Gənclik
9. Xəstə Qasım (2010). Bakı Folklor İnstitutu.
10. Qurani-Kərim (2005). Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.N.Məmmədəliyev. Bakı:
11. Qurani-Kərimin Azərbaycan dilinə tərcümə və izahı (2017). Ayətullah-üzma Nasir Məkarim Şirazi. Bakı:
12. Qurbani (1990). Bakı Universiteti Nəşriyyatı
13. Möhsün Qiraəti (2014) "Nur" təfsiri (12 c.). Bakı:
14. "Nəhcül-bəlağə" (2017). Toplayanı Seyyid Rəzi. Tərcümə və şərhi. II cilddə. Bakı:
15. Nəsimi İ. (1973). Seçilmiş əsərləri. Bakı:
16. Səduqi Ə. (1996). Füzuli. "Türkcə divanı". Tehran:
17. Şirvani S.Ə. (1967). Seçilmiş əsərləri. 3 cilddə, I c. Bakı:
18. Vaqif M.P. (2004). Qəzəllər. Bakı: Şərq-Qərb

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞININ MÖVZU RƏNGARƏNGLİYİ

# THEME DIVERSITY OF ASHUG ALASGAR'S ACTIVITY

# РАЗНООБРАЗНАЯ ТЕМАТИКА ТВОРЧЕСТВА АШУГА АЛЕСКЕРА

**Xəyalə Orucqızı – AĞAYEVA**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*xeyale.eliyeva.80@list.ru*

**Summary**

In the language of all peoples the poem has passed from time to time in oral and written form, from generation to generation, engraved in memory and enriched the word treasure of humanity.

Ashug Alasgar's poems show that Azerbaijani poetry is an art fountain with rich traditions. Alasgar Dede, who carried all the features of the ashug art, was among the masters of ashug. Master ashugs were poets, composers, epic and folk artists who can perform their own creations.

The basis of the poem Alasgar, which is famous as a beauty song, is a beautiful and glorification of beauty. The theme also includes real natural beauty such as step-by-step walkways, rose-flowered plateaus, the mountains with gazelles, rivers, waterfalls, tulips, daffodils. In his poems these landscapes sometimes consist of his native village of Agkilsa and sometimes expand as much as the world in general. Ashug glorifies everything in his poems in unity with man.

Though one of the important conditions of the beauty described by Ashug Alasgar is external beauty, but it is not decisive. Beautiful must also be beautiful intuitively.

The theme of courage-insidiousness from ancient times in oral literature is also one of the topics addressed by Ashug Alasgar. The betrayer, which Ashug Alasgar regarded as a solid enemy, becomes neither honor, nor self-respect. According to Alasgar's thought one of the reasons that draws life back, shakes beauty is rarity.

It is also known that Ashug Alasgar had performed and created a number of poem genres such as "gerayli", "goshma", "mukhammas", "museddes", "ghazal", "mustezad", "zenjirleme", "muenma", "divani" and so on.

**Key words:** Ashug Alasgar, poem, poetry, beauty, gerayli

**Резюме**

Словесную сокровищницу всего человечества испокон веков обогащал стихотворный размер, начиная из древних языков народа, наблю-

даем этот процесс по сей день, которая включает в себя формы устного и письменного творчества преходящий по наследству.

В Азербайджанской поэзии стихи Ашуга Алескера являются источником творчества, которая богата традициями и обычаями. Алескер в своем творчестве объединил все особенности ашугского творчества и этим вошел в число деде ашугов. Деде ашуги были народными мастерами, они были и поэтами, и композиторами, и сочиняли дастаны и одновременно могли представить и свое творчество.

Ашуг Алескер был известен как певец воспевающий красоту, которая и составляла все его творчество. Поля и луга усеянные цветами, джейраны бегущие по горам, реки и буйные водопады, маковые и нарциссовые склоны составляет реальную тему творчества мастера. Воспетые красоты мест иногда обхватывает лишь родное село Агкилсе, а иной раз он эту красоту распространяет по всему миру. Ашуг все в своих стихах воспевает в тождестве с народом. Обязательным условием воспевания красоты ашугом Алескером хоть и является внешняя красота, но она не решающая. Красота должна быть и внутренняя.

Ашуг Алескер обращался и к теме мужества – предательство, которая исходит из древней устной литературы. В его глазах врагом является тот предатель, у которого нет ни чести, ни совести. По мнению Алескера одной из причин, когда увядает красота и портится жизнь, является невежество.

Ашуг Алескер являлся исполнителем и распространителем собственного творчества, из уст людей, лично знакомых с ашугом говорили, что он является автором сотен герайлы, гошма, мухаммесов, мюседдесов, газелей, мустезадов, зенджирлеме, муенма, диванов и т. д.

**Ключевые слова:** Ашуг Алескер, стихи, поэзия, красота, герайлы

Zəngin xalq yaradıcılığı xəzinəmizin əsaslı bir qolunu aşıq yaradıcılığı təşkil edir. Aşıq keçmişdə də, indi də xalq tərəfindən sevilən, qəbul edilən, təsir etməyi bacarandır.

Xalq şeirimizin ən uca zirvələrini fəth edən qüdrətli sənətkarımız Aşıq Ələsgər həm məzmun, həm forma rəngarəngliyi, həm də saf xalq dilindən istifadə baxımından Azərbaycan şeirinin inkişafında misilsiz xidmətlər göstərmişdir.

Şeirlərinin hər biri bədii icad olan qüdrətli sənətkarımız Aşıq Ələsgər həmişə seviləcək və yaşayacaqdır.

Aşıq Ələsgər Azərbaycanın qədim və dilbər guşələrindən olan Göyçədə anadan olmuşdur. Bu da onun yaradıcılığına təsirsiz ötüşməmişdir. Belə ki, İrəvan xanlığının mahalı, Göyçə gölü ətrafında olan bu yurd yerimiz öz əsrarəngiz təbiəti ilə aləmə səs salmışdır. Azərbaycan

xalqının böyük abidəsi olan “Kitabi-Dədə Qorqud”da rast gəlinən yer-yurd adlarının izini Göyçə gölü boyunca hər tərəfdə tapmaq olar.

O yerlərdə saza, sözə hər zaman yüksək qiymət verilmişdir. Saz çalmağı, söz deməyi bacarmayan insan tapmaq çətindir. Göz oxşayan təbiətin gözəlliyindən təsirlənməmək mümkünsüzdür. Aşıq Ələsgər məhz belə bir gözəlliklər qoynunda dünyaya göz açmış, o torpağın havasını udmuş, suyundan içmişdir. Təsadüfi deyil ki, görkəmli folklorşünas alim M.H.Təhmasib Aşıq Ələsgərə həsr etdiyi məqaləsini “Gözəllik nəğməkarı” adlandırmışdır. Qüdrətli sənətkarımız Ələsgər gözəllik aşiqi idi.

Şeirlərinin əksəriyyətinin mövzusu gözəlliklə bağlı idi. Bu şeirlərdə bütün gözəlliklər insanla vəhdətdə verilir. Ələsgər şeirlərindəki meyara görə zahiri gözəllik əsas mühüm şərtlərdəndir. Lakin əsas olan həm də daxili gözəllikdir. O, təsvir etdiyi gözəllərin zahiri gözəlliyi ilə bərabər, yüksək əxlaqı və insani gözəlliklərini də tərənnüm edir.

Canımı qurban elərəm
Bir belə tərlan gözələ
Hal bilən, şirin gülən
Dosta mehriban gözələ
Boy uca, gərdan mina
Zülfü pərişan gözələ...
Gözəl xanım cilvələnib
Gözəllərin xası kimi,

Silkinir, gərdan çəkir
Göllərin sonası kimi
Ala göz şölə verir
Göylər sürəyyası kimi,
Çəpkəni hər rəng çalır.
Tovuzun cığası kimi
Behiştdən qılman gəlib,
Geydirib qılman gözələ və s.

Onun tərənnüm etdiyi gözəlliklər sırasında hər qarışına bələd olduğu doğma yurdunun füsunkar təbiəti də əsas yer tutur.

Aşıq Ələsgərin təbiət mövzusunda olan şeirlərindən biri də sadə, oxunaqlı dildə qələmə aldığı “Yaylaq” şeiridir. Şair bu şeirdə yaylağa müraciətlə səmimi, ürəkdən gələn arzularını bildirir:

Gözəllər seyrangahısan
Görüm səni var ol, yaylaq!
Açılsın gülün, nərgizin
Təzə mürgüzar ol, yaylaq!

Şeirdə aşığın həmçinin doğma torpağa bağlılığı yaylağı özünə arxa, doğma hesab etməsi poetik dillə tərənnüm olmuşdur.

Gəraylının sonluğu təsirlidi. Aşıq yaylağın gözəlliyini görəndən sonra sinəsinin qəm dəftəri olduğunu söyləyir. Yad əllərin bu gözəlliyi poza biləcəyindən narahatlığını ifadə edir.

Mən səni görəndən bəri
Sinəm oldu qəm dəftəri

Yazıq Aşıq Ələsgəri
Öldür, günahkar ol, yaylaq!

Azərbaycan aşıq ədəbiyyatında görkəmli irs qoyub getmiş Aşıq Ələsgərin şeirlərini təsnif etsək, saf və təmiz məhəbbətin tərənnümünə, el gözəllərinin tərifinə, vətən təbiətinin təsvirinə, əxlaqi-tərbiyəvi fikirlərin təbliğinə, dövrün ictimai eyiblərinin tənqidinə həsr olunmuş qoşma, gəraylı, təcnis və müxəmməslərə rast gələrik.

Aşığın yaradıcılığında qoşmaların böyük hissəsi ülvi məhəbbət duyğularının, Azərbaycanın gözəl qız və gəlinlərinin təsvirinə həsr edilmişdir. Aşıq Ələsgərin "Bəyistan", "Güləndam", "Gülpəri", "Telli", "Sarıköynək" və s kimi qoşmaları el gözəllərinə müraciətlə yazılmışdır.

Ağ buxağın işıqlıdı büllurdan
Ləblərin innabı, dəhanın dürdan,
Yaradan xəlq edib bir qətrə nurdan.
Düşübsən ellərə nişana, Telli!

Ələsgərəm, şad olmadım dünyada,
Səni gördüm, dərdim oldu ziyada
Üzün bəri döndər, ay mələkzada,
Səni and verirəm peymana, Telli!

Şifahi ədəbiyyatda çox qədimlərdən gələn mövzulardan biri də mərdlik-namərdlikdir. Şifahi ədəbiyyatımızın epik janrına aid olan nağıllarımızda hətta qardaşlardan birinin mərd, digərinin namərd olması belə təsvir olunmuşdur. Bu məsələyə aşıq şeirində də tez-tez müraciət olunur. Aşıq Ələsgər namərd insana nifrət edir:

Bu dünyanı mən təcrübə eylədim,
Namərd körpü salsa onda ad olmaz
Bir mərdinən ağı yesən şirindi.
Yüz namərdnən şəkər yesən, dad olmaz.

Aşıq Ələsgər mərdin yüksək insani keyfiyyətlərini – alicənablığını, səxavətini, xeyirxahlığını tərənnüm edir. Həmçinin aşıq hər şeyin yerini bilən insanların heç yerdə xəcalətli olmamalarını dilə gətirir:

O dünyanı, bu dünyanı gözləyən,
Həm savad, həm üsyanı gözləyən,
Namus qədri bilib nanı gözləyən
İnsallah, heç yerdə xəcalət olmaz (1, s. 70).

Ələsgər insanın mərd və ya namərd olmasında nüftə və tərbiyənin əsas rol oynadığını qeyd edir. Buradan da aşığın ustadnamələrdə qoyduğu, izah etdiyi, tənqidinə tuş gələn və tərif elədiyi keyfiyyətlər silsiləsi ortaya çıxır.

Ələsgərə görə insan gözəlliyinin əsas şərtlərindən biri onun zəhmətkeşliyidir. Əməyi sevən insan, özünü zəhmətə alışdıran insan həyatın bütün çətinliklərindən keçməyi bacarır. Ələsgərin oğlunun və nəvəsinin onun haqqında söylədikləri xatirələrdən məlum olur ki, Ələsgər çox əməksevən insan olub. Yaz və yay aylarında əkinçiliklə, qış aylarında isə aşıqlıqla məşğul olurmuş. Qoca vaxtlarında da yer şumladıqda kotanın macını özü tutar, toxumu özü səpərmiş. Ot biçini taxıl biçini, xırman vaxtı əlini işdən çəkməzmiş. O həmçinin dülgərlik işlərini də bacarırmış. O, öz əli ilə xamır tabağı, dördayaq, çəhrə və kərki də düzətmişdi.

O həmçinin meşələrindən kəllərlə gətirdiyi palıd ağacları ilə ev də tikib ömrünün sonuna kimi o evdə yaşamışdı.

Şair şeirlərində əməksevər insanları təbliğ etmiş, bunda da əsas kimi tərbiyənin rolu olduğunu qeyd etmişdir.

"Aşıqlar "Baş divani" saz havasında dini-ürfani və təsəvvüfi məzmunda divani oxuduqları zaman bunu "aşıqlığın qapısı" və ya "haqq divanisi" adlandırırlar. "Haqq divanisi" böyük əksəriyyətlə aşıq məclisinin girişində söylənilir. Aşıq bu məqamda özünü Haqqın – Allahın dərgahında – divanında hiss edir. Məclis – mərasimə başlamaq üçün Allahın dərgahından – Haqq divanından izn-rüsxət istəyirmiş kimi aşağıdakı yalvarış-nidanı dilə gətirir: "Ya İlahi, ya Rəsul, ya Mövlam, ya Şahi-Mərdan! Səndən mədəd"! Bundan sonra o, Haqq dərgahında – divanında təzim edərək məşhur divanilərdən birini çalıb oxumağa başlayır. Aşıq Ələsgərin "Baş endirir" rədifli məşhur divanisi ən çox müraciət olunan haqq divanilərindən biridir:

Ələstidən "bəli" deyən Sübhana baş endirir,
Məhəmmədə nazil olan Qurana baş endirir.
Özü birdir, adı minbir, vəhdəti əl-laşərik,
Əhli mömin görə bilməz, pünhana baş endirir.

Ölməyincə, bu sevdadan çətin dönəm, usanam,
Həqiqətdən dərs almışam, mərifətdən söz qanam.
Şahi-mərdan sayəsində elm içində ümmanam,
Dəryaların qaydasıdı, ümmana baş endirir.

Biçarə Aşıq Ələsgər olma elmə nabələd,
Danışanda doğru danış, sözün çıxmasın qələt.
Çox qazansan, az qazansan beş arşın ağdı xələt,
Var-dövlətə baş endirən əfsana baş endirir" (2, s. 126-127).

Haqq aşığı olan Dədə Ələsgər əsərlərinin əksər hissəsində oxucuya, dinləyicilərinə ibrətamiz fikirlər aşılayır. Onun neçə-neçə misrasını, beytini, bəndini xalq özü əzbər etmiş, atalar sözü və zərb-məsələ çevirmişdir: “Qarı düşmən bir də gəlib dost olmaz”, “Haqqdan yanan çıraq bad ilə sönməz”, “Haqq-nahaq seçilə haqq divanında”, “Dövlətdən qiymətin beş arşın ağdı”, “Can deməklə candan can əskik olmaz”, “Qaytarmazlar pirə gələn qurbanı”, “Qiyamət odundan pisdir tənə söz”, “Dost uzaq olmaqla könül yad olmaz”, “Muşlar pələng olmaz, tülkülər – aslan”, “Dərd üğyan eləsə mey içmək olar”, “Sayğısız igidi düşmən aldadar”, “Kişi gərək dediyindən dönməsin”, “Qonşuya kəc baxan özü ac olur”, “Güzəran xoş olub, gün xoş keçəndə, ağ otaqdan tövləxana yaxşıdır” və s.

“Ələsgər geniş mənalı məcazların bütün formalarından, çeşidlərindən, hətta çalarlarından məharətlə istifadə edən sənətkarlardandır. Onun rəsm etdiyi ən gözəl təbiət lövhələrinin, yaxud zahiri camal gözəlliklərinin belə heç biri fotoşəkil olaraq qalmır. Onun bütün təsvirlərində bədii icad əsas rol oynayır ki, Ələsgərdə bədii icad olmayan şeir yoxdur. Bu onda çoxlarına müyəssər olmayan bir qabiliyyətdir. Bu qabiliyyətin, bu qüdrətin sayəsində o, güllər, çiçəklər, dağlar, dərələr, heyvanlar, quşlar, hətta böcəklər aləmi ilə bağlı elə müqayisələr yaradır, elə bədii lövhələr cızır ki, insan heyran qalır” (3, s.103).

Xalq şairimiz Səməd Vurğun çıxışlarından birində Aşıq Ələsgər haqqında “hansı mövzuya əl atıram, hansı daşı qaldırıram, altından Dədə Ələsgərdən bir nişanə görürəm” demişdir. Bu da onu göstərir ki, qüdrətli sənətkarımız şeirlərində bütün mövzuları əhatə etmişdir. Poeziyası hikmət dünyası, tərbiyə xəzinəsi olan el nəğməkarımızın şeirləri dillər əzbəridir. Aşıq Ələsgərin müdrik kəlamlarından gələcək nəsillər də faydalanacaqlar.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. Əsərləri. “Şərq-Qərb”, Bakı, 2004
2. M.Qasımlı, M.Allahmanlı. Aşıq şeirinin poetik biçimləri və çeşidləri. “Elm və təhsil”, Bakı, 2018
3. M.Təhmasib. Məqalələr. Bakı, Elm, 2005

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞININ QAZAX AŞIQ MÜHİTİNƏ TƏSİRİ

# ASHUG ALASGAR'S INFLUENCE TO GAZAKH ASHUG ENVIRONMENT

# ВЛИЯНИЕ АШУГА АЛЕСКЕРА НА ГАЗАХСКУЮ АШУГСКУЮ СРЕДУ

**İlhamə Cəlal qızı QƏSƏBOVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*ilhame92@mail.ru*

**Summary**

The main way to investigate ashug literature and discover its multifaceted activity and rich repertoire is to pay special attention to the regional-cultural and social peculiarities of this art.

The regional and local environment, the individual research of different masters is a necessary condition for the perfect study of the ethnic cultural system of Azerbaijani Turks as a whole. One of the unique and giant figures of Azerbaijani ashug art, master ashug Alasgar is considered a symbol of ashug art. Ashug Alasgar is the main bearer of the right of Azerbaijan to become an art passport for all periods of ashug art. Today the anniversary of Ashug Alasgar, one of our ashugs with high features, is celebrated. It is for this reason that the President of the Republic of Azerbaijan Ilham Aliyev, guided by paragraph 32 of Article 109.1 of the Constitution of the Republic of Azerbaijan, signed an order on February 18, 2021 to celebrate the 200$^{th}$ anniversary of the birth of Ashug Alasgar, the artist who raised ashug poetry to the heights.

The name, personality and activity of our great master Ashug Alasgar, who is considered to be the highest peak of ashug poetry and literature in general, is still an object for research.

As a talented person, Ashug Alasgar reflected moral wealth, spiritual values, traditions, wedding, joy, grief, public troubles of our people in his works with great skill and high craftsmanship.

Ashug Alasgar has created works in a variety of genres that are not comparable to any folk poet or ashug either before or after him. It can be said that not any ashug has ever placed a place after him to create a new genre of poetry. Ashug Alasgar has created many perfect poems in some genres such as "ustadname", "zenjirleme", "gerayli", "varsagi", "tajnis", "gifilbend", "hejv", "herbe-zorba", "shikayetname", "dodagdeymez", "dildonmez", "divani", "mukhammas", "mugaddas", "ghazal", "deyishme", "herfustu", etc.

Ashug Alasgar had a great influence on ashug environments and ashugs. From this point of view, it is possible to see Alasgar's writing style in ashugs growing in Gazakh ashug environment and growing up today. Like the ashugs of other environments, the ashugs from the Gazakh region always consider Ashug Alasgar as their great master. There is no ashug who does not know Ashug Alasgar's activity in the Gazakh ashug environment. Ashug Alasgar's activity is a bright and beautiful page in the development of the Azerbaijani poetic idea and it really awakens noble feelings in the heart of human, gives great pleasure and felicity.

**Key words:** Ashug Alasgar, Goycha, saz, Gazakh, Ashug Adalat, poem, epos, environment

**Резюме**

Изучение Ашугской литературы и ее широкопрофильной деятельности, а также главное направление при выявлении его богатого репертуара, регионально-культурной и социальной среды, особой самобытности является актуальной задачей обращенное вышесказанному особое внимание. Региональная и локальная среда, индивидуальное исследование творчества отдельных мастеров, является необходимым условием для изучения в совершенстве системы этнической культуры в целом Азербайджанских тюрков.

Ашуг Алескер – уникальный представитель ашугского творчества, он считается символом ашугского мастерства. Ашуг Алескер во все времена Азербайджанского ашугского творчества являлся основным носителем творческого паспорта данного ремесла. Ашуг Алескер, юбилей которого мы отмечаем, является ашугом обладающий выдающимися способенностями. Именно по этой причине, Президент Азербайджанской Республики Ильхам Алиев, придерживаясь 109-ой статьи 32-ого параграфа закона Азербайджанской Конституции подписал указ от 18 февраля 2021 года о торжественном проведении 200-летней годовщины со дня рождения мастера слова, великого ашуга Алескера, который высоко поднял на вершину ашугскую поэзию Азербайджана.

По сей день имя Ашуга Алескера, и как личность, и его творчество, как большой мастер, который поднял на вершину славы ашугскую поэзию, является объектом исследования. Обладая большим талантом он в своих произведениях мастерски представил нравственное богатство своего народа, его моральные ценности, обычаи и традиции, свадьбу и похороны, его радость и печаль и отразил общественные тяготы.

Ашуг Алескер не сопоставлял себя с поэтами, жившими и до себя и после него, он создал произведения в различных жанрах. После него ни один ашуг не сочинил что-либо новое. Устаднаме, зенджирлеме, герайлы, тесниф, гыфылбенд, хеджв, хербезорба, шикайетнаме, додагдеймез, диваны, мухаммес, мюгеддес, газели, дейишме, херфюстю и др. в виде стиха

создал совершенное наследие. Творчество Ашуга Алескера повлияло на ашугов и на ашугскую среду. С этой точки зрения воспитанники и по сей день продолжающие появляться в Газахской ашугской среде ашугов, в их творчестве можно проследить почерк великого Алескера. Как и ашуги из другой среды, Газахские ашуги считают Ашуга Алескера своим учителем, наставником. Не знакомый с творчеством Ашуга Алескера в Газахской ашугской среде ашуг, не может называть себя ашугом. Творчество Ашуга Алескера в развитии Азербайджанской поэтической мысли является чистой жемчужиной, который в душе человека возбуждает прекрасные чувства, и он испытывает чувство наслаждения и блаженства.

**Ключевые слова:** Ашуг Алескер, Гейче, саз, Газах, Ашуг Адалят, стихотворение, дастан, среда

**Giriş.** Göyçə aşıq mühiti Qazax aşıq mühiti ilə qarşılıqlı təsir nəticəsində daha çox zənginləşmişdir. 1905-ci illərdə ermənilərin Azərbaycan türklərini öz dədə-baba yurdlarından sıxışdırıb çıxartdıqları dövrdən Göyçədən məcburi köçüb Qazax mahalında yaşayanlar çoxdur. Elə bu səbəbdən də Qazax və Göyçə mahalının adət-ənənəsi, yaşam tərzi, dialektləri bir-birinə qaynayıb qarışmışdır. Həm Göyçə, həm də Qazax aşıq mühitlərinin bir çox xüsusiyyətlərini bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir. Çünki ərazi etibarilə yaxın olan Qazax və Göyçə tarix boyu saz-söz sənəti ilə eyni ənənələr üzərində formalaşmış, inkişaf etmişdir. Göyçə aşıq mühiti inzibati ərazi baxımından da ona yaxın olan bölgələri əhatə etmiş və bunun nəticəsində qərb aşıq mühitinin, eləcə də Qazax mahalının bir hissəsində formalaşan ustad sənətkarlar yetişmişdir. Klassik aşıq sənətinin səciyyəvi xüsusiyyətlərini qoruyub saxlayan Qərb aşıq mühiti coğrafiyasında Göyçə aşıq mühitinə bağlı olaraq özü də ayrı-ayrılıqda bir aşıq mühiti kimi onunla eyni mövqedə çıxış edən Qazax mahalının də xüsusi yeri vardır.

Coğrafi mövqeyinə görə Qazax aşıq mühiti bir neçə aşıq mühitlərin mərkəzində yerləşdiyindən klassik aşıq şeirinin daşıyıcısıdır. Qazax və Göyçə bölgəsinin saz-söz sənəti daim vəhdətdə olmuşdur. Qazax mahalının bir hissəsi, yəni I-II Şıxlı kəndi, İncə Dərəsi, Qaymaxlı, Kəmərli, Aslanbəyli və Daşsalahlı kəndləri Borçalı aşıq mühiti, Qazaxbəyli, Çaylı, Canallı, Ağköynək kəndləri (yaxın keçmişdə Ağstafa Qazağın tabeliyində olan dövrlərdə Ağstafanın kəndləri də bu siyahıya daxil idi) Göyçə aşıq mühiti ilə sənət əlaqəsində inkişaf etmişdir. Bunlar əsas verir deyək ki, Qazax və Göyçə aşıq yaradıcılığı ayrılmaz olduqları üçün, həm də burada el sənətkarları və ustad aşıqların yetişməsində həmin bağlılıq mühüm rol

oynamışdır. Aşıq Məmməd (Canallı Məmməd), Aşıq Məmmədyar Əminov, Aşıq Ədalət Nəsibov, Aşıq Cəfər Eyvazov, Aşıq Şəadət Gülməmmədov Göyçə aşıq məktəbinin yetirmələridir.

Qazax aşıqlarının yaradıcılıq baxımından inkişafında XIX əsr xüsusi bir mərhələ təşkil edir. Belə ki, bu dövr yeni-yeni ustad sənətkarların meydana çıxması və yeni saz havalarının yaranması ilə xarakterizə olunur. El arasında gəzən aşıq rəvayətlərini nəzərə alsaq bu bölgənin ustad aşığı olan Ələsgərin Qazax mahalında tez-tez məclislər aparması da danılmaz faktdır. Hətta deyilənə görə, Aşıq Alı da tez-tez Qazax bölgəsinə səfər edərmiş. Aşıq Alının Qazax səfəri o qədər davamlı olurmuş ki, bəzən onun Qazaxlı olduğunu söyləyənlər də vardır.

XIX əsrin sonu XX yüzilin ilk illərində Qazax bölgəsində Göyçəli saz-söz sənətkarları məclislər aparıblar. Ən çox məclis aparan adlı-sanlı aşıqlardan Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Alışan, Növrəs İman, Əsəd Rzayev, Aşıq Musa olmuşdur. XX yüzildə Qazax bölgəsindən olan aşıqlar və el şairləri də günü-gündən sənətlərini daha da dərinləşdirir, aktual mövzulara toxunurlar. Təbii ki, bu ikitərəfli sənət əlaqələri Qazax aşıqlarının yaradıcılığında spesifik xüsusiyyətlər meydana gətirmişdir.

Vətən mövzusu və bilavasitə aşığın yaşadığı bölgəyə olan sevgisi Qazax aşıq mühitinin aşıqlarının yaradıcılığında geniş şəkildə yayılmışdır. Vətən sevgisi, doğma yerlərə heyranlıq Qazax-Göyçə aşıqlarının yaradıcılığında qabarıq şəkildə əhatə olunub.

XX yüzilin Qazax aşıqlarının yaradıcılığında vətən həsrəti, "Göyçə dağı", Ələsgər qəbrini ziyarət həsrəti də istisna deyil. El şairi Həvəskar "Göyçəyə" qoşmasında yazır ki:

Ay yönü Göyçəyə uçan durnalar,
Polat libasını geyməmiş olma.
Alı xatirinə, İman eşqinə,
Ələsgər qəbrinə dəyməmiş olma (6, 464).

Aşıq Şadət Gülməmmədovun yaradıcılığında da Göyçə həsrəti, Göyçə yanğısı var. Tapdaq altında qalan Ulu Göyçəni ermənilərin işğal etməsi, Aşıq Ələsgərin qəbrinin ziyarət edilməsinin mümkün olmaması Aşıq Şadət yaradıcılığında sitəmlə xatırlanır.

Ələsgər məskanı Göyçə elindən,
Nələr gəldi, nələr getdi Göyçədən.
Namərd ermənilər namərdlik etdi,
Namus da, qeyrət də itdi Göyçədən.

Ağır ellər qaldı yurdsuz yuvasız,
Dağıldı obası oldu obasız.

Analar gördüm qaldı balasız,
Bayğuşlar dil deyib ötdü Göyçədən.

Mərd igidlər namərdlərə tuş oldu,
Kimi qaldı, kimi öldü yox oldu.
Aşıq Şadət dərdin qəmin çox oldu,
O ellər obalar köçdü Göyçədən.

Şair Mustafa Vəliyevin yaradıcılığında oxuyuruq:

Böyükdür sənətin, böyükdür adın,
Aşıq Ələsgərdir ölməz ustadın.
Pərvazlansın daim qolun, qanadın,
Seyr etsin Kəpəzi, Qoşqarı, Şəmşir!

Və yaxud:

Mustafa, baxma sən, mənalı dalğın,
Gecələr zülmətdi, karvansa yorğun.
Qayıtsa dünyaya Ələsgər,Vurğun,
Xoş keçər aylarım, illərim mənim.

El şairi Novruz Süleymanov yaradıcılığında da Aşıq Ələsgər şeirlərinin fəlsəfi dəyərindən, Aşıq Ələsgərin talantından söz açılır.

Çalış bu dünyada adlı, sanlı ol,
Hamı səni saysın düz ilqarlı ol.
Şeir aləmində min talantlı ol,
Ələsgər tək qoca kalı unutma.

Aşıq Qərib Cəlilov yazır ki:

Aşıq Ələsgər Dədəmiz,
Saz mülkündə dərya dəniz.

Aşıq İlham Aslanbəyli isə aşıq sənətinin fəlsəfəsini Aşıq Ələsgərdən, Aşıq Alıdan aldığını söyləməklə ustad yolu haqq yolu olduğunu bir daha söyləmiş olur.

Aşıq Ələsgərdən, Alıdan gəlir,
Sənət fəlsəfəsi Aşıq İlhamın.

Şeirlərdən də göründüyü kimi, Qazax mahalının istər aşıq mühiti, istərsə də ədəbi mühiti üçün Aşıq Ələsgər və Səməd Vurğun ustad sayılır.

Aşıq sənətinin yaşadılması və sonrakı nəsillərə ötürülməsi ustad-şəyird əlaqəsi ilə gerçəkləşir. Aşıqlığın ortaya çıxdığı tarixdən bu günə qədər ustad-şəyird münasibəti baxımından çox şey dəyişsə də, dəyişməz qalan aşıqlıq sənətinin musiqi, avaz və şeir üçlüyündə bir başqasına öyrədilməsidir. Ustad-şəyird münasibətini ilk araşdıran Fuad Köprülüdən üzü bəri ustad aşıqların ərkana görə on iki aşıq yetişdirməsi, onların

ustad aşığın yolunu davam etdirməsi məsələləri üzərində dayanılmışdur (5). Təbii ki, az-çox bu mövzuya toxunan tədqiqatçılar F.Köprülüdən daha artıq fikir söyləyə bilmədiklərindən ustad-şəyird münasibəti hələ də öyrənil-məsi vacib mövzulardan biri olaraq qalır.

Burada on iki rəqəmi reallıqdan daha çox rəmzi məna ifadə edir. Təbii ki, Aşıq Ələsgərin şəyirdlərinin sayı on ikidən çox olmuşdur, lakin onun güvəndiyi, məclislərdə üzünü ağ etdiyi on iki şəyirdi olduğunu güman edirik. Necə ki, Aşıq Ələsgər də bir şeirində deyir:

Adım Ələsgərdi, mərdü mərdana,
On iki şəyirdim işlər hər yana (1, 66).

Necə ki, Aşıq Ələsgər də ustad yanında dərs almağı aşıqlığın qaydası adlandırırdı:

Ələsgərəm, hələ azdı kamalım,
Qayda budur bir ustaddan dərs alım.

Ustad aşıq şəyirdinə yalnız aşıq sənətinə xas olan spesifik xüsusiyyətləri öyrətməklə qalmır, eyni zamanda, ona həm də atalıq, ağsaqqallıq edir. Demək olar ki, xalq arasında özünü necə aparmağı, ədəb-ərkanı, böyük-kiçik yeri bilməyi, məclis keçirəcəyi bölgənin adət-ənənəsini öyrənməyi də öyrədir. Necə ki, Aşıq Ələsgər deyir:

Aşıq olub diyar-diyar gəzənin,
Əvvəl başda pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra.
El içində pak otura pak dura,
Dalısınca xoş sədalı gərəkdi (2, 43).

Ustad-şəyird münasibəti aşıq sənəti üçün spesifik bir hadisədir. Vaxtı ilə ustadlar səsi olan şəyirdləri özləri axtarıb-arayarlarmış. Eldə-obada məclislərə gedəndə gənclər arasında qabiliyyəti, səsi, güclü hafizəsi olanlara, hətta hazırcavab olanlara fikir verərmiş, onları aşıq sənətinə sövq edərlərmiş. Bu bir tərəfdən aşıq sənətinə hörmət, diqqət və qayğıdan irəli gəlirsə, digər tərəfdən gələcək nəsillər üçün aşıqlıq sənətini yaşadacaq ustad aşıq yetişdirmək məqsədi daşıyır. Ona görə də əminliklə deyə bilərik ki, aşıq sənəti varislik üzərində qurulmuşdur. Ustadların dediyinə görə, Aşıq Ələsgər Aşıq Nəcəflə at belində bir toy məclisinə gedərkən yolda qulağına bir səs gəlir. Baxır ki, bir sarıyanız uşaq quzu otara-otara mahnı oxuyur. Uşağa yaxınlaşıb soruşurlar ki, oğul kimin uşağısan? Uşaq Əhmədin oğluyam, deyə cavab verir. Aşıq-

lar toya yollanırlar, qayıdanda Əhməd kişini axtarıb tapır, onun ailəsinə baş çəkirlər. Əhməd kişiyə uşağının aşıqlara xas yaxşı səsi olduğunu və səsinə valeh olduqlarını bildirirlər. Beləliklə, onu bu sənətə cəlb edirlər. Bu uşaq Aşıq Əsəd Rzayev olur (3).

Aşıq Ələsgərdən sonra Qazaxda bu bir ənənə şəklini alır. Belə ki, Səməd Vurğun da səsi olan aşıqları, iti qələmi olan el şairlərini daim arayıb-axtarıb onlara sənətdə dəstək olur.

Aşıq sənətinə şəyirdliklə aşıqlıq arasında bir keçid dönəmi vardır ki, buna da "beçə" deyirlər. Ustad yanında şəyirdliyə başlayan gənc həvəskarlara aşıq olana qədər "beçə" deyirlər. Aşıq Ədalət Nəsibov da digər şəyirdlər kimi bir zamana qədər bu adı daşımalı olub. Özünün də televiziya verilişlərinin birində dediyi kimi: Günlərin bir günü Söyün Sarıyev deyib ki, gəl mənnən bir yerə gedək. Onlar dəvət aldıqları məclisə gedirlər. Beş-altı nəfər kişi olan qonaqlıqda başda ağ saçı, nurani bir kişi əyləşibmiş. Onu görən kimi Aşıq Ədalət tanıyır. O zamanlar aşıq Ədalət Nəsibov aşıq sənətinə yenicə başlayırmış və çox gənc imiş. Qəzetlərdə və kitabda şəklini gördüyünü söyləmək üçün üzünü ustad aşıq Hüseyn Sarıyevə tutaraq: - Söyün dayı, mən bu kişiyi tanıyıram deyir. Söyün Sarıyev gülüb, deyir ki, oğul bu böyük şair Səməd Vurğundur. Səməd Vurğun Aşıq Ədalətə "beçə" deyə müraciət edərmiş. Söyün Sarıyev də həmin vaxtlar ona "beçə" deyirmiş. Şəyirdliklə aşıqlıq arasında olan dönəmlərdə "Beçə" adlanarmış aşıqlar. Səməd Vurğun "anan ölməsin ay beçə" geyib gənc aşıq Ədalətin alnından öpür. Ustad adının bir müddət beçə olduğunu söyləsə də nədən belə çağrıldığının mahiyyə-tini təəssüf ki, açıqlamır (Beçə sözünün anlamı yeni banlamağa başlayan xoruz deməkdir. İ.Q). Sadəcə verilişdə də söyləyir ki, bir müddət mənim adım beçə oldu. Hamı beçə dedi mənə. Bundan sonra Səməd Vurğun hər Qazaxa gəldiyində Aşıq Ədaləti yanına çağırar, ona saz çaldırıb dinlərmiş, hətta gələndə ona əyin-baş, alarmış. S.Vurğun o vaxt gənc Ədaləti atası Məhəmmədəli kişidən alıb Bakıya gətirmək istəyir.

- Ay Məhəmmədəli kişi, ver bu uşağı mən aparım özümnən - deyir. Ədalət Nəsibov söyləyir ki: - rəhmətlik dədəm vermədi. Səməd Vurğuna dedi: - ay "qağa" bu mənim gözümün ilk "oyudur" (yəni ilk övladımdır). Bunu verəmmərəm, ay qağa. Bu mənə kömək edir. Ata-bala dolanırıq bir təhər. Əslində çox kasıbçılıqla yaşayan Məhəmmədəli kişi oğlunun azdan-çoxdan məclislərdə sənəti ilə pul qazandığını düşünür. Ədalət Nəsibov söyləyir ki: S.Vurğun çıxardıb dədəmə çoxlu pul verdi ki, ver bu uşağı mənə. Atam yenə vermədi məni. Onda Vurğun atama dedi ki, bu

uşağa yaxşı bax. Gələcəyi var. Aşıq Ədaləti məclislərdə tanıdan, onu "beçə" deyib yanında məclislərə aparan Söyün Sarıyev 1902-ci ildə Qərbi Azərbaycanın Polad kəndində anadan olub. Sonradan ailəsi ilə birgə Qazaxa köçüb. Deyilənə görə, Aşıq Söyün ustad Aşıq Ələsgərin yanına şəyirdliyə gedib. Ona Qazax mahalında "ayrım Söyün" deyilsə də, daha çox yaddaşlarda "Səməd Vurğun aşığı" kimi qalıb. Çünki Səməd Vurğun hər Qazağa gəlişində məhz onu yanına çağırar, bulaq başına aparıb çaldırıb-oxudarmış. Bunun səbəblərindən ən birincisi Söyün Sarıyevin S.Vurğuna xoş gəlsin deyə onun şeirlərini söyləməməsi olub. Söyün Sarıyev daha çox ustad aşıqlardan, klassik aşıqların şeirlərini, daha çox isə Aşıq Ələsgərdən oxuyarmış. Bu da S.Vurğunun xoşuna gəlirmiş.

"Saz" və "Ədalət", bu iki söz xalqımızın dilində artıq sinonimləşib. Birinin adı çəkiləndə istər-istəməz o birisini də xatırlayırsan. Ədalət Nəsibov sənətinin, Ədalət barmağının ecazkar qüdrəti saz ömrünə bahar gətirib, onu yüksəklərə qaldırıb. İndi Ədalətin sazı Şərqin geniş imkanlara malik başqa çalğı alətlərinə sözün həqiqi mənasında meydan oxuyur. Aşıq Ədalət sazı elə bu qüdrətinə, möcüzəsinə, sehrinə görə xalq arasında əfsanələşib. Onun sənətə gəlməyilə ozan-aşıq sənəti daha da sığallandı, daha da zənginləşdi, daha da şöhrətləndi və öz coğrafiyasını genişləndir-di. Aşıq Ədalət Nəsibov sağlığında klassikləşən bir sənətkardır. Ədalət Nəsibov sazda bir sənət inqilabı etdi. O, aşıq sənətinin dünənini bu günə çatdırmaqla yanaşı sabahı qurmağı bacardı. Aşıq Ədalət solo saz ifaçılıq sahəsində möhtəşəm bir məktəb yaratmaqla bərabər, türkün şəriksiz musiqi aləti olan sazının dünya musiqi alətləri sırasında möhtəşəm yerini göstərməyi bacardı. Aşıq Ədalət məktəbindən nəinki ölkəmizdə, hətta İranda, Türkiyədə yaşayan aşıqlar istifadə edərək öz ifalarını mükəmməlləşdirirlər. Saz yarandığı gündən belə bir ovsunçu görməyib. O, bütün ifalarında ifaya uyğun obraz verə bilirdi. Onun sənətində diqqəti çəkən məqamlardan biri də onun hansı sözü, hansı havacatla, hansı məclisdə oxumağı bacarmaq məharəti idi. O, aşıq poeziyasının, dastanlarımızın canlı xəzinəsi idi. Aşıq Ədalət aşıq mahnıları ilə bərabər bizim muğam və təsniflərimizin, xalq mahnılarımızın, bəstəkar mahnılarının, rəqslərimizin mahir ifaçısı **idi. Aşıq Ədalət həm də gözəl avaz sahibi idi. Onun özünə məxsus çox sehrli bir səsi** var idi. Mənim zənnimcə aşıq Ədalət sazın pasportudur" (Məhəmmədəli Məşədiyev). Aşıq Ədalət qara sazını Aşıq sənətində öz yerini dəyişməyən, bütün türk dünyasının aşıqlarına ustad olan ustad Aşıq Ələsgərin zirvəsinə yüksələ bildi, sazını onun sazının yanına qoymağı bacardı.

Zaman keçdikcə özləri də ustadlaşan Qazax aşıqları Göyçə aşıqlarına ustadlıq etmişdir. Qazax aşıq mühitinin aşıqları həm qəbul edici, həm ötürücü təsirə malik olmuşdur. Bəzi aşıqlar həm Göyçə, həm də Borçalı aşıq sənətindən istifadə edirlər. Müasir dövr Qazax aşıqlarının əksəriyyəti Borçalı aşıq boğazından və Göyçə aşıq boğazından da istifadə edirlər. Hətta barmaqlarından da istifadə etmələri müşahidə edilir. Aşıqlar arasında belə söz var ki, "xal vurmaq" onların dili ilə desək, hər iki mühitdən də xal vururlar (4). Bu sintezdən yaranan aşıqlığın təmsilçiləri bu gün də Qazaxda fəaliyyət göstərirlər. Məsələn, Aşıq Məhəmmədəli Məşədiyevi, Aşıq İlham Aslanbəylini, Aşıq Şaiqi, Aşıq Avdını, gənc aşıqlardan Aşıq Samiri misal göstərmək olar. Baxmayaraq ki, Aşıq Məhəmmədəlinin ustadı Göyçə aşıq mühitinin mahir ustası Ədalət Nəsibov, Aşıq İlham Aslanbəylinin ustadı Borçalı aşıq mühitinin davamçısı Aşıq Kərəm Nəsibov, Aşıq Şaiqin ustadı Borçalı aşıq mühitinin davamçısı Aşıq Cəlal Qəhrəmanov, Aşıq Avdının (Musayev) ustadı Borçalı aşıq mühitinin davamçısı Aşıq Yaqub, Aşıq Samirin ustadı Səyid Rəhimov da Borçalı aşıq mühitinin davamçısı olub. Qeyd etdiyimiz aşıqların ustadları aşıqlıq sənətini öyrəndikləri ustadlarının sənət yolunu davam etdirdikləri halda, onların müasir dövrdəki şəyirdləri isə hər iki mühitin, yəni həm ustadlarının, həm də ustadlarının ustadları olan aşıqların yaradıcılığını təbliğ edirlər. Bu vəziyyət müasir dövr gənc aşıqların əksəriyyətində müşahidə edilir.

Qazax aşıq mühitinin aşıqlarını sınağa çəkərkən onlardan tələb olunan şərtlərdən biri də Aşıq Ələsgərin yaradıcılığını təmiz bilməsidir. Aşıqdan sınaq meydanında çox şey tələb olunsa da, Qazax aşıqları keçmişdə daha çox Aşıq Ələsgərin yaradıcılığı ilə sınağa çəkilərmiş.

Hər mahalın özünə məxsus ifa tərzi, məclisi idarə üsulu, janr xüsusiyyətləri, dinləyicisi var. Qazax mahalında da bu xüsusiyyətlər vardır. Məclislərdə aşıqlardan məhz "Qaçaq Kərəmi", "Koroğlu", "Abbas və Qurbani", "Aşıq Qərib", "Əsli Kərəm", "Dilqəm", "Alı xan-Pəri xanım" və ən çox da Aşıq Ələsgərin səfərlərinin söylənilməsini tələb edərlərmiş. Burada həm Aşıq Ələsgərin yaradıcılığına xalqın sevgisi böyük olduğu, həm də Göyçə aşıq mühitinin sənət əlaqəsi özünü göstərirdi. Ustad Aşıq Şadət Gülməmmədov özünü haqlı olaraq Aşıq Ələsgərin şəcərəsi sayır. Bunu şeirlərində də görmək olur.

Ulu babam Ələsgər, babamdı Əsət
Atam aşıq Ədhəm, adımdı Şadət

Əşkara deyirəm demirəm xəlvət
Belə ustadlardan aşıqdan danış.

İstinad Aşıq Şadət Gülməmmədovun sənət yoluna həsr edilmiş monoqrafiyadan götürülüb (Kitab nəşrə hazırlanır). O, Aşıq Ələsgərin şəyirdi olmuş Əsəd Rzayevin şəyirdi Ədhəm Ərəbovun şəyirdidir. Aşıq Şadət Gülməmmədov Aşıq Ələsgər haqqında yaddaşında olanları AMEA Folklor İnstitutunun arxivinə təqdim edərək tədqiqatçıların öhdəsinə verir. Ustadın yaddaşından toplanan "Aşıq Ələsgərlə Şeyxin deyişməsi" və "Aşıq Ələsgərlə Şenliyin deyişməsi"ni ustadı Aşıq Ədhəm Ərəbovdan öyrəndiyini qeyd edir.

**Nəticə.** Aşıq Ələsgər yaradıcılığı Qazax aşıq mühitinin aşıqlarının daha çox öyrəndiyi və məclislərdə təbliğ ediyi bir yaradıcılıqdır. Qazax aşıq mühitində yetişməkdə olan gənc aşıqlardan Aşıq Yaşar Gülümcanov, Aşıq Samir Qazaxlı, Aşıq Avdı Musayev, Aşıq İlqar Qələmçəli, Aşıq Şahin Qazaxlı, Aşıq Əsgər Osmanov, Aşıq Ruslan və onlarla gənc aşıqlar Aşıq Ələsgər yaradıcılığına tez-tez müraciət edirlər, ustad-şəyird münasibətlərini gerçəkləşdirən aşıqlar şəyirdlərinə Aşıq Ələsgər yaradıcılığını daha dərindən mənimsədirlər. Aşıq Ələsgər yaradıcılığı ümumtürk ozan-aşıq sənətinin dünəni ilə bu günü arasında bir körpü olduğu üçün bu gün də aktualdır.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. Əsərləri. Dastan-rəvayətlər, xatirələr / toplayıb tərtib edəni, ön söz və qeydlərin müəllifi İ.Ələsgər. Bakı: Şərq-Qərb, 1999, 578 s.
2. Aşıq Ələsgər. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1988, 182 s.
3. Aşıq Məhəmmədəli Məşədiyev, Qazax Çaylı kəndi, 1961 doğumlu
4. Aşıq Şadət Gülməmmədov, Ağstafa Dağ kəsəmən kəndi, 1929 doğumlu
5. Köprülü M.F. Türk saz şairleri. Ankara: Güven, 1962, 130 s.
6. Qəsəbova İ. XX əsr Qazax aşıqları və el şairləri. Bakı: Nurlan, 2009, 708 s.

# AŞIQ ƏLƏSGƏR VƏ AŞIQ ƏSƏD: İKİ BÖYÜK SƏNƏTKARLA BAĞLI İKİ BÖYÜK YANLIŞLIQ

# ASHIG ALASGAR AND ASHIG ASAD: TWO BIG MISTAKES ABOUT TWO GREAT ARTISTS

# АШУГ АЛЕСКЕР И АШУГ АСАД: ДВЕ БОЛЬШИЕ ОШИБКИ О ЖИЗНИ ДВУХ ВЕЛИКИХ МАСТЕРА АШУГСКОГО ИСКУССТВА

**İslam SADIQ**
*Filologiya elmləri doktoru*
*AMEA Folklor İnstitutu*
*islamsadiq1953@yahoo.com*

**Summary**

Ashig Alasgar is the most prominent representative of the Azerbaijani ashug art. He enriched our Ashug literature with his unique poetry, educated many students and established a school.

Ashig Asad was the most talented, well-known, chosen and beloved of Ashig Alasgar's students. Ashig Asad is originally from Bozalganli village of Tovuz region. However, most sources call him the goychalı Ashig Asad. Also, "Tellerin" (“Of your hair”) was published under the seal of both Ashig Alasgar and Ashig Asad.

In the article clarifies these two confusions.

**Key words:** Ashig Alasgar, Ashig Asad, Tovuz, Goycha, “Tellerin”

**Резюме**

Ашуг Алескер один из амых видных представителей Азербайджанского ашугского искусства. Он своей изумительной поэзией обоготил нашей ашугской литературы и создавал школу, где вырастал нескольких ашугов-учеников.

Один из самых одаренных, талантливых, известных, популярных и любимых учеников Ашуга Алескера был Ашуг Асад. Ашуг Асад родом был из село Бозалганлы Таузского района Азербайджана. Но он родился в селе Боюк Гарагоюнлу древнем Азербайджанском магале Гойче. Это было так. В селе Бозалганлы произошла кравовая вражда. Отец Ахмед и дядя по отцу Оджагверди убивали кендхуда, переселились в йейлаге Гозалбулаг, и больше не вернулис в село. Асад родился там и поэтому его называют Гойчинским ашугом. Еще известное стихотворение (герайлы) “Tellərin” («Твои волосы») ошибочно был опубликован и с подписом Ашуга Алескера и с подписом Ашуга Асада. В данной статье все эти ошибки исправлены на основе достоверных источников.

**Ключевые слова:** Ашуг Алескер, Ашуг Асад, Гойча, Товуз, “Tellərin”, герайлы (gəraylı)

Aşıq sənətindən danışanda ilk yada düşənlərdən biri, bəlkə də, birincisi Aşıq Ələsgər olur. Aşıq Ələsgər sazı və sözü çox yüksəklərə qaldırdı və indi özü elə uca zirvədə oturub ki, hər yerdən görünür. O, sazın və sözün azman sənətkarıdır. Əgər Aşıq Ələsgərin iki kitablıq yox, bir kitablıq da yox, cəmi on-on beş şeiri gəlib bizə çatsaydı, onun yeri yenə həmin zirvə olacaqdı. Onun beş-on təcnisinin və qıfılbəndinin hərəsi cild-cild kitablara dəyər. Onları düzüb-qoşan sənətkarı tarix hər zaman yetişdirmir. Ən uca zirvədə durmaq Aşıq Ələsgərin ana südü qədər halal haqqıdır. Bunları ona görə xatırladıram ki, bəzən başqa aşıqların şeirlərini Ələsgərin adına çıxırlar. Onun bunlara ehtiyacı yoxdur. Həmin şeirlərin yoxluğu Aşıq Ələsgərin aşıq sənətindəki və ədəbiyyat tariximizdəki yerinə zərrə qədər də xələl gətirə bilməz.

Aşıq Ələsgərin aşıq sənətindəki xidmətləri təkcə saz çalıb-oxumağı və söz qoşmağıyla bitmir. Onun ən böyük xidmətlərindən biri də çoxlu şəyirdlər yetişdirməsidir. Hər bir sənəti yaşatmaq üçün onu gənclərə öyrətmək lazımdır. Yeri gəlmişkən demək istəyirəm ki, aşıq sənətindən danışanların çoxu şagird sözünü daha çox işlədirlər. Bilmək lazımdır ki, şəyird və şagird sözləri mənaca, məzmunca, hətta şəkilcə nə qədər oxşar olsalar da, onlar eyni söz deyil. Şəyirdlik şagirdlikdən tamamilə fərqlənir və aşıq sənətindən danışanlar şəyird sözünü işlətsələr daha yaxşı olar. Ustad sənətkarlarımızın heç birinin dilindən şagird sözü çıxmayıb. Ustad sözünün yerinə müəllim sözünü işlətmədiyimiz kimi, şəyird sözünü şagirdləşdirməyə də ehtiyac yoxdur. Aşıq Ələsgərin Göyçədəki evi Aşıq məktəbinə dönmüşdü. Aşıq məktəbləri o zaman ustad aşıqların öz evlərində olurdu. Onlar şəyirdlərini öz övladları kimi evlərində saxlayırdılar. Şəyirdlər yalnız ustadları razılıq verəndən sonra sərbəst aşıqlığa başlayırdılar. Hətta bəzən öz ustadlarından uzun müddət ayrılmırdılar. Məsələn, Aşıq Əsəd dörd illik şəyirdlik dövrü başa çatandan sonra da beş il Aşıq Ələsgərlə bir yerdə aşıqlıq eləmişdi. Aşıq Ələsgər şəyirdləri haqqında özü deyirdi:

Adım Ələsgərdi mərdü mərdana,
On iki şəyirdim işlər hər yana (3, s. 115).

Əlbəttə, on iki Aşıq Ələsgərin bütün şəyirdlərinin sayı deyil. Bu şeiri düzüb-qoşanda onun on iki şəyirdi olub. Onun şəyirdləri arasında ikisi – Daşkəndli Aşıq Nəcəf və Tovuzlu Aşıq Əsəd öz istedadlarıyla daha çox seçilmiş, sevilmiş və tanınmışlar. Aşıq Nəcəfi 1918-ci ildə

ermənilər kürəyinə qaynar samovar bağlayaraq görünməmiş, ağıla gəlməyən vəhşiliklə qətlə yetiriblər.

Mən yuxarıda "tovuzlu Aşıq Əsəd" cümləsini elə-belə yazmadım. Başlıqda dediyim iki böyük yanlışlığın biri məhz bununla bağlıdır. Ona görə bəri başdan bilirəm ki, "tovuzlu Aşıq Əsəd" cümləsi aşıq sənətinin araşdırıcılarını, Aşıq Əsəd haqqında yazanların çoxunu, bəlkə də, hamısını, hətta sazın-sözün yaxşı bilicilərini də təəccübləndirəcək. Bu tamamilə təbiidir, çünki onların bir çoxu indiyə kimi Aşıq Əsədin tovuzlu olduğunu eşitməyib və oxumayıb. Əlimizdə olan yazılı qaynaqların əksəriyyətində Aşıq Əsəd göyçəli epitetiylə tanıdılmışdır. "Aşıqlar" kitabının (tərtib edəni S.Axundov) 1957 və 1960-cı il nəşrlərinin hər ikisində yazılıb: "Aşıq Əsəd Rzayev (1875-1950) Basarkeçər rayonunun Qaraqoyunlu kəndində doğulmuşdur. Sonralar Azərbaycan Respublikasının Tovuz rayonuna gələrək orada yaşamışdır" (4, s. 274; 5, s. 171). Sözsüz ki, bu bilgi çox yarımçıqdır. Onlara söykənib Aşıq Əsədin haralı olduğunu dürüst söyləmək mümkün deyil.

Azərbaycan Sovet Ensiklopediyası kimi on cildlik mötəbər, yəni ensiklopedik qaynaqda yuxarıda deyilənlərə heç nə əlavə edilməmişdir. Yalnız adlar dəyişdirilmiş və mətn ensiklopediya qaydalarına uyğunlaşdırılmışdır. "Aşıq Əsəd Rzayev (1875, Göyçə mahalının Böyük Qaraqoyunlu k. (indiki Ermənistan SSR Vardenis r-nunun Əzizli k.) - 1950, Azərbaycan SSR Tovuz r-nu). Azərbaycan aşığı. Aşıq Ələsgərin şagirdidir" (7, s. 513). Göründüyü kimi, burada Aşıq Əsədin doğulduğu il və yerdən, öldüyü il və yerdən, Azərbaycan aşığı və Ələsgərin şəyirdi olduğundan başqa heç bir bilgi verilməyib. Aşıq Əsədin tam tərcümeyi-halını yazmaq üçün bunlar da çox azdır.

Professor Teymur Əhmədovun tərtib etdiyi "XX əsr Azərbaycan yazıçıları" Ensiklopedik məlumat kitabında verilmiş bilgilər də Aşıq Əsədi oxuculara hərtərəfli tanıtmaq baxımından bəs eləmir: "Rzayev Əsəd Əhməd oğlu – aşıq, şair. 1939-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.

1874-cü ildə Qərbi Azərbaycanın Göyçə mahalının Böyük Qaraqoyunlu kəndində yoxsul kəndli ailəsində doğulmuşdur. 1931-ci ildə Azərbaycanın Tovuz şəhərinə köçmüşdür. Birinci Aşıqlar qurultayında ona Azərbaycanın ilk aşığı adı verilmişdir" (15, s. 78).

Gözləmək olardı ki, Aşıq Əsədin kimliyi ilə bağlı indiyə qədər buraxılmış yanlışlıqlar 25 cildlik Azərbaycan Milli Ensiklopediyasında aradan qaldırılacaq. Ancaq təəssüflə deməliyəm ki, belə olmadı. Mən Azərbaycan Milli Ensiklopediyasında bu cür çoxlu yanlışlıqlara yol

veriləcəyini irəlicədən bilirdim. Ona görə iki dəfə akademik Tofiq Nağıyevlə görüşdüm. Onlara təmənnasız yardım göstərməyə hazır olduğumu bildirdim. Tofiq Nağıyevin cavabı bu oldu ki, "bizim ensiklopediyada yanlışlıq ola bilməz". Mən də istəyirəm ki, olmasın, ancaq artıq işıq üzü görmüş cildlərdə onlarla müxtəlif səpkili, az və ya çox dərəcədə önəmli yanlışlıqlara yol verilib. Aşıq Əsədlə bağlı məqalə isə daha çox kasadlığı və bəsitliyiylə seçilir. Hətta yuxarıda adlarını çəkdiyim qaynaqlardakı faktların da bir çoxu burada yoxdur. Həmin mətni olduğu kimi verirəm ki, oxucular da görsünlər: "Aşıq Əsəd (Əsəd Əhməd oğlu Rzayev: 1874, Göyçə mahalının Böyük Qaraqoyunlu k. (1989-cu ilədək Erm.SSR Vardenis r-nunun Əzizli k.)-27.4.1951, Tovuz ş.) -Azərbaycan aşığı. Aşıq Ələsgərin şagirdi olmuşdur. Klassik xalq şeiri formalarında lirik əsərlər yaratmışdır. Qoşma, gəraylı, deyişmə və müxəmməsləri ("Kimdən öyrəndin", "Gəlincə", "Eyləməz", "Yadıma düşdü" və s.) aşıq poeziyasının kamil nümunələrindəndir. Məlahətli səsə, yüksək ifaçılıq qabiliyyətinə malik olan Aşıq Əsəd Azərbaycan dastanlarının, xüsusilə, "Koroğlu"nun mahir bilicilərindən olmuşdur. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə iştirak etmişdir. 1939-cu ildə ilk dəfə H.Əlizadə onun şeirlərindən ibarət kitabça nəşr etdirmişdir" (8, s. 139).

Azərbaycan Milli Ensiklopediyasındakı yazıda Aşıq Əsədin həyatıyla bağlı bir neçə mühüm faktın unudulmağı göstərir ki, mətni hazırlayan müəllif aşığın haqqındakı qaynaqlarla yetərincə tanış olmamışdır. Məsələn, mətndə Aşıq Əsədin Azərbaycan aşıqlarının ilk qurultayında Azərbaycanın birinci aşığı adına layiq görüldüyü, 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə "Şərəf nişanı" ordeni aldığı, 1939-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olduğu, sonralar Tovuz rayonunun Bozalqanlı kəndinə köçüb ömrünün sonuna kimi orada yaşadığı haqqında heç bir bilgi yoxdur. Halbuki bunlar Aşıq Əsədin həyatıyla bağlı çox mühüm faktlardı və ensiklopediyaçı onları gözdən qaçırmamalıydı. Azərbaycan Milli Ensiklopediyasındakı bu məqaləni oxuyanlar, sözsüz ki, Aşıq Əsədi yenə də tanımayacaqlar.

Akademik Həmid Araslı "Aşıq yaradıcılığı" kitabında Aşıq Əsəd haqqında geniş bilgi vermiş, Göyçədə doğulduğuna, sonralar Tovuza köçdüyünə də toxunmuşdur: "Aşıq Əsəd 1875-ci ildə Basarkeçər rayonunun Böyük Qaraqoyunlu kəndində anadan olmuşdur. Əsəd gəncliyini burada keçirmiş, qocaman saz və söz ustadı Aşıq

Ələsgərdən dərs almışdır. Sonralar Tovuza köçmüş, ömrünün sonuna qədər də burada yaşamışdır" (1, s. 111).

Qara Namazov Aşıq Əsədin haqqındakı bilgini aşığın öz əlilə yazdığı arxiv sənədindən götürdüyünə görə, oun yazdıqları daha dəqiq və inandırıcıdır. Qara Namazov yazır: "Aşıq Əsəd Rzayev (1874-1950) 1928-ci ildə aşıqların birinci qurultayına həyatı haqqında qeyddə yazır: "Atam Əhməd Rza oğlu Tovuz mahalının Bozalqanlı kəndindəndir. Tovuzda Süleyman bəyin muzduru olmuş, sonra onun əlindən qaçıb. Göyçənin Qaraqoyunlu kəndin-də 1874-cü ildə doğulmuşam. Mənim 12 yaşım olanda atam dünyadan köçdü. Bir neçə il muzdurluq elədim. Sonra Aşıq Ələsgərə 4 il şəyird oldum. 5 il Ələsgərlə bir yerdə aşıqlıq elədim. Sonra özüm şəyird götürüb məclislər keçirdim" (13, s. 144).

Qara Namazov 1959-1967-ci illərdə AMEA Tarix İnstitutunun kitabxanasının və arxivinin direktoru olmuş, Aşıq Əsəd haqqındakı bilgiləri də onlarda saxlanan rəsmi sənədlərdən götürmüşdür. Sözsüz ki, həmin kitabxana və arxivdə belə sənədlər çoxdur. Məsələn, 1928-ci ildə Azərbaycan aşıqlarının birinci qurultayına çağırılarkan Aşıq Əsədə öz xəttilə tərcümeyi-halını yazdırıblar və o sənəd Tarix İnstitutunun arxivindədir.

Qara Namazovun verdiyi tarixlər bir-birini yaxşı tamamlayır. Aşıq Əsəd 1874-cü ildə anadan olub. 12 yaşı olanda atası dünyasını dəyişib – yəni 1886-cı ildə. Əsəd bir neçə il (?) muzdurluq eləyib. 4 il Aşıq Ələsgərin şəyirdi olub, sonra da 5 il onunla birlikdə aşıqlıq eləyib. Bu 9 ili də, təxminən 5-6 il muzdurluğu da onun 12 yaşının üstünə gələndə Aşıq Əsədin təxminən 26-27 yaşlarından müstəqil aşıqlığa başladığı tamamilə ağılabatandır.

Məhərrəm Qasımlı ilk əsərində Aşıq Əsədi bir neçə dəfə Göyçəli Aşıq Əsəd kimi təqdim etmiş (11, s. 175, 176), lakin sonralar aşığın yerini-yurdunu dəqiqləşdirmiş, Aşıq Əsədin adını Gəncəbasar aşıqları ilə bir sırada çəkmiş, Aşıq Əsəd Bozalqanlı yazmaqla həm də onun əslən Tovuzun Bozalqanlı kəndindən olduğunu vurğulamışdır (12, s. 241). Məhərrəm Qasımlı arxiv sənədlərinə və Vəli Xuluflunun 1929-cu ildə nəşr etdirdiyi "Koroğlu" kitabına baxsaydı, Aşıq Əsədin daha geniş, daha doğru və hərtərəfli tərcümeyi-halını yaza bilərdi.

Aşıq Məhərrəm Hüseynli "Tovuz Aşıqları" kitabında Aşıq Əsəd haqqında geniş bir oçerk verib, doğru olaraq onu Tovuzlu adlandırıb. Lakin burada yanlış bilgilər də çoxdur. Məsələn, bir yerdə yazır ki, "atası Əhməd kişi kəndin koxası imiş". Bunun ardınca deyir ki, "Vaxtilə

əslən Tovuzun Bozalqanlısından olan Rza kişi bu kəndin koxasının özbaşınalığına dözməyib, onu öldürüb və Göyçəyə qaçmalı olmuşdu (10, s. 34). Burada yalnız Rza kişinin Aşıq Əsədin atası olduğu və Tovuzun Bozalqanlı kəndindən olduğu doğrudur. Lakin onun adı Rza yox, Məhəmməd Rzadır. Digər bilgilər yanlışdır. M.Hüseynlinin yazdıqlarından belə çıxır ki, Aşıq Əsədin atası Əh-məd kişi kəndin koxası olub. Digər cümlədən isə belə anlaşılır ki, Aşıq Əsədin babası Rza kişi öz oğlu Əhmədi (yəni guya kəndin koxasını – İ.S.) vurub öldürüb və Göyçəyə qaçıb. Əslində Rza kişinin Aşıq Əsədin babası olduğunu mən deyirəm, M.Hüseynlinin yazısında bunu anlamaq üçün heç bir ipucu verilməyib. Buradakı dolaşıqlıq göz qabağındadır. Bu işin həqiqətən necə baş verdiyi bir qədər sonra açılacaq. Aşıq Əsədin atası Əhməd kişi kəndin koxası olmayıb. Aşıq Əsədin atası Əhmədlə əmisi Ocaqverdi kəndin koxası Süleyman ağanı vurub öldürüblər və Göyçəyə qaçıblar. Bu davada Aşıq Əsədin babası Məhəmməd Rza (onun əsl adı belə olub) kişinin adı hallanmır və bəllidir ki, həmin vaxt Məhəmməd Rza kişi artıq dünyasını dəyişibmiş.

Azərbaycan Aşıqlar Birliyinin 2020-ci ildə buraxdığı iki cildlik “Ozan-aşıq ensiklopediyası” kitabında da Aşıq Əsədin haqqında geniş bir məqalə verilmişdir. Lakin bu məqalədə Aşıq Əsədin atası Əhməd kişinin və əmisi Ocaqverdinin kəndxuda Süleyman bəyi öldürüb Göyçəyə qaçdıqları və Əsədin də ona görə Göyçədə doğulduğu haqqında aydın bilgi verilmədiyindən ustad sənətkarın kimliyi haqqında bəzi məsələlər qaranlıq qalır.

Yuxarıda deyilən fikirlərin bir qismi yanlış olsa da, çoxu doğrudur, lakin yarımçıqdır. Ayrı-ayrı məqalələrdə Aşıq Əsədin həyatıyla bağlı müəyyən doğru-düzgün fikirlər söylənsə də, faktlar verilsə də, onların heç biri bu böyük sənətkarın həyatı haqqında aydın və dolğun təsəvvür yaratmaq gücündə deyil. Yuxarıda sadalanan qaynaqlardakı bilgilərdə bir çox faktların çatışmadığı aydın şəkildə duyulur və Aşıq Əsədin kimliyi, daha doğrusu, haralı olduğu ilə bağlı dolaşıqlığı da məhz bu kəm-kəsirlər yaratmışdır.

Hazırda bütün bu dolaşıqlıqları aradan qaldırmaq və Aşıq Əsədin tərcümeyi-halındakı boşluqları doldurmaq üçün əlimizdə olan ən dəyərli qaynaq Vəli Xuluflunun 1929-cu ildə “Azərnəşr”də çap etdirdiyi “Koroğlu” kitabıdır. Bu kitab Vəli Xuluflunun 1927-ci ildə yenə “Azərnəşr”də nəşr etdirdiyi “Koroğlu”nun təkmilləşdirilmiş ikinci nəşridir. Vəli Xuluflu həmin kitaba Aşıq Əsədin ifasından yazıya aldığı “Koroğlunun Dərbənd səfəri” və “Dəli Koroğlu və Bolu

bəy" qolları ilə yanaşı, aşığın öz dilindən eşitdiyi tərcümeyi-halını və bir neçə şeirini də daxil etmişdir. Sözsüz ki, Aşıq Əsədin kimliyini, əslini-nəslini, yerini-yurdunu onun özündən yaxşı bilən olmazdı. Ona görə aşığın dilindən yazılmış və sağlığında çap olunmuş bu bilgilərin doğruluğu heç bir şübhə doğurmur. Həmin tərcümeyi-halı olduğu kimi burada vermək ona görə lazımdır ki, yuxarıdakı yanlışlıqlar kitabdan kitaba köçürülə-köçürülə daha geniş yayılır və qarşısının alınması günbəgün çətinləşir. Vəli Xuluflu yazır:

"Azərbaycan aşıqlarının ilk müsabiqəsində birinciliyi qazanan və Maarif Komissarlığının birinci nəmərini alan Əsəd Əhməd oğlu Aşırlı coğa (qomalğa) sındandır. Əslən Tauz dairəsinin Bozalğanlı kəndindəndir.

Əsəd əminin özünün dediyinə görə, bunun atası Əhməd Məhəmməd Riza oğlu və əmisi Ocaqverdi Məhəmməd Riza oğlu iki qardaş olublar. Bozalğanlı kəndi bəylik torpağında imiş. O zaman qayda belə imiş ki, hər kəndlinin arvadı sıra ilə gəlib bir həftə bəyin evində qalar, çörəyini bişirər, paltarını yuyar, qaravaşlıq edərmiş. Bunun növbəti bitəndən sonra o birisi kəndlinin arvadı gəlib, müft müsəlləm bəyə işlərmiş.

Bir gün növbət Əhməd Riza oğlunun arvadına gəlir. Bəylikdə gedən arvadlara nə qayırırmışlarsa, bu kişinin namısına toxunur, arvadını getməyə qoymayır. Bahana eyləyir ki, mənim arvadım naxoşdur, həm də dağa köçəsiyik. Bu əhvalatdan sonra bəyin bununla arası dəyir. Aradan bir neçə gün keçir, bəy atlı göndərir ki, Əhməd gəlsin, bizim evi dağa köçürsün. Bu da ismarlayır ki, növbət bizim coğanın deyil, hansı coğanındırsa, o köçürsün, mən niyə köçürürəm. Bu əhvalatdan sonra bəy ilə araları lap pozulur.

Ocaqverdi deyir ki, Əhməd, gəl köçək, dağa gedək. Bu işin üstündə bəylər bizi dolaşdıracaq, bizə bir xata dəyəcək. Bunlar köçüb evlərini aparır, "Gözəlbulaq" adlı yaylağa qoyurlar.

Dağdan qayıdıb gəlir, taxıllarını piçdikləri yerdə Süleyman ağa bunlara şər atır ki, siz məndən ixtiyarsız taxılı biçib, gizlədibsiniz: bunlar ha and içib, yalvarırsa da, Süleyman ağa əl çəkməyir, bunlara söyür, aşıx Əsədin atasını döyür. Bu zaman əmisi Ocaqverdi beyqafıl Süleyman ağanı vurub atdan yıxır, köpənətən döyürlər. Taxıllarını da buraxıb, yaylağa qaçırlar. Yaylaqdan arana qayıtmağa cürət etməyib, Göyçə mahalına aşırlar, orada qalırlar.

Aşıq Əsəd Göyçədə anadan olur, indi buna Göyçəli Əsəd deyilməsinin səbəbi də budur. Hal-hazırda 45 yaşı vardır" (9, s. 156-157).

Vəli Xuluflunun verdiyi bilginin doğruluğu ona görə şübhə doğurmur ki, onları aşığın öz dilindən yazmışdır. Aşıq Əsəd 1928-ci ildə Azərbaycan aşıqlarının I qurultayında iştirak etmək üçün Bakıya gəlmişdir. Vəli Xuluflu bu fürsəti əldən verməyib onun ifasından "Koroğlu" dastanının "Dəli Koroğlu və Bolu bəy" və "Koroğlunun Dərbənd səfəri" qollarını, həmçinin aşığın öz diliylə söylədiyi kimliyini, bir neçə şeirini qələmə almışdır.

Vəli Xuluflunun verdiyi bilgilərin də bəzi açıqlamalara ehtiyacı var. Aşıq Əsəd ustadı Aşıq Ələsgərdən ayrılıb müstəqil aşıqlığa başlayandan sonra sözsüz ki, birbaşa dədə-baba yurdu, doğma Bozalqanlıya gəlməyib. Bir müddət Şəmkirin Bitdili kəndində qalmış, sonra Qazaxa köçərək 1931-ci ilə qədər orada yaşamışdır. 1928-ci ildə Azərbaycan aşıqlarının I qurultayına da Qazaxdan gəlmişdir. Bəs Aşıq Əsədi əvvəlcə altı ay Şəmkirin Bitdili kəndində, sonra da təxminən on il Qazaxda yaşamağa vadar eləyən nə olmuşdur?!

Aşıq Əsəd məşhurlaşmışdı və onu hamı Göyçəli kimi tanıyırdı. Vəli Xuluflu onun kimliyi haqqında yuxarıdakıları yazana qədər Aşıq Əsədin Bozalqanlıdan olduğunu heç kim bilmirdi. Aşıq Əsəd də bunu gizli saxlayırdı, çünki ortada qan düşmənçiliyi varıydı. Aşıq Əsəd də Şəmkirdə və Qazaxda yaşaya-yaşaya tez-tez aşıq paltarında Tovuza, Bozalqanlıya gələr, qocalarla dərdləşər, çox böyük ustalıqla köhnə qan davasının unudulub-unudulmadığını öyrənməyə çalışardı. Yalnız həmin qan düşmənçiliyinin tamamilə unudulduğuna, havasının çoxdan çəkilib getdiyinə əmin olduqdan sonra 1931-ci ildə Qazaxdan Bozalqanlıya köçmüşdür. Artıq gün kimi aydındır ki, Aşıq Əsəd Tovuz rayonunun Bozalqanlı kəndindəndir və bunu indən sonra inkar etmək mümkün deyil. Aşıq Əsədin haralı olduğu indən sonra hər yerdə düzəldilməli, təhriflərə son qoyulmalıdır.

Yuxarıdakı qaynaqlarda Aşıq Əsədin anadan olduğu ilin gah 1874, gah da 1875-ci il kimi göstərildiyini görürük. Hətta başqa qaynaqlarda onun 1883-cü ildə doğulduğu da göstərilmişdir. Öldüyü illər də eyni deyil. Onun gah 1950-ci, gah da 1951-ci ildə öldüyünü yazırlar. Aşıq Əsədin Vəli Xuluflunun yazdığı tərcümeyi-halında onun anadan olduğu il göstərilməyib. Vəli Xuluflu onun 45 yaşlarında olduğunu aşıqdan soruşmamış, yalnız öz təxmininə görə yazmışdır. Bu böyük folklorşünasın öz təxmini fikridir və həmin rəqəmdə yanlışlıq var. Aşıq Əsəd özü Azərbaycan aşıqlarının I qurultayına yazdığı qeyddə 1874-cü ildə doğulduğunu yazırdısa, deməli, 1928-ci ildə onun 54 yaşı olmuşdur. Əgər Aşıq Əsəd özü 1874-cü ildə doğulduğunu yazmışdırsa, ondan

daha dəqiq və inandırıcı fakt tapılmazsa, onun anadan olduğu il kimi məhz 1874-cü ili qəbul etmək lazımdır.

Ustad Aşıq Ələsgər və Aşıq Əsədlə bağlı ikinci yanlışlıq "Tellərin" gəraylısının başındadır. Bu gəraylı həm Aşıq Əsədin, həm də Aşıq Ələsgərin adına nəşr edilmişdir. Gəraylını ilk dəfə Vəli Xuluflu 1928-ci ildə Azərbaycan aşıqlarının I qurultayına gəldiyi vaxt Aşıq Əsədin öz dilindən yazmışdır. Gəraylı Vəli Xuluflunun 1929-cu ildə "Azərnəşr"də işıq üzü görmüş "Koroğlu" kitabında Əsəd möhürbəndiylə çap olunmuşdur. Gəraylı beş bənddir və belədir:

**TELLƏRİN**

(gəraylı)

Gözəl, sənin nə vədəndi,
Kəsilib qısa tellərin.
Kəlağayın əlvan, qıyğac
Üstündən basa tellərin.

Yanaqların güldür, solmaz,
Oxladın, yaram sağalmaz.
Gözün cəllad, qaşın almaz,
Bağrımı kəsə tellərin

Yanında saxlasan qulu,
Gümüş bilək, nəzik əli.
Leylü-nahar, sabah yeli
Dəyəndə əsə tellərin

Vəsfinə sözlər yaraşır,
Qolların boynumdan aşır.
Kəhlik kibi qaqqıldaşır,
Gəlibdir səsə tellərin.

Bağman ağlar bar ucunnan,
Xəstə ölür nar ucunnan.
Əsəd kibi yar ucunnan
Batıbdı yasa tellərin (9, s. 160).

Bu gəraylını Aşıq Əsəd söyləyib və möhürbəndini öz adıyla bağlayıb. Vəli Xuluflu onun "1 may", "Göyçə mahalı" şeirlərilə bir yerdə "Tellərin" gəraylısını da "Koroğlu"nun 1929-cu il nəşrinə daxil edib. Bundan sonra "Tellərin" gəraylısı Aşıq Ələsgərin 1937-ci ildə Hümmət Əlizadənin tərtib etdiyi kitabına daxil olunub. Gəraylı bu kitabda da yeddi bənddir:

Gözəl, sənin nə vədəndir.
Kəsilib qısa tellərin?
Kalağayın əlvan, qıyqac,
Üstündən başa tellərin.

Yanaxların güldü, solmaz,
Oxladın, yaram sağalmaz.
Qaşın cəllad, gözün almaz,
Bağrımı kəsə tellərin.

Şəkər sözü, şirin dili,
Gümüş bilək, nəzik əli.
Axşam, sabah səhər yeli
Dəyəndə əsə tellərin.

Vəsfinə sözlər yaraşır,
Qolların boynumdan aşır.
Kəklik kimi qaqqıldaşır,
Gəlibdir səsə tellərin.

Bağban ağlar bar ucundan,
Xəstə ölər nar ucundan.
Ələsgər tək yar ucundan
Batıbdır yasa tellərin (2, s. 157).

Hər iki gəraylını yanaşı qoyanda aydın görünür ki, bir neçə sözün yazılışındakı (yanaxların-yanaqların; kibi-kimi; ucunnan-ucundan; kəhlik-kəklik) tələffüzdən gələn fərqləri nəzərə almasaq, cəmi iki sətirdə ayrıntılar var. Aşıq Əsəddəki "Gözün cəllad, qaşın almaz" misrası Aşıq Ələsgərdə "Qaşın cəllad, gözün almaz" və Aşıq Əsəddəki "Leylü-nahar, sabah yeli" misrası Aşıq Ələsgərdə "Axşam, sabah səhər yeli" şəklindədir. Birinci misranın Aşıq Ələsgərdəki, ikinci misranın Aşıq Əsəddəki yazılışları daha doğrudur. Səhər yeli axşam tellərə necə dəyə bilər? Aşıq Ələsgər kimi ustad belə yanlışlığa yol verməzdi. Digər misrada "Qaşın cəllad, gözün almaz" olmağı daha məntiqlidir. Burada sadəcə olaraq "qaş" və "göz" sözlərinin yeri dəyişik düşüb. Göz qabağındadır ki, onları iki ayrı-ayrı gəraylı adlandırmaq mümkün deyil.

Hüseyn Ariflə Mürsəl Həkimovun tərtib etdikləri "Aşıq şeirindən seçmələr" kitabında da "Tellərin" gəraylısı beş bənd olub, Aşıq Ələsgərin adına bağlanmışdır (6, s. 30). Həm də Aşıq Ələsgərin digər kitablarındakı mətnlə onun arasında heç bir fərq yoxdur.

Maraqlıdır ki, Aşıq Ələsgərin 1956-cı və 1993-cü illərdə işıq üzü görmüş kitablarında gəraylının üçüncü və dördüncü bəndləri düşmüş, onun yalnız üç bəndi çap olunmuşdur. Aşıq Ələsgərin kitabının 1956-cı il nəşrindəki bu yarımçıqlığı onun haqqında ən dəyərli araşdırmanın müəllifi olan Xalq şairi Osman Sarıvəlli görmüş və öz əsərində buraxılmış bəndləri bərpa etmişdir (14, s. 31-32).

Ən çox maraq doğuran odur ki, Aşıq Ələsgərin yaradıcılığını hamıdan yaxşı bilən, onun şeirlərini havasından, suyundan, nəfəsindən duyan nəvəsi İslam Ələsgər də "Tellərin" gəraylısının Aşıq Əsədin olmadığını heç vaxt dilinə gətirməyib.

Yuxarıda söylənənlər əsasında "Tellərin" gəraylısının Aşıq Əsədin, yaxud Aşıq Ələsgərin olduğunu təsdiqləmək çətindir. Ona görə bu məsələ bir növ yenə açıq qalır. Ola bilsin gələcəkdə bu gəraylının kimin olduğunu təsdiqləyəcək daha inandırıcı qaynaq tapılar. Ancaq hələlik mənim fikrimcə, bu şeir Aşıq Əsədindir. Bu fikri söyləməyə iki əsasım var: 1. Aşıq Əsəd kimi böyük sənətkarın ustadı Aşıq Ələsgərin şeirini öz adına çıxması heç cür inandırıcı deyil. Həm də Aşıq Əsəd bu şeirlə şöhrətlənməmişdi ki, onu əlindən alan kimi adını-sanını itirsin; 2. İndiyə qədər aşıq yaradıcılığının araşdırıcılarından, ustad aşıqlardan, aşıq sənətinin dərin bilicilərindən heç biri "Tellərin" gəraylısının Aşıq Əsədin olmadığını söyləməyib. 3. Çox güman ki, Aşıq Əsəd bu gəraylını öz möhürbəndiylə yalnız Vəli Xulufluya söyləməyib, məclislərdə də dönə-dönə oxuyub. Bu halda əgər gəraylı, doğrudan da, Aşıq Ələsgərin olsaydı, saz-söz xiridarları Aşıq Əsədi əməlli-başlı qınağa tutar, onu el içində hörmətdən salardılar. Bunlar da olmayıb.

Bunlardan başqa, Vəli Xuluflunun 1929-cu ildə nəşr etdirdiyi "Koroğlu" kitabını çox adam görməyib və oxumayıb. Aşıq Əsədin kimliyi ilə bağlı dolaşıqlığı yaradan da elə bu olub. Vəli Xuluflu 1937-ci ildə güllələndikdən sonra evindəki əlyazma və kitabları yığılıb aparılmış, çap olunmuş əsərlərinin oxunması qadağan edilmişdir. Belə olmasaydı, 1937-ci idə Hümmət Əlizadə Aşıq Ələsgərin şeirlər kitabını çapa hazırlayarkan bu məsələni aydınlaşdırardı. Özü də Aşıq Əsədin sağlığında bu işi eləmək daha asan olardı. 1937-ci ildə H.Əlizadənin "Tellərin" şeirini Aşıq Ələsgərin kitabına daxil etdiyini görüb Aşıq Əsədin susmağını onun öz böyük ustadına hörmətindən başqa cür başa düşmək, yozmaq olmur. Sumqayıtdakı bir toyda Məstan Günərin "Qaldı" qoşmasını aşıq Səməd Vurğunun adına oxudu. Məstan Günər özü də orada iştirak edirdi və bu məsələnin

üstünü açıb-ağartmadı. Bu da onun böyüklüyüydü və çox güman ki, Aşıq Əsəd də elə bu cür eləyib.

Aşıq Əsəd Koroğluxan olub. Koroğluxan yalnız Koroğlu kimi oxuyanlara deyirdilər. Görənlər danışırdılar ki, Aşıq Əsəd mağarın bu başında ayağını yerə vurub nərə çəkərək Koroğlu havası üstündə nəyisə oxuyanda onun zil zəngulәsi mağarın o biri başında otuzluq lampanı söndürürdü.

Son olaraq demək lazımdır ki, Aşıq Əsəd əslən Tovuz rayonunun Bozalqanlı kəndindəndir. Atası və əmisi kəndxudanı öldürüb Göyçəyə yaylağa gediblər və bir müddət orada qalıblar. Aşıq Əsəd də Göyçədə doğulub. Sonra da köçüb öz doğma kəndi Bozalqanlıya gəlib. "Tellərin" gəraylısını da Vəli Xuluflu ilk dəfə Aşıq Əsədin dilindən onun öz şeiri kimi yazıya alıb və 1929-cu ildə "Koroğlu" kitabının ikinci nəşrinə daxil edib. Bu da göstərir ki, gəraylı Aşıq Əsədindir.

## QAYNAQLAR

1. Həmid Araslı. Aşıq yaradıcılığı. Bakı
2. Aşıq Ələsgər. Bakı, "Azərnəşr", 1937
3. Aşıq Ələsgər. Gözüm bir alagöz xanıma düşdü (Toplayanı İslam Ələsgər, tərtib edəni Muxtar Qaradaşlı). Bakı, 1993
4. Aşıqlar (tərtib edəni Səttar Axundov). Bakı, 1957
5. Aşıqlar (tərtib edəni Səttar Axundov). Bakı, 1960
6. Aşıq şeirindən seçmələr (Tərtib edənlər: Hüseyn Arif və Mürsəl Həkimov). Bakı, 1984
7. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. I cild. Bakı, 1976
8. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. I cild. Bakı, 1976
9. Xuluflu Vəli. "Koroğlu". Bakı, "Azərnəşr", 1929
10. Məhərrəm Hüseynli. Tovuz aşıqları. Bakı, 2003
11. Məhərrəm Qasımlı. Aşıq sənəti. Bakı, 1996
12. Məhərrəm Qasımlı. Ozan-aşıq sənəti. Bakı, 2003
13. Qara Namazov. Aşıqlar. I kitab. Bakı, 2004
14. Osman Sarıvəlli. Qüdrətli şair, ustad sənətkar. Bakı, 2011
15. XX əsr Azərbaycan Yazıçıları Ensiklopedik Məlumat kitabı (Tərtib edəni Teymur Əhmədov). Bakı, 2004
16. Ozan-aşıq ensiklopediyası (yaradıcı heyət: professor Məhərrəm Qasımlı, professor Mahmud Allahmanlı, professor İradə Köçərli, professor Kamilə Dadaşzadə). Bakı, 2020

# AŞIQ ƏLƏSGƏRİN ŞEİRLƏRİNDƏ ETNOQRAFİK SÖZLƏRİN ÜSLUBİ MÖVQEYİ

# THE STYLE OF ETHNIC EXPRESSIONS IN THE POEMS OF ASHUG ALESKER

# СТИЛИСТИЧЕСКОЕ ПОЗИЦИЯ ЭТНОГРАФИЧЕСКИХ СЛОВ В СТИХОТВОРЕНИЯХ АШЫГА АЛЕСКЕРА

**İsmayıl MƏMMƏDLİ**
*Filologiya elmləri doktoru, professor*
*AMEA Dilçilik İnstitutu*

**Summary**

It is impossible to imagine the lovely poetry of oral publications without linguistic units. Clearly, love poetry also features a theme of love, especially the description, praise, and poetry of beauty. This mother line is reflected in the creativity of medieval lovers or poets and craftsmen of the 19th and 20th centuries. In the introduction of beauty, exercise, beggar or curtain, lovers have consulted a separate dictionary of the Azerbaijani language.

In the 19th and first decade of the 20th century, the poems of Ashug Alesker, one of the greatest artists in the world, reflected Azerbaijan's culture, customs and ethnic cleansing.

**Key words:** Ashug Alesker, love, ashug, ethnic words, etnography

**Резюме**

Невозможно представить жанры ашугской поэзии в устной народной литературе без лексических единиц. Как известно, тема любви, особенно описание, гимн и восхваление красоты, находится в центре ашугской поэзии. Это, как основная линия, широко отражается в творчестве средневековых ашугов, а также поэтов и ашугов, народных мастеров XIX и XX веков. В представлении красавицы, любовницы, чаровницы или феи ашуги обращались к различным слоям слов в лексике Азербайджанского языка. В стихах Ашуга Алескера, одного из величайших мастеров XIX и первых десятилетий XX века, с большой любовью и мастерством отражены жизнь, традиции и этнография Азербайджана, и формируется четкая картина того периода.

**Ключевые слова:** Ашыг Алескер, любовь, ашуг, этнографические слова, этнография

Şifahi xalq ədəbiyyatının aşıq şeiri janrlarını adət-ənənə və mə-rasim adları, məişət sözləri, bəzək şeyləri, qiymətli daş-qaş adları, geyim və s. adlarını bildirən leksik vahidlərsiz təsəvvür etmək qeyri-

mümkündür. Sənətkar, ustad aşıqlar bir tərəfdən mənsub olduğu xalqın dilinin qanını-canını ifadə etmək, vermək tamarzısındadırsa, digər tərəfdən xalq məişətini, ellərimizin zəngin etnoqrafiyasını dərindən bilməsələr, çətin ki onlar ustad zirvəsinə də yüksələ bilərdilər. Xalqı tanımaq, dərk etmək, ondan öyrənmək, el-obanı yenidən yaradıcılıqlarında təqdim etmək yalnız nəhəng ədəbi şəxsiyyətlərə müyəssər olan xoşbəxtlikdir. Bu da ümumən şifahi xalq ədəbiyyatının, konkret olaraq onun ayrı-ayrı nümayəndələrinin Qurbani, A.Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Şəmşir və b. bədii irslərinin dili, eyni zamanda yazılı ədəbiyyatın – poeziyamızın xalq üslubunda, xalq deyim tərzində yazıb-yaradan sənətkarlarına – Vaqif, Vidadi, Zakir və başqalarının bədii yaradıcılığını etnoqrafik planda izləmək də diqqətimizdən yayınmamalıdır. Əlbəttə, bu iş üçün ciddi, əhatəli, uzunmüddətli tədqiqatlar lazımdır. Üzərində linqvistik araşdırmalar aparmaq Azərbaycan dilinin ən zəngin və qədim leksik fondunu aşkarlamaq, səciyyələndirmək üçün gərəkli olardı. Bu mənada Azərbaycan aşıqlarının və el şairinin bədii nümunələrinə nəzər salmaq yerinə düşərdi.

Bəllidir ki, aşıq poeziyasında məhəbbət mövzusu da, xüsusən də gözəlin təsviri, tərənnümü, vəsfi mərkəzi yer tutur. Bu ana xətt kimi istər orta əsr aşıqlarının, istərsə də XIX və XX əsrin şair-aşıqlarının, el sənətkarlarının yaradıcılıqlarında geniş əks olunur. Gözəlin, məşuqənin, dilbərin, yaxud da pərinin təqdimində aşıqlar Azərbaycan dilinin lüğət tərkibinin ayrı-ayrı söz qatlarına müraciət etmişlər. Onlar el aşıqları olduğu kimi təbiidir ki, seçib işlətdikləri sözlər, deyimlər daha çox xalqımızın məişəti, həyat tərzi, adət-ənənəsi, gündəlik həyati tələbatı ilə bağlı, məşğuliyyət və fəaliyyəti ilə əlaqədar milli sözlərdir, frazeoloji birləşmələrdir. O da şəksizdir ki, belə söz deyimlər ayrı-ayrı sənətkarların bədii irslərində janr tələbi ilə poetik məqsədlərinə uyğun və tabe olmaqla müxtəlif, rəngarəng, fərqli nisbətdə müşahidə edilir. Onu da inkar etmirik ki, söz seçimində uyğun gələn hallar var. İndi bunlardan ən çox müşahidə etdiklərimizi göstərək.

Öncə onu deyək ki, Qurbani, Abbas Tufarqanlı, Aşıq Alı, Aşıq Ələsgər kimi xalq poeziyasının ölməz ustadlarının yaradıcılığında milli məişətimizi əks etdirən milli leksika artıq poetik ənənə səviyyəsində sabitləşir. Azərbaycan ədəbi dilinin XVII-XVIII əsrlərdəki mənzərəsini müəyyənləşdirməyə çalışan N.Cəfərov həmin dövrün ədəbi-mədəni təfəkkürünün milliləşdirilməsinin, milli özünü-dərketmənin mərkəzləşməsini ədəbi bədii kontekstə məişət leksikasının,

habelə tarixi və coğrafi baxımdan Azərbaycanla bağlı onomastikanın gətirilməsi ilə izah edir. Araşdırıcı obyektiv və orijinal mülahizələrini konkret faktlar, bədii mətnlərdə işlənmiş məişət sözləri və toponimiya əsasında sübuta yetirir: "Ədəbi dil xəlqiləşdikcə məişət leksikası ilə daha çox təmin olunur: XVIII əsrə mənsub mənbələr bu cür vahidlərin funksionallığını göstərir: - budayıb əzmək \Vid,-81\, təpmək/inəyə aid/ /Vid,-84/, alıq /Vid,-34/, mitıl /Vid,-78/, toyuq /məc,-168a/, yumurta /məc,- 168a/, tuluq/məc.-120a/, yırtıq /ha, -71/, ətəklik /Dağ, -83/ və s." N.Q.Cəfərov bəhs etdiyi dövrün ədəbi-mədəni təfəkkürünün milliləşdirilməsini toponimik adların timsalında da göstərir. "XVII-XVIII əsrlərdə ədəbi-mədəni təfəkkürün demokratik əsaslar üzərində yenidən qurulması, milli-idraki konsentrasiya, mərkəzləşmə, tarixi onomastik sistemə funksional münasibət dəyişir, eyni zamanda yeni onomastik sistem müəyyənləşir". Ümumşərq bazasından gələn, XI-XII əsrlər şərq intibahı nəticəsində formalaşmış olan onomastikanın meydanı daralır, bu cür sistemli dəyişmə hətta nisbətən məhdud konteksdə də müşahidə edilir, məsələn, Q.Təbrizinin XVII əsr dilində həm ənənəvi onomastika işlənir (Məcnun, Leyli, Kəbə, Nuh, Rüstəm Zal, Sənan, Yusif və s.), həm də ümumşərq mədəni mühitinin avtonomluğu ilə yanaşı, bir qədər arxa planda olsa da, türk mədəni mühitinin avtonomluğunu da istər nominativ, istərsə də funksional (üslubi) planda mühafizə edilir: Təbriz, Bədəxşan, Nəvai, Uğurlu xan Ziyad oğlu, Q.Təbrizi Füzuli adını tez-tez çəkir... M.P.Vaqif M.V.Vidadidən irəli gedərək demokratikləşirmə prosesini dərinləşdirir – ənənəvi onomastikadan sitat kimi, başqa sözlə, metaforik istinad kimi faydalanır, daha çox isə məişət onomastikasına ədəbi-bədii nüfuz qazandırır: Zeynəb (Vaq.-23), Pəri (Vaq.-48), Səkinə, Əminə (Vaq,-71), Yetər (Vaq, -104). M.P.Vaqifin demokratizmi toponimik vahidlərdən istifadə texnikasında da hiss edilir: Qazax (Vaq.-100), Kür qırağı (Vaq,-115), Qarabağ (Vaq,-151), Təbriz, Bakı, Gəncə, Şəki, Şirvan, Tiflis, Quba (Vaq,-166) və s.

Geyim və bəzək əşyalarının adları xalq poeziyasında, xüsusən də aşıq şeirində gözəlin, igidin təsvir və tərənnümündə ən vacib məişət elementi kimi çıxış edir. Geyim adı, eləcə də geyimlərin materiallarını (parça, qiymətli metal, daş-qaşın növü, adı) bildirən sözlər bəzən şeir parçasının əksər misralarında görünür, boylanır.

Bu mənada Aşıq Ələsgərin poetik irsi həm poeziyamızın üslub gözəlliyi baxımından, həm də dövrünün nəfəsini, ruhunu, mənzərəsini canlandırmaq baxımından maraq doğurur.

Onu da vurğulamaq yerinə düşərdi ki, Aşıq Ələsgər irsi barədə məxsusi söhbətə böyük ehtiyac duyulur, çünki Ələsgər sənəti ədəbiyyat tariximizdə özünəməxsus, orijinal təkrarsız bir, mərhələdir. Azərbaycan xalq təfəkkürü, el müdrikliyi, xalq hikməti, ana dilimizin xəzinəsinin ustad Ələsgər qələmində misilsiz bir mənəvi sərvət mövqeyində, dəyərində emalı, doğuluşu Aşıq Ələsgər irsinin ən bariz xüsusiyyətləri, cəhətləridir. Azərbaycan məişəti, ellərimizin etnoqrafiyası, təbiəti, milli onomastikamız onun əsərlərində dolğun və real bir şəkildə əks olunur, təsvir və tərənnüm olunur, xalqımızın maddi və mənəvi mədəniyyəti bütün zənginliyi ilə təqdim edilir, aşkarlanır.

Bir həqiqət şəksizdir ki, qocaman aşığın yaradıcılığında gözəlin təsviri, vəsfi, məhəbbət mövzusu başlıca yer tutduğundan təsvir olunan gözəllər: Müşgünaz, Güllü, Səhnəbanı, Həcər, Güləndam, Gülpəri, Salatın və b. dövrünün ən layiqli geyim-keçimi ilə, bəzək-düzəyi ilə, zər-zibası ilə, zinəti ilə (gözəllik ondur, doqquzu dondur qənaətini unutmaq olmaz) təqdim olunurlar:

*...Kəlağayı, əlvan, qıyqacı*
*Üstündən basa tellərin*
*Yanaqların güldü, solmaz,*
*Oxladın, yaram sağalmaz,*
*Qaşın cəllad, gözün almaz,*
*Bağrımı kəsə tellərin* (A.Ələsgər, I k., 68).

*Yaralandım yar əlindən,*
*Gözlədim yarı, gəlmədi.*
*Məxmər köynək, qızıl kəmər,*
*Heç bizə sarı gəlmədi* (A.Ələsgər, I k., 60).

*Dəryada çox olar balıq,*
*Mətləbini versin xalıq.*
*Çit tuman, atlaz arxalıq*
*Yar geyinsin yanıma gəlsin* (A.Ələsgər, I k., 60).

*Yaxasına hərdən-hərdən*
*İnci, sədəf düzən gözəl.*
*Gümüş kəmər, incəbelli*
*Ağ biləkli, nazik əlli,*
*Ay qabaqlı, siyah telli,*
*Ürəyimi üzən gözəl* (A.Ələsgər, I k., 60).

Xalq aşığının ayrı-ayrı gəraylı və qoşmalarından aldığımız gətirilən şeir parçalarında "kəlağayı, əlvan qıyqacı", "məxmər köy-

nək", "qızıl kəmər", "çit tuman", "atlaz arxalıq", "inci", "sədəf", "gümüş kəmər" və s. milli leksikamızı təqdim edən etnoqrafik söz və birləşmələr əyanilik, konkretlik yaratmaqla bərabər, sadə, koloritli, zəngin, təbii, effektli bir bədii dil nümayiş etdirir.

Daha ətraflı və aydın təsəvvür yaratmaq üçün "Yaraşır" rədifli qoşmanı bütünlüklə nümunə gətirməyi məqsədyönlü bildik:

*Sallana-sallana gələn Salatın,*
*O sərxoş yerişin yola yaraşır.*
*Salıbsan gərdənə Heykəl həmayıl,*
*Qızıl bazubəndlər qola yaraşır.*

*Sinəm dərd əlindən oldu yaralı,*
*Səni görənlərin çaşır xəyalı,*
*Bürüyüb zülfünün başının şalı,*
*Heratı kəlağay şala yaraşır.*

*Könlüm mayil olub siyah telinə,*
*Nazik barmağına, şümşad əlinə,*
*Əcəb qurşanıbdı, incə belinə,*
*Gümüş kəmər qəddi-dala yaraşır.*

*Olmaz sənin kimi bir qönçə dəhan,*
*Behiştdən gəlibsən, ay huri, qılman*
*Tutubsan dəstində bənövşə, reyhan,*
*Gülgəz yanağına lalə yaraşır.*

*Yazıq Ələsgərə çoxdu zavalın,*
*Aparır ağlımı günəş camalın.*
*Nə göyçək görünür üzündə xalın,*
*Gülgəz zənəxdanın xala yaraşır* (A.Ələsgər, I k., 100).

Təkcə bu beşbəndlik gözəlləmə üçün deyil, bütövlükdə Ələsgərin söz sənəti barədə özünün söylədiyi misralarla öz bədii irsinə qiymət vermək ədalətli olardı.

*Ələsgər istəyir bir bazar ola,*
*Seçmişəm gövhəri, saf eyləmişəm* (A.Ələsgər, I k., 94).

Bədii ədəbiyyatda, xüsusən də poeziyada məcazların, bədii ifadə vasitələrinin mövqeyi əvəzsizdir. Bu mənada metaforalar aşıq şeirində müxtəlif məqsədlərə xidmət edir. "Metafora vasitəsilə yazıçı (eləcə də şairlər, ustad aşıqlar – İ.M.) qəhrəmanların daxili aləmini, xarakterini aça bilir. Metafora hadisənin mahiyyətini bənzətmə yolu ilə daha yığcam və qısa şəkildə ifadə edərək, əyani və konkret obraz yaradır".

Yeri gəlmişkən bir cəhətə də toxunmağı vacib sanırıq. Xalqın, millətin dilindən danışarkən, onu araşdırarkən, xalqın tarixindən, folklorundan, geniş mənada bədii ədəbiyyatdan, musiqisindən, onun etnoqrafiyasından, məişətindən, təfəkkür tərzindən, estetikasından, ibtidai, dini, mifoloji, fəlsəfi, elmi-təcrübi dünyabaxışından, onun elmi-məntiqi, hikmət və müdriklik dünyasından kənara çıxmaq, yaxud da bu dediklərimizə nəzər salmadan, istinad etmədən obyektiv, real mülahizələr, nəticələr söyləmək mümkün deyil. Ana dilimizin müasir vəziyyətini, tarixini, inkişafını əsasən, göstərdiyimiz cəhətləri nəzərə almaqla öyrənməliyik.

Hər bir dilin sözləri, onun leksik sistemi müəyyən mənada aid olduğu xalqın təbiətini, xarakterini, maddi və mənəvi mədəniyyətini əks etdirir. Bu mənada "hər bir dildə yaranan metaforalar həmin xalqın yaşayış şəraiti, təsərrüfat fəaliyyəti, onun ətrafındakı mühitə münasibəti və adətləri ilə bağlı olur". Bədii əsərlərin xüsusən də poeziyanın dili üzərindəki müşahidələr göstərir ki, qiymətli metal adları və ya faydalı qazıntıları da metaforların yaranmasında mənbədir. (Bir cəhəti də qeyd edək ki, göstərilən tədqiqatda metaforaların yaranmasında iştirak edən leksik vahidlər II bənddə, bölgüdə qruplaşdırılmışdır. Zənnimcə bu bölgü son hədd deyil. Bədii və publisist üslublarımızı ətraflı izləsək, bölgünün sayı şübhəsiz ki, artacaqdır).

Biz istərdik ki, Aşıq Ələsgər poeziyasında etnoqrafizmlərin metaforik planda işlənmiş nümunələrinə diqqət edək:

*Yanaqların güldü, solmaz,*
*Oxladın, yaram sağalmaz.*
*Qaşın cəllad, gözün almaz,*
*Bağrımı kəsə tellərin* (A.Ələsgər, I k., 68).

Bir çox hallarda metafora – etnoqrafizm müraciət məqamında işlənir:

*Ələsgərin ağlın aldın sərindən,*
*Saf gövhərsən, sərraf seçib dərindən* (A.Ələsgər, I k., 95).

*Bir yaqut yanaqlı, yasəmən xallım,*
*Dəhani kövsərlim, ləbləri* ballım.
*İlə ilqar verib Leyli misallım,*
*Onçu məskənimdi bu dağlar mənim* (A.Ələsgər, I k., 80).

Aşıq Ələsgərin şeirlərində leksik tərkibində əksəriyyəti alınma sözlərdən ibarət olan yaraq-yasaq, silah adlarının sadalanması real təsvir yaratmaqla faydalıdır:

Markiz, mavzer, süzən, aynalı berdon...
*Səhv düşdüm sayında, doqquzdu, ya on,*

*Meşoğundan patron, autuvnan piston,*
*Yox kimsədən ehtiyatı Bəylərin* (A.Ələsgər, I k., 78).

*Süzəni götürüb minəndə ata,*
*Fələk əhsən deyir boya, büsata* (A.Ələsgər, I k., 89).

Aşıq poeziyasında etnoqrafik leksikaya daxil olan məişət sözləri, qiymətli zinət əşyaları, daş, qaş adları, yemək məhsullarının adları (xüsusən də ağartı, şirniyyat və b. yemək adları) epitet kimi təsvir vasitəsi funksiyasında işləməklə misilsiz bədii effekt yaradır. Epitet təsvir edilən hadisənin bu və ya digər xarakter əlamətlərinin meydana çıxarılmasında, onun qiymətləndirilməsində mühüm rol oynayır. Haqqında bəhs edilən əşyaya aydınlıq, obrazlılıq verir, onun haqqında canlı təsəvvür yaradır. Azərbaycan milli xarakterinin zənginliyi, eləcə də xalqın mənəvi və maddi varlığnın rəngarəngliyi, təbiəti, dünyagörüşü, adət-ənənəsi zəngin epitetlər sisteminin formalaşması üçün zəmin yaratmışdır. Bu mənada aşıq poeziyasının müxtəlif yüzillərdə yaşamış nümayəndələrinin misralarında ənənəvi, varislik xarakteri kəsb edən epitetlərdən istifadə olunur. Qurbanidən bəzi parçalar gətirək:

*Gümüş piyaləlim, altun ayaqlım,*
*Sürahi gərdənli, qaymaq dodaqlım.*
*O ceyran yerişlim, ayna qabaqlım,*
*Qurbani der, məni candan eylədi* (AAEŞ, s. 31).

*Bülbül ayırdığı sitəmdi gülə,*
*Güləbətin naxış, süsən sünbülə...* (AAEŞ, s. 32).

Epitetlərin xalq poeziyasında işlənmə xüsusiyyətlərini araşdırmaq baxımından Aşıq Ələsgərin gəraylı və qoşmaları daha səciyyəvidir. Ənənəni saxlayan xalq aşığı bir çox hallarda özü də epitet yaratmaqla söz sənətinə yeniliklər gətirir:

*Büllür buxaq, bəyaz gərdan,*
*Ağlımı apardın sərdən...*
*Gümüş kəmər, incə belli,*
*Ağ biləkli, nazik əlli,*
*Ay qabaqlı, siyah telli,*
*Ürəyimi üzən gözəl* (A.Ələsgər, I k., 62).

*Səhər-səhər sığal verir,*
*Ayna qabağa Gülxanım,*
*Tay olmaz dağlarda lala,*
*Gülgəz yanağa, Gülxanım.*
*...Məni həsrət qoyma, aman,*

*Büllur buxağa, Gülxanım* (A.Ələsgər, I k., 64).

*Sevdim zalım, bağrı daşı,*
*Almaz kiprik, qələm qaşı,*
*Tərlan görüb yaşılbaşı,*
*Sağın, qaymaq çala Maral* (A.Ələsgər, I k., 64).

*Qarsı gəli qələm qaşdı,*
*Ay qabaqlı, siyah şaşdı* (A.Ələsgər, I k., 63).

*Büllur buxaq, lalə yanaq, ay qabaq.*
*Şahmar zülfü pərişanlar dolanır* (A.Ələsgər, I k., 91).

*Bir yaqut yanaqlım, yasəmən xallım.*
*Dəhanı kövsərlim, ləbləri ballım,*
*İlə ilqar verib Leyli misallım.*
*Onçu məskənimdi bu dağlar mənim* (A.Ələsgər, I k., 80).

*Şahmar zülfü, mina gərdən, mötədil,*
*Zəbərcət kəlməli, misali-bülbül,*
*Allahı sevərsən, bircə danış gül,*
*Dərdi, qəmi, bu sevdanı dağıtsın* (A.Ələsgər, I k., 84).

Qurbanidə isə "zəbərcət" sözü müqayisə məqamındadır:

*Mina qəddin zəbərcəddi,*
*Nə desən, cana minnətdi,*
*El köçüb, otaq xəlvətdi,*
*Gəlsən alam busən, dilbər.*

Epitet substantivləşərək, müraciət, tərif və ya şəxsləri adlandırma məqamında da işlənir. Bu cəhətdən də Aşıq Ələsgər poeziyası öncüldür:

*Ağzı şəkər, ləbi qəndim,*
*Üzün məndən niyə dönübdür?* (A.Ələsgər, I k., 69)

*Sevdim zalım bağrı daşı,*
*Almaz kiprik, qələm qaşı.*
*Tərlan görüb yaşılbaşı*
*Sağın qaymaq çala Maral* (A.Ələsgər, I k., 65).

Şəxsin xarici də daxili əlamət və keyfiyyəti kimi substantivləşmiş epitetlər vasitəsilə verilə bilər:

*Bir ayna qabaqlı, qaşları kaman,*
*Qövsü-qüzeh gözlü, ləbləri yemən,*
*Camalın şairə veribdir nişan,*
*Qəmər üzlü, qara gözlü qayıtdı* ("Aşıqlar").

*Qurbanıyam bu dilbərin,*
*İncə bel, gümüş, kəmərin,*
*Könlü güldü Ələsgərin,*
*Dürüst ilqarı görəndə* (A.Ələsgər, I k., 63).

Məişət sözləri geniş mənada etnoqrafizmlər, metaforik birləşmələr yaratmaqda fəaldır.

Bütün dediklərimizdən bir daha aydın olur ki, XIX əsr və XX əsrin birinci onilliyində ən böyük sənətkarlardan olan Aşıq Ələsgərin şeirlərində Azərbaycan məişəti, adət-ənənələri, ümumən etnoqrafiyası çox məhəbbət və ustalıqla əks olunur və həmin dövr haqqında bütün genişliyi ilə aydın təsəvvür yaranır.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. // Birinci kitab / Bakı: "Elm", 1972.
2. Azərbaycan aşıqları, el şairləri // I cild / Bakı, 1983.
3. Vaqif Molla Pənah. Əsərləri. Bakı: Azərb. Dövlət Nəşriyyatı, 1968
4. Vidadi. Əsərləri. Bakı: Azərb. Dövlət nəşriyyatı, 1977

# KLASSİK AZƏRBAYCAN AŞIQLARI VƏ EL ŞAİRLƏRİNİN YENİ HƏYATI

# NEW LIFE OF CLASSICAL AZERBAIJANI ASHUGS AND FOLK POETS

# НОВАЯ ЖИЗНЬ КЛАССИЧЕСИХ АЗЕРБАЙДЖАНСКИХ АШУГОВ И НАРОДНЫХ ПОЭТОВ

**Qiymət MƏHƏRRƏMLİ**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*qiymet-555@mail.ru*

**Summary**

There are countless works of various reserchers on the life and works of prominent representatives of Azerbaijani art of ozan-ashug and in modern times in our secondary schools universities and research institutions the scientific opinions and views of these researchers are based on each other (sometimes completely overlapping). Lesson and held on the basis of this information new books are written on the basis of this information, dissertations are defended one after another. As a result, known truts that based on any solid facts are taken from one source and passed on the next generation with reference to another given source. It is known that the study of folklore does not bring anything new to our history, on the contrary, distorted facts, works written with reference to sources far from the original, mark a significant part of the history of folklore. Therefore, these issues are clarified in the book “Azerbaijani ashugs and folk poets” which plays an important role in eliminating the false facts revealed by the collections of distorted rhetoric and clarifying the mistakes made. This valuable work, rich in more accurate information about the places and places of their departure, their creations and environments, corrects the mistakes of researchers and scientists about 16 famous Azerbaijani artists, reveals new facts based on archival materials and camera images (census of the local population). In this valuable collection of research, authored by our prominent researcher Nazir Ahmadli, Azerbaijani ashugs and poets of the XVIII-XX centuries Ashug Valeh, Khaltanli Tagi, Agh Ashug (Allahverdi), Poet Mammadhuseyn, Ashug Ali, Ashug Soyun Shamkirli, Ashug Alasgar, Ashug Musa, Molla Juma, Poet Aydin, Ashug Jalil, Poet Muhammad, Ashug Huseyn Bozalganli, Mirza Beylar, Haji Alish Agha and Zodlu Abdulla’s life and some contradictory aspects of his works are completely new the unknown truths in the field of folklore have been brought to light.

**Key words:** Ashug, folk poets, research, folklore, creativity

**Резюме**

В наше время существуют бесчисленные количество исследовательских работ различных исследователей о жизни и творчества выдающихся представителей азербайджанского искусства озан-ашуг, и в средних школах, университетах и научных учреждениях научные взгляды и мнения этих исследователей находятся в гармонии друг с другом. Уроки проводятся на основе этой информации и на основе этой информации пишутся новые книги, одна за другой защищаются диссертации. В результате известные "истины", не основанные на каких-либо достоверных фактах, берутся из одного источника и передаются следующему поколению со ссылкой на другой источник. Как известно, фольклорные исследования не вносят ничего нового в нашу историю, напротив, искаженные "факты" и "произведения" написанные со ссылкой на источники, далёкие от оригинала составляют важную часть истории фольклора.

Поэтому книга "Азербайджанские ашуги и народные поэты" разъясняет эти вопросы, которая играют важную роль в устранении ложных фактов, выявленных сборниками искаженных риторических исследований, и в выяснении допущенных ошибок.

Этот ценный труд, который богат более точной информацией о датах рождения и смерти ашугов и поэтов, о местах их рождения, жизни и смерти, их произведениях и окружающей среде, исправляет ошибки, допущенные исследователями и учёными около 16 выдающих азербайджанских ашугов и поэтов. Новые факты выявлены на основе архивных материалов (переписи местного населения).

В этом ценном сборнике исследований, составленных нашим выдающимся исследователем Назиром Ахмедли представлены азербайджанские ашуги и поэты XVIII-XX веков Ашуг Валех, Халтанлы Таги, Аг Ашуг (Аллахверди), Поэт Маммедхусейн, Ашуг Али, Ашуг Союн Шамкирли, Ашуг Алескер, Ашуг Муса, Молла Джума, Поэт Айдын, Ашуг Джалил, Поэт Мухаммад, Ашуг Гусейн Бозалганлы, Мирза Бейлар, Хаджи Алиш Ага, Зодлу Абдуллы и некоторые противоречивые моменты жизни выявлены истины, оставшиеся неизвестными в области фольклора.

**Ключевые слова:** Ашуги, народные поэты, исследования, фольклор, творчество

Azərbaycan aşıq yaradıcılığı sovetlər dövründə bir çox folklor araşdırıcılarının əsasən məşğul olduqları tədqiqat sahəsi kimi aktuallıq kəsb etmiş, bu sahəyə göstərilən maraqdan doğan tələbat saysız-hesabsız irili-xırdalı əsərlər yazılmasına gətirib çıxarmışdır. Təbii ki, folklorşünas-alimlərimiz XVIII-XX əsrin görkəmli aşıq-şairlərinin yaradıcılıq yolları barədə yazdıqları əsərlərdə konkret ümumiləşdirmələr aparmış, onların əsərlərini, özləri yaratdıqları, el məclislərində

söylədikdən sonra dillərdə-ağızlarda qəlibləşmiş aşiqanə-lirik dastanları, xalqın yaddaşında gəzib-dolaşan sevgi və qəhrəmanlıq dastanlarını toplayaraq, elmi ictimaiyyətə və geniş oxucu kütləsinə təqdim etmişlər. Əlbəttə, həmin klassiklərin yaradıcılıq irsi onların yaşadıqları dövrdən bizi ayıran əhəmiyyətli dərəcədə uzun zaman kəsiyi etibarilə yeni araşdırmalar tələb edir.

Müasir dövrümüzdə orta məktəb, universitet və elmi müəssisələrimizdə folklor tədqiqatçılarının bir-biri ilə səsləşən (bəzən də tamamilə bir-birini təkrarlayan) elmi mülahizə və fikirləri əsasında dərslər keçirilir, bu bilgilər əsasında yeni kitablar yazılır, bir-birinin ardınca dissertasiya işləri müdafiə olunur. Nəticədə bəzən əsaslı fakta söykənməyən, dildən-ağızdan eşidilməklə əfsanəyə, rəvayətə çevrilmiş, az qala dastanlaşan məlum "həqiqətlər" bir mənbədən götürülüb digər mənbədə istinad olunmaqla, gələcək nəslə ötürülür. Bu isə, məlumdur ki, folklor araşdırmaçılığı tariximizə hansısa bir yenilik gətirmir, əksinə təhrif olunmuş "faktlar", orijinaldan tamamilə uzaq mənbələrə istinadən yazılmış "əsərlər" folklor tarixinin əhəmiyyətli bir hissəsinə öz məşum damğasını vurur. Odur ki, təhriflərlə dolu bəlağətli araşdırmalar külliyyatlarının ortaya çıxardığı yalançı faktları aradan qaldırmaq və yol verilmiş səhvlərə aydınlıq gətirmək sahəsində əhəmiyyətli rolu olan "Azərbaycan aşıqları və el şairləri" kitabında bu məsələlərə aydınlıq gətirilir. Kitabın müəllifi fədakar folklor araşdırmaçısı Nazir Əhmədlidir.

Tədqiqatçının "Azərbaycan aşıqları və el şairləri" kitabında XVIII-XX əsr məşhur Azərbaycan aşıq və şairlərinin – Aşıq Valeh, Xaltanlı Tağı, Ağ Aşıq (Allahverdi), Şair Məmmədhüseyn, Aşıq Alı, Aşıq Söyün Şəmkirli, Aşıq Ələsgər, Aşıq Musa, Molla Cümə, Şair Aydın, Aşıq Cəlil, Şair Məhəmməd, Aşıq Hüseyn Bozalqanlı, Mirzə Bəylər, Hacı Əliş Ağa və Zodlu Abdullanın ömür yolu və yaradıcılıqlarının bəzi ziddiyyətli məqamları tamamilə yeni aspektdən araşdırılaraq, bugünəcən folklorşünaslıq sahəsində naməlum qalan həqiqətlər üzə çıxarılmışdır.

Kitabın elmi redaktoru Əli Şamilin tədqiqat işinə yazdığı "Folklorşünaslıqda yeni mərhələ" adlı rəydən də məlum olur ki, bundan əvvəl müəllifin 2017-ci ildə nəşr etdirdiyi "Haqq-nahaq seçilər Haqq divanında" kitabını minbir zəhmətlə araya-ərsəyə gətirib geniş ictimaiyyətə təqdim etməsilə müəllifin özünə və üzə çıxardığı təkzibolunmaz faktlara qarşı saysız hücumlar başlamışdır. Nazir Əhmədlinin faktlarının qarşısına mənasız arqumentlər çıxarmağa çalışanlar təkcə "hədə, təhqir, söyüş, həcv yazmaqla kifayətlənmədilər, kitabın elmi redaktoru, ön sözün müəllifi akademik, əməkdar elm xadimi, millət vəkili, türkologi-

ya sahəsində neçə sanballı əsərin müəllifi Nizami Cəfərova da hücuma keçdilər". Məlumdur ki, yeniliyə qarşı çıxmalar hər dövrdə olub və həqiqətin qarşısına sədd çəkmək istəyənlərə qarşı çıxmaq istəməyənlərin çoxluq təşkil etməsi əsl elmi faktların gün işığı görməsini ləngitsə də, tam olaraq əngəlləyə bilməyib. Nəticədə onillərin, hətta belə demək mümkünsə bütöv bir əsrin elmi ictimaiyyətinin nəzərində guya "tutarlı faktlar" sərgiləyən "araşdırma əsərləri" Nazir Əhmədlinin üzə çıxardığı arxiv materialları nəticəsində yenidən peşəkarcasına saf-çürük edilərək həqiqət olduğu kimi meydana qoyulmuşdur.

***

Haqqında bəhs edəcəyimiz "Azərbaycan aşıqları və el şairləri" kitabında müəllif xronoloji ardıcıllığı qorumuş, ilk olaraq Qarabağın tanınmış söz adamlarından olan Aşıq Valehin həyatını, mühit və yaradıcılığından nümunələri araşdırmağı qarşısına məqsəd qoymuşdur. N.Əhmədli böyük Azərbaycan alimi Firidun bəy Köçərlini haqlı olaraq, Aşıq Valehin "ilk və hələlik ən mükəmməl tədqiqatçısı" hesab edir. Çünki F.Köçərli "Azərbaycan ədəbiyyatı"nın I cildinə salınmış "Kərbəlayi Səfi "Valeh" təxəllüs" adlı oçerkində Kərbəlayi Səfi "Valeh"i (Aşıq Valeh) Canıoğlu Kərbəlayi Abdullanın və Baba bəyin müasiri adlandırmış, eyni zamanda onun ata-baba kəndi Gülablıda doğulduğunu qeyd etmiş, müasirləri içərisində sayılıb-seçilən "əhli-zövq və əhli-təb bir vücud" kimi dəyərləndirmişdir.

N.Əhmədli F.Köçərlinin əsərdə verdiyi "iki qiymətli məlumat"a əsasən belə bir qənaət əldə edir ki, Valeh təxminən 1766-1836-cı illərdə yaşamış, 70 ilə yaxın ömür sürmüşdür.

N.Əhmədlinin fikrincə, bu vaxtacan tədqiqatçıların yazdıqları fikirlər yanlışdır, Valeh aşıq olmayıb, o, şairdir. Eyni zamanda, dildən-dilə keçərək bugünümüzə gəlib çatmış "Valeh və Zərnigar" dastanının da məhz yaddaşlarda əfsanəyə dönən "aşıq" Valeh haqqında yaradılmasına da münasibət bildirən N.Əhmədli, qənaətlərini belə əsaslandırır: "Qarabağın Gülablı kəndində doğulan və orada da təxminən 65-70 yaşlarında vəfat edən "Valeh" təxəllüslü şair Kərbəlayi Səfi Məhəmməd oğlunun haqqında indiyə qədər yazılanların əksəriyyəti həqiqətə uyğun deyil (böyük Azərbaycan alimi Firidun bəy Köçərli istisna təşkil edir). Onun haqqında quraşdırılmış tərcümeyi-hal "Valeh və Zərnigar" dastanından götürülmüşdür. Qasım bəy Zakir, Baba bəy Şakir və Qarabağın bir sıra digər adlı-sanlı simaları kimi, Valeh də şair olmuş, aşıqlıq etməmişdir".

***

Əsərdə haqqında araşdırma aparılan ikinci ustad sənətkar "Quba qəzasının Buduq mahalındakı Xaltan kəndində yaşayıb-yaradan Aşıq Tağıdır (1789-(1849-1863))" ki, bu sənətkar el arasında Xaltanlı Tağı kimi məşhurlaşmışdı.

Nazir Əhmədli, bu el sənətkarı haqqında yazılan "100-106 il ömür sürmüşdür", "103 il ömür sürmüşdür", "Əsli Təbrizdən olmuşdur", "1899-cu ildə Kərbəlada vəfat etmiş, Məhəmməd Füzulinin məzarının yaxınlığında dəfn olunmuşdur" və sair bu kimi fikirlərə aydınlıq gətirmək üçün arxivlərdə günlərlə, aylarla ciddi axtarışlar apararaq bu qərara gəlmişdir ki, indiyədək folklorşünaslarımızın müxtəlif mənbələrdə göstərdikləri faktlar səhih deyil. O, Quba rayonu, Çarxaçu kənd sakini Tağıyev Tağı Novruz oğlu ilə görüşündə belə bir məlumat əldə edib ki, kənddə sinif müəllimi işləyən bu şəxs Xaltanlı Aşıq Tağının kötükcəsidir. O, ulu babasının qəbrinin Xaltanlı kənd qəbristanlığında olduğunu və həmin qəbrin 1980-ci ildə bərpa edildiyini bildirib. Lakin "doğum və ölüm tarixini dəqiq bilmədiklərindən, qəbir daşına doğum və ölüm tarixləri də yazılmayıb".

Nazir Əhmədli aşığın kötükcəsinin söylədiklərinə əsasən, Aşıq Tağının Xaltan kəndində doğulmadığını, buraya Şamaxının Göylər kəndindən gəldiyini, Kərbəla və Həcc ziyarətində olmadığını yazır. "Orasını da qeyd etdi ki, indiyə qədər Aşıq Tağıdan yazan müəlliflər – A.Nəbiyev, A.Mirzə, M.Mürsəlov, Q.Namazov və başqaları Xaltan kəndinə gəlməyib və aşığın qohumları ilə görüşməyiblər. "Bu fakt, əlbəttə təəssüf doğurur", – deyə tədqiqatçı təəccüb və təəssüfünü gizlətmir. "Xaltanlı Tağı 1789-cu ildə yoxsul bir ailədə anadan olmuş, təxminən 40-50 yaşlarında yaxın qohumları – qardaşı İsa və əmisi Məhəmmədlə indiki Quba rayonunun Xaltan kəndinə köçmüş, təxminən 70 yaşlarında orada vəfat etmişdir. Həyat yoldaşının adı Güllüdür..."

***

Növbəti bölmədə tədqiqatçı Ağ Aşıq (Allahverdi) (1791-1856) haqqında axtarışlarının nəticələrini yazıya almışdır. Ağ Aşığı Göyçə aşıq mühitinin banisi hesab edən N.Əhmədlinin müxtəlif tədqiqatçıların elmi axtarışlarını, özünün kameral təsvirlərlə, arxiv materialları ilə bağlı araşdırmalarını müqayisəli şəkildə təhlil edərək gəldiyi nəticələr belədir: "Dərisinin və tüklərinin ağ rənginə görə "Ağ Aşıq" ləqəbi verilən Aşıq Allahverdi Osman oğlu 1791-ci ildə İranın Sulduz mahalında Qara Osman adında ciddi təhsil görmüş bir adamın ailəsində anadan olmuşdur..."

Ağ Aşığın vəfatını 1856-cı ildə Göyçə mahalında kütləvi insan tələfatına səbəb olan epidemiyanın baş verməsi ilə əlaqələndirən N.Əhmədli, aşığın məhz həmin xəstəlik səbəbindən elə o illərdə, təxminən 64 yaşında dünyasını dəyişdiyini bildirir. Təsadüfi deyildir ki, Ağ Aşığın şəyirdi Aşıq Alı və əmisi Nəbinin ailəsi də böyük ehtimalla həmin il epidemiyadan qurtulmaq məqsədilə yaşayış yerlərini dəyişərək Qızılvənk kəndinə köçmüşlər ki, bu faktın özü də Ağ Aşığın məhz bu epidemiya nəticəsində dünyasını dəyişməsini təsdiqləyir.

***

Göyçə aşıq məktəbinin görkəmli nümayəndəsi, aşıq şeirinin bütün formalarında sənətkarlıq nümayiş etdirən Şair Məmmədhüseynin "Yatıb, oyanmaz, oyanmaz" rədifli gəraylısını şairin vizit kartı hesab edən N.Əhmədli, Şair Məmmədhüseynin adının keçdiyi 1831; 1842; 1859; 1873-cü il arxiv materiallarını məntiqlə qarşılaşdıraraq belə bir yekun nəticəyə gəlir: "Başqa qarapapaqlar kimi, Məmmədhüseynin ailəsi də 1814-cü ildə İranın Sulduz mahalından Göyçəyə köçüb Qızılcıq kəndində məskunlaşmış, Məmmədhüseyn 1816-cı ildə həmin kənddə doğulmuş, 1834-1835-ci illərdə atası və qardaşları ilə Göyçə mahalının Qanlı Allahverdi kəndinə, 1842-1852-ci illər arasında Daşkəndə köçmüş və ömrünün qalan hissəsini burada yaşamışdır".

***

Azərbaycan aşıq məktəbinin ən parlaq simalarından biri olmuş Aşıq Alı ilə bağlı tədqiqatda xüsusilə maraq doğuran xeyli sayda geniş və əvvəlkilərdən fərqli olaraq səhih məlumatlar verilmişdir.

Aşıq Alının Qızılvənk kəndinin kameral siyahılarına görə 1834-cü ildə doğulduğunu, 1911-ci ildə 77 yaşında rəhmətə getdiyini müəyyənləşdirən tədqiqatçı, əsl adı Almədət olan bu görkəmli el sənətkarının nəsil şəcərəsi barədə yeni məlumatlar vermiş, Aşıq Alının ustadı Ağ Aşığa neçə il şəyirdlik etməsinə də aydınlıq gətirmişdir. Tədqiqatçı yazır ki, 17 yaşında şəyirdliyə başlayan Alı 1852-56-cı illər ərzində - cəmi 4 il Ağ Aşığın yanında ustad dərsləri alıb. Bu məlumat həqiqətə xeyli dərəcədə uyğundur, çünki Ağ Aşıq Allahverdinin də 1856-cı il epidemiyasından dünyasını dəyişməsi barədə əvvəlki qeydlərimizdə yazmışdıq. Buradan da Alının və əmisi Nəbigilin ailələrinin epidemiyadan can qurtarmaq üçün doğulduğu Şişqaya kəndindən Qızılvənkə köçdükləri (1856-cı il) məlum olur.

***

XIX əsr Azərbaycan aşıq sənətinin möhtəşəm simalarından biri – bu vaxtacan əksər mənbələrdə adı "Aşıq Hüseyn Şəmkirli" kimi

yazılan və doğum ili də 1811-ci il kimi göstərilən Aşıq Söyün Şəmkirli (1838-1891) haqqında məlumatı Azərbaycan Mərkəzi Dövlət Arxivində saxlanılan sənəddən əldə edən tədqiqatçı qeyd edir ki, təsvirin 1886-cı ilə aid olması və aşığın yaşının da 48 göstərilməsi sübut edir ki, Söyün "bu vaxtacan yazıldığı kimi 1811-ci ildə deyil, 1838-ci ildə doğulub". Həmçinin N.Əhmədlinin gəldiyi qənaətə görə, Aşıq Söyün "xeyli yerlər gəzib dolaşdıqdan sonra yenidən anadan olduğu doğma kəndi Qapanlıya gəlib". Eyni zamanda, N.Əhmədli daha bir ciddi məsələni də diqqətdə saxlamağı vacib sayır ki, əgər rəsmi dövlət sənədində aşığın adı "Söyün" kimi yazılıbsa, demək onun adını zorla dəyişdirib "Hüseyn" kimi yazmağa heç kimin ixtiyarı yoxdur. Təsadüfi deyildir ki, aşıq-şairin o zamanlarda böyük nüfuza malik ustad sənətkar olması kameral siyahıyaalmanı həyata keçirən çar məmurları tərəfindən qəbul edilmiş, sənəddə də məhz bu cür yazılmışdır: "Aşıq Söyün Kərbəlayi Qurban oğlu".

***

Kitabda haqqında araşdırma aparılan növbəti sənətkar Göyçəli Aşıq Musadır (1853-1913).

Təbii ki, Aşıq Musa ilə bağlı mövcud olan variantlara aşığın Ağkilsə kəndinin 1873-cü il kameral təsvirində rast gəlinməsi tədqiqatçı Nazir Əhmədlidə aşığın doğum yeri, ili və sairlə bağlı problemlərin araşdırılmasında açar rolu oynayır. Və tədqiqatçı rəsmi sənədlə tanış olduqdan sonra belə bir faktı təsdiqləyir ki, Aşıq Musanın ailəsi aşığın nəvəsi Musa Süleymanovun söylədiyi kimi Ağkilsəyə Qazax mahalının Tatlı kəndindən gəlib. Sənəddə bu qeyd olunub və Musanın həmin siyahıyaalma həyata keçirilən vaxt 20 yaşında olması bunu sübut edir ki, Musa 1853-cü ildə anadan olub və "İ.Ələsgər onu 23 il, S.Paşayev isə 33 il (!) böyüdüblər".

***

Azərbaycan saz-söz sənətinin görkəmli nümayəndələrindən olan Molla Cümənin (1859-1920) həyat və yaradıcılıq yolu, doğum və ölüm tarixləri ilə bağlı məlumatlar da kitabın bu azman aşıq-şairə həsr olunmuş bölməsində yer almışdır. Molla Cümənin doğum tarixi ilə bağlı bugünəcən mövcud olan versiyalar yenə N.Əhmədli tədqiqatlarında saf-çürük edilir, rəsmi sənədlərin dili ilə tutarlı sübutlar göstərilir. "Nuxa qəzası, Nuxa nahiyəsinin kameral təsviri. 1863-cü il. Aşağı Layski kəndi" adlı sənəddə Cümənin atası Salah Oruc oğlunun ailəsi haqqında məlumat yer alıb. "17.116. Salah Oruc oğlu 55 yaşında; oğlu Cümə 4 yaşında. Ailədə 1 qadın var". Təbii ki, tədqiqatçının dediyi

kimi, “buradakı Salah Oruc oğlu Molla Cümənin atası, ailədəki 1 qadın onun anası Reyhan, Cümə isə gələcəyin böyük aşığı Molla Cümədir”.

Aşıq-şair Molla Cümənin bənzərsiz yaradıcılığı yaratdığı nakam sevgilisi İsmi pünhan obrazı ilə sənətkarlığının ən yüksək, orijinal mərtəbəsinə qalxmasına səbəb olmuşdur.

***

Tədqiqatda Şair Aydın (1865-1915) haqqında rəsmi sənədlər vasitəsilə dəqiqləşdirilmiş məlumatlardan öyrənirik ki, əvvəllər doğum tarixi 1825-ci il göstərilən bu el şairi 1865-ci ildə Novobəyazid qəzasının Şişqaya kəndində doğulmuşdur. Qarapapaq türkü kimi qeydiyyata düşən Şair Aydının ailəsinin Göyçəyə 1831-ci ildən sonra qarapapaqların yaşadığı hansısa bölgədən gəldikləri barədə məlumat verən tədqiqatçı, bu qənaətə rəsmi siyahıyaalma sənədlərinə əsasən gəldiyini bildirir. Şair Aydının 1915-ci ildə 50 yaşında dünyasını dəyişdiyi ehtimal olunur.

***

Tədqiqatda “Cəlili” aşıq havasıyla öz adını Azərbaycan aşıq sənətinin tarixinə əbədi olaraq yazmış Dərələyəz mahalının Sallı kəndində dünyaya göz açan Aşıq Cəlilin (1868-1928) həyatı və yaradıcılığı ilə bağlı ilk ciddi araşdırma işlərinin fədakar tədqiqatçı Əli Şamil tərəfindən aparıldığı qeyd olunur. 1985-ci ildə “Aşıq Cəlil” adlı məqalə ilə Naxçıvanda çıxan qəzetlərdə çıxış edən müəllifin yaradıcı, bəstəkar aşıq kimi el içində böyük hörmətə malik Aşıq Cəlilin yaratdığı beş aşıq havasının adı çəkilir ki, bunlar da “Baş Cəlili”, “Orta Cəlili”, “Ayaq Cəlili”, “Qaytarma”, “Sallama gəraylı” havalarıdır.

2018-ci il dekabr ayının 26-da AMEA Folklor İnstitutu, Azərbaycan Aşıqlar Birliyi və “Dərələyəz” Cəmiyyətinin təşkilatçılığı ilə Aşıq Cəlilin anadan olmasının 150 illiyinə həsr olunmuş elmi-praktik konfransın keçirilməsi bu görkəmli aşıq-şairin xatirəsinə ehtiramın təcəssümü idi.

***

Tədqiqat işindəki araşdırmalar daha sonra alimin Şair Məhəmmədlə (1871-1937) bağlı apardığı axtarışların yazıya alınması ilə davam etdirilir.

Verilən məlumata görə o, Aşıq Ələsgərin kiçik qardaşıdır. Əvvəllər də Aşıq Ələsgərlə bağlı məlumatdan öyrənmişdik ki, Ələsgərin atası Alməmmədin ilk oğlu 1849-cu ildə doğulan Məhəmməddir ki, o, 24 yaşına çatmadan dünyasını dəyişdiyinə görə, “Alməmməd 1871-ci ildə doğulan sonuncu oğluna da Məhəmməd adını qoymuş və dünyadan vaxtsız köçən böyük oğlunun adını yaşatmışdır”. Tədqiqatçı

bu səbəbdən Məhəmmədlərin dəyişik salındığını, Şair Məhəmmədin yaşının indiyə kimi 14 il böyük göstərildiyini bununla əlaqələndirir.

Məlumata görə, saz çalıb-oxumayan Məhəmməd "hazırcavab bir el şairi olmuşdur".

***

Aşıq Hüseyn Bozalqanlının (1876-1941) həyat və yaradıcı-lığı, doğum tarixi ilə bağlı məlumatları dəqiqləşdirmək üçün 1831-ci, 1860-cı, 1873-cü illərdə tərtib edilmiş kameral təsvirləri diqqətlə araşdıran tədqiqatçı yalnız "Qazax qəzasının kameral təsviri. 1886-cı il. Bozalqanlı kəndi" adlı sənəddə Aşıq Hüseyn Bozalqanlının adına rast gəldiyini yazır. Sənəddə göstərilir ki, Hüseyn həmin vaxt 10 yaşındadır. Deməli o, 1876-cı ildə doğulub. Məşədi Cəfərqulunun ailəsində doğulan Hüseyn 7-8 yaşlarında həmin kənddə molla yanına getmiş, müəyyən qədər yazı-pozu öyrənmiş, təhsilini başa vurmadan oradan ayrılmışdır. 1890-cı ildə kəndin koxası Paşa Usub oğlunun ölümündə müəmmalı şəkildə təqsirli bilinərək həbs olunmuş, iki ildən sonra buraxılmışdır".

Aşıq Hüseyn Bozalqanlı Azərbaycan Aşıqlar Birliyinin və Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuş, 1938-ci ildə H.Əlizadənin tərtib etdiyi, 52 şeirinin yer aldığı ilk şeirlər kitabı nəşr olunmuşdur.

Bir neçə dastan müəllifi kimi də tanınıb sevilən Aşıq Hüseyn Bozalqanlı 1941-ci il noyabr ayının 13-də 65 yaşında vəfat etmiş, doğma Bozalqanlı kəndində dəfn olunmuşdur.

***

"Dörd Zodlu" adlı bölmədə tədqiqatçı Göyçə mahalının Zod kəndindən olan Səmənd Ağa (1848-1919), Mirzə Bəylər (1851-1919), Hacı Əliş Ağa (1852-1919) və Zodlu Abdulla (1879-1943) haqqında kameral təsvirlərdən və digər rəsmi dövlət sənədlərindən əldə etdiyi məlumatlarla elmi ictimaiyyətə bu günəcən əldə olan təhrif olunmuş məlumatları qarşılaşdıraraq daha səhih arqumentlər şəklində təqdim edir.

***

Beləliklə, fədakar folklor tədqiqatçısı Nazir Əhmədlinin "Azərbaycan aşıqları və şairləri" kitabı haqqında ümumiləşdirmələrimizi bununla yekunlaşdırır və əminliyimizi bildirik ki, bu dəyərli əsər kitabda haqqında səhih məlumatlar verilmiş aşıq-şairlər haqqında bu vaxtadək elmi mənbələrdə mövcud olmuş fikirlərin şüurlarda yenilənməsində böyük əhəmiyyət daşıyacaqdır. Tədqiqatçının bir neçə illik gərgin axtarışlarının, arxiv materialları əsasında yazıb ortaya qoyduğu bir-birindən dəyərli əsərlərinin mahiyyəti də elə bundan ibarətdir.

# SARI AŞIĞIN BAYATILARI

# BAYATİES OF SARİ ASHUG

# БАЯТЫ САРЫ АШУГА

**Ləman Vaqifqızı (SÜLEYMANOVA)**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*leman.suleymanova.2018@mail.ru*

**Summary**

It is a well-known fact that the bayati genre is also used in the work of ashugs. For some reason, some of our ashugs have a lot in their work, while others have relatively little in their work. Sari Ashug's work is based on bayati from the very beginning. This issue is directed to two sides in the work of the ashug. The first is the bayaties created by the ashug in an independent form, which can be attributed more to what his lover said about the Yaxshi. The bayaties that Sari Ashug says about the Yaxshi seem to be a red line in his work. Some of the bayaties he said are these bayaties. Most of these bayaties are among the legends about the ashug. A part of it was collected and published separately.

The second feature is the bayaties he said, influenced by the folk bayaties. In fact, these bayaties can be considered as variants of national bayaties. When we look at these bayaties, we see that there are many versions of them in the collections that have been published so far. This inevitably raises the question: Were these bayaties the people's bayaties, and then they were called by the name of Sari Ashug, or did the bayaties said by the ashug become part of the people's bayaties over time?

**Key words**: Sari Ashug, bayati, ashug creativity, folk bayaties

**Резюме**

Как известно, жанр баяты используется и в творчестве ашугов. Почему-то у одних наших ашугов много работы, а у других относительно мало. Творчество Сары Ашуга целиком основано на баяты. Когда мы смотрим на работу Ашуга, мы сталкиваемся с двумя основными направлениями. Первый – это баяты, созданные ашугом в самостоятельной форме, что больше можно отнести к тому, что он говорил о Якши, его возлюбленной. Баяты, которые Сары Ашуг говорит о Якши, кажутся красной линией в его творчестве. Некоторые из составленных им баятов и есть эти баяты. Большинство этих баятов относятся к легендам об ашугах. Часть из них была собрана и опубликована отдельно.

Второе направление – это баяты, по его словам, под влиянием народных баятов. По сути, эти баяты можно рассматривать как варианты

национальных баятов. Когда мы смотрим на эти баяты, мы видим, что их версий много в сборниках, опубликованных на данный момент. При этом неизбежно возникает вопрос: являются ли эти баяты народными и затем названы в честь Сары Ашуга, или же сказанное Ашугом со временем смешались и стали вариантами в народных баяты?

**Ключевые слова:** Сары Ашуг, баяты, творчество ашугов, народные баяты

**Giriş.** Aşıq ədəbiyyatının bir çox forma və şəkilləri mövcuddur. Bu forma və şəkillər haqqında xeyli tədqiqat aparılmışdır. Ancaq aşıq yaradıcılığında bayatı janrından istifadəni geniş şəkildə araşdıran bir tədqiqata rast gəlmirik. Bu məqalənin mövzusu belə bir ehtiyacdan ortaya çıxmışdır.

Aşıq yaradıcılığında bayatıdan istifadəyə daha çox cığalı təcnislərdə və bayatı-bağlamalarda rast gəlinir. Məlumdur ki, cığalı təcnislərdə cığa bəndi bayatı üzərində qurulur. Aşıqların bəzən bir-birini bağlamaq üçün istifadə etdikləri bayatı-bağlamaların da forması adından göründüyü kimi bayatı forması üzərində qurulur. Sadəcə bunları digər bayatılardan fərqləndirən ən önəmli cəhət sual-cavab formasında olmasıdır. Əslində bu heç də o demək deyildir ki, deyişmə formasında deyilən bayatılar ancaq aşıq ədəbiyyatında mövcuddur. Biz deyişmə formalı bayatılara digər yerlərdə də, daha çox mərasimlərdə rast gəlirik. Bu mərasimlərin arasında isə toy, yas, Novruz və s. mərasimlərimiz daha önəmli yerə sahibdir. Bu məsələ bu məqalənin mövzusu olmadığı üçün uzatmağı lazım bilmirik.

**Sarı Aşığın bayatıları.** Bayatı janrından da istifadə müəyyən səbəblərdən bəzi aşıqlarımızın yaradıcılığında çox, bəzilərinin yaradıcılığında isə nisbətən azdır. Sarı Aşığın yaradıcılığı isə başdan-başa bayatı üzərində qurulmuşdur. Aşığın yaradıcılığına baxdığımız zaman əsasən iki istiqamətlə üzləşdik. Birincisi, aşığın müstəqil formada yaratdığı bayatılardır ki, buraya daha çox sevgilisi Yaxşı ilə bağlı dediklərini aid edə bilərik. Sarı Aşığın Yaxşı ilə bağlı söylədiyi bayatılar sanki onun yaradıcılığında qırmızı bir xətt kimi keçir. Onun düzüb-qoşduğu bayatıların bir qismini bu bayatılar təşkil edir. Həmin bayatıların əksəriyyəti aşıqla bağlı xalq arasında dolaşan rəvayətlərin içində qalmışdır. Bir hissəsi də ayrıca toplanaraq nəşr olunmuşdur:

Dağların başı qardı,
Düş, gəl, başı qardı.
Yaxşıdan ötrü, Aşiq,
Göz getdi, baş ağardı (Bəhlul Behcət, səh. 33)

Aşiq, yaxşı dən gözlər,
Mürgün yaxşı dən gözlər,
Baxdıqca yada düşür
Doymaz Yaxşıdan gözlər (Bəhlul Behcət, səh. 38).

İkinci istiqamət isə onun xalq bayatılarından təsirlənərək dediyi bayatılardır. Bu bayatıları əslində ümumxalq bayatılarının variantları da hesab etmək olar. Məsələn, aşağıdakı nümunəyə baxaq:

Aşıq, vətən yaxşıdı,
Köynək kətan yaxşıdı.
Qəriblik cənnət olsa,
Yenə vətən yaxşıdı (Təranə Vahid).

Bu bayatı istər-istəməz yadımıza:

Əzizim, vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı –

xalq bayatısını salır.

Və yaxud:

Aşiqəm Qızılcığa,
Şəkiyə, Qızılcığa.
Bir tərlan itirmişəm
Boynunda qızıl cığa (Bəhlul Behcət, səh. 38).

Biz 2004-cü ildə Şəkinin Daşbulaq kəndindən (bu kəndin əhalisini Qərbi Azərbaycandan deportasiya edilənlər təşkil edir) bu bayatının belə bir variantını qeydə almışdıq:

Qarabağı,
Gəncənin Qarabağı.
Bir cüt tərlanım getdi,
Boynunda qara bağı (Şəki folklor mühiti, səh. 42).

Bu qrupa ayırdığımız bayatılara nəzər saldığımız zaman onların indiyədək çap olunmuş toplularda xeyli sayda variantının olduğunu müşahidə edirik. Bu da istər-istəməz belə bir sual meydana çıxarır: Bu bayatılar xalq bayatıları olub sonra Sarı Aşığın adına çıxılıb, yoxsa aşığın söylədikləri zamanla xalq bayatılarına qarışıb? Folklorda gedən prosesləri xatırlasaq, hər iki hal mümkün ola bilər. Yəni həm xalq bayatıları Sarı Aşığın adına deyilə bilər, həm də aşığın söylədikləri zamanla xalq bayatılarına qarışa bilər. Biz müxtəlif bölgələrimizdə folklor toplamalarında olduğumuz zaman bu kimi hallarla çox qarşılaşmışıq. Hamımızın yaxşı bildiyi və xalq bayatısı hesab etdiyi nümunələrin hansısa damburçunun və yaxud da aşığın düzüb-qoşduğu ba-

yatı kimi təqdim olunduğunun dəfələrlə şahidi olmuşuq. Folklorlaşma prosesində bu kimi halların olması qanunauyğun və tamamilə təbiidir.

Sarı Aşığın bayatılarının müəyyən bir qismi də bayatı-bağlamalardır. Bu bayatılar tapmaca formasında deyilir və təbii ki, cavab tələb edir. Bu da onu isbat edir ki, həmin bayatılar deyişmə zamanı söylənilmişdir:

Aşağıdan ay doğdu,
Cansız canlını boğdu.
Anası beşikdə ikən,
Qızı bir oğlan doğdu
(https://www.ens.az/az/sari-asiq-bayatilari).

Gördüyümüz kimi, bu mətn tapmaca məzmunludur. Amma mənbədə onun cavabı verilməmişdir. Əslində bu hal yalnız bu mətnə, yaxud da Sarı Aşığa aid olması güman edilən bayatı-tapmacalara aid olmayıb digər aşıqların yaradıcılıqlarında mövcud olan bayatı-bağlamalarda da rast gəlinir. Bu bayatı-bağlamalar heç şübhəsiz ki, deyişmələr zamanı söylənilmişdir. Buradan belə bir sual meydana çıxır. Əgər bu belədirsə, bəs onun cavabı hanı? Bu sualın cavabını Balakən rayonunda olarkən damburçular ilə görüşlərimiz zamanı tapmışdıq və biz həmin məlumatı Molla Cumanın bayatı-tapmacalarının cavabının niyə olmamasını əsaslandırmaq üçün istifadə etmişdik. Həmin əsaslandırma digər aşıqların bayatı-tapmacalarına da, eləcə də Sarı Aşığın bu tipli bayatılarına da şamil oluna bilər: "Molla Cumanın bayatılarının az bir hissəsini bayatı-tapmacalar təşkil edir. Amma təəssüf ki, bu bayatı-tapmacaların cavab hissəsi yoxdur. Onların cavab hissəsinin niyə olmaması məsələsinin səbəbini biz elə dambur ifaçıları ilə söhbətlərimiz zamanı öyrəndik. Balakən rayonunun Tülü kəndindən olan mahir dambur ifaçısı Q.İbadullahla həmin rayonun Qazma kəndindən olan H.Ərəbiddinin deyişməsində belə bir maraqlı məlumatla rastlaşdıq. Deyişmə zamanı rəqibinə qalib gələ bilməyən Ərəbiddin İbadullaha bayatı-tapmaca dedi. İbadullah da cavabı bilmədiyi üçün məğlub oldu. Biz H.Ərəbiddindən bunun cavabını deməyi xahiş etdikdə damburçu bundan imtina etdi. İsrarımızdan sonra o bizi həyətin fındıq ağacları olan hissəsinə apardı, məclisdən xeyli uzaqlaşdığımıza və dediklərinin məndən başqa kimsə tərəfindən eşidilməyəcəyinə əmin olduqdan sonra bir az əvvəl dediyi bayat-tapmacanın cavabını söylədi. Cavabı niyə məclisdə deyil, xəlvətdə deməsini isə belə əsaslandırdı ki, əgər məclisdə desəydim, İbadullah da eşidərdi və mən bir də deyişmədə çətinə düşəndə onu bağlaya bilməzdim. Deməli, Molla Cumanın, eləcə də bir sıra digər aşıqlarımızın bayatı-tapmacalarının cavablarının kitablarda verilməməsinin səbəbi onların vaxtilə müxtəlif

məclislərdə söylədikləri bayatı-tapmacaların cavabını açıqlamamaları olmuşdur. Toplamalar zamanı da həmin mətnlərin cavabını bilməyən tədqiqatçılar onları olduğu kimi müxtəlif toplulara daxil etmişlər" (Dambur ifaçılığı və hayla yaradıcılığı, səh. 79-80).

Sarı Aşığın deyişmə bayatıları ilə bağlı bir neçə mətn də "Sarı Aşıq" kitabında vardır. Orada Sarı Aşığın deyişmə zamanı söylədiyi bir neçə bayatı-bağlama və onların cavabları verilmişdir. Həmin bölmə "Haqq aşığı ilə kürd aşığın deyişməsi" adlanır. Onu da qeyd edək ki, bu kitabda verilmiş deyişmə bayatılar bir qədər şübhə doğurur (Sarı Aşıq, səh. 114-116).

Sarı Aşığın adına deyilən bayatıların dil və üslub xüsusiyyətləri də maraq doğurur. Ona aid olduğu güman edilən bayatılarda cinasdan istifadə xeyli yayğındır. Onun cinaslardan istifadəsi ilə bağlı Könül Məmmədova "Sarı Aşıq bayatılarının poetikası: cinaslı bayatılar" adlı xüsusi məqalə həsr etmşdir. O yazır: "Məlumdur ki, müxtəlif səs tərkibinə malik olub, eyni və ya oxşar mənaları ifadə edən sinonim sözlər kimi, eyni və ya oxşar səs tərkibinə malik olub, müxtəlif mənaları bildirən omonim sözlər də hər hansı dilin leksik-semantik zənginliyini və bədii ifadə qüdrətini nümayiş etdirən əsas göstəricilərdən sayılır. Üstəlik, fəaliyyət meydanı kimi daha çox ədəbi dillə məhdudlaşan sinonimlərdən fərqli olaraq, canlı danışıq dilinin və müxtəlif dialektlərinin çeşidli tələffüz imkanları omonimlərin inkişafı üçün geniş üfüqlər açır. Türk dillərinin, o cümlədən, Azərbaycan türkcəsinin omonimlərlə zənginliyini istər-istəməz bu dillərdə yazıb-yaradan hər bir sənətkarı xalq dilinin bütün güc-qüdrətini və gözəlliyini göstərməyə sövq edir. ... Azərbaycan ədəbi dilinin və xalq danışıq dilinin omonimlər xəzinəsindən bəhrələnən cinas sənətinin həm şifahi, həm yazılı şeirimizdə geniş qol-qanad açmasının başlıca səbəbi budur.

Xalq şeirinin ən qədim və ən yayğın janrlarından biri olan bayatı poetikasında cinasın yeri və rolu məsələsinə gəlsək, Sarı Aşığa qədər də, Sarı Aşıqdan sonra da el bayatılarında cinas qafiyələrin gözəl nümunələri olmuşdur. Sadəcə olaraq, Sarı Aşığın böyük xidməti və dahiyanə sənətkarlığı ondadır ki, o, cinas qafiyələr yaratmağı öz ilhamının sevimli məşqinə, cinas bayatılar çağırmağı isə öz yaradıcılığının ana xəttinə çevirməyi bacarmış və bununla da Azərbaycan aşıq ədəbiyyatında bayatı yaradıcılığının zirvəsinə yüksələ bilmişdir" (Könül Məmmədova).

Onu da qeyd edək ki, Sarı Aşığın bayatılarının çox önəmli bir hissəsi rəvayətli bayatılardır. Yəni o bayatılar rəvayətin tərkibində verilir. Əvvəlcə mətnin rəvayət hissəsi verilir, sonra mövzuya uyğun

olaraq aşığın dilindən bayatılar verilir. Bu cür rəvayətlərin bir hissəsi hər bölgədə bir aşığın adına deyilə bilir. Bu cür nümunələrin sayı toplanmış materialların arasında kifayət qədərdir. Bu prosesin getməsi folklordakı variantlaşma prinsipi ilə əlaqədardır. Beləliklə, bir mətnin bölgə variantları yaranmış olur. Eyni mətn bir bölgədə Sarı Aşığın, digər bölgədə isə, məsələn, Molla Cumanın adına deyilə bilər. Buradan belə bir qənaətə gəlmək olar ki, hər bölgə mətnə özünəxas xüsusiyyətləri salaraq onu bir növ "özününküləşdirir". Məsələn, Şəki-Zaqatala bölgəsində məşhur "Tanı mənəm, bil mənəm" rəvayəti Molla Cumanın adına danışılırsa (Şəki folklor örnəkləri. II kitab, səh. 203), həmin rəvayətin qarabağlılar arasında Sarı Aşığın və yaxud digər bölgə aşığının adı ilə bağlı danışıldığının şahidi oluruq (AFA. XII cild, Zəngəzur folkloru, səh. 402-403).

Aşığın çap olunmuş bayatılarının bəzilərində qüsurlar da görürük. Məsələn, aşağıdakı bayatıda Xocavənd rayonunun iki kəndinin adı çəkilmişdir: Çanaqçı və Tuğ. Amma birinci kəndin adı səhvən Çanaqlı kimi yazılmışdır. Kitabı tərtib edənin, redaktor və korrektorun isə diqqətindən bu səhv yayınmışdır:

Aşıq bir buğda gördü,
Buğdanı dağda gördü.
Gözəli Çanaqlıda,
İgidi dağda gördü (Sarı Aşıq. Bayatıları).

Onu da qeyd edək ki, Sarı Aşıqla bağlı mətnlər hələ də xalq arasında yayğındır. "Qarabağ: folklor da bir tarixdir" 10 cildliyinə salınmış mətnlər də bu fikrimizi isbat edir. Bu cildlərdə Sarı Aşıqla bağlı ənənəvi süjetlərlə yanaşı, təzə mətnlər də vardır (Qarabağ: folklor da bir tarixdir. I cild. səh. 146-148; Qarabağ: folklor da bir tarixdir. II cild. səh. 100; Qarabağ: folklor da bir tarixdir. III cild. səh. 113-114; Qarabağ: folklor da bir tarixdir. IV cild. səh. 360-375; Qarabağ: folklor da bir tarixdir. VI cild. səh. 302-303).

**Nəticə.** Düşünürük ki, aşıq yaradıcılığında bayatı yaradıcılığı ayrıca tədqiq olunmalıdır. Bu zaman həm bayatının aşıq yaradıcılığındakı yeri xırdalıqlarına qədər araşdırıla bilər, həm də bu cür tədqiqat bizə aşıqların bayatıları ilə xalq bayatılarını seçmək imkanı verər. Digər tərəfdən də bu cür tədqiqatın aparılması aşıqların xalq bayatılardan necə faydalandıqlarını müəyyənləşdirmək imkanı verə bilər. Konkret olaraq Sarı Aşığın bayatıları ilə xalq bayatılarını ayırmaq üçün Sarı Aşıq bayatılarının dil və üslub xüsusiyyətlərini öyrənmək, həmçinin söyləyicilərin hansı bayatıları ona şamil etdiyini

bilmək lazımdır. Bu baxımdan görüləcək əsas iş Sarı Aşığın bayatılarının elmi-tənqidi mətnini hazırlamaqdır. Onun bayatılarının elmi-tənqidi mətni hazırlanmadan, Sarı Aşığa aid edilərək çap edilən bütün mətnlər incələnmədən bu barədə dəqiq söz söyləmək mümkün deyildir. Onu da vurğulayaq ki, bu zaman ancaq söyləyici dilindən qeydə alınaraq, söyləyicilərin pasportlaşdırıldığı mətnlərə müraciət etmək lazımdır. Sadaladığımız xüsusiyyətləri özündə əks etdirməyən mənbələrdən istifadə etmək isə ancaq dolaşıqlıq yarada bilər.

## QAYNAQLAR


1. AFA. XII cild. Zəngəzur folkloru. Toplayıcılar: f.e.d. Vəli Nəbioğlu, f.e.n. Muxtar Kazımoğlu, f.e.n. Əfzələddin Əsgər. Tərtib edənlər: Əfzələddin Əsgər, Muxtar Kazımoğlu. Bakı, Səda, 2005, 464 səhifə
2. Qarabağ: folklor da bir tarixdir. I cild. (Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış folklor örnəkləri). Toplayıb tərtib edənlər: fil.ü.f.d. İlkin Rüstəmzadə, Zəfər Fərhadov. Bakı, Elm və təhsil, 2013, 463 səh.
3. Qarabağ: folklor da bir tarixdir. II cild. (Bərdə və Ağcabədi rayonlarından toplanmış folklor örnəkləri). Toplayanlar: fil.ü.f.d Əfzələddin Əsgər, fil.ü.f.d. İlkin Rüstəmzadə, fil.ü.f.d. Tahir Orucov, Zəfər Fərhadov. Tərtib edən: fil.ü.f.d. İlkin Rüstəmzadə. Bakı, 2012, Elm və təhsil, 483 səh.
4. Qarabağ: folklor da bir tarixdir. III cild. (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın, Şuşa rayonlarından toplanmış folklor örnəkləri). Tərtib edən: fil.ü.f.d. İlkin Rüstəmzadə. Bakı, Elm və təhsil, 2012, 468 səh.
5. Qarabağ: folklor da bir tarixdir. IV cild. (Laçın, Qubadlı və Zəngilan rayonlarından toplanmış folklor örnəkləri). Toplayanlar: fil.ü.f.d. İlkin Rüstəmzadə, Sevinc Bağdadova. Tərtib edən: fil.ü.f.d. İlkin Rüstəmzadə. Bakı, Elm və təhsil, 2013, 458 səh.
6. Qarabağ: folklor da bir tarixdir. VI cild. (Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış folklor örnəkləri). Toplayıb tərtib edən: fil.ü.f.d., dos. Ləman Vaqifqızı (Süleymanova). Bakı, Zərdabi LTD, 2013, 465 səh.
7. Bayatılar (Sarı Aşıq). 2 cilddə. I cild. Şərq-Qərb, 2005. https://az.wikisource.org/wiki/Bayat%C4%B1lar_(Sar%C4%B1_A%C5%9F%C4%B1q)
8. Bəhlul Behcət. Sarı Aşığın bayatıları. Transliterasiya, ön sözün müəllifi: Rza Xəlilov. Bakı, “Səda”, 2006, 96 səh.
9. Sarı Aşıq (seçmə bayatılar). (Tərtib edəni, ön sözün müəllifi və redaktoru Hüseyn Kürdoğlu.) Sabah, 1993, 119 səh.
10. Təranə Vahid. Sarı Aşığın bayatı dünyası. // “Mədəniyyət” qəzeti. 23 may 2021-ci il. https://medeniyyet.az/page/news/21407/Sari-Asigin-bayati-dunyasi.html

11. Şəki folklor örnəkləri. II cild. Toplayıb tərtib edən: fil.ü.f.d., dos. Ləman Vaqifqızı (Süleymanova). Bakı, Elm və təhsil, 2014, 408 səh.
12. Sarı Aşıq. Bayatıları. https://www.ens.az/az/sari-asiq-bayatilari
13. Vaqifqızı (Süleymanova) Ləman. Dambur ifaçılığı və hayla yaradıcılığı. Bakı, Elm və təhsil, 2020, 264 səh.
14. Məmmədova Könül. Sarı Aşıq yaradıcılığının poetikası: cinaslı bayatılar. http://dergikaradenizsempozyum.com/tr/sempozyum-arsivi/arsiv/20-3-uluslararasi-dergi-karadeniz-sosyal-bilimler-sempozyumu-19-21-kasim-2019-baku-azerbaycan/130-sari-asiq-yaradiciliginin-poeti-kasi-ci-nasli-bayatilar
15. Sədnik Paşa Pirsultanlı. Bayatı yaradıcısı Ləlo və Sarı Aşıq // "Xalq cəbhəsi" qəzeti, 30 avqust 2017 http://www.xalqcebhesi.az/news/culture/22277.html

# “SEHRBAZLAR DƏRƏSİ” ROMANINDA SUFİ-DƏRVİŞ SİMVOLİKASI (Aşiq Ələsgər yaradıcılığı üzərindən)

# SUFI-DERVISH SYMBOLISM IN THE NOVEL “VALLEY OF WIZARDS” (through the works of Ashug Alasgar)

# СУФИЙСКО-ДЕРВИШСКАЯ СИМВОЛИКА В РОМАНЕ «ДОЛИНА ВОЛШЕБНИКОВ» (по произведениям Ашуга Алескера)

**Mehman Qaraxan oğlu ƏLİYEV**
*AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi*
*mehman.aliyev57@gmail.com*

**Summary**

When the novel “Valley of Wizards “ is analyzed from the works of Ashug Alasgar the expression of a similar gnosis-philosophical worldview with Sufi-dervish symbolism is astonishing.

Poetic spirit, ambiguity, mystery, a close guide to religious and philosophical teachings, foresight, extensive use of dream of metaphors and countless other semiotic and conceptual signs give grounds to say this.The true lover presents his self-portrait to us as follows: “I am both a lover, a dervish and a madman”.

Like his spiritual brothers, who were persecuted under the total oppression of the empire and scattered in different geographical areas, Ashug Alasgar made “figurative speaking, figurative flowering” secrecy and secrecy his way of life.

This was a source of rumors that he couldn’t read or write.Of course, he was the main” driver”of the spread of such rumors under the pressure of self-defense instinct.

Kamal Abdullah‘s novel “Valley of Wizards “ which is far from his predecessor in terms of time, is also based entirely on the model of coded-chipper mysteries and metaphors presented by “Haqq Ashiq” (lover of truth)

The main idea of the novel, which constantly controls the reader with its strange absurdism, philosophical aesthetic direction and cognitive -emotional tensions, coincides with the crazy formula presented by the great lover of truth.

“The Valley of Wizards as a whole is a halal place where hundreds of scholars and Sufi dervishes gather, “who carry their homes in their shoulders “ and who are the singers of God, His Prophets and the Ahl al Bayt( like Ashug Alasgar).

**Key words:** knowledge, symbols, metaphor, parallels, semiotic signs

**Резюме**

Когда роман «Долина волшебников» анализируется на основе произведений Ашуга Алескер выражение сходного гнозисно – философского мировоззрения с суфидервишской символикой поражает.

Поэтический дух, двусмысленность, таинственность, близкое руководство к религиозным и философским учениям, дальновидность, широкое использование метафор сновидений и бесчисленное множество других семиотических и концептуальных знаков дают основания сказать это.

Истинный любовник представляет нам свой автопортрет следующим образом : «Я и любовник, и дервиш, и сумасшедший».

Подобно своим духовным братьям, преследуемым тотальным гнетом империи и рассредоточенным по разным географическим районам, Ашуг Алескер сделал своим образом жизни «образно говоря, образное цветение» скрытность и скрытность.

Отсюда ходили слухи, что он не умел ни читать, ни писать. Конечно он был главным «драйвером» распространения таких слухов под давлением инстинкта самообороны. Роман Камала Абдуллы «Долина волшебников» который далек от своего предшественника по времени, полностью основан на шифрованной модели тайны и метафоры представленной «Хакком Ашугом» (любитель истинный справедливости).

Основная идея романа, который постоянно контролирует читателя своим странным абсурдизмом, философско-эстетической направленностью и когнитивно-эмоциональной напряжённостью, совпадает с безумной формулой великого любителя истины.

«Долина волшебников» в целом это халяльное место, где собираются «сотни учёных и суфийский дервишей»которые несут свои дома на плечах» и являются пророками Бога и певцами его семьи (например Ашуг Алескер).

**Ключевые слова:** знание, символы, модель, метафора, параллели, семиотические знаки

Azərbaycan-türk ozan ədəbiyyatında Aşıq Ələsgər qədər halal yaşayıb, halal ədəbi irs ortaya qoyan sənətkarlara az-az rast gəlinir. Biz burada məhsuldarlıq baxımından təkcə onun halallıq təbliğ edən şeirlərini deyil, həm də yaradıcılığının bütünlüklə rəmzi bir irfani-halallıq haləsinə büründüyünü nəzərinizə çatdırmaq istəyirik. Dədə Ələsgər "Yüküm" divanisində özü bu haqda deyir:

Nütfəsində əyri olan,
Tez göstərər isbatın;
Hər ağac kökündən bitər,
Hər meyvə gözlər zatın.
Hərcayi hədyana sayar,
Naşı bilməz qiymatın;
Əhli-irfan məclisində
Gövhər misaldı yüküm (1, 121).

Adama elə gəlir ki, onun şeirlərinin gəldiyi məkan çox fərqli – ülvi, pak, dərvişanə, sirli, sehrli bir məkandır. Bu həmin məkandır ki, görkəmli alim və yazıçı Kamal Abdulla Şərqin bütün halal dərvişlərini – sehrbazlarını bir yerə toplayıb həmin məkana "Sehrbazlar dərəsi" adını verib. "Dərviş" kəlməsini qarşısında "halal" sözünü yazmaq, bəlkə də yerinə düşmür. Amma Dədə Ələsgər:

Mən istərəm, alim, mömin yüz ola,
Meyli haqq doğru, yolu düz ola,
Diliylə zəbanı üzbəüz ola,
Ələsgər yolunda can qurban edər (1, 47) –

mesajını bizə verirsə, onda istər-istəməz düşünürük ki, meyli haqqa doğru, yolu düz olmayan, sözü ilə əməli üst-üstə düşməyən alim və möminlər də vardır. Aşıq məhz onların içərisindən canını qurban vermək istəyənləri seçib ayırmaq istəyir.

Bütün zamanların sehrbazları
Birdən güc gələlər - dəyişə dünya (2, 104).

Bu misralar da Kamal Abdullanın "Sehrbazlar dərəsi" şeirindən götürülüb. Araya yüzillər düşməsinə baxmayaraq, hər iki şeirdəki oxşar sufi-dərviş ruhu adamı heyrətləndirir. Maraqlıdır ki, "Sehrbazlar dərəsi" romanının başlıca ideyası da Haqq aşığının "Qoca baxtım" rədifli qoşmasının aşağıdakı misra-hökmünün üzərində dayanıb:

Sövdə qıl haqq ilə, əl çək haramdan,
Halaldan mətləbin al, qoca baxtım (1, 63).

Romanda cərəyan edən hadisələrin mahiyyətinə varanda görürük ki, heç kəs heç kəsə halal eləmir. "Gözləri yumulu sehrbaz ona dodağının ucunda incik bir təbəssüm ancaq bu sözləri deyir: "Get, amma mən bunu sənə halal eləmirəm…" (3, 16). Və baş verən dəhşətli hadisələrin kökündə də bu amil dayanır. Yazıçı bizi əvvələ qaytarır – əvvəlki özümüzə. Sonra da özümüzü özümüzdən "çıxarıb" romanın çoxqatlı içi ilə (Bu, həm də çağdaş insanın içidir!) gəzdirir. Özümüz özümüzü görüb sarsılırıq. Əslində, romanın əvvəlində tacirin başına gələnlər bizi bu sarsıntılara "hazırlayır".

Dərvişə verdiyi pullara sonradan tamsılanan tacir dərvişin təksənəlik vaxtına girib onu soyur. Tövşüyə-tövşüyə üzüyuxarı qalxan taciri yol heç hara aparmır, o yalnız fırlanır. "Yol haman yol, şəhər də ki, öz yerində. İnanılası deyil, indiyənə qədər o naçar kişi o nadürüst yolu gedir, gedir, amma neçə ildi bu yol onu bir yana gətirib çıxarmır" (3, 16). Belə çıxır ki, harama bulaşan insan tanış bir yolda da azarmış. Yazıçı sınayıcı nəzərlərlə düz gözümüzün içinə baxaraq deyir: Halal yolunuzu gedin, belə olmasa, yol da nadürüstləşər və sizi yolda qoyar.

Müəllif bizə çox ağrılı bir mesaj verir: Hamımız səyyah sehrbazın halal haqqına əl uzadan o mömin bəndə (məhz mömin!) tacir günündəyik. İlahi düzənin bir zərrəsi olan dərviş-sehrbazın qarğışı tutub bizi, nə illah eyləsək də uşaqlıq və gəncliyimizin şəhərinə qayıda bilmərik. Heç bir məqsəd hədəfləmədən Görükməz təpə ilə İlanlı gədik arasında fır-fır fırlanırıq. Varlığımızı sübutlayan bir nəsnə varsa, o da fırlanışımızdır. Bütün yollar bizi günah etdiyimiz yerə – sehrbazlar dərəsinin ağzına gətirib çıxarır.

Romandakı hadisələr də həmin tacirin öz məşum əməli ilə öncədən cizgilədiyi xətt boyu hərəkət edir. Amma roman müəllifindən çox-çox əvvəl Dədə Ələsgər bizi xəbərdar eləmişdi:

Dolandım bihudə, gəzdim əfsana,
Tabe oldum nəfsə, uydum şeytana,
Xeyir əməlim yoxdu mərdü mərdana,
Günahkar, günahkar, günahkar mənəm (1, 63).

Sanki Dədə deyil, həmin günahkar tacir danışır.

Məlumdur ki, ürfan və təsəvvüfdə (sufizmdə) dörd təkamül mərhələsindən bəhs edilir. “Şəriət”, “Təriqət”, “Mərifət”, “Həqiqət”. Bu mərhələləri böyük təsəvvüf teoloqu Əbu Həmid Qəzzali şərti olaraq tərtib etmişdir (4, 39). Mühyiddin Ərəbi həmin mərhələləri belə təsnifatlandırır: 1. Şəriət Allahdan insanlara seyrdir (mesajdır, görüntüdür). 2. Təriqət İnsandan Allaha seyrdir. 3. Mərifət Allahdan insanlara seyrdir (bu dəfə “mərifət” səviyyəsində, yəni ürfani dünyagörüşlər çərçivəsində) 4. Həqiqət Allahdan Allaha seyrdir” (4, 40).

Adıçəkilən irfani mərhələləri ləyaqətlə keçən Aşıq Ələsgər “Bax, bax” şeirində yazır:

Şəriət oxuyan, təriqət bilən,
Haqlıq eyləyirsən, haqq dinə bax, bax (1, 28).

“Sehrbazlar dərəsi” romanının baş qəhrəmanı karvanbaşını bu sonsuz yola ürcah edən, əsl həqiqəti bilmək üçün “üzünü belə düz-əməlli görmədiyi atası cəllad Məmmədqulunun ruhunu çağırtdırmaq” (3, 18) və ondan “bəzi şeylər” soruşmaq ehtirasıdır. Oxucu, Cəllad Məmmədqulu ilə “uca göylərdən cəza kimi onun bəxtinə” qonan ilk sevginin ağrısını hiss etdiyi böhranlı bir durumda – çox kritik bir məqamda görüşür. Böyük psixoanalitik Ziqmunt Freyd yazır ki, insan düşündüyümüzdən daha əxlaqlıdır və ağlımıza gətirməyəcəyimiz dərəcədə əxlaqsızdır. Romandakı hadisələr sanki Freyd paradok-su üzərində qurulub və ya bu iki insan tipi arasında baş verir. Milli-genetik yaddaş sistemində özünə möhkəm yer eləmiş sufi-dərviş fəlsəfəsi dolaşıq və qaranlıq hadisələrin açılmasında yazıçıya yardımçı olur. Bu çətin situasiyada müəllifə,

əsasən. Ağ dərvişin əsrarəngiz düşüncələri kömək edir: "İşıq qaranlığındır, qaranlıq işığın deyil". Heyrətamiz haldır ki, romanda Ağ dərvişin dilindən deyilən bu fikirləri hələ çox-çox əvvəl Dədə Ələsgər fərqli bir tərzdə söyləmişdir: "Zülmətdə işıq var, acıda şirin".

Biz tamamilə o fikrə qarşıyıq ki, guya sənətkarlar bir-birindən belə açıq bir halda təsirlənirlər. Burada təsirlənməkdən deyil, milli-genetik yaddaşda və daha çox altşüurda möhkəm oturuşmuş ortaq sufi-dərviş fəlsəfəsinin sayrışmalarından söhbət gedə bilər. Unutmayaq ki, Aşıq Ələsgərin ustadı Aşıq Alı da Ağ Aşığın şəyirdi olmuşdur. Dini-ruhani, mənəvi-irfani varislik zəncirinin böyük mədəniyyətşünaz, Azərbaycan mifolinqvistikasının banisi Kamal Abdullada bu cür qırılmazlıq simvoluna çevrilməsi qürurvericidir.

Roman müəllifi Ağ dərvişin dilindən deyir: "Ancaq işığı görə bi-lən işığın qədrini heç bilməz". Seyid Sarı və Ağ dərviş Mənuçöhr ibn Sadiqə müridlik etmişlər. "Kimdir Ağ dərviş? Ağ dərviş Allahın sirdaşıdır! Seyid Sarı isə yalnız Allahın dostuna çevrilmişdi". Nəzərə almaq lazımdır ki, romanda adları çəkilən sufi-dərvişlər tarixi yox, bədii obrazlardır. Amma içərilərində elələri də vardır ki, onlar, həqiqətən, tarixin müəyyən kəsimlərində yaşayıblar. Yazıçı fəhm hissi ilə təmsil etdiyi xalqın milli-tarixi və genetik yaddaşa hansı kodlarla bağlı olduğunu simvollaşdırır.

Məlumdur ki, zikr, vird sufi-dərvişlərin Tanrı ilə başlıca kontakt formasıdır. Bu, Yaradanın sirrinə vaqif olmaq üçün ən unikal bir yoldur. Haqq aşığımız deyirdi:

Ələsgər, axtarma qüdrətin sirrin,
Zülmətdə işıq var, acıda şirin.
Zikr eylə dilində mərdlərin pirin
Qorxma, dar günündə yar olacaqdı... (1, 69).

Kamal Abdullanın qəhrəmanları Dədə Ələsgərin təqdim etdiyi sufi-irfani sxem üzrə hərəkət edirlər: "Bu vaxt ərzində sehrbaz nə edərdi, nə etməzdi, ancaq özü bilərdi. Özü-özü ilə danışardı, amma bu dili bir kimsə bilməzdi, özü-özünə suallar verərdi, özü də bu sualları cavablardı" (3, 15).

Kamal Abdulla "Sehrbazlar dərəsi"ndə sözdən qaçıb. Əsərdə danışmayan sözlər danışan sölərdən çoxdur. Lap çoxdur! Uzaq səfərə çıxan karvana artıq heç nə "yüklənməyib". Müəllif şüurlu şəkildə bədii təsvir vasitələrindən qaçmağa çalışıb. Məgər biz gerçək həyatımızda təşbeh və metaforalarla danışırıq?! Romanda daxili nitq dioloji nitqi üstələyib. Bu da sözə maksimum qənaət deməkdir. Qəhrəmanlar daha çox ürəklərində danışır, zikr edirlər. Dəqiq desək,

dodaqlarının altında. Səslər söz halında dışa yansımır. Elə dodaqların altındaca doğulur və “ölürlər”.

Kamal Abdulla dilin əski qiyafəsini çıxarmadan onu XXI əsrə “qonaq” çağırır. Ev yiyəsi kimi personajlarla onların dilində danışmaq rahat deyildir. Lakin tədricən “razılığa” gəlirlər; dil alışır bu hala. Çünki geneloji-irfani kodlar dilin damarlarında dövr edən qanda oturuşub, onlara xəfif bir toxunuş gərəkdir ki, “dilə” gəlsinlər. Yazıçının “tərəf-müqabil”ləri – obrazları da ona yardımçıdır. Biri digərini “danışdıra” bilir! Bu həmin dildir ki, biz onu folklorumuzda, Dədə Kitabımızda, klassiklərimizin yaradıcılığında, o cümlədən, Aşıq Ələsgərdə görmüşük. “Köklü ağacın ucalıq sirri kiçik bir toxumda, nəhəng çayın müqəddəs təmizliyi bulağın gözündədir. Dilimizin də bütün potensialı – gücü və gücsüzlüyü “Dədə Qorqud” dastanlarında gərilmiş yaya kimi çəkilib gözləyir” (5, 211).

“Sehrbazlar dərəsi” ilk cümləsindən son cümləsinə qədər məcazdır. Dil bütünlüklə metaforik bir zikrin, virdin içinə yığılıb. Birmənalı olaraq “Sehrbazlar dərəsi” romanı ilə Kamal Abdulla Azərbaycan nəsrinə yeni bir üslub gətirib: Vird üslubunu! Bu, daxilə yönəlikliyi şərtləndirir. Milli-tarixi və etnopsixoloji kimliyimizi simvollaşdırır. Şərq bu üslubda gözəldir. Miniatürlərimiz də bu üslubdadır. Bu üslub qışqırtı sevmir. “Pıçıltı tam sükuta, tam sükut az qala hıçqırığa” çevrilir. Hər şey dodaqların altında həll olunur. Onun estetikası belədir: Səs ucadan çıxmır. Ola bilsn ki, sözə çatana qədər səsin nəfəsi çıxsın. Eşidəcəyin bircə sözün izi ilə düşüb getməlisən, özün özünə sual verib özün də cavab tapmalısan. Bax, bu cür: “– Kimin göz yaşını silmisən bu dünyada? – Heç kimin. – Bu dünyada göz yaşı axmayıb deməli...”. “– Hansı yol ilə gedək? – Bilmirəm. – O zaman gedə biləcəyimiz yol yoxdur deməli”.

Kamal Abdulla intuitiv olaraq dahi sələfi Aşıq Ələsgərin keçdiyi dərvişanə yoldan keçir. Baxın, məhz bu yolla:

Danışdığı sözün qiymətin bilə,
Kəlməsindən ləlü gövhər süzülə,
Məcazi danışa, məcazi gülə,
Tamam sözü müəmmalı gərəkdi (1, 50).

Məcaz və müəmma Haqq aşığında olduğu kimi, Kamal Abdulla romanının da qoşa qanadıdır.

“Sehrbazlar dərəsi” əsl şüuraltılar romanıdır. Vaxtilə “basdırılmış” enerjinin tədricən “püskürüb” hər şeyi kontrola alması prosesi əsərdə ustalıqla verilir. Çevrəboyu hərəkətdə olan karvan simvolik obrazı da bu işdə rupor rolunu oynayır. İstər-istəməz Soltan Hacıbəylinin “Karvan” simfonik lövhəsi ruhumuzda səslənir. Karvan bir nöqtədən çıxıb eyni

nöqtəyə qayıdır. Bu həm də çevrənin tamamlanması deməkdir. Əsərdəki hadisələr də karvanın troyektoriyasına – sufi-dərvişlərin səma rəqsinə uyğundur. Karvan bizi çox "uzaqlara" aparır. Həmin uzaqları birləşdirən ortaq nöqtələr – açar sözlər bunlardır: Allah, sehr, dərviş, yuxu, rəmz, fanilik, baqilik... Bu sözlər dərviş-sufi rəmzləri, simvollarıdır. Biz həmin açar sözləri Aşıq Ələsgərdə də görürük.

Zənnimizcə, əgər Aşıq Ələsgəri bütünlüklə klassik sufi-dərviş obrazında təqdim etsək, yanlışlığa yol vermiş olarıq. Biz daha çox görkəmli alimimiz Muxtar İmanovun təqdim etdiyi modeli qəbul edirik. Bu modelə görə, Haqq aşığının bir üzü Yerə, digər üzü isə Göyə – Kosmosa baxır. Necə deyərlər, o, türk dünyasında Yerlə Göy arasında əlləşən və təsəvvüf ənənələrini sədaqətlə davam etdirən sonuncu böyük Haqq aşıqlarımızdan biridir. Əgər konteksti "dramatikləşdirsək", deyə bilərik ki, sufi-dərviş dünyası onun poeziyasında param-parça olub və sufiyanə elementlər onun yaradıcılığının müxtəlif ərazilərinə dağılıb. Fikrimizi nümunələrlə sübut edək: Məsələn, məhəbbət-həsrət lirikasının ən mükəmməl nümunəsi olan "Düşdü" qoşmasının son bəndində belə bir misra vardır:

Ələsgərəm, hər elmdən halıyam... (1, 44).

Həmçinin "Həcər xanımla deyişməsində" həmin misra bir qədər fərqli şəkildə təkrarlanır:

Ələsgər də hər elmdən halıdı,
Mövla baratıdı, öz kamalıdı (1, 188).
Və ya: Arif olan eyham ilə söz qana... (1, 104).

Və yaxud:

Hikmət məclisində əyləşəm alim,
Gəl, səninlə yol-ərkandan danışaq (1, 166).

İstər-istəməz sual yaranır: "Hər elmdən hali" olub, "eyhamla söz qanan" və hətta "hikmət məclisində əyləşən alimi" çağdaş leksikonla desək, polemikaya dəvət edən bir adam necə savadsız ola bilər? Yuxarıda qeyd etdiyimiz kimi, total basqıların tədricən sürət yığdığı bir dövrdə aşığın özünü "gülzari-cəmiyyət"ə savadsız təqdim etməsi başa düşüləndir.

Nümunələrin sayını yetərincə artrmaq olar. Bunlar, elm, mərifət və kamalla dolu olan bir insanın – Haqq aşığının "gözlənilməz" etirafları və əcdadlarından gələn sufi-dərviş kodlarının öləziyən işartılarıdır. Həmin işartıların əks-sədası bu və ya digər şəkildə "Sehrbazlar dərəsi" romanında da təzahür edir.

Ümumtürk ozan sənətinin pərvəriş tapdığı əsas məkan, sözsüz ki, Səfəvilər dövləti olmuşdur. Dədə Ələsgər ruh və zaman baxımından Qurbaniyə və Pir Sultan Abdala daha çox yaxındır. Qaracaoğlanın

türküləri “Koroğlu” eposundakı ruh üzərində köklənmişdir. Aşıq Veysəl Dədə Ələsgərdən sonra gəlir. Dədə Ələsgərin Qurbanidən üzübəri gələn Anadolu və Orta Asiya aşıqlarından bədii siqlət, elmilik, janrlar üzərindəki cəsarətli “cərrahiyyə əməliyyatları”na görə fərqi göz qabağındadır. Türk-ozan sənətinin pərvəriş tapmasında misilsiz xidmətləri olan Şah İsmayıl Xətayi obrazına Kamal Abdullanın sürəkli müraciət etməsinin kökündə də milli-genetik yaddaş və həmin yaddaşdan sistematik şəkildə ötürülən sufi-dərviş siqnalları durur. Müəllif özü yazır: “Yarımçıq Əlyazma” ən böyük abstraksiyada mifoloji tarixlə real tarixin üzbəüz, qarşı-qarşıya qoyulmasıdır. “Kitabi-Dədə Qorqud” müstəvisi mifoloji tarix, Şah İsmayıl müstəvisi real tarixdir”. Biz müəlliflə razılaşırıq. Amma bir oxucu kimi mifoloji tariximizdə baş verən onlarla hadisənin çağımızla necə səsləşməsi fonunda birincinin real tarix müstəvisindən də daha real olduğunu söyləyə bilərik. Lakin lap dəqiq desək, hər iki müstəvi eyni səviyyədə real və həmin səviyyədə də mifolojidir. “Sehrbazlar dərəsi” romanında da miflə reallıq iç-içədir. Lap dərvişanə ömür sürmüş Şah İsmayıl Xətayi və Dədə Ələsgərin həyat və yaradıcılığı kimi. “Əgər mif möcüzə aktının səbəbiyyət zəncirilə şərtlənmiş izahını verirsə belə, bu səbəb möcüzənin özündən heç də az ecazkar deyil” (6, 30).

Dünyadərki şifrələrinin mifoloji-poetik gizliliyini və ümumən, dini-fəlsəfi sistemlərin ən parlaq təzahürlərini özündə ehtiva edən sufizmlə roman arasında xeyli ortaq nöqtələr tapmaq olar. Lakin əsərdən eşidilən səslər daha əski çağlardan – Zərdüştlükdən, şamanizmdən, qədim hind mətnlərindəki mistik təsəvvürlərdən, “Quran”dan gəlir. Çağdaş bədii-fəlsəfi-estetik təlimləri də bura əlavə etmək lazımdır. Amma biz mövzumuza uyğun olaraq, “Sehrbazlar dərəsi”ndəki sufi-dərviş simvolikasının bəzi ümumi cəhətlərini Dədə Ələsgər yaradıcılığı üzərindən göstərməyə çalışdıq.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. Əsərləri. “Şərq-Qərb, Bakı, 2004, 400 səh.
2. Kamal Abdulla. Nar çiçəkləri. Şeirlər, kiçik poemalar. Bakı, 2014, 152 səh.
3. Kamal Abdulla. Sehrbazlar dərəsi. Roman. Bakı, 2006, 224 səh.
4. Fəxrəddin Salim (Baxşəliyev). Milli yaddaş sistemində ürfan və təsəvvüf. Elm və təhsil, Bakı, 2010, 460 səh.
5. Kamal Abdulla. Kədərli seçmələr. Bakı, 2002, 548 səh.
6. Y.E.Qolosovker. Mifin məntiqi. Bakı, 2006, 316 səh.

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA DAĞ VƏTƏN VƏ YURD HAMİSİ KİMİ

# MOUNTAIN AS A GUARDIAN OF HOMELAND AND COUNTRY IN ASHIG ALASGAR CREATIVITY

# ГОРА КАК ПОКРОВИТЕЛЬ РОДИНЫ И ОЧАГА В ТВОРЧЕСТВЕ АШУГА АЛЕСКЕРА

**Məhəmməd MƏMMƏDOV**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*BDU, Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrası*
*mehemmedmemmedli@mail.ru*

**Summary**

One of the artists who created a school in the history of Azerbaijani ashig poetry is Ashig Alasgar. The magnificence of the art of Ashug Alasgar, the great creator of lyrical poetry, is due not only to master's outlook on life, worldview, knowledge of national-moral values and traditions of oral creativity, but also must be explained by his innate talent and his mastery. Ashug Alasgar, who always shared the joy and sorrow of the people, was an ashig connected to his homeland and country who had the ability to improvise poems about events and stories he saw.

Ashug Alasgar describes the natural beauties of his land with a peculiar subtlety in his poems "Mountains", "Plateau", "Shah Dagi (Mountain of King)" and etc. Describing mountains, plateaus and other natural objects in the language of high art, Ashug Alasgar sees these natural beauties as a symbol of the native land. The master artist sees the mountain as a living being with mystical and spiritual power, full of feelings and emotions. Ashug Alasgar perceives a mountain as a sacred source of power, a great beginning, a root, the basis of the lineage, a symbol of the motherland. In the Turkish mythological thought, the mountain symbolizing the homeland is also the guardian of the land, the protector of the country.

The second goshma untitled "Mountains" reflects the massacre of our notorious neighbors – Armenian Dashnaks in ashig's homeland and the fact that the innocent people were forced to leave their homes. The grief of the master artist, who unites man with the mountains, has a social essence. Ashug Alasgar who draws strength from the mountain and its spirit, rebukes himself for being separated from the majestic mountains of Sari Nar, Qisir Murguz, Shahdag, Kapaz, and Qoshqar, and for being homeless. He says in deep sorrow: "Let your slaves like Alasgar die, the mountains!" In general, in all the works of Ashug Alasgar, love for the homeland, to be a man worthy of the motherland, to protect it is underlined with red.

**Key words:** master, mountain, guardian, protector, praise

**Резюме**

В истории ашугской поэзии Азербайджана одним из мастеров, создавших свою школу, является Ашуг Алескер. Величие искусства выдающегося творца лирической поэзии Ашуга Алескера, с одной стороны, обусловлено взглядами мастера на жизнь, его мировоззрением, знанием традиций, на-ционально-духовных ценностей, а также устного-народного творчества народа, а с другой − его врожденным талантом и творческим мастерством. Ашуг Алескер, как народный ашуг, любящий свою родину и всегда разделявший его радости и печали, был ашугом истины, способным экспромтом создавать стихи о событиях и случаях, свидетелем которых он являлся.

Со свойственной ему особой нежностью Ашуг Алескер описывает природные красоты своей родины, своего края в стихотворениях «Горы», «Пастбище», «Шах гора» и др. Воспевающий языком высокого искусства горы, пастбища и др. объекты природы Ашуг Алескер видел эти природные красоты как символ родного края. Мастер рассматривает гору как обладающее мистической и духовной силой живое существо, сотканное из чувств и эмоций. Ашуг Алескер воспринимает гору как сакральный, священный источник силы, древнее начало, корень, основу рода, символ Родины. В тюркской мифологической мысли гора, символизирующая родину, также является защитником земли, защитником родного края.

Во второй гошме «Горы» нашла свое отражение резня, устроенная нашими пресловутыми соседями – армянскими дашнаками, на родине ашуга, и тот факт, как невинные люди были вынуждены покинуть свои дома. Печаль мастера, объединяющего человека и горы, имеет общественное значение. Ашуг, черпающий силы от гор и их духа, порицает себя за то, что он вынужденно оказался вдали от таких величественных гор, как Сары Нярь, Гысыр Мургуз, Шахдаг, Кяпаз, Гошкар, живет без отчизны, и с глубокой печалью говорит: «О горы, пусть твои рабы погибнут как Алескер!». В целом, во всех произведениях Ашуга Алескера красной нитью проходит любовь к родине и земле, желание быть достойным сыном родины, защищать ее.

**Ключевые слова:** Мастер, гора, покровитель, защитник, воспевание

Azərbaycan aşıq poeziyası tarixində məktəb yaratmış sənətkarlardan biri də Aşıq Ələsgərdir. Aşıq Ələsgərin əsərləri vətənpərvərlik, insan gözəlliyi, el-obaya bağlılıq, yüksək insani keyfiyyətləri özündə təcəssüm etdirən zəngin və mükəmməl xəzinədir. Aşiq sənəti və onun incəliklərinin kamil bilicisi olmuş Dədə Ələsgər ədəbiyyatımızda aşıq yaradıcılığının yeni mərhələsinin banisidir. Azərbaycan Respublikası Prezidentinin "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd

edilməsi haqqında" 2021-ci il 18 fevral tarixli sərəncamı ölkə rəhbərliyinin mədəni irsimizə, aşiq ədəbiyyatımıza göstərilən diqqət və qayğının təzahürüdür.

Lirik şeirin böyük yaradıcısı olan Aşıq Ələsgər sənətinin əzəməti bir tərəfdən ustad sənətkarın həyata baxışı, dünyagörüşü, milli-mənəvi dəyərlərə və şifahi yaradıcılıq ənənələrinə bələd olması ilə bağlıdırsa, digər tərəfdən onun fitri istedadı, sənətkarlıq məharəti ilə izah edilməlidir. Şübhəsiz, ki, təbiəti zəngin olan ulu Göyçə torpağı Aşıq Ələsgərin fitrətinin, istedadının parlaması və üzə çıxmasında əvəzsiz rol oynamışdır. Xalqın kədəri ilə kədərlənmiş, sevinci ilə sevinmiş Aşıq Ələsgər vətənə və torpağa bağlı bir el aşığı kimi gördüyü hadisə və əhvalatlar haqqında bədahətən şeir demək qabiliyyətinə malik olan haqq aşığı olmuşdur.

Aşıq Ələsgərin ilk mətbu əsərləri olan "Dağlar", "Bizim dağlar" şeirləri 1927-ci ildə "Yeni kənd" jurnalının 3-cü sayında dərc olunmuşdur (4, 35).

Aşıq Ələsgər elinin, yurdunun təbii gözəlliklərini "Dağlar", "Yaylaq", "Şah dağı" və s. şeirlərində özünəməxsus bir incəliklə vəsf edir. Dağ, yaylaq və s. təbiət obyektlərini yüksək sənət dili ilə tərənnüm edən Aşıq Ələsgər bu təbiət gözəlliklərini doğma yurdun simvolu kimi görür. Ustad sənətkar dağa mistik və mənəvi gücü olan, hiss və duyğulardan yoğrulmuş canlı bir varlıq kimi baxır. Aşıq Ələsgər dağı sakral güc qaynağı, ulu başlanğıc, ucalıq, ana yurdun rəmzi kimi qavrayır. Yurdu rəmzləndirən dağ türk mifoloji düşüncəsində həm də torpaq hamisi, yurdun qoruyucusudur.

Qədim türklərin təsəvvürlərində sakral dəyər qazanmış dağ VI əsrə aid Çin qaynaqlarında "yer tanrısı" (ruhu) adlandırılır (6, 87). Bu fakta istinad edən M.Seyidovun fikrincə, "müqəddəs başlanğıc sayılan dağ, eləcə də torpaq və xüsusilə onlarla bağlı Günəş bütün varlığın, həyatın, tanrıların, insanların, nemətlərin yaradıcısı, anası-atası kimi qəbul olunur. Torpaq başlıca olaraq ana başlanğıcı sayılmışdır" (9, 308).

Dağın ilkin stixiya kimi kultlaşması onun əski inamlarla, həm də səmavi inanc sistemləri ilə bağlılığını əks etdirir. L.P.Potapov əski türk təsəvvürü və inanc sistemində dağın əsas inam kimi yer almasını onun göydən, baş Tanrı tərəfindən göndərilmə inamı ilə əlaqələndirir (11, 149). Dağ türk inanc sistemində ilkin başlanğıc olaraq təsdiq edilmişdir. "Oğuz kağan" dastanında dağın ilkin başlanğıc kimi bilinməsi Gün, Ay, Ulduz, Göy, Dəniz kimi kosmoqonik yaradılış elementləri ilə birlikdə çıxış etməsində öz əksini tapır. İnsanın, cəmiyyətin və sosial normaların kosmogenezini izah edən etnogenetik

miflərin əsas məzmununa görə, ilkin əcdadların göy mənşəli olmaları həm də dağla bağlılıqlarından irəli gəlir.

Aşıq Ələsgər yaradıcılığında təbiət gözəlliklərinin təsviri və tərənnümü mühüm yer tutur. Ustad sənətkarın təbiəti insanın ilk məskəni – anası və beşiyi kimi mənalandırdığı şeirlərində doğma yurdun başı qarlı dağları, güllü-çiçəkli yaylaqları, bulaq və çeşmələri yüksək bədiiliklə canlandırılır. Dağı bilavasitə insanla vəhdətdə poetikləşdirən Dədə Ələsgər ona canlı bir varlıq kimi müraciət edir. Ana təbiətin gözəlliklərini böyük məhəbbətlə tərənnüm edən ustad sənətkarın yaradıcılığında dağ obrazı mühüm yer tutur. Bunun bir səbəbi aşığın dağların qoynunda göz açması, bütün həyatını ulu Göyçənin dağlarla əhatə olunmuş füsünkar bir yerində keçirməsi ilə bağlıdırsa, ikinci bir tərəfdən dağların zirvəsinə təmizlik, ucalıq, əzəmət rəmzi kimi baxması ilə izah olunmalıdır. Dağlar onun qəlbini sevindirmiş, ona şairlik istedadı bəxş etmişdir.

Aşıq Ələsgərin "Şah dağı" müxəmməsində Şah dağının sorağının aləmdə dastan olması, çeşmə və bulaqlarının abi-kövsər kimi axması, köksünün taləzara dönməsini vəsf edir. Haqqın cənnət kimi yaratdığı Şah dağının arxası Xəzər dənizinə, ayağı Kür çayına söykənir. Aşıq Ələsgər müxəmməsdə torpağın aşıq üçün cənnət kimi qoxumasını, haqqın xəlq elədiyi Ağrı dağının padşah, Şah dağının vəzir olmasını, Murov, Murğuz, Kəpəzin Şah dağına yamaq olmamasını böyük ustalıqla tərənnüm edir. İgidlər dara düşəndə başında piri olan Şah dağını ümid yeri kim yada salır, qaçaqlar onda sığınacaq tapır. Müxəmməsdə Dədə Ələsgər Şah dağına kor gəlsə şəfa tapması, dağın ətəyində hər saatda yüz çiçəyin açmasını təsvir etməklə, dağın şəfaverici funksiya daşımasını qabardır. Müəllif göstərir ki, Tanrı Şah dağı xoş yaratdığından hər kəs ona aşiqdir. Aşıq Ələsgər Şah dağını yayda seyrəngah, qışda isə maralların qışladığı sakral məkan kimi xarakterizə edir (3, 152-153).

Ustad sənətkarın dağların tərənnümünə həsr etdiyi "Dağlar" rədifli iki qoşmasından birində əzəmət, müqəddəslik, ucalıq simvolu olan vətən dağlarının ilin ayrı-ayrı fəsillərdə büründüyü görkəmi təsəvvür edilir. Əgər bahar-yaz fəsli dağların gül-çiçəyə bürünmüş çeşmə və bulaqlarından dirilik suyu axdığı bir vaxtı kimi tərənnüm olunursa, yayın gəlməsi ilə dağların görkəmi dəyişir, belə ki, yayın əvvəlində "xana dönən" bu sakral məkanın yayın sonunda "yetkin bostana bənzəməsi" vəsf olunur. Dədə Ələsgər payız gələndə dağların çiskin və dumana bürünərək qeyzə gəlməsi, şaqqıldayıb dolu tökməsi, qış fəslində isə dağların başdan-başa "ağ xalat geyinməsi"ni də ustalıqla tərənnüm edir:

Yayın əvvəlində dönürsən xana,
Son ayda bənzərsən yetkin bostana,
Payızın zəhməri qoyur virana,
Dağıdır üstündən cəlalı, dağlar! (2, 85)

Ustad sənətkarın bu qoşmasında dağlar yalnız öz füsünkar gözəlliyi ilə deyil, həm də əzəmətli, vüqarlı, ədalətli olmasına görə də seçilir. Belə ki, yazda yoxsul da, varlı da, şah da onun qoynuna qalxsalar da, dağlar onları bir-birindən fərqləndirmir, hamısına eyni gözlə baxmaqla ədalət prinsipini qoruyur. Qoşmada dağlar kişilik, əyilməzlik simvolu kimi nə sərdar, nə də şah qarşısında baş əyir, qürurunu sındırır:

... Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar.
...Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar (2, 85-86).

Aşıq Ələsgərin “Dağlar“ rədifli ikinci qoşması da vətən gözəlliklərinin tərənnümünə həsr edilsə də, bu şeirdə güclü nisgil, narahatlıq əhval-ruhiyyəsi vardır. İkinci “Dağlar“ qoşmasında bədnam qonşularımız – erməni daşnaklarının aşığın yaşadığı yurdda qırğın törətməsi, günahsız insanların öz yurdlarını tərk etməyə məcbur olması öz əksini tapır. Dədə Ələsgər bu qoşmasında elin dərdini ürək yanğısı, yanıqlı ifadələrlə söyləyə bilmişdir.

1963-cü və 1973-cü illərdə ustad sənətkarın irsinin toplanıb “Aşıq Ələsgər” adı ilə çap olunmuş nəşrlərinin “Qeydlər” hissəsində göstərilir ki, bu qoşmanın müxtəlif variantları mövcuddur. Həmin nəşrlərdə verilən variantın əslinə daha yaxın olduğu göstərilir. Qoşmanın deyilməsi tarixi haqqında da rəylər müxtəlifdir. Ələsgəri yaxından tanıyanlar iddia edirlər ki, qoşma 1905-ci ildə qaçaq Əmir Əhmədin məclisində deyilmişdir (1, 456; 2, 308).

1905-ci ildə Qafqazda, o cümlədən Azərbaycanda erməni fitnəkarlarının azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirməsi, qırğınlar törətməsi, günahsız insanları qırması, yurd-yuvalarını viran qoyması ustad sənətkarın narahatlığına və zəmanədən acı-acı şikayətlənməsinə səbəb olur. Dədə Ələsgər oğuzların əsas tapınaq, istək diləmə, etiraz və qarğış yeri, xilaskarı olan dağlara canlı varlıq kimi baxır, dağı danışdırmağa, hadisələrin səbəbini öyrənməyə çalışır.

Dağları antropomorflaşdıran və insanla bir vəhdətdə götürən ustad sənətkarın kədəri ictimai mahiyyət daşıyır. Qoyub getdiyi dağları yetim kimi boynu bükük, pərişan görəndə Dədə Ələsgər keçirdiyi xoş günləri xatırlayır:

Hanı mən gördüyüm qurğu busatlar?!
Dərdməndlər görsə, tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəmir atlar,
Niyə pərişandı halların, dağlar?

Hanı bu yaylaqda yaylayan ellər?!
Görəndə gözümdən car oldu sellər...
Seyr etmir köysündə türfə gözəllər.
Sançılmır buxağa güllərin, dağlar! ( 2, 87)

Ustad sənətkarı narahat edən, qəlbini ağrıdan cəhətlərdən biri də odur ki, igidlər məskəni, ərənlər yurdu və dayağı olan dağlar indi boş qalıb, orada igidlərin nərəsi eşidilmir, ağır məclislər qurulmur, şülən çəkilmir (2, 87). Müəllif yalnız özünü deyil, həm də bir vaxtlar bu yerlərdə at oynadan, qılınc çəkən, hətta ilhamını, gücünü dağlardan alan mərd igidləri də "xaçpərəstlə bund inqilabı" düşəndə duruş gətirə bilməyib getdiklərinə görə qınayır:

... Xaçpərəstlə düşdü bund inqilabı,
Onunçun bağlandı yolların, dağlar! (1, 83)

Aşıq Ələsgər yaradıcılığında dağlar yenilməzlik simvolu, ucalığın real göstəricisi kimi qabarıq fonda təsvir olunur. B.Ögəl yazır ki, oğuz türkləri daş-dağ ruhundan güc almalarına dərin inam bəsləmələrinə görə dağları bir torpaq, daş yığını kimi deyil, hisslər və duyğularla yoğrulmuş, insanlaşmış varlıq kimi düşünmüşlər (10, 424).

Oğuzların dağları, daşları, qayaları deyiləni başa düşən, səs-səda verən, xoş niyyətlə keçid verən, xəbər çatdıran, sığınaq verən, uğur arzulayan, bəd dualardan qoruyan bilmələri də dağ ruhuna yönəlmiş etiqaddan qaynaqlanır (1, 35). Oğuzlar üçün dağların ucalıq etalonuna çevrilməsi onun hami funksiyası ilə birbaşa bağlıdır.

Sakral sferaya daxil olan dağların canlı insan kimi danışa bilməsi, hərəkəti, dalaşqanlığı, insan kimi uğura və bədbəxtliyə düçar olması ana kitabımız "Dədə Qorqud" eposunda mifik səciyyədə verilir. Eposda oğuzların dağı danışdırmağa cəhd göstərməsi, yaxud həsrəti çəkilən üçün dağa çıxmaları mifik məna qatı ilə bağlıdır. Dastanın üçüncü boyunda Beyrəyin Banıçiçəyə "Beyrək gedəli Bam-bam dəpə başına çıqdınmı, qız?!" (8,74) deməsi də dağ-ayrılıq, dağ-intizar motivlərindən gəlmədir. Oğuzların dağdan və onun ruhundan güc almaları Dədə Qorqudun alqış kimi dediyi "Qarlı qara tağlarm yıqılmasun!" ifadəsində öz təsdiqini tapır (8, 34-109). Yurdun rəmzi işarəsi olan Dağ ruhunun dağı tərk etməsi – dağın yıxılmasıdır, dağın yıxılması isə dağ ruhunun öz dağ bədənindən qopmasıdır (7, 32-33).

Dağdan və onun ruhundan güc alan, dağı bir obraz kimi canlı bilən aşıq Sarı Nər, Qısır Murğuz, Şahdağ, Kəpəz, Qoşqar kimi əzəmətli dağları, Xaçbulaq, Həsənnənə, Həsənbaba yaylaqlarından ayrı düşdüyü, elsiz yaşadığı üçün özünü məzəmmət edir, dərin kədər içində:

“...Arsız aşıq elsiz niyə yaşadı?!
Ölsün Ələsgər tək qulların, dağlar!” - deyir (3, 38).

Ümumiyyətlə, Aşıq Ələsgərin bütün yaradıcılığında vətən və torpaq sevgisi, vətənə layiqli övlad olmaq, onu qorumaq arzusu qırmızı bir xətt kimi keçir.

Bu gün həmin torpaqlar erməni daşnaklarının tapdağı altındadır. Fikrimizcə, ölkə rəhbərliyi tərəfindən Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında sərəncamın verilməsi bizim həm də yaddaşlara köçən ulu Göyçəyə, Dədə Ələsgər yurduna qayıtmağımızı rəmzləndirir və bizdə həmin Oğuz torpaqlarına yenidən qayıtmaq ümidini artırır.

## QAYNAQLAR


1. Abdulla B. “Kitabi-Dədə Qorqud”da gerçəkliyin etnomifik qavrayışı (Dağ və dərə anlayışı) // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VIII kitab. Bakı: Səda, 1999, s. 35-49
2. Aşıq Ələsgər. / Tərtib edənləri Ə Axundov, M.H. Təhmasib. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1963, 487 s.
3. Aşıq Ələsgər. / Birinci kitab / Toplayanı İslam Ələsgərov; tərtib edənləri Ə Axundov, M.H. Təhmasib. Bakı: Elm, 1973. 326 s.
4. Aşıq Ələsgər / Tərtib edən, ön sözün və qeydlərin müəllifi: İslam Ələsgər. Bakı: Şərq- Qərb, 2004, 400 s.
5. Aşıq Ələsgər – 190: biblioqrafiya / tərt. ed.: S.Əsədova, G.Misirova; ixt. red. və burax. məsul K.Tahirov; red. M.Vəliyeva. Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2011, 149 s.
6. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.
7. Əlizadə R. Azərbaycan folklorunda təbiət kultları. Bakı: Nurlan, 2008, 176 s.
8. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər nəşriyyat, 2004, 376 s.
9. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
10. Ögel B. Türk mitolojisi / Kaynakları ve açıklamaları ile destanlar. I cilt. Ankara: Türk Tarih Kurumu Basımevi, 1989, 644 s.
11. Потапов Л.П. Культ гор на Алтае // ж. «Советская этнография», 1946, № 2, с. 145-160

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA ZAMAN VƏ MƏKAN FƏLSƏFİ KATEQORİYALARI

# PHILOSOPHICAL CATEGORIES OF TIME AND SPASE IN THE WORKS OF ASHIG ALASGAR

# ФИЛОСОФСКИЕ КАТЕГОРИИ ВРЕМЕНИ И ПРОСТРАНСТВА В ТВОРЧЕСТВЕ АШУГА АЛЕСКЕРА


**Nağdəli ZAMANOV**

*Tibb üzrə fəlsəfə doktoru, dosent*

*Azərbaycan Tibb Universiteti*

*n.zamanov61@gmail.com*



**Summary**

For the first time in the article, philosophical categories are studiedintheworkofashugs. The time category is most often used during the seasons and the chronolocigical order of events.The article describes the different regions of the Caucasus in poems. Poems of Ashug Alasgar also play an important role in the humanization of spase. Poems about black soil were also studied as a last place of human. In the works of Ashug Alasgar the philosophical categories of spase and time are given in unity with other dialectical laws.



**Key words:** Ashug Alasgar, poetry, philosophical categories, time, space



**Резюме**

Впервые в статье философские категории исследуются в творчестве ашугов. Категория времени чаще всего исползуется по сезонам и хронологическому порядку событий. В статье в стихах описаны разные регионы Кавказа. Стихи Ашуга Алескера также играют важную роль в гуманизации пространства. Стихи о черноземе также изучались как последнее место человека. В произведениях Ашуга Алескера философские категории пространства и времени даны в единстве с другими диалектическими законами.



**Ключевые слова:** Ашуг Алескер, поэзия, философские категории, время, пространства


Məqalədə zaman və məkan dialektik qoşa kateqoriyaları Aşıq Ələsgər yaradıcılığı əsasında tədqiq olunmuşdur ki, bu gələcəkdə fundamental tədqiqatlara girişdir. Belə ki, bu fəlsəfi kateqoriyaların dərkində aşıq poeziyasından yararlanmağın vaxtı çoxdan çatmışdır (10). Məkan anlayışı şeylərin yanaşı mövcudluğunu və bir-birindən aralı

olmasını, onların ölçüsünü, onların bir-birinə nisbətən yerləşməsini ifadə edir (1). Fəlsəfi təlimlərdə materiyanın varlıq formalarından olan məkan və zamanın özünəməxsus yeri vardır. Maddi proseslər nəinki məkanca müxtəlif yerlərdə, habelə biri digərindən tez və ya gec baş verir. Maddi proseslərin müəyyən ardıcıllıqla baş verməsi, proseslərin sürəklik etibarilə fərqlənməsi və bir-birindən fərqli fazalara və ya mərhələlərə malik olması – bütün bunlar o faktı ifadə edir ki, cisimlər zaman daxilində mövcuddur (1, 10). Beləliklə, zaman-hərəkətdə olan materiyanın mövcudluğunun real formasıdır. Bu gün hamının məkanın sonsuzluğunu qəbul etdiyi, müzakirə mövzusu olmadığı məlumdur. Qurani-Kərimin Əl Bəqərə surəsinin 115-ci ayəsində: "Şərq də, Qərb də hər ikisi Allahın mülküdür. Hər tərəfə üz tutsanız Allah oradadır. Allah mühitin hər yerini və hər şeyi biləndir" və həmin surənin 117-ci ayəsindəki: "O göyləri və yeri yaradandır və bir şeyin olmasına iradə edərsə "Var ol" deyər, o da var olar" – kəlmələri təsadüf deyildir. Aşıq Ələsgər yaradıcılığına keçməzdən öncə zaman və məkan kateqori-yalarının klassik aşıq poeziyasında yerini müəyyənləşdirmək qərarına gəldik. Məlum oldu ki, Tufarqanlı Aşıq Abbasda da:

Desələr, Abbas necə oldu,
Deyin, Tufarqana getdi (2, s. 26).

Bir namə yaz Tufarqana,
Daha səndən aman olmaz (2, s. 42).

Molla Cumada da doğulduqları Azərbaycan məkanları sadalanır:

Mahalım Göynükdür, şəhərim Şəki,
Layski kəndinin binasıyam mən (5, s. 75).

Görkəmli söz ustası Aşıq Abdulla Savalan dağını, Kür qırağını, Ərəş mahalının təsvirini verməklə Azərbaycan ərazisinin müəyyən hissəsini dilə gətirir:

Sinən bənzər Savalanın qarına,
Dəyişməm dünyanın külli varına (3, s. 48).

Ərəş mahalında, Kür qırağında
Yoxdur sənin kimi nazlı bəxtəvər (3, s. 48).

Uzağa getməyək, Şəmkirli Aşıq Hüseynin şeirlərində bu gün İran adı ilə dünyanın siyasi-inzibati xəritəsinə düşmüş Azərbaycanın qədim vilayətləri – Urmiya, Salmas, Marağa, İsfahan sadalanır. Ustadın digər misralarında Gürcüstandakı türk diyarları, Dağıstan, dəmir qapı Dərbənd kimi geniş ərazilər dilə gətirilərək bu ərazidə ozan-aşıq

sənətinin, türk və türkçüluyün mənasını özündə ehtiva edən sənətin daşıyıcıları olduqlarını göstərmişlər:

Şəmkirli Aşıq Hüseynəm,
Mən burada yer eylədim.
Urumi, Salmas, Marağa,
Isfahanı zar eylədim.
Gəzdim Çəçəni, Çərkəzi,
Nə qorxdum, nə ar eylədim.
Dəmir qapı, Dərbənd, Quba,
Gürcüstanı xar eylədim.
Tülküsən, geridə dolan,
Şiri-pələngəm, sənə nə? (9, s. 80)

Aşıq Ələsgər şeirlərinin məna tutumunun artırılması yolunda zaman-məkan elementlərindən geniş istifadə olunmuşdur:

Altı gündə dünya neçə don geydi,
Nə üstə əyləşdi, bərqərar oldu (4, s. 81).

XIX əsr Azərbaycan türklərinin bütövlükdə Qafqazda məskunlaşmasına, xalqımızın əzəli haqlarına barmaqarası baxanlara tutarlı cavab elə Ələsgər misralarındadır. "Mən dolandım bu Qafqazın elini" ifadəsi kifayət edir ki, Dədənin keçirdiyi toy mərasimlərinin arealı hamıya aydın olsun:

Yaxşı hörmətinən, təmiz adınan,
Mən dolandım bu Qafqazın elini.
Pirə ata dedim, cavana qardaş,
Ana-bacı bildim qızı, gəlini (4, s. 37).

Təkcə bu misralarla Aşıq Ələsgərin əxlaq dünyası açıl-maqla yanaşı, etik dəyərlərin üzə çıxması (yaxşı hörmət, təmiz ad), türklərin yaşayış məskəni olan Qafqazın tanıdılması, sənətkarın elə-obaya, cəmiyyətə sayğısı, sevgisi üzə çıxır.

Aşıq Ələsgər yaradıcılığında Azərbaycanın hər yeri doğmadır, bu məkanın hər guşəsi onun üçün əzizdir. Şeirlərdə bu məkanın guşələri tez-tez dəyişir, əvəzlənir. Gah başı qarlı dağlar olur, gah Allahın bizi sinəsində yaratdığı, bizi bəslədiyi, bizdən qorunmasını tələb etdiyi mahallar:

Yoxdu Göyçə mahalında
İsgəndərtək iyid gəzən;
Dost yolunda başın qoyub,
Düşmanının canın üzən;
Yoxsulların əlin tutan,

Ac doyuran, əysik düzən;
Bir düjün tüfəngin gördüm,
Aynalı, berdanqa, süzən..
Berdanqaya nəbələdəm,
Aynalı beş qan eləyib (4, s. 126).

Aşıq Ələsgər dilində məkan etik dəyərlər daşıyıcısı olan insanlarla birgədir. İnsanlarla məkanın dialektik vəhdətini şeir dilində yüksək bədii zövqlə, dərin bir sənətkarlıqla gələcək nəsillərə nişan verə bilmək məhz Dədə xüsusiyyətidir. Yuxarıdakı "Eləyib" rədifli müxəmməsdə "dostluq", "səxavət", "cəsarət" kimi etik dəyərləri özündə cəmləşdirən İsgəndər tək igidləri ilə Göyçə mahalı bir yerdə təqdim olunur.

Məlum olmuşdur ki, zaman kateqoriyası Aşıq Ələsgərin şeirlərində ən çox ilin fəsillərinin növbələşmə anlarında, eləcə də hadisələrdəki zaman ardıcıllığının təsvirində verilir. Aşıq Ələsgər poeziyasında fəsillər üzrə məkanda baş verən proseslərin zaman ardıcıllığı əyani misaldır. "Can desin" rədifli qoşmada zaman və məkan fəlsəfəsi təbiət təsvirləri əsasında yüksək bədii-estetik zövqlə verilmişdir. Qoşmanın birinci bəndində külli kainatın yaradılışından bəhs edilir:

Yaradan yaradıb külli-aləmi,
Arif olan bu fərmana can desin.
Yeddi yer, yeddi göy, yeddi də damu,
Səkkiz cənnəti rizvana can desin (4, s. 62).

Həmin qoşmanın üçüncü bəndındə zamanda baş verən ardıcıllığa uyğun məkandakı dəyişikliklər qabardılır. Aşıq Ələsgər dilində məkan fəlsəfi kateqoriyası digər dialektik qanunlarla vəhdət halında verilmişdir. Yəni "bütün dialektik qanunlar zaman daxilində baş verir və bu qanunların həyata keçməsi üçün məkana ehtiyac duyulur" müddəası özünə yer alır.

Bu kontekstdə forma və məzmunun dialektik vəhdəti ortaya qoyulur. Qarın ərimənsini istəməyən quzeyin zimistana can deməsi, eləcə də güneylərin günəşi sevməsi diqqət çəkir:

Novruzda bahara, deyərlər, bəli,
Gah kamala yetər, gah olar dəli,
Gün vuranda güneylərdən sel gəli,
Quzey istər zimistana can desin (4, s. 62).

Növbəti zamana uyğun məkanda canlıların – nəbatat (rişədən zoğun inkişafı) və heyvanatın (bülbüllərin gülüstana can deməsi) oyanışı baş verir:

Yazın bir ayında xoş keçsə illər,

Zoğ edib rişədən açılar güllər.
Qışın zəhmərini çəkən bülbüllər
Şeyda olsun, gülüstana can desin (4, s. 63).

Zamana uyğun olaraq məkandakı iqlim dəyişikliyi, yay fəsli aranda bürkünün düşməsi, insanların məkan üzrə yerdəyişməsi qabardılır:

Aranda qalanlar meyl eylər bağa,
İsti vurar, bürkü dolar otağa,
Bəzənib gözəllər çıxar yaylağa,
Mənzilgahlar ol mehmana can desin (4, s. 63).

Qoşmanın son bəndində XIX əsr Azərbaycan xalqının yaylaq və qışlaq məkanlarına uyğun yayda alaçıqlar qurulması, İslam-Türk ənənələrinə sadiq olaraq "qurbanlar kəsilməsi" kimi "məkan – adət-ənənələr" vəhdətini söyləyir:

Olar gözəllərin əhdi-peymanı,
Alaçıq qurulcaq kəsər qurbanı.
Ələsgər şəninə desin dastanı,
Fəxr eləsin, doğan ana can desin (4, s. 63).

Aşıq Abdullada (3) isə bu məkan – zaman ardıcıllığı aşağıdakı kimi görünür:

Yazı gəlsin, payız ayı işləsin,
Qışı gəlsin, o qoynumda qışlasın.
Nə taqsırım varsa, de bağışlasın
Mənəm onun günahkarı, de gəlsin (4, s. 63).

Zamanla bağlı şeirlər adətən ilin fəsillərinə aid olur ki, bu fəsillər insan ömrünün pillələrinə müncər edilir. Qurbanidə hər fəslə uyğun məkan dəyişiklikləri, insan orqanizmində və eləcə də xəyali dünyadakı dəyişikliklər öz əksini tapır:

Qurbani der: bahar olur gəlir yaz,
Göllərdə üzüşür ördəgilə qaz,
Sərin təvalladır, üzüm payəndaz
Yoxdur bundan qeyri bir mətah mənim (6, s. 19).

Aşıq Ələsgərin üz tutduğu məkanlar var! Bu məkanlar Qafqazlar, Türkiyə, İran, İraqdır. Aşıq bu məkanları insanları ilə, təbiəti ilə, özünəməxsus xüsusiyyətləri ilə tanıdır:

Dəli Alının vəsfini
Yazmışam dastana, deyin!
Afərin şəyirdlərim,
Gedəndə hər yana deyin!
Eşidib Göyçə mahalı,

Külli-İrəvana deyin!
Addayın Şahtaxtından,
Təbrizə, Tehrana deyin!
Üz tutun Alosmana,
Qarsa, Qağızmana deyin!
Təmkini, hər büsatı
Bənzər Pənah xana deyin!
Qorxmayın, utanmayın,
Mərd durun, mərdana deyin! (4, s. 126)

Məkan Aşıq Ələsgərin dilində igidlərin, gözəllərin tərifinin yayıldığı ərazilər kimi başa düşülür. Təkcə yuxarıdakı "Deyin" rədifli divanidə XIX əsr Azərbaycan dilinin hakim olduğu, anlaşıldığı, bu dildə aşıq sənətinin hansı coğrafiyalara yayılmasının şahidi oluruq. Çar üsuli – idarəsinə qarşı yönəlmiş qaçaq hərəkatının lideri Dəli Alının igidliyinin sorağının Göyçədən sonra hansı məkanlara yayıldığı ardıcıllıqla sadalanır. Bu şöhrət Göyçədən sonra İrəvana, oradan da Arazı keçərək Təbriz və Tehrana yol açır. Növbəti bənddə isə üzünü Alosmana (indiki Türkiyəyə) – Qərbə tərəf döndərir. Qarsı, Qağızmanı nişan verir. Pənahəli xanın qurduğu Qarabağı nəzərdə tutaraq cənuba işarə edir.

Məkan kimi dağlar Aşıq Ələsgər şeirində cansız elementləri (sellər, göllər) və bu məkanın öz canlıları – (sonalar, qazlar) – arasındakı dialektik vəhdəti yüksək ustalıqla tərənnüm edilmişdir:

Bir ay yarım nobahardan keçəndə,
Car olur köysündən sellərin, dağlar!
Çalxanır sonalar, çığrışır qazlar,
Zəmzəm zümzüməli göllərin, dağlar (4, s. 22).

Məkan, həm də son məkan anlamında başa düşülən qara torpaq klassik poeziyada kifayət qədər öz əksini tapmışdır. Dünyanın faniliyi, sonda bu qara torpağın nə qədər "pöhrə – cavan"ı udduğu Nizaminin dürr misralarında özünə yer alır:

Bağlandığın bu dünya yıxdı, xar etdi səni,
Uddu bu qara torpaq gör nə qədər pöhrəni (7, s. 199).

Ömər Xəyyama (8) görə insanın cismi sonda çamıra-palçığa dönür:

Dünən bir bazarda gördüm kuzəgər,
Çamırı təpiklə yoğurub əzər.
Çamır kuzəgərə dedi: "Yaxşı bax,
Mən də sənin kimi deyildim məgər?"

Aşıq Şəmşirdə isə torpağa qarışan cisimlər sonda bitkilər üçün gübrə rolunu oynayır:

Teymuri Ləng hanı, İsgəndər hanı?!
Nadir, Bəhram tutmadılar dünyanı.
Gübrə yaradıbsan fani insanı,
Dəhr üzündə gəştibanlar dağıldı (10).

Aşıq Ələsgərə görə "gül əndamlar" sonda ilana, qarışqaya qismət olur:

Hayıf cavanların gül əndamına
Mara, mura qismət oldu dünyada (4).

Aşıq Ələsgər poeziyasında məkan elementləri ilə dini-tarixi dəyərlərimiz geniş kütlələr arasında təbliğ olunur. "Bismillahir-Rəhmanir-Rəhim deyib" müstəzad təcnisdə İslamın ilkin formalaşma dövründə baş verən hadisələri, bu hadisələrdən çıxan əsl mənaları şüurlara yönəldir:

Aşıq gərək bu meydanda bir qala
Eşq ocağın bir ətəklə, bir qala
Ələsgərdi Xeybər kimi bir qala
Bacara bilməzsən, danışma əbəs
Dur yerində pəs (4, s. 105).

Zamana uyğun məkanda baş verən dəyişiklikləri insan üzərinə köçürməklə dərin poetik zövq yaratmaq Ələsgər dühasına xasdır. Aşıq Ələsgərin aşıqlıq fəaliyyətinin yayıldığı böyük məkan olan Qafqazın müxtəlif bölgələrinin adının çəkildiyi şeirlər araşdırılmışdır. "Göyçə mahalıdı mahalım mənim" ifadəsi bu mahalın qədim türk torpağı olmasının ən tutarlı cavabı kimi səslənir. Məkan coğrafi anlayış olmaqla yanaşı üzərindəki tarixi həqiqətləri əsrlərdən üzü bəri bu günümüzə qədər saxlayır. XIX əsr Azərbaycan məkanının təsviri Aşıq Ələsgər poeziyasında dəqiq təsvir olunur. Məkan fəlsəfi anlayışı həm də bu gün topoqrafik-coğrafi anlayışdır. "Ən böyük rəssam Allahın qüdrət əlidir" müddəası əksər şeirlərdə öz əksini tapır:

Saatda yüz çiçək açır,
Hər biri bir irəngə çalır
Belə məlum, qüdrətdəndi
Küpün, boyağın, Şah dağı! (4, s. 14)

Zaman və məkan dialektik kateqoriyalarına Aşıq Ələsgər yaradıcılığı əsasında aparılan bu kiçik səyahət düşünürük ki, gələcəkdə fundamental tədqiqatlara girişdir. Belə ki, bu fəlsəfi kateqoriyaların dərkində aşıq poeziyasından yararlanmağın vaxtı çoxdan çatmışdır.

# QAYNAQLAR


Quran (Tərcümə edənlər Z.Bünyadov, Y.Məmmədəliyev Bakı: Azərnəşr, 1982)

1. Ağayar Şükürov. Fəlsəfə. Bakı, Çıraq, 2008, 568 səh.
2. Aşıq Abbas. Aşıqlar. Respublika Xalq Yaradıcılıq Evi., Bakı, 1957, s. 48-55
3. Aşıq Abdulla. Aşıqlar. Respublika Xalq Yaradıcılıq Evi., Bakı, 1957, s. 48-55
4. Aşıq Ələsgər. Bakı, Elm və təhsil, 2012, 280 səh.
5. Molla Cuma. Aşıqlar. Respublika Xalq Yaradıcılıq Evi., Bakı, 1957, s. 17-23
6. Qurbani. Aşıqlar. Respublika Xalq Yaradıcılıq Evi., Bakı, 1957, s. 17-23
7. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, Lider nəşriyyat, 2004, 336 səh.
8. Ömər Xəyyam. Rübailər. Əli Polad. Bakı, 2008, 376 səh. "Səda" nəşriyyatı
9. Şəmkirli Aşıq Hüseyn. Aşıqlar. Respublika Xalq Yaradıcılıq Evi. Bakı, 1957, s. 43
10. Zamanov Nağdəli. Aşıq Şəmşir yaradıcılığında fəlsəfi fikirlər. Bakı, Elm və təhsil, 2018, 512 səh.

# ƏLƏSGƏRƏM, YANDIM EŞQ ATAŞINDA...
# ALESKER, I WAS BURNED IN THE FIRE OF LOVE...
# АЛЕСКЕР, Я СГОРЕЛ В ОГНЕ ЛЮБВИ...

**Namiq HADİ**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*
*axmedoglu@gmail.com*

**Summary**

This article is about love to God. The place that Ashug Alasgar lived had an atribitual name. The church that was known in “Dada-Gorgud” book was sufis' temple in reality. The Goycha Lake was their heart. It was the land of fire-worshipers. It was the temple of mankind who reached enlightement.

Ashug Alasgar was the singer who affected much the people of taste. His words touching the souls had no end.

**Key words:** Quran, enlightement of justice, ashuq's saz, divine love

**Резюме**

В этой главе повествует о любви Аллаху. У места где живет Ашуг Алескер есть талисман названия. Озеро Гейча которое раскрывается как цветок-сердце суфистов. Родина тех, кто поклоняются огню. Мечеть духа человека, верующего в огонь, который достиг просветления. Ашуг Алескер певец, который заставляет людей со вкусом слушать произведения. Слова котрые на струнах Саза питают душу, не заканчиваются.

**Ключевые слова:** Коран, просветление справедливости, саз ашуга, божья любовь

Aşıq Ələsgərin haqq aşığı olması çoxdan bəllidir. Bu, onun hikmət sahibi olmasına, səmavi dinləri mükəmməl bilməsinə və elminə görədir. Təəsüf ki, onun haqq aşiqi olmasını qoşmalarından yetərincə dərk edə bilməmişik. Çox zaman onun qoşmalarını da gözəlləri vəsf edərək sevməsi kimi anlamışıq. Bəs bu düşüncə hansı məntiqə sığar ki, böyük hikmətlər və elm sahibi olandan sonra Dədə Ələsgər adı ilə aləmdə məşhur olan o pirani guya toy-mağarda qız-gəlinlərə tərif yazmaqla gün keçirmişdir. Məgər “Gözəllər” qoşması ilə Dədə Ələsgər:

“Camalız şöləsi nuri-təcəlla, Görsə şəfa tapar xəstə, gözəllər” (2, səh. 110) – deyərkən Qurandakı Günəş camallı haqqı və Ay niqablı ayələrdə də ədaləti görüb sevə bilməzmiş? Yaxud: “Güləndam” qoşmasında “Səni gördüm, əl götürdüm dünyadan” – deyərkən dünyəvi istəklərdən qurtulub Haqqa doğru yönəlmək istəyən gük bədənini və

“Mənim gözüm qoynundakı nardadı” – deyərkən də qəlbindəki nəfsi yandıran eşq odunu görüb sevə bilməzmiş?!

Quranda Yusifin köynəyi əhvalatı kimi xatırladılan əhvalat “Kitabi-Dədə Qorqud” boylarından olan “Bamsı Beyrək” boyunda belə təsvir edilir: “Naib paralandı, şəhid oldu, gərdək (tövbənin evi) görünməz olmuş”. Qurandakı ən gözəl surə olan Yusif surəsinin hikmətini bir qoşmaya sığışdırmağı bacaran Dədə Ələsgərin elminə heyran qalmamaq olmur. Onun şeirlərinin də surət gözəli Züleyxası bizi o qədər məftun etdi ki, onların məna gözəli Yusifini görməyimizi çətinləşdirdi. Ağıl və hisslərlə qavranılmayan qeyb aləmində, Ələstdə ilahi mərifət meyi içdiyi üçündür ki: “Bəli” deyən “Sübhana baş endirir” (2, səh. 295) – söyləmişdir.

İndi də:

“İstər dara çəkdir, istər qul eylə,
Qoymuşam əmrinə qol, incimərəm.
...Qazdır məzarımı çeşmə başında, (yəni, mərifətə yetişdiyim məqamda)
Sal sinəm üstündən yol, incimərəm” (2, səh. 97) (məndən keçən iman yolun görünsün deyə).

Sevgili Peyğəmbərimizdən hədis gəlmişdir ki, “Ümmətim üçün elə bir zaman gələcəkdir ki, vücudlarda libaslar köhnəldiyi kimi, qəlblərdə Quran köhnələcəkdir. Qəlblərində qorxusuz bir tamahkarlıq olacaqdır. Saleh əməl işləyən “bu məndən qəbul olunar, pis əməl işlədikdə də əfv olunaram deyəcəkdir”. Quran hikməti xatırladır: “Allah qullarından namazlarında yalnız tövbə qəbul edər” (Tövbə surəsi, ayə 104). Bu məqamda Aşıq Qurbanidən bir-iki misra söyləməklə onu yad etməsək, ruhu bizdən inciməzmi? “Nazlana, nazlana gələn Salatın” söylədikdə sevdiyi əsl namazının vaxtının gəlib çatdığını görün necə ustalıqla təsvir etmişdir. Salat-namaz deməkdir.

Qurbani der heç kəs yarın öyməsin,
Düymələ yaxanın çarpaz düyməsin.

Yəni bunlar namazlarından qafil olan və tövbəsini sındıran zaman əhlidirlər ki, sənin gözəlliyini görməsinlər.

Aşıq Ələsgərin aşağıdakı misraları da heyrətamizdir:

Nurun hörmətindən əhli-diləm mən! (2, səh. 223)
Nuri-Əhməd yaranandan danışaq (2, səh. 225).

“Əgər sən olmasaydın, aləmləri xəlq etməzdim” məşhur hədisi ilə Tanrının Həzrəti-Məhəmmədə (s.a.s.) xitabən dediyi bu kəlam kainat yaranmazdan öncə Əhmədin nurunun xəlq olunmasına işarədir. Bütün kainat həmin nurdan yaranır və Məhəmmədin (s.a.s.) vücudu pak ilahi

eşq ilə yaranıb, Tanrının kamalı burada gerçəkləşib. Yeri gəlmişkən, "Kitabi-Dədə Qorqud"un müqəddiməsində yazılmış Rəsul-Əleyhissəlam zamanına yaxın Dədə Qorqudun gəlişini, Peyəmbərimizin dünyaya gəldiyi VII əsrlə əlaqələndiriblər. Və bu kitabdakı hadisələrin də VII əsrdə baş verdiyini zənn edərək öz halal tariximizin gerçək simasını görə bilmədiklərindən, bilərəkdən, ya bilməyərəkdən uydurma ssenarilər qurublar. Onlara ən tutarlı cavabı elə "Lovlək" ilə başlayan Tanrı kəlamı bildirir. Axı insan tək bioloji varlıqdan ibarət deyildir. İnsanın qəlbi, hiss, duyğular aləmi vardır. "Sizin qəlbinizdə sonsuz mənəvi aləmlər yerləşdirilmişdir" deyə bildirmişdir Həzrəti Əli. Peyğəmbərə Rəsulullah deyilibdir, digər elçilərə isə Rəsul-Əleyhissəlam deyilib. Quranın "Mursəlat" surəsi ilə bir-birinin ar-dınca göndərilən rəsullar söz yaranmamışdan əvvəl ağıllara işıqlı kəlmə nöqtələri kimi gələrək xəyali varlıqların sahibi olan göyləri qiyamət qopacağı xəbəri ilə qorxutsa da, onlar iman gətirməmişlər. Dədə Qorqudu bir məhəbbətnamə adlandırsaq – xəta etmərik. Bu məhəbbətin zamanı əbədidir. Onun doğum tarixi olmur. Çünki haqqın məhəbbəti nə əvvəli, nə də axırı olmayan dövri-zaman kimi sonsuzdur. Qeybdən dürlü xəbər söyləyən və bəraət, yəni bağışlanma hökmü ilə Dədə Qorqudun Rəsul Əleyhissəlam zamanına yaxın gəlişi də qiyamətin qopacağı təqdirdə Tanrının Oğuza məhəbbətinin zamanının yetişdiyindən xəbər verir. Müqəddəs kitabımız olan Qurani-Şərifdə qiyamətin qopacağı xəbəri gerçəkləşmişdir. "Şəcərətil-yəqin harda bitibdir?" (2, səh. 223) sualına Qurani-Kərimdə belə dəqiq cavab bildirilməyib. Ancaq Dədə Qorqud kitabında Buğac adlandırılan və insani həqiqətlərin cəm olduğu kamil insana bənzədilən bu ağac varlığın əvvəlinə aid edilmişdir.

**Divanisində**

Ölməyincə bu sevdadan,
Çətin dönəm, usanam.
Həqiqətdən dərs almışam,
Təriqətdən söz qanam;
Şahi-Mərdan sayəsində
Elm içində ümmanan;
Dəryaların qaydasıdır,
Ümmana baş endirir (2, səh. 295).

söyləyən Dədə Ələsgəri görəsən Quran hikmətini öyrədən Dədə Qorquddan nə ayırır?

Anlamaz nadan eşitsə, deyər hədyandı bu söz,
Əhli-ürfan məclisində ləlü-mərcandı bu söz.

Müxtəsəri, türkü-zəban, bil dəyirmandı bu söz (2, səh. 296).

Əlbəttə ki, haqqın qələm yazısında sözünün hökmü Nun! deyə nida eylər hər zaman. Aşıq Ələsgərin əlif, lam rəmzi yozumlarını Nəsiminin əlif-lamları ilə müqayisə edərkən də onların arasında heç bir fikir ayrılığına rast gəlmədim. Haqq aşiqi Dədə Ələsgərin çox məşhur

“Çərşənbə günündə çeşmə başında,
Gözüm bir alagöz xanıma düşdü” (2, səh. 93)

– misraları ilə başlayan qoşması haqqında əsl həqiqətləri bəyan etməklə də o piraninin ruhunu şad etmiş olaram, İnşallah. Bu qoşmada söhbət su çərşənbəsindən gedir. Və insan təbiətinin də təzələndiyi bu gündə qızlar çeşmə başında öz bəxtlərini suda sınayarmışlar. “Hər elmdən hali olan” Dədə Ələsgər haqqın mərifətinin gerçəkləşdiyi qəlb çevrəsində, bəsirət gözü ilə sudan yaradılışda bəxtini sınayan öz tövbəsini görmüş və onun gözəlliyinə vurulmuşdur. Tövbə pis əxlaqdan ürəyin, nəfsin və bədənin haqqa doğru yönəlmə istəyidir. Haqqın ad və sifətlərinin göründüyü nişan aləmində insanın torpaq təbiətinin bəxti gətirmədiyindən hər nəfəsdə tövbəsini sındırır.

“Dedi nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım, yanıma düşdü” (2, səh. 93).

“Yığılar məxluqat, qurular məşhər,
Boyunlarda kəfən, əllərdə dəftər,
Onda vay halına, yazıq Ələsgər,
Özün getdin, sözün qaldı dünyada!” (2, səh. 158)

Çünki insanları yoxdan yaradan onları danışdıqları sözdən dirildərək qiyamətə gətirəcəkdir. Qiyamət – Tanrı hökmlərini yerinə yetirmək üçün qəbirlərdən ayağa qalxmağa deyiblər. “O gün onları (söz sahiblərini) buraxarıq. Nuh tufanı dalğaları kimi (həddindən çox olduqlarına görə) Sur çalınan kimi onların hamısını bir yerə cəm edərik”. “O kəsləri ki, onların dünyada zəhmətləri hədər getmişdir. Halbuki onlar yaxşı işlər gördüklərini zənn edirdilər. O gün vay halına yalan sayanların. Məgər biz yeri döşəyib məskən etmədikmi, həm dirilərə, həm də ölülərə” (Kəhf, 99, 104). “Kitabi-Dədə Qorqud”da qəza yazısında gördülər ki, dedilər: “Vay, sənin əlindən nə yer üzündə dirimiz, nə də yer altında ölümüz qurtulurmuş, Qazan bəy”.

Aşıq Ələsgərin indiyədək açılmamış müəmmalarından olan “Sübhün çağı bir hikmətə tuş oldum” bağlamasının da açmasını və şərhini verməyi vacib bildim. Quran ayəsidir ki: “Sizdən sonra bir qövm (zaman əhli) gəldi ki onlar namazı zay etdilər”.

“Sübhün çağı bir hikmətə tuş oldum” (2, səh. 228) bağlamasını öyrənərkən, sirri-xuda olan bir çox Quran hikmətləri mənim üçün aydınlaşdı.

Sübhün çağı bir hikmətə tuş oldum,
Desəm inanmazlar, sirri-sübhandı.
Yeddi qat qaladı, daşdız-kərpicsiz,
O qalada bir əjdaha pünhandı. (Aşıq Ələsgər) (2, səh. 228)

Bu günə kimi bu bağlamanın guya ilbiz haqqında söylənildiyi fikri təsdiq kimi bildirilirdi. Bu fikrin heç bir elmi və məntiqi əsası olmadığı üçün qəbul edilə də bilməz. Çünki ilbiz nə “sirri-sübhandı”, nə də “onda bir əjdaha pünhandı”.

Qəlb nurunda bir hikmətə tuş oldum,
Amənna-səddəqna, sirri-sübhandı.
Fatihə baş qala, daşsız, kərpicsiz,
Yoxluq əjdahası onda pünhandı (Namiq Hadi).

Bu müəmma yoxdan var olanın yenə yox olacağı sirrindən xəbər verir ki, Quranda Fatihə və Kəhf surələri ilə öz təsdiqini tapıbdır. Həmin surələrdə xatırladılır: İnsanın əqli çaşıb və yolunu azaraq haqdan uzaqlaşıbdır. Nəfsi istəklərinə aldanaraq zülmətə və yoxluğa düçar olubdur. Yoxluq əjdaha tək onu udacaqdır.

Nə qədər baxıram, yoxdu gözləri,
İki buynuzu var, bəhri-şeşpəri,
Nə əl-ayağı var, nə balu pəri,
Seyr eləyir, nə gərdişi-dövrandı?! (Aşıq Ələsgər) (2, səh. 228)

Əbədi olan məna aləmindən varlıq (surət) aləminə endirilən insan qəza və qədərlə üzləşmişdir. Beytül-müqəddəs ilə Beytül-Həram arasında, yəni iki qiblə arasında çaşıb qalmışdır. Fatihə surəsinin 4 və 6-cı ayələri ilə Haqq-hesab gününün sahibindən doğru yola yönəltməsi istənildiyi halda Maun surəsinin də həmin ayələri ilə qorxudulurlar ki, “Vay halına o namaz qılanların ki, onlar (namazlarında) riyakarlıq edərlər”.

Zülqədərin eyni, yoxdu gözləri,
Ümidlə qorxudu bəhri-şeşpəri,
İki qibləsi var, itib minbəri,
Seyr eləyir, daireyi dövrandı (Namiq Hadi).

Bu yoxluq dairəsindən çıxmaq üçün insan daima əqli ilə nəfsi arasında səy etməlidir ki, bu da Quranın Fatihə surəsində olan yeddi ayə ilə xatırladılır. Bu yeddi ayə haqqa yaxınlaşmaq istəyəni bəlalardan qoruyan yeddi qat söz qalasıdır. Hədislərinin birində Peyğəmbərimiz xatırladır ki, “Fatihə” ölümdən başqa bütün dərdlərin

dərmanıdır. İnsanın özünü də qoruyan yeddi qatı vardır ("Elə söz deyərəm ki, yeddi qatından keçər" məsəlini yada saldım).

Nə zaman ki, sərin çıxardır dərdən,
Yeddi qat qalanı tərpədir yerdən,
Qaldım aciz, zəlil, heyran, sərgərdən,
Bilmədim çinidi, ya üstüxandı? ( Aşıq Ələsgər) (2, səh. 228)

Quranın Kəhf surəsində bildirilir ki, zülmətdə qalan ruhlar zülmət qərinəsinin gözü Zülqərneynə yalvarırlar ki, onları düşdükləri yoxluqdan xilas etsin. Zülmətdə bu gözün eynəyə ehtiyacı vardır və buynuzları eynəyidir. Buynuz sözünün bir mənası da nazil edilmiş ətir deməkdir (Məhəbbətin ətiri gəlir deyimini yada salın). Buna münasib insanda da günəş şüasını toplayan və görüntünü yaradan gözün buynuz qişası vardır. Təsəvvüfdə bu dünya İsgəndərin güzgüsüdür ki, zülmətdə qaldığını dərk edən insan özünü bu güzgüdə müşahidə edir. Aləm böyük insan, insan kiçik aləmdir.

Hökm onundur, sərin çıxardır dərdən,
Haqqa gedən yolu bağlayır yerdən,
Qəzadan, bəladan oldum sərgərdən,
Bilmədim çinidi ya üstüxandı? (Namiq Hadi)

Zülfünün ətri İslamın ətri kimi gah insanı mərifət əhli edən Beytül-Həramda çini qabda ilahi meylə ibadətə meyl etdirir, gah da insanı həqiqət əhli edən beytül-müqəddəsdə sümük yeyən ənqa quşu ilə yoxluğa səsləyir.

Dindirrəm dillənmir, yoxdu zəbanı,
Ona tərtib verib kərəmin kanı,
Özü dincdi, heç incitmir insanı,
Heyf, ismi doğrulara düşməndı. (Aşıq Ələsgər) (2, səh. 228)

Yaradılışın düsturu belədir ki, həyat iki yoxluq arasında olan varlıq aləmidir. Yəni yoxdan var olur, vardan isə yox olur. İnsan daima həyat və ölüm arasında çarpışmadadır, insan yoxun varlığına inanandır və həyata aldanandır. Mənəvi bir aləmin gerçək olduğunu qəbul etməkdə haqdan uzaq düşən ağıl çətinlik çəkir.

Ayrılıq yaradır, yoxdu zəbanı,
Onu Haqq edibdi kərəmin kanı,
Pərdədarlığı incitmir insanı,
Dəli ismi doğrulara düşməndı (Namiq Hadi).

O, insanın yazısını gözünün torlu qişasındakı pərdədə yoxdan yaradandır. Yaxşı ki, haqq ilə batil arasında tərəzi olan əqlin bu

gözündəki həya pərdəsi çox sirrləri gizlədə bilir. Aradan pərdə götürüləndə insanların bütün naqislikləri üzə çıxacaq.

Səhərdən səhərə edir seyranı,
Götürür qalanı, gəzir hər yanı.
Aşıq Ələsgərəm, bu müəmmanı
Hər kəs tapsa, canım ona qurbandı (Aşıq Ələsgər) (2, səh. 228).

Həyat ziddiyyətli istəklərlə doludur. Onlar ağılı hər nəfəsdə gah günahlarının bağışlanması üçün namaz qılaraq tövbə etməyə çağırır, gah da tövbəsini sındırmağa sövq edərək, özünün məhəbbət cazibəsində saxlayır.

Bütləri sındırdı, edib seyranı,
Məhəbbətin hökmü gəzir hər yanı,
Aşıq Ələsgərdən bu müəmmanı
Tapan Hadi özü ona qurbandı (Namiq Hadi).

Quran anladır ki, insanlar istər mömün olsunlar, istər kafər, haqqın ədaləti kimi məhəbbəti də onların arasında hökm edər. Bu müəmma nəfsi istəklərdən uzaqlaşdırılaraq Haqqa yönəldilən bir çağırışdır. Fikirlərimi yazdığım təcnis-gəraylı ilə bitirirəm:

Gah yalandan, gah düzünə,
Tərif etmə üzə məni,
Varaqlanıb köhnəlmişəm,
Üzdə məni, üzdə məni.

Qəlb aynasıydım, elədi,
İnanmasan da, elədi.
Qəlbi göz aşkar elədi,
Üz də məni, üz də məni.

Mən kəlamam abcəd ilən,
Hadi, netdi ab cəd ilən?
Tərs oxurlar abcəd ilən
Üzdə məni, üzdə məni.

## QAYNAQLAR

1. Quranı-Kərim. “Çıraq” nəşriyyatı. Bakı, 2005
2. Aşıq Ələsgərin şeirləri. Birinci kitab. Elm nəşriyyatı. Bakı, 1973

# AMA VE ÜMMİ BİR ÂŞIK: KUL ERTAŞ

# AMA AND UMMI ASHIK: KUL ERTASH

# АМА И УММИ АШУК: КУЛ ЭРТАШ

**Nedim BAKIRCI**
*Prof. Dr.*
*Niğde Ömer Halisdemir Üniversitesi*
*Fen Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Bölümü*
*nbakirci@ohu.edu.tr*

**Summary**

The ashug art is as old as the period the Turks took the stage of history. This rooted tradition has been reached to nowadays by the people named as "kam", "baksi", "ozan". The ashug art has trained many representatives for centuries. These representatives, whose artistic direction is very strong, passed the tradition from generation to generation and at the same time many students have been trained within the framework of master-apprentice relations.

Ashugs are the most important representatives of this tradition whether in the master-apprentice relations or self-training. In the 21st century one of the representatives of the ashug tradition is Abdulmenav Ertash, who also was known as the blind and illiterate Gul Ertash.

Gul Ertash lost the sight of one of his eyes in the childhood and the other in his youth, training himself and deriving advantage from various ashugs mastered the ashug art. Ashug Veysel was the most influential person in ashug's life and activity. Losing the sight of his eyes because of the various reasons and difficulties in his life brought him together with Veysel. He introduced himself to the public with Ashug Veysel. It is also possible to see this influence in his poems.

Gul Ertash has told more than a hundred poems till nowadays. The blind and illiterate Gul Ertash immortalized his poems by reading them to his educated relatives. Telling his poems in eight and eleven syllables the ashug mentioned some themes such as love, complaint from fate, world order, nature, social and national issues, heroism, love for native land, Turkishness and so on.

**Key words:** ashug art, ashug, blind, illiterate, Abdulmenav Ertash, Gul Ertash, poem

**Резюме**

Ашугское искусство имеет древние корни, как и сами тюрки, создавшие это уникальное искусство. Эта глубоко укоренившаяся традиция дошла до наших дней благодаря творчеству кам, бакшы, озан и ашугов.

Ашугское искусство ашугов на протяжении веков воспитало множество представителей. Эти представители, обладающие очень сильной художественной направленностью, передавали традицию из поколения

в поколение, и в то же время воспитали много учеников в рамках отношений наставник-ученик.

Ашуги являются самыми важными представителями этой традиции, в аспекте отношений наставник-ученик, суфийской направленности или же самообразования. Одним из представителей ашугской традиции XXI века является Абдулменав Эрташ, известный также как слепой и необразованный Кул Эрташ.

Кул Эрташ, потерявший один глаз в детстве и один глаз в юности, овладел искусством ашуга, совершенствуя себя и под воздействием различных ашугов в их кругу. Ашуг Вейсель - самая влиятельная личность в жизни и творчестве Ашуга. Потеря глаза по разным причинам и множество трудностей, которые он пережил на протяжении жизни, сблизили ашуга с Ашугом Вейсалем. Он был известен, также как и Ашуг Вейсель. Влияние Ашуг Вейсела на ашуга также можно увидеть в его стихах.

На сегодняшний день Кул Эрташ написал более ста стихотворений. Слепой и необразованный Кул Эрташ увековечил свои стихи, диктуя их грамотным родственникам. Ашуг, который сочинял стихи в 8 и 11 слогов, затрагивал такие темы, как любовь, жалобы на судьбу, бренность, природа, социальные проблемы, национальные проблемы, смежные вопросы, патриотизм и тюркизм.

**Ключевые слова**: ашугское искусство, ашуг, слепой, необразованный, Абдулменав Эрташ, Кул Эрташ, поэзия

**Giriş.** Âşıklık geleneği; yüzyılların deneyimlerinden süzülerek biçimlenmiş, şiiri, müziği ve hikâye anlatımını içeren çok yönlü bir sanattır. Kendine özgü geleneği ve icrası olan âşıklık geleneğinin en önemli niteliği, döneminin yaşayış ve hayata bakış tarzını, etik ve estetik değerlerini yansıtarak geniş halk kitlelerine hitap edebilmesidir (https://aregem.ktb.gov.tr/TR-202290/asiklik-gelenegi.html).

Âşıklık geleneğinin başlangıcı Türklerin tarih sahnesine çıktığı, Türklüğün başlangıcı olan dönemlerde var olan ozan-baksı geleneğine dayanır. İslamiyet'ten sonra tasavvufî hareketlerin etkisiyle ozan-baksı geleneği XV ve XVI. yüzyıllarda Anadolu'da âşıklık geleneğine dönüşmüştür (Özarslan, 2001: 55). Türkistan'da doğan, gelişen ve fetihlerle Anadolu'ya ve Balkanlara kadar ulaşan âşıklık geleneği Anadolu'nun hemen hemen her yerinde varlığını sürdürüp günümüze kadar gelmiştir.

Âşık tarzı şiir geleneği, ata yurdu Türkistan'dan IV. yüzyıldan başlayan ve XIV. yüzyıla kadar fasılalarla devam eden göç macerasında Türk nüfuz ve nüfusunun bulunduğu yerlere taşınmıştır. Anadolu'da âşık geleneğinin canlı olduğu yerler arasında Erzurum, Kars, İstanbul, Sivas, Tokat, Erzincan, Artvin, Bayburt, Yozgat, Kahramanmaraş, Kon-

ya, Kayseri, Niğde, Adana, Mersin gibi illeri sayabiliriz. Bu illerin bulunduğu bölgelerde sayısız âşıklar yetişmiştir (Bakırcı, 2017: 17).

Âşıklık Geleneği, 2009 yılı itibariyle UNESCO İnsanlığın Somut Olmayan Kültürel Mirası Temsili Listesine alınarak âşıklarımız "yaşayan insan hazinesi" olarak kabul edilmişlerdir.

Âşıklarımız genellikle bir usta âşığın yanında yetişirler. Ondan hem usta deyişlerini hem de sanatın icrasına ilişkin yol ve yöntemleri öğrenirler. Âşık meclislerinde, kahvelerde bu ustaların sanatlarını icra ediş biçimlerini yeterince öğrenip kavradıktan sonra ustalaşan âşıklar, ustalarından el (icazet) alarak yollarına devam ederler. Âşıklıkta ustalaşan âşıklar da kendilerine çırak alıp yetiştirirler. Böylece âşıklık geleneği bu şekilde varlığını sürdürmeye devam eder.

Âşıklar usta çırak ilişkisinin dışında rüyasında pirin sunduğu "aşk badesini" içmekle ve "sevgilisinin hayalini" görmekle de âşıklık gücünü kazandıklarına inanılmaktadır. Rüyada genellikle âşık adayının karşısına bir sevgili veya saz çıkmaktadır. Rüyalarda aksakallı bir derviş âşıklara bazen bir bazen üç dolu bardak sunar. Böylece sıradan bir kişi bu rüyayla birlikte sanatçı kişilik kazanmış olur.

Âşıklar, ister usta-çırak ilişkisiyle ister bade içerek yetişmiş olsun bu geleneğin en önemli temsilcileridir. Âşıklık geleneğinin 21. yüzyıldaki temsilcilerinden bir de ama (*Gözleri görmeye*) ve ümmi (*Okur-yazar olmayan*) bir âşık olan Abdulmenav Ertaş, namı diğer Kul Ertaş'tır.

## Kul Ertaş'ın Hayatı, Sanatı, Şiirleri

### 1. Hayatı

Asıl adı Abdulmenav Ertaş olan âşığımız 1968 yılında Van'ın Çatak ilçesinin Albucak Köyünde doğmuştur. Babasının adı Şemo (çevresinde Abdullah olarak bilinir), annesinin adı Hohi'dir. Abdulmenav, 8 çocuklu ailenin en küçüğüdür. Salih, Fatma, Resul, Yusuf, İzzettin, Kıymet ve İhsan adlarında yedi kardeşi vardır. Dedesi Ahmet, Irak'tan Van'a göç etmiştir. Çatak ilçesine yerleşmişlerdir. Dede Ahmet medrese tahsili gördüğü için hocalık yapmaktadır. Çevresinde Hocaların Ahmet diye tanınmıştır. Bundan dolayı Ertaş'ın sülalesine de Hocalar denilmektedir.

6 yaşında bayram şekeri toplamak için kendi kendine torba dikerken eli kayar. Elindeki iğne gözüne batarak sağ gözü görmez olur. Babası doktora götürüp tedavi ettirir. Daha sonra dedesi de torunun gözünü daha iyi tedavi etsin diye bir hekim bulur, ancak bu tedavi onun gözünün tamamen kör olmasını sebep olur.

Abdulmenav Ertaş, ailesinin geçim sıkıntısı çekmesinden dolayı okula gidememiş, okuma yazma öğrenememiştir. Kardeşleri Adana'ya

gelip tarlalarda çalışmaya başlayınca Ertaş da on dört, on beş yaşlarındayken Adana'ya çalışmaya gelir. Tarlada çalışan kardeşlerine ve işçilere yemek yapmaya başlar. Üç yıl kadar bu işi yaparak ailesine katkı sağlar.

Ertaş, on sekiz yaşına geldiğinde sol gözünde bir hastalık ortaya çıkar. Ekonomik durumu iyi olmamasına rağmen diğer gözünü de kaybetmesin diye babası, Ertaş'ı Ankara'daki bir göz doktoruna götürür. Ertaş'ın gözünden ameliyat olması gerekmektedir. Üç kez ameliyat olan Ertaş'ın göz tedavisi üç yıl sürer. Ancak yapılan tedavi sonuç vermez ve âşığımız sol gözünü de kaybeder. Böylece Ertaş'ın dünyası tamamen kararır.

1989 yılında ailece Adana'ya taşınan âşığımız kimsiye muhtaç olmamak için 1993 yılında küçük bir bakkal dükkânı açar ve 8-9 yıl kadar bu dükkânı işletir. Bu süre zarfında kimseye muhtaç olmadan hayatını devam ettirir. Hırsızların dükkânını soyması üzerine ekmek teknesini kaybeder. Yeni bir dükkân açmak için Çatak'taki evini satmak üzere Van'a gider. Bir yıl Çatak'ta kaldıktan sonra evini satar. Adana'ya döneceği zaman bir iş teklifi alır. Van 100. Yıl Üniversitesinde santral memuru olarak işe girer. İki yıl burada çalıştıktan sonra Van'dan Mersin'e taşınır. Ertaş, hâlâ Mersin'de yaşamaktadır.

**2. Evlilikleri ve Çocukları**

Kul Ertaş iki evlilik yapmıştır. 1996 yılında Gülten adlı bir kızla ilk evliliğini gerçekleştirir. 2005 yılında kalp krizinden vefat eden Gülten hanımdan Gülşah ve Ertaş adlarında iki çocuğu olur. Ertaş, 2006 yılında ikinci evliliğini Gurbet hanımla yapar. Bu evlilikten Sevda, Seher, Bünyamin ve Muhammet adlarında dört çocuğu dünyaya gelir.

**3. Âşıklığa Başlaması**

Abdulmenav Ertaş, hafızası çok güçlü olduğu için babasının getirdiği kasetlerden Kuran'ı Kerim dinlemeye ve ezberlemeye başlar. Hafız olamaz ancak 1991 yılında Çatak ilçesinde saz kursuna başlayarak âşıklığa ilk adımını atar. Kurs o dönemde sınıf öğretmeni, daha sonra Çatak Halk Eğitim Merkezi müdür olan Yaşar Alper tarafından düzenlenmiştir. Yaşar öğretmen Ertaş'ın saz çalmadaki kabiliyetini görünce onunla yakından ilgilenir. Âşığımız saz kursunu başarıyla tamamlar. Ustası, Ertaş'ın saz çalmadaki hünerini sergilemesi için onu ilçede sahneye çıkarır. Böylece ilk sahne deneyimini de yaşamış olur. O günden sonra Kul Ertaş kendini iyice saza vermiş; usta malı şiirlerden çalıp söylemeye başlamıştır.

Şiire başlaması komşu kızı Arzu'ya olan duygularından kaynaklanmaktadır. Saz kursuna komşu kızı Arzu ile gidip gelirken ona karşı bir şeyler hissetmeye başlar ve bu hisler ona Arzuş adlı ilk şiirini söyletir. O günden itibaren yüze yakın şiir söylemiştir. Ertaş, şiirlerini

irticalen söylemiş ve yakınlarından okuma yazma bilen kişilere not ettirmiştir. Ertaş bade içip mahlas alan âşıklardan değildir. Ancak geleneğe uygun olarak şiirlerinde soyadını mahlas olarak kullanmayı kendisi tercih etmiştir. Âşık, şiirlerinde genellikle Kul Ertaş'ı, bazı şiirlerinde ise Ertaş'ı mahlas olarak kullanmıştır.

Kul Ertaş, Karaca Oğlan, Ercişli Emrah, Âşık Veysel, Âşık Murat Çobanoğlu, Âşık Şeref Taşlıova, Âşık Mahsuni Şerif gibi âşıklardan etkilenmiştir. Özellikle Âşık Veysel'in hayatında ve sanatında özel bir yeri olmuştur.

*Ben de bir Veysel'im hiçbir farkım yok*

dizesinde ifade ettiği gibi kendisinin Veysel'den hiçbir farkı yoktur. Çünkü kendi hayatını Âşık Veysel'in hayatına benzetmektedir. Gözlerinin kör olması, hayatı boyunca birçok sıkıntı çekmesi, sazı öğrenip irticalen şiirler söylemesi gibi benzerlikler Ertaş'ı Âşık Veysel'e daha çok yakınlaştırmıştır.

Kul Ertaş, *İzindeyiz Âşık Veysel* adlı şiirinde de Veysel'in vasıflarını sayarak onun takipçisi olduğunu dile getirmiştir.

*Sen gittin bir adın kaldı*
*İzindeyiz Âşık Veysel*
*Bu dünyada tadın kaldı*
*İzindeyiz Âşık Veysel*

**4. Katıldığı Toplantılar ve Aldığı Ödüller**

Adana'da kendi çevresinde çalıp söyleyen Ertaş, Mersin'de TRT Çukurova radyosu yöneticilerinden Ahmet Emiroğlu'yla tanıştıktan sonra konserlere, radyo ve televizyon programlarına çıkmaya başlar. Ahmet Kutsi Tecer'le tanışmasından sonra Âşık Veysel'in hayatı nasıl değişmişse, Kul Ertaş'ın da Ahmet Emiroğlu'yla tanışmasından sonra hayatı değişmiştir. Özellikle rahmetli Alparslan Türkeş döneminde Milliyetçi Hareket Partisinin Adana ve Mersin toplantılarında konser vermeye başlayan Kul Ertaş, böyle toplantılarının aranan ismi olmuştur. Van, Adana ve Mersin'de yayın yapan yerel ve ulusal televizyon ve radyolarda programlara katılarak hem usta malı hem de kendi şiirlerini okumuştur. Van'da Merkür TV, Adana'da ART, Kanal A gibi televizyonlar ile TRT Çukurova, Yıldız Fm, Selam Radyo, Sancak radyo gibi radyolarda programlara katılarak sanatını icra etmiştir.

Kul Ertaş, sadece bir yarışmaya katılmıştır. O da Türkiye Gazetesinin düzenlediği âşıklar şiir yarışmasıdır. Birçok âşığımızın katıldığı bu yarışmaya "*El ele verin kardeşim*" adlı şiiriyle katılan Kul

Ertaş, jüri tarafından birincilik ödülüne layık görülür. Kul Ertaş'a ödül olarak Kuran'ı Kerim ve 500 TL para verilmiştir.

**5. Sanatı ve Şiirleri**

Kut Ertaş'ta hem doğduğu ve bir süre yaşadığı köy / kasaba kültürünün etkisi hem de çağdaş anlamda bir eğitim olanağından yararlanamamanın getirdiği doğal sonuçla, köy / kırsal kesiminin kaderci dünya görüşü hâkimdir. Çünkü çocukluk ve gençlik yıllarında yaşadığı birçok olumsuz etkinin, yaşama bakışını etkilediği muhakkaktır. Bir de zaman içerisinde iki gözünü kaybetmesi ve içinde bulunduğu ekonomik zorluklar dikkate alındığında Kul Ertaş'ın ruh halini tasavvur etmek zor olmasa gerek. Zaman zaman umutsuzluğa kapılsa da Ertaş, yaşama sarılmayı elden bırakmaz. Her şeye rağmen hayata sıkı sıkıya tutunmuş ve gönül dünyasıyla şiirler yazmaya başlamıştır.

Gözlerini kaybetmesi ondan derin izler bırakmıştır. Bu derin izler şiirlerinde göze çarpmakla birlikte Kul Ertaş'ın vatan sevgisi ve Türk olmaktan duyduğu gurur da şiirlerinde öne çıkan unsurlardandır.

Kul Ertaş, şiirlerini 8 ve 11 hece ölçüsüyle söylemiştir. Şiirlerinde yarım, tam ve zengin kafiye kullanmıştır. Ancak en çok tercih ettiği yarım kafiye olmuştur.

Şiirlerinde her insanın düşüncesine, duygusuna, inancına ve dünya görüşüne yer vermiş olan Kul Ertaş şiirlerinde aşk, sevda, felekten şikâyet, dünyanın geçiciliği, tabiat, sosyal konular, dert, dinî ve millî konular, vatan ve bayrak sevgisi, kendisiyle ilgili unsurlar, ünlü kişiler, gurbet ve öğüt gibi konuları ele almıştır. Şiirlerinde işlediği konular göz önüne alındığında Kul Ertaş'ın dert, aşk, vatan-millet şairi olduğu söylenebilir.

**Sonuç**

Kul Ertaş'ın doğup büyüdüğü Doğu Anadolu Bölgesinde çok önemli âşıklar yetişmiştir. Bu âşıkların başında Ercişli Emrah, Âşık Murat Çobanoğlu ve Âşık Şeref Taşlıova sayılabilir. Adlarını sıraladığımız âşıklar onun bu sanata yönelmesinde önemli rol oynamışlardır. Küçük yaştan itibaren âşıklık geleneğine merak salmış, zaman içerisinde saz çalıp irticalen şiirler söylemeye başlamıştır. Sanatını şekillenmesinde rol oynayan en önemli âşık, Âşık Veysel olmuştur. Kendisini adeta Âşık Veysel'le özdeşleştirmiştir.

Yüzün üzerinde şiiri bulunan Kul Ertaş, şiirlerinde kendi hayatında yaşadığı sıkıntılar olmak üzere pek çok konuyu ele almıştır. Özellikle vatan sevgisi ve Türklük duygusu ile yazığı şiirler öne çıkmaktadır.

Sonuç olarak kimsenin bilmediği duymadığı Kul Ertaş, yüzyıllardır devam edegelen âşıklık geleneğinin bütün özelliklerini taşıyan bir âşıktır. Dolayısıyla bu geleneğin temsilcileri arasında Kul Ertaş isminin anılması yerinde olacaktır.

**Şiirlerinden Örnekler**
**A. 8 Heceli Şiirler**
**1. Ölen de Senin Kardaşın**
Kıyma kardaşın canına
Ölen de senin kardaşın
Onu kaldır bas bağrına
Ölen de senin kardaşın

İnsanları hor görmeyin
Yaşayan canı vurmayın
Kimseyi yetim koymayın
Ölen de senin kardaşın

Ertaş sevmez ikiliği
İnsanlar kurşun birliği
Yıkmasınlar insanlığı
Ölen de senin kardaşın

**2. İzindeyiz Âşık Veysel**
Sen gittin bir adın kaldı
İzindeyiz Âşık Veysel
Bu dünyada tadın kaldı
İzindeyiz Âşık Veysel

Toprak dedin ırmak dedin
Ağaç dedin yaprak dedin
Doğaya çok önem verdin
İzindeyiz Âşık Veysel

Mert geldin mertçe yaşadın
Yüksek dağları aşırdın
Birçok şeyi sen başardın
İzindeyiz Âşık Veysel

Atatürk'ü sevdin candan
Taviz vermedin vatandan
İki kapılı bir handan
İzindeyiz Âşık Veysel

Kul Ertaş sırra eremez
Hiç kimse Veysel olamaz
Boşluğunu dolduramaz
İzindeyiz Âşık Veysel

**3. El Uzat Fakire Zengin**
Fakir açlıktan ölüyor
El uzat fakire zengin
Fakirin yüzü gülmüyor
El uzat fakire zengin

Kuru ekmek acı soğan
Gözyaşıyla ye de dayan
Buna dayansın hangi can
El uzat fakire zengin

Zekâtı ver, sadaka ver
Gir fakirin koluna gir
Yüzde birini ona ver
El uzar fakire zengin

Çetin Kaya, Sabancı'ya
Vehbi Koç sen bu acıya
Her kardaşa her bacıya
El uzat fakire zengin

Ertaş sazın ile çağır
Duymasalar dahi bağır
Ne ahrazlar ne de sağır
El uzat fakire zengin

**4. Şükür Olsun Hürdür Ülkem**
Şükür olsun hürdür ülkem
Buğdayımı serbest ekem
Bağıma fidanlar dikem
Kim karışır vatanıma

Kim karışsa darbe yer
Ciğerine kurşun girer
Bu vatana boyun eğer
Kim karışır vatanıma

Hür laik bir cumhuriyettir
75 milyon millettir
Hep birbirine destektir
Kim karışır vatanıma

Türk'üm Türkiye de doğdum
Türkiye'mdir anayurdum
Yuvamı burada kurdum
Kim karışır vatanıma

**5. Ben Ağlarım Sen de Ağla**
Gel otur karşıma bülbül
Ben ağlarım sende ağla
Felek bir gün demedi gül
Ben ağlarım sen de ağla

Sen gül için ben kadere
Sen güle kan, ben çöllere
Mecnun gibi tüm dağlara
Ben ağlarım sen de ağla

Ertaş'ım neyim kaldı
Bir oğlum bir kızım vardı
Yuvam her yere dağıldı
Ben ağlarım sen de ağla

**6. Öz Anam Bana Küskündür**
Dönüp de sılama gelemem
Öz anam bana küskündür
Dünya üzerinde kalmam
Öz anam bana küskündür

Bıktım dünyanın kahrından
Geri kaldım muradımdan
Vuruldum her bir yanımdan
Öz anam bana küskündür

Güvendiğim taş vuruyor
Kalbime hançer saplıyor
Yerden yere sürüklüyor
Öz anam bana küskündür

Ertaş'ım kime güvenem
Hangi dostumla övünem
Ne gelenim ne gidenim
Öz anam bana küskündür

**7. Hani Yâr Benim Gençliğim**
Ömürüm geçti çileyle
Hani yâr benim gençliğim
Derdim bitmez diller ile
Hani yâr benim gençliğim

Saçım beyaz sakalım ak
Bana ihtiyar ismini tak
Yirmi yaşta boynuma bak
Hani yâr benim gençliğim

**8. Çekip Gitsem Bu Çataktan**
Çekip gitsem bu Çatak'tan
Gözyaşım biter yataktan
Yaram kurulur yanaktan
Sızlar yaram derin derin
Sar yaramı serin serin

Yaramı saranım yok
Bu dünya da derdim çoktur
Aç olsan da gönlün toktur
Sızlar yaram derin derin
Sar yaramı serin serin

Ertaş'ım gözüm kan ağlar
Derin yaramı kim bağlar?
Gönlüm seller gibi çağlar

Sızlar yaram derin derin
Sar yaramı serin serin

**9. Mademki Ben Bir Ozanım**
Halkı sevip sayacağım
Mademki ben bir ozanım

Halka bağlı kalacağım
Mademki ben bir ozanım

Halkım kal derse kalırım
Öl derse hemen ölürüm
Saygıyı iyi bilirim
Mademki ben bir ozanım

Halk beni ben halkı sevdim
Dağları taşları deldim
Halkım için buraya geldim
Mademki ben bir ozanım

Halksız ben ne edeceğim
Halkıma bir söz vereceğim
Doğru yolda gideceğim
Mademki ben bir ozanım

Her çalan ozan olamaz
Halkına bağlı kalamaz
Halkının gönlün alamaz
Mademki ben bir ozanım

Halkım için sazı aldım
Onlara söyleyip çaldım
Hele bakın ben ne kaldım
Mademki ben bir ozanım

Ertaş'ım küçük ozanım
Çok söylerdim yok yazanım
Bu yolda bitmez ezanım
Mademki ben bir ozanım

**10. Bir Siyah Saçlı Bağladı**

Beni zincirler zapt etmez
Bir siyah saçlı bağladı

Aşkı yüreğimden gitmez
Bir siyah saçlı bağladı

Siyah saçı ela gözler
Baldan daha tatlı sözler
Aşkı uzaklardan gözler
Bir siyah saçlı bağladı

Kul Ertaş aşkına daldı
Zülfü boynuma dolandı
Kalbimi zalim çaldı
Bir siyah saçlı bağladı

**11. Zalim Nefsim**

Elveda zamanı geldi
Elveda ey zalim nefsim
Dertlerin bağrımı deldi
Elveda ey zalim nefsim

Ayşe, Fatma ile aldattın
Derdime yüz bin dert kattın
Bal gibi kendini tattırdın
Elveda ey zalim nefsim

Bıraktım Ayşe'yi Fatma'yı
Derdime yün bin dert katmayı
Bal dediğin zehir tatmayı
Elveda ey zalim nefsim

Bıraktım Deniz'i Arzu'yu
İçirmedin badem suyu
Kazdığın o derin kuyu
Elveda ey zalim nefsim

Son anda seni fark ettim
Seninle yoruldum bittim
O yüzden seni terk ettim
Elveda ey zalim nefsim

Neler yaşattın Ertaş'a
Bakmadın gözünde yaşa
Çarptım artık seni taşa
Elveda ey zalim nefsim

**12. Bu mudur İnsan Hakları**

Sesimi duy Ey Avrupa
Bu mudur insan hakları?
Kimi silah kimi sopa
Bu mudur insan hakları?

Kimi duldur kimi yetim
Köyde kalmadı eğitim
Okullar yakıldı bitti
Bu mudur insan hakları?

Yavrular baba arıyor
Analar evladım diyor
Babalar hep kan ağlıyor
Bu mudur insan hakları?

Her sözüne inandım
Yıldız hatun gibi yandım
Bende sizi insan sandım
Bu mudur insan hakları?

Gözümüz hep yaşla dolu
Otuz bin kardeşim öldü
Bunu Avrupa da gördü
Bu mudur insan hakları?

Ertaş'ım kime ağlayayım
Derin yaramı bağlayayım
Sırrımı gizli saklayayım
Bu mudur insan hakları?

## 2. On Bir Heceli Şiirler

### 13. Hiç Kimse Yıkamaz Vatanımı

Hiç kimse yıkamaz böyle vatanı
Dalgalan ay yıldızlı bayrağımız
Toprağın mayası şehidin kanı
Dalgalan ay yıldızlı bayrağımız

Dalgalanacak bu bayrak derede
Yıkacağız diyen yiğit nerede
Ne havada görünür ne karada
Dalgalan ay yıldızlı bayrağımız

Atamın emaneti dalgalanacak
Dünya var oldukça oda kalacak
Bunu bilmeyen sonunda bilecek
Dalgalan ay yıldızlı bayrağımız

Türkiye'nin şerefi umanıdır
Kırmızısı şehitlerin kanıdır
Ay yıldızı gazilerin canıdır
Dalgalan ay yıldızlı bayrağımız

Ertaş'ım bin şiir yazsam azdır
Kaldır ay yıldızlı başını kaldır
Tam da dalgalanacağın zamandır
Dalgalan ay yıldız bayrağımız

### 14. El Ele Verin Kardeşim

Bu vatanı yavrulara kim verdi
El ele verin kardeşim el ele
Bu vatan Türklerin vatanı yurdu
El ele verin kardeşim el ele

El ele verin beraber olalım
Bu vatanı hep beraber kuralım
Bize karşı gelenleri vuralım
El ele verin kardeşim el ele

Atalar bu vatana kan döktüler
Can ile alıp bizlere verdiler
Onlar toprağın altına girdiler
El ele verin kardeşim el ele

Dalgalan ay yıldızlı bayrağımız
İman dolu damarımız, kanımız
Vatana fedadır her gün canımız
El ele verin kardeşim el ele

Kul Ertaş'ım bu nasıl dert nasıl kin
Aynı kitap aynı mezhep aynı din
Hakkın gösterdiği bu gemiye bin
El ele verin kardeşim el ele

### 15. Türk, Kürt, Arap, Sünni, Zaza Kardeştir

İkilik koymayın siz aramıza
Türk, Kürt, Arap, Sünni, Zaza kardeştir
Acı biber sürmeyin yaramıza

Türk, Kürt, Arap, Sünni, Zaza kardeştir

Nice kızlar verdik birbirimize
Her gün bakıyoruz yüz yüze
Bakmayın dış güce ermeni söze
Türk, Kürt, Arap, Sünni, Zaza kardeştir

Ertaş der ki bu vatan hepimizin
Yavrular huzurlu yaşasın bizim
Budur Hak yolunda olan tek çözüm
Türk, Kürt, Arap, Sünni, Zaza kardeştir

**16. Ben Ağlarım Sazım Ağlar Tel Ağlar**

Yine mi başladı efkârım derdim
Ben ağlarım, sazım ağlar, tel ağlar
Efkârımı derdimi tellere serdim
Ben ağlarım, sazım ağlar, tel ağlar

Yine mi bülbüller öttü bağımda
Çürüdü ömrüm gençlik çağında
Siyah saç kalmadı gayri başımda
Ben ağlarım, sazım ağlar, tel ağlar

Kul Ertaş'ım neler çekmişim neler
Ahûzar feryadım dağları deler
Aktı gözüm yaşı karıştı sele
Ben ağlarım, sazım ağlar, tel ağlar

**17. Hep Senin İçin**

Tek başıma bu yollarda gezdiğim
Yalnız sevdiğim hep senin için
Deryaları denizleri aştığım
Yalnız sevdiğim hep senin için

Sevmiyorsan açık söyle bileyim
Seviyorsan sarıl bana güleyim
Ferhat gibi kayaları deleyim
Yıktığım taşlar hep senin için

Kul Ertaş'ım bakın benim halime
Dağlar dayanmıyor ahu zarıma
Sermayeydim zarar girdi bağrıma
Aldığım sattığım hep senin için

**18. Felek Bir gün Gelir Gülecek miyim?**

Her bir günüm kan kusmakla geçiyor
Felek, bir gün gelir gülecek miyim?
Eşim, dostum, kardaş benden kaçıyor
Felek, bir gün gelir gülecek miyim?

Kan karıştı gözlerimin yaşına
Felek ne getirdin garip başıma
Zehir koydun ekmeğime aşıma
Felek bir gün gelir gülecek miyim?

Kul Ertaş'ım düştüm gurbet ellere
Bülbül gibi hasret kaldım güllere
Felek vurdu beni yerden yerlere
Felek bir gün gelir gülecek miyim?

**19. Kalmaz Fani Dünya Sana da Kalmaz**

Kimin sevdiğini kime veriyorsun?
Kalmaz fani dünya sana da kalmaz
Onu sevdiğimi sende biliyorsun
Kalmaz fani dünya sana da kalmaz

Hiç mi yaşamadın aşkı sevdayı
Örnek almadın mı Mecnun Leyla'yı
Üstüme yükledin yalan dünyayı
Kalmaz fani dünya sana da kalmaz

Kul Ertaş'ım bülbül gülsüz olur mu?
Mecnun hiç Leyla'dan ayrı durur mu?

Yaptığın bu zulüm sana kalır mı?
Kalmaz fani dünya sana da kalmaz

**20. Bülbül Ne Ötersin Gülün Bağında**

Bülbül ne ötersin gülün bağında
Yoksa benim gibi bir sevdan mı var
Vazgeçmedin bu ahlakın huyunda
Yoksa Mecnun gibi bir Leyla'n mı var

Her sabah her seher gülde ötersin
Ne derdin var neden böyle ağlarsın
Söyle bana kime figan edersin
Yoksa Kerem gibi bir Aslı'n mı var

Kul Ertaş'ım beni yaktın bitirdin
Bir sevda yoluna ömrüm yitirdim
Ecelim gelmeden ölüm getirdin
Yoksa Ertaş gibi bir derdin mi var

**21. Seviyorum Seni Sen de Sev Beni**

Kız aşkın ile bana bir kastın var
Seviyorum seni sen de sev beni
Aşkın ile ettin beni ahu zar
Seviyorum seni sen de sev beni

Seviyorum desen sevdalanırım
Aşkın ile o an hemen ölürüm
Beni sevmiyorsun çoktan bilirim
Seviyorum seni sen de sev beni

Kul Ertaş'ım sakın kimseyi sevme
Benden başka kimseye gönül verme
O nazik kollarla sarıl boynuma
Seviyorum seni sen de sev beni

**22. Şirin Yaylalar**

Ben bu dünyaya geldiğimden beri
Derdim Arnos Dağı şirin yaylalar
Kaç yıl oldu anam ben görmeyeli
Suyuna hasretim şirin yaylalar

Alpuça'ya vardım Korlu'ya bakar
Hozan ovaların ciğerim yakar
Lale sümbüllerim mis gibi kokar
Pınara hasretim şirin yaylalar

**23. Ben Mecnun'un oldum Sen de Leyla'm Ol**

Kız senin derdinden derbeder oldum
Ben Mecnun'un oldum sen de Leyla'm ol
Gonca güller gibi sarardım soldum
Ben Mecnun'un oldum sen de Leyla'm ol

Kerem Aslı'yı ben seni sevdim
Ferhat gibi taşları kayayı deldim
Kız senin yüzünden bu hale geldim
Ben Mecnun'un oldum sende Leyla'm ol

Kul Ertaş'ım ne Mecnun ne Kerem'im
Ferhat gibi Şirin'ime giderim
Bir garip bülbülüm gülsüz neylerim
Ben Mecnun'un oldum sen de Leyla'm ol

**23. Gizli Gizli**

Gizli gizli bir yâre âşık oldum
Söylemem ismini sakıncalıdır
Gonca güller gibi sarardım soldum
Söylemem ismini sakıncalıdır

Kâğıt gibi nazik bir dudağı var
Kardan beyaz gül gibi yanağı var
İsteyemem çünkü bir ablası var

Söylemem ismini sakıncalıdır

Ertaş'ım senin hep aşkına yandım
Senin tatlı sözlerine inandım
Demek ki aşkın yalanmış aldandım
Söylemem ismini sakıncalıdır

**24. Her Derdin Bir Dermanı Var Sevdiğim**

Derdin söyle bana derman olayım
Her derdin bir dermanı var sevdiğim
Gül diyorsun sensiz nasıl güleyim
Her derdin bir dermanı var sevdiğim

Mecnun oldum ben Leyla mı ararım
Kerem gibi Aslı mı sorarım
Ferhat gibi kayaları delerim
Her derdin bir dermanı var sevdiğim

Kul Ertaş'ım Mecnun Kerem'e döndüm
Ferhat gibi Şirin için yoruldum
Susuz fidanlar gibi ben kurudum
Her derdin bir dermanı var sevdiğim

**25. Ya Alırım Ya Ölürüm Bu Yolda**

Sosyal hakkım için bu yola girdim
Ya alırım ya ölürüm bu yolda
Sazımla sözümle çok emek verdim
Ya alırım ya ölürüm bu yolda

Hakkım için tüm çabamı harcarım
Atatürk'ü vatanımı severim
Gerekirse Ankara'ya giderim
Ya alırım ya ölürüm bu yolda

Bu yol uzundur ölüme kadar
Ne dost fayda verdi ne eş ne peder
Sosyal hakkımdır içimde keder
Ya alırım ya ölürüm bu yolda

Bende bir ozanım bir de canım var
Bir eşim, bir kızım, bir de sazım var
Gözüm dışında tüm organlarım var
Ya alırım ya ölürüm bu yolda

Ben de bir Veysel'im hiçbir farkım yok
Vatanımı severim insanlardan çok
Yoksulum fakirim ama nefesim tok
Ya alırım ya ölürüm bu yolda

Otuz yaşı geçtim bir kalp kırmadım
Zenginin elinden zekât almadım
Alnımın terinden geri kalmadım
Ya alırım ya ölürüm bu yolda

Kul Ertaş'ım vatan için ölürüm
İnsan haklarını iyi bilirim
Zeytin dalı uzatsalar giderim
Ya alırım ya ölürüm bu yolda

## Kaynaklar


Bakırcı, Nedim (2017), *19. Yüzyıl Âşıklarından Niğdeli Âşık Tâhirî*, Konya: Kömen Yayınları.

https://aregem.ktb.gov.tr/TR-202290/asiklik-gelenegi.html (Erişim Tarihi 20.04.2021)

Özarslan, Metin (2001), *Erzurum Âşıklık Geleneği*, Ankara: Akçağ Yayınları.

# AŞIQ SƏNƏTİNDƏ BEŞLİK PRİNSİPİ VƏ ONUN GİZLİN QAPILARI (5 – AŞIQ HAVASI (MUSİQİSİ) ƏSASINDA)

# THE PRINCIPLE OF THE FIVE IN THE ART OF ASHUG AND ITS SECRET POINTS (BASED ON FIVE ASHUG MELODIES (MUSIC))

# ПРИНЦИП ПЯТЕРИЦЫ В АШУГСКОМ ИСКУССТВЕ И ЕГО ТАЙНЫЙ СМЫСЛ (НА ОСНОВЕ ПЯТИ АШУГСКИХ МЕЛОДИЙ)

**Nemət QASIMOV**
*Filologiya üzrə fəlsəfə doktoru*
*Əməkdar Mədəniyyət İşçisi*
*nemetyusif@mail.ru*

**Summary**

The art of ashug, which played an exceptional role in the national culture of the Azerbaijani people, has carried different names throughout its history, has passed a long and rich path of development. It shows itself more clearly in the epics of the Turkic peoples. Our master ashugs have approached this issue with special sensitivity in their activities. The fact that the traditions coming either from nature or society, they are reflected in ashug poetry and it is an obvious example of the fact that this art is directly multimission.

In the article the investigation of five classic ashug melodies belonging to the Western ashug environment was taken as the basis. First of all, the part "ustadname" (masterpiece in literature), its telling points and the reasons being at the beginning are studied. Then, the article about the investigating the ashug melody "Divani" from a new point of view, which is always in the center of attention of ashug and researcher, contains a parallel analysis of both theoretical and practical aspects. The ashug melody "Dervishi" ("Garachi") which is sung thirdly and its comparative analysis with "tejnis" is explained as the following level. In the article reasons of singing "mukhammas" at the end and a new look at unchanged five practical and five theoretical aspects of the ashug art and the contradictory aspects of practical and theoretical views are investigated. One of the highlights throughout the article is the main role of additions ("Ay bala", "Akh yar ey", "Ya Ali senden Medet", etc.) in music is explained.

**Key words:** ashug, art, music, secret, idioms, classics, environment, people

**Резюме**

Ашугское исскуство, сыгравшее исключительную роль в национальной культуре Азербайджанского народа, на протяжении всей своей истории носило разные названия и прошло богатый и долгий путь развития. Более ярко это выражено в дастанах тюркских народов. Азербайджанские ашуги в своем творчестве подошли к этому вопросу с особой чуткостью. Тот факт, что в ашугской поэзии отражены традиции и обычаи, пришедшие как от природы, так и от общества, является ярким примером прямого предназначения этого искусства.

Статья посвящена исследованию пяти классических ашугских мелодий, относящихся к западной ашугской среде. Вначале был изучен жанр Устадname, время его исполнения, и раскрыты причины его первичного исполнения. Затем, в статье был произведен параллельный анализ, как в теоретическом, так и практическом аспекте, ашугской мелодии «Дивани», который всегда находился в центре внимания ашугов и исследователей. Была также представлена ашугская мелодия Таджнис и ее второе исполнение.

Как последующий этап, в статье было исследовано третье исполнение ашугской мелодии Дервиши и проведен сравнительный анализ этой мелодии с Дивани и Таджнисом. Причины исполнения Мухаммаса в конце и новый взгляд на пять неизменных практических и пять теоретических аспектов ашугского искусства исследуются в статье в практическом и теоретическом аспекте. Одним из основных моментов в статье, привлекающий внимание, является раскрытие главной роли дополнений (Ай бала, Ах яр эй, Хабибимсан табибимсан (Ты мой друг, ты мой целитель), О Али сенден мадат (О Али, жду от тебя помощи) и др.) в музыкальном исполнении, которые добавляются в начало ашугского выступления.

**Ключевые слова:** ашуг, искусство, музыка, тайна, идиома, классика, среда, народ

Aşıq sənətindən danışarkən klassik ənənədən gələn bir neçə məqamları qeyd etmədən bu sənətin sirli aləminə baş vurmaq düzgün olmazdı. Aşıq sənəti elə bir yol keçmişdir ki, burada hər bir sənətkar öz yaradıcılığını əlavə etməklə yanaşı mühitdən gələn istəklər və sənətin özünün məcburi tələbləri önəm daşıyır desək doğru olardı. Bu mənada aşıq sənətini tədqiq edərkən 5 əsas prinsip üzərindən başlamaq lazımdır ki, bu da aşıq sənətinin açılan qapısı hesab olunur. Aşıq sənəti həm praktiki, həm də nəzəri olaraq 5 əsas amili özündə ehtiva edir. Bu yanaşma tərzi aşıq sənətinin saz və söz, oxuma və təhlil tərəfindən yanaşıldığı üçün bəzi məqamlarda aparılan təhlillər özünü doğrultmamışdır. Bunun bir səbəbi tədqiqatçıların musiqi alətindən istifadə edə bilməməyindən gəlirsə, digər tərəfi qarşı tərəfdən aldığı

məlumatları yalnız nəzəri tərəfə yönəltməklə kifayətlənməli olduğundan irəli gəlir. Bu da son nəticədə aparılan araşdırmaların elmi yanaşma tərzində praktika ilə nəzəri fikirlər arasında ziddiyyət təşkil edir. Aşıq sənəti 5 əsas prinsip üzərində yaranmışdır ki, bu günümüzə qədər həmin qaydalar dəyişməz olaraq qalır. Deyilənlər onu göstərir ki, bu amilləri ustad aşıqlarımız yaşatmaqla həm də aşıq sənətinin şifahi professional sənət olduğunu ortaya qoymuş olurlar. Ustad aşıqların məclisdə qarşı tərəfə verdiyi sual həmişə maraq doğurmuşdur. Bir aşıq tanımadığı digər aşıqla qarşılaşarkən deyir: Götür sazını, aç qapını, gir içəri, olanlardan danış. Əgər qarşı tərəf qaydalara düzgün əməl etməzdisə, onda sənin ustada ehtiyacın var deyərdilər. İndi isə dediklərimizi əsaslandırmaq üçün həmin 5 əsas prinsipləri ardıcıllıqla qeyd edək.

| **Praktiki:** | **Nəzəri:** |
|---|---|
| 1. Ustadnamə | 1. Dil |
| 2. Divani | 2. Ədəb-ərkan |
| 3. Təcnis | 3. Adət-ənənə |
| 4. Dərvişi (Qaraçı) | 4. Ərazi bütövlüyü |
| 5. Müxəmməs | 5. Ruhi-qida |

Qeyd etdiyimiz bu qaydalar aşıq sənətinin ana xəttini təşkil edir. İndi isə praktiki və nəzəri tərəfləri aydınlaşdıraq, bütövlükdə aşıq sənətinin özünəməxsus xüsusiyyətlərini nəzərdən keçirək. Qeyd etdiyimiz sıralama üzrə başlasaq ilk olaraq "Ustadnamə" gəlir. Ustadnamə şeir janrı olaraq daha çox 11 hecalı qoşma şəklində yayılmışdır. Gəraylı şəklində 8 hecalı ustadnamələr də var ki, bu o qədər də çoxluq təşkil etmir. Aşıq niyə "Ustadnamə" ilə başlayır:

Ustadnamə ustad kəlamı, nəsihət, doğru yol göstərmək, bəzi məqamlarda qarşı tərəfə öz yerini göstərmək, həddini bildirmək və s. kimi xüsusiyyətləri özündə ehtiva edir. Bəs bunun aşıq sənətində ilkin olaraq deyilməsi hansı səbəbdən yaranmışdır? Nəzəri olaraq ustadnamənin mahiyyətini yuxarıda açıqladıq. Praktikada isə tamamilə fərqli mənzərənin şahidi oluruq. Aşıq məclisə girəndə "Ustadnamə" ilə o səbəbdən başlayır ki; Musiqidə sadədən mürəkkəbə doğru prinsipi var (Yəni bəmdən zilə). Ustadnamə deyilərkən aşıq danışıq vasitəsi ilə səsini yormadan yavaş-yavaş musiqidən (sazdan) istifadə etmədən oxumağa hazırlıq görür. Qeyd edim ki, ustadlar ustadnaməni bir yox, iki deyərlər, bizdə deyək, iki olsun, ikinci ustadnamə deyilir. Ustadlar ustadnaməni iki yox, üç deyərlər, biz də deyək, üç olsun. Üçüncü ustadnamə deyilir. Hər ustadnamə minimum üç bənd olduqda bu

eyləyir 9 bənd. (Çox da ola bilər). Deməli aşıq özünü məclisə həm psixoloji, həm fiziki tərəfdən hazırlamaqla yanaşı məclisdə olan dinləyicilərin istəyini öyrənmiş olur. (Aşıq psixoloqdur deyimi:) Bu bir tərəfdən məclisi özünə ram etmək funksiyasını daşısa da, digər tərəfdən özünü məclisə təqdim etmək amilini də göstərir. Qeyd edim ki, aşığın söylədiyi ustadnamə özü haqqında bilgini ortaya çıxarır. Digər tərəfdən deyilən ustadnamə hər hansı bir dastana işarə edilir.

**Dəllək Muradda**:

Qadir Allah, budur səndən diləyim
Sən mərdi namərdə möhtac eyləmə.
Qeybi xəzinəndən yetir ruzisin
Sən mərdi namərdə möhtac eyləmə (M.H.Təhmasib: 1979, 9, s. 203).

Belə məzmunlu ustadnamələr deyiləndə dinləyicilər "Əsli və Kərəm" dastanı danışılacağını bilərdilər. Çünki ustadnamələri aşıqlarımız dastanın məzmununa uyğun seçərdilər. Bu həm də aşıq tərəfindən bir mesaj ötürmə anlamı daşıyırdı. Qeyd edim ki, aşıqlar səsinə və xarakterinə görə dastan danışardılar. Artıq ustadnamə deməklə aşıq bir neçə amili öz dinləyicilərinə çatdırmış oldu.

**2. Baş divani**

Baş divani havası haqqında bir çox tədqiqatçılar fikirlərini yazıblar. Bəzi tədqiqatçılar bu aşıq havası haqqında danışarkən qeyd edirlər ki, bu ilk aşıq havası olduğu üçün aşıq məclisi bu hava ilə başlayır. Bəziləri isə ötəri fikirlər söyləməklə əsas məsələdən yayınıblar. Tədqiqatçıların bəzilərinin isə fikri belə olub ki, "Baş divani" xeyir-dua havasıdır. Onlar əsas olaraq götürürlər ki, bu havanın oxunuşunun əvvəlində aşıq "Həbibimsən, təbibimsən, ya Əli, səndən mədət" deyirlər. Prof. M.Qasımlı "Ozan-aşıq sənəti" kitabında qeyd edir ki, "Məclisin başlanğıcında mərasim iştirakçıları salamladıqdan və mərasim qurucusuna (məsələn toy sahibinə) alqış-dualar söylədikdən sonra "Ya ilahi, ya Rəsul, ya Mövlam Şahimərdan, səndən mədət" yalvarış-müraciəti ilə haqqın dərgahına üz tutaraq "Baş divani" çalınır və ustad aşıqlardan birinin fəlsəfi-irfani məzmunda bir divani oxunur" (M.Qasımlı, 2011: 11, s. 280). Bu sətirlər nə melodiya, nə qafiyə, nə də heca baxımından musiqiyə düz gəlmir. Hörmətli alimin musiqini bilməməsini təbii hesab etmək olar. Normalda oxunan 15 hecalı divani aşıq havasının əvvəlinə, 18 hecalı (dırnaqarası divani) söz yığnağını oxumaq heç bir aşığın hünərində deyil və tamamilə yanlışdır. Əgər

deyilən fikirlərlə razılaşsaq, onda başqa bir sual çıxır. Niyə 2-ci hava "Təcnis", 3-cü hava "Dərvişi" (Qaraçı), 4-cü hava isə "Müxəmməs"? Əsas məsələ də burasındadır. Qeyd edim ki, bu deyim aşıqlar tərəfindən əlavə olunmuş yedəkləmədir (Yedəkləmə səsi nizamlamaq üçün şeirin əvvəlində, yaxud da şeirin məzmununa uyğun sonda əlavə olunur. A belə; Gəl ay bala gəl ey; Ax yar ey; yaxud "Uçdu bülbül güldən getdi, cavan aşıq eldən getdi", "Oğlan dur get, sabah oldu, yandı bağrım, kabab oldu", "Oğlan dur get, xoruz banlar, nənəm görər, bizi danlar", "Ay sarıtel, qadan alım, gedim mən kimə yalvarım" "Deyim, deyim, ellər sizə dərdimi, sazdan alım sözə deyim dərdimi" və s. bunlara bəzən gül vurma da deyirlər. Yəni hər şeirin məzmununa münasib bənzətmə). Bunlar aşığın səsini nizamlamaq üçün vasitələrdir. Heç bir divani şeir formasında xeyir-dua məzmununu görmək olmur. Üzü Qurbanidən Aşıq Ələsgərə qədər olan ustadların divanilərinə göz gəzdirərkən heç bir xeyir-dua əlamətlərinin olmadığını görürük.

**Miskin Abdalda:**

Çərxi gərdiş yarıtmadı dövlətdən vardan məni
Min bir dərdi əzab verib ayırdı yardan məni.
Çək rəqibin fitnə-feli çəkdi məni çarmıxa
Yazıq Həzrət İsa kimi asdı divardan məni (H.İsmayılov: 2001. 5. s. 18).

**Qurbanidə:**

Fələk sənnən əlləşməyə bir belə meydan ola
Tut əlimi fürsət sənin, lütf ilə ehsan ola.
Getmiş idim mürşidimə dərdimə dəva qıla
Mən nə bilim mən gedincə xak ilə yeksan ola (M.H.Təhmasib: 1979. 9, s. 256).

Göründüyü kimi Miskin Abdal və Qurbaninin bu divanisi aşıqların ən çox oxuduğu divani olmaqla yanaşı heç bir xeyir-dua məzmununu özündə əks etdirmir. Divani aşıq sənətində ən bəm səslə oxunan qədim aşıq havasıdır. Sazın kök məqamlarını nəzərdən keçirdikdə:

1. Baş pərdə kökü. (1-ci pərdə divani kökü də deyilir), (Do, re, si bemol)
2. Orta pərdə kökü. (2-ci pərdə təcnis kökü də deyilir), (Do, mi bemol, si bemol)
3. Şah pərdə kökü. (3-cü pərdə Qaraçı kökü də deyilir), (Do, fa, si bemol)

Baş divani havasının oxunmasına bölgülərlə baxaq:

Ax yar eyyyy---həbibimsənnnn təbibimsənnnn yaaaa Əli sənnən mədəəət. Burda (ey) y-səsi, (həbibimsən) n-səsi, (təbibimsən) n-səsi, (ya) a-səsi, (mədət) ə-səsi eyni xətt üzrə uzanır. Sonra keçilir şeirə. Bu əlavə hər hansı bir divani şeiri oxunarsa əvvəlində istifadə olunur. Əks halda birbaşa şeirlə başlamaq səsdə problem yaradar ki, bu da ifaçını çətin vəziyyətə salar (Psixoloji zərbə səsi bir neçə saatlıq boğur). Divani şeirini aşıq oxuyarkən 4-cü sətiri 1-ci baş pərdədə oxuyur. Sanki, söhbət edir təəssüratı yaradır. Bu məqamda "Ustadnamə" deyimi ilə "Divani" oxunuşunun eyniləşmə məqamını görürük. Musiqisiz ustadnamə deyimi və ilk hava divani arasında səsin 1 ton zilləşməsi izlənilir. Divanidə 4-cü sətir 1-ci pərdədə oxunur və qaytarma yerində 4-cü sətir şah pərdədə qısa zəngulə ilə təkrarlanır. Sonra oxunan şeir aşıq tərəfindən izah olunur (El arasında şeirin yatağı deyilir). Beləliklə divani həm şeir növü, həm də aşıq havası kimi aşığın səsini, danışığını və növbəti mərhələyə hazırlığını təmin edir.

**2. Təcnis**

Təcnis aşıq sənətində ən çətin şeir janrıdır. Aşıqlar deyişmə zamanı təcnisdən çox az istifadə edirlər ki, bu da hər aşığın gücündə olmadığına bir işarədir. Təcnis cinas sözlərdən ibarətdir. Bu şeir növünün digər havalarda istifadəsi zamanı sözün bölünməsində mənanın itməsi səbəbinə görə istifadə olunmaması onu göstərir ki, 2-ci hava olaraq təcnisin seçilməsi təsadüfi deyildir. Təcnis aşıq havası sazın 2-ci pərdə kökündə ifa olunur. (Orta kök). Divani 1-ci pərdədə. Təcnis 2-ci pərdədə. Təcnisin oxunuşu 2-ci pərdə üzrə davam edir. Bu halda səs 1 ton zilləşsə də 1-ci pərdəyə qayıdışın şahidi oluruq. Növündən asılı olmayaraq (Təcnis, cığalı təcnis, dodaqdəyməz təcnis, dildönməz təcnis, müstəzad təcnis və s.) ifada bir təcnis havası vardır. Oxunan 4-cü sətir 2-ci pərdədə davam edir və 4-cü sətir təkrar şah, orta və baş pərdədə ardıcıl olaraq eniş edir. Divani ilə təcnisin janr üslub fərqi olsa da musiqi ifası baxımından səsin açılması və psixoloji hazırlıq məqamını yerinə yetirir. Bu iki havada heç vaxt aşığın səsi tutula, boğula yaxud xaric çıxa bilməz. Deməli bu mərhələ həm də aşıqda özünə, səsinə güvən yaradır.

**4. Dərvişi (Qaraçı)**

Dərvişi aşıq havası sazın 3-cü pərdə kökündə ifa olunur. Bu havada qoşma şeir şəklindən istifadə edilir. Orta templi havalar silsiləsinə aiddir. Dərvişi havasını oxuyarkən 4-cü sətir 3-cü pərdədə (şah kök, şah pərdə) oxunur. Sonra qaytarma hissəsi 4-cü sətir təkrar zənguləli səslə oxunur və orta-baş-açıq səslə tamamlanır (Fa-şah pərdə, mi bemol-orta pərdə, re-baş pərdə, do-açıq sim). Qeyd edim ki, "Baş divani" və "Təcnis" havasında zildən oxunma məqamları yoxdur. Dərvişi havasının 3-cü bəndi zildən oxunur (Zilin şah pərdəsindən, si bemoldan). Beləliklə aşığın bu ifalarından sonra istədiyi havaları təqdim etmək icazəsi yaranır (Sifarişlər yaxud öz seçimi ilə istədiyi havalar). Musiqidə sadədən mürəkkəbə doğru prinsipinə əsaslanaraq deyə bilərik ki, aşıq sənəti dünya musiqi tarixində ən qədimlərdəndir. Apardığımız araşdırmalar sözün musiqi ilə vəhdəti, tək aşığın simasında təqdimatı eləcədə janr müxtəlifliyi dövrün sənət yeniliklərini özündə cəm edərək kökündən qopmaması dediklərimizi təsdiqləyən əsas amillərdən biridir.

**5. Müxəmməs (Duvaqqapma)**

Beşinci aşıq havası müxəmməsdir ki, bu hava sonda ifa olunur. Bu havaya müxəmməs şeir janrı oxunur. Melodiyanın xarakteri xoş ovqat, birlikdə rəqs, (Yallıda olduğu kimi) sağollaşmaq, xeyir-dua vermək kimi əlamətləri özündə ehtiva edir. Baş müxəmməs və orta müxəmməs daha geniş istifadə olunur. Adından göründüyü kimi kök məqamına əsaslanaraq baş və orta müxəmməs adlanır. Sazın köklənməsini nəzərə alaraq ustad aşıqlar dastanın sonunda saz hansı kökdə olsa, həmin kökə uyğun müxəmməslə məclisi tamamlayarlar. Duvaqqapmada deyilir ki, müxəmməsə bu havadan sonra saz yığışdırılmalı və başqa hava ifa etməyə icazə verilməzdi. Bu havanı xeyir-dua havası sağollaşmaq havası kimi də qeyd edirlər. Sazın başı "divanı" ayağı müxəmməsdir. Deyimi günümüzə qədər aşıqların bir-birlərini imtahan etdiyi suallardandır. Beləliklə, 1. Ustadnamə 2. Divani 3. Təcnis 4. Dərvişi (Qaraçı) 5. Müxəmməs haqqında praktiki araşdırmalarımıza əsaslanaraq belə qənaətə gəldik ki, bu beş praktiki qaydalar aşıq sənətinin ana xəttidir, sütunudur.

**1. Dil**

Dil hər bir xalqın varlığını təsdiq edən ən vacib amillərdən biridir. Milli sənətin daşıyıcısı üçün dilin səlis bilinməsi çox önəmlidir ki, aşıq sənəti haqqında danışarkən bu birinci yerdə dayanır deyə bilərik. Aşıq sənətinin əsası şeirlər, dastanlar, qaravəllilər, bayatılar və

musiqidir. Aşıq musiqisində oxunuşda elə bölünmə məqamları var ki, dili mükəmməl bilmədən düzgün oxumaq mümkün deyildir.

**Qurbanidə:**

Qurbani der can içində can gələ
Yaş yerinə gözlərimdən qan gələ.
Camalın görməyə Süleyman gələ
Təxti-Süleymana vermərəm səni
(Az. Dast. Ə.Cəfərli, H.İsmayılov, S.Axundova 2005. 2,s. 36).

Bu misraları əzbərləmək olar. Lakin aşıq havası üstündə oxumaq, düzgün bölmək, əlavə sözləri bölünməyən hissələrə uyğunlaşdırmaq dili mükəmməl bilmədən mümkün deyildir. Belə sual oluna bilər ki, digər janrlarda (estrada, pop, rok, caz və s.) dili bilmədən oxumaq olur. Bəli, digər janrlarda bu mümkündür. Çünki, stabil (Qəlbdə) oxunuş formasıdır və bir şeir oxunur. Aşıq sənətində bir havaya yüzlərlə şeir oxunur ki, hər şeirdə müxtəlif bölgü (musiqiyə görə) forması yaranır. Bu məqamda aşıq özü əlavələr edir ki, bu da hər dəfə fərqli ola bilər və olur. Azərbaycan dilində mövcud olan 9 sait və 23 samitin müxtəlif kombinasiyalardan yaranmış sözlərdə sait səslərin samitdən əvvəl ahəng quruluşu dəyişir. Danışdığımız zaman ifadə etdiyimiz sözlərin hamısını eyni qüvvə ilə tələffüz etmirik. Bu musiqidə ifa və oxunuş zamanı xüsusilə qabarır ki, nəticədə dilin boğaz telləri ağız rezenatoruna verilməsi prosesi baş verir. İfa edilən sözlərin mənasından və tələffüz olunan səslərin tezliyi tembri tənzimlənir. Aşıq havalarına sözlərin seçilməsi və söz ilə musiqinin vəhdətinin təsiri emosional hisslərin düzgün aşılanmasının sənətdə xüsusi əhəmiyyəti vardır. Ağamusa Axundov qeyd edir ki, "insanlar arasında ən vacib ünsiyyət vasitəsi olan dil öz vəzifəsini kommunikativ rolun hər şeydən əvvəl, danışıq səsləri vasitəsi ilə yerinə yetirir" (A.Axundov, 1973. 1, s. 7). Deməli aşıq sənətinin 1-ci nəzəri tərəfi dil olmalıdır. Hörmətli alimin fikirlərini davam etdirərək qeyd etmək istəyirəm ki, dili mükəmməl bilmək təkcə sözlərin düzgün deyilişinə yox, həm də sözlərin ağız boşluğundan melodiyaya çevrilərək ətrafa yayılmasını təmin edir. Türkiyəli ilahiyyatçı Yazıcıoğlu Əhməd Bican "Ənvərül-Aşiqin" "Haqq aşiqlərinin nurları" adlı əsərində bu qeydləri verir: Allaha zikr etmək yeddi qisimdir. 1. Göz zikirdir, ağlamaqla olur. 2. Qulaq zikirdir, Haqqın hökümlərini eşitməklə olur. 3. Dil zikirdir, həmd və səna ilə olur. 4. Əl zikirdir, verməklə və comərdliklə olur. 5. Ayaq zikirdir, qeyrət və çalışma ilə olur. 7. Könül zikirdir, qoxu və ümidlə olur (A.B.Envarül, 1983. 8, s. 133). Bu sonrakı

məqamlarda dastançılıqda xüsusilə əhəmiyyət kəsb edir. Dil aşıq sənətinin qaravəlli deyilmə məqamında da böyük rol oynayır. Obrazların deyim tərzi, hərbə-zorbalarda olan əl-ayaq və sifət mimikalarının dil vasitəsi ilə bizə ötürülməsi ən mükəmməl informasiyadır ki, bu da musiqi ilə vəhdətdə bütövlük təşkil edir.

**2. Ədəb-ərkan**

Ədəb-ərkan aşıq sənətinin əsasını təşkil edən əsas amillərdəndir. Aşıq, dədə, el atası, el ağsaqqalı, yol göstərən, haqqın carçısı və s. kimi titullar aşığın ədəb-ərkan sahibi olmasının real göstəricisidir. Urfan və təsəvvüfdə (sufizmdə) dörd ruhani təkamül mərhələsindən bəhs edilir. "Şəriət", "Təriqət", "Mərifət", "Həqiqət" burada mütləq olan heçnə yoxdur. Real olan isə Aşıq pürkamaldır. Aşıq Ələsgərin "Gərəkdi" ustadnaməsi bir növ aşığın statusunu müəyyənləşdirən nizamnamədir. "Oturub durmaqda ədəbin bilə, mərifət elmindən dolu gərəkdi" buradakı "ədəb" ifadəsi termin ola bilər. Daha sonra "mərifət elmi" ifadəsi işlədilir. "Ədəb" ədəbli tərbiyəli olmaq kimi ifadə düşüncə deyil. Ürfanda bəsit mənalar anlamındadır. Ürfani ədəb ilkin olaraq Haqqın hüzurundakı ədəbdir. Arifə isə hər tərəf Allahın zühuru, Haqqın təcəllasıdır ki, eynən "mərifət" də xalqda Haqqı görməkdir. Haqqın carçısı olan aşıq öz missiyasını xalqın içində, məclislərdə yerinə yetirir. Gördüyünü-eşitdiyini nəzmə çəkə-çəkə, sevənləri qovuşduran Allaha dua etməklə yeni-yeni şeir və dastan nümunələrini yaradır ki, bu da onu aşıqlıqdan aşiqliyə doğru olan yolun yolçusuna çevirərək dastanlaşdırır. Dastanlardan da məlum olduğu kimi aşığın sevgisinə sadiqliyi, ağrı-acılara sinə gələrək dözümlülük göstərməsi, özündən böyük ustadların məclisinə iznsiz girməmək, ustada müraciətində "məndən salam olsun, ay kamil ustad" deyə müraciət etməsi və s. kimi xüsusiyyətləri özündə cəm edərək aşıq sənətində ucalmağı bacarmışlar. Aşıq daima yol gedən olub ki, bu da onun sənətindən gələn əsas məqamlardan biridir. Məclislərdə gözəlliyi vəsf edən aşıqların yaradıcılığına nəzər saldıqda görürük ki, ata qızını yaxud bəy nişanlısını vəsf etməyi aşıqdan xahiş edir. Nəzərə alsaq ki, bu statusa sahib olmanın yolu ədəb-ərkandan keçir. Onda 2-ci mərhələ kimi aşığın əsas missiyalarından biri ədəb-ərkan olduğunu qeyd edə bilərik.

**3. Adət-ənənə**

Adət-ənənə hər bir xalqın çoxəsrlik tarixindən gələn ülvi varlıqdır ki, bu da özlüyündə ən böyük mədəniyyət hadisəsidir. Bu mənada hər bir xalqın onu təlqin etmək məsuliyyəti daha çox sənətçilərin üzərinə

düşür. "Azərbaycan xalqının milli mədəniyyətində müstəsna rol oynamış aşıq sənəti tarixi boyu müxtəlif adlar daşımış, zəngin və uzun inkişaf yolu keçmişdir. (H.İsmayılov, 2002. 6, s. 320). Bu türk xalqlarının dastanlarında özünü daha qabarıq göstərir. Aşıqlarımız öz yaradıcılığında bu mövzuya xüsusi həssaslıqla yanaşmışlar. İstər təbiətdən, istərsə də cəmiyyətdən gələn adət-ənənələrin aşıq poeziyasında öz əksini tapması bu sənətin bilavasitə çox missiyalı olmasının bariz nümunəsidir.

**Qurbanidə:**

Başına döndüyüm, ay qəşəng Pəri
Adətdir dərərlər yaz bənövşəni.
Ağ nazik əlinlə dər dəstə bağla
Tər sinən üstünə düz bənövşəni (Az. Dast. Ə.Cəfərli, H.İsmayılov, S.Axundova, 2005. 2, s. 74).

**M.P.Vaqifdə:**

Başına döndüyüm toy adamları
Siz də deyin toya gələn oynasın.
Adını demirəm eldən ayıbdı
Filankəsin qızı, filan oynasın (H.Araslı, 2004 10, s. 89).

**Aşıq Ələsgərdə:**

İltimas eylərəm gedən canlardan
Dost-düşmən içində yar oynamasın.
Cavandı oynamaq ona xoş gəlir
Bizə əysikliyi var, oynamasın (İ.Ələsgər, 2003. 7, s. 109).

Bu nümunələrdən göründüyü kimi adət-ənənə aşıq və şairlərimizin yaradıcılığında olmaqla yanaşı onu həssaslıqla özündən sonrakı nəslə ötürmə bacarığı sənətkarlıq tələb edir və bu daha çox aşıqlarda öz əksini tapır. Aşıq sənətinin mükəmməl bilicisi və ilk qadın aşıqlar ansamblının yaradıcısı şairə Məlahət Yusif qızının "Novruz bayramı" adətlərini tərənnüm etməsi yeni bir nümunə kimi maraqlı görünür:

**Məlahətdə:**

Duzlu kökə bişər, qızlar qol açar
Oğul sevib gələr, istəyi daşar.
Ana barmaqları gəzər, dolaşar
Göyərçin bir qızın telinin üstə.

Bu axşam nə övlad, nə yar yoldaşam
Mən nə Məlahətəm, nə söz savaşam.

Bir novruz şamıyam, yanaram axşam
Yurdumun yuvamın elimin üstə
(M.Yusifqızı, 1991. 12, s. 4).

Belə nümunələr aşıq sənətində çoxluq təşkil etməklə yanaşı, aşıqlarımız tərəfindən sözlə musiqinin təbliği nəticəsində sonrakı nəsillərə ötürülmə missiyasını əks etdirir. Bu bir növ həmin hadisələrin iştirakçısına çevrilməklə adət-ənənələrin daşıyıcısı kimi də diqqətimizi cəlb edir. Beləliklə, aşığın 3-cü missiyası adət-ənənələrin daşıyıcısı-tərənnümçüsü olmasıdır.

**4. Ərazi**

Aşıq sənətində ərazi amili çox önəm daşıyır. Dastanlarımızın yaranmasında aşıqlarımızın bir ərazidən digər əraziyə keçməsinin şahidi oluruq ki, bu da hadisələrin fövqündə sözün qüdrətiylə musiqinin birləşdiyi an sənətkarın ortaya qoyduğu sənət əsərinin yaranmasına səbəb olur. Ərazi məsələsi aşıq sənətində istər dastanlarda, istərsə də şeir parçalarında öz əksini tapır və xüsusi əhəmiyyət kəsb edir. Aşıqlar sözlə ərazilərin xəritəsini çəkir. Aşıq Qəribdə bu daha poetik görünür.

**Aşıq Qəribdə:**

Səhər namazını Hələb özündə
Günorta namazını Qarsın düzündə.
Axşam namazını yar Tiflisində
Mövlam qanad verdi uçdum da gəldim
(Aşıq Kamandar, "Aşıq Qərib dastanı" 3.s. 54:16 dəqiqədə https://www.youtube.com/watch?v=PAVJIjjf5Ks).

**Şah İsmayıl dastanında Gülzarın İsmayılla deyişməsi:**

Qəndəhardan gələn oğlan
Dur get oğlan mən səninəm.
Məni dərdə salan oğlan
Dur get oğlan mən səninəm.
(Ə.Cəfərli, H.İsmayılov, S.Axundova, 2005. 4, s. 213).

**Aşıq Ələsgərdə:**

Adım Ələsgərdi, Göyçə mahalım
Dolanım başına mən dərdin alım.
Hüsnün şöləsinə xəstə xəyalım
Pərvanədi, şəmistanlar dolanır (İ.Ələsgər, 2003. 7, s. 53).

Yuxarıdakı nümunələrdən də göründüyü kimi aşıqlar bu və ya digər dərəcədə əraziləri, yaxud yaşadıqları yerləri qeyd etməklə

türklərin yaşadığı torpaqların xəritəsini cızmış olurlar. Bu da bir növ gələcək nəsillərə ötürülmə missiyasını daşıyır. Qeyd etmək lazımdır ki, ən dolğun poetik şeirlər aşıqların səfər etdikləri zaman başlarına gələn hadisələrdən sonra yaranır ki, bu da aşıq sənətində xüsusi yeri olan nümunələrdən hesab olunur.

**5. Ruhi-qida**

Hər bir musiqi janrının əsas funksiyalarından biri də ruhi qidadır. Musiqi ta qədimlərdən bəri müalicə məqsədi ilə də istifadə olunur ki, həm fiziki həm ruhun vücuduna təsir etmə gücünü əks etdirir. Aşıq musiqisinin insan varlığına təsirindən danışarkən ilk növbədə təbiətlə insanın bağlılığını sevməyi, eyni zamanda mübarizə aparmağı təlqin edən ən təsirli vasitə olduğunu görürük. Qəhrəmanlıq dastanlarında döyüşdən qabaq aşığın saz çalması, oxuması, igidləri mübarizəyə ruhlandırması heç də təsadüfi deyildir. Sevginin və musiqinin insan ruhuna təsirini digər vasitələrdən ala bilməsini təsəvvür etmək çətin olduğu kimi, musiqini çatdırmaq da eyni tərzdə xüsusi istedad tələb edir. Bu mənada aşıq sənətinin təsir gücünü anlamaq üçün həmin mühitdə doğulmaq önəmlidir. Musiqi sərhəd tanımasa belə fəlsəfi musiqilərdə bəzən sərhəd olduğunu görürük. Bunun bir səbəbi də kiçik yaşlarından ana laylası ilə böyüməkdən gəlir ki, sazın melodiyası həmin laylaların kodları ilə ruhumuza işləyir. Bu praktiki olaraq müxəmməsin, nəzəri olaraq ruhun-qidası ilə eyniləşmədə tamamlanır ki, bütövlükdə aşıq sənətinin əsas elementlərindən birinə çevrilir.

**Z.Yaqubda:**

Aşığın ilk sözü ilk söhbətidir
Qıfıllı qapıya açar "Divani".
Deyirlər məclisdə el hikmətidir
Bağlayar "Müxəmməs" açar "Divani"
(Z.Yaqub, 1986. 13, s. 99).

Aşıq sənəti bu mənada digər janrlardan çox fərqlidir. Yuxarıda qeyd etdiklərimiz özlüyündə elmi təfəkkürün dərin qatlarından süzülüb gələn sonda musiqi ilə təqdim olunaraq dinləyiciyə ötürülən sənət hadisəsidir. Burada sözün əsl mənasında sənət və sənətkarlıq üzə çıxır ki, bu da insan ruhunun məhsuluna çevrilməsini təmin edir. Musiqi ilə sözün vəhdəti bəzi hallarda bir-birini üstələyir. Daha dəqiq desək biri digərini arxa plana atır. Aşıq sənəti tək şəxsin timsalında təqdim olunduğu üçün: 1. Şeir demək, 2. İfa etmək, 3. Oxumaq, 4. Özünümüşayiət, 5. Oxuduğunu təhlil etmək və bunları ayaq üstə

hərəkət edərək təqdim etmək istedadla yanaşı fiziki gücə bağlıdır. Ona görə də bəzən fiziki gücü zəif olan sənətkarlarda birtərəfli ifa alınır ki, sonda ya musiqi, ya da oxunuş arxa plana düşür. Apardığımız araşdırmalar onu göstərir ki, son dövrlərdə aşıqlar daha çox musiqinin ruhi qida tərəfinə (bəzən əyləncə də demək olar) üstünlük verərək sonuncu missiyanı yerinə yetirirlər. Bunun bir tərəfi də aşığın keçmişdə olduğu kimi meydanının olmamasıdır. Qeyd edim ki, hər bir sənətkar dövrünün və mühitinin yetirməsidir. Zaman-zaman dövrün yeniliklərini özündə daşıyan aşıq sənəti 5 praktiki, 5 nəzəri prinsipləri özündə birləşdirərək günümüzə qədər gəlib çatmışdır.

## QAYNAQLAR


1. A.Axundov. Azərbaycan dilinin fonemlər sistemi. Bakı, Maarif, 1973, 302 s.
2. Azərbaycan dastanları. Ə.Cəfərli, H.İsmayılov, S.Axundova.Yeni nəşr 1-ci cild. Bakı, Çıraq. 2005. 424 s.
3. Aşıq Kamandar. Aşıq Qərib dastanı. https://www.youtube.com/watch?v=PAVJIjjf5Ks 54:16 dəq.
4. Ə.Cəfərli, H.İsmayılov, S.Axundova Azərbaycan dastanları Yeni nəşr. 3-cü cild Bakı, Çıraq, 2005, 440 s.
5. H.İsmayılov. M.Abdal. Bakı, Səda, 2001, 287 s.
6. H.İsmayılov. Aşıq yaradıcılığı: Mənşəyi və inkişaf mərhələləri. Bakı, Elm, 2002, 320 s.
7. İ.Ələsgər. Aşıq Ələsgər. Bakı, Çinar-çap, 2003, 496 s.
8. Yazıçıoğlu A.B. Envarül aşıkın, Hak aşıklarının nurları. İstanbul: Bedir Yayınevi, hicri 1403, miladi 1983, 592 s.
9. M.H.Təhmasib. Azərbaycan məhəbbət dastanları. Bakı, 1979, 504 s.
10. M.P.Vaqif. Əsərləri. Bakı, Şərq-Qərb, 2004, 362 s.
11. M.Qasımlı. Ozan aşıq sənəti. Bakı, Uğur, 2011, 304 s.
12. M.Yusifqızı. Od parçası. Bakı, Yazıçı, 1991, 64 s.
13. Z.Yaqub. Od aldığım ocaqlar. Bakı,Yazıçı, 1986, 150 s.

# AŞIQ ƏLƏSGƏR ŞEİRLƏRİNDƏ OBRAZLILIĞIN GÖSTƏRİCİLƏRİ

# INDICATORS OF IMAGE IN ASHUG ALASGAR'S POEMS

# ПОКАЗАТЕЛИ ОБРАЗА В СТИХАХ АШУГА АЛЕСКЕРА

**Nigar HƏSƏNOVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*nigar.qasanova.80@mail.ru*

**Summary**

Ashug art has been included in the UNESCO Intangible Cultural Heritage List by the decision of the UAE Committee for the Safeguarding of the Intangible Cultural Heritage. Thus, the art of Azerbaijani ashig has also been confirmed as one of the ancient arts of cultural heritage. The study of the art of ashig, the work done to preserve it and pass it on to future generations, raises the issue of constant attention. The article is devoted to the study of lexical and phraseological features of Ashug Alasgar's poetic language. In order to give a full impression of the lexical-semantic features of the language of Ashug Alasgar's poems, the classification of language units was given, it was emphasized that lexical-semantic categories were presented in a new stylistic tone in the poet's language. can get important facts with.

As it is known, the basis of phraseology is figurative expressions created by the people. From this point of view, attention was paid to the study of phraseological units that are in direct harmony with the content of the ashig's poems, as well as the proverbs used by the ashig in accordance with the subject were involved in the research.

The system of metaphors used in the poems during the research is brought to attention on the basis of selected examples. It is noted that the language of Ashug Alasgar's poems is distinguished by deep imagery, richness of artistic description and expression, emotional qualities.

**Key words**: Ashug Alasgar, language, phraseological expression, poem, description, metaphor, address

**Резюме**

Ашугское искусство было включено в Список нематериального культурного наследия ЮНЕСКО решением Комитета ОАЭ по охране нематериального культурного наследия. Таким образом, искусство Азербайджанского ашуга также было подтверждено как одно из древних искусств культурного наследия. Изучение искусства ашуга, работа,

проделанная для его сохранения и передачи будущим поколениям, ставит вопрос о постоянном внимании. Статья посвящена исследованию лексико-фразеологических особенностей поэтического языка Ашуга Алескера. Для полного представления о лексико-семантических особенностях языка стихотворений Ашуга Алескера дана класссификАция языковых единиц, подчеркнуто, что лексико-семантические категории представлены в новом стилистическом тоне в языке поэта кан. получить важные факты с помощью.

Как известно, основу фразеологии составляют созданные народом образные выражения. С этой точки зрения внимание было уделено изучению фразеологизмов, находящихся в прямом соответствии с содержанием стихотворений ашугов, а также использовались пословицы, используемые ашугом в соответствии с тематикой исследования.

Система метафор, использованная в стихотворениях в ходе исследования, доведена до сведения на основе выбранных примеров. Отмечается, что язык стихов Ашуга Алескера отличается глубокой образностью, богатством художественного описания и средств выражения, эмоциональными качествами.

**Ключевые слова:** Ашуг Алескер, язык, фразеологическое выражение, стихотворение, описание, метафора, обращение.

Azərbaycan xalqının qədim və zəngin milli sərvəti olan aşıq sənətinin qorunması, inkişaf etdirilməsi, araşdırılması olduqca vacib məsələlərdəndir. Tədqiqatçılar bəzən heca vəznli poeziyanın, o cümlədən aşıq sənətinin XI-XII əsrlərdə farsdilli poeziya ilə yanaşı mövcud olduğunu və XIII-XIV əsrlərdə el şairi kimi tanınan Molla Qasım kimi nümayəndələrinin gəraylı, qoşma, təcnis yaratdığını da qeyd edirlər. Bəziləri isə aşıq poeziyasının XVI əsrdən sonra yaranması fikrindədirlər. Ancaq başqa bir həqiqət də vardır ki, aşıq poeziyası XVI əsrə qədər mövcud olmasaydı, Qurbani və ümumiyyətlə, Şirvan, Təbriz, Anadolu, Göyçə aşıq məktəbləri kimi qüdrətli improvizatorçuluq ənənələrinin həmin əsrlərdə formalaşması mümkün olmazdı (5, 8). Firidun bəy Köçərlidən indiyədək aşıq şeirinin dili ardıcıl şəkildə öyrənilir, ustad aşıqların şeir dili araşdırmaya cəlb edilir. XVIII-XIX əsrlərdə Azərbaycan aşıq sənəti yüksək bir mərhələyə çatmışdır. Aşıq Ələsgəri yetirən aşıq mühiti Ələsgərə qədər Miskin Abdal, Ağ Aşıq, Aşıq Alı, Aşıq Durxan, Aşıq Musa, şair Məmmədhüseyn, Ələsgərin atası Alməmməd kimi sənətkarlar el arasında geniş yayılmış və nüfuz qazanmışdır. Atası Alməmməd böyük ailəni dolandırmaqda çətinlik çəkərkən Ələsgəri kilçik yaşında qonşusu Kərbalayı Qurbana nökər

vermişdir. Daha sonra Ələsgərin saza-sözə marağını hiss etdikdə Göyçənin ustad aşıqlarından olan Aşıq Alıya şəyird verir. Ələsgər müdriklərdən eşitdiyi kəlamları hafizəsində möhkəmləndirir. Həmçinin Şərqin şifahi bədii söz sənətini dərindən öyrənir, Nizami, Nəsimi, Füzuli, Nəbati kimi dahilərin poetik irsinə bələd olur.

İlk məhəbbəti nakam olan Aşıq Ələsgərin həyatı asan keçməmiş, həm ailəsində olan ağır, üzüntülü hadisələr, eləcə də 1905 və 1918-ci illərdə törədilən milli qırğın, faciələr aşığın yaradıcılığına hopmuşdur. Aşıq Ələsgər Qarabağda, Gəncədə, Naxçıvanda, İrəvanda, Tiflisdə, Türkiyədə məclislər qurmuşdur. Dövrünün məşhur aşıqları olan Daşkəndli Aşıq Nəcəf, Dərəçiçəkli Aşıq Alı, Aşıq Mikayıl, Aşıq Qurban, Aşıq Ağayar və başqaları Aşıq Ələsgərin yetirmələri olmuşlar. Aşıq Ələsgərin bir sıra məşhur aşıqlarla – Şəmkirli Aşıq Hüseyn, Aşıq Şenlik, Zodlu Aşıq Məhəmməd və Bozalqanlı Aşıq Hüseynlə üzbəüz və ya yazılı deyişmələri olmuşdur.

1971-ci ildə Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyi qeyd edilmişdir.

Aşıq Ələsgər şifahi və yazılı şeirin şəkillərindən – gəraylı, bayatı, qoşma, təcnis, cığalı təcnis, divani, müxəmməs, qəzəl və digərlərindən məharətlə istifadə edərək kamil nümunələr yaratmışdır. Aşıq Ələsgərin yaradıcılığı, söz dünyası zəngindir. Onun əsərlərində leksik laylar, frazeoloji vahidlər bədii dilin üslubi imkanlarının artırılmasında böyük rola malikdir. Hər hansı bir aşıq, el şairi ümumxalq dilinə, canlı danışıq dilinə kifayət qədər bələddir, xalqımızın adət-ənənələrinin, məişətinin, etnoqrafiyasının bilicisidir. O səbəbdəndir ki, aşıq və el şairlərinin yaradıcılığındakı zəngin dil faktlarından istifadə ustalığını aşkar etmək, araşdırmaq mühüm əhəmiyyətə malikdir. Aşıq Ələsgərin əsərlərində xalqımızın tarixi, mənəviyyatı, psixologiyası, arzuları yaşayır. Bu əsərlərdə xalqımızın həyat tərzinin canlı təsviri, mənzərəsi əks olunur. Odur ki, bu bədii nümunələrdə sözün ifadə imkanlarının müəyyənləşdirilməsində zəngin material mövcuddur. Aşıq Ələsgərin dilində omonimlərin, sinonimlərin, antonimlərin, alınma sözlərin, arqo sözlərin, arxaizmlərin, dialektizmlərin, frazeoloji vahidlərin struktur tiplərini müşahidə etmək mümkündür.

**Arxaizmlər.** Aşıq Ələsgərin şeirlərində qeydə aldığımız leksik vahidlər vardır ki, bu gün dilimizin aktiv lüğət fondundan çıxmışdır.

Xişmə gəlib, bir əlində götürdü,
Səksən min *batman*lıq dəri- Xeybəri (1, 29).
Erkək kəsib, ağır məclis qururdu,

*Şülən* çəkilirdi malların, dağlar! (1, 42)
Bir əmliyin min *tümənə* satılı,
Xəzəl olu yenə pulların dağlar! (1, 42)
Müddətdi, gözümdən olubdu *iraq*,
Əridib cismimi dərdü-qəm, fəraq (1, 61).

Burada "8 kiloqram" çəki vahidi anlamında *batman* sözü, "qonaqlıq" anlamında *şülən* sözü, "10 manat" məbləği bildirən *tümən* sözü, uzaq mənasını ifadə edən *iraq* sözü işlənmişdir.

**Alınmalar.** Elə bir dil təsəvvür etmək olaz ki, orada başqa dillərdən alınmış söz işlənməsin. Lakin başqa dillərdən keçən söz o zaman uğur qazana bilər ki, həmin dildə onun işlənməsinə ehtiyac hiss olunsun. Başqa dildən gələn sözlərin bədii əsərdə istifadəsinə ədəbiyyatşünaslıqda varvarizm deyilir. Aşıq Ələsgərin yaradıcılığında müşahidə etdiyimiz bir sıra örnəklərə diqqət edək:

Nərə çəkib təpinəndə *saldata*,
Sel kimi axıdır qanı Dəli Alı (1, 45).
*Meşoğ* ilə *patron*, qutuyla *piston*,
Yox kimsədən ehtiyatı Bəylərin (1, 34).
*Mərhəba,* nəmxuda
*Afərin*, əhsən, *malades.*
Cahanda yoxdur tayın
Dünyada təksən, malades.

Göründüyü kimi, burada ərəb sözü olan *mərhəba*, fars sözü olan *afərin*, rus sözü olan *malades* ifadələri işlədilmişdir.

Nümunələri nəzərdən keçirərkən burada türk mənşəli sözlər, türkləşmiş ərəb-fars mənşəli sözlər, rus dili və rus dili vasitəsilə keçmiş Avropa mənşəli leksika müşahidə edilir.

Aşığın şeirlərində yar-sevgili, əğyar-düşmən, ləb-dodaq, busə-öpüş kimi səciyyəvi leksik vahidlər də işlənir.

**Onomastik vahidlər.** Onomastik vahidlər özünəməxsus poetik effekt verməklə yanaşı, klassik aşıq şeirinin dil estetikasını təqdim edir. Dilimizin onomastik leksikasının öyrənilməsində klassik aşıq poeziyasında işlənən yer-yurd adlarının öyrənilməsinin əhəmiyyəti böyükdür. Mənfur düşmənlər tərəfindən yer-yurd adlarımızın saxtalaşdırıldığı bir dövrdə yurd adlarımızın ədəbiyyatımızda yaşaması fakt ortaya qoyulması üçün ən tutarlı sübutlardandır. Həsən Mirzə yazır: "Xalq yaradıcılığında işlənən onomastik vahidlərin köməyilə yaddaşlardan silinən, köhnəlib işləklikdən düşən, forma və quruluşunu dəyişən sözləri yada salmaq, sirri açılmayan bir çox xüsusi adların

sirrini açmaq, Azərbaycan xalqının hansı ərazilərdə yaşamasına, hansı xalq və ölkələrlə siyasi-iqtisadi əlaqədə olmasına dair çoxlu faktları üzə çıxarmaq mümkündür” (7, 7).

Gözün talan salar *Azərbaycana,*
Dilin istər *Alosmanı* dağıtsın (1, 40).
*Kəpəz, Murov, Qonur* – gör neçə dağ var
Üstünə nur yağsın, ay dəli *Qoşqar!*

Z.Kərimova müasir aşıq şeirinin dilini araşdırarkən qeyd edir ki, aşıq şeirində işlənən ənənəvi onomastika özünəməxsus poetik effekt doğurmaqla yanaşı, klassik aşıq şeirinin dil estetikasını davam etdirir (6, 13).

**Sözlərin semantik xüsusiyyətləri.** Omonimlər, sinonimlər, antonimlər linqvopoetik hadisələrdir. Aşıq Ələsgərin yaradıcılığını araşdırarkən şeir dilinin lüğət tərkibi, poetik leksikası, o cümlədən omonimlik, sinonimlik, antonimlik kimi leksik-semantik zənginliyi aydın olur.

*Təzə* aşnalıqla *köhnə* dostluğun,
Fərqi var *qış* ilə *yaz* arasında (1, 30).
Sən *ağ* çalsan, mən də *göy* çal olmuşam,
Lazımdı ki, çalın qədrin çal bilə (1, 35).

**Frazeologizmlər.** Frazeologiya yalnız dil hadisəsi deyil, xalq təfəkkürünün estetik məhsuludur. Frazeologizmlərin zənginliyi dil-üslub xəlqiliyinin sübutudur. Frazeologiyanın əsasını xalqın yaratdığı obrazlı ifadələr təşkil edir. Deyimlər, frazeologizmlər, atalar sözlərindən istifadə xalq danışıq dilini əks etdirir, aşığın dilinin təbii, sadə, canlı təqdim olunmasında xüsusi rol oynayır. “Dilimizin milli ruhunu, əlvanlığını, ifadəli və obrazlı olmasını əks etdirən bu leksik vahidlərdən, bu milli ifadələrdən söz sənətkarları özlərinin fərdi poetik üslubuna müvafiq şəkildə istifadə edərək ilk növbədə poetik kontekstin obrazlılığını və ifadəliliyini təmin etmişlər. Bədii materialların dil və üslub baxımından təhlili göstərir ki, mövzusundan asılı olmayaraq frazeoloji ifadələr poetik mətndə hiss və duyğuların, poetik motivlərin, estetik fikir aydınlığının, bədii gözəllik mənbəyinin açarıdır” (3, 10). Bu baxımdan aşığın şeirlərində birbaşa məzmunla ahəngdarlıq təşkil edən frazeoloji vahidlərin araşdırılmasına diqqət yetirərək bir sıra nümunələri qeydə almışıq:

Seyiddən, molladan, dostdan xəcalət,
Bu nə *dağdı, sən sinəmə çəkirsən*?! (1, 38)
Hanı mən gördüyüm qurğu-büsatlar?!
Dərdməndlər görsə, tez *bağrı çatlar* (1, 42).

*Günüm qara keçdi*, işim ahü-zar (1, 49).
Ah çəkməkdən *bağrım qana dönüb*dü (1, 51).

**Atalar sözləri.** Atalar sözləri və məsəllərin bədii imkanları olduqca genişdir. B.Xəlilov yazır: "Atalar sözləri və məsəllər keçmiş nəsillərin çoxcəhətli fəaliyyətində əldə etdikləri nəticələri yeni nəslə yetirmək üçün işlədilir. Bəzən atalar sözləri və məsəlləri frazeologiyanın tərkib hissəsinə daxil etməyin heç bir mənası yoxdur. Çünki atalar sözləri və məsəllərdə obrazlılıq daha güclüdür" (4, 272). Az sözlə dərin məna, geniş fikir ifadə etmək bədii dilin əsas, ən vacib şərtlərindəndir. Şifahi xalq yaradıcılığı növlərindən olan atalar sözləri, zərb məsəllər nəzərdən keçirildikdə bu cəhət aydın müşahidə olunur. Aşıq Ələsgər şeirlərinin təsir gücünü daha qüvvətləndirmək məqsədilə atalar sözlərindən yerli-yerində istifadə etmişdir.

*Namərddə qaydadı: kəsər basdığın,*
Hər kəs hesab çəksin öz arasında (1, 30).

"İgid basdığını kəsməz" atalar sözü başqa formada işlənmişdir.

Ələsgərəm, qəmü-möhnətdi yüküm,
*Fil çəkməz bu dərdi, mən necə çəkim*?! (1, 30)

"Dərd bir olsa, o yükü çəkməyə nə var?!" atalar sözü fərqli şəkildə təqdim olunmuşdur.

Göhər sözüm məclislərdə yayılı,
Arif ondan mətləb qanıb ayılı (1, 32).

"Arifə bir işarə ayıya min kötək" atalar sözünü aşıq özünəməxsus çalarda işlətmişdir.

*"Can" deməklə candan can əysik olmaz,*
Məhəbbət artırar, mehriban eylər (1, 59).

Təkrar olunan *can* sözləri həm fikri qüvvətləndirir, həm də şeirə musiqililik gətirir.

**Xitablar.** Xitabların, poetik müraciətlərin geniş üslubi funksiyası da qeyd edilməlidir. Aşığın dilində işlənən xitablar bədii dilin dəyərini artırır, dinləyicinin diqqətini bir yerə cəlb etməyə xidmət edir. Adətən ey, ay nidaları ilə işlənir. Sadə və mürəkkəb quruluşlu xitabları izləmək mümkündür. İnsanlara müraciətlə işlənən xitablara, digər canlı varlıqlara, eləcə də cansız varlıqlara müraciətlə işlənən xitablara rast gəlinir.

Ələsgərəm, yandım aman, əl-aman,
Belə mürvət olmaz, *ay qaşı kaman* (1, 40).

və ya

Xəstə könül gəzir bu təmənnada,
*Möminlər pənahı,* sən yetiş dada! (1, 39)

və ya

*Dad sənin əlindən, çarxı-kəcmədar* !
Ürəyimdə yüz dərmansız yaram var (1, 48).
*Gözəllər sultanı, mələklər xanı,*
*Qaytarmazlar pirə gələn qurbanı* (1, 63).

**Bədii təyin.** El sənətkarlarımız bədii təyinlərin yaradıcısıdır. Akademik Tofiq Hacıyev qeyd edir ki, yalnız obrazlılıq qazanmış qrammatik təyin bədii təyinə çevrilir və bədii obyektin estetik xarakteristikasında mühüm rol oynayır; bədii predmetin oxucu düşüncəsinə nüfuz etməsi və ya həyat predmetinin bədii predmetə çevrilməsi qrammatik təyinin bədii keyfiyyətindən çox asılıdır. Qrammatik təyinin bədii təyinə çevrilməsinin müvəffəqiyyəti təyin vəzifəsindəki sözün semantik konstruksiyası – qrammatik qəlib yox, həm də konstruksiyanı təşkil edən leksik tərkibin mündəricəsi, qrammatik qəlibin içərisindəki məzmun, anlayışın bədii fiquru – təyini təqdim edir (2, 32).

Aşıq Ələsgərin dilində qeydə aldığımız və dilimizin zənginliyinə xidmət edən bədii təyinlərə nəzər salaq:

*Büllur buxaq, lalə yanaq, ay qabaq*
Şahmar zülfü pərişanlar dolanır.
*Xəstə könül*, sürün dost irahına,
İslam sərdarına, din pənahına (1, 56).
Mən sana nə deyim, ay *mina gərdən* ?! (1, 62)
Getmə göz önündən, ay Şəkər xanım,
Könül mayıl olub o *qələm qaşa* (1, 63).
O *cəllad qaş*ların qəhri, qəzəbi
Qəsd eylər cismindən canı dağıtsın (1, 40).
*Sürahi gərdənli*, qəddi mötədil,
*Zəbərcəd kəlməli*, misali-bülbül (1, 40).
Qənd əzilib dilə, dişə, dəhana,
*Qaymaq dodaqlara* bal bələnibdi (1, 67).

**Təşbeh.** Aşıq Ələsgərin dilində çox rast gəlinən bədii təsvir vasitələrindən biri də təşbehdir. Məcazın sadə növlərindən olan təşbeh əşya və ya hadisənin müəyyən əlamətə görə özündən daha qüvvətli əşya və ya hadisəyə oxşadılmasıdır.

*Şairin sinəsi haqq bazarıdı,*
Satdığı *kəlmələr ləl-mirvarıdı* (1, 27).
*Dodağın qönçədi, dişlərin sədəf,*
Qaşların qüdrətdən qara, Bəyistan! (1, 33)
Ələsgər qurbandı belə gəlinə,
*Sona kimi cumub eşqin gölünə* (1, 67).

Qəmgin idim, sizi görüb gülürəm,
*Qaşınız qiblədi, səcdə qılıram* (1, 69).
*Tovuz kimi şux bəzənib* durubsan,
Ala gözə siyah sürmə vurubsan (1, 70).
Canım qurban olsun belə bir *dost*a,
*Mərtəbəsi hündür*, *nəfsi şikəstə* (1, 34).

**Metafora.** Aşığın dilində metaforanın gözəl nümunələrini izləmək mümkündür.

Otuz altıyla cəm olubdu on yeddi,
*Xəstə dilim* bu yollara *bələdd*i (1, 26).
Gahdan qeyzə gələr, nahaq qan eylər,
*Dinşəməz haramı, halalı dağlar* (1, 41).
*Könlümün şüşəsi*, saqın ki sınar,
Toxunarsa ayna daşa, dayanmaz (1, 44).

**Mübaliğə.**

*Günahım dəryadı, özüm qanmışam*,
Tutduğum işlərə çox utanmışam (1, 28).

**Metonimiya.** Sənətkar metonimiya nümunələrində təsvirin verilməsində bacarığını ustalıqla təcəssüm etdirmişdir.

İbrahimtək hörmət qoyur mehmana,
Heydər kimi nərə çəkir düşmana
Qələm Zülfüqartək kəsir hər yana,
*Evlər yıxır "zarafatı"* Bəylərin (1, 34).

Ələsgərəm, hər elmdən halıyam,
Gözəl, sən dərdlisən, mən yaralıyam,
Dedi: "Nişanlıyam, özgə malıyam",
Sındı qol-qanadım, yanıma düşdü.

Burada "sındı qol-qanadım yanıma düşdü" misrasında məcazilik metonimiyaya əsaslanır. Çünki sözdən qol-qanad sınmaz. Pərtlik, ümidsizlik mənalandırılaraq metonimiya yaradılıb.

**Poetik nitqdə intonasiya.** Şifahi nitqdə intonasiya sual, nida, əmr yaradan vasitədir. İntonasiya bədii nitqdə semantik əlaməti müəyyənləşdirməyə xidmət edir. Aşığın dilində nəqli cümlələr vasitəsilə arzu, istək, xahiş, tələb və s. bildirilir:

Həsrət qoyma gözü-gözə, amandı!
Yandı bağrım, döndü közə amandı!

və ya

Oxuduğun Quran hardadı, hanı?
Hansı yola dəvət edir insanı.

Ümumi suallardan fərqli olaraq xüsusi suallar sual əvəzliklərinin köməyilə yaranır.

Aşıq Ələsgərin yaradıcılığı zəngin bədii dil xüsusiyyətlərinə malikdir. Bədii ifadə və bədii təsvir vasitələrindən ustalıqla istifadə edilmişdir.

## QAYNAQLAR


1. Aşıq Ələsgər (Şeirlər, dastan-rəvayətlər, xatirələr). Bakı, Çaşıoğlu, 2004, 488 s.
2. Hacıyev T.İ. Təyin, bədii təyin və oksimorn haqqında. "Molla Nəsrəddinçinin üslubu" mövzusunda elmi konfransın materialllları. Bakı, 1968
3. Hüseynova M.N. Aşıq və el şairlərinin üslubi frazeologiyası. Bakı, 2017, 112 s.
4. Xəlilov B.Ə. müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, 2008
5. Xəlilov N.Q. Aşıq yaradıcılığı və yazılı poeziya. Bakı, Elm, 2012, 325 s.
6. Kərimova Z. Müasir aşıq şeirinin dili. Filologiya elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2003, 24 s.
7. Mirzə H. Aşıq poeziyasında yaşayan adlarımız. Bakı, 1997.
8. Namazov Q. Ozan-aşıq sənətinin tarixi. Bakı, Elm və təhsil, 2013, 480 s.

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞI VƏ AZƏRBAYCAN POEZİYASI

# AZERBAIJAN POETRY AND THE CREATIVITY OF ASHUG ALASKAR

# ТВОРЧЕСТВО АШУГА АЛЕСКЕРА И АЗЕРБАЙДЖАНСКАЯ ПОЭЗИЯ

**Nizami MURADOGLU**
*Filologiya elmləri doktoru*
*AMEA Folklor İnstitutu*
*nizamimurad@gmail.com*

**Summary**

Ashug Alaskar is the most prominent representative of folk creativity in 19th century. Ashug was born in the village Agh kylse of Goycha district of Iravan province. He was born and lived at the period that occupation of Azerbaijan by Russian Empire. He also suffered from the injustice of Russia as well as local peasants. Naturally born with innate talent, Ashug was inclined to the work of ashugs, and he learned tales, epics, legends and poems that he heard from the ashugs. As his childhood he interested in poetry and attention to art , his father sent him to Ashug Alim for learning ashig creativity. Alaskar's artistic heritage, which later became a master ashug has been a source of inspiration for ashug creativity and for young poets. Most Azerbaijani poets write couples and gerayli (the main genres of Azerbaijani Ashig poetry) under the influence of Ashug Alasker. Ashug Alaskar's poems still keep their artistic influence.

In the article the role of the Ashug Alasker will discuss on that creativty of Azerbaijan poets.

**Key words:** Azerbaijan, Ashug Alasgar, goshma, poet, saz, keyword

**Резюме**

Ашуг Алескер - самый яркий представитель народного творчества XIX века. Ашуг родился в селе Агкилисе Гёйченского района Иреванской области.Ашуг жил в Азербайджане во время оккупации царской России. Несчастная жизнь крестьян, угнетенных русскими, была судьбою и Алескерой. На долю Алескера выпала и жалкая жизнь угнетенных под русским гнетом крестьян. Алескер, рожденный от природы с врожденным талантом, был склонен к ашугскому творчеству, мастер складывал в сундуки услышанные от ашугов сказки, былины, легенды и стихи. С детских лет его интерес к поэзии и искусству привлек к нему внимание, и отец отправляет его для изучение. Устад – учителем Алескера был Ашуг Алы. Художественное наследие Алескера, который впоследствии сам стал мастером-ашугом, на долгое время становится

источником вдохновения ашугского творчества и в то же время молодых поэтов. Большинство азербайджанских поэтов под влиянием поэзии Ашуга Алескера пишут гошмы и карайлы. Стихи Ашуга Алескера и сегодня сохраняют силу художественного влияния.

В статье также будет подробно рассказано о роли Ашуга Алескера в творчестве современных азербайджанских поэтов.

**Ключевые слова:** Азербайджан, Ашуг Алескер, гошма, поэт, саз, слово

**Giriş.** Ümumtürk aşıq poeziyası inkişafında ali məqama yüksəlmiş, şərəfli yer tutan sənətkarlardan biri qədim Azərbaycanın Göyçə mahalından səsini dünyaya duyuran Aşıq Ələsgərdir. Aşıq Ələsgər bu günə qədər heç bir aşığın qalxa bilmədiyi böyük söz zirvəsini fəth edərək, aşıq şeirinin, demək olar ki, bütün şəkillərində müxtəlif məzmunlu sənət inciləri yaratmışdır. Aşıq Ələsgər qeyri-adi fitri qabiliyyət sahibi olduğundan yaratdığı əsərlər bu gün də el məclislərinin bəzəyidir.

Aşıq Ələsgərin həyatına qısa bir nəzər yetirək: Ələsgərin haqqında yazılan məlumatlara görə 1821-ci ildə anadan olmuşdur. Təbiətən fitri istedad ilə doğulan Ələsgər aşıq yaradıcılığına meyl salmış, ustad aşıqlardan eşitdiyi nağıl, dastan, əfsanə və şeirləri sinəsinə yığmışdı. Uşaq yaşlarından şeirə, sənətə olan marağı diqqəti cəlb elədiyindən atası onu Aşıq Alının yanına şəyirdliyə göndərir.

Son dövrlərdə aşığın həyatı ilə bağlı müxtəlif fikirlər səsləndirilsə də, bir həqiqət gün kimi aydındır ki, Aşıq Ələsgərin doğulduğu və yaşadığı zaman Azərbaycanın Çar Rusiyası tərəfindən işğalı dövrünə təsadüf edir.

**Tədqiqatın məqsədi** Aşıq Ələsgər dühasının özündən sonrakı yaradıcı nəsillərə bədii-estetik təsirini öyrənməkdir. Bu məqsədlə araşdırmada **tarixi, müqayisəli metoddan** istifadə edilmişdir.

Araşdırma zamanı müəyyən olunmuşdur ki, çar Rusiyasının işğalı və zülmü altında əzilən Azərbaycan kəndlilərinin acınacaqlı həyatı Ələsgərin də qismətinə düşmüşdü. Bütün soydaşları kimi çar zülmü altında tarixdə görünməmiş əzab-əziyyət çəkən aşıq yeri gəldikcə öz etiraz səsini ucaltmışdır. Bunu aşığın şeirilərində də görmək mümkündür:

Pristav, naçalnik gələndə kəndə,
Obanı, oymağı vururlar bəndə.
Xərc üstə çoxları düşdü kəməndə
Qamçıda belinin qatı çıxıbdı (2, 171).

Şeirdə işlənən "pristav", "naçalnik" sözlərini çar üsul-idarəsi öz zülmü ilə bərabər XIX əsrdə Azərbaycana gətirib milli leksikonumuza

daxil etmişdi. O dövrdə məhz bu titulun sahibləri tətbiq etdikləri ağır vergi qanunları ilə Azərbaycan kəndlilərinin dərisini soyur, var-yoxunu talayır, badi-xəracı ödəyə bilməyənləri tutub zindana salırdılar. Aşıq Ələsgərin də ustalığı onda idi ki, dövrün cəlladlarını öz adları ilə nəzmə çəkirdi. Bu günün prizmasından baxanda gözlərimizin önündə rus zülmünün acınacaqlı səhnələri kino lenti kimi canlanır.

Onu da qeyd edək ki, bu dövrdə rus işğalçılarının zülmü o qədər genişlənir ki, Qasım bəy Zakir də Mirzə Fətəli Axundova müraciətlə yazdığı "Vilayətin məğşuşluğu haqqında" satirik şeirində zəmanədən şikayətlənir:

Gündə bir gətirir zakoni-tazə,
Fikri budu xalqi verə güdazə.
Bizdən də məhrəmdi biri knyazə,
Naməhrəm, fizuli heyvərə, yanşaq (4, 22).

Göründüyü kimi eyni dövrdə, lakin ayrı-ayrı mahallarda yaşayan hər iki şairin eyni mövzuda şeir yazmaları zamanın diktəsi idi. Məhz zamanın ağırlığına, zülmün həddən artıq tətbiq edilməsinə baxmayaraq qorxmadan öz duyğularını bəyan edən hər iki şairin yaradıcılığı bu gün də öyrənilir, araşdırılır.

Aşıq Ələsgərin XIX əsr xalq yaradıcılığının ən görkəmli nümayəndəsi kimi, nəinki aşıq sənətinin və milli aşıq poeziyasının, eyni zamanda çağdaş Azərbaycan poeziyasının inkişafında böyük rolu olmuşdur və vardır. Ələsgərin qeyri-adi istedada malik olması, yaratdığı şeirlərin müxtəlifliyi, bənzərsizliyi, forma rəngarəngliyi, bədii düşüncəni özünə cəlb edə bilməsi bu əsərlərin ağızdan ağıza keçərək bu günə qədər şifahi yaddaşda yaşamasına səbəb olmuşdur. Təsadüfü deyildir ki, bu gün də ayrı-ayrı yaşlı adamların dilində Aşıq Ələsgərin qoşmalarına, gəraylı və təcnislərinə rast gəlmək mümkündür. Məhz buna görə də yüksək bədiiliyi, ümumbəşəri didaktik fikirləri ilə Aşıq Ələsgər yaradıcılığı zamanında və özündən sonra da yaşayıb yaradan aşıq və şairlərin diqqətini cəlb etmişdir.

Belə ki, Aşıq Ələsgərin bədii irsi uzun zaman aşıq yaradıcılığının və eyni zamanda gənc şairlərin ilham mənbəyinə çevrilir. Azərbaycanın əksər şairləri Aşıq Ələsgər şeirinin təsiri ilə qoşma və gəraylılar yazırlar.

Səməd Vurğun yazırdı ki, "Hansı mövzuya əl atıram, hansı daşı qaldırıram, altında Dədə Ələsgərdən bir nişanə görürəm". Məhz onun nəticəsi idi ki, bir çox şeirlərində, o cümlədən "Dağlar" adlı gəraylısında Aşıq Ələsgər ruhu açıq-aydın seçilir, hətta qafiyələnmə sistemi demək olar ki, təkrar olunur:

Qayaları baş-başadır,
Güneyləri tamaşadır.
Gödək ömrü çox yaşadır,
Canım dağlar, gözüm dağlar! (6, 85)

Eynilə Aşıq Ələsgərin "Dağlar" qoşmasında möhürbəndin qafiyələnməsi ilə oxşarlıq təşkil edir. Əsas fərq S.Vurğunda şeirin gəraylı, aşıq Ələsgərdə qoşma şəklində yazılmasıdır.

Həsən nənə, Həsən baba qoşadı,
Xoşbulaq yaylağı xoş tamaşadı.
Arsız aşıq elsiz niyə yaşadı,
Ölsün Ələsgər tək qulların, dağlar! (2, 38)

Yaxud Səməd Vurğunun digər "Dağlar" adlı gəraylısına baxaq:

Laçınların göydən enməz,
Qayaların baxar dinməz,
Yaman gündə üzün dönməz,
Pozulmaz ilqarın, dağlar! (6, 232)

Aşıq Ələsgərin digər "Dağlar" qoşmasındakı bəndin ümumi məzmunu ilə oxşarlıq özünü büruzə verir.

Ağ xələt bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib keyfinə dəyməz,
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli-qalalı dağlar (2, 36).

Aşıq Ələsgər sənətindən mayalanan və bunu bütün yaradıcılığında əks etdirən şairlərdən biri də Məmməd Arazdır. Məmməd Arazın poeziyasında xalq ruhu, milli xüsusiyyətlər, xəlqilik məfkurəsi əsas yer tuturdu. Şairə görə hər bir yazar öz xalqının milli məfkurəsini, mənəviyyatını, məişətini, musiqisini, folklorunu bilmədən xalqın ruhunu oxşayan incilər yarada bilməz. Məmməd Araz xalq musiqisini, aşıq sənətini, muğamlarımızı həm sevirdi, həm də onları bilirdi. Uşaqlıqdan yaddaşına köçmüş aşıq şeiri, xalq ədəbiyyatının inciləri bütün yaradıcılığı boyunca şairin yol yoldaşı oldu.

Şair aşıq sənətinə xüsusi məhəbbətlə yanaşırdı, saza, sözə yüksək qiymət verirdi. Sazlı-sözlü Vətən sevgisindən danışır, bu sevginin böyüklüyünü, ülviliyini tərənnüm edirdi. Uşaqlığından Aşıq Ələsgərin qoşmalarının təsirindən ayrıla bilməyən Məmməd Araz yaşadığı zaman içində bir an da olsun aşıq sənətindən, sazın həzin sədalarından ayrı düşmədi, hər zaman aşıqları dinlədi, ən gözəl duyğularını saz sədaları altında dilə gətirdi, könül yaddaşından ağ vərəqlərin yaddaşına köçürüb elin, xalqın mənəvi sərvətinə çevirdi.

Məmməd Araz çoxşaxəli yaradıcılığında aşıq şeiri formalarından istifadə edərək mükəmməl qoşma və gəraylılar yazmışdır. Məlumdur ki, qoşma hər bəndi dörd misradan ibarət olub, misraları on bir hecalı, tez əzbərlənən, yadda qalan, lakonik və çevik şeir şəklidir. Məmməd Araz da bu şeir şəklindən istifadə edərək otuzdan artıq dillər əzbərinə çevrilmiş qoşmalar yaratmışdır. Şairin "Əlvida dağlar", "Salamat qal", "Nə bilim", "Nəyimə gərəkdir", "Qızlar" kimi qoşmaları toy məclislərində, şənliklərdə aşıqlar tərəfindən sevilə-sevilə oxunur.

Şairin "bulaq başında" qoşması Aşıq Ələsgərin "Gördüm" qoşması ilə səslənməsinə və ahənginə görə bir-birinə oxşasa da, fərqli cəhətləri də vardır. Aşıq Ələsgər bulaq başında zalım ovçu tərəfindən vurulmuş yaralı maralı görübsə, onun yaralarını sarımaq istəyi ilə qəlbi alovlanıb coşursa, Məmməd Araz sarışın saçlı, qara qaşlı bir qız görür, onun baxışlarından özü yaralanır, ondan vədə almaq istəyir, sevənlər dilsiz də bir-birlərini başa düşürlər, baxışlar sabahı göstərir. Müqayisə üçün hər iki ustadın qoşmasını nümunə kimi göstərək:

Aşıq Ələsgərdə:

Gedirdim, güzarım düşdü bulağa,
Ovçu bərəsində maralı gördüm.
Yatıb inildəyir, durub boylanır,
Bir neçə yerindən yaralı gördüm.

Zalım ovçu onu alıb nişana,
Dəyib yaman güllə, boyayıb qana.
Çox incidir, dönür o yana-bu yana,
Kəsilibdir səbri, qərarı gördüm.

Təbib olsam, yaraların bağlaram,
Sinəm üstə düyünlərəm, dağlaram.
Ələsgərəm, o səbəbdən ağlaram.
Ananı baladan aralı gördüm (3, 111).

Məmməd Arazda:

O qızı görəndə bulaq başında,
Qəlbimdə kükrəyən bulağı gördüm.
Laləli-nərgizli çəmən içində,
Laləyə rəng verən yanağı gördüm.

Saçı sarışındı, qaşları qara,
Baxışı baxanı çəkirdi dara.
Könül verməmişdi hələ bir yara,

Dodaq görməmişdi dodağı gördüm.

Ona könül açdım çatıldı qaşı,
Söz deyə bilmədi sözümə qarşı.
Bu dəmdə böyürdən çıxdı qardaşı.
Tutuldu tez qaşı-qabağı gördüm.

Sevənlər dilsiz də danışacaqdır,
"Gələn görüşümüz – dedim – nə vaxtdır?"
Qız dönüb gözaltı gözümə baxdı,
Bu gizli baxışda sabahı gördüm (5, 116).

Qeyd edək ki, hər iki qoşma "Gördüm" rədiflilidir. Aşıq Ələsgərdən fərqli olaraq Məmməd Araz qoşmanın adını "Bulaq başında" adlandırmışdır. Aşıq Ələsgərdə qoşma üç bənddən ibarətdir və sonuncu möhürbəndidir. Məmməd Arazda isə qoşma dörd bənddən ibarətdir və qoşmanın möhürbəndi yoxdur.

Aşıq Ələsgər poeziyası qadın şairlərimizin yaradıcılığında öz təsirini göstərməkdədir. Çağdaş qadın şairlərimizdən biri də Adilə Nəzərdir. Onun "Dağlar" qoşması ilə Aşıq Ələsgərin "Dağlar" qoşmaları arasında ruh oxşarlığı diqqəti cəlb edir.

Adilə Nəzərdə:

Hanı yamacların gülən gözləri,
Hanı çiçəklərin həmən nazları,
Ah çəkər, of eylər aşıq sazları -
Bürüyər canımı dumanı, dağlar (1).

Aşıq Ələsgərdə:

Hanı bu yaylaqda yaylayan ellər?!
Görəndə gözümdən car oldu sellər.
Seyr etmir köysündə türfə gözəllər,
Sancılımır buxağa güllərin, dağlar! (2, 38)

Göründüyü kimi Adilə Nəzər də Aşıq Ələsgər ruhlu bu qoşması ilə çağdaş poeziyamızın səhifələrini zənginləşdirib, "Dağlar"a yeni rənglər əlavə edibdi. Fikrimizi tam aydınlığı ilə çatdırmaq məqsədi ilə qoşmaların daha bir bəndinə nəzər salaq:

Adilə Nəzərdə:

Yüzünü itirdim birin tapalı,
Haqq-nahaq arası bağlar qopalı.
Əl-qolum bağlıdır, ağzım qapalı,
Mən necə yaşayım zamanı, dağlar (1).

Aşıq Ələsgərdə:

Köçər ellər, düşər səndən aralı,

Firqətindən gül-nərgizin saralı.
Ələsgər Məcnun tək yardan yaralı,
Gəzər səndə dərdli, nalalı, dağlar! (2, 36)

**Nəticə.** Sonda onu deyə bilərik ki, çağdaş Azərbaycan poeziyasının elə bir nümayəndəsini tapmaq olmaz ki, dağlar haqqında şeir yazarsa, orada Aşıq Ələsgərin nəfəsi duyulmasın. Təbii ki, bu kimi göstəricilər Aşıq Ələsgər poeziyasının qüdrətini, bədii siqlətini göstərən xoş əlamətlərdəndir. Aşıq Ələsgər sənəti daim yaşayacaq, özündən sonrakı nəsillərə nümunə olacaqdır.

Dühasının böyüklüyünü nəzərə alaraq Respublika Prezidentinin "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi" haqqında imzaladığı sərəncama əsasən ölkənin hər yerində aşığın sənəti, sözü haqqında tədbirlər keçirilir. Arzumuz odur ki, aşığın vətəni Göyçə mahalı işğaldan azad olunsun, Dədə Ələsgərin məzarını ziyarət edə bilək. Qəlbimdən gələn nida belədir:

Qürbətdə bir məzar var – Ələsgərin məzarıdır.
Aşıq dedim, üz döndərdi, Dədə bizdən narazıdır!..

## QAYNAQLAR


1. Adilə Nəzər. Dağlar. 17.04. 2021. https://m.facebook.com/story.php?story_fbid=3902869603125754&id=100002082595965
2. Aşıq Ələsgər. Əsərləri, Bakı, Şərq-Qərb, 2004, 400 s.
3. Aşıq Ələsgər. Bakı: Elm, 1963, 328 s.
4. Qasım bəy Zakir. Seçilmiş Əsəsrləri. Bakı, Avrasiya Press, 2005, 400 s.
5. Məmməd Araz. Seçilmiş əsərləri. 4 cilddə, II c. Bakı, Ozan, 2003, 332 s.
6. Səməd Vurğun. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, Şərq-Qərb, 2005, 248 s.

# AŞIQ ƏLƏSGƏR HAQQINDA OLAN DASTAN-RƏVAYƏTLƏR

# EPOS-NARRATING ABOUT ASHUG ALASKER

# ДАСТАН-ПРЕДАНИЯ ОБ АШЫГА АЛЕСКЕРА

**Nurlanə MƏMMƏDOVA**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*memmedovanurlane89@gmail.com*

**Summary**

Ashug Alasker was in the center of attention with his life, personality, creativity, innate talent both during his life and after his death. All these qualities determine the urgency of the study of his legacy and the texts written about him. There are various legends and autobiographical epics about the personality and creativity of ashugs, which played an important role in transmitting information about their identity to the next generation. Taking this aspect into account, the main points of Ashug Alasker's life and work will be analyzed in the article on the basis of legends and epics attributed to him. Because many episodes here allow to form an idea about the life and work of the ashug. Thus, these materials are an artistic expression of historical truths.In these texts it is possible to see all stages of the life of the ashug, the main features of his creativity, his attitude to the ashugs of his time, his human qualities. Although these materials contain parts added later, it is important for me to study the life and work of the ashug.

**Key words:** Ashug Alasker, minstrel activity, epos-narrating

**Резюме**

Ашыг Алескер был в центре внимания своей жизнью, личностью, творчеством, врожденным талантом как при жизни, так и после смерти. Все эти качества определяют актуальность изучения его наследия и написанных о нем текстов. Существуют различные легенды и автобиографические эпопеи о личности и творчестве ашугов, которые сыграли важную роль в передаче информации об их личности следующему поколению. Принимая во внимание этот аспект, в статье будут проанализированы основные моменты жизни и творчества Ашыга Алескера на основе приписываемых ему легенд и эпосов. Потому что многие эпизоды здесь позволяют составить представление о жизни и творчестве ашугов. Таким образом, эти материалы являются художественным выражением исторических истин. В этих текстах можно увидеть все этапы жизни ашугов, основные аспекты его творчества, его отношение к ашугам своего времени, его человеческие качества. Хотя эти материалы содержат детали, добавленные позже, для меня важно изучить жизнь и деятельность ашугов.

**Ключевые слова:** Ашыг Алескер, ашугское творчество, дастан-предания

Aşıq yaradıcılığı şifahi və yazılı ədəbiyyatın ortaq xüsusiyyətlərini daşıyan, sənətin sinkretizmini yaşadan bir sahədir. Aşıq şeir şəkillərinin xalq şeir şəkillərinə və poetik ölçülərinə əsaslanması, aşıq poeziyasının şifahi şəkildə yaranması, aşığın improvizatorluq qabiliyyəti aşıq yaradıcılığını folklor hadisəsi kimi qiymətləndirməyə əsas verir. Xalq yaradıcılığına məxsus olan anonimliyin və kollektivliyin pozulması aşıq yaradıcılığını şifahi xalq ədəbiyyatından fərqləndirməyə imkan yaradır. Aşıq poeziyasının müəllifinin məlum olması, aşığın şəxsiyyətinin, fəaliyyət göstərdiyi məkan və zamanın bilinməsi, onun yaradıcılığının əsas xüsusiyyətləri barədə məlumatların olması faktı mübahisəli sualların ortaya çıxmasına səbəb olur. Lakin bu xüsusiyyətlər aşıq yaradıcılığını folklordan ayırmaq üçün tutarlı dəlillər deyildir. Belə ki, aşıqların şəxsiyyəti və yaradıcılığı haqqında sonrakı nəslə məlumatın ötürülməsində avtobioqrafik dastan-rəvayətlərin mühüm rolu olmuşdur. Bu dastan-rəvayətlərdə Aşıq Ələsgərin həyatının hər bir mərhələsi xronoloji ardıcıllıqla əks etdirilir. Aşıq Ələsgərin gəncliyi, qocalığı, zəhmətə və əməyə olan sevgisi, dövrünün aşıqlarına və şagirdlərinə olan münasibəti, deyişmələri, bağlamaları açma məharəti, məclislərdəki gözəlləri vəsf etməsi, şeirlərinin yaranma səbəbi və şəraiti, onun baş verəcək hadisələri öncədən yuxuda görmək və insanların fikirlərindən keçənləri oxumaq qabiliyyəti, bədahətən dediyi şeirləri oğlu Bəşirin yazıya alması faktı bu dastan-rəvayətlərdə öz əksini tapmışdır. Aşığın gənclik və qocalıq illərinin əsas tarixi hadisələrini əhatə edən bu dastan-rəvayətlər aşığın həyat və yaradıcılığını öyrənmək baxımından mühüm mənbə rolunu oynayır. Düzdür, bu mətnlərdə uydurma motivlər, reallıqdan uzaq olan hadisələr vardır. Buna səbəb bu mətnlərin aşıqlardan, onun şəyirdlərindən şifahi şəkildə toplanmasıdır. Buna görədir ki, Aşıq Ələsgərin yaradıcılığının tədqiqatçısı İslam Ələsgər bu dastan-rəvayətləri iki qismə bölmüşdür:

1. Real həyat hadisələri əsasında yaradılmış dastan-rəvayətlər
2. Xəyalən yaradılmış “dastanlar”

Toplularda yer alan “Dastan-rəvayətlər” başlığı şərti xarakter daşıyır. Aşıq Ələsgərlə bağlı yaranmış mətnləri “Hekayət” də adlandırmaq olar. Onların kim tərəfindən, necə və hansı şəkildə yarandığının məlum olmaması, müəllifsiz olması bu tipli söhbətlərin adlandırılması problemini ortaya çıxarır. Bu mətnlər aşığın həyat və yaradıcılığının əsas məqamlarının ortaya çıxmasına kömək edən yeganə mənbədir.

Məsələnin bu tərəfi anlaşılmazlıq yaratsa da, şərti olaraq "Dastan-rəvayət" adlandırılması daha məqsədəuyğundur. Çünki bu hekayətlərdə nəzmlə nəsrin növbələşməsi, aşığın yaradıcılığından parçaların olması bu söhbətlərin dastan kimi səciyyələnməsinə gətirib çıxarır. Rəvayət isə həqiqətən olmuş, lakin dəqiqliyini itirmiş bədii mətnlərdir.

Bu mətnlər müxtəlif mənbələrdən toplanmışdır. Aşığın şəyirdlərindən, qohumlarından və kənd sakinlərindən toplanan bu yazıların aşığın yaradıcılığının gizli qalan tərəflərinin üzə çıxarılmasında əhəmiyyəti böyükdür. Bu mənbələr içərisində aşığın şəyirdlərinin hafizəsindən yazıya alınan dastan-rəvayətlər tarixi həqiqətlərin əks olunduğu real variantlardır.

Dastan-rəvayətləri məzmun və mahiyyətinə görə şərti olaraq 3 qrupda təhlilə cəlb etmək olar:

1) Aşıq Ələsgərin həyatı və yaradıcılığı ilə bağlı dastan-rəvayətlər;

2) Aşıq Ələsgərin dövrünün aşıqlarıyla görüşü ilə əlaqədar yaradılmış dastan-rəvayətlər;

3) Aşıq Ələsgərin səfərləri ilə bağlı dastan-rəvayətlər.

Birinci qrupa "Ələsgərlə Səhnəbanı", "Aşıq Ələsgər Yanşaqda", "Anaxanımın küsməyi", "Bəşirin Molla Rəhimi vurması", "Qoca baxtım", "Dəyirmançı aşıq", ikinci qrupa isə "Aşıq Ələsgərlə Şəmkirli Aşıq Hüseynin görüşü", "Aşıq Alının Aşıq Ələsgərlə deyişməsi", üçüncü qrupa "Aşıq Ələsgər Qarabağlıların yaylağında", "Aşıq Ələsgərin Şınıq səfəri", "Aşıq Ələsgərin Naxçıvan səfəri", "Aşıq Ələsgərin Türkiyə səfəri", "Aşıq Ələsgərin Qaraqoyunlu səfəri", "Aşıq Ələsgərin İrəvan səfəri", Aşıq Ələsgər Kəlbəcərin Qılışlı kəndində" dastan-rəvayətlərini daxil etmək olar. Bu bölgü ona görə şərti xarakter daşıyır ki, istər Aşıq Ələsgərin səfərləri, istərsə də digər aşıqlarla münasibəti ilə bağlı olan mətinlərdə aşığın həyat və yaradıcılığının müəyyən cizgilərini görmək mümkündür. Aşıq Ələsgərin həyat və yaradıcılığı ilə bağlı olan dastan-rəvayətlər sırf onun həyatı ilə əlaqədardır. Digər bölgülərdə isə uydurma motivlər, sonradan əlavə edilmiş, dəqiqliyini itirmiş hissələr vardır.

Hər bir dastan Aşığın həyat və fəaliyyətinin müəyyən bir cəhətini üzə çıxarır. "Ələsgərlə Səhnəbanı" dastan-rəvayətində aşığın ilk məhəbbətinin uğursuzluqla nəticələnməsi, sevgililərin bir-biri ilə qovuşmaması, "Aşıq Ələsgər Yanşaqda" dastan-rəvayətində isə Ələsgərin 40 yaşında Anaxanımla ailə həyatı qurması, dastan yaratması, zəhmətə, əməyə bağlılığı, xalq arasında ona hörmət edilməsi, onun

iştirakı ilə toy məclislərinin keçirilməsi üçün növbələrin olması faktları vardır. “Qoca baxtım” dastan-rəvayəti aşığın həyatının son illərində baş verən maraqlı əhvalat üzərində qurulmuşdur. Ona verilən öküzün itməsi, qaçan öküzü geri qaytarmaqda çətinlik çəkməsi hissəsi dastanın bu şəkildə adlandırılmasına gətirib çıxarmışdır:

Səksəni, doxsanı ötübdü yaşım,
Qovğaya düşübdü bəlalı başım.
Əzrayıl həmdəmin, məzar yoldaşım,
Daha köç təblini çal, qoca baxtım! (3, s. 362)

“Dəyirmançı aşıq” dastanı da onun qocalıq illərinin hadisələri ilə bağlı məlumatlarla zəngindir. Ermənilərin törətdikləri ixtilafla əlaqədər Aşıq Ələsgərin ailəsinin Göyçəni tərk edib Qanlı kənd ərazisinə köçməsi, burada aşığın dəyirmana gedib-gəlməsi tarixən mövcud olmuş hadisələrdir. Bu əsərdən görmək mümkündür ki, aşığın şeirlərini oğlu Bəşir yazıya almışdır: “Bu heç çəkiləsi dərd döyül. Kağız-qələm gəti, deyim, dərdimi yaz! Bəşir daha sözü çöyürmədi, kağız-qələm gətirdi. Görək Aşıq Ələsgər nə dedi, Bəşir nə yazdı” (3, s. 373).

“Bəşirin Molla Rəhimi vurması” dastan-rəvayətində tarixi həqiqətlərlə zəngindir. Aşığın həyatında həqiqətən belə bir hadisə baş vermiş, oğlu Bəşir xalası oğlu Molla Rəhimi təsadüfən güllələmişdir. Sibirdən sürgündən qayıdan xalası oğlunun öz oğlu tərəfindən öldürülməsi, Sibirin 28 illik əzab-əziyyətinə dözən Molla Rəhimin öz vətənində belə bir hadisə ilə rastlaşması aşığın həyatında dərin izlər buraxmışdır. İslam Ələsgər bu mətnin dastan-rəvayət adlandırılması əleyhinə çıxmışdır: “Aşığın kitablarında “Dastan-rəvayətlər” bölməsində özünə yer tapan “Bəşirin Molla Rəhimi vurması” həyatda baş vermiş hadisədir. Odur ki, bunu “dastan” adlandırmaq düzgün deyildir. “Rəvayət” hesab eləmək də olmaz. Çünki burada nağıllanan hadisə danılmaz, təkzib edilməz həqiqətdir” (6, s. 68). Müəllifin fikirlərində doğruluq payı olsa da, əsərdə cərəyan bir çox hadisələr, “Baxıcı məsələsi” bu əhvalatın dastan-rəvayət adlandırılmasına gətirib çıxara bilər.

Bu dastanda aşığın xarakterinin bəzi məqamları üzə çıxmışdır. Aşığın qəzavu-qədərə inanması bu dastan-rəvayətin əsas motivini təşkil edir. Sibirdə olarkən baxıcı Molla Rəhimə öz vətənində Bəşir adlı bir nəfər tərəfindən öldürülməsi haqqında məlumat vermişdir. Baxıcı məsələsinə Aşıq Ələsgərdən başqa heç kim inanmır. Bu məlumatdan sonra aşıq həmişə oğlunu tüfəng istifadə edərkən ehtiyatlı olmağa çağırmışdır. Ümumiyyətlə, dastanlarda bəzi məsələlər vardır ki, təəccüb oyadır. Belə bir hadisənin olması faktına şübhə yaranır. “Aşıq Ələsgərlə

Şəmkirli Aşıq Hüseynin görüşü" dastan-rəvayətində Aşıq Ələsgərin Aşıq Hüseynin onların evinə gəlməsini öncədən yuxuda görməsindən bəhs edilir. "Dastanda özünün bədii ifadəsini tapan yuxu əhvalatı dinləyiciləri (oxucuları) maraqlandıran əsas məsələdir. Həqiqətənmi belə bir şey olub, yoxsa aşıqların uydurmasıdır? Aşığın şəyirdlərinin, yaxın qohumlarının digər qocaların söyləmələrinə görə, bu möcüzə də həqiqətdir" (6, s. 35). İslam Ələsgər "Aşığın yuxusu" məqaləsində bu məsələyə toxunmuş, aşıqda adamların fikrindən keçənləri bilmək, xəstə adamı əfsunla əvvəlki sağlam vəziyyətinə qaytarmaq qabiliyyətinin olması barədə məlumat vermişdir. Müəllifin bu əhvalatların gələcək taleyi barədə gəldiyi qənaət doğruluğu ilə diqqəti cəlb edir: "Aşığın həyatı ilə bağlı belə həqiqətlərin bir çoxu indi bizim üçün rəvayətdirsə, bizdən sonrakılar üçün əfsanələrə çevriləcəkdir" (5). Belə bir hadisənin həqiqiliyi, bu möcüzənin olması faktı aşığın qeyri-adi fitri istedada sahib olduğunu göstərir. "Zaman keçdikcə, Aşıq Ələsgərdə insanı heyrətdə qoyan möcüzəli xüsusiyyətlər aşkar edilirdi. Onun "Deyin" rədifli müxəmməsindəki misralarından təxmin etmək olar ki, kənarda cərəyan edən hadisələrdən xəbər vermək qabiliyyəti Aşığa sonradan bəxş olunmuşdur. Aşıq burada çox aydın şəkildə "əsər tapmağına", Haqq tərəfindən ona verilən qeyri-adi fitri qabiliyyətə işarə etmiş və bunun tarixini də göstərmişdir: miladi ilə 1875-ci il" (7, s. 29).

"Aşıq Ələsgər Yanşaqda" dastan-rəvayəti başqa cəhətdən diqqəti cəlb edir. Qozqara kötüyünün dilindən öz sözlərinə cavab verməsi, pişiklə bağlı hadisə də Aşığın dastan yaratmaq təşəbbüsünün nəticəsi idi. Aşığın başqa dastanlarında da onun dastan yaratmaq ənənəsinin elementlərini görmək mümkündür. M.H.Təhmasib "Ələsgərlə Səhnəbanı" dastan-rəvayətinin aşığın özü tərəfindən yaradıldığı fikrinin üzərində dayanmışdır (8). Bu əhvalatda Aşıq Ələsgərin Zöhrə ilə deyişməsi tədqiqatçının fikirlərinin doğruluğuna şərait yaradır. "Ələsgərlə Səhnəbanı" dastanının süjet xətti məhəbbət dastanlarına çox yaxındır. Belə ki, bu mətni iki gəncin bir-birinə olan sevgisi, onların bu sevgisi qarşısında olan maneələr, aşiq və məşuqə kömək etməyə çalışan obrazlar, aşiqin öz sevgilisinin dərdi, həsrəti ilə yaşaması kimi epizodlar məhəbbət dastanı kimi səciyyələndirməyə əsas verir. Bu mətnin son variantı belə qurtarır: "Ələsgər kəndə qayıdanda gördü ki, lələ köçüb, yurdu ağlıyır; Səhnəbanı gedibdi. Kərəm Əslisiz, Əsli Kərəmsiz, Məcnun Leylisiz, Leyli Məcnunsuz yaşıya bilmədi, əmə Ələsgər Səhnəbanısız, Səhnəbanı da Ələsgərsiz yaşadı. Ələsgər 40 yaşına qədər öylənmədi, məclislərdə, qanan adamların

yanında öz dərdinnən danışdı, nalə çəkdi. Axırda Cavanşir mahalının Yanşaq kəndinnən Nəbinin qızı Anaxanımnan öyləndi, ömrünün axırına qədər onnan yaşadı, gün keçirib uzun ömür sürdülər. Sizin də ömrünüz uzun, günnəriniz xoş keçsin!..” (3, s.211). Əslində bu hissə dastana sonradan daxil edilmişdir: “Əlbəttə, bu deyilənlər Ələsgərin ailə həyatı ilə maraqlanan oxucuları (dinləyiciləri) intizardan qurtarmaq üçün dastan söyləyənin sonradan dastana etdiyi əlavədir” (6, s.27). Bunu nəzərə alsaq, dastan məhəbbət dastanlarında olduğu kimi bir-birinə qovuşa bilməyən sevgililərin dərdi və həsrəti ilə bitir: “Aşıq Alı Ələsgəri götürüb, özüynən barabar apardı. Onnar gedənnən bir neçə gün sonra Pullu Məhərrəm toy elədi; Səhnəbanıyı ağlada-ağlada oğlu Mustafıya aldı. Leyliyi Məcnunnan, Məcnunu Leylidən, Əsliyi Kərəmnən, Kərəmi Əslidən eliyən zalım fələk Ələsgəri Səhnəbanıdan Səhnəbanıyı da Ələsgərdən elədi...” (3, s.211). Bizim fikrimizcə, bu dastan ilkin variantda Aşığın özü tərəfindən yaradılmış, digər aşıqların və kəndin yaşlı nəslinin nümayəndələrinin dilində əlavələr edilmişdir. Belə nəticəyə gəlmək olar ki, ustad aşıq kimi Ələsgərin də yaradıcılığında dastan qoşmaq ənənəsi vardır. “Aşıq Ələsgər dastan yaratdığını etiraf eləmir. Amma yaradıcılığını nəzərdən keçirdikdə, belə bir qənaətə gəlmək olar ki, Aşıq dastan yaratmaq təşəbbüsündə olmuşdur. İstər Zöhrənin, istər Qozqara kötüyünün, istərsə də Həcər xanımın dilindən şeirlər qoşub öz şeirlərinə deyişmə yaratması dastan xüsusiyyətidir” (6, s. 4). Zənnimizcə, “Aşıq Ələsgərlə Həcər xanım” dastan-rəvayətini də Aşıq Ələsgər özü yaratmışdır. Dastanda Həcərlə aşıq arasında olan deyişmə epizodları bu fikrə gəlməyə əsas verir. Bu dastanda ailə qurmaq məsələsində qadın azadlığının tanınmasının, söz hüququnun verilməsinin müdafiəsinə qalxılır. İlk məhəbbəti Səhnəbanının öz hüququnu müdafiə edə bilməyib, əmisi oğluna ərə getməsi faktı Aşıq Ələsgəri bu mövzuya toxunmağa gətirib çıxarmışdır.

Aşıq Ələsgər məclislərdə bir çox aşıqlarla deyişmişdir. Bu deyişmələr içərində onun ustadı Aşıq Alı ilə deyişməsinin əhəmiyyəti böyükdür. Bu barədə əlimizdə olan yeganə mənbə “Aşıq Alının Aşıq Ələsgərlə deyişməsi” dastan-rəvayətidir. Bu rəvayətdə ustad-şagird qarşılaşması təsvir olunur. Maraqlıdır ki, bu rəvayət Aşıq Ələsgərin əsərlər toplusuna daxil edilməmişdir. Biz bu rəvayət barədə Aşıq Alının 2006-cı ildə çap olunan əsərlər toplusundan məlumat alırıq. Bu dastanın bir neçə variantı vardır. Ustadla şagirdin deyişməsi barədə inandırıcı görsənməyən variantlar da vardır. Bir variantda göstərilir ki, aşıqların məclisində Alı ilə Ələsgər deyişmiş, Aşıq Alı ona cavab verə

bilmədiyi üçün məğlub olur. İkinci variant isə Aşıq Alı Aşıq Ələsgəri tam yetişdirdikdən sonra özü qəsdən məclis qurur, şagirdinin hörmətini qaldırmaq üçün bilərəkdən məğlub olur. Üçüncü varianta əsasən ustad və şagird arasında söz olur. Ələsgər qəzəblənib müəllimi ilə deyişir və onu bağlayır. Bu variantlar real görsənmir. Ən real variant Aşıq Alının əsərlər toplusuna daxil edilən variantdır. Rəvayətdə qeyd olunur ki, Aşıq Alı ilə Aşıq Ələsgərin arasını vurmağa çalışan kələkbazlar Aşıq Alıya yalan məlumat çatdırır, Aşıq Ələsgərin onun sözlərini bəyənmədiyini deyirlər. Aşıq Ələsgərin etirazına baxmayaraq, öz şagirdini susdurmaq məqsədilə deyişməyə girən ustad məğlub olur. Dastanda "Qıjhaqıj", " İçində", "Dal-dala" rədifi üzərində qurulan deyişmələr vardır. "Aşıq Alı gördü ki, Ələsgər sözü yekunlaşdırdı, təxəllüsünü bənddə demədi. Dedi ki, ay oğul, mən sözü yekunlaşdırdım axı. Ələsgər cavab verdi ki, ustad, mənim məqsədim məclisin sonuna qədər "dal-dala" rədifi üstündə oxumaqdır. Aşıq Alı dedi ki, ay oğul, mən elə belə də bilirdim, daha mən pas" (1, s. 144).

Aşıq Ələsgərin Aşıq Hüseynlə deyişməsi barədə dastan-rəvayətlər vardır. Bu dastanlarda Ələsgərin deyişdiyi aşığın kimliyi mübahisəli məqamların ortaya çıxmasına səbəb olmuşdur. Bu aşığın Bozalqanlı Aşıq Hüseyn, yoxsa Şəmkirli Aşıq Hüseyn olması bu qarışıqlığın yaranmasına səbəb olmuşdur. Aşıq Hüseyn Bozalqanlı (1868-1941) Aşıq Ələsgərdən (1821-1926) yaşca kiçik, Şəmkirli Aşıq Hüseyn (1811-1891) isə Aşıq Ələsgərdən yaşca böyük olmuşdur. Aşıq Ələsgərin əsərlərinin toplandığı 1963-cü il nəşrində "Aşıq Ələsgərlə Aşıq Hüseyn haqqında rəvayət" vardır. Son toplularda bu variant nəşr olunmamışdır. Bu rəvayətdə Aşıq Hüseynin Aşıq Ələsgərdən kiçik olduğu haqqında məlumat verilir. "Aşıq Ələsgərlə Şəmkirli Aşıq Hüseynin görüşü" dastan-rəvayətində olan deyişmələrdən "Gədə" rədifli dodaqdəyməz "Aşıq Ələsgər Aşıq Hüseyn haqqında rəvayət"də də vardır. Onu da qeyd edək ki, bu deyişmə Aşıq Hüseyn Bozalqanlının əsərlər toplusuna da daxil edilmişdir (4, s. 152-154). "IV Deyişmə" başlığı altında Aşıq Ələsgərlə Aşıq Hüseyn Bozalqanlının "Gəda!" rədifli deyişməsi verilmişdir. Bu deyişmənin Aşıq Ələsgərə aid edilən "Gəda" rədifli dodaqdəyməzi "Aşıq Ələsgərlə Şəmkirli Aşıq Hüseynin görüşü" dastan-rəvayətində olan dodaqdəyməzdir. Lakin Aşıq Hüseyn Bozalqanlıya aid edilən hissə "Aşıq Ələsgərlə Şəmkirli Aşıq Hüseynin görüşü" dastan-rəvayətindəki Şəmkirli Aşıq Hüseynin deyişməsi ilə eyni deyildir. Buradan belə

nəticəyə gəlmək olar ki, Aşıq Ələsgərin deyişmə zamanı tərəf müqabili Aşıq Hüseyn Bozalqanlı deyil, Şəmkirli Aşıq Hüseyn olmuşdur:

**Şəmkirli Aşıq Hüseyn:**

Hüseyndən kənar hərlən,
Səni salar əngələ.
Yenə dağlar nalə çəkir,
Çiskin gələ, çən gələ.
Əzrayıl nər kişidi,
Sinən çəkər çəngələ;
Keçərsən xirdar əlinə,
Addadar sandan, gədə! (3, s. 241)

**Aşıq Ələsgər:**

Ələsgərlə danışanda,
Al əlinə saz, danış;
İnci, səni istəyənlə,
Eylə ərki-naz, danış;
Əyləşəndə ağır əyləş.
Danışanda, az danış;
Eşidənlər "əhsən!" desin
Sana hər yandan, gədə! (3, s. 241)

**Aşıq Hüseyn Bozalqanlı:**

Hüseyn deyər, eşq əhlilər
Atəşə yana gərək.
Şəriəti, şəkkiyyəti,
Təqlidi qana gərək.
Təcnisi, təxnisi
Sayıla sana gərək
Nə seçər xiridarı
Qeyri qanandan gəda! (2, s. 418); (4, s. 154)

Aşıq Ələsgərin bölgələrə səfərləri ilə bağlı yaradılmış dastan-rəvayətlərdə uydurma motivlərin çoxluğu diqqəti cəlb edir. Belə ki, aşığın Müşgünazın tərifi ilə bağlı qoşması iki dastan-rəvayətdə vardır: "Dəyirmançı aşıq" və "Aşıq Ələsgərin Naxçıvan səfəri". Hər iki dastanda olan qoşmalar eynidir. Lakin "Dəyirmançı aşıq" dastan-rəvayətində Müşgünaz qaçqın düşmüş Seyid Qaranın qızıdır, aşığı görmək üçün dəyirmana gəlmiş, ona deyilən tərifdən sonra Aşıq Ələsgərə corab hədiyyə etmişdir. "Aşıq Ələsgərin Naxçıvan səfəri" dastan-rəvayətində isə Müşgünaz Naxçıvanlı Məhəmməd bəyin bacısıdır, Aşıq Ələsgər şəyirdi Nağı ilə onun evinə gəlmişdir. "Aşıq Ələsgərin Şınıq səfəri" dastan-rəvayətində

Aşıq Ələsgər şəyirdi Nağı ilə Fatmagilin evinə qonaq gəlir. Eyni zamanda "Aşıq Ələsgərin Şınıq səfəri" dastan-rəvayətində təsvir olunur ki, toy məclisində Aşıq Ələsgərin şəyirdi Nağı Aşıq Əsədullah və Aşıq Cəfərquluya məğlub olur, sazı əlindən alınır. Bundan sonra Aşıq Ələsgər şəyirdini də götürüb, Aşıq Əsədullahın yanına gəlir və onunla deyişir. Bu süjet xətti "Aşıq Ələsgərin Naxçıvan səfəri" dastan-rəvayəti ilə eynidir. Bundan başqa Aşıq Ələsgərin çəkməçi ilə olan əhvalatı, onun ünvanına "Hayıfsan" rədifli qoşma deməsi hissəsi "Aşıq Ələsgərin Naxçıvan səfəri" və "Aşıq Ələsgərlə Həcər xanım" dastan-rəvayətlərində vardır. Belə nəticəyə gəlmər olar ki, "Aşıq Ələsgərin Naxçıvan səfəri" dastan-rəvayəti sonradan uydurma motivlər və bir neçə dastanda cərəyan edən hadisələrin birləşməsi nəticəsində yaradılmışdır. Bunun nəticəsidir ki, Aşıq Ələsgərin əsərlərinin toplandığı 1963-cü il nəşrində olan bu dastan-rəvayət sonrakı nəşrlərə salınmamışdır (2).

Bu dastan-rəvayətlər aşığın həyat və yaradıcılığı, Azərbaycan aşıq sənətinin Ələsgər zirvəsi haqqında dolğun məlumat verir. Aşığın həyatının hər bir mərhələsinin təsviri onun insani keyfiyyətlətini üzə çıxarmışdır. Xronoloji ardıcıllıqla Aşıq Ələsgər nökər, aşıq və dəyirmançı kimi təsvir olunmuşdur. Bu üç peşə sahibini bir-birinə bağlayan cəhət əməyə sevgi və məsuliyyət hissidir. Aşıq Ələsgərin insanlar arasında tutduğu mövqe, ona olan hörmət və sevgi bu dastan-rəvayətlərin əsas məzmununu təşkil edir.

## QAYNAQLAR


1. Aşıq Alı. Əsərləri / Tərtib edəni və ön sözün müəllifi: H.İsmayılov. Bakı, Avrasiya press, 2006, 192 s.
2. Aşıq Ələsgər. Əsərləri / Tərtib edəni: Ə. Axundov, M. H. Təhmasib. Toplayanı: İ.Ələsgər. Bakı: AzSSR EA, 1963, 486 s.
3. Aşıq Ələsgər. Əsərləri / Tərtib edəni və ön sözün müəllifi: İ.Ələsgər. Bakı, Şərq-Qərb, 2004, 400 s.
4. Aşıq Hüseyn Bozalqanlı. Seçilmiş əsərləri / Toplayanı və tərtib edəni: F.Quliyev, Ə.Quliyev. 2cilddə, I cild. Bakı, Vətən, 2015, 315 s.
5. Ələsgər İslam. Aşığın yuxusu. "Ədəbiyyat" qəzeti, 1992, 5 iyun.
6. Ələsgər İslam. Ələsgər ocağı ilə bağlı yaradılmış dastan-rəvayətlər haqqında. Bakı, Nurlan, 2007, 188 s.
7. Ələsgər İslam. Haqq aşığı Ələsgər. Bakı, Maarif, 1999, 264 s.
8. H.Təhmasib. Ələsgərin dastan yaradıcılığı. "Ədəbiyyat və incəsənət" qəzeti. 1971, 21 avqust.

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞININ SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ

# ARTISTIC FEATURES OF ASHUG ALASGAR'S CREATIVITY

# ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ ТВОРЧЕСТВА АШЫГА АЛЕСКЕРА

**Ramiz QASIMOV**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Naxçıvan Bölməsi*
*ramizqasimli44@gmail.com*

**Summary**

Ashug Alasgar (1821-1926) is one of the most prominent masters of the art of ozan-ashug in Azerbaijan, which has a centuries-old tradition of development. Ashug Alasgar made great contributions to the development of the art of ashug, especially in terms of its form and content enrichment. Therefore, Ashug Alasgar was as famous and respected in the Turkic world as Dada Alasgar. Ashug Alasgar's work is rich in important artistic qualities both in form and content. Along with the artistic and stylistic figures and metaphors molded in the works of Ashug Alasgar, many perfect examples of metaphors created by Ashug Alasgar himself attract attention. His artistic heritage includes metaphors such as epithets, similes, metaphors, as well as artistic contrasts, repetitions and so on. come across stylistic figures such as.

Ashug Alasgar also attracts attention as a master who kept the national language alive and perfected it. Thus, its artistic heritage is very important as a creative fact, in which the phonetic laws and events of the Azerbaijani language are strictly observed. In his work, we observe the high demands of the strong laws and norms of the Azerbaijani-Turkish language, especially the high demands of the law of harmony, more clearly and with all practicality. Taking into account the requirements of the law of harmony and other norms in the heritage of Alasgar, we follow the unique spelling and pronunciation of derived words. As a result of theoretical and practical knowledge of the possibilities of the mother tongue, thanks to the mastery of Alasgar, new genres and images of ashug poetry appeared, the possibilities of using genders increased and gained new qualities and traditions. In this sense, the work of Ashug Alasgar is of great importance as the work of master ashugs, who demonstrate deep and rich artistic qualities.

**Key words:** Ashug Alasgar, system of metaphors, stylistic figures, poetics

**Резюме**

Ашыг Алескер (1821-1926) – один из самых выдающихся мастеров искусства озан-ашуг в Азербайджане, имеющий многовековые традиции развития. Ашыг Алескер внес большой вклад в развитие искусства ашуга, особенно в плане его формы и обогащения содержания. Поэтому Ашыг Алескер был так же известен и уважаем в тюркском мире, как Дада Алескер. Творчество Ашыга Алескера богато важными художественными качествами как по форме, так и по содержанию. Наряду с художественно-стилистическими фигурами и метафорами, вылепленными в творчестве Ашыга Алескера, обращает на себя внимание множество прекрасных примеров метафор, созданных самим Ашыгом Алескером. Его художественное наследие включает в себя такие метафоры, как эпитеты, сравнения, метафоры, а также художественные контрасты, повторы и так далее. попадаются стилистические фигуры типа.

Ашыг Алескер также привлекает внимание как мастер, сохранивший национальный язык и усовершенствовавший его. Таким образом, его художественное наследие очень важно как творческий факт, в котором неукоснительно соблюдаются фонетические законы и события азербайджанского языка. В своей работе мы более четко и со всей практичностью соблюдаем высокие требования строгих законов и норм азербайджано-турецкого языка, особенно высокие требования закона гармонии. Принимая во внимание требования закона гармонии и других норм в наследии Алескера, мы следим за уникальным написанием и произношением производных слов. В результате теоретического и практического познания возможностей родного языка, благодаря овладению аласгарским языком, расширились новые жанры ашугской поэзии, образов, возможности использования родов, были приобретены новые качества и традиции. В этом смысле творчество Ашыга Алескера имеет большое значение как работа мастеров-ашугов, демонстрирующих глубокие и богатые художественные качества.

**Ключевые слова:** Ашыг Алескер, система метафор, стилистические образы, поэтика

Azərbaycan və ümumən türk dünyası saz-söz sənətinin görkəmli nümayəndələrindən biri Aşıq Ələsgərdir. Aşıq Ələsgər (1821-1926) aşıqlıq sənətinə yeni forma və məzmun gözəllikləri qazandıran çox gökəmli, ustad bir sənətkardır. *"Ona nəinki Azərbaycanda, bütün türk dünyasında Dədə Ələsgər deyə müraciət etmişlər. Qeyri-adi istedad sahibi olan Dədə Ələsgər aşıq sənətinin sirlərini dərindən bilərək ona həm də öz yaradıcılığı ilə yeniliklər qatmış, forma və məzmun etibarilə zənginləşdirmişdir"* (11).

Onun zəngin yaradıcılığı böyük ustalıq və dərin istedadla yaradılmış lirikadan ibarətdir. Aşıq Ələsgər həm də Göyçə aşıq mühitinə mənsub bir şəxsiyyət, nadir istedad sahibidir. "Göyçə aşıq mühiti Azərbaycan aşıq sənətinin təkkə ocağı əsasında intişar tapan qanadına daxildir" (7, s. 178).

Ələsgər sazın və sözün zirvəsində qərar tutan bir sənətkardır. Bu ustad sənətkarın qoşma, gəraylı, təcnis və digər nümunələrində böyük sənətkarlıq təzahürünü tapır. Ustad sənətkar təkcə özünəqədərki ustadanə qəlibləşdirilmiş obrazlılıq nümunələri və məcazları məharətlə istifadə etmir, həm də özü məcazların ən mükəmməl örnəklərini nümunə yaradır və yüksək obrazlılıq nümayiş etdirir. Sənətkarın yaradıcılıq dili, şeirlərinin leksik tərkibi, sözlərdən istifadə məharəti, mükəmməl, tam qafiyə sistemi, şeirlərinin vəzni, bölgü sistemi və s. Azərbaycan poeziyasına böyük sənətkarlıq qazandırmış, poetik cəhətdən zənginləşdirmişdir.

Ustad Aşıq Ələsgərin sənətində böyük təb, istedad ehtiva edən nadir poetika ucalmaqdadır. Ustad Ələsgərin yaradıcılığında zəngin və mükəmməl poetik ustalığa malik olan məcazlar da yer almışdır. Ümumiyyətlə, Aşıq Ələsgərin mükəmməl məcazlar sistemi vardır. Ustad sənətkar həm qəlibləşmiş məcazlardan məharətlə istifadə etmiş, həm də özü məcazların ən kamil örnəklərini ortaya qoymuşdur. Bu mənada ustad sənətkarın yaradıcılığında mükəmməl epitetlər, təşbehlər, metaforalar, üslubi bədii fiqurlar istifadə edilmişdir. Ən əsası, ustadın savadsız olması haqda fikirlər səsləndirilsə də, onun təkcə əsərlərinin bədii dili Ələsgərin nə qədər dərin bilik və dildən istifadə ustalığına malik olduğunu təsbit etməkdədir. Əgər nəzərə alsaq ki, məcazların yaranması, üslubi fiqurların reallaşdırılması dil faktları üzərində reallaşır, o zaman Aşıq Ələsgərin belə mükəmməl məcazlar sistemi və üslubi fiqurlar ortaya qoymasının sirrini onun ana dilimizin imkanlarına nə qədər yaxından, dərindən bələd olmasında görməliyik.

Aşıq Ələsgərin irsində "dodağın qönçə", "dişlərin sədəf", "sərv boylu", "lalə yanaqlı", "bal dodaqlı" və s. kimi qəlib məcaz nümunələrinə rast gəlinməklə bərabər böyük ustadın məharətlə ərsəyə gətirdiyi kamil məcaz nümunələri də yer almaqdadır. Aşıq Ələsgər yaradıcılığının sənətkarlığı da məhz bu özünəməxsus, fərdi yaradıcılıq işinin məhsulu olan məcazlar sistemi, üslubi fiqurlarındadır. Aşıq Ələsgərin yaradıcılığında, poetexnikasında çox mükəmməl yaradılmış təsirli,

canlı mübaliğələrə, metaforalara, təşbeh və epitetlərə, bədii təzadlara və s. rast gəlinməkdədir.

Sənətkarın fikri təsirli ifadə etmə imkanlarından biri mübaliğədir. Şişirtmə və hiperbola da adlanan bu bədii fiqur varlığın və ya mətləbin olduğundan daha təsirli formada bədii əks etdirilməsi yolu ilə ortaya qoyulur və məqsəd daşıyır. Bu da həmin keyfiyyətin daha təsirli alınmasına səbəb olur. Xüsusilə lirik şeirlərdə aşiqin çəkdiyi hiss və duyğuların, kədər və üzüntülərin, o cümlədən gözəlliklərin, həsrətin, sevginin təsirli ifadə olunmasında mübaliğələr böyük rol oynayaraq sənətkarlara ustalıq göstərmək baxımından əl verir. Məsələn, Aşıq Ələsgərin yaradıcılığında aşağıdakı kimi mübaliğələrə rast gələ bilirik:

Yüz il keçsə, əlim səndən üzmərəm,
Çəksələr dilimdən dara, Bəyistan! (2, s. 33)

Yaralı bağrıma, gözəl, daş döymə,
Qoyma sinəm üstə köz, qadan alım (4, s. 16).

Üzün gördüm, din-imanı itirdim,
Çəkdi sinəm üstə dağı qırmızı (4, s. 18).

Ələsgərin qəddi Sinaya yetər (4, s. 19).

Mardan şirə çəkib, daşdan keçərdin,
Dəryalardan ləlü-gövhər seçərdin.
Pərvazlanıb Qafdan Qafa uçardın,
Gəlmir tənbəkiynən bal, qoca baxtım (2, s. 88).

Naləm istər bu dünyanı dağıtsın (4, s. 21).

Ürəyimdə yüz dərmansız yaram var! (4, s. 26)

Dolanır gözləri canlar almağa,
Şölə salır xanlıq fanarı kimi (4, s. 39).

Şöləsi aləmi edib münəvvər (4, s. 42).

Camalın şöləsi nuri təcəlla,
Görsə şəfa tapar xəstə, gözəllər! (4, s. 43)

Tərsa üzün görsə, tez gələr dinə,
Alim görsə, gedər saz alı, Güllü! (4, s. 46)

Qəm qalxıb başından aşa, dayanmaz (4, s. 23) və s.

Aşıq Ələsgərin yaradıcılığında rast gəldiyimiz və çox tez-tez istifadə edilən üslubi fiqurlardan biri də bədii təkrirdir. Məlumdur ki,

təkrirlər bədii predmetin diqqətə çatdırılması məqsədilə həyata keçirilən uğurlu fiqurlardandır. Ələsgər də öz yaradıcılığında məhz müəyyən məsələləri daha çox diqqətdə saxlamaq və nəzərləri cəlb etmək məqsədilə təkrirlərdən faydalanmışdır. Onun yaradıcılığında təkrirlərin müxtəlif formalarına – həm anafora, həm də epiforalara rast gəlirik. Bəzi hallarda epiforalar ayrı-ayrı misralarda işlənməklə rədif kimi çıxış edir:

Bu dünyada üç şey başa bəladır:
Yaman oğul, yaman arvad, yaman at (2, s. 36).

Hər kim görcək istər yarı pünhandan,
Daim çəkər ahü-zarı pünhandan.
Ataşı ürəkdən, narı pünhandan,
Kirpiyi oxlayır, qaşı yandırır.

Ataş alıb çox da yanma, Ələsgər,
Sənətindən heç usanma, Ələsgər.
Öz-özüə qubarlanma, Ələsgər,
Dünyanın Urustam-Zalı varıymış (3, s. 80).

Dağların köksündə qar nişanası,
Gül üstdə görünür xar nişanası.
Ölürəm, qəlbimdə yar nişanası,
Gözüm yolda, intizara yetmədi (3, s. 85).

Günahkar, günahkar, günahkar mənəm! (4, s. 47)

Hər yetən gözələ gözəl demənəm,
Gözəldə gərəkdi işvə-naz ola (4, s. 50).

Ustad dərin, kamal dərin, söz dərin (4, s. 51) və b.

Biz Aşıq Ələsgərin ustalığı və ustadlığını həm də bədii-üslubi fiqurların ən incəliklərinin istifadə məharətində də müşahidə edirik. Ələsgər təkrirlərdən təkcə leksik səviyyədə olanlardan deyil, həm də misraya özünəməxsus tələffüz və qulaq zövqü verən təkrirlərin fonetik səviyyədə təzahürü olan assonans və alliterasiyalardan da uğurla istifadə edir.

Qənd əzilib dilə, dişə, dəhana,
Qaymaq dodaqlara bal bələnibdi (4, s. 45). –

misrasının birinci sətrində "d" samitinin, ikinci sətrində "q" və "b" samitlərinin təkrarını – alliterasiyanı müşahidə edirik. Xüsusilə birinci misranın üç sözündə ard-arda sözün başında "d" samitinin işlənməsi

fonetik təkrir sayəsində qulaq zövqünü artırır, misraya poetik təravət, ifadəlilik və estetik zövq gətirir. Ələsgərin poetexnikasında daha fərqli təkrir örnəyinə də rast gəlirik. Buna müəyyən mənada elliptik təkrir demək daha doğru olar. Burada həm də üslubi sinonimlik baş verdiyini də qeyd edə bilərik ki, belə orijinal nümunələrdən də Aşıq Ələsgər yaradıcılığında məharətlə istifadə etmişdir. Məsələn:

Bülbülü gülə yaz, gülü bülbülə (4, s. 50).

Belə nümunələrdə "bülbül və gül" aşiq və məşuqu rəmzləşdirən obrazlar olaraq klassik ədəbiyyatda daha tez-tez işlədilən üslubi sinonimlik kimi rast gəlinir. Eyni zamanda eyni misra daxilində bir neçə yerdə elliptik şəkildə işlədilməklə həm təkrir və həm də eyni sinonimlik cərgənin fərqli-elliptik şəkildə istifadəsi ilə, yəni qarşılıqlı münasibət mənası daşıyan üslubi təzad yaradılmasına müvəffəq olunmuşdur. Bundan başqa ustad aşığın:

İqbalına bax, bax, baxtına bax, bax

Və ya:

Tarixinə bax, bax, vaxtına bax, bax (4, s. 10-11). –

kimi misralarında uğurlu alliterasiya nümunələri yaratmışdır. Samit səslərin təkrarından məharətlə istifadə edən ustad sənətkar yüksək estetik təsirə və qulağa yatımlı ifadəliliyə malik olan fonetik təkrir – alliterasiya nümunəsi ortaya qoymuş, həm də leksik səviyyədə müşahidə olunan təkririn dərin mənalılıq kəsb edən örnəyini yaratmışdır. Hər iki misrada leksik səviyyə və fonetik tərkibdə "bax" sözlərinin təkririnə rast gəldiyimiz kimi, sözlərin daxilində "x" samiti və "a" saitinin də təkririni müşahidə edirik, yəni alliterasiya və assonans hadisəsini eyni yerdə müşahidə edə bilirik.

Ustad sənətkarın poetikasında fikrin qüvvətli, özünəməxsus və mənalı ifadə olunmasında mühüm funksionallıq daşıyan üslubi fiqurlardan digəri bədii təzaddır. Ustad sənətkarın yaradıcılığında biz təzadların da çox məharətlə yaradılmış örnəklərini görürük. Məsələn:

Fərqi var qış ilə yaz arasında (4, s. 10);

İgid cavanlıqda dəli gərəkdir,
Qocaldıqca mərifət tapa, hal bilə (4, s. 13);

Yaxşı günün olurmuşsa yamanı,
Yaman günün yaxşı halı varıymış (4, s. 14);

Çox çəkmişəm, az görmüşəm danəndə (4, s. 15);

Qəm satıb, dərd alıb, nəf eyləmişəm (2, s. 58);

"Can" deməklə candan can əskik olmaz,
Məhəbbət artırar mehriban eylər.
"Çor" deyənin nəfi nədi dünyada
Abad könlü yıxar, pərişan eylər (2, s. 59);

Seçilməz məhşərdə nə şah, nə gəday (4, s. 31);

Tülkü havalanıb deyir aslanam (4, s. 33);

Kor yapalaq kəklik alıb yeyibdi,
Laçın ölüb, o tərlanlar itibdi (4, s. 33);

Kimi atlaz geyir, tirmə qurşayır,
Kimi üryan gəzir qarın içində (4, s. 33);

Ərə "get-get" deyər, oynaşa "gəl-gəl" (4, s. 35);

Ayaq oddu, yanmır, başı yandırır (4, s. 35);

El içində pak otura, pak dura (2, s. 65);

Məcazi danışa, məcazi gülə (2, s. 65) və s.

Əgər diqqətlə təhlil etsək, aydın müşahidə edərik ki, böyük ustad sənətkarın təzadla bağlı örnəklərində üslubi antitezalardan da məharətlə istifadə edilmişdir. Bu maraqlı və ustadanə örnəkləri öz sənətkarlığı ilə yaradan Aşıq Ələsgər onun ən orijinal nümunələrini ortaya qoymağa müvəffəq olmuşdur. Belə ki, yuxarıda göstərilən nümunələr arasında çoxsaylı üslubi, kontekstual təzadlar da yer almışdır: "şah – gəday", "tülkü – aslan", "can demək – çor demək", "atlaz geyinmək – üryan gəzmək" və s. Bu örnəkləri maraqlı və orijinallaşdıran digər bir səciyyəvi xüsusiyyət, Aşıq Ələsgəri bir daha ustad olaraq tamamlayan bədii məharət həm də bu təzad örnəklərinin daxilən bədii təkrirlə birgə ortaya qoyulmasıdır. Məsələn:

El içində pak otura, pak dura (4, s. 65);

Məcazi danışa, məcazi gülə (4, s. 65) və s.

Belə nümunələrin sayını artırmaqla Aşıq Ələsgərin nə qədər ana dilinin imkanlarından ustalıqla yararlandığını qətiyyətlə təsdiq edə və göstərə bilərik.

Aşıq Ələsgərin sənətkarlıq qüdrətini onun yaradıcılığında müşahidə etdiyimiz müxtəlif sadə və mürəkkəb məcazlar sistemində də görmək mümkündür. Məmmədhüseyn Təhmasib böyük ustad sənətkar haqqında bəhs edərkən yazırdı ki: "*Ələsgər geniş mənalı məcazların bütün formalarından, çeşidlərindən, hətta çalarlarından məharətlə*

*istifadə edən sənətkarlardandır. ...Onun bütün təsvirlərində bədii icad əsas rol oynayır ki, Ələsgərdə bədii icad olmayan şeir yoxdur. Bu, onda çoxlarına müyəssər olmayan bir qabiliyyətdir"* (8, s. 103). Ustad sənətkar nəinki sadə, hətta elə mürəkkəb məcazlar yaradıb ortaya qoymağa müvəffəq olmuşdur ki, obrazlı fikrin ifadəsində sonradan bu örnəklər də ənənəviləşərək qəlib məcazlar kimi istifadəyə düşmüşdür. Onun olduqca maraqlı, məzmunlu epitetləri, təşbehləri, metaforaları və b. nəzər diqqəti cəlb edir.

Məlumdur ki, müxtəlif hiss və duyğuların tərənnümündə məcazlardan daha çox istifadə edilir. Gözəlliklərin təsviri, təbiətin tərənnümü, kədərin, sevincin dilə gətirilməsi və s. üçün epitetlər, təşbehlər, metaforalar daha çox işə yarayır. Bu qüdrətli sənətkar da bədii təsvir və ifadə vasitələrindən çox məharətlə yararlanır, canlı, ecazkar təbiət mənzərələri, təsirli, yaddaqalan obrazlar, qəlbləri riqqətə gətirən hiss və duyğular təsvir və tərənnüm edir. Aşıq Ələsgər sevgi motivli şeirlərində, gözəlləmə nümunələrində məcazların ən kamil nümunələrini yaradır.

Maraqlı və orijinal epitetlər yaradan ustad sənətkar həm qəlib məcazlar, həm də özünəməxsus yaradıclıq nümunələri olan orijinal epitetlər ortaya qoyur. Bu epitetlərin həm orijinallığı, həm də mürəkkəbliyi nümunələrdə aydın ehtiva olunur:

Epitet:

Büllur buxaq, lalə yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır (2, s. 47);

Yüz sənintək ahu gəzən şahmarı
Fələk kəməndinə saldı dünyada (3, s. 43);

İnnabı ləbləri can dərmanıdı (3, s. 44);

Almadı yanağın, büllur buxağın,
Dodaqların meyli-məzəli, Güllü! (3, s. 53);

Ləb qönçə, diş inci, yanağın lala (4, s. 57);

Tuti dilli, sərv boylu Salatın (4, s. 57);

Gül əndamı, tər libası seçilmiş (4, s. 57);

Ləblərin innabı, dəhanın dürdan (4, s. 58);

Zəmzəm zümzüməli göllərin, dağlar! (4, s. 22);

"Şahmar zülfü pərişan", "ahu gəzən şahmar", "meyli-məzəli dodaqlar", "innabı ləblər" və s. kimi nümunələrdə ustad aşığın böyük istedad və nadir məharəti özünü nümayiş etdirir. Əlbəttə, asan müqayisə olunan bənzətmə və ya epitet yaratmaq çətin deyil və hər bir şairin, ədibin yaradıcılığında rast gəlmək olar. Lakin heç ağla gəlməyən, qeyri-adi münasibətlərə, məntiqi bağlılığa dayanan nümunələr üzərində məcazlar yaratmaq Aşıq Ələsgər kimi istedadlı sənətkarların payına düşür. Bunu epitetlərdən başqa Aşıq Ələsgərin yaradıcılığından topladığımız çoxsaylı təşbeh, metafora nümunələrində də aydın müşahidə etmək mümkündür:

Təşbeh:

Sona kimi cumub eşqin gölünə (4, s. 45);

Tovuz kimi şux bəzənib durubsan (4, s. 45);

Tovuz kimi qalxdın çeşmə başından (4, s. 45);

Sonatək silkinib gərdən çəkəndə (4, s. 48);

Fərə kəklik kimi xoş avazından (4, s. 57);

Metafora:

Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinşəməz haramı, halalı dağlar! (2, s. 41);

Ağ xələt bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib xətrinə dəyməz.
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar! (2, s. 41);

Çalxalanır sonalar, çığrışır qazlar (2, s. 42);

Bütün bu kimi istedadla yaradılmış nümunələrin və aparılan təhlillərin fövqündə qətiyyətlə demək olar ki, Aşıq Ələsgərin yaradıcılığı bütün vüsəti və sənətkarlığı ilə Azərbaycan dilinin qüdrətini təzahür etdirir. *"Aşıq Ələsgərin dili Azərbaycan dilinin gözəlliyidir və öz təntənəsi, təbiiliyi, dəbdəbəsi və səmimiyyəti ilə gözəlliyin dilidir. Bu dilin sanbalı ondadır ki, o, dərin fəlsəfi fikirlərlə müdriklik və zəngin bədii qayə ilə həyati mətləbləri açmağa qadirdir"* (10). Azərbaycan dilinin imkanlarından istifadə məharəti məhz Aşıq Ələsgərə böyük ustalıqla cinaslar yaratmağa imkan vermiş, hətta dodaqdəyməz və dildönməz kimi aşıq şeirinin tamamilə yeni şəkillərini yaratmağa müvəffəq olmuşdur. Azərbaycan dilinin fonetik

sistemini mükəmməl bilmədən belə kamil istifadə örnəkləri də ortaya qoymaq mümkün olmazdı. Omofonlardan istifadə yolu ilə ustad aşıq elə məharətli cinaslar yaradır ki, bunlar gəlib keçmiş aşıq şeiri tarixində öz orijinallığı ilə seçilir.

Aşıq Ələsgərin müəyyən mənada ana dilimizin inkişafı sahəsində göstərdiyi xidmətlərdən də haqlı olaraq danışmaq olar. *"Aşıq Ələsgər o sənətkardırdır ki, həm özünəqədərki qəlib məcazları, janrları böyük məharət və ustalıqla istifadə etmiş, həm də tamamilə bənzərsiz, orijinal məcaz nümunələri ortaya qoymuş, yeni janrlar ərsəyə gətirmişdir. Onun təcnisləri, dodaqdəyməz və cığalı təcnisləri Ələsgərin həm hər elmdən, həm də söz elmindən nə dərəcədə dərin bildiyinin əyani təzahürüdür. Ustadın bağlamaları, deyişmələri, həcvləri, hərbə-zorbaları, müxəmməs və divaniləri onun nə qədər zəhmətkeş və yaradıcı, məhsuldar, ustad bir sənətkar olmasının sübutudur"* (9). Doğrudur, onun dili şifahi idi, amma Aşıq Ələsgər o sənətkarlardan idi ki, ana dilinin tələblərini öndə tutar, ərəb-fars mənşəli, alınma sözləri ana dilinin tələblərinə uyğun istifadəyə üstünlük verərdi, nəinki ana dilini alınan sözlərin orijinallığını qorumaq kimi tələblərini pozmaq və kirlətməklə lazımsız bir işə qeyrət göstərərdi. Bu mənada onun yaradıcılıq dilində Azərbaycan-türk dilinin tələblərinin nə qədər dəmir qanunlar çərçivəsində qorunduğunun şahidi ola bilirik. Məhz buna görə Azərbaycan dili uzun bir tarixi yora və dizə çəkərək bugünkü inkişaf zirvəsinə qədər gəlib çata bilmişdir. *"Ana dilindən daha səmərəli faydalananmaq istiqamətində inkişaf Aşıq Ələsgərin yaradıcılığında xüsusi intensivlik qazandı və nəticədə onun əsərləri mükəmməl poetik hadisəyə çevrildi, poetik üslubunun nüfuzu artdı. Aşıq şeirində deyim boyatlığına, şablonlaşmış obrazlı söz və ifadə sisteminə yeni çalarlar, yeni poetik ovqatın məhsulu olan təravətli təsvir vasitələri qabarıqlaşdı"* (5, s. 33). Aşıq Ələsgər yaradıcılığında biz: atəş-ataş, dəhan-dahan, lalə-lala, Rüstəm–Urustam, xəta-xata, nəbat-nabat, rizvan-irizvan, rəhbər-irəhbər və s. kimi alınma sözlərin Azərbaycan dilinin fonetik hadisə və qanunlarına uyğun işləndiyini müşahidə edirik. Əslində elə bu da onun yaradıcılıq dilini daha da xəlqiləşdirir, onun yaradıcılığını həm də xalq dilinin mövcud vəziyyətinin müşahidəsi kimi ciddi mənbəyə çevirir. Böyük sənətkarın yaradıcılığında müşahidə edilən belə dil faktları həm də ana dilinin daxilində gedən dilçilik hadisələrinə qarşı daha çox xəlqi və milli mövqedən yanaşmaq zərurətini ortaya çıxarır. Çünki onun

praktik olaraq ortaya qoyduğu və nümunəsini yaratdığı ana dilindəki poeziya örnəkləri öz dilinin şirinliyi, axıcılığı, melodikliyi, ovsunlayıcı təsiri və bir sıra məziyyətlərilə diqqət mərkəzinə gəlir. Bu mənada onun dilindəki dil təzahürü ana dilimizin üslubi imkanları və poetik istifadəliliyini kamilliklə təzahür etdirir. Aşıq Ələsgər Azərbaycan dilinin fonetik imkanlarına dərindən bələdliyi sayəsində aşıq şeiri tərzində cinaslardan istifadənin yeni mükəmməl faktlarını ortaya çıxara bilmişdir. Əlbəttə, omonimliyin müxtəlif səviyyələrdəki təzahürünə praktik olaraq bələdliyin verdiyi imkanlardan yararlanaraq ustad Ələsgər ən maraqlı cinaslar və cinaslı qafiyələr, rədiflər müəyyənləşdirə bilmiş, olduqca sanballı örnəklərini yaratmışdır. Daha çox omofon adlanan, xalq ədəbiyyatında qulaq cinası, qulaq qafiyəsi qadı altında işlədilən yalnız deyilişinə görə səs uyğunluğu daşıyan qafiyə və ya rədiflərdən istifadə ilə cinas yaratmaq Aşıq Ələsgərin məharətli dilində qabarıq nəzərə çarpır. Aşıq Ələsgər həm də bu imkanlardan faydalanma sayəsində dodaqdəyməz və dildönməz kimi yeni şeir şəkillərini yaratmışdır. Adı belə çox da asan təsir bağışlamayan bu janrlarda şeir nümunələri yaratmağın nə qədər çətin, həm də təcrübə və bilik tələb etdiyini aydın başa düşmək mümkündür. Buna görə də Aşıq Ələsgərin bu sahədə nə qədər ustad, bilici və məharətli olduğu dəqiq aydınlaşır. Bu mənada Aşıq Ələsgər özü bir müəllim, ustad, yaradıcılığı isə bir məktəb, bir təlim dərsliyidir.

Ustad olaraq Aşıq Ələsgər təkcə xalq düşüncə tərzini, xalq müdrikliyini, xalqın dərin təcrübəsindən irəli gələn hikmət və nəsihət dolu qanadlı sözlərini yaxşıdan yaxşı bilmirdi, həm də onun ustalıq və məharətli tətbiqləri sayəsində müəllifin özünəməxsus hikmətli sözləri ortaya gəlmişdi. Həmid Araslı haqlı olaraq bu haqda yazırdı: *"Aşıq Ələsgər klassik aşıq şeirimizi mükəmməl bilən, yazılı ədəbiyyatımıza yaxından bələd olan, aşıq şeirinin incəliklərini gözəl mənimsəmiş, dərin müşahidəli, xalq dilini bütün zənginliyi ilə öz əsərlərində məharətlə işlətməyi bacaran nadir bir istedad olmuşdur. Məlumdur ki, Azərbaycan dili öz idiomatik ifadələri və ibarələri ilə son dərəcə zəngindir. Bu ibarələrdən yerli-yerində ustalıqla faydalanan sənətkar özü də dillər əzbəri ola biləcək atalar sözü kimi ikmətli, dərin mənalı misralar yarada bilir"* (1, s. 63). Aşıq Ələsgərin "Haqq-nahaq seçilər haqq divanında" kimi onlarla, yüzlərlə xalq hikməti tərzində deyilmiş fikirləri özündən sonra dillər əzbərinə çevrilərək işlədilmiş, həm də qəlibləşmiş ustad fikirlərə çevrilmişdir. Ustadın "Aşıq olub" başlıqlı

şeiri başdan-ayağa hikmət və nəsihət üzərində qurulan bir əsər kimi bütövlükdə aşıqlıq sənəti və aşıq əxlaqı barədə konsepsiyanı özündə ehtiva edir.

Beləliklə, Azərbaycan torpaqlarında xüsusi inkişaf yolu keçən aşıq sənəti onlarla ustad sənətkarı bəxş etmişdir. Aşıq Ələsgər də özünün istedad üzərində qurulan yaradıcılığı ilə aşıq sənətinə və yaradıcılığına zənginlik qatmış və bir sıra yeniliklər gətirmişdir. Onun yaradıcılığı dillər əzbərinə çevrilməkdən başqa mənəvi sərvət və xəzinəmizin də ən qiymətli hissəsini təşkil etmişdir. Nümunələrindən birində "Özün getdin sözün qaldı dünyada!" (4, s. 28) dediyi kimi də, Aşıq Ələsgər özünün hikmət təamlı, şirinlik və gözəllik geyinmiş sözlərilə əbədiyaşarlıq qazanaraq yaddaşlara əbədi yer tutur.

## QAYNAQLAR


1. Araslı H. Həmişəyaşar sənətkar. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı: Gənclik, 1998, 732 s.
2. Aşıq Ələsgər (tərtib edəni, ön sözün və qeydlərin müəllifi İslam Ələsgər). Bakı: Çaşıoğlu, 2004, 488 s.
3. Aşıq Ələsgər. Əsərləri (Tərtib edəni, öz sözün və qeydlərin müəllifi İ.Ələsgər). Bakı: Şərq-Qərb, 2004, 400 s.
4. Aşıq Ələsgər. Seçilmiş əsərləri (Tərtib edəni, öz sözün və qeydlərin müəllifi İ.Ələsgərov).Bakı: Yazıçı, 1988, 184 s.
5. Hüseynov M. Aşıq Ələsgərin söz ümmanı. Bakı: Elm və təhsil, 2017, 312 s.
6. Ələsgər İ. Haqq aşığı. Aşıq Ələsgər (tərtib edəni, ön sözün və qeydlərin müəllifi İslam Ələsgər). Bakı: Çaşıoğlu, 2004, 488 s.
7. Qasımlı M. Ozan-aşıq sənəti. Bakı: Uğur, 2011, 304 s.
8. Təhmasib M. Məqalələr. Bakı: Elm, 2005, 220 s.
9. Qasımov R. Saz-söz sənətinin Dədə Ələsgəri. "Şərqin səhəri" qəzeti, 2021, 24 aprel.
10. İsmayıl Z. Saz ömrü qədərdir Ələsgər ömrü. https://ikisahil.az/post/212376-saz-omru-qederdir-elesger-omru
11. Qasımov R. Hər elmdən halı (Aşıq Ələsgər 200). 26 aprel 2021. https://nuhcixan.az/news/elm-tehsil/45748-her-elmden-hali

# DƏDƏ ƏLƏSGƏR İRSİNİN TOPLANMASI VƏ TƏDQİQ OLUNMASINDA ƏRTOĞROL CAVİDİN XİDMƏTLƏRİ

# ERTOGROL JAVID'S SERVICES IN COLLECTING AND RESEARCHING THE HERITAGE OF DEDE ALASGAR

# УСЛУГИ ERTOGROL JAVID ПО СБОРЕ И ИССЛЕДОВАНИЮ НАСЛЕДИЯ ДАДА АЛЕСКЕРА

**Ramiz QASIMOV**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Naxçıvan Bölməsi*
*ramizqasimli44@gmail.com*

**Summary**

Ertogrol Javid, the son of the great poet Huseyn Javid and a young researcher, also played an important role in the collection of Azerbaijani ashug literature. Ertogrul Javid, along with a number of great representatives of the art of ashug, collected and presented a number of information about the work of Dede Alasgar. E.Javid acted as a real folklorist. As a collector, A.Javid also noted on what air the ashug sample was recited or recited and gave explanations about it. E.Javid stated that Ashug Alasgar's famous poem "Bakhtim" was recited in the atmosphere of "Return", noted that it was said on the occasion. Also, the young researcher Ashug Alasgar's poem "Cut off" recited on "El Havasi" was told about the murder of Alasgar's cousin Bashir in the hands of Bashir, Alasgar's son Bashir. It is said that they refused to give up their calves, that another poem was recited in the "Ovshari" air and that Ashug Alasgar, during the reign of the tsar, was unable to cultivate a field during the famine years and so on. said, revealed a number of data.

**Key words:** Ertogrul Javid, Dede Alasgar, collector, ashug creativity

**Резюме**

Эртогрол Джавид, сын великого поэта Гусейна Джавида и молодой исследователь, также сыграл важную роль в собрании азербайджанской ашугской литературы. Эртогрол Джавид вместе с рядом великих представителей искусства ашугов собрал и представил ряд сведений о творчестве Дада Алескера. А.Джавид выступил настоящим фольклористом. А.Джавид, как коллекционер, также отмечал, в каком эфире читался или читался образец ашуга, и давал пояснения по этому поводу. А.Джавид сообщил, что известное стихотворение Ашыга Алескера «Бахтим» было прочитано в атмосфере «Возвращения». Отметил, что это было сказано по случаю. Также в стихотворении молодого исследователя Ашыга Алескера «Отрезать», прочитанном на «Эль-Хаваси», рассказывалось об убийстве двоюродного брата Алескера

Башира в руках башкирского сына Алашгара Башира. Стихотворение было прочитано в воздухе «Овшари» и что Ашыг Алескер описал свои страдания на суше из-за того, что он не мог обрабатывать поле в годы голода и так далее. сказал, обнародовал ряд данных.

**Ключевые слова:** Эртогрол Джавид, Дада Алескер, коллекционер, ашугское творчество

Ölkəmizdə 2021-ci ilin böyük korifey sənətkar, ədəbiyyat, şeiriyyət bayraqdarı "Nizami Gəncəvi ili" elan olunduğu bir zamanda həm də xalqımızın digər görkəmli şəxsiyyətləri, böyük söz adamlarının da yubileylərini fəxarətlə qeyd edirik. Böyük Zəfər ilindən sonra yaşadığımız quruculuq və dirçəliş ili olan 2021-ci ildə saz-söz sənətinin böyük dədəsi Aşıq Ələsgərin 200 illik yubileyini təntənə ilə qeyd edirik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bununla bağlı sərəncam imzalamışdır. Aşıq Ələsgərin 200 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında da əlamətdar keçirilməsi ilə əlaqədar olaraq Ali Məclisin Sədri cənab Vasif Talıbov Tədbirlər Planı təsdiq etmişdir. Belə bir vaxtda nəzərlər bir tərəfdən də Dədə Ələsgərin tədqiqatçılarına, o cümlədən bu sahədə izi, sözü, töhfələri olan gənc, istedadlı insan Ərtoğrol Cavidə yönəlir.

Aşıq sənəti ədəbi irsimizin xüsusi bir sahəsini, qiymətli və aktual bir istiqamətini təşkil edir. Əgər mənbələrin fikrini nəzərə alsaq, böyük inkişaf yolu keçmiş aşıq sənəti çox qədim bir tarixə malikdir. Ozan sənətindən aşıq sənətinə transformasiya edən bu sənət milli qrupu biri-birindən fərqləndirən fərqləndirici xüsusiyyət kimi müəyyənləşib. Məlum olduğu kimi, "Kitabi-Dədə Qorqud" dastanında da oğuz igidləri biri-birini bu etnik qrupa mənsub olmalarına görə fərqləndirici xüsusiyyət kimi qopuza etibar etmişlər. Qopuz oğuz elinə mənsubluq atributu, əlaməti kimi çıxış etmişdir.

Zəngin ədəbi ənənələrə malik Azərbaycan ədəbiyyatı materiallarının, o cümlədən şifahi xalq sənəti, aşıq yaradıcılığı irsinin toplanması sahəsində misilsiz xidmətlər göstərmiş görkəmli şəxsiyyətlər, zəhməti keçən adamlar arasında Salman Mümtazın, Hümmət Əlizadənin, Vəli Xuluflunun və digərlərinin xidmətləri misilsizdir. Bu kimi görkəmli tədqiqatçı və toplayıcılar sırasında böyük vətənsevər şair Hüseyn Cavidin əziz-xələf övladı, gənc bəstəkar, alim, rəssam Ərtoğrol Cavidin də mühüm yeri, xidmətləri var idi. *"Ərtoğrol Cavidin vaxtilə böyük zəhmətkeşliklə topladığı materiallar bu gün ədəbi sərvətimizin qorunub-saxlanması işinə mühüm töhfələr verməkdə, ciddi*

*mənbə kimi əhəmiyyətli fayda gətirməkdədir. Onun ədəbi irsində müxtəlif illərdə topladığı xalq dastanları, aşıq yaradıcılığı nümunələri və sair diqqəti cəlb edir”* (5).

Cavidşünas alim Gülbəniz Babaxanlının zəhmətkeşliyi ilə toplanılan və onun tərtibçiliyi ilə hazırlanan Ərtoğrol Cavid irsinin on iki cildlik külliyyatının iki cildində məhz Azərbaycan aşıq yaradıcılığının toplanması işində Ərtoğrolun topladığı nümunələr və tədqiqat, təhlil materialları yer alır. *“Ərtoğrol Cavid toplanılan folklor materiallarına, aşıq sənəti nümunələrinə konkret münasibət və təhlildə daha maraqlı və diqqətçəkici olur. O, əsl folklorşünas, ədəbiyyatşünas alim kimi davranır, fikir və tezislər irəli sürür, konkret yanaşma və təhlil istiqaməti müəyyənləşdirir”* (6). Gənc tədqiqatçının toplayıcılıq fəaliyyəti dövrün mötəbər və zəhmətkeş alimlərindən, Azərbaycan şifahi xalq ədəbiyyatı bilicisi və folklorşünaslıq elminin sütunlarından biri olan Hümmət Əlizadə ilə birgə olmuşdur. Bəzi materialların əvvəlində “Toplayanı Hümmət Əlizadə. Yazıya alanı Ərtoğrol Cavid” qeydləri də bunu tam qətiyyətlə təsdiq edir.

Külliyyatının aşıq sənətinə həsr olunmuş ikinci kitabına (10-cu cild - R.Qasımov) Ərtoğrol Cavidin toplayıcılıq etdiyi və yazıya alınmasında xidmət göstərdiyi (Burada görkəmli folklorşünas Hümmət Əlizadənin və materialların yazıya köçürülməsində yaxından iştirak edən Hüseyn İskəndərovun da adları qeyd olunub – R.Q.) digər çoxsaylı aşıq sənəti ustadları yer almaqdadır. *“Ərtoğrol Cavid Molla Cumanın, Aşıq Miskinli Vəlinin ardınca bu sənətin nəhəng nümayəndələri və onun inkişafında misilsiz xidmətlər göstərmiş korifeylər olan Aşıq Musa, aşıq sənətinin qocaman dədəsi Aşıq Ələsgər, Aşıq Abbas Tufarqanlı, Hüseyn Bozalqanlı, Aşıq Əmrah, Aşıq Alı, habelə Aşıq Ələsgərin qardaşı Aşıq Məhəmməd, Ağdabanlı Qurban, Növrəs İman, Zodlu Abdulla, o cümlədən bəzi el şairləri, aşıq sənətinə yaxın yazan Molla Pənah Vaqif və Qasım bəy Zakirin bəzi yaradıcılıq nümunələri, haqlarında məlumatlar toplayıb təqdim etmişdir”* (4, s. 49).

*“Zəmanəsinin yüksək əxlaq sahibi olan gənclərdən biri kimi tanınmış Ə.Cavid araşdırdığı şeirlərin xalqımızın mentalitetinə xas mənəvi dəyərlər təbliğ etməsinə böyük önəm verərək”* (1, s. 6) bədii materiala yüksək peşəkarlıqla yanaşırdı. O, bədii faktın əsiri, köləsi deyil, ona ədəbiyyatın bədii-estetik, əxlaqi-etik dəyərləri ilə yanaşırdı. Bədii fakta deyilən dəyərlərlə münasibət göstərən və onu dəyərləndirən Ə.Cavid deyirdi ki, *“oxucu üçün ağır, yad olan şeirlər*

*verilməsə, daha yaxşıdır”* (2, s. 12). Gənc, lakin istedadlı toplayıcı Ə.Cavid doğru müşahidə etmişdi ki, *““Gözəlləmə”lərin bir çoxlarında açıq-saçıq vulqar təsvirlər, duyğular var. Çap edilərkən onlara çox fikir verməli. Ən kiçik bir şeir gənc oxucuların duyğularını sapdıra bilər. Bədii ədəbiyyatda belə açıqlıq, naturalizm ən mənfi tərəflərdəndir. Pedaqoji nöqteyi-nəzərdən yanlışdır”* (2, s. 12).

Əvvəlcə, elə buradan başlamaq lazımdır ki, Ə.Cavid toplayıcılıq və bədii materialın nəşri məsələsində özünəməxsus yanaşmalarla çıxış edir, tezislər irəli sürürdü. Onun fikrincə, *“tematik və formal xüsusiyyətlərə görə şeirlər sistemlə düzülməlidir”* (2, s. 12). Onun bu bölgüsü bədii materialın bədii-məzmun xüsusiyyətlərinə görə müəyyənləşib və doğru da yanaşmadır. Çünki həm də bu cür yanaşma, tələb həm də janrları təyin edir. Gözəlləmələr, həcv və b. məhz məzmun xüsusiyyətlərinə görə müəyyənləşərək ortaya çıxır və janrı təyin edir. Çox haqlı olaraq gənc və istedadlı folklorçu kimi Ə.Cavid düşünür ki, *“parçalar belə verilərkən tematik yayğınlıq bir düşüncə, dərk vəhdəti yaradar”* (2, s. 13).

Ə.Cavidin bədii materiala münasibətdə toplayıcı və naşirdən bir tələbi də onun misra-beyt kəsirinə doğru yanaşmasıdır. Toplayıcı tələb edir ki, bədii materiallar *“çap olurkən çatışmazlığı düzəldilməlidir”* (2, s. 13). O, əsl folklorşünas, ədəbiyyatşünas alim kimi davranır, fikir və tezislər irəli sürür, konkret yanaşma və təhlil istiqaməti müəyyənləşdirirdi. Məsələn, Ə.Cavid aşıq sənəti nümunələrindən bəhs edərkən deyir: 1. Xalq yara-dıcılığı iqtisadi-politik həyatdan geri qalmır; 2. Materialı yazan adam bu terminlərin izahını da soruşub qeyd etməlidir (məsələn, “diltərpənməz”, “dodaqdəyməz” – R.Q.); 3. Hər şeirin nə münasibətlə söylənildiyini dəxi qeyd etməli; 4. Bu parçaları tema xarakterinə görə ikiyə bölmək olar: ...bioqrafiyasına aid olanlar və onun yazdığı parçalar” (3, s. 8-9) və b.

Ə.Cavid özü də təhlili və tədqiqatları zamanı bu tələblərə riayət edir və maraqlı məlumatlar ortaya qoyur. Məsələn, Aşıq Dədə Ələsgərin məşhur “Qaytarma” havası üstündə oxunan “Baxtım” rədifli şeiri ilə bağlı yazır: “Aşıq Ələsgərin mal-qarası azardan qırılır. Ona görə də cüt əkmək üçün Kəlbəcər rayonuna gedib dostu Həsəndən bir öküz gətirir. Öküz yolda Ələsgərin qabağından qaçır, atı yorğun olduğundan atdan düşüb öküzün dalına düşür ki, onu tutsun. Nəhayət, özü də yorulur, geri qayıtmağa məcbur olur. Qayıdanbaş atını da itirir. Dərdindən bir ağac dibində oturub istəyir ki, bir qalyan çəksin, lakin

əlini cibinə saldıqda baxıb görür, qalyan-kisə də cibindən yox olub, odur ki, sazı çıxarıb baxtının yatmağına belə deyir:

Ya sevda tapıbsan, ya at alıbsan,
Hardasan, qəflətdə, gəl, qoca baxtım.
Ya məndən küsübsən, ya qocalıbsan,
Bu sınıx gönlümü al, qoca baxtım və s." (3, s. 13).

Söz yox, bu izah gənc tədqiqatçının "Hər şeirin nə münasibətlə söylənildiyini dəxi qeyd etməli" tezisinə uyğun müəllif tərəfindən verilmişdir ki, doğrudan da, belə məlumatlar çox əhəmiyyət qazanır və bəlkə də, belə demək olar ki, hər hansı aşıq, sənətkar haqqında bir "dastan" yaradılmış olur. Belə məlumatlar da öz yaradıcılığı əsasında Aşıq Ələsgərin və başqalarının həyatının öyrənilməsinə geniş stimul verir. Məsələn, "El havası" üzərində oxunan "Kəsildi" rədifli şeiri haqqında "Ələsgərin oğlu Bəşirin əlində tüfəng açılıb güllə Ələsgərin əmisi oğlu Rəhimi öldürür. Ələsgər bu faciəli hadisəyə belə deyir" (3, s. 14), "Aparır" rədifli "Müxəmməs" haqqında "Kəlbəcər rayonunun Qılınclı kəndində Aşıq Ələsgəri bir neçə dövlətli aldadıb oxudurlar. Ona boyun olduqları danaları verməkdən vaz keçdikləri üçün Ələsgər bu həcvi deyir" (3, s. 23), "Ovşarı" havasında oxunan deyişmə şəklində yazılan şeir haqqında "Aşıq Ələsgər çar vaxtı – aclıq illərində bir zəmi becərir, lakin içindən məhsul götürə bilmədiyi üçün tarlada olan bir quru kötüyə dərdi halını belə vəsf edir" (3, s. 32) və b. kimi məlumatlarla bəzi şeirlərə hansı münasibətlə deyilməsinə aydınlıq və izah gətirir.

Beləliklə, Azərbaycan və ümumən türk dünyası aşıq sənətinin dədəsi hesab olunan Aşıq Ələsgərin 200 illik yubileyinin ölkəmizdə böyük təntənə ilə qeyd edildiyi bir vaxtda böyük Azərbaycan şairi Hüseyn Cavidin nakam taleli övladı gənc və istedadlı tədqiqatçı, rəssam, bəstəkar Ərtoğrol Cavidin də bu sahədəki xidmətləri xatırlanmaqdadır. Bu gənc oğlan böyük tədqiqatçılarla birgə Azərbaycan aşıq sənətinin ustadları haqda xeyli materiallar toplayaraq Azərbaycan ədəbiyyatına böyük töhfələr vermişdir. Onun Dədə Ələsgər irsi haqda olan məlumat və materialları da bu sahədə mühüm mənbə və fayda təşkil etməkdədir.

## QAYNAQLAR

1. Babaxanlı G. Dahi şairin şeirşünas oğlu. // Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid. On iki cilddə, IX c. Bakı: "Çaşıoğlu", 2011, 296 s.
2. Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid. On iki cilddə, IX c. Bakı: "Çaşıoğlu", 2011, 296 s.

3. Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid. On iki cilddə, X c. Bakı: “Çaşıoğlu”, 2011, 304 s.
4. Qasımov R. Aşıq yaradıcılığının toplanması və tədqiqində Ərtoğrol Cavidin fəaliyyəti və rolu. / Ərtoğrol Cavid: taleyi və sənəti. Naxçıvan: “Əcəmi” NPB, 2019, 184 s.
5. Qasımov R. Hüseyn Cavidin istedadlı oğlu Ərtoğrol Cavid Aşıq Ələsgər irsi ilə bağlı nə yazırdı? / https://sabaha-inamla.az/edebiyyat/23063-huseyn-cavdn-stedadli-olu-rtorol-cavd-aiq-lsgr-rs-l-bali-n-yazirdi.html
6. Qasımov R. Dədə Ələsgər irsinin tədqiqində Ərtoğrol Cavid imzası./ https://nuhcixan.az/news/medeniyyet-turizm/44291-dede-elesger-irsinin-tedqiqinde-ertogrol-cavid-imzasi

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA RƏVAYƏT VƏ ƏFSANƏLƏR

# LEGENDS AND LEGENDS IN THE WORKS OF ASHUG ALASGAR

# ПРЕДАНИЯ И ЛЕГЕНДЫ В ТВОРЧЕСТВЕ АШУГА АЛЕСКЕРА

**Sahibə PAŞAYEVA**
*AMEA Folklor İnstitutu*
*psahiba@mail.ru*

**Summary**

Ashug Alasgar is one of the folk masters and famous figures of the Azerbaijani ashug poetry. He applied almost all forms of ashug poetry and created different forms of poem such as "goshma", "garayli", "tejnis", "gifilbend", "dodagdeymez" and he was also a participant in many competitions among ashugs.

The religious legends and rumors have been used widely in all themes and created images in Ashug Alasgar's activity. The legend and the myth have enriched these art samples very much. He was able to work all points of Eastern mythology at a high level in Azerbaijan ashug literature of the 19th century. The knowledge available in the oral tradition has been realized in ashug-poet's activity.

**Key words:** Ashug Alasgar, rumors and legends, mythological thinking

**Резюме**

Ашуг Алескер является одиним из народных мастеров и известных деятелей азербайджанской ашугской поэзии. Он использовал практически все формы ашугской поэзии и создал различные формы стихотворений, такие как «гошма», «герайли», «теджнис», «гыфылбенд», «додагдеймез», а также был участником многих конкурсов среди ашугов.

Религиозные легенды и мифы широко использовались в произведениях Ашуга Алескера. Легенды и мифы обогатили его творчество. Он на высоком профессиональном уровне использовал оригинальные свойства восточной мифологии в азербайджанской ашугской литературе XIX века. Знания, существующие в устном народном творчестве, воплотились в произведениях ашуга-поэта.

**Ключевые слова:** Ашуг Алескер, легенды и мифы, мифологическое мышление

Folklor xalqın əsrlərdən bəri yaratdığı və qoruyub yaşatdığı mənəvi sərvətlərin ən qiymətlilərindəndir. Burada hər şeydən öncə,

xalqın istək və arzusu, gələcəyə ümid, tarixə münasibət, dünya, zaman, mühit haqqında dünyagörüşü yüksək şəkildə öz ifadəsini tapır. “Əfsanə və rəvayətlərin yaradıcısı olan xalq ayrı-ayrı hadisələrin, məsəllərin izahında tarixi həqiqətlərin pozulub-pozulmamasına, müəyyən mənada təhrif olunmasına az diqqət yetirsə də, bədii sözün həqiqətinə həmişə sadiq qalmışdır” (5, s. 11).

Şifahi ədəbiyyatda özünəməxsus yer tutan aşıq yaradıcılığı da bədii sözün həqiqətinə sadiq qalmışdır. Aşıq ədəbiyyatı öz inkişafı yolunda folklorumuzun mif, əfsanə və rəvayət kimi növlərini vərəqləmiş, yeri gəldikcə onlardan istifadə etmişdir. Bütün aşıqlarımızın ifasında müxtəlif mövzulu epik mətnlərə müraciət olunmuşdur. Əfsanə və rəvayətlərimiz xalq arasında yaşadığı kimi aşıqlarımızın sinəsində də yaşayıb zəmanəmizə qədər gəlib çatmışdır. Professor Sədnik Paşayevin dili ilə desək, “aşıq şeiri Azərbaycan türklərinin ictimai fikir tarixi, onun həyat və məişətilə həmişə üzvi surətdə bağlı olmuşdur... Əsrlər boyu ustad aşıqlar yaratmış, ifaçılar isə bu saysız-hesabsız söz incilərini ağızdan-ağıza, nəsildən-nəslə, əsrdən-əsrə ötürərək yaşatmaqda misilsiz xidmət göstərmişlər” (3, s. 3).

“... Bütün sənətkarlar bu və ya digər dərəcədə belə dini, əfsanəvi-mifoloji surətlərə, obrazlara müraciət etmiş, öz əsərlərində yeri gəldikcə həmin surətlərlə əlaqədar maraqlı istiarələr yaratmışlar” (1, s. 11). Tanınmış tədqiqatçı-alimlərin bu fikirlərini Aşıq Ələsgərin yaradıcılığına da aid etmək mümkündür.

Aşıq Ələsgər dərin biliyinə, zəkasına və fitri istedadına görə aşıq sənətinin memarı hesab edilir. XVI əsrdə Dirili Qurbani, XVII əsrdə Tufarqanlı Abbas, XVII-XVIII əsrdə Tikmədaşlı Xəstə Qasım, XVIII əsrdə Abdalgülablı Valeh, XIX əsrdə Şəmkirli Hüseyn kimi sənətkarlar meydana çıxmışlar. Aşıq Ələsgər bu cür azman sənətkarlar arasında aşıq yaradıcılığının poetik və melodik sistemini çox gözəl mənimsəmiş və aşıq sənətinin zirvəsinə qalxa bilmişdir.

Aşıq Ələsgər qüdrətli el sənətkarı və Azərbaycan aşıq poe-ziyasının tanınmış simalarından biridir. O, aşıq şeirinin, demək olar ki, bütün formalarına müraciət edib, qoşma, gəraylı, təcnis, qıfılbənd, dodaqdəyməzlər yaradıb, bir çox deyişmələrin iştirakçısı olub. Aşığın forma əlvanlığı ilə seçilən şeirlərində başlıca yeri məhəbbətin tərənnümü, gözəllərin tərifi, təbiətin təsviri, əxlaqi-tərbiyəvi fikirlərin təbliği, ictimai eyiblərin tənqidi tutub. Burada el qızının zahiri gözəlliyinin təsviri ilə yanaşı, aşığın vətənpərvərliyi, xalqına bağlılığı

da qabarıq ifadə edilib. Şairin zəngin poetik irsi bir çox aşıqlar üçün əsl sənətkarlıq məktəbi olmuşdur.

Aşıq Ələsgər müraciət etdiyi bütün mövzularda atalar sözləri, zərbül-məsəllərlə yanaşı, rəvayət və əfsanələrdən də geniş istifadə edb. Əfsanə və mif onun aşıq ədəbyyatında yaratdığı sənət nümunələrini daha da zənginləşdirib.

O, şeirlərində rəvayət və əfsanələrimizdən götürdüyü mövzuya yeni, zamanına uyğun don geyindirir, ən vacib fikri xalqa çatdırmaq istəyirdi. Məsələn, "Tərlan özgə malıdı" adlı bayatı-hekayə ilə tanışlıq ilk növbədə Aşıq Ələsgəri yada salır. Elə həmin anda onun "Düşdü" qoşmasının son möhürbəndi dilimizdə təkrar olunur. Həmin bayatı-hekayədən aydın olur ki, ev sahibinin qızının gözəlliyinə heyran olan və bu evə qonaq gəlmiş cavan bir oğlan yanıqlı bir bayatı çəkir:

Mən aşiqəm, çil ovlar,
Çil kəkliklər, çil ovlar.
Gözə tərlan göründü,
Əldə qaldı çilovlar.

Qız özünü itirməyərək bayatı ilə cavab verir:

Mən aşiqəm çilovdan,
Çil kəklikdən, çil ovdan.
Tərlan özgə malıdır,
Ac qalma, ye çilovdan.

Oğlan bundan məyus olur (4, s. 22).

Aşıq həyatda rastlaşdığı hadisəyə fikrini ifadə etmək üçün həmin bayatı-hekayəyə müraciət edir:

Ələsgərəm, hər elimdən halıyam,
Dedim: sən təbibsən, mən yaralıyam,
Dedi: nişanlıyam, özgə malıyam.
Sındı qol-qanadım yanıma düşdü (2, s. 44).

"Düşdü" rədifli qoşmasının məzmunundan aydın olur ki, o, "Çərşənbə günündə, çeşmə başında" gördüyü gözəl bir qıza vurulmuşdur. Qızın baxışları, qəmzələri onun varlığına hakim kəsilmiş, qanına, iliyinə işləmiş, onu sehirləmişdir. "Həm gözəl, həm əhli-dil" olan bu qızla ailə qurmağı xəyalına gətirən, onun eşqi ilə pərvazlanan aşiq, qızın nişanlı olduğunu biləndə, "qol-qanadı" sınmış, ümidi boşa çıxmış, nə qədər çətin olsa da, bu fikrindən əl çəkmişdir. Aşıq elin məhəbbət aləmində qoruyub saxladığı müqəddəs adət-ənənəyə sadiq qalmışdır.

"Tərlan özgə malıdı" adlı bayatı-hekayə Ələsgər şeirindən alınmış bədii parça ilə az qala eyniyyət təşkil edir. Onları bir-birindən

ancaq şeir parçalarının ifadə tərzi, üslubu, müəyyən mənada dili, vəzni və forması ayırır.

Azərbaycanda Əsli və onun eşqindən yanıb külə dönən Kərəm haqqında çox sayda əfsanə və rəvayətlər vardır. "Əsli-Kərəm" əfsanələrinin ümumi məzmunundan aydın olur ki, Ziyad xanın vəziri Qara keşişin qızı Əsli ilə xanın oğlu Kərəm bir-birlərini sevirlər. Qara keşiş bu sevgidən xəbər tutan kimi – "Mən öz qızımı dinimdən olmayan adama ərə vermərəm", – deyir və etirazını bildirir. Qara keşişin hiyləsi od olub hər iki gənci yandırır. Onların sevgisi yanıb, kül olur. Qara keşiş külü xalqın israrı ilə Kərəmin qəbri ilə yanaşı basdırmalı olur. Xalq iki nakam sevgilinin qəbri üstə ağlayır. Deyirlər, xalqın göz yaşlarından hər qəbrin üstündə bir qızılgül kolu bitir. Hər bahar gələndə qızılgül qönçələnir, bir-birinə doğru can atır. Lakin Qara keşiş qəbrlərin tən ortasında bir qara tikan kolu əkir. Güllər bir-birinə nə qədər can atsalar da, qara tikan onların birləşməsinə mane olur. Çox keçmədən Qara keşiş də xəstələnib ölür. Aşıq Ələsgərin "Mənim" rədifli qoşmasında:

Əsli-Kərəm kimi mən oda yandım,
Eşqə düşdüm, öz canımdan usandım,
Bimürvətin atəşinə qalandım,
Bir soruşan yoxdu əhvalım mənim (2, s. 65).

misraları "Əsli-Kərəm" adlı həmin əfsanəni yada salır. O, qarşısında dayanan gözələ öz hisslərini bu əfsanədən istifadə edərək bildirir.

Tədqiqatçı-alim Sədnik Paşayev göstərir ki, "Fərhad və Şirin" əfsanələrinə Güney Azərbaycanın Ərdəbil, Türkiyənin Amasya, Azərbaycanın Oğuz, Şəki və Naxçıvan bölgələrində rast gəlirik. Adlar eyniyyət daşısa da, hər bir əfsanənin öz məzmunu, forması və məna çalarları vardır" (5, s. 13). Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində doğulan və bu yerlərdə yaşayıb-yaradan Aşıq Ələsgər də bu yerlərin folkloruna yaxşı bələd idi. O, bir sıra şeirlərində yaratdığı obrazların bədii çalarının açılmasında "Fərhad və Şirin" əfsanələrinə müraciət edirdi. Məsələn, aşığın "Döndü, nə döndü" adlı qoşmasındakı:

Fərhad gördü, sevdi Şirin camalın,
Şirin dost əlindən şirin cam alın.
Şirincə dövlətin, şirincə malın
Axırı zəhrimara döndü, nə döndü! (2, s. 41)

– misraları "Fərhad-Şirin" haqqında əfsanələri yada salır. Əfsanənin məzmunundan məlum olur ki, Fərhad adlı daşyonan usta kəndin

varlılarından birinin qızı, dünya gözəli Şirinə aşiq olur. Şirin də onu sevir. Lakin Şirinin atası bu sevgiyə mane olmağa çalışır. Mümkün olmadıqda isə oğlanın qarşısına ağır şərt qoyur. O, dağı çaparaq çayın suyunu kəndə gətirməli idi. Oğlan buna razılıq verir. Fərhad işi başa çatdırır. Atası yalandan Şirinin öldüyünü ona xəbər verir. Sevgilisindən ayrı yaşamaq istəməyən gənc Fərhad əlində işlətdiyi külüngü öz başına çırpır və ölür. Şirin də onun öldüyünü eşidərək özünü həlak edir. Aşıq bu hadisəni misralarında yeri gəldikcə işlədir, öz hiss və həyəcanını poetik dildə ifadə edir:

Dad sənin əlindən, çarxı-kəcmədar,
Günüm qara keçdi, işim ahü zar.
Hay verrəm, qıy vurram, eyləmir şikar,
Tərlan baxtım sara döndü, nə döndü! (2, s. 41)

Aşıq Ələsgərin “Dayanmaz” rədifli qoşması xalq arasında geniş yayılmış “Xarıbülbül” əfsanəsi ilə bağlıdır. Əfsanəyə görə, bir gün bülbül öz sevgilisi gülün görüşünə getmək istədiyi vaxt bərk külək əsir. Küləyin məqsədi gülü bülbülün gözləri qarşısında alçaltmaq imiş. Külək öz gücünə, qüvvəsinə həddindən artıq inanırmış. O əsəndə, hərəkətə gələndə, aləmi tozanağa bürüyəndə bütün canlılar onun qarşısında əyilərmiş. Yalnız zərif, gözəl, ətirli gül küləyin azğınlığına, yekəxanalığına tabe olmurdu. Bunu görən külək qəzəblənir: – Ay zərif, ay zəif gül, sən hansı cəsarətlə mənə baş əymirsən? Sən bu gücü hardan alırsan?

Gül inamla cavab verir: – Məhəbbətdən! Məhəbbətin gücü yenilməz olur... Mən bülbülü sevirəm. Onun saf məhəbbəti məni baş əyməyə qoymaz.

Külək kükrəyir. Elə bu vaxt bülbül sevgilisi gülün görüşünə gedirdi. Küləyin qəzəbi qarşısında gül dözə bilməyib bir yarpaq əyilir. Bülbül özünü vaxtında gülün harayına çatdırır. O, sinəsini yavaş-yavaş əyilən gülün köksünə söykəyir. Külək daha da hiddətlənir. Bülbül gülün əyilən qamətini düzəldir. Ancaq gülün xarı (yəni tikanı) onun sinəsinə sancılır. Bülbül məhv olur, gülü bir addım belə əyilməyə qoymur. Elə həmin vaxtdan özünü məhəbbət uğrunda fəda edən bülbülün adı Xarı bülbül qalır” (7). Qeyd etmək lazımdır ki, “Xarıbülbül” əfsanəsini ilk dəfə professor Sədnik Paşayev (Pirsultanlı) üzə çıxarmış, tədqiq edərək 2009-cu ildə “Azərbaycan türklərinin xalq əfsanələri” kitabında çap etdirmişdir. Aşığın

Xəstə könlü istər narı görəndə,
Çaşır ağlım-huşum yarı görəndə.

Bülbül gül üstündə xarı görəndə
Qan ağlar, ruxsarı yaşa dayanmaz (2, s. 87).

– misraları "Dayanmaz" rədifli qoşmasında həyatda yaşadığı saf məhəbbətin acı taleyi, ömrünə hakim kəsilmiş ayrılıq hissi üzə çıxır.

Professor Seyfəddin Rzasoy qeyd edir ki, "Qədim oğuz eposu "Oğuznamə"nin müxtəlif variantlarında Nuh peyğəmbərin oğuz-türk milli etnik düşüncəsindəki yeri insanlığın ilahi yaradılışının universal sxemi daxilində təqdim olunur. Bu sxemlərdə Nuh peyğəmbər daşqın sonrası tarixin başlanğıcı olaraq götürülür. XIV əsr tarixçisi Fəzlullah Rəşidəddinin "Oğuznamə"sində oğuzların nəsil şəcərəsi Nuh peyğəmbərlə başlayır. Oğuz xan bu şəcərədə Yafət, Dib, Yavku xan və Qara xandan sonrakı pilləni təşkil edir. XVII əsr tarixçisi Əbülqazi Bahadır xanın "Oğuznamə"sində isə ilk insan Adəm peyğəmbərdən sonra 10-cu pillədə Nuh peyğəmbər, 12-ci pillədə Türk, 19-cu pillədə Oğuz xan gəlir. Beləliklə, bu xronikalarda azərbaycanlıların ulu babaları olan Türk və Oğuz xan birbaşa Nuh peyğəmbərə bağlanır. Bu yanaşma Nuh peyğəmbərin oğuz-türk mifoloji-epik ənənəsinin üzvi struktur elementinə çevrilməsinin əsasında durur. Nuh haqqında "Quran"da və digər səmavi kitablarda olan obraz və motivləri dəyişik şəkillərlə Azərbaycan əfsanələrində müşahidə edirik" (6, s. 14). Nuh peyğəmbər haqqında əfsanələrə Aşıq Ələsgər də müraciət etmiş, mövzunu saxlamaqla məqsədini dəyişmişdir.

"Dörd kitab hər yana yolu göstərir" müstəzad qoşmasında aşıq Nuhun tufanı haqqında bildiyi əfsanəyə toxunur, baş verənləri nizama çəkir.

Altıda qarışdı Nuhun tufanı,
Qırx ildə sərgərdan gəzdi hər yanı.
Altı min altı yüz insan, heyvanı,
Hərə öz diliylə eylədi fəryad,
İstədi imdad (2, s. 87).

Aşıq Ələsgərin təbiət mövzusunda yazdığı şeirlərdə "dağ" motivi mühüm yer tutur. Şübhəsiz ki, aşıq Azərbaycan folklorunda dağ haqqında dildən-dilə keçmiş, hafizələrdə qorunub saxlanmış rəvayət və əfsanələri yaxşı bilirdi. Ələsgərin öz yaradıcılığında yalnız dağları "görməsində" əslində çox böyük məna vardır. Dağ Azərbaycan türkünün düşüncəsində kosmoqonik yaradıcı başlanğıcdır. Müqəddəs başlanğıc sayılan dağ, eləcə də torpaq və xüsusilə onlarla bağlı Günəş bütün varlığın, həyatın, tanrıların, insanların, nemətlərin yaradıcısı, anası-atası kimi qəbul olunur. Torpaq başlıca olaraq ana başlanğıcı

sayılmışdır. Aşıq Ələsgərin də öz yaradıcılığında yalnız dağları "görməsində", əslində çox böyük məna vardır.

Bahar fəsli, yaz ayları gələndə
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar (2, s. 35).

Aşıq Ələsgərin "Görüm" qoşması da dağla bağlıdır. Aşıq, ovçu, maral hadisəsinə də dağda rast gəlmişdir. "Maralın göz yaşı", "Maral qayası", "Ana maral" əfsanələri ustad sənətkara yaxşı tanış olmuşdur. O, bu əfsanələrin təsiri ilə mənzum bir hekayə yaratmışdır.

Aşıq Ələsgərin dövrü, zəmanəsi ilə səsləşən, sadə insanın zəngin mənəviyyatını açan şeirlərində bu bitib-tükənməz xəzinədən götürülmüş gərəkli mövzular, obrazlı fikir və ifadələr onun xəyalının qüdrəti ilə zənginləşərək yeni bədii keyfiyyətlər qazanmışdır. Azərbaycanın mifik-tarixi düşüncə kodunu özündə daşıyan əfsanə və rəvayətlər Aşıq Ələsgər yaradıcılığında özünəməxsus şəkildə yer tutmuş onun hər misrasının məna qatlarını açmış, böyük sənətkarı xalqımızın varlığının xəzinəsinə çevirmişdir.

## QAYNAQLAR


1. Adilov,M.İ. Niyə belə deyirik (IV cild) I-II hissə. Bakı: Elm və təhsil, 2019, 432 s.
2. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.
3. Pirsultanlı, S.P.Azərbaycan aşıq şeirinin sazla əlaqəli inkişaf yolu.-Gəncə: GDU, 2013, 95 s.
4. Pirsultanlı, S. P. Heca vəzninin bayatı və qoşma möcüzələri. Bakı: "Təhsil" mərkəzi, 2003, 293 s.
5. Pirsultanlı, S. P. XXI əsrdə Azərbaycan folklorundan incələmələr. Gəncə: GDU nəşriyyatı, 2011, 124 s.
6. Rzasoy.S.G. Nuhla bağlı əfsanələr ... Naxçıvan və ətraf bölgələrdə daha çox yayılıb. I yazı // Xalq Cəbhəsi, 2015, 5 noyabr, s. 14
7. Xarı bülbül əfsanəsi - 525.az › news › 151139-xari-...

# AŞIQ ƏLƏSGƏRİN ŞEİRLƏRİNDƏ BƏZİ SÖZ VƏ İFADƏLƏRİN DÜZGÜN YAZILIŞI HAQQINDA

# ABOUT THE CORRECT SPELLING OF SOME WORDS AND EXPRESSIONS IN THE POEMS OF ASHUG ALASGAR

# О ПРАВИЛЬНОМ НАПИСАНИИ НЕКОТОРЫХ СЛОВ И ВЫРАЖЕНИЙ В СТИХАХ АШУГА АЛЕСКЕРА

**Salman BALAKİŞİYEV**
*Göygöl Rayon Təhsil Şöbəsi müdir müavini*
*atabeyagasif@gmail.com*

**Summary**

Ashug Alasgar is one of the folk masters and famous figures of the Azerbaijani ashug poetry. He applied almost all forms of ashug poetry and created different forms of poem such as “goshma”, “garayli”, “tejnis”, “gifilbend”, “dodagdeymez” and he was also a participant in many competitions among ashugs.

The religious legends and rumors have been used widely in all themes and created images in Ashug Alasgar’s activity. The legend and the myth have enriched these art samples very much. He was able to work all points of Eastern mythology at a high level in Azerbaijan ashug literature of the 19th century. The knowledge available in the oral tradition has been realized in ashug-poet’s activity.

**Key words:** Ashug Alasgar, ashug creativity, spelling norm, orthoepic norm

**Резюме**

Ашуг Алескер является одиним из народных мастеров и известных деятелей азербайджанской ашугской поэзии. Он использовал практически все формы ашугской поэзии и создал различные формы стихотворений, такие как «гошма», «герайли», «теджнис», «гыфылбенд», «додагдеймез», а также был участником многих конкурсов среди ашугов.

Религиозные легенды и мифы широко использовались в произведениях Ашуга Алескера. Легенды и мифы обогатили его творчество. Он на высоком профессиональном уровне использовал оригинальные свойства восточной мифологии в азербайджанской ашугской литературе XIX века. Знания, существующие в устном народном творчестве, воплотились в произведениях ашуга-поэта.

**Ключевые слова:** Ашуг Алескер, ашугское творчество, орфографическая норма, орфоэпическая норма

Aşıq poeziyası müəyyən zaman kəsimində yazılı ədəbiyyat kimi də qəbul edilsə də, ənənəsinə görə şifahi ədəbiyyata mənsub olduğu üçün bu poeziyada bir çox söz və ifadələr zaman keçdikcə təhrif olunmuş, ilkin formasından get-gedə uzaqlaşmışdır. Hər aşıq, hər ifaçı öz zövqünə görə müəyyən sözləri ya sinonimi ilə əvəz etmiş, ya da tamam başqa bir söz işlətmişdir. Sözün formasının dəyişilməsi həmin sözün mənasının ya tamam itirilməsinə, ya da ilkin mənasının təhrif olunmasına, anlaşılmaz bir hal almasına gətirib çıxarmışdır.

Aşıq yaradıcılığını toplayıb nəşr edənlər də qarşıya çıxan bu problemləri tam həll edə bilməmişlər. Buna görə də ayrı-ayrı nəşrlərdə fərqli sözlərə, fərqli ifadələrə tez-tez rast gəlmək mümkündür. Bəzi toplayıcıların, naşirlərin, tərtibçilərin aşıq poeziyasında orfoqrafik norma, bəzilərinin isə orfoepik normaya əsaslanması da bu fərqlərin yaranmasına səbəb olmuşdur.

Məlumdur ki, aşıq poeziyasının görkəmli nümayəndələrindən biri olan Aşıq Ələsgərin də şeirləri öz sağlığında toplanıb nəşr edilməmişdir. Onun şeirləri ilk dəfə Hümmət Əlizadə tərəfindən toplanmışdır. Daha sonra Ə.Axundov, M.H.Təhmasib, İ.Ələsgər və başqa tədqiqatçılar bu şeirləri toplamışlar.

Əvvəla, onu qeyd edim ki, Aşıq Ələsgər ocağının varisi, Aşıq Talıbın oğlu İslam Ələsgərov ustad Aşığın əsərlərinin toplanması və nəşrində bilavasitə iştirak etdiyindən Dədə Ələsgərin şeirləri təhriflərə çox da məruz qalmamışdır. Bununla belə, Dirili Qurbaninin, Tufarqanlı Abbasın, Xəstə Qasımın, Təcnis Alının, Molla Cümənin və s. saz, söz xiridarlarının əsərlərinin nəşrində olduğu kimi, Aşıq Ələsgərin əsərlərinin nəşrində də bir sıra təhriflərə yol verilmişdir. Bu təhriflərin bir hissəsi kiçik xətalardan ibarət olsa da, bir hissəsi məna və məzmuna, şeirin bədii dəyərinə, şeirin yazıldığı tarixi gerçəkliyə ciddi şəkildə xələl gətirə biləcək təhriflərdən ibarətdir.

Vaxtilə böyük söz ustası Məhəmməd Füzuli deyirdi ki, əli qələm olsun ol katibin ki, bir nöqtə qüsuru ilə gözü kor eylər, bir hərf qüsuru ilə nadiri nar eylər. Bu qiymətli kəlamlar zaman və məkanından asılı olmayaraq həmişə öz aktuallığını qoruyub saxlayır. Xüsusən şifahi xalq ədəbiyyatında “saman düşdü” ifadəsini “zaman düşdü” ifadəsi şəklinə salanlar istər bilərəkdən olsun, istərsə də bilməyərəkdən həmişə olmuşdur, bu gün də var, yəqin ki, sabah da olacaqdır. Buna görə də hörmətli dastançılar, nağılçılar da, tərtibçilər, naşirlər də, ön söz, son söz müəllifləri də son dərəcə diqqətli olmalıdırlar.

İslam Ələsgərin 1988-ci ildə və 2004-cü ildə nəşr etdirdiyi kitablar üzərində Aşıq Ələsgərin şeirlərində bəzi söz və ifadələrin düzgün yazılıb-yazılmaması məsələlərinə aydınlıq gətirməyə çalışaq.

Aşıq Ələsgərin şeirlərindən ibarət olan kitabların çap olunduğu zaman yol verilmiş bəzi yanlışlıqları üç istiqamət üzrə qruplaşdırmaq, təhlil etmək olar:

1. Fonetik cəhətdən fərqli yazılan sözlər.
2. Leksik vahidlərin yazılışında üzə çıxan nöqsanlar.
3. Qeyri-dəqiq yazılan və ya tamamilə təhrif olunan söz birləşmələri və cümlələr.

Aşıq Ələsgərin şeirlərində fonetik cəhətdən fərqli olan sözlərin yazılışını diqqət mərkəzində saxlamaq, həmin sözlərin həm məna, məzmun baxımından düzgün olanını, həm də orfoepik normanın tələbinə uyğun olan variantını seçib nəşr etmək daha məqsədəuyğun olardı. Çünki aşıq yaradıcılığı şifahi ədəbiyyata daxil olduğu üçün fonemlərin yazılışında şifahi nitq normalarına daha çox üstünlük vermək lazımdır.

Bu qaydalara uyğun olaraq bir çox nümunələrin hər iki nəşrdə orfoepik norma əsasında düzgün yazılışı hallarına rast gəlirik.

"Atəş" sözünün "ataş" (səh. 56, 2004), "rüzgar" sözünün "ürüzgar" (səh. 61), "rəng" sözünün "irəng" (səh. 61), "igid" sözünün "iyid" (səh. 39), "mərifət" sözünün "mərfət" (səh. 81) şəklində yazılması məqbuldur. Ancaq şifahi ədəbiyyatın, şifahi nitq normaları əsasında yazıldığını nəzərə alaraq "fağıra" sözünün "fağra" (səh. 31), "yayın orta ayında" sözünün "yayın orta ayı" (səh. 37), "darı" sözünün "dar" (səh. 225) şəklində yazılması daha düzgün olardı.

Ustad aşıq bir bağlamasında deyir:

*Müdam ayağından kəsilməz abı,*
*Abını kəsəndə heç olmaz tabı.*
*Çox əziz yaradıb kərəm sahabı,*
*Toxmaq ilə təpəsinə döyülür* (səh. 165, 2004).

2004-cü ildə nəşr olunmuş "Aşıq Ələsgər əsərləri" kitabında sahabı sözünün "sabahı" şəklində çapa getməsi adi bir korrektə səhvi sayılmalıdır.

"Sahib" sözü həm canlı danışıq dilində (bunun yiyəsi-sahavı yoxmu?), həm də ustad Ələsgər dilində "sahab" şəklində işlənmiş və belə də yazılmışdır. Bunu düzgün hesab etmək olar. Ancaq 1988-ci il nəşrində həmin benddəki 4-cü misranın "toxmağınan" (səh. 78) varia-

ntını dəyişərək 2004-cü il nəşrində "toxmaq ilə" formasında yazılışını düzgün hesab etmək olmaz.

Məlumdur ki, "naqə" sözü ərəb dilində dişi dəvə anlamını ifadə edir. Aşıq Ələsgər "Bu gündə" adlı mərsiyəsində "naqə" sözünü ilkin alındığı dilin tələffüz formasına uyğun olaraq işlətmişdir: naqeyi-üryan. Ancaq Aşıq Ələsgər "Nəqa nə mindi" rədifli təcnisində "naqə" sözünü "nəqa" şəklində də işlətmişdir. Bu da ustadın təcnis yaratmaq üçün istifadə etdiyi üsullardan biri kimi qəbul edilməlidir. Aşıq poeziyasına bələd olan hər bir şəxs yaxşı bilir ki, təcnislərdə bir çox hallarda məzmun formaya güzəştə gedir, formanın qorunması vacib şərtlərdən biri hesab olunur. Digər sənətkarlarda olduğu kimi Aşıq Ələsgərin təcnislərində də bu hala rast gəlinir:

*İbtida xəlq oldu külli-kainat,*
*İnsan nəqa mindi, nəqa nə mindi?*
*Gözlərin canıma salıbdı afat,*
*Peykan kirpiklərin nə qana mindi?!*

Digər təcnislərdə də "lalə" sözünün "lala", "sinəyə" sözünün "sinayə", "dənə" sözünün "dana" şəklində deyildiyinin şahidi oluruq.

Aşıq Ələsgərin şeirlərində diqqəti cəlib edən cəhətlərdən biri də mürəkkəb sözlərin və ya söz birləşmələrinin yazılışı və deyilişi ilə bağlıdır. Əgər mürəkkəb sözün və ya söz birləşməsinin birinci tərəfi saitlə qurtarıb, ikinci tərəfi də saitlə başlayırsa, bu cür birləşmələrin tələffüzü şeirin heca sayından asılı olaraq dəyişir.

Məsələn, "Qara arxac" yer adının "Qaraarxac, Qararxac" hətta "Qaraxaç" şəklində yazılışına rast gəlinir. "Dəli Alı" (Dəlalı), Kalvayı Hüseyn (Kalvayı Söyün, Kalva Söyün), Məşədi Məhəmməd (Məşəd-məhəmməd, Məşəməhəmməd) kimi şəxs adları fikrimizcə, tələffüz qaydasına uyğun şəkildə yazılmalı, vərəqin sonunda lazımi izahat verilməlidir. Belə də mümkündür ki, ön sözdə və ya son sözdə kitabdakı poetik nümunələrin, dastan-rəvayətlərin şifahi nitq normaları tələblərinə uyğun yazıldığını qeyd etmək kifayət edər. Bu qayda "qoca aşıq", "xeyir əməlim" "yeddi ağac", "Gülüstani-İrəm" (səh. 127) kimi söz birləşmələrinə də şamil edilməlidir.

Ataş sözü həm canlı danışıq dilində, həm də Aşıq Ələsgərin şeirlərində ataş şəklində işlənmişdir.

*İncik olma qoca aşığın yaşından,*
*Vaqif ol könlünün eşq ataşından.*

Bu bəndin birinci misrasından qoca aşığ söz birləşməsinin birinci tərəfinin söz səsi sait, ikinci tərəfin ilk səsi də sait olduğu üçün qoca

sözündəki “a” saiti qısa tələffüz olunur. Ataş sözü isə şeirin qafiyə sisteminə uyğunlaşaraq ataş şəklində işlənmişdir.

“Getmə göz önündən, ay Şəkər xanım” misrası ilə başlayan şeir 1988-ci il nəşrində

*Öldür Ələsgəri, qurtarsın canı,*
*Vay xəbərin göndər qohum-qardaşa,* -

şəklində yazılsa da, 2004-cü il nəşrində “vay” sözü “yay” şəklində yazılmışdır. Xəbər “yay”maqla xəbər göndərmək nisbi sinonimlər olduğu üçün “vay” sözü daha məqbul sayılmalıdır.

“Döndü, nə döndü” rədifli qoşmada axır (axırda-sonda) sözü 1988-ci il nəşrində “axrı”, 2004-cü il nəşrində isə “axırı” şəklində verilmişdir. Növbəti nəşrlərdə “axır” şəklində yazmaq daha məqbul olardı. Həyatından, dövründən gileylənən şair “Şirincə dövlətim, şirincə malım” deməli olduğu halda, hər iki nəşrdə “Şirincə dövlətin, şirincə malın” şəklində getmişdir. Bunu da redaktə etmək gərəkdir.

“Ola bilməz” qoşmasında “hali” sözü (səh. 68) şeirin qafiyə sisteminə və folklorun tələbinə görə “hal” şəklində yazılmışdır.

“Deyin” rədifli müxəmməsdə “qafa” sözü “qəfə” şəklində işlənmişdir. “İyitlikdə yox əvəzi” misrasında “yox” sözü “yoxdu” şəklində işlənmişdir.

Aşıq Ələsgərin “Narın üz” rədifli təcnisində yazılış və deyiliş baxımından fikir müxtəlifliyi doğuran söz və ifadələr daha çoxdur. “Rüsxət” sözü 1988-ci il nəşrində “ürüxsət”, 2004-cü il nəşrində rüsxət şəklində yazılmışdır. Sözü orfoepik normaya uyğun yazmaq düzgün olardı.

Yuxarıdakı nümunələrin sayını artırmaq da mümkündür. Fikirlərimizi ümumiləşdirərək deyə bilərik ki, aşıq yaradıcılığı şifahi ədəbiyyata daxil olduğu üçün fonemlərin yazılışında şifahi nitq formasına daha çox üstünlük vermək lazımdır. Aşıq Ələsgərin şeirlərində fonetik cəhətdən fərqli olan sözlərin yazılışını diqqət mərkəzində saxlamaq, həmin sözlərin həm mənaca düzgün olanını, həm də orfoepik normanın tələbinə uyğun olan variantlarını seçib nəşr etmək məqsədəuyğun olardı.

Aşıq Ələsgərin şeirlərində bir çox leksik vahidlər zaman keçdikcə ya sinonimi ilə əvəzlənmiş, ya da tamam başqa bir məna bildirən sözlə ifadə edilmişdir. Bu dəyişikliklərə əsas səbəb şübhəsiz ki, şeirlərin aşıqların dilində səslənməsi zamanı ifaçı aşığın müəyyən söz və ifadələri “bəyənməməsi”, onu “orijinal” bir sözlə əvəz etmək təşəbbüsüdür. Bu “xeyirxah” işə bəzi naşirlər və redaktorlar da qoşulanda xoşagəlməyən bir mənzərə yaranır.

Aşıq Ələsgərin şeirlərində leksik vahidlərin yazılışında da dəyişikliklər baş vermişdir. "Dürdanəni səngi-siyah içində" misrası ilə başlayan qoşmada:

*Dürdanəni səngi-siyah içində,*
*Həsrət gözüm görən kimi tanıdı. -*

misralarında "həsrət" sözü əvəzinə "sərraf" sözü işlənməli olsa da, hər iki nəşrdə "həsrət" sözü çapa gedib. Hansı düzgündür? Əlbəttə, "sərraf" sözü. Dürdanəni qara daşın içində gözü sərraf olan tanıya bilər. Bu fikri təsdiqləyən Aşıq Ələsgərin öz şeirləridir. Kalvalı Qurbanın evindən ayrılaraq öz evlərinə qayıdan Aşıq Ələsgər Səhnəbanının həsrəti ilə deyir:

*Eşidin məclisdə arif olanlar,*
*Sərrafam, gövhərim, kanım gedibdi.*

"Mən" rədifli gəraylısında Aşıq Ələsgər yenə sərraf sözünə müraciət edir:

*Xalların dürdü, gövhərdi,*
*Sərrafiyam, tanıram mən.*

Kitabı nəşr edənlər isə hesab etmişlər ki, gənc Ələsgər Səhnəbanıdan ayrılandan sonra onun həsrətini çox çəkmiş və uzaqdan onu ilk dəfə görən kimi tanımış və "həsrət gözüm" ifadəsi ilə fikrini bildirmişdir. Ancaq şeirin bədii siqlətinə, sözlərin seçiminə, düzülüşünə, səslərin ritminə "sərraf gözüm" ifadəsi daha uyğun gəlir.

Gənc Ələsgəri öz tay-tuşlarından fərqləndirən əsas xüsusiyyət onun saz, söz, gözəllik sərrafı olması, insanları tanımaq, fərqləndirmək bacarığına malik olması idi.

Aşıq Ələsgərin:

*Mən sənə aşiqəm, sən mana buta,*
*Dəhanın bənzəyir qəndə, nabata. –*

misralarındakı buta sözünü naşirlər "xəta" kimi yazmışlar. Səbəb kimi də onu göstərirlər ki, guya Aşıq Ələsgər Səhnəbanıya aşiq olub, ancaq Səhnəbanı "varlı" bir kişinin qızı olduğu üçün bu eşq Ələsgəri xətaya salıb. Əslində isə bu fikir məntiqli deyil.

Hər aşiqə bir buta verildiyi kimi Aşıq Ələsgərə də Səhnəbanı buta verilmişdir. "Gerçək aşiq" (İ.Nəsimi) yar yolunda ölər, ancaq inciməz, bu sevdanı, bu eşqi xəta saymaz. Bu fikri sanki Aşıq Ələsgər "İncimərəm" rədifli şeirində də bir daha təsdiq edir ki, aşiq yar yolunda ölər, ancaq inciməz. Sevgilisinin onu soyub talamasını, ona məzar qazdırmasını, məzarı üstündən yol salmasını belə xəta saymaz.

Ustad el aşığının əsərlərində adı çəkilən Qayım ağanı bəzi tədqiqatçılar Gəncəbasarda yaşamış real şəxsiyyət, bəziləri isə mifik obraz hesab edirlər. Adı çəkilən hər iki nəşrdə söz kiçik hərflə yazılmışdır, başqa nəşrlərdə böyük hərflə yazılma hallarına da təsadüf olunur. Şəxs adı olduğu üçün Qayım ağa sözü böyük hərflə yazılmalıdır.

"Narın üz" rədifli təcnisində Aşıq Ələsgər yazır:

*Ləzzət verər bal qatanda qaymağa,*
*Qaymaqdan da ləziz olar narın üz.*

Burada fikir müxtəlifliyi yaradan şirin və ya ləziz sözünün işlənməsidir. Hər iki nəşrdə şirin sözündən istifadə olunmuşdur. Fikrimizcə, ləziz sözü bədii sənətkarlıq baxımından daha üstündür və Aşıq Ələsgər məhz ləziz sözündən istifadə edərək alliterasiya yaratmışdır. Doğrudur, burada alliterasiya nisbətən zəif olsa da, daha yüksək bədiiliyə, söz ustalığına sənətkarın digər əsərlərində də rast gəlmək olar:

*Sarsaq ilə seyrə çıxsan səhraya,*
*Gətirər sərinə sə qalı tez-tez.*

Təcnisin sonuncu bəndinin rədifində Narın sözünün şəxs adı olub-olmaması, böyük və ya kiçik hərflə yazılması, üz cinasının yüz, yoxsa, üz-dərdi üzə çıxartmaq mənasında işlənməsi də mübahisə doğuran məqamlardandır.

Aşıq Ələsgər poeziyasında bəzi söz və ifadələr öz yerindən dəyişdirilmiş və ya tamam başqa sözlə, ya da həmin sözə sinonim olan bir sözlə əvəzlənmişdir.

Yeni nəşrdə mübahisə doğuran sözlərdən bədii cəhətdən daha yararlı olanı, şeirin məzmununa və formasına daha uyğun olanı seçilib işlənməlidir: Dərslisən-təbibsən; xəta-buta; yay-vay; idbara dönmək-şikara dönmək; şirin-ləziz.

Aşıq Ələsgər şeirlərində tarixi həqiqəti özündə ehtiva edən, qoruyan söz və ifadələri olduğu kimi saxlamaq lazımdır. Ustad sənətkarın "Aparır" rədifli müxəmməsində

*Ziyarətə getmək deyil,*
*Urusa sursat aparır, –*

ifadəsində urus sözü Aşıq Ələsgərin yaşadığı tarixi mühitdə rusların imansız, dinsiz bir məxluq olduğuna işarə edilir. Bu müxəmməsdə "urusa" əvəzinə "boş yerə" ifadəsi işlənəndə tarixi gerçəklik təhrif olunur.

"Hər qıya baxanda" ifadəsi "bir qıya baxanda" kimi verilmişdir.

Aşıq Ələsgərin "Endirər" rədifli divanisində də mübahisə, rəy müxtəlifliyi yaradan hallara rast gəlinir. İlk növbədə rədifin indiki və ya gələcək zamanda işlənməsi fikir müxtəlifliyi yaradır. Divanini

oxuyanda aydın olur ki, burada öyüd-nəsihət, hikmətli kəlamlar söylənilir, ümumiləşdirilmiş fikirlər ifadə olunur. Əksər atalar sözü və məsəllərdə olduğu kimi (Ağac bar gətirəndə başını aşağı əyər. Nə əkərsən, onu biçərsən və s.) bu şeirdə də hikmətli kəlamlar işlənmişdir. Atalar sözləri, zərbi-məsəllər və hikmətli sözlərdə bir qayda olaraq feillər qeyri-qəti gələcək zamanda işləndiyi kimi, "Baş endirər" divanisi də qeyri-qəti gələcək zamanda olmalıdır. Ancaq hər iki nəşrdə "Baş endirir" şəklində yazılmışdır.

"Dəli Alı" şeirində 2004-cü il nəşrində:

*Ələsgərin toy işi var əlində,*
*İşi təhər tapıb Göyçə elində (səh. 39).*

Şəklində yazılan misralar 1988-ci il nəşrində:

*Ələsgərin toy işi var əlində,*
*İşi təhər tapmır Göyçə elində.*
*Sənin kimi mərd iyidin yolunda*
*Qurbandı aşığın canı, Dəli Alı –*

şəklində yazılmışdır. Hansı düzgündür? Hörmətli İ.Ələsgər "tapmır" sözü yerinə niyə "tapıb" sözünü işlətmişdir? Bilmirik. Ancaq məntiq onu deyir ki, Dəli Alının məclisində çox yubanan aşıq evinə qayıtmaq üçün əlində toy işi olduğunu, işinin təhər tapmadığını əsas gətirərək bu şeirlə getmək iznini almaq istəmişdir.

"Düşərsən" rədifli qoşma hərbə-zorbadır. Hər iki nəşrdə son bəndin son beyti belə yazılmışdır:

*Çalar qaynağına, səni dağıdı,*
*Göydən yerə parça-parça düşərsən.*

Əvvəla, qaynaq sözü həm bu şeirdə, həm də "Yaxşıdır" rədifli qoşmada caynaq sözünün sinonimi kimi işlənmişdir. Bu da Aşıq Ələsgərin dil, üslub xüsusiyyətlərini öyrənmək baxımından əhəmiyyət kəsb edir. İkincisi, "parça-parça" sözü əvəzinə "parça-para" sözü işlənsə həm şeirin qafiyə sistemi, ustadın dil – üslub xüsusiyyətləri pozulmur, həm də mənada heç bir dəyişiklik olmadan xalq dilinin şifahi nitq qatı da qorunub saxlanır.

"Güləndam" seirinin son bəndi 1988-ci il nəşrində:

*Heç demirsən, Ələsgərim hardadı?*
*Səbəb nədi, gülün meyli xardadı?*
*Mənim gözüm, qoynundakı nardadı?*
*Aşığa lütf etsən, xoşdu, Güləndam! –*

şəklində çap olunsa da 2004-cü il nəşrində hansı bir səbəbdənsə keyfiyyətsiz bir formada dəyişdirilmişdir:

*Heç demirsən, Ələsgərim hardadı?*
*Səbəb nədi, gülün meyli xardadı?*
*Mənim gözüm, sənin kimi yardadı,*
*Nər səfası mana xoşdu, Güləndam!*

Hesab edirik ki, korrektə ucbatından “nar” sözü burada “nər” şəklində yazılmışdır. Ancaq bu bəndin son iki misrasında yuxarıda göstərilən dəyişiklik şeirin bədii dəyərini artırmamışdır, əksinə, azaltmışdır.

“İçində” rədifli qoşmasında (səh. 55) qeyri-qəti gələcək zamanda işlənməli feillər indiki zamanda verilmişdir. Buna görə də “bir gün yaranırsan, bir gün ölürsən” kimi məntiqsiz cümlələr yaranır. Hörmətli oxucu, sizcə xalq dilində “arsız-arsız gülmək” ifadəsi “ar-sız-qəmsiz gülmək” ifadəsindən daha dolğun deyilmi? Bəs ustad Aşıq Ələsgər “arsız-arsız gülürsən?” ifadəsi əvəzində “arsız-qəmsiz gülürsən?” ifadəsi işlədərdimi? Bizcə, qətiyyən yox.

“Qalmadı” rədifli qoşma hər iki nəşrdə “Allah, Məhəmməd, Əli deyənlər” misrası ilə başlayır. Bu misrada hecaların sayı 10-dur. Halbuki şeir 11 hecalıdır, qoşmadır. Göründüyü kimi, “Əli” sözünün əvvəlində “ya” nidası işlənməmişdir. Bu da şeirdə bir natamamlıq yaradır. Digər tərəfdən xalq arasında da bir iş görüləndə, bir səfərə çıxılanda “Allah, Məhəmməd, ya Əli” deyilir. Deməli, Aşıq Ələsgərin dediyi “Allah, Məhəmməd, ya Əli” misrası nəşr zamanı təhrif olunmuşdur və növbəti nəşrlərdə bərpasına ehtiyac var.

Aşıq Ələsgərin “Ayağa məni” rədifli cinaslı təcnisinin son bəndində cinas bayatısında ikinci misra 1988-ci il nəşrində “Gül bəsləyən bu duyar”, 2004-cü il nəşrində isə “Gül bəsləyən bu diyar” şəklində getmişdir. Əslində isə cinas bayatı aşağıdakı kimi çap olunmalı idi:

*Aşıq deyər, budu yar,*
*Gül bəsləyən buduyar.*
*Canım sadağa verrəm,*
*Qəbuldursa, budu, yar.*

İkinci misrada “buduyar” sözü gülün vaxtaşırı qurumuş budaqlarını kəsmək, budamaq mənasındadır. Bu fikri ikinci misranın cümlə şəklində işlənməsi də təsdiq edir. Həm Ələsgərin, həm də digər sənətkarların cığalı təcnislərində cinas bayatının ikinci misrası bir qayda olaraq cümlə şəklində olur. Birinci və ikinci misralardakı fikri ümumiləşdirir, dəqiqləşdirir, bitkin hala salır. Həm də cinasın formasında və məzmununda bir mükəmməllik yaradır.

“Baş endirər” adlı divaninin birinci bəndindəki misra “Məhəmmədə tabe olan Qurana baş endirir”, – şəklində yazılmışdır.

Bəs əslində necə olmalıdır? Söz sərrafı Dədə Ələsgər görəsən “Məhəmmədə tabe olan”, yoxsa, “Məhəmmədə nazil olan” ifadəsini işlətmişdir? Fikrimizcə, “Məhəmmədə nazil olan” daha dəqiq, daha düzgün ifadə formasıdır.

İstər klassik ədəbiyyatda, istərsə də sadə xalq arasında dinlə, imanla bağlı ümumi fikir ondan ibarətdir ki, göydən yerə 4 Quran enmişdir – nazil olmuşdur ki, onların sonuncusu Məhəmməd peyğəmbərə verilmişdir. Xalqımız arasında min illərdən bəri gələn adətə görə yahudilərə də, xristianlara da mərhəm dost, qonşu gözü ilə baxılmışdır. Xalqımız tarixən təbiəti, xarakteri etibarilə tolerant xalq kimi formalaşmışdır. XII əsrdə yaşamış Ə.Xaqani yazırdı:

*Xüsusilə bu nəsrani məzhəbində olan qonşum*
*Hörmətimi çox saxlayır, ikinci bir İsa qədər.*

İslam qanunlarına görə, əhli-kitab olanlar Allahı tanıyan, Allahın varlığına inamı olan insanlar kimi tanınıb. Müsəlmanlar öz övladlarına islam mənşəli adlarla bərabər, yəhudi və xristian mənşəli adları da qoyurlar. İslamı qəbul etmək təklifi əhli-kitab olmayanlara edilmişdir. İslamda məcburən dini qəbul etmək, tabe olmaq yoxdur. Klassik şairlərin, aşıqların maraq göstərdikləri təsəvvüfdə də “mənə tabe ol” hökmü yoxdur. “Allahı bil, tanı” hökmü var. Tabe – ərəb sözüdür. Tabe olmaq – birinin və ya bir şeyin hökmü altına düşmək, onun iradəsi ilə hərəkət etməyə məcbur olmaq, itaət etmək, boyun əyməkdir.

Fikrimizcə, “Məhəmmədə tabe olan” ifadəsini dini məsələləri mükəmməl bilən bir sənətkar kimi Aşıq Ələsgər işlətməzdi. Çünki “baş endirmək” sözü məna etibarı ilə tabe olmaq, itaət etmək anlamına gəlir. Belə olan halda bir misrada həm tabe olmaq, həm də baş endirmək sözləri işlənə bilməzdi. “Məhəmmədə nazil olan” ifadəsinin daha ağlabatan, daha məntiqli olmasını Quranın Əraf surəsinin 157-ci ayəsi də təsdiq edir: “Ona nazil olan kitaba tabe olanlar səadətə çatanlardır”.

Bir məsələyə də burada münasibət bildirməyi ehtiyac duyuram. Hər bir sənətkar öz dövrünün tarixi faktlarını, məlumatlarını, yer, şəxs adlarını öz əsərlərində əks etdirirsə, həmin adlar tarixliliyi qorumaq baxımından olduğu kimi yazılmalıdır. Xaçbulaq sözünün yazılışı da bu baxımdan diqqəti cəlb edir. İslamiyyətə qədər Şimali Azərbaycanın bir çox yerlərində bu və ya digər dərəcədə xristianlığın yayıldığı məlumdur. Xaç sözünün iştirakı ilə dilimizdə işlənən bir çox yer, yurd, çay adları var. Biz onları dəyişməməliyik. Xaçbulaq sözü də bu qəbildən olan bir sözdür. Aşıq Ələsgərin həm “Dağlar” şeirində, həm də “Kimi” rədifli

müxəmməsində Xaçbulaq sözünün yazılışı Xəşbulaq şəklində getmişdir. Fikirimizcə, bu yanlışlığı da aradan qaldırmaq lazımdır.

Son bəndin birinci misrası 1988-ci il nəşrində “Tərlansan, ovlatma sarı, dur gedək”, 2004-cü il nəşrində isə “Gətirdin rəngimə sarı, dur gedək” şəklində verilmişdir.

Fikrimizcə, şeirin məna və məzmununa uyğun olaraq “Gətirdin rəngimə sarı, dur gedək”, - variantı daha məqbul sayılmalıdır.

“Verir” rədifli divanisində Aşıq Ələsgər:

*Beş kəlmə sözdən ötəri sən ki mətəl qalmısan,*
*Nahaqdır, mədən tatları, Mikayıla dövran verir, –*

misraları ilə XIX əsrin ortalarında və ikinci yarısında Gədəbəydəki mis mədənlərində işləyən cənublu qardaşlara işarə edir. Tarixi həqiqət bu misralarda öz əksini tapmışdır. Əgər “mədən tatları” söz birləşməsini biz “qürbət vilayət” söz birləşməsi ilə əvəz etsək, tarixi gerçəkliyə xələl gətirmiş olarıq.

Aşıq Ələsgər şeirlərində bəzi söz birləşmələrinin və cümlələrin də dəyişik işlənməsi hallarına rast gəlinir. Belə söz və ifadələrin də ilkin və düzgün formasını bərpa etmək daha düzgün olar. “Qürbət vilayət” ifadəsi mədən tatları şəklində olanda tarixi həqiqət bu şeirdə daha düzgün qoyulmuş olur. “Tərki-vətən olmaq” “diyar-diyar gəzmək”dən daha bədiidir. “Məni sözüm yoldan çıxan mollanı” ifadəsi ilə “Mənim sözüm doğru yoldan çıxanı” və ya “Mənim sözüm doğru yoldan azanı” ifadəsini müqayisə etmək və tarixi gerçəkliyə daha çox uyğun gələnini seçmək lazımdır.

Aşıq Ələsgərin şeirlərində bəzi söz və ifadələrin yazılışı ilə bağlı fikirlərimizi aşağıdakı kimi ümumiləşdirə bilərik.

Aşıq Ələsgərin şeirlərində fonetik cəhətdən fərqli olan sözlərin yazılışını diqqət mərkəzində saxlamaq, həmin sözlərin həm düzgün olanını, həm də orfoepik normanın tələbinə uyğun olan variantlarını seçib nəşr etmək daha məqsədəuyğundur. Aşıq yaradıcılığı şifahi ədəbiyyata daxil olduğu üçün fonemlərin yazılışında şifahi nitq tərzinə daha çox üstünlük vermək lazımdır. Məzmunun formaya güzəştə gedilməsi halları özünü təcnislərdə daha çox büruzə verir. Cinas sözlərin yazılışında orfoepik normanın tələbinə uyğun addım atmaq, folklor ənənələrini qoruyub saxlamaq lazımdır.

Leksik vahidlərin yazılışında tələffüz qaydalarına əməl etmək şərti qorunmaqla bərabər şeirin forma və məzmununa, bədii dəyərinə uyğun olan sözü seçmək və nəşr etmək gərəkdir. Hər hansı bir sözü

naşirin və ya tərtibçinin zövqünə görə başqa bir sözlə – sinonimi olsa belə – əvəz etmək Ələsgərin sözdən çəkdiyi qalaya kənardan bir daş qoymaq təsiri bağışlayır.

Ayrı-ayrı nəşrlərdə fərqli formalarda rast olunan söz birləşmələri və cümlələri də bir daha müqayisə etmək, ustad sənətkarın dil və üslub xüsusiyyətlərinə daha uyğun olanını seçmək gərəkdir.

Aşıq Ələsgərin yaradıcılığı aşıq poeziyasının ən dəyərli nümunələrindən biri olduğu üçün onun hər bir şeirini, hər bir bəndini, hər bir sözünü həm yersiz müdaxilələrdən, redaktə təşəbbüslərindən qorumaq, həm də bu günə qədər təhrif olunmuş səs, söz və cümlələrin ən düzgün, ən ağlabatan, Ələsgər ruhuna, təfəkkürünə uyğun olanını seçib nəşr etmək, gələcək nəsillərə çatdırmaq cənab Prezidentin ustad sənətkarla bağlı Sərəncamına ən gözəl töhfə olardı.

Deyilən fikir və təkliflərdən münasib olanların növbəti nəşrlərdə nəzərə alınacağına ümid edirik.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. Bakı, 1988
2. Aşıq Ələsgər əsərləri. Bakı, 2004
3. M.Təhmasib. “Aşıq Ələsgər-150”. Bakı, 2010
4. Aşıq Ələsəgər möcüzəsi. Mədəniyyət.az. 03.06.2021
5. Aşıq Ələsgərin şeirləri. Göyçə.az 13.11.2018

# XIX ƏSR AZƏRBAYCAN AŞIQ ŞEİRİNDƏ PAREMİOLOJİ VAHİDLƏR (AŞIQ ƏLƏSGƏR YARADICILIĞI ƏSASINDA)

# PAREMIOLOGICAL UNİTS IN XIX CENTURY AZERBAIJAN ASHUG POEM (ON THE BASİS OF ASHUG ALASGAR'S LİTERARY ACTİVİTİES)

# ПАРЕМИОЛОГИЧЕСКИЕ ЕДИНИЦЫ В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭМЕ XIX ВЕКА (НА ОСНОВЕ ТВОРЧЕСТВА АШИГА АЛАСГЕРА)

**Sevinc ƏLİYEVA**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*sevinc.k.aliyeva@gmail.com*

**Summary**

The basis of written literature is the use of folk art. Of course, each of our literary artists benefited from folk art, folk wisdom, paremiological units in their works and this issue has always been a topical subject for our literary criticism. From Khagani Shirvani, Nizami Ganjavi, Mohammad Fuzuli, Ashug Alasgar, Molla Panah Vagif, Gasim bey Zakir, Mirza Fatali Akhundov, Mirza Alakbar Sabir, Abbas Sahhat, Samad Vurgun, Bakhtiyar Vahabzade . From Khagani Shirvani, Nizami Ganjavi, Mohammad Fuzuli, Ashug Alasgar, Molla Panah Vagif, Gasim bey Zakir, Mirza Fatali Akhundov, Mirza Alakbar Sabir, Abbas Sahhat, Samad Vurgun, Bakhtiyar Vahabzade, to our times, valuable artists of our literature have always appealed to folk wisdom and paremiological units. As we analyze their literary works today, we can see paremiological units. As we mentioned Ashug Alasgar's poems are also important in this regard. Ashug Alasgar's works which derive their source directly from proverbs and riddles, folk wisdom and folklore traditions have been the object of research since the 20th century to our times. These issues have been improved to our times, their subject and purpose also have been further expanded and have acquired new content in the XXI century. Thus, the works of Ashug Alasgar, which have a moral and artistic character, have a rich idea and content with wise ideas and paremiological units, specifically related to oral folk art. Our aim in this scientific research is to know of Ashug Alasgar's literary works, to assess the specificity of the research work in the context of folklore and written literature and is also to solve the problem from the point of view of oral and written text. Such aspects are summarized in the article and have a scientific and theoretical basis.

**Key words:** Ashug Alasgar, folklore tradition, proverbs and sayings, folk wisdom, paremiological units, written literature, folk art.

**Резюме**

Основа письменной литературы - использование народного творчества. Конечно, каждый из наших художников извлек пользу из народного творчества, народной мудрости, паремиологических единиц в своих произведениях, и этот вопрос всегда был актуальным для нашей литературной критики. От Хагани Ширвани, Низами Гянджеви, Мохаммада Физули, Ашига Аласгара, Моллы Панаха Вагифа, Гасым бека Закира, Мирзы Фатали Ахундова, Мирзы Алакбара Сабира, Аббаса Саххата, Самеда Вургуна, Бахтияра Вахабзаде, по сей день всегда обращаются к ценным деятелям литературы. мудрость народа. Анализируя их работу сегодня, мы сталкиваемся с паремиологическими единицами. Как мы уже упоминали, в этом отношении важное значение имеют стихи Ашига Алескера. Произведение Ашига Аласгара, которое берет свое начало непосредственно из пословиц и поговорок, народной мудрости и фольклорных традиций, восходит к двадцатому веку. К настоящему времени эти исследования были усовершенствованы, их предмет и цель были расширены, а в 21 веке они приобрели новое содержание. Таким образом, произведение Ашыга Аласгара, имеющее морально-художественный характер, имеет богатую идею и наполнение мудрыми идеями и паремиологическими единицами, особенно относящимися к устному народному творчеству. Целью нашего исследования является переосмысление и изучение творчества Ашыга Алескера, определение специфики темы исследования в контексте фольклора и письменной литературы. Оценка на занятиях, решение проблемы с точки зрения устного и письменного текста - это реализация. Такие аспекты обобщены в статье и имеют научно-теоретическое обоснование.

**Ключевые слова:** Ашыг Алескер, фольклорная традиция, пословицы и притчи, народная мудрость, паремиологические единицы, письменная литература, народное творчество.

Fil.ü.f.d. A.Bəylərova məqalələrinin birində bu istiqamətə diqqət yönəldərək qeyd edir ki, paremioloji vahidlər bir tərəfdən xalqın dünyagörüşünü, digər tərəfdən isə gerçəkliyin bu və ya digər hadisələrinə münasibətini əks etdirir. Bu vahidlər ilk baxışda sadə görünsə də, onların vasitəsilə xalqın tarixi keçmişinə dair məlumat almaq, linqvokulturoloji informasiyanı əldə etmək olur. Bu məlumatlar xalqın ümumi söz ehtiyatında cəmlənsə də, yalnız kontekst daxilində tam şəkildə üzə çıxır (7, 261-267). Klassik sənət xəzinəmiz kimi yaddaşlarda yaşayan Aşıq Ələsgər yaradıcılığı paremioloji vahidlərlə o

qədər zəngindir ki, düşünürük ki, onun haqqında hansı dövrdə araşdırma aparsaq, bir daha yeni baxış bucağından yanaşmış oluruq və nəticədə, həmin dövr üçün də yeni bir tədqiqat əsəri ərsəyə gəlmiş olur.

Bilirik ki, Azərbaycan aşıq ədəbiyyatı tarixində aşıq sənətinin təşəkkül tapmasında mühüm rolu olmuş sənətkarlarımızdan olan Aşıq Ələsgərin Azərbaycan aşıq ədəbiyyatındakı rolundan bəhs edən tədqiqatçı alim İslam Ələsgərin fikirləri də diqqətimizi çəkir: "Bu poeziyanın hər bir incisində məşhur saz-söz ustasının dağ çayları tək coşğun-daşqın ilhamı, müdrik uzaqgörənliyi, istənilən poetik, ya elmi məramın ən dərin qatlarına nüfuzetmə bacarığı, mənəvi zənginliyi, şəxsiyyət kimi təmizliyi, kamilliyi, xalqın ruhuna, xalq ədəbiyyatına yaxınlığı görünməkdədir" (3, 7). Bütün bunlara rəğmən, açıq şəkildə deyə bilmədiklərini folklora istinad etməklə də oxucularına çatdıran Aşıq Ələsgər yaradıcılığında üç istiqamətin olduğunu müşahidə edirik: təbiət lirikası, məhəbbət mövzulu şeirlər və ictimai motivli şeirlər. Qeyd edək ki, şair qoşma, gəraylı, müxəmməs, təcnis və qəzəllərində real insan surətlərinin vəsfi ilə bərabər, zəmanəsinin tələblərinə uyğun olaraq, yaşadığı cəmiyyətdə cərəyan edən hadisələrin də təsvir və tərənnümünü vermişdir. Eyni xüsusiyyətləri Aşıq Ələsgərin divani, deyişmə, bağlama, həcv və hərbi-zorbalarında da görə bilərik. Prof. S.Paşayev bu haqda bəhs edərək yazır ki, atalar sözləri və məsəllər, xüsusilə, mənzum atalar sözləri məişətimizə elə daxil olmuşdur ki, hər kəsin dilində əvəzsiz bir hikmət kimi, yaddaqalan və böyük təsir gücünə malik nəğmə kimi səslənir (11, 137). Professorun bu fikirləri Aşıq Ələsgər yaradıcılığının da bizə bəxş olunmuş nəğmə olduğunu xatırladır.

Onu da nəzərə çatdıraq ki, formaca yığcam olub, dərin məzmunlu fikir ifadə edən paremioloji vahidlər haqqında tədqiqatçı alim A.Bəylərova yazır: "Paremiologiya paremiyaların tədqiqi ilə məşğul olan elm sahəsidir. Paremioloji vahidlərə atalar sözləri, məsəl və deyimlər, hikmətli sözlər, aforizmlər daxil edilir. Demək olar ki, bütün paremiyalar real həyatda baş verən hadisələrin müşahidəsi nəticəsində yaranmışdır. Məsəl, hikmətli söz və aforizmlərin meydana çıxması müəyyən hadisələrlə bağlı olur. Bu baxımdan onlar bəzən hər hansı bir nağıl və ya təmsilin sonunda meydana çıxan əxlaqi nəticə də ola bilir. Paremioloji vahidlər milli mədəniyyətin tərkib hissəsi və milli düşüncənin təzahür formalarından biridir. Onlarda xalqın, millətin dünyaya baxışı, gerçəklikləri və ətraf mühitdə baş verənləri dərk

etməsi və qiymətləndirməsi əks olunur. Cəmiyyətin elə bir tərəfi yoxdur ki, bu janrda öz ifadəsini tapmasın" (7, 261-267). Bu fikrə istinadən xalq deyimlərinin, paremioloji vahidlərin, bir sözlə, folklor ənənələrinin Aşıq Ələsgər yaradıcılığına açıq təsirini ifadə etmək üçün sənətkarın şeirlərini aşağıdakı kimi sistemləşdirə bilərik:

– Sənətkarın qaynana, gəlin, ana, övlad, ailə kimi bir sıra mühüm mövzuları əhatə edən şeirləri. Bu məzmunlu şeirlərində folklor ənənələrindən, xalq hikmətindən bəhrələndiyi üçün onları bu gün də oxuyub tədqiq etməyə böyük ehtiyac var:

O vədə ki gəlin oldun,
Qabırğası qalın oldun,
Qaynanana zalım oldun,
Dilindən xəbərin varmı?

– söyləyən şair qız-gəlinlərimizin ailə, qaynana, ana qarşısında məsuliyyət daşıdığına işarə edir, acı dilin insanı hər cür rəzalətə, qəbahətə düçar etdiyini xüsusi vurğulayır. Şeirdə xalq deyiminə söykənən "qabırğası qalın oldun" misrası isə hər bir gəlinin ailədə öz hərəkət və davranışı üçün məsuliyyət daşıdığını ifadə edir (4, 257). El arasında məsəl kimi işlənən bu xalq hikməti də göstərir ki, Aşıq Ələsgərin xalq düşüncəsindən yaradıcı şəkildə bəhrələnməsi bütün istiqamətlərdə araşdırılmalıdır.

– Aşıq Ələsgərin sevgi və gözəllərin tərənnümünə həsr olunmuş şeirləri. Məlumdur ki, Azərbaycan aşıq ədəbiyyatında hər zaman gözəllərin tərənnümü, saf sevgi, bir-birinə ülvi məhəbbət hissi haqqında şeirlər geniş yer tutmuş və bu gün də tutur:

Ruhun təzələnsin görəndə gərək,
Sən onun könlündə, o səndə gərək.
Haqqa şükür qılsın hər bəndə gərək,
Kim nə deyir bu dövranı, gözəldi (4, 52).

Şeirdə qadının saf və sonsuz məhəbbəti təsvir olunmaqla bərabər, xalq yaradıcılığından seçilmiş paremioloji vahid də yer alır. Belə ki, haqqa şükür qılsın hər bəndə gərək – söyləyən şair sevgililəri haqqa şükür edib, bir-birinə həyan olmağa çağırır. Göründüyü kimi, sevmək, ailə qurmaq kimi həyati məsələlərə folklor gözü ilə baxan Aşıq Ələsgərin məhəbbət mövzusunda yazdığı şeirlərində sevgi insanın ülvi və nəcib hissi kimi tərənnüm olunur. Məhəbbətdə sədaqət, mətanət və dözümlülük, vəfada möhkəmlik bu şeirlərin əsas məzmununu təşkil edir. Nizami Gəncəvi, Məhəmməd Füzuli, Molla Pənah Vaqifdə olduğu kimi, Aşıq Ələsgərdə də məhəbbət insanı yüksəldən, təkmilləşdirən

mənəvi sifət kimi əsaslandırılır. Buna görə də Aşıq Ələsgər əsərlərində təsvir etdiyi sevgi və məhəbbət məsələlərini bir qədər ülviləşdirmiş, bununla yanaşı, qarşılıqlı azad məhəbbətin müdafiəçisi kimi çıxış etmişdir.

Məlumdur ki, Aşıq Ələsgərin yaradıcılığının mühüm bir qolunu təbiətin tərənnümü təşkil edir. Vətənimizin elə bil təbiət gözəlliyi yoxdur ki, o, Aşıq Ələsgərin yaradıcılığında öz əksini tapmasın. Məsələn, dağların tərənnümü Aşıq Ələsgərin yaradıcılığı üçün çox doğma olan mövzulardan biridir. Dağları çox ustalıqla vəsf edən şair gəzdiyi oylaqların, başıqarlı dağların, yaylaqların gözəlliyini coşğun ilhamla tərənnüm etmiş, yenə xalq hikmətinə arxalanaraq gözəl bədii lövhələr yaratmış, təbiətin gözəlliyini gözümüz önündə canlandırmışdır. Dağları görməyən, onlar haqqında heç bir təsəvvürü olmayan oxucu da elə zənn edir ki, dağları yaxından görmüş, müşahidə etmiş, o gözəlliklərdən həzz almışdır. Bu cəhətdən şairin "Dağlar" rədifli qoşmasına nəzər salaq:

Bir ay yarım nobahardan keçəndə,
Car olur köysündən sellərin, dağlar!
Çalxanır sonalar, çığrışır qazlar,
Zəmzəm zümzüməli göllərin, dağlar!

Hanı mən gördüyüm qurğu-büsatlar?!
Dərdi-məndlər görsə, tez bağrı çatlar,
Mələşmir sürülər, kişnəşmir atlar,
Niyə pərişandı halların, dağlar?! (4, 36, 37) –

deyən Aşıq Ələsgər qoşmanın sonrakı bəndlərində dağların fəsildən-fəslə gözəlliyini dəyişərək, rəngdən-rəngə düşməsini paremioloji vahidlərlə izah edir. Bu başıqarlı dağlar həm də vüqarlıdır, əzəmətlidir. Gözəllik, bolluq nişanəsi olan dağlarda sonsuz bir qürur, məğrur bir görkəm vardır. Öz gözəlliyini, şərəfini uca tutan bu dağlar heç kəsə baş əymir, yurdumuzun mərd oğulları kimi sinəsini irəli verib, vətənimizi qoruyan igidlərin səngərinə çevrilibdir:

Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar (4, 36).

Bu da bir həqiqətdir ki, Aşıq Ələsgərin "Dağlar" adlı şeirləri nə qədər qüdrətli, əzəmətli olsa da, ondan sonra gələn aşıqlar da bu mövzuya müraciət etməyə cürət etmişlər. Bu cəhətdən başıqarlı dağlar arasında uzun ömür sürmüş Aşıq Şəmşirin bu mövzuda yazdığı şeirləri maraq doğurur. Təhlilimizin bu yerində Aşıq Şəmşirin yaradıcılığına kiçik bir istinad etməliydik. Çünki bu bir həqiqətdir ki, heç bir

aşığın yaradıcılığında dağların tərənnümünə sənətkarın əsərlərindəki qədər geniş yer verilməmişdir. Onu da qeyd edək ki, Aşıq Şəmşir yaradıcılığında da dağlar yalnız soyuq bulaqlar, seyrəngahlar, qoyun-quzu sürüləri bəslənən bir gözəllik diyarı deyil, vətən kimi geniş bir məna kəsb etmişdir:

Göz vuranda nər utanar mayadan,
Ağ dumana bürünürsən həyadan,
Qartal, kəklik qulaq asır qayadan,
Aşıqlar sazını çalanda, dağlar (5, 192).

Aşıq Şəmşirin təsvir və tərənnüm etdiyi dağlar, yaylaqlar, göllər əslində doğma vətənimizin yamacı-yoludur, bütöv Azərbaycandır.

– Aşıq Ələsgərin mənəvi təmizlik, doğruluq, düzgünlük kimi müsbət əxlaqi keyfiyyətlərin əks olunduğu şeirlərində də yer almış dərin mənalı kəlamlar, paremioloji vahidlər sənətkarın yaradıcılığı ilə bərabər, xalqımızın yaddaşında da, dilində də işlənə-işlənə inciyə dönmüş, aşıq ədəbiyyatında öz dərin mənasını qoruyub saxlamışdır:

Baxtım tərəqqidə, işim tənəzzül,
İki sifət bir iqbala sığışmaz.
Şəriəti anla, mərifəti bil,
Şərü böhtan doğru yola sığışmaz (4, 179).

Əslində, düşünürük ki, Aşıq Ələsgər lirikasını tam dolğunluğu ilə anlamaq insanın həyati təcrübəsindən və yüksək əxlaqi keyfiyyətlərə malik olmasından da asılıdır. Çünki bu şeirlərdə ifadə olunmuş əxlaqi fikirlərin düzgün dəyərləndirilməsində şairin şəxsi nümunəsi də böyük rol oynayır. “İki sifət bir iqbala sığışmaz” və ya “şərü böhtan doğru yola sığışmaz” kimi paremioloji vahidləri istər-istəməz oxucunu öz təsiri altına alır, onun başqaları ilə münasibətində öz əksini tapır. Şairin nümunə gətirdiyi bu kəlamlar insanı haqqa aparan yoldur. Prof. C.Qasımovun dərin elmi-nəzəri məna kəsb edən aşağıdakı tədqiqatı da fikrimizin izahında dəyərli bir mənbədir: “Sənətkarın böyüklüyü, bütövlüyü onun yaradıcılığı ilə şəxsiyyətinin vəhdətində özünü tapır. Bu bütövlük onun sözü ilə işi, yaratdıqları həyatda mənəviyyat və əxlaqı ilə, şəxsiyyəti, sənətdə fərdi “mən”i arasında ahəngdən yaranır. Bu vəhdət pozulanda sənətkarla zaman arasında da harmoniya pozulur, nəsillər və illər arasında da səhman mehvərdən çıxır, “zamanın bağları” qırılır” (9, 324).

– Böyüyə hörmət, ustada etimad, təvazökarlıq insanlar arasında münasibətlərdə ən vacib ünsiyyət formalarıdır. Bu haqda Aşıq Ələsgər oxucuya müraciətlə yazır:

Məğrurluq eyləyib, “ustadam” demə,
Vaxt olar, bir yerdə dara düşərsən.
Daş tülək deyilsən, çolpa balasan,
Sərgərdan qalarsan, tora düşərsən.

Alçaqda dayan ki, çıxasan başa,
Tülküsən, aslanla girmə savaşa,
Əlin vurma gücün yetməyən daşa,
Götürə bilməzsən, zora düşərsən (4, 173).

Bu şeirdə ifadə olunan paremioloji vahidlər bütün parlaqlığı ilə ustada, ağsaqqala, ağbirçəyə hörmət etməyin nə qədər gözəl nəticə verdiyini ifadə edir. Belə ki, “Məğrurluq eyləyib, “ustadam” demə”, “Alçaqda dayan ki, çıxasan başa”, “Əlin vurma gücün yetməyən daşa” kəlamlarından aydın olur ki, ləyaqət hissi, mənəvi zənginlik, sadəlik və təvazökarlıq kimi əxlaq normaları insanı ömrüboyu müşayiət etməlidir və bu normalar insanın özünü cəmiyyətdə aparmaq bacarığını göstərir, həyat tərzini nizamlayır.

– Xalqa zülüm və xəyanət edən din xadimlərinin, mollaların, məmurların ifşası da Aşıq Ələsgər yaradıcılığının əsas mövzularından biri olub:

Qohum bildik, qoyduq adam yerinə,
Xələt verdik, gəl Bəşirin toyuna,
Gədadan bəy olmaz, nakəsdən iyid,
Lənəd müxənnətin əsli-soyuna.

Sən niyə gəlmədin, bic İmamalı?!
Dağıtdın ölkəni, yıxdın mahalı,
Səni də aldatdı dünyanın malı?
Zəhər Qələndərin pencər payına (3, 65).

Şeir nümunəsində də açıq-aydın ifadə olunur ki, şair cəmiyyətdə sadə insanlara qarşı baş verən haqsızlıqları, dözülməz halları gördükcə öz kəskin etirazını bildirir, məmurların xalqla rəftarı ilə barışa bilmir. Azərbaycan aşıq sənətinin inkişafında əvəzsiz xidməti olmuş ustad Aşıq Alının da hərbi-zorba, ustadnamə, divani, təcnis və dodaqdəyməzlərinin əsas xüsusiyyətlərindən biri ictimai mühitdəki hərcmərclik və qanunsuzluqların folklorun dili ilə, paremioloji vahidlərlə aydın ifadə olunmasıdır. Şairin fikrincə, ölkədə oğurluğun, yol kəsməyin artması insanların nifrətini gündən-günə daha da kəskinləşdirir:

Nökər saxlamağın çoxdu günahı,
Aləmə yetəcək miskinin ahı,
Zülm edənə zülm eliyər İlahi,
Yoxsulun üzünə var gələcəkdir (2, 88).

Nümunə göstərdiyimiz şeir parçasından aydın olur ki, şairin paremioloji vahidlər vasitəsi ilə yaratdığı gerçəkliyin canlı mənzərələri, ətraf mühitə açıq münasibəti, kəskin tənqidi ruhu müasirləri və sələflərini də haqq sözünü deməyə cəlb etmişdir.

Tədqiqlərdən məlumdur ki, bizdə aşıq şeirilə əlaqədar külli miqdarda bağlamalar, qıfılbənd-bayatılar yaranmışdır ki, orada qüvvətli şeiriyyət, gözəl sənətkarlıq hakimdir. Həmin bağlamaların xeyli hissəsi olduğu kimi qalmış, bir hissəsi isə bu və ya digər dəyişikliyə uğrayaraq tapmacalara çevrilmişdir. Bu növ tapmacalarda isə şeiriyyət, vəzn, qafiyə məsələsi çox qüvvətlidir (12, 20). Prof. Y.Babayev da eyni aspektdən yanaşaraq, bu haqda tədqiqatlarında yazır: "Müəmma yazılı ədəbiyyatda tapmaca və ya aşıq ədəbiyyatındakı qıfılbənd (bağlama) tipində şeirdir. Müəyyən mətləb üstüörtülü şəkildə deyilir, cavabı isə qarşı tərəf özü tapmalıdır" (5, 241). Qeyd edək ki, "Aşıq Ələsgərin Şınıq səfəri" dastan-rəvayətində oxuduğumuz bağlama-bayatı (qıfılbənd-bayatı) bunun bariz nümunəsidir:

... Dəh nədir?
Atı vurdun, "dəh" nədi?!
Beş nədi, on beş nədi?
İki nədi, tək nədi? (4, 268)

Aşıq Ələsgər lirik şeirlərində ifadə etdiyi əxlaqi keyfiyyətləri, xalq deyimlərini ustadnamələrində daha da inkişaf etdirir. Şairə görə, insanların gördükləri təqdirəlayiq əməllər onun bütün simasını, mənəvi zənginliyini, bir sözlə, insanın həyatında gözəl nə varsa hamısını yaradır. Əxlaqi keyfiyyətlər insanı mənəvi cəhətdən yüksəldir, saflaşdırır və təkmilləşdirir. Buna görə də ustadnamələrində belə müəllifin gəldiyi qənaət olaraq, gənc nəslə nəyin halal və haram olduğu, hansı əməlin başucalığı, hansının alçaqlıq gətirdiyi aşağıdakı kimi izah edilir: "Halallığın əsas şərtlərindən biri də insanın ruzi halallığıdır. Yəni hərə öz zəhmətinin barını yeməli, başqalarının malına göz dikməməlidir. Əgər bu iki vacib şərt pozulubsa, aşığın öz sözləri ilə desək, birisi "loğmadan kəc", "nüftədən əyri"dirsə, nə qədər oxumuş olur-olsun, istər alimlik dərəcəsinə yüksəlsin, o, "pür kamala yetişməz". Odur ki, dahi sənətkar:

Kəsb eylə özünə halaldan maya,
Zinakar, haramxor yetişməz baya –

paremioloji vahidlərini məqsədli şəkildə istifadə edərək, hər kəsi düz yola çağırır. Daha sonra sənətkarın:

Sövdə qıl haqq ilə, əl çək haramdan,
Halaldan mətləbin al, qoca baxtım! –

misralarındakı tövsiyəsi isə “Ziyanın yarısından qayıtmaq da xeyirdir” atalar sözlərinin başqa şəkildə ifadəsidir (4, 17).

Göründüyü kimi, zəhmətkeş xalqa isti münasibəti heç şübhəsiz ki, şairin dünyagörüşü ilə əlaqədardır və bu müsbət xüsusiyyətlər sənətkar şəxsiyyətinin mütərəqqi cəhətlərini ifadə edir. Bu məqamda aşağıdakı fikri də xüsusi vurğulayaq. Belə ki, M.Arifin apardığı tədqiqatlar da göstərir ki, sənət sənətkarın həyatla təmasında başlayır. Bu təmasda şairin fikri, qəlbi, sənətkar mövqeyi iştirak edir. Şairin həyatla təmasdan aldığı təəssüratın təbiiliyi və ya saxtalığı, böyük və ya kiçikliyi, əhəmiyyətli və ya əhəmiyyətsizliyi, təzəliyi və ya köhnəliyi əsərin taleyini əsasən həll edir (1, 592).

Aşıq Ələsgərin ustadnamələrində də nəsihətçilik ruhu hakimdir. Məsələn, “Yaxşıdı” adlı ustadnaməsində arsız, paxıl adamların ağıldan naqis olub hər işi tərsinə gördüklərindən bəhs olunur:

Arif olan, gəlin sizə söyləyim,
İyid sözü mərd-mərdana yaxşıdı.
Kişi gərək dediyindən dönməsin,
Biilqardan bir zənana yaxşıdı.

Qəlbi düz olanın evi hac olu,
Qonşuya kəc baxan özü kəc olu.
İkiarvadlılıq mardan acı olu,
Bez geydirsən bir cavana yaxşıdı ( 3, 36).

Şeirdə sözündə, əməlində bütöv olmaq hünərin birinci şərti, həyatda hər kəsə – dosta, qonşuya, ailəyə vəfalı olmaq isə onun son şərti kimi əsaslandırılır. Əlbəttə, bu kimi nümunələrin sayını artıra bilərik. Təsadüfi deyil, xalq yaradıcılığında da göstərilir ki, cəmiyyətin, ailənin gözündə ucalmağın ən yaxşı yolu nəzəri nəsihətçilikdən daha çox, əxlaqi keyfiyyətlərdən bəhrələnərək yerində və zamanında onlardan düzgün istifadə etməkdir. Bütün bunlar Aşıq Ələsgərin dövrünün aktual məsələlərini əsərlərində uğurla qoyduğunu və həll etdiyini göstərir. Aşıq Ələsgər ictimai mühitdəki qanunsuzluğu, hərcmərcliyi tənqid etdiyi zaman doğru olaraq, belə bir nəticəyə gəlir:

Kişi gərək dediyindən dönməsin.
Biilqardan bir zənana yaxşıdır.
İkiarvadlılıq mardan acı olur,
Bez geyindirsən bir cavana yaxşıdır (4, 82).

Əlbəttə ki, sənətkar yenə fikirlərinin izahı üçün xalq ədəbiyyatına, paremioloji vahidlərə söykənir və göstərir ki, ikiarvadlılıq kimi

məsələlər insan həyatında müsbət nəticə vermir və ailədə öz yaşayış tərzini qura bilməyən şəxs cəmiyyət üçün də heç bir xeyirli iş görə bilməz. Araşdırmalarımız bir daha göstərir ki, Aşıq Ələsgər məhəbbət, eləcə də ictimai məzmunlu əsərlərinin mövzusunu, əsasən, şifahi xalq ədəbiyyatı nümunələrindən götürmüşdür. Bu səbəbdən şeirlərində məhəbbət motivləri ilə yanaşı, həyati hadisələrin təsvirinə də rast gəlirik. Onu da qeyd edək ki, Aşıq Ələsgərin yaradıcılığı həm də klassik şeirimizdəki gözəl ənənələrin davamı kimi diqqətimizi çəkir. Belə ki, X-XI əsrlər ərəb-fars dilləri klassik ədəbiyyatımızla yanaşı, aşıq ədəbiyyatına da təsirsiz ötüşmədi. Şifahi xalq ədəbiyyatına və dilinə sadiq qalan, onlardan səmərəli şəkildə bəhrələnən şairin yaradıcılığını araşdırdıqca ərəb-fars mənşəli sözlərin geniş istifadəsinə rast gəlirik. Çünki görkəmli şair aşıq ədəbiyyatı və paremioloji vahidlərə, onların dil, üslüb xüsusiyyətlərinə xüsusi diqqət ayırsa da, yaradıcılığı boyu bəhrələndiyi mənbələrdən biri də klassik poeziya idi. Lakin burada iki məqam diqqətimizi cəlb edir:

– Aşıq Ələsgərin bəhrələndiyi ərəb-fars mənşəli bir qisim sözlər var ki, mənası oxucular tərəfindən asan anlaşılan, hamıya tanış olan sözlərdir. Sənətkarın "Ha bular, bular" şeirinə diqqət yetirək:

Səba dost zülfünə şanə çəkəndə,
Yayılar gərdənə ha bular, bular.
Hər kim ki, sidq ilə dilək diləsə,
Əlbəttə, mətləbin ha bular, bular (4, 95).

Ərəb-fars sözlərindən ibarət olan paremioliji vahidlərlə yazılmış bu şeirdə diqqətə çatdırılan xalq deyimləri bugünkü müasir gənclik üçün də böyük əhəmiyyət kəsb edir. Bu xalq deyimləri irsalül-məsəl də adlanır. Prof. Yaqub Babayev "XIII-XIV əsrlər anadilli lirik şeirimizin inkişaf yolu" adlı tədqiqat əsərində yazır ki, bu poetik kateqoriya XIII-XIV əsrlər anadilli poeziyamızın sənətkarlarına boy verən bədiyyat vasitələrindən sayıla bilər. İrsalül-məsəl atalar sözünə bənzər hikmətli, tərbiyəvi məzmuna malik deyimlərdir. Şairlər öz fikirlərini ifadə edərkən dolğun obrazlardan, müqayisələrdən, atalar sözü və zərbi-məsəllərdən, hikmətli sözlərdən, həmçinin XVII əsrdə S.Təbrizidə daha çox rast gəldiyimiz "irsalül-məsəl"lərdən bacarıqla istifadə edirlər (6, 156, 241).

– Aşıq Ələsgər yaradıcılığında mənası hər kəs tərəfindən başa düşülməyən, canlı danışıq dilimizdə az işlənən atəşi-suzan, məfrumididar, üqba, səngi-siyah, məkəs kimi ərəb-fars sözlərindən ibarət paremioloji vahidlərə də rast gəlirik və bu sözlərin işləndiyi

paremioloji vahidlərin hər birinin oxucuya tərbiyəvi fikirlər aşıladığının şahidi oluruq. Məhz bu səbəbə şairin ərəb-fars sözlərindən istifadə edilərək yazılmış bir çox şeirləri də xalqın dilində zərbi-məsəl kimi bu gün də işlənməkdədir:

Ərizələr ətqaz qayıtsa,
Şahdan imdad olmasa,
Fanidən köçmək lazımdı
Ol üqbaya dalbadal (4, 19).

Burada diqqəti cəlb edən "ətqaz" sözü ilə açıq göstərilir ki, göndərilən ərizə rus çarınadır. O, çox ərizələrə məhəl qoymamış, rədd eləmişdir. Aşığın misralarından ataların söylədiyi "Pis gündən ölüm yeydir" fikri aydın görünməkdədir. Aşıq Ələsgərin yaradıcılığı ilə tanış olduqca görürük ki, şairin dili olduqca səlis və paremioloji vahidlərlə zəngindir. Şeir dilininin paremioloji vahidlərlə zənginliyi haqqında fil.e.d. N.Məmmədov bəhs edir: "Paremioloji vahidlərin şeirə gətirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu deyimlər sadəcə adi cümlələrdən ibarət deyildir, bunlar daha çox ahəngdar, bəzən vəznli, ölçülü, zərif, incə poetik yükü olan deyimlərdir. Bu cür deyimlər insanın təfəkkür qabiliyyətini inkişaf etdirir, zövqünü oxşayıb, estetik duyğular yaradır. Şairlərimizin şeirlərində rast gəldiyimiz bu tipli deyimlər şeirin bədii siqlətini artırmaq, estetik gözəlliyini yaxşılaşdırmaq, fikrin obrazlı şəkildə ifadəsinə xidmət edir" (10, 204).

Bununla bərabər, sənətkarın yaradıcılığında arxaik sözlərə də rast gəlirik. Lakin arxaik sözləri belə şair elə ustalıqla işlətmiş, orijinal keyfiyyətlərlə zənginləşdirmişdir ki, həmin sözlərin istifadə olunduğu şeirləri oxuduqca sözlərin mənasını anlaya bilirsən. Bu isə şairin xalq və klassik ədəbiyyata bağlılığı ilə izah olunur. Şairin şeirlərində rast gəldiyimiz damu-cəhənnəm, şülən-qonaqlıq, öynə-günorta vaxtı, iraq-uzaq kimi arxaikləşmiş sözlər bu qəbildəndir:

İşə buyuranda "naxoşam" deyir,
Öynədə bir bayda doğrama yeyir,
Qonşuyla dalaşır, uşağı döyür,
Kəsən yoxdu bu zalımın dilini (4, 180).

Şeir parçasından aydın olur ki, yaşadığı cəmiyyətdə cərəyan edən mühiti qələmə alan şairin fikrincə, hər cür mənəvi çirkinliyin törədicisi tənbəllikdir. Tənbəlliyin baş alıb getdiyi mühitdə söz sahibləri, məmurlar zəhmətkeş rəiyyəti əlbəttə ki, anlaya bilməzlər. Şairə görə, ətrafdakılarla ünsiyyət qura bilməyən, uşaqlara belə şiddət göstərən məmur xalqını da, vətənini də satar. Bu cür zalımların dilini kəsmək lazımdır.

Bu bir həqiqətdir ki, yazılı ədəbiyyat folklorun min illər boyu işləyib hazırladığı formaları, süjetləri, təsvir vasitələrini, poetik fiqurları, paremioloji vahidləri sadəcə almaqla kifayətlənməmiş, eyni zamanda şifahi xalq ədəbiyyatının poetikasını yaradıcı şəkildə mənimsəmişdir. İnamla demək mümkündür ki, yazının icadından bu günə qədər şifahi xalq ədəbiyyatı yazılı ədəbiyyata böyük təsir göstərməklə hər zaman onun birinci dərəcəli qaynağı olmuşdur. Bu baxımdan prof. C.Qasımovun bu istiqamətdəki elmi tədqiqatı bir daha təsdiq edir ki, folklorda bütövlük özünü o zaman qoruyur və möhkəmliyini təmin edir ki, xalq öz yaratdıqlarına həmişə və hər yerdə yiyə və sahib çıxa bilir (8, 80). Bu deyilənlər göstərir ki, bütün bunlarla birlikdə, yazılı ədəbiyyatın ən əhəmiyyətli cəhətlərindən biri onun şifahi xalq ədəbiyyatı ilə hər zaman sıx əlaqədə olmasıdır.

## QAYNAQLAR


1. A. Məmməd. Seçilmiş əsərləri. Az.SSEA, 1967, I cild
2. Aşıq Alı. Əsərləri. Tərtib edən və ön sözün müəllifi: H.İsmayılov. Bakı: Avrasiya-Press, 2006
3. Aşıq Ələsgər. Seçilmiş əsərləri. Tərtib edən: İ.Ələsgərov. Bakı: Yazıçı, 1988
4. Aşıq Ələsgər. Seçilmiş əsərləri. Tərtib edən: İ.Ələsgərov. Bakı: Şərq-Qərb, 2004
5. Aşıq Şəmşir. Seçilmiş əsərləri. Bakı: "Avrasiya-Press" , 2006
6. Babayev Y. XIII-XIV əsrlər anadilli lirik şeirimizin inkişaf yolu. Bakı: Elm və təhsil, 2009
7. Bəylərova A. Paremioloji vahidlərdə milli-mədəni konnotasiya. AMEA Filologiya və sənətşünaslıq, 2019, № 2, s. 261-267
8. Qasımov C. Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi. Bakı: Nurlan, 2011
9. Qasımov C. Siyasi repressiya: həyatda və ədəbiyyatda. Bakı: Elm və təhsil, 2020
10. Məmmədov N. Çağdaş Azərbaycan poeziyasında folklor ənənələri. Bakı: Elm və təhsil, 2017
11. Paşayev S. Azərbaycan şifahi xalq şeiri və heca vəzninin inkişaf tarixi. Bakı: Təknur
12. Tapmacalar. Toplayıb tərtib edən: N.Seyidov. Bakı: Şərq-Qərb, 2004

# AŞIQ ƏLƏSGƏRLƏ BAĞLI RƏVAYƏTLƏR (GƏDƏBƏYDƏN TOPLANMIŞ FOLKLOR MƏTNLƏRİ ƏSASINDA)

# NARRATIONS ABOUT ASHUG ALASGAR (ON THE BASIS OF FOLKLORE TEXTS COLLECTED FROM GADABAY)

# ЛЕГЕНДЫ, СВЯЗАННЫЕ С АШУГОМ АЛЕСКЕРОМ (НА ОСНОВЕ ФОЛЬКЛОРНЫХ ТЕКСТОВ, СОБРАННЫХ ИЗ КЕДАБЕКА)

**Səbinə İSAYEVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*isayeva00@rambler.ru*

**Summary**

Gadabay is one of the regions of Azerbaijan rich in folklore. A lot of materials were collected from Gadabay during business trips in different years. Some of these texts were published in the first volume of Gadabay folklore samples. Compiled by academician Mukhtar Kazimoglu (Imanov) and associate professor Sabina Isayeva, the texts were collected by different collectors from the villages of Gadabay region in different years. The collected materials include narrations, stories about ashugs, and unpublished ashug poems. In these texts, stories about ashug prevail. Texts related to Novras Iman, Ashug Huseyn Bozalganli, Ashug Shamshir, Miskin Veli, Mikayil Azafli, selected representatives of Ashug art were collected. However, the texts collected about Ashug Alasgar, a prominent representative of the Azerbaijani ashug art, prevail among them.

Comparing the texts collected from Gadabay with the narrations published so far about Ashug Alasgar, it becomes clear that some of these texts were recorded in the form of variants, while we did not come across variants of others.

**Key words:** Ashug Alasgar, Gadabay, Ashug narrations

**Резюме**

Кедабек – один из регионов Азербайджана, богатый фольклором. Много материалов было собрано из Кедабека во время командировок в разные годы. Некоторые из этих текстов были опубликованы в первом томе образцов кедабекского фольклора. Составленные в этой книге академиком Мухтаром Казимоглу (Иманов) и доцентом Сабиной Исае- вой, тексты изданы в разные годы разными собирателями Кедабекского

района. Собранный материал включает легенды, рассказы и неопубликованные ашугские стихотворения об ашугах. В этих текстах преобладают рассказы об ашугах. Собраны тексты об Новрес Имане, Ашуге Гусейн Бозалганлы, Ашуге Шамшире, Мискин Вели, Микаиле Азафлы, избранных представителей ашугского искусства. Однако среди них преобладают тексты, собранные о выдающемся представителе ашугского искусства Азербайджана Ашуге Алескере.

Сравнивая тексты, собранные из Кедабека, с опубликованными до сих пор легендами об АшугеАлескере, мы видим, что некоторые из этих текстов были записаны в виде вариантов, а у некоторых текстов вообще не встретили вариантов в целом.

**Ключевые слова:** Ашыг Алескер, Кедабек, ашугская легенда

Azərbaycan aşıq sənətinin zaman-zaman görkəmli sənətkarları olmuşdur. Bunlardan XIX əsr aşıq sənətində öz dəst-xətti ilə seçilən, aşıq poeziyasının nəhəng simalarından olan Aşıq Ələsgərin adını xüsusi qeyd etmək lazımdır. Aşıq Ələsgər elə sənətkarlardandır ki, yaradıcılığı, poeziyası bütün zamanların, bütün nəsillərin şeiriyyatıdır. Aşıq Ələsgər Göyçə aşıq mühitinin yetirməsi olsa da, ancaq öz yaradıcılığı ilə bütövlükdə Azərbaycan aşıq sənətinin silinməz səhifəsinə çevrilmişdir.

Aşıq Ələsgərin yaşayıb yaratdığı Göyçə aşıq mühitində zəngin dastançılıq ənənəsi də olmuşdur. Lakin Aşıq Ələsgərin dastan yaradıb yaratmamağı barədə dəqiq məlumat yoxdur. Tədqiqatçıların qeyd etdiklərinə görə, Aşıq Ələsgərin adı ilə bağlı dastanlar və aşıq rəvayətləri sonradan digər aşıqlar tərəfindən yaradılmışdır. M.H.Təhmasib bu xüsusda yazır: “Məlumdur ki, məharətli, ustad aşıqların, yəni şeir yaratmaq qabiliyyətinə malik olan sənətkarların hamısı dastan yaratmışlar. Elə böyük sənətkarlarımız olmuşdur ki, qoşmaları, müxəmməsləri, divaniləri, ustadnamə, təcnis, qıfılbəndləri indi də dillər əzbəridir. Belələri hətta yüksək təhsil görmüş, əsərləri dalbadal nəşr edilmiş bir sıra şairlər üçün də həmişə əlçatmaz sənət zirvəsi olmuş, indi də aşılmaz, keçilməzdirlər. Lakin bu sənətkarlar içərisində dastan yaratmayanlar da çoxdur. Misal üçün, bu gün də aşıq şeirinin ən nəhəng ustadı hesab edilən Aşıq Ələsgər bir dənə də olsun, dastan yaratmamışdır. Hətta deyilənlərə görə o, yaradıcılığın bu sahəsinə heç tərəfdar da deyilmiş. Ələsgərin oğlu Aşıq Talıbın yazdığına görə bir dəfə ondan nə üçün dastan qoşmadığını soruşmuşlar. Aşıq çox qəribə bir cavab vermişdir: “Dastan yalandır, uydurmadır. Mən yalan demək istəmirəm”. Lakin belə buradaca o demişdir ki, “mənim başıma gələn hər bir əhvalat elə dastandır... Dastanlarımızın bir qismi şəxsən dastan yaratmamış belə sənətkar aşıq-şairlərin şeirlərinin

başqaları tərəfindən dastanlaşdırılması yolu ilə yaradılmışdır" (7, 86). Aşığın haqqında olan dastan-rəvayətləri təhlil edən H.İsmayılov bu barədə yazır ki, Ələsgər poeziyası, Ələsgər dünyası ilə sıx bağlı olan, Ələsgəri praktiki olaraq yaddaşlarda, doğulub boya başa çatdığı Göyçədə, sakinlərindən canlı təmasda olanlara bəllidir ki, Ələsgərin hər bir şeiri ilə bağlı "yurd" deyilən kiçik rəvayətlər mövcuddur. "Yurd"lar Ələsgər poeziyasını əhatə edən hər bir şeirin yaranma tarixçəsinin real tarixi gerçəkliyə əsaslanan izahıdır (5, 6).

Zəngin yaradıcılıq yolu keçən sənətkarın haqqında olan dastanlar və aşıq rəvayətləri aşığın həyat və yaradıcılıq yolunun ayrı-ayrı maraqlı məqamlarını, başına gələn hadisələri, həmçinin səfərlərini, keçirdiyi məclisləri, deyişdiyi aşıqları və s. məlumatları əks etdirmək baxımından səciyyəvidir. Sovet dövründə nəşr olunmuş toplulardan tutmuş günümüzdə nəşr olunan folklor örnəklərinə qədər Aşıq Ələsgərlə bağlı xeyli dastan və rəvayətlər nəşr olunmuşdur. Eyni zamanda müxtəlif bölgələrə olan ezamiyyələr zamanı da Aşıq Ələsgərlə bağlı xeyli aşıq rəvayətlərinin həm variantları, həm də çap olunmamış nümunələri toplanmışdır.

Azərbaycanın folklorla zəngin bölgələrindən biri Gədəbəydir. Gədəbəydən müxtəlif illərdə ezamiyyətlər zamanı xeyli materiallar toplanmışdır. Bu mətnlərin bir hissəsi Gədəbəy folklor örnəklərinin I cildində çap olunmuşdur. Akademik Muxtar Kazımoğlu (İmanov) və dosent Səbinə İsayevanın tərtib etdikləri bu kitabda mətnlər müxtəlif illərdə ayrı-ayrı toplayıcılar tərəfindən Gədəbəy rayonunun müxtəlif kəndlərindən toplanmışdır. Toplanılan materialların içərisində aşıqlarla bağlı dastanlar, aşıq rəvayətləri, əhvalatlar, çap olunmamış aşıq şeirləri də vardır. Aşıqlarla bağlı mətnlərin içərisində aşıq rəvayətləri, əhvalatlar daha çox üstünlük təşkil edir. Aşıq sənətinin seçilən nümayəndələrindən olan Aşıq Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Miskin Vəli, Mikayıl Azaflı, Növrəs İmanla bağlı rəvayətlər toplanmışdır. Lakin bunların içərisində görkəmli sənətkar Aşıq Ələsgərlə bağlı rəvayətlər daha çox üstünlük təşkil edir.

Gədəbəydən Aşıq Ələsgərlə bağlı "Aşıq Ələsgər və Şəmkirli Aşıq Hüseyn", "Aşıq Ələsgərin Naxçıvan səfəri", "Aşıq Ələsgərin Xınna səfəri", "Yolçuların aşığı tanıması", "Aparır rədifli şeirin yaranması", "Aşıq Ələsgər və çəkməçi", "Aşıq Ələsgərlə bağlı daha bir əhvalat", "Yumrusunu gətirim, yastısını?" adlı rəvayətlər toplanmışdır. Toplanılan mətnlərlə indiyədək Aşıq Ələsgərlə bağlı çap

olunan rəvayətləri müqayisə etdikdə görürük ki, bu mətnlərin bir hissəsi variantlar formasında qeydə alınıbdır, bir qisminin isə ümumiyyətlə variantlarına rast gəlmədik.

Gədəbəydən toplanılan maraqlı rəvayətlərdən "Aşıq Ələsgərin Xınna səfəri"ni xüsusi qeyd etmək lazımdır. Həm sovet dövründə çap olunan topluları, həm də son illərdə nəşr olunan folklor antologiyalarını, müxtəlif bölgələrin folklor örnəklərini nəzərdən keçirsək də, bu mətnə heç bir yerdə rast gəlmədik. Tədqiqatçı Əli Şamilin qeyd etdiyinə görə, bu rəvayəti şifahi şəkildə eşitmişdir, lakin təəssüf ki, rəvayət çap olunmamışdır. Onun söylədiyinə görə, Aşıq Hüseyn Saraclı rəvayətdə söylənən "Yazıq" şeirinin üzərində bu rəvayəti məşhurlaşdırmışdır. Və məhz Aşıq Hüseyn Saraclıdan sonra digər aşıqlar da bu rəvayəti öz repertuarlarına salmışlar. Rəvayətdə Aşıq Ələsgərin balamançısı ilə birgə qazanc ardınca Qazax tərəfə səfər etməsindən, bu zaman yolda başlarına gələn hadisələrdən danışılır. Aşıq Ələsgərgil bir varlının evində qonaq olurlar. Aşığı tanımayan ev yiyəsi əvvəl onların qarşısına şorçörək qoydurur. Tanıdıqdan sonra isə üzrxahlıq edib onlara layiq süfrə açdırır. Yaşlı ev sahibinin gənc bir qızla evli olduğunu görüb bundan təəssüflənən Aşıq Ələsgər elə oradaca məşhur "Yazıq" şeirini söyləyir. "Taleh insanı hər dərəcəə çatdırar. Belə baxey-baxey. Deey, bu qızın dərdi məni öldürər, bu qıza bircə kuplet şeyir deməsəm".

O məlul könlün$_ı$ü, müşkül halın$_ı$ı,
Düşünən də yazıxdı, *aaz,* bilən də yazıx.
Ağlasan$_ı$, ağlaram mən sənnən betər,
Dağladın$_ı$ sinəmi güləndə yazıx.

Bir mərdi sevəydin$_ı$, sirdaş olaydın$_ı$,
Könlün$_ı$ isdiyənə peşkaş olaydın$_ı$.
Keşkə quruyaydın$_ı$, bir daş olaydın$_ı$,
Bəzənif bir evə gələndə, yazıx.

Ələsgər durarmı matah satmasa?!
İyid sarsıyarmı baxdı yatmasa?!
İki könül bir-birini tutmasa,
Alan da yazıxdı, gələn də yazıx! (3, 259)

Sözügedən rəvayət həm aşığın səfər zamanı başına gələn hadisələrdən bəhs edir, həm də ailə, əxlaq, qadın-kişi münasibətləri, həmçinin qız uşaqlarının tez ərə verilməsinin tənqidi baxımından maraq doğurur.

Toplanılan aşıq rəvayətləri içərisində Aşıq Ələsgərin həyata, sənətə baxışı, digər aşıqlara münasibəti, aşıqlıq ədəb-ərkanı, qanun-

qaydaları, ustad-şəyird münasibətlərini əks etdirmək baxımından maraqlı nümunələr vardır. Bu baxımdan "Aşıq Ələsgərin Naxçıvan səfəri" rəvayəti diqqəti cəlb edir. Bölgədən toplanılan mətnlə digər toplularda nəşr olunan mətnin variantları arasında xeyli fərqlər var. Belə ki, sözügedən rəvayət İslam Ələsgərin toplayıb, Ə.Axundovla M.H.Təhmasibin birgə tərtib etdikləri "Aşıq Ələsgər" (ikinci kitab) kitabında da "Aşıq Ələsgərin Naxçıvan səfəri" (1), İslam Ələsgərin toplayıb tərtib etdiyi "Aşıq Ələsgər (əsərləri, dastan-rəvayətlər, xatirələr...) kitabında isə "Aşıq Ələsgərin Şınıq səfəri" (2) adı ilə nəşr olunmuşdur. Həm bölgədən toplanan, həm də toplularda nəşr olunan rəvayətlər arasında bir qədər fərqlər görünməkdədir. "Aşıq Ələsgərin Şınıq səfəri" rəvayəti digər variantlarla müqayisədə bir qədər fərqli və daha geniş şəkildə nəşr olunmuşdur.

Bölgədən toplanan rəvayətdə deyilir ki, Aşıq Ələsgərin şəyirdi Nağı bir müddət Ələsgərin yanında şəyirdlik etdikdən sonra müstəqil aşıqlıq etmək niyyətinə düşür. Ələsgər ona hələ aşıq kimi yetişmədiyini, peşman olacağını söyləsə də, Nağı fikrindən dönmür. Nağı aşıqlıq etmək üçün Naxçıvana – Şərura gedir. Lakin burada aşıq məclisində uduzur, sazını da alıb yola salırlar. Nağı kor-peşman halda Aşıq Ələsgərin yanına gəlir, onu dilə tutub Şərura gətirir. Ələsgər onu üzdən tanımadıqlarına görə məclisə Nağının şəyirdi – Solaxqey adıyla daxil olur. Şərur aşıqlarından əvvəl Cəfərqulu, daha sonra isə ustadı Əsədulla ilə deyişir. Cəfərqulu əvvəlcə Abbas Tufarqanlının şeirini söyləyib onu bağlamaq istəyir. "Şəyird ağzını açey ki:

Əzəldən can deef, can eşidən yar,
İndi beyvəfalıx ay nədən oldu?!
Deyirdinı, ölüncə dönmərəm sənnən,
Yadnan aşınalıx ay nədən oldu?!

Dəəndə heş bu sözünün dalını davam eləməmiş Ələsgər deey:

– A bala, olmazmı hər kəs öz bağının meyvəsini dərə, özgə bağa oğurruğa getməə. Yanı bu sənin döyül, Tufarqan Abbasındı (3, 250).

Rəvayətin ən maraqlı yerlərindən birində Cəfərqulu Aşıq Ələsgərin həmin zamana qədər söyləyib amma cavabını açıqlamadığı qıfılbəndini söyləyib cavab tələb edəndə Ələsgər məcbur olub bağlamasının cavabını açır.

"Şəyird deey ki, əə, mən buna nə cavaf verem? Usdadı Əsədullah çağırey, deey:

– Əə, göyçəli Aşıx Ələsgərin bir bağlı qıfılbəndi qalıf, deef, ölüf gedəjəm, bunu açmayjam. Bu da gəlif çatıf bizə, onu de, sazı alajaxsını.

Ələsgər bu sözü deef də açmeyıfbış, məjburiyət qarşısında qalıf Şərurda, deyişmədə açıf. Ələsgər bu sözü deefbiş ki:

Altı gündə dünya neçə don geydi?!
Nə üsdə yerrəşdi, bərqərar oldu?!
Əzəldən kim oluf Turun bənnası?!
Ulduzdar nə təhər yerbəyer oldu?!

Bu Ələsgərin bağlı bəndidi. Bunu buna dəəndə deey:

– A bala, bu söz kimindi?

Deey:

– Aşıx Ələsgərin.

– Aşıx Ələsgər hansınızsanııız?

Usdadı Əsədullahı görkəzey ki, bax odu.

Deey:

– Əə, qorxuram söz yəəsi böyrünıüzdən çıxa, ananıızı ağlar qoya.

Deey:

– Əə, söz-möz, yəəsi-məəsi bilmerim, bajareysını, cavaf ver, bajarmeysını, sazı təfil ver.

Həmən bağlı bəndi məjburiyət qarşısında qalıf açey:

Altı gündə dünya iki don geydi,
Gavı-mah üsdündə bərqərar oldu.
Hax sözü olufdu Turun bənnası,
Ulduzdar göy üsdə yerbəyer oldu.

Bu qıfılbəndi Ələsgər axıra qədər deey və hər bəndin açmasını da deey (3, 251). Məclisin sonunda hamı Aşıq Ələsgəri tanıyır, sənətkar böyüklük edib aşıqların sazını götürmür.

Aşıqlıq sənətinin müqəddəsliyi, aşıqlıq ədəb-ərkanı, aşıq sənətinə, saza-sözə dəyər verilməsi baxımından “Aşıq Ələsgər və Aşıq Hüseyn Şəmkirli” rəvayəti diqqəti çəkir. “Göyçə aşıq mühiti Gəncəbasar, Qarabağ, Dərələyəz və İrəvan aşıq mühitləri ilə sıx sənət əlaqələri saxlamışdır. Şəmkirli Aşıq Hüseyn, Aşıq Ələsgər və Bozalqanlı Aşıq Hüseyn üçlüyünün saz-söz əlaqələri, Aşıq Ələsgərin Dərələyəz, Qarabağ, Gəncə və İrəvan səfərləri...... Azərbaycan aşıq sənətinin yüksələn xətt üzrə inkişaf keçirməsinə güclü təkan vermişdir” (6, 176). Göründüyü kimi, eyni zaman kəsiyində yaşayan Aşıq Hüseyn Şəmkirli də dövrünün qüdrətli sənətkarı kimi xalq arasında məşhur idi, bir-birinə hörmət və ehtiram bəsləyən bu iki böyük sənətkar saz-söz mühitində yoldaşlıq edirdilər.

Adıçəkilən rəvayət toplularda nəşr olunmuşdur. Gədəbəydən isə bununla bağlı iki mətn toplanmışdır. Doğrudur, toplanılan mətnlər qısadır və bu mətnlər iki aşıq arasında olan əhvalatı olduğu kimi canlandıra bilmir. Amma bununla belə bu hadisə ilə bağlı oxucuda müəyyən qədər təəssürat yaradır. Rəvayətdə iki ustad sənətkarın – Aşıq Ələsgərin və Aşıq Hüseyn Şəmkirlinin görüşmələri, bir-birinə olan münasibəti haqqında maraqlı məqamlarla rastlaşırıq. Göstərilir ki, dövrünün məşhur sənətkarı Aşıq Ələsgərin şöhrəti hər tərəfə yayılıbmış. Bu soraq Şəmkirdə Hüseyn Şəmkirliyə də çatmışdı və onunla görüşmək qərarına gəlir. Ələsgərin vergili olması, baş verəcək hadisələri öncədən duyması onun qeyri-adi bir insan, həmçinin haqq aşığı olmasından xəbər verir. Belə ki, rəvayətdə Aşıq Ələsgərin Hüseyn Şəmkirlinin gələcəyini evdəkilərə xəbər verməsi bunu göstərir. "Şəmkirri Aşıx Söyün burdan çıxmamış, yuxusunda Ələsgərə ayan olor ki, Şəmkirri Aşıx Söyün sənnən görüşməyə gəler. Haqq aşığıdı axı. Bu Şəmkirri Aşıx Söyün yolunu davam eləməhdə olsun.

Uşaxlar heyvanı heyvana qatıf, heyvan da yaylağa köçör. Ələsgər gedir qardaşdarına, oğlu Bəşirə deer:

– Ay uşax, a bala, heyvanın birini damda saxlıyın. Şəmkirri Aşıx Söyün üş gündü yol eliir, büyün burda olajax. Heyvanın birini damda saxleen$_ı$, son$_ı$ra gedif o dağda, bu dərədə heyvan axdarmeyın$_ı$.

Bular deer ki, elə sən gördüyün$_ı$ gerçəhmi olajax, a kişi? Gələndə gedif taparıx.

– Ayə, saxla.

Axırı məjbur eleer, heyvanın birini damda saxlader (3, 242).

Qeyd edək ki, bölgədən toplanan hər iki rəvayət olduqca qısa və lakonik verilsə də, amma oxucuda müəyyən qədər təsəvvür yaradır. Bundan başqa iki rəvayətdən birində ümumiyyətlə şeir nümunələri yoxdur, digərində isə söyləyici rəvayətdə sənətkarların söylədikləri çox şeirləri unutduğunu söyləyib Aşıq Ələsgər və Hüseyn Şəmkirlinin hərəsindən sadəcə bir nümunə söylədi. Lakin digər çap olunan toplularda dastan-rəvayət geniş şəkildə verilmişdir. Belə ki, Aşıq Ələsgərlə Şəmkirli Aşıq Hüseynin camaatla birlikdə bir neçə gün davam edən görüşü dildən-dilə, ağızdan-ağıza keçərək dastanlaşmış, rəvayət donuna bürünmüşdür. Buradakı deyişmələr, aşıqla şairin bir-birinə qabaq olaraq söylədikləri şeirlər, qoşmalar hər iki sənətkarın poetik istedadını, şairlik qüdrətini və sənətkarlıq məharətini nümayiş etdirmişdir.

"Aparır" rədifli şeirin yaranması ilə bağlı rəvayətdə deyilir ki, Aşıq Ələsgər xeyli müddət Kəlbəcərdə yaşamışdı. El ağsaqqalı kimi insanlara hər zaman çətin məqamlarda əl tuturdu. Əvəzində isə ona dana, qoyun və s. verməyə söz verib, sonra aşığın üzüyumşaqlığından istifadə edib sözünə əməl etməyənlər olurdu. "Kəlbəcərin Qılışdı kəndi var. Ordan dosdarı oloy. Burdan da bunu alladannar oloy. Bular bunun hakqını vermədiyi bir tərəfə, hələ zarafat da eleellər ki, filan yerdə bir belə aldını, filan yerdə dana aldını, filan yerdə qoyun aldını. Orda bir müxəmməs deey:

Mərd iyidin məclisinnən,
Aşıx gəlir, at aparır.
Tər tökür, zəhmət çəkir,
Açır, hər büsat aparır.
Bu dünyanın şöhrətini,
Demə beyısbat aparır.
Mərddərə canım sadağa,
Zəhləmi bədzat aparır" (3, 263).

Rəvayətə görə, Aşıq Ələsgər "Aparır" rədifli müxəmməsini bu hadisələr zamanı deyib. Göründüyü kimi aşıq mərd insanlarla bir olub namərd insanlardan uzaq olmağı tövsiyə etmiş, insan xarakterindəki yalançılıq, namərdlik və s. mənfi keyfiyyətləri tənqid etmişdir.

Aşıq Ələsgərlə toplanan bəzi mətnlər bir qədər komik, lətifə xarakteri daşıyır. Bu qəbildən olan mətnlərdən biri "Aşıq Ələsgər və çəkməçi" adlanır. Əslində bu əhvalat digər toplularda "Aşıq Ələsgərin Naxçıvan səfəri" və "Aşıq Ələsgərlə Həcər xanım" adlı mətnlərin içərisində hadisələrin gedişatında verilmişdir. Lakin Gədəbəydən toplanılan mətni isə söyləyici nədənsə ayrıca danışıb təqdim etmişdir. Həm bölgədən toplanan, həm də çap olunan mətnlər arasında fərqlər də vardır. Əhvalatda deyilir ki, Aşıq Ələsgər bir gün Şərura gedir. Rast gəlib əl işini bəyəndiyi bir çəkməçiyə çəkmə tikdirmək qərarına gəlir. Haqqını çəkməçi söylədiyi məbləğdən də artıqlamasıyla verib sifariş etdirir. Lakin çəkməçi aşığa tikdiyi çəkməni baha qiymətə satıb aşığa daha ucuz dəridən olan çəkmə tikib verir. Ələsgər çəkməçinin ona kələk gəldiyini başa düşüb bunu şeirlə nəzmə çəkir. "Aşıx Ələsgər deer, a bala:

Danışdıx, barışdıx mərhəmət ilə
İncihlik araya qatma, hayıfsan.
Sən tacir olmassanı bir manatınan
Namıs, qiyrətinıi atma, hayıfsan.

Sizlər tapaş eylərsiz iynə-bizinən
Bizimki gəlif-gedir söhbət, saz ilən...
Köhnə dağarcığı tumaş yerinə
Aşıx Ələsgərə satma, hayıfsan$_{ı}$.

Çəhməçi biləndə ki, bu Aşıx Ələsgərdi, deer:

– Ay Ələsgər dayı, bunu heş yerdə demə, san$_{ı}$a nədən desən$_{ı}$, yaxşı bir çəhmə tikəjəm.

Ələsgər deer:

– Bala, mən bunu burda dedim, hər yerdə deyəjəm, sən versən$_{ı}$ də, verməsən$_{ı}$ də, tihsən$_{ı}$ də, tihməsən$_{ı}$ də" (3, 264).

Göründüyü kimi bir qədər komik, zarafatyana notlara köklənmiş mətndə aşıq çəkməçiyə bu hadisəni bütün məclislərdə danışacağını qeyd edib onu utandırır. Lakin digər toplularda əhvalat daha fərqlidir. "Aşıq Ələsgərlə Həcər xanım" dastanında Aşıq Ələsgəri tanıyan çəkməçi qəsdən ona ucuz çəkmə verib aşığı sanki söylətmək, danışdırmaq, şeir dedirtmək niyyətilə bu addımı atır və məqsədinə nail olur.

Lətifə xarakteri daşıyan digər rəvayətdə isə Aşıq Ələsgər obrazı bir qədər arxa planda qalmışdır. Mətnin mərkəzində isə yerli əhalidən olan uşaq obrazı dayanmışdır. Əslində Aşıq Ələsgərin təqdiminə xidmət edən bu obrazın timsalında diqqət yenə də elə Ələsgərin özünə yönəlib onda cəmlənmişdir. Yəni mahiyyət etibarilə Ələsgər yenə də öndədir. Bunun səbəbi isə mətnin mərkəzində duran uşağın hazırcavablıq göstərməsi və bununla da əslində Aşıq Ələsgərin zəkalı, ağıllı, saz-söz meydanında hər kəsdən üstün olmasını nümayiş etdirməkdir. "Yumrusunu gətirim, yastısını?" adlı rəvayətdə deyilir ki, "bir gün Touz, Qazax, Gədəbəy aşıxları yığılır gedillər ki, bəs Ələsgər kimdi ki, Göyçədə meydan suluyur, meydan oxuyur. Bular hamsı bir-birinnən razılığa gəlillər ki, bəs gedəh da, o kimdi axı. Bular gedillər Göyçəyə. Bunnar göröy kü, ayə, yolda uşaxlar oynuur da. Uşağın birni çağırır ki, qadan$_{ı}$ alım, başın$_{ı}$a dönüm, get ordan man$_{ı}$a bir dənə közmü, qormu gəti, bəs qalyanıma qoyum. Uşax deey ki, a dayı, yumrusunu gətirim, yoxsa yastısını? Deey:

– Bala, köz közdü, gəti.

Deey:

– Yox, dayı, köz köz döyül axı. Qalyanın$_{ı}$ doludusa, yastısını gətirim, üsdə qoy, amma yarımçıxsa, yumrusunu gətirim, içinə sal.

Bunnar deey ki, ayə, ağlı kəsmiyən bir uşax bizə bu sözü dəənnən son$_{ı}$ra Ələsgər gör kimdi, onun üsdünə gedirih biz. Deey ki, qardaş, burdan, obşim, qayıtmax lazımdı. Dübarə də ordan qayıdıllar" (3, 265).

Bölgədən toplanılan folklor mətnlərilə bağlı maraqlı məqam ondan ibarətdir ki, onların dil-üslub xüsusiyyətlərinə toxunulmamış, orijinallığı qorunub saxlanmış, mətnlər ləhcədə verilmişdir. Aşıq rəvayətlərində də bu qaydaya riayət olunmuşdur. Bunlarda xalq danışıq dili ifadələrindən istifadə olunmuşdur. Mətnlər dilinin sadəliyi, təbiiliyi, orijinallığı ilə diqqəti cəlb edir. "…Müxtəlif səbəblər üzündən toplama nümunələrində uzun müddət söyləyicinin dil və üslubunun, danışıq tərzinin özünəməxsusluğunu, təbiiliyini qoruyub saxlamaq bir növ yaddan çıxarılmış, bir çox folklor nümunələri kimi aşıqların dilində də yazıya alınmış örnəklər, o cümlədən dastanlar bir növ bədiiləşdirilmişdir. Dastanı hansı regionun aşığının söylədiyi bu nümunələrdə demək olar ki, hiss olunmur" (4, 60). Bölgədən toplanan aşıq rəvayətlərində isə bütün qaydalara riayət olunmuş, bölgənin dialekti qorunub saxlanmışdır. Gədəbəy folklor örnəklərinin tərtibçilərindən biri akademik M.Kazımoğlu doğru olaraq qeyd edir ki, istənilən folklor toplusu kimi, bu toplunun da dəyəri şifahi söyləyiciliyin qorunub saxlanması ilə çox bağlıdır (3, 3).

Aşıq Ələsgər kimi qüdrətli sənətkarın öz mühitindən uzaqlarda tanınması, şeirlərinin xalq arasında yayılması, bir çox aşıq rəvayət və əhvalatlarının, söyləmələrinin, həmçinin bir sıra dastanların, aşıq rəvayətlərinin onun adına bağlanması həm Göyçə aşıq mühitinin yaradıcı mənzərəsindən, həm də Aşıq Ələsgərin poetik qüdrətindən xəbər verir. Gördüyümüz kimi, Aşıq Ələsgərlə bağlı rəvayətlər aşığın ömür və yaradıcılıq yolunun ayrı-ayrı maraqlı məqamlarını işıqlandırmaq, həmçinin poetik irsinin öyrənilməsi baxımından etibarlı mənbə rolunu oynayır.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. İkinci kitab. Toplayanı: İ.Ələsgər, tərtib edənlər: Ə.Axundov, M.H.Təhmasib. Bakı, Elm, 1973
2. Aşıq Ələsgər. Əsərləri, dastan-rəvayətlər, xatirələr... Toplayıb tərtib edəni: İ.Ələsgər. Bakı, Şərq-Qərb, 1999
3. Gədəbəy folklor örnəkləri. Tərtib edənlər: M.Kazımoğlu, S.İsayeva. I kitab. Bakı, Elm və təhsil, 2016
4. İsmayılov H. Göyçə dastanları: türk epik sistemində dastan informasiyasının fasiləsizliyi. Göyçə dastanları və aşıq rəvayətləri. Toplayıb tərtib edəni İsmayılov H. Bakı, Səda, 2001, s. 3-82
5. İsmayılov H. Dədə Ələsgər: həqiqət və sənətin dastan vəhdəti. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVI kitab. Bakı, Səda, 2005, s. 3-18
6. Qasımlı M. Aşıq sənəti. Bakı, Ozan, 1996, 260 s.
7. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm, 1972

# AŞIQ ƏLƏSGƏR: DİLİMİZİ VƏ RUHUMUZU CİLVƏLƏNDİRƏN SƏNƏTKAR

# ASHUG ALASGAR: THE MASTER DECORATING OUR LANGUAGE AND SPIRIT

# АШУГ АЛЕСКЕР: МАСТЕР СЛОВА, УКРАШАЮЩИЙ НАШ ЯЗЫК И ДУШУ

**Şakir ALBALIYEV**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*

**Summary**

In the report it is said about the activity of the talented saz master of the Goycha ashug environment. The folkloric features of Ashug Alasgar's poetry are investigated on the base of his poems. It is mentioned that the fascination of this poetry is the decoration of the folk spirit with the language of folk speech. The reason for it is that Ashug Alasgar's ability to use poetic opportunities of our language with high mastery is shown and justified.

**Key words:** Ashug Alasgar, poetry, poetics, nationality, Goycha ashug environment

**Резюме**

В докладе рассказывается об мастерстве слова и саза, талантливого представителя Гейчинской ашугской среды. Народные качества поэзии Ашуга Алескера исследуются на примере стихотворений, посвященных воспеванию красавиц. Автор отмечает, что очарование этой поэзии заключается в едином слиянии двух элементов - народного духа и просторечия. Причина совершенства произведений ашуга в том, что Ашуг Алескер умеет с большим мастерством использовать поэтический потенциал нашего языка.

**Ключевые слова:** Ашуг Алескер, произведение, поэтика, народность, Гейчинская ашугская среда

Elə zəngin mənəvi xəzinəmiz, elə möhtəşəm söz-sənət abidəmiz, elə nəhəng sənətkarlarımız var ki, onlar haqqında zamanbazaman danışılsa da, tədqiqatlar aparılsa da, yenə o zəngin xəzinənin təkinə gedib çıxmaq, o zənginliyə dərininəcən tam varmaq olmur. Novruz bayramı kimi zəngin mərasim ənənələrimiz, möhtəşəm "Kitabi-Dədə Qorqud" abidəmiz, dünya lirikasının zirvəsində dayanan Məhəmməd Füzuli, elmi təfəkkürü şair-mütəfəkkir kimi dünya poeziyasında qətolunmaz yüksəkliyə qaldıran Nizami Gəncəvi dühası, ozan-aşıq

sənətinə özünün təkrarsız yaradıcılıq möhürünü vurmuş Dədə Ələsgər irsi... və s.

1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində dünyaya göz açan, “Adım Ələsgərdi, Göyçə mahalım” deyən Aşıq Ələsgərin sazının-sözünün şöhrəti təkcə doğulduğu eldə-mahalda yox, bütöv Azərbaycan, türk dünyasında, bütün dünyada bəlli oldu. Onun yaratdığı sənət möcüzələri saz-söz dünyasında məzmun və forma yenilikləri etibarilə sənət inqilabı oldu.

Aşıq Ələsgərin sənət sahəsində yaratdığı bu inqilab heyrətamizliyi ilə o vaxtdan bu günə bütün sənət adamlarını və tədqiqatçıları heyran qoyub. Bu dahi sənətkarın şəxsiyyət kamilliyi də, yaradıcılıq qüdrəti də bitməz-tükənməz söhbətlərin və araşdırmaların mövzusudur. Bunun əsas sirri isə aşığın “xalq içində, xülq içində” olmasından, xəlqi düşüncə və keyfiyyətlərdən yoğrulub – ilhamlanmasından qaynaqlanır. Şairin hansı çeşiddə və məzmunda yazmasından asılı olmayaraq, etnoqrafik yönlü təsvir və peyzajlardan bəhrələnməsindən irəli gəlir.

Pəncərədən qəfil baxdım,
Qarşıdan bir sona keçdi.
Oğrun baxdı, qaş oynatdı,
Müjkanları cana keçdi.

Kənd həyatı üçün xarakterik olan bir tablo gözlərimiz qarşısında canlanır: pəncərədən ətrafı seyr edən gəncin gözləri yaxınlıqdan keçib gedən bir gözəli görür. Kənd qızlarına xas utancaqlıqla o da istər-istəməz aşkaranə şəkildə yox, oğruncasına qaşını dolandırmaqla ona heyran-heyran baxan oğlanı süzür. Lakin bu oğrun baxışlarda aşiqə tuşlanan uzun kirpiklər (müjkan oxları) sanki ox olub canına sancılır. Beləliklə, aşiq sevgi yarası alıb, “yaralanır”. Növbəti bənddə:

...Yolunda can qurban verdim,

Baxmadı qurbana, keçdi, - deyir. Yəni kirpik oxlarından yaralanmış canını gözələ qurban deyir. Lakin aşiqin anidən görüb-vurulduğu gözəl “baxmadı qurbana”, yəni saymazyanalıqla – etinasızcasına onun yaxınından ötüb-keçdi. Bu, o deməkdir ki, Azərbaycan qızı təsadüfi bir baxışdan ona tuşlanan nəzərlərə yanakı baxışla kifayətlənib, ciddi reaksiya vermir. Bu da Azərbaycan qızının namus-ismət, abır-həya gözləyən obrazını oxucuya (şeirdə təsvir olunmuş peyzaj vasitəsilə qiyabi də olsa tamaşaçıya) etnoqrafik detallarla təqdim etmək deməkdir.

Sərv boylu mələkzada,
Camalından içdim bada,
Ələsgəri saldı oda,
Qoydu yana-yana, keçdi (1, səh. 41).

Aşiqin sevdiyi subyekt sərv boylu mələkzadə timsalındadır – sərv ağacı kimi uzun və nərmənazik boya-buxuna malik mələk kimi bir gözəldir. Yeyib-şişmiş, tənbəllikdən harınlaşıb kökəlmiş murdar ət yığını kimi iyrənc deyildir. Hətta aşıq "zibilin çıxıbdı dizə, külündən xəbərin varmı" deyə bir başqa şeirində bu cür tənbəlliyi, işdən-gücdən uzaq olan, məişət qayğıları çəkməyən qadınlarımızı da bir pirani insan kimi töhmətləyib məzəmmət edir. Yəni gözəlin gözəlliyi həm də onun işində-gücündə, səliqə-sahmanında, təmizkarlığında, zəhmətsevərliyindədir. "Camalından içdim badə" – söz yox ki, gözəlin gözəlliyi zahiri baxımdan onun bədəninin heç bir yerində yox, simasında, üzündə - gözündə, sir-sifətində, camalındadır. Hətta buna müvafiq olaraq el arasında sabitləşmiş bir deyim də mövcuddur: "gözəlin üzündə plov yeyirlər?" Ritorik sual şəklində deyilmiş bu mülahizə - mühakimədə ikibaşlı cavab dayanıb. Həm "gözəlin üzündə plov yeyilmir" deyilməklə sadəcə gözəlliyə uymamaq tövsiyə olunur. Yəni gözəl ağıl-mərifət baxımından da gözəl olmalıdır düşüncəsi fikrin alt qatından boy göstərir. Həm də bu deyimdə gözəlliyin birbaşa gözəlin üzündə-camalında, sifətində təcəlla olunduğu bildirilməklə aşiqin məhz gözəlin üzündə "plov yediyinə" – gözəlin gözəlliyinə, gül camalına vurulduğu ifadə olunub. Yoxsa ki, düz-dünya doludur qızla. Deməli, sifətcə-camalca yaraşıqlı, cazibədar olduğuna görə gözəl deyilir və aşiqi də ilk baxışda özünə çəkən, vurğun edən məhz bu gözəllikdir. Əbəs deyildir ki, Aşıq Ələsgər bu məqama poetik məzmun verməklə "Camalından içdim bada" deyir. Bununla nə demək istəyir aşıq? Elin, xalqın təbirincə, "üzündə plov yeyilən gözəl"in "üzündən – camalından badə içir" el sənətkarı (aşiq obrazı). Başqa sözlə, aşiqi – Ələsgəri oda salıb, yana-yana qoyan amil gözəlin gül üzündən – camalından badə içməsidir. Bəs o badəni necə içir aşiq? Gözəlin adamı məftun edən camalına baxıb bihuş olan aşiq bu halını gözəlin camalından badə içməklə məst olmaq – sərxoş olmaq dərəcəsinə yetdiyini bədii ahənglə izhar edir.

Deyilənlərdən də bir daha göründüyü kimi, "Keçdi" adlı bu gözəlləmə - gəraylısında Aşıq Ələsgər milli ruhun ifadəçisi olmaqla etnoqrafik detalları bədii sözün gücü ilə təcəssüm etdirmiş, eyni zamanda xalq ruhunun güzgüsü olan səciyyəvi əlamətləri və xalq danışıq dilinin ahən-

gini qoruyub yaşatmaqla, ona əlavə sənətkarlıq naxışları vurmaqla əbədiyaşar söz-sənət tablosu yaratmağa nail olmuşdur. Aşıq burada təkcə sabitləşmiş ifadə qəliblərindən yararlanmamış, həmçinin ümumxalq kütləsinin türk dilləri üçün pozulmaz qanununu – danışıq dilində qorunub yaşanan ahəng qanununu da gözləmişdir. Möhürbənddəki "mələkzada" və "bada" ifadələrinin danışıq dilindəki işlək şəklinin qorunması həm də "Ələsgəri saldı oda" misrasındakı "oda" sözü ilə həmqafiyə səslənməklə bir növ, həm də sənətkara texniki şərtlər baxımından yardımçı olmuşdur. Başqa sözlə, mələkzadə və badə sözlərinin dilimizin saitlər ahəngini qəbul edib, qalın hecalarla deyilişi "od" sözünün də bu arada həmqafiyə cərgədə dayanmasına imkan vermişdir. Bu, həm də elə onu göstərir ki, müəyyən qayda-qanunlar çərçivəsinə salınmaqla həm də məhdudlaşdırıcı dar qəlibə oturdulan yazılı ədəbi dildən fərqli olaraq, Aşıq Ələsgər xalqın şifahi danışıq dili olan sözün sərbəstlik imkanlarına meydan vermişdir. Məhz sözə-danışığa sərbəst yanaşdığına görə də özü də söz meydanındakı atını sərbəst, azad çapdıra bilmiş, sözün geniş imkanlarından yetərincə istifadə etdiyindən də bu dərəcədə ənginliklərə baş vuran söz xəzinəsinin sahibi olmuşdur. Bəlkə də, ədəbiyyatşünaslıqda səhvən söylənilən Aşıq Ələsgərin "savadsız olması" iddiasının bir ucu da bu səbəbə bağlanır ki, sənətkar yazılı ədəbi dildən çox xəlqi ruhun ifadəsi olan şifahi danışıq dilində çalıb-çağırmışdır. İkinci bir tərəfdən də o dövrdə məktəblərdə keçirilən dərslər yazı dilinə yox (M.Ə.Sabirin "Mollam da döyür yazı yazanda" misrası o dövrün məktəbdarlığına real işarədir), şifahi əzbərləmə üsuluna əsaslanırdı. Aşıq Ələsgərin "yazı-pozu bilməməsi" məhz bu prinsipdən yanaşmaqla özünü doğrulda bilər. Halbuki bu, heç də savadsızlığa işarə etmir. Sadəcə olaraq dövrünün biliklərini məktəblərdə şifahi yaddaşa əsaslanmaqla mənimsəmək vərdiş və bacarıqlarını əks etdirir.

"Yeridi" rədifli gəraylıda da maraqlı poetik bənzətmələr hakimdir:

Ovçu tək bərədə durdu,
Qaşlarından kaman qurdu.
Müjkanın sinəmə vurdu,
Qəmzəsi qana yeridi.

Gözəl burada aşiqini bərəyə salan ovçuya bənzədilir. Onu bəndəbərəyə salmaqla ovlayırlar. Qaçmağa yeri olmur. Aşiq isə sevgilisinin füsunkar gözlərinin haləsindən (bəndindən-bərəsindən) qırağa çıxa bilmir. Necə deyərlər, tilsimkar gözlərin cazibəsinin sehrinə düşür. Aşiqə naz-qəmzə edən gözəl qaşlarını kaman kimi dartıb, kirpiklərini

oxa döndərib əfsunlayıcı nəzərlərini ona dikir. Bu zaman sanki kirpikləri oxa dönüb sevən aşiqin sinəsinə-ürəyinə dəyir və bu qəmzəli qaş-göz oynatma onun qanına-iliyinə yeriyir.

Növbəti benddə isə aşiqin bu əhvalı belə bəyan edilir:

Çeşmim yaşı olub ümman,
Yaşılbaş sona yeridi.

Çeşminin (gözünün) yaşı ümmana-dəryaya dönüb, amma elə bil ki, sevdiyi gözəl aşiqin bu halını digər bənddə deyildiyi kimi, "endirib salmadı saya". Yəni göz yaşını ümman bilən yaşılbaş sona (kimi) bu dəryaya saymazyanalıqla baş vurub getdi.

Göründüyü kimi, sənətkar dilin poetik imkanlarından bacarıqla istifadə edir, xalq dilinin şirinliyindən və hazır poetik qəliblərindən təbiiliklə ürəyəyatımlı, könül oxşayan bədii lövhələr yaradır. Məhz aşığın bu kimi sənətkarlıq keyfiyyətlərini dərindən izləyən professor Məhərrəm Qasımlı haqlı olaraq göstərir ki, "...Azərbaycan türkcəsinin gözəlliklərini, poetik-üslubi imkanlarını, canlı danışıq şirinliyini, xəlqi kalorit zənginliyini, səs-ahəng axar-baxarını hər şeirində, hər misrasında uğurla və qürurla daşıyan Aşıq Ələsgər poeziyası dilimizin və ruhumuzun qərarlaşdığı möhtəşəm sənət abidəsidir" (2, səh. 18).

Görkəmli folklorşünas Məmmədhüseyn Təhmasib Aşıq Ələsgərin 1972-ci ildə "Elm" nəşriyyatında çıxmış ikicildliyə yazdığı "Gözəllik nəğməkarı" adlı ön sözdə aşığın sənətə-sözə bu qədər dərəcədə bağlılığını doğulub-böyüdüyü Göyçə mühiti ilə əlaqələndirir:

"Özünə məxsus təbii gözəlliklərə malik olan Göyçə əsrlərdən bəri sazın və onun köməyi ilə yaradılan, müşayiəti ilə ifa edilib yaşadılan sözün ən isti, ən mehriban ana qucaqlarından biri olmuş, indi də belədir, şübhəsiz ki, gələcəkdə də uzun müddət belə olacaqdır. Mübaliğəsiz demək olar ki, bu mahalda saz çalmağı, söz deməyi heç bacarmayan adama ancaq nadir hallarda təsadüf olunur. Əksəriyyəti isə aşıqlıq ənənələrinin ən incə sirrlərinə vaqif olanlar təşkil edirlər. Sənətin bu yerlərdə belə dərin kök atıb, belə geniş yayılması, hətta sözün dəqiq və tam mənasında məişətə daxil olması mahalın təbii şəraiti, coğrafi mövqeyi və yada gəlməz uzaq keçmişlərdən bəri burada yaşayan qəbilələrin, tayfaların yaradıcılıq ənənələri ilə bağlıdır. Təsadüfi deyil ki, xüsusilə "Kitabi-Dədə Qorqud" dastanlarında, başqa şəkildə deyilsə, bugünkü aşığın qədim əcdadı hesab edilən ozan yaradıcılığı nümunələrində işlənən, indi artıq tamamilə arxaikləşmiş bir sıra sözlər, ifadələr burada indi də yaşamaqdadır. Belələrinə misal

olaraq heç olmasa qarğı, mizraq, şülən, halal, say, yalavımaq, bəhri, orqan, bayqu və onlarla başqalarını göstərmək olar ki, bunlardan bayqu xüsusilə maraqlıdır.

Məlumdur ki, bayqu qədim oğuz qəbilə onqonlarından, yəni totem kimi müqəddəs sayılan alıcı quşlardan birinin adıdır. Bu onqonun vaxtı ilə sənət hamisi kimi təqdis edildiyini zənn edənlər də vardır. Çox qədim etiqadlarla bağlı olub, indi tamamilə arxaikləşmiş olan, bəzən hətta yanlış olaraq bayquş zənn edilən bu müqəddəs quşun adına Göyçə aşıq şerində, xüsusilə Ələsgər qoşmalarında tez-tez təsadüf olunmaqdadır. Misal üçün, Ələsgərin "Dal-dala" rədifli cığalı təcnisinin cığa bayatısında deyilir:

"Mən aşiqəm, dal-dala,
Bayqu gəzər dal-dala".

"Ayağa məni" rədifli cığalı təcnisinin son bəndində isə aşıq dünyada hər şeydən üstün tutub, həmişə vüqarla qeyd etdiyi vətənini həmin bayquların məskəni adlandıraraq:

"Ələsgərəm, dada gəldi budu yap,
Bayquların məskənidi bu diyar" – deyir.

XIX əsrin sonları və XX əsrin əvvəllərində qoşulmuş şerlərdə bu qədər qədim qəbilə-tayfa inamları ilə bağlı əlamətlərin mövcudiyyəti bu yerlərdə aşıq sənətinin nə qədər uzaq keçmişə malik olduğunu əsaslandıran dəlillərdən biridir.

Göyçədən çox da uzaq olmayan Damcılı rayonunda "Ozan" adlı kəndin, bugünkü inzibati bölgüyə görə də Göyçə ilə həmsərhəd olan Kəlbəcərdə Ələsgərin arvadı Anaxanımın doğulmuş olduğu Yanşax adlı kəndin, Gəncədə isə Ozan adlı məhəllənin mövcudiyyəti də bu hökmü qüvvətləndirməkdədir. Məlum olduğu kimi, Kəlbəcərin görkəmli aşıqlarından biri olan Şəmşir çoxəsrlik keçmişə malik bir şair-aşıq nəslinin müasir nümayəndəsidir. Bunun doğrudan da belə olduğunu Şəmşirin 1515-ci ildə Səfəvi dövlətinin xüsusi rəsmi fərmanına layiq görülmüş ulu babası olan Misgin Abdalın şeirləri də sübut etməkdədir. Təqribən elə həmin illərdə yaşamış və sanballı ədəbi irs qoyub getmiş məşhur Qurbaninin vətəni Diri də bu ərazidən çox aralı deyildir. Bədii yaradıcılıq xüsusiyyətləri, şeir texnikası, şairlik qüdrəti, hətta dünyagörüşü etibarilə bir-birinə çox yaxın olan bu sənətkarların əsərlərindəki bitkinlik, kamillik də aşıq sənətinin bu yerlərdə çox qədim köklərə malik olduğunu, bu şəxsiyyətlərin isə bu

aləmin ilk qaranquşları deyil, oturuşmuş qaranquşları, qartalları olduğunu aydın bir şəkildə göstərir.

Bir sözlə, Göyçə çox qədim zamanlardan aşıq sənətinin beşiyi olmuş, bu sənətin inkişafında çox böyük rol oynamış, bir sıra çox görkəmli ustadlar yetişdirmiş, XIX-XX əsrlərdə isə öz Aşıq Ələsgəri, onun ustadı, ustadının ustadları, eləcə də şəcərəsi, nəsli və şagirdləri ilə aşıqlıq sənətinin ən yüksək zirvələrinə qalxmışdır (3, səh. 5-8).

Bəli, Aşıq Ələsgəri Dədəlik səviyyəsinə doğulub yaşadığı Göyçə mahalının ədəbi-ictimai mühiti ucaltdı. Eyni zamanda yaradıcılıq dühası baxımından da Aşıq Ələsgər bir kamil sənətkar kimi yaşadığı mühitə qəlbən bağlı olub, Göyçə aşıq mühitinə zəngin yaradıcılıq irsi bəxş etməklə onu möhtəşəm zirvələrə qaldırdı. “Arsız aşıq elsiz necə yaşadı?” deyən ustad aşıq əslində bu manifesti ilə bir tərəfdən elsiz-obasız yaşaya bilməyin mümkünsüzlüyünü, digər tərəfdən isə ürəyi, nəfəsi, ruhu ilə elə (xalqa) bağlı olan sənətkarın həmişə yaşarlıq qazanacağını demək istəyirdi...

## QAYNAQLAR

1. Aşıq Ələsgər. “Gözüm bir alagöz xanıma düşdü”. “Yazıçı”, 1993
2. Aşıq Ələsgər. Lirika. “Zərdabi nəşr” MMC. Bakı, 2021
3. Aşıq Ələsgər. Əsərləri 2 cilddə. I cild., Bakı, “Elm”, 1972

# AŞIQ ƏLƏSGƏRİN YARADICILIĞINDA ŞİVƏ VƏ DİALEKTLƏR

# ACCENT AND DIALECT IN ASHUG ALASGAR'S ACTIVITY

# ДИАЛЕКТЫ И ГОВОРЫ В ТВОРЧЕСТВЕ АШЫГА АЛЕСКЕРА

**Şəhla HÜSEYNLİ**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*shahla_huseynli@mail.ru*

**Summary**

Investigating the different prominent representatives of ashug poetry and ashug art it is seen that their works are one of the most authoritative sources for studying the historical development processes of our language, as well as a number of other problems. As oral folk literature is more ancient than written literature historically, ashug literature, which is part of it, has passed a very rich way of development since ancient times and at the same time had a great influence on the formation of the written literary language. Oral poetry traditions played an important role in the formation of the written literary language. The ashug poetry, which is based on the people's spirit from the beginning to the end, has been used widely in live speech language, accent and dialects.

The rich accents and dialects of the Azerbaijani language have been very interested by artistic word masters at almost all times. Our classical poets and writers, artistic word masters have used widely these forms. Ashug Alasgar is one of the masters who became familiar with the richness of our native language and created exemplary poetry in this language. The works of the poet, who revived his poems in the dialect of the Great Goyche and made his heroes speak accent, are rich in dialect words. In the article the dialect words observed in the heritage of Ashug Alasgar are investigated and the explanations of those words according to the dialect are given.

**Key words:** dialect, accent, poem, ashug, language, Alasgar

**Резюме**

При изучении творчества отдельных выдающихся представителей ашыгской поэзии и ашыгского искусства видно, что их работы являются одним из самых достоверных источников для изучения исторических процессов развития нашего языка, а также, ряда других проблем. Так как устная народная литература исторически древнее чем письменная, ашыгская литература, которая является ее составной частью, также

прошла очень богатый путь развития, начиная с древних веков, и в то же время оказала большое влияние на формирование письменного литературного языка. Устные поэтические традиции сыграли важную роль в формировании письменного литературного языка. В ашыгской поэзии, которая укоренилась в народном духе от начала до конца, были широко использованы живая разговорная речь, диалекты и говоры.

Почти во все времена, мастера слов проявляли большой интерес к богатым диалектам и говорам азербайджанского языка. Наши классические поэты и писатели, мастера слов широко использовали эти средства. Одним из мастеров, который знаком с богатствами нашего родного языка и создал образцовую поэзию на этом языке, является Ашыг Алескер. Произведения поэта, который воспроизводит свои стихи на говоре Великой Гейчи, герои которого говорят с акцентом, богат диалектическими словами. В статье, были исследованы диалектические слова, которые встречаются в наследии Ашыга Алескера и даны объяснения этих слов, соответственно относящимся к ним диалектам.

**Ключевые слова:** диалект, говор, стихотворение, ашыг, язык, Алескер

Doğma dilimizin zənginliklərinə bələd olan, bu dildə zəngin nümunəvi poeziya yaratmış sənətkarlardan biri də Aşıq Ələsgərdir. Şeirlərini Ulu Göyçənin şivəsində canlandıran, qəhrəmanlarını ləhcə ilə danışdıran şairin əsərləri dialekt sözlərlə zəngindir. Sadə dil, aydın ifadə, xalq danışıq dili Aşıq Ələsgər üslubunun əsasını təşkil edir. Aşıq Ələsgər poeziyası xalq təfəkkürünə, onun canlı danışıq dilinə söykənir. "Canlı ünsiyyət və məişət leksikinin düzgün üslubi səmtləşdirilməsi bədii amalı aydın bir məcraya yönəltmək nümunəsidir. Aşıq Ələsgər poeziyasında ümumxalq danışıq leksikası dərin poetik düşüncə panoramının əsas cizgilərini yaradır, adi danışıq sözünün sanbalı artır (2, 154).

Müəllim üzü görməyən, əlifba öyrənməyən Aşıq Ələsgər Göyçə aşıq məktəbindən bəhrələnmişdir. Aşıq sənətinin incəliklərini ustadı Aşıq Alıdan öyrənmiş və çalışmışdır ki, şeirlərini hər kəsin anlayacağı xalqın dili ilə səsləndirsin. Azərbaycan dilinin bütün incəliklərinə bələd olan sənətkar əsərlərində xalq dilindən çox məharətlə istifadə etmiş, şeirləri dildən-dilə gəzərək ustad sənətkar zirvəsinə yiyələnmişdir.

Ümumiyyətlə, həm şifahi, həm də yazılı ədəbiyyatımızı araşdırarkən görürük ki, ədəbi dilimizin əsasında xalq dili dayanır. Xüsusilə aşıq ədəbiyyatı dialekt və şivələrimizin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. "Azərbaycan dilinin dialekt və şivələri demək

olar ki, bütün dövrlərdə söz sənətkarlarını çox maraqlandırmışdır. Klassik şair və yazıçılarımız bu vasitələrdən geniş istifadə etmişlər” (1, 25).

Ustad sənətkar da əsərlərində bir çox dialektlərdən istifadə etmişdir. Onun yaradıcılığına nəzər salanda görürük ki, ustad həm Göyçə dialektinə xas olan, həm də müxtəlif zonalara məxsus dialektlərdən bəhrələnmişdir.

Gözüm aşıq oldum, oğlum gülləçi,
Bildim ki, qalacaq dövlətin üçü
Qırıldı mal-qoyun, qalmadı keçi,
İndi də yıxılıb kal, qoca baxtım (3, 62).

Salyan zonasında “zəif”, “pis” mənasını verən “kal” sözü Naxçıvan dialektində iki mənada işlənir: 1) bacarıqsız, maymaq; 2) şiv, cavan çubuq (4, 250). Ədəbi dilimizdə isə “kal” yetişməmiş mənasındadır. Sənətkar da qoşmada bəxtini yıxılmış, qırılmış, yetişməmiş cavan budağa bənzədir. Birinci misrada işlənən, “gülləçi” sözünə yalnız Aşıq Ələsgərin bu qoşmasında rast gəlirik. Çox güman ki, bu söz o dövr üçün işlək olub, müasir dövrümüz üçün arxaikləşib.

Səksəni, doxsanı ötübdü yaşım,
Qovğaya düşübdü bəlalı başım
Əzrayıl həmdəmim, məzar yoldaşım,
Daha köç təblini çal, qoca baxtım! (3, 63)

Bu nümunədə “qovğa” sözü əsasən Şuşa dialektinə mənsub olub bədii ədəbiyyatda da geniş şəkildə işlənmişdir. “Dava”, “müharibə” mənalarını verən bu dialekt sözə Ə.Haqverdiyevin, M.F.Axundovun əsərlərində də rast gəlirik.

Aşığın dillər əzbəri olan “Dağlar” qoşmasında işlənən “dinşəməz” feili Qazax, Tovuz bölgəsində “qulaq asmaq”, “dinləmək” anlamındadır (4, 191).

Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib-gedəni pərişan eylər.
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinşəməz haramı, halalı dağlar (3, 36).

“Dinşəməz” feili müasir yazıçılarımızın əsərlərində də işlənmişdir. - Bir sən də dinşə - dedi (M.Süleymanlı). Hələ də o konserti dinşəyirdilər (S.Nəzərova) (6, 70).

Aşıq Ələsgərin “Gözlə, gözlə sən” divanında işlənən “nasağı” sözü Salyan bölgəsində “tövbə” mənasında işlənir.

Olsa nüsrət, versə fürsət,
Qadir-sübhan bizə.
Çoxlarına eylərəm,
Nasağı, gözlə, gözlə sən! (3, 116)

Dilimizdə elə dialekt sözlər var ki, həmin sözlər ədəbi dilimiz üçün arxaik olub, lakin dialekt və şivələrimizin lüğət tərkibində qalmaqdadır. Nümunəyə nəzər salaq:

Məhəbbətə sədaqətli,
Ayrılmaz bir can kimidi.
Tovuz kimi cilvələnib,
Qırımı tərlan kimidi (3, 137).

Şairin dilində işlənən "qırım" sözü də vaxtilə klassiklərimizin dilində işlənən leksik vahid olmuş, sonralar arxaikləşərək ədəbi dildə başqa sözlərlə əvəzlənərək izini dialekt və şivələrimizdə saxlamış, sonralar isə daha çox Cənub bölgəsində işlənərək "meyl", "arzu", "istək" mənasını vermişdir.

Aşıq sənəti daha çox xalqın gündəlik həyatı, məişəti, adət-ənənələri ilə bağlıdır. Buna görə də xalqın həyat tərzi, məişəti ilə bağlı leksik sözlər aşıq poeziyasının dilində xüsusi yer tutur. Xalqın məişəti ilə bağlı olan bu sözlər Aşıq Ələsgər poeziyasında da dialektlər şəklində özünü göstərir:

Axşamdan yıxılı, çeşdədək yatır,
Həftədə xanaya bir arğac atır.
Gün batan çağında balatı qatır,
Çırmamır qolunu, yumur əlini (3, 181).

Bu bənddəki "arğac" Qazax, Salyan, Cəbrayıl bölgələrində xalının, gəbənin, ümumiyyətlə toxunan parçalarda istifadə olunan ipdir. Göründüyü kimi, bu dialekt söz müxtəlif zonalara məxsusdur. Məzəli qadın obrazlarının təsvir olunduğu bu şeir nümunəsinin 3-cü misrasında "balatı" sözü ən çox Zaqatala, Şəki zonasında xəmiri acıtmaq üçün "maya" mənasındadır.

Aşığın yaşadığı dövrün mənzərəsini əks etdirdiyi "Bahalıq" rədifli müxəmməsində işlənən "cadı" sözü Naxçıvan bölgəsinə xas çörək növüdür (7, 50).

Başımıza gəldi oyun.
Ağ lavaşı bəyənməyən,
İndi arpa cadı yeyin.
Ələsgərin bu dərdini
Gedin dərdbilənə deyin (3, 125).

Folklor nümunələrini araşdırarkən görürük ki, bir çox bölgələrdə Novruz bayramı ərəfəsində şumlanmış böyük əkin yerlərində mərasimlər keçirilərdi. Həmin mərasimlər zamanı əkinçilik mahnıları oxunardı. Həmin mahnılarda da "cad" çörəyinin adı çəkilir.

Caddı cavandı,
İnsana hayandı.
Gəlin boğandı,
Qonaq qovandı.

Qarğıdalı unundan hazırlanan, buğda unu qıt olanda insanların köməyinə çatan bu çörək müxtəlif bölgələrdə bişirilib. "Cad" adı isə çörəyin üstü "cod" olduğuna görə verilib. Buradan da aydın olur ki, bu dialekt söz təkcə Naxçıvanda deyil, bir çox bölgələrdə də işlənmişdir.

Ustad sənətkarın poeziyasında leksik dialektlərlə yanaşı fonetik dialektlərə də rast gəlirik. Əgər şair leksik dialektlərdən istifadə edərək öz bölgəsinə uyğun dialekt sözləri üzə çıxarırsa, fonetik dialektlərlə sözləri öz şivəsinə uyğunlaşdırır, alınma sözləri milliləşdirir, tələffüzünü asanlaşdırır. Həmçinin fonetik dialektlər daha çox şeirdə qafiyə, bölgü və s. tələbləri ödəmək məqsədilə işlədilir. Fonetik dialektlər fonetik hadisələr - səsdəyişimi, səsartımı, səsdüşümü nəticəsində yaranır.

Dəhanından ataş qalxar,
Ah çəkir, eylər nara (3, 119).

Xoş saatda xoş gəlibdi cahana
Yoxdu gözəlliyə qüsur, bahana (3, 44).

Nə bəlaya düşdüm mən baxtı qara,
Eşqin atasına heç olmaz çara (3, 45).

Göründüyü kimi şair burada bəhanə, çarə, atəş kimi alınma sözləri qafiyəyə uyğun olaraq "bahana", "çara", "ataş" şəklində işlətmişdir və bu da şeiri xalq dilinə daha da yaxınlaşdırır. Aşıq Ələsgərin dilində müşahidə olunan şivə tələffüzünün transkripsiyası daha çox qafiyə mövqeyində işlənib zəngin qafiyə yaradıcılıq naminə fəallaşır (2, 173).

Şairin dilində fonetik dialektlərin bir qismi də səsartımı nəticəsində yaranır. Dilçilikdə proteza adlanan bu linqvistik hadisə əsasən özünü "r" samiti ilə başlanan sözlərin əvvəlinə qapalı saitlərin artırılması ilə göstərir və bu da azərbaycanca "r" samitləri ilə başlanan sözlərin dilimizin lüğət tərkibinə sonradan daxil olması ilə izah olunur.

Bəhrəm olsun təqdir, pozulsun yazı.
Bu qurğuya heç kim olmaz irazı (3, 34).

Uruhum, cismanım, nəbzim, həyatım,
Zinətim, zivərim, adım, isbatım (3, 35).

Tutdum Rəsulun irahın,
Xatımin aldın nişan (3, 110).

Alınma sözlərdə söz əvvəlində saitlərin artımı türk dialektlərində də geniş yayılmışdır. Məsələn: irahat, İrmizan, İrşat və s. (5, 660).

Şairin yaradıcılığında rast gəldiyimiz fonetik hadisələrdən biri də səs düşümüdür.

Kığ satan, çaşır satanlar,
Deyir qaxdağan bizə.
Çay içib, plov yeyənlər,
Heç göstərmir nan bizə (3, 116).

Azərbaycan dilinin dialektoloji lüğətində verilən "qartdağan" sözü əsasən Marnueli rayonunda işlək olub "qərib", "yad" mənasını verir (5, 120). Yuxarıda verilən nümunədə isə "r", "t" səsləri düşmüş, həmin söz "qaxdağan" şəklində işlənmişdir.

Başqa bir nümunədə görürük ki, sözlərdə təkcə səs yox, həm də heca düşümü baş vermişdir:

Billəm eytac deyil sənə mal indi,
Geyibsən qəddinə, Sənəm, al indi.
Can alansan, canım, sənəm, al indi.
Əzrayılın çəngəlindən daldala (3, 94).

Birinci misrada işlənən "eytac" (ehtiyac)sözü dialekt tələffüzünün və yaxud şeir ölçüsünün tələbinə uyğun olaraq heca düşümü ilə yaranmış fonetik dialektizmdir.

Aşıq Ələsgərin "Hayıfsan", "Eyləməynən" rədifli şeirləri adından göründüyü kimi şivə transkripsiyasına uyğun şəkildədir.

Danışdıq, barışdıq mərhəmət ilə,
İnciklik araya qatma hayıfsan!
Sən tacir olmazsan bir manat ilə,
Namusu, qeyrəti atma hayıfsan! (3, 174)

Nəfs ilə mərifət durub cahada,
Mərfət deyir: -- Belə kar eyləməynən!
Nəfs deyir: ---- Baxma naqqal sözünə,
Xeyrin gələn yerdə ağ eyləməynən! (3,45)

Yuxarıdakı nümunələrə nəzər saldıqda görürük ki, şairin yaradı-

cılığında morfem dialektlər də yer almışdır. Müasir dialekt və şivələrimizdə (Bakının Qobu, Hökməli, Güzdək) rast gəlinən -qınan, -ginən şəkilçiləri feilə qoşularaq 2-ci şəxs əmr formasını yaradır. Saitlə bitən feillərə isə qoşulduqda 2-ci şəxs təkdə yalnız 2-ci şəxs şəkilçisini qəbul edir. Məsələn, deynən, saxlaynan, götürməynən (5, 191). "Eyləməynən" ədəbi dilimizdə "eləmə" əmr formasını bildirir. Dədə Qorqud dastanından üzü bu yana işlənən bu arxaik morfemlərin aşığın dilində işlənməsi bir daha göstərir ki, şair dilimizin qədim köklərinə dərindən bələddir.

Bütün bu deyilənlərdən aydın olur ki, Aşıq Ələsgər poeziyası başdan-başa xalq ruhu üzərində köklənib. Qüdrətli sənətkarın dilinin əsasını ümumxalq dili təşkil edir.

## QAYNAQLAR


1. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2003
2. Hüseynov M. Aşıq Ələsgərin söz ümmanı. Bakı, 2017
3. Aşıq Ələsgər. Əsərləri. Bakı, 2004
4. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964
5. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 2008
6. Quliyeva K. Bədii ədəbiyyatımızda dialektizmlər. Bakı, 2019
7. Naxçıvan dialekt və şivələrinin lüğəti. Naxçıvan, 2017

# AŞIQ ƏLƏSGƏR POEZİYASINDA İNSANIN MƏNƏVİ GÖZƏLLİYİNİN TƏSVİRİ

# DESCRIPTION OF MAN'S SPIRITUAL BEAUTY IN ASHUG ALASGAR'S POETRY

# ОПИСАНИЕ ДУХОВНОЙ КРАСОТЫ ЧЕЛОВЕКА В ПОЭЗИИ АШЫГА АЛЕСКЕРА

**Tacir QURBANOV**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*tacir1956@mail.ru*

**Summary**

Ashug Alasgar's creativity is rich. His poems are well remembered and conquer hearts because he drank water from a folk source. Ashug Alasgar's poetry is reminiscent of an inexhaustible treasure full of reminders, advice and wisdom. In the works of the folk artist, a large place is given to the description of the spiritual beauty of man. Ashug Alasgar says that a person's spiritual beauty is also concentrated in good character, good communication, kindness and high morals. He says that the spiritual beauty of a person makes the world more beautiful, gives a person spirit and happiness, he is always needed.

**Key words:** folk artist, spiritual beauty, Ashug Alasgar, praise, divani

**Резюме**

Творчество Ашыга Алескера богато. Ввиду того, что его произведения основывались на народные источники они хорошо запоминаются и завоевывают сердца. Поэзия Ашыга Алескера напоминает неиссякаемое сокровище, полное назиданий, наставлений, мудрости. В творчестве народного мастера большое место отведено описанию духовной красоты человека. Ашыг Алескер считает, что духовная красота человека также сосредоточена в прекрасном характере, приятном общении, доброте, высокой морали. Он говорит, что духовная красота делает мир еще красивее и вдохновляя человека доставляет ему радость, он всегда в потребности.

**Ключевые слова:** народный мастер, духовная красота, Ашыг Алескер, восхваление, дивани

Aşıq Ələsgərin poeziyası çox zəngindir. Mübaliğəsiz demək olar ki, bu böyük aşığın bir zəif şeirinə, misrasına rast gəlinmir. El sənətkarının hikmət və nəsihət dolu şeirləri insanı yaratmağa, yaşatmağa çağırır. "Aşıq Ələsgər öz poetik ruhu, qəlbi, sazı-sözü, fitri istedadı ilə o qədər yüksəkdə idi ki, onu ən aşağı mərətəbədə əyləş-

dirsəydilər belə hamıdan yüksəkdə görünərdi” (Bədəlzadə A., 2017: 19). Onun ədəbi irsi tükənməz hikmət mənbəyidir.

Aşıq Ələsgər həmişə kamil insan məsələsinə, insan qəlbinin gözəlliyinə, yəni könül zənginliyinə xüsusi diqqət yetirir. Ustad aşıq el sənətkarının da kamallı, ağlı başında, ədəb, mərifət əhli olmasını istəyir:

Aşıq olub diyar-diyar gəzənin
Əzəl başda pür kamalı gərəkdi.
Oturub-duranda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi (Aşıq Ələsgər, 2003: 71).

El sənətkarının təsvir etdiyi, təriflədiyi, təqdir etdiyi şəxsləri – onlar gözəllər olsun, el-obada nam salmış igidlər olsun, səxavəti ilə tanınmışlar olsun – həmişə nəcib, xoşxasiyyət, insanlığa baş əyən, dəyər verən adamlar olduqlarını müxtəlif təsvir və çalarlarla əks etdirmişdir. “Ələsgər şeiri xalqın şeiridir. Bəzən adama elə gəlir ki, bu şeirləri bir nəfər yox, xalq özü yaradıb. Ələsgər şeiri başdan-başa həyatın özüdür” (Vahabzadə B., 1979: 78-79). Aşıq Ələsgərə görə insanın zahiri gözəlliyi “gözəl insan” ifadəsini tam əhatə etmir, onun daxili aləmi, mənəviyyatının zənginliyi də bilinməli, eyni zamanda onun ağıllı, dərrakəli, halal olması vacib məsələlərdir. Aşıq Ələsgər bunu yaradıcılığında “Gəlin”, “Giləyə”, “Gözələ” kimi divanilərində əks etdirmişdir. Böyük aşıq deyir:

İnanmıram kamalına
Həkimi-Loğman yetişə.
Bəlkə səndən əlac ola,
Xəstəyə dərman yetişə.
Mərifətdə, qanacaqda
Hanı, sana can yetişə (Aşıq Ələsgər, 2003: 198).

Gördüyümüz kimi, mərifət, qanacaq sahibi, kamallı olmaq müəllifin gözündə hər kəsin sevimlisi olmaq anlamına gəlir. Elə bundan dolayı el sənətkarı “Giləyə” divanisində təriflədiyi gözəli mərifətdə tayı olmayan “Loğman kamallı” kimi təqdir edir. Aşıq Ələsgər digər bir divanisində təkcə gözəli tərifləmir, həm də onun nəcib, ağıllı və kamallı olduğunu deyir, onun mərifət və əxlaqından məmnunluğunu bildirir.

Gözəl xanım al geyinib
Gözəllər xasından gözəl.
Silkinir, gərdən çəkir
Göllər sonasından gözəl.
Libas əndamına layiq,
Əndam libasından gözəl.

Qabiliyyət, mərifət tapıb
Ata-anasından gözəl.
Gözəlliyi cəm edibdi
Xaliqi-Sübhan gözələ! (Aşıq Ələsgər, 2003: 201)

Çünki yaxşı xasiyyətli olmaq insanlığın əsas şərtlərindəndir. Bu, həm də könül zənginliyini, könül gözəlliyini göstərməkdədir. Heç təsadüfi deyildir ki, Aşıq Ələsgər ədəbi irsində halallığa, qəlbi təmizliyə, haqqı gözləməyə dair kifayət qədər yer verilmişdir. Aşıq Ələsgər həmişə adamları haqq yoluna dəvət etmişdir. Böyük aşıq göstərir ki, həqiqət yolunda olan şəxs halal olduğundan mərifət elminə də vaqifdir:

Nütfədən pak olan, loxmadan halal,
Mərifət elminə nabələd olmaz (Aşıq Ələsgər, 2003: 105).

Aşıq Ələsgər təlqin edir ki, əyrilik, haram loxma, şeytanlıq kimi mənfi sifətlər insanlığa yaraşmır. Bunlara meyl eləmək kamil, ağlı başında olan adama yaraşmayan sifətlərdir. İnsan mənəvi cəhətdən zəngin olmalıdır. Bu, onun halallığını da, cəmiyyətdəki nüfuzunu da, el-oba arasında hörmət qazanmasını da təmin edir. "Xalqın real həyatı, mənəvi dünyası, zehni və düşüncəsi ilə sarsılmaz rabitənin birbaşa nəticəsidir ki, poetik yüksəkliyə qalxa bilmiş, milli səciyyəvi olduğu üçün ürəklərə asanlıqla yol tapa bilmişdir" (Hüseynov M., 2017: 43).

Bəli, Aşıq Ələsgər bəhs etdiyi şəxslərin kamil insan, ağıllı, zəngin könül sahib olduqlarını ayrı-ayrı şeirlərində qeyd edir. Aşıq insan gözəlliyini onun yüksək əxlaqında, yaxşı xasiyyətində, mərdliyində, səxavətli olmasında görür. Müəllifə görə, bu, insan gözəlliyini tamamlayır. Bu baxımdan Aşıq Ələsgərin Dəli Alı ilə bağlı şeirləri xüsusi maraq doğurur. O, "Dəli Alı" qoşmasında Dəli Alını namuslu igid, namərdlərin qənimi kimi öyür, igidlərin xanı – sultanı kimi tərifləyir. Müəllifin digər iki divanisi ("Deyin, "Eləyib") Dəli Alı haqqında kifayət qədər məlumatlarla zəngindir. Ustad aşıq burada Dəli Alının həm mərdliyini, həm də səxavətli olmasını təqdir edir:

Tüf dağıdıb, ordu pozan,
Səf yaran sərdar balası.
Səxavətdə misli-Hatəm,
Səddə İsgəndər balası,
Qurşayıb kəmərini
Cahi-Qəzənfər balası,
Qəniminə qan ağladır,
Bac vermir düşmana – deyin! (Aşıq Ələsgər, 2003: 190).

Müəllif onun kasıblara, yoxsullara qarşı insaflı davrandığını da göstərir:

Saxlayır aşpazxanada
Neçə zəlili, müztəri.
Hatəm kimi bir qapısı
Açılıb ehsana – deyin! (Aşıq Ələsgər, 2003: 191).

Bu qeyd etdiyimiz şeirlərin bir müsbət cəhəti də odur ki, burada Dəli Alının yoldaşlarının da mərd, cəsur olduqları əks olunub. Biz bunu daha aydın görmək üçün Aşıq Ələsgərin bəhs etdiyimiz şeirlərindən aşağıdakı nümunələrə nəzər salaq:

Molla Qasım kamandardı,
Əbədi gördüm mərdana.
Əl-ayağı od ələyir,
Elə ki girdi meydana (Aşıq Ələsgər, 2003: 191).

İqballarıyeyin olsun
Əsədin, Molla Balının,
Qasım ilə Nağı bəyin,
Mədəd ilə Sevdalının!
Müxənnətlər daldasında
Gizləndi dünya malının.
Kalvayı Söyün baxıb gördü
Şoru çıxıb Şorcalının.
Aşığa bir cöngə verib,
Könlünü rövsan eləyib (Aşıq Ələsgər, 2003: 196).

Yoxdu Göyçə mahalında
İsgəndər tək iyid gəzən.
Dost yolunda başın qoyub
Düşmanın canın üzən.
Yoxsulların əlin tutan,
Ac doyuran, əysik düzən (Aşıq Ələsgər, 2003: 196).

Poeziyasından da göründüyü kimi, Aşıq Ələsgər haqqa bağlı, inancına, allaha bağlı bir el sənətkarıdır. O deyir:

Ələsgər, mətləbin Xudadan istə. (Aşıq Ələsgər, 2003: 101).

Bütün qeyd olunanlar onun böyük hikmət sahibi olduğunu, kəramətini təsdiq edir. Deyilənlərə görə, Aşıq Ələsgər böyük hikmət və kəramət sahibi olub. Hər şeyi öncədən bilib, xəbər verib. İ.Ələsgər yazır: “Yaradanın aşığa bəxş etdiyi möcüzəli qabiliyyətlərindən biri də onun kənarda törədilmiş hadisələrdən xəbər verməsi imiş” (Ələsgər İ., 1999: 27). Bunu onun özü də təsdiq edir:

Məzəmmət eyləmə mən binəvanı,
Sahibi-səltənət, ey gövhər-kanı.
Mənim sözüm yoldan çıxan mollanı
İnşallah, qaytarar, müsəlman eylər (Aşıq Ələsgər, 2003: 65).

Dünya-aləmin insanın mənəvi gözəlliyinə ehtiyacı var – böyük aşıq hikmətlə, nəsihətlə dolu şeirlərində hər kəsə bunu anladır. Cəmiyyət, toplum bu mənəvi gözəlliklə irəli gedir, varlığını, insanlığın gözəl cəhətlərini əks etdirir. Bunu el sənətkarı hikmətamiz şəkildə yaddaqalan ifadələrlə göstərir. El sənətkarını daha aydın anlamaq üçün onun ədəbi irsindən bir neçə nümunəyə nəzər salaq:

Mən istərəm, alim, mömin yüz ola,
Meyli haqqa doğru, yolu düz ola (Aşıq Ələsgər, 2003: 71).

Ələsgər söyləyər söz müxtəsərin,
Ağlı kamil ola, kamalı dərin (Aşıq Ələsgər, 2003: 89).
Nütfədən pak olan koxmadan halal (Aşıq Ələsgər, 2003: 108).
Könül, doğru yoldan gəl olma kənar (Aşıq Ələsgər, 2003: 101).

İnsan ağlı, dərrakəsi olmadan xeyirxah işlər görmək, insanlara fayda vermək olmaz. Bu şeir parçaları insan mənəviyyatının gözəlliyini, insan kamilliyini əks etdirməkdədir. Elə buna görə də Aşıq Ələsgər doğru yolun yolçusu olmağı, halallığı təbliğ edir. Təbliğ edir ki, mənəvi gözəllik təbliğ olunsun. Aşığa görə insanın mənəvi gözəlliyi deyəndə onun zahiri gözəlliyi ilə bərabər gözəl xasiyyətli olduğu da başa düşülür. Özünü insan bilən hər kəs onun mənəvi gözəlliyinə aşina olmalıdır – Aşıq Ələsgərin düşüncəsi belədir. Yəni gözütox, səxavətli, dünyagörüşlü, ağlı başında və halal olmaq insanın mənəvi gözəlliyini tamamlayır, onu həmişə yaddaqalan əməllər etməyə, xeyirli işlərə səsləyir. Belə şəxslərdə Allaha, təbiətə, canlılara tükənməz sevgi və məhəbbət olduğundan onlar öz əməlləri ilə xeyirxahlığın və insanlığın gözəlliyini yaşadırlar, dünyada bərqərar edirlər.

## QAYNAQLAR

1. Aşıq Ələsgər (2003) (tərtib edən: İ.Ələsgər). Şeirlər, aşıq-rəvayətləri, xatirələr. Bakı: “Çinar-çap”
2. Bədəlzadə A. (2017). Hüseynov M. Aşıq Ələsgərin söz ümmanı. Bakı: Elm və təhsil
3. Ələsgər İ. (1999). Haqq aşığı Ələsgər. Bakı: Maarif
4. Hüseynov M. (2017). Aşıq Ələsgərin söz ümmanı. Bakı: Elm və təhsil
5. Vahabzadə B. (1976). Sənətkar və zaman. Bakı: Gənclik

# AŞIQ ƏLƏSGƏR OBRAZI DASTAN-RƏVAYƏTLƏRDƏ
# THE IMAGE OF ASHUG ALASGAR IN THE EPIC TALES
# ОБРАЗ АШУГА АЛЕСКЕРА В ЭПОСЕ-СКАЗАНИЯХ

**Tural Kamil oğlu ADIŞİRİNOV**
*AMEA Şəki Regional Elmi Mərkəzi*
*tural.adisirinov@mail.ru*

**Summary**

The article looks at the image of Ashug Alasgar, a prominent representative of the Azerbaijani ozan-ashug art of the XIX-XX centuries, in various legends. Ashug narrations related to prominent ashugs are analyzed. In particular, his meeting with Molla Juma, a prominent representative of the Sheki ashug environment, and interesting moments related to this meeting are discussed. In adition, there is a legend about Ashug Alasgar, who was first collected from the Balakan-Sheki region. The possibilities of Ashug Alasgar's influence on the poetry of the region's ashugs are also considered. The legends about Ashug Alasgar can be considered as a valuable source to shed light on the life and interesting moments of the great artist's life.

**Key words:** Ashug Alasgar, ashug narrations, Molla Juma, dastan, region's ashugs

**Резюме**

В статье рассматривается образ выдающегося представителя азербайджанского озан-ашугского искусства XIX-XX веков Ашыга Алескера в различных легендах. Анализируются ашугские повествования, связанные с выдающимися ашугами. В частности, обсуждается его встреча с видным представителем ашугской среды Шеки Молла Джума и интересные моменты этой встречи. Рассмотрены возможности влияния Ашуга Алескера на поэзию ашугов региона. Кроме того, существует легенда об Ашыге Алескаре, который впервые был собран из Балакан-Шекинского района. Легенды об Ашыге Аласгаре можно рассматривать как ценный источник, проливающий свет на жизнь и интересные моменты жизни великого художника.

**Ключевые слова:** Ашыга Алескера, ашугские повествования, Молла Джума, дастан, областные ашуги

Azərbaycan aşıq poeziyasının görkəmli siması Aşıq Ələsgərin 200 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi ilə bağlı Cənab Prezident İlham Əliyevin 2021-ci il 18 fevral tarixdə imzaladığı Sərəncam Azərbaycan və türk dünyası ədəbiyyatında mühüm tarixi bir hadisədir. Bu tarixi sərəncam qüdrətli söz sənətkarının zəngin poetik

irsinin tədqiqi və təbliği istiqamətində öyrənilməsi işində öz bəhrəsini verəcəkdir.

XIX-XX əsr Azərbaycan ozan-aşıq sənətinin ən görkəmli nümayəndəsi Aşıq Ələsgərdir. Mərhum akademik Yaşar Qarayev çox doğru olaraq yazır: "Peyğəmbərlərdən sonuncusu Məhəmməd peyğəmbər, peyğəmbər aşıqların sonuncusu isə hələlik Aşıq Ələsgərdir" (7). Aşıq Ələsgər sözün həqiqi mənasında qeyri-adi fitri istedada sahib "haqq aşığı" idi. Ustad aşığın nəvəsi, tədqiqatçı İslam Ələsgər özünü "Haqq aşığı Ələsgər" kitabında qeyd edir: "Aşıq Ələsgər üz-üzə söhbət elədiyi adamın ürəyindən keçənləri duyurmuş. Onun alqışı da, qarğışı da təsirsiz ötüşməzmiş. Haqq aşığı olduğu üçün bəzi şeyləri yuxusunda görürmüş. Aşıq Ələsgərin Allaha bağlılığı güclü idi. O şeirlərində Məhəmməd peyğəmbəri, Əlini vəsf edirdi. Hətta onları yuxusunda da görürmüş. Aşıq Ələsgərin nəinki aşıq, həm də övliya olduğunu sübut edən bir nəsnə də ölümünü əvvəlcədən hiss etməsi imiş" (4). Aşıq Ələsgərə yuxuda vergi verilməsini tədqiqatçılar onun "Qabaqda" qoşmasındakı "Pir mana göstərdi şah məqamını / Gördüm cəmdi çox cəlalı qabaqda" misralarla əlaqələndirirlər.

Bu barədə Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərin bir müsahibəsində dediyi fikirlər də maraqlıdır. Xətai Ələsgər qeyd edir ki, Dədə Ələsgər ölümündən bir neçə gün əvvəl Bəşiri çağırıb deyir, mən öləcəm, indidən ehtiyatınızı görün. Deyiblər, axı sənin heç nəyin yoxdur. Deyir, mən sizə deyirəm, hazırlığınızı görün, sonra peşman olmayın. Ölümünə az qalmış deyir, Bəşir gəlsin, Quran oxusun. Üçüncü salavatı çəkəndə Ələsgər dünyasını dəyişir. Aşıq Ələsgər haqqında daha bir maraqlı əhvalat evinin yanmamasının ona əyan olması idi. 1918-ci ildə erməni-müsəlman münaqişəsində Aşıq Ələsgər külfəti ilə Göyçədən Kəlbəcərə köçür. Bir müddət sonra ona xəbər gəlir ki, hamının evini yandırıblar. Ələsgər deyir, mənim evim yanmaz. Deyirlər, gözümüzlə gördük, sənin evinin bacasından tüstü çıxırdı. Ələsgər deyir, mümkün deyil, çünki, mən yayın istisində ağzı oruclu evimin dirəklərini Kəlbəcərdən Göyçəyə təkbaşına gətirmişəm. Mən o evi Allahın evi kimi tikmişəm. Doğrudan da elə idi. Ələsgərin evinin ortasındakı dirəyin ətrafına qarğı-qamış yığıb od vurublar, qarğı-qamış yanıb, dirəyə od keçməyib. Onlar Göyçəyə təzədən qayıdanda, görürlər, doğrudan da hamının evi yanıb, onun evi yox.

Qeyd etdiyimiz bu əhvalatların hər biri Dədə Ələsgərin haqq aşığı, övliya olduğunu, onun Allah tərəfindən seçilmiş biri olduğunu bir daha

göstərir. Özünün əxlaqı, davranışı, xasiyyəti ilə hamıya nümunə olan bu azman sənətkar el arasında böyük şöhrət qazanmışdır. Aşıq Ələsgərin böyüklüyü ondadır ki, şöhrəti onun fitri-istedadını kölgədə qoymadı, əksinə ömrü, yaradıcılığı ilə necə qüdrətli söz ustadı olduğunu bütün varlığıyla sübut etdi. Azərbaycan aşıq sənətinin formalaşmasında və inkişafında şübhəsiz ki, böyük Aşıq Ələsgərin danılmaz rolu vardır.

Görkəmli aşığın həyat və yaradıcılığı ilə bağlı yaranmış söyləmələr iki qismə ayrılır: real həyatdakı hadisələr əsasında yaradılmış dastan-rəvayətlər; xəyalən yaradılmış "dastan"lar. Aşıq Ələsgər haqqında yaradılmış dastan-rəvayətlər onun sağlığında az qala əfsanələşməsindən, şəxsiyyətinə və yaradıcılığına olan böyük sayğıdan irəli gəlir. Bu dastan-rəvayətlər böyük sənətkarın ömür yoluna, həyatı ilə bağlı maraqlı məqamlara işıq tutmaqda dəyərli qaynaq kimi təsbit edilə bilər.

Aşıq Ələsgər irsinin tədqiqatçısı, aşığın nəvəsi İslam Ələsgər "Ələsgər ocağı ilə bağlı yaradılmış dastan və rəvayətlər haqqında" kitabında yazır: "Aşıq Ələsgərin həyat və yaradıcılığı ilə bağlı xalq arasında müxtəlif məzmunlu söz-söhbətlər mövcuddur. Bunların bir qismi Ələsgərin həyatında baş vermiş hadisələr və bu hadisələr səbəbilə deyilmiş şeirlərdən ibarətdir. Dastan söyləyən aşığın bir az bəzək-düzəyi olsa da, bunlar sənətkarın həyat və yaradıcılığını öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir. Bu əhvalatlar Ələsgərin gənclik illərindən başlayaraq xronoloji ardıcıllıqla ömrünün son illərinə qədər onun həyatının müəyyən məqamlarını əks etdirir. Aşığın həyatı ilə əlaqələndirilərək söylənilən hadisələrin bir qismi isə reallıqdan çox uzaqdır. Burada nağıllanan əhvalatlar ağlasığmayan uydurmalardan quraşdırılıb. Bunların bir çoxunda hamıya məlum olan hadisələr bilərəkdən təhrif edilib" (3).

Aşıq Ələsgər Azərbaycan və ümumtürk dünyasının aşıq sənətini yaşadan və əbədiləşdirən nəhəng söz ustadlarındandır. Aşıq Ələsgərin böyüklüyü ondadır ki, o heç kəsi təkrar eləməmiş, qeyri-adi, fitri istedadı və söz sənəti ilə aşıq ədəbiyyatında öz möhrünü vurmuşdur. Maraqlı bir məqam da ondadır ki, Aşıq Ələsgərin şeirləri yazılı şəkildə bizə gəlib çatmayıb. Onun şeirləri şagirdlərinin hafizəsindən toplananlar, Aşıq Ələsgəri görmüş şəxslərdən eşidilənlərdir. Aşıq Ələsgər yazı-pozu bilməsə də, dövrünün elmlərindən xəbərdar olması poeziyasında aydın hiss olunur.

Qeyd edək ki, ilk dəfə onun şeirlərini folklorçu Hümmət Əlizadə yazıya alıb və bu şeirləri bir neçə dəfə çap etdirib. Həmin toplularda

onun çox şeiri yoxdur və yaxud təhrif edilmişdir. Məsələn, Hümmət Əlizadə dövrün tələbinə uyğun olaraq şeirlərdəki dini adları dəyişdirməli olub. 1946-cı ildə folklorçu-alim Əhliman Axundov "Aşıq Ələsgərin yaradıcılığı" mövzusunda dissertasiya müdafiə edir. Tədqiqatçı İslam Ələsgərin qeyd etdiyinə görə, həmin dissertasiyada kifayət qədər səhvlər var. Aşıq Ələsgər haqqında ən mükəmməl tədqiqat işi İslam Ələsgərin "Haqq aşığı" kitabıdır. Bu kitab Aşıq Ələsgər irsinin öyrənilməsi işində qiymətli mənbədir.

Tədqiqatçıların araşdırmalarından və xalq arasında dolaşan rəvayətlərdən görünür ki, aşığın ömür yolu keşməkeşli və çətin keçmişdir. Aşıq Ələsgər dastan yaratmayıb. Lakin özü də qeyd edir ki, mənim başıma gələn hadisə və rəvayətlərin hər biri bir dastandır. Oğlu Bəşirin Aşıq Ələsgərin xalası oğlu Molla Rəhimi təsadüf nəticəsində öldürməsi, Aşıq Ələsgərin məşhur şəyirdi Aşıq Nəcəfin ermənilər tərəfindən vəhşicəsinə qətl edilməsi – bunların hamısı ustad sənətkara mənəvi zərbə vurmuşdur.

Aşıqla bağlı dastan-rəvayətlər İslam Ələsgərin tərtib etdiyi "Aşıq Ələsgər. Əsərləri" kitabında "Dastan-rəvayətlər" başlığı altında verilib. Həmin dastan-rəvayətlər bunlardır: *"Ələsgərlə Səhnəbanı", "Aşıq Ələsgər Yanşaqda", "Aşıq Ələsgərlə Şəmkirli Aşıq Hüseynin görüşü", "Aşıq Ələsgərin Qarabağa toy səfəri", "Anaxanımın küsməyi", "Aşıq Ələsgərin Şınıq səfəri", "Aşıq Ələsgərlə Şair Nağı", "Aşıq Ələsgərlə Həcər xanım", "Aşıq Ələsgərlə Dəli Alı", "Bəşirin Molla Rəhimi vurması", "Qoca baxtım", "Dəyirmançı aşıq"* (2, 195).

Adını qeyd etdiklərimiz arasında xüsusən *"Bəşirin Molla Rəhimi vurması"* (2, 322) dastan-rəvayətindən danışaq. Bu rəvayətdəki məqamlar Aşıq Ələsgərin həyatında çox dərin iz buraxmışdır. Rəvayətdə qeyd olunur ki, bir gün Aşıq Ələsgər, qardaşı Xəlil, xalası oğlu Molla Rəhim və onun oğlu Mikayıl yol gedirmişlər. Bəşir yoldaşları ilə təzə aldığı tüfəngi yoxlamaq qərarına gəlir. O, uzaqdan, haradasa iki kilometr məsafədən atasıgilin yolla getdiyini görür və dostları ilə qərara gəlir ki, gülləni yoxlamaq üçün onların başının üstündən atsın, əgər səs onlara çatsa, deməli yaxşı silahdır. Bəşir nişan alıb atır, Abdulla adlı dostu Bəşirin qolundan çəkir ki, atma, birdən onlara dəyər. Silahın istiqaməti azca dəyişir, güllə düz Molla Rəhimin onurğasından dəyir. Rəhim yıxılır. O, yıxılan kimi Bəşir qışqırır ki, dədəmi vurdum! Xəlil kəndə xəbər verməyə qaçır, yolda Bəşirlə rastlaşır. Bəşir deyir, güllə Ələsgərə dəymiş olsa, özümü öldürəcəm. Amma

Xəlil yaralananın Molla Rəhim olduğunu deyir. Ondan sonra Bəşir atını minib qaçır, evə gəlmir. Molla Rəhim dərhal ölmür, bir neçə gün xəstə yatır, hətta Bəşiri bağışlayır. O qohumlarına, oğluna deyir ki, bu mənim qismətimdir, mənə görə küsülü qalsanız haqqımı halal etməyəcəm. Rəhimin gözünün qabağında oğulları Aşıq Ələsgərlə öpüşüb-görüşürlər. İki gündən sonra Molla Rəhim canını tapşırır. Ölənə yaxın Aşıq Ələsgərə deyir, mən sənin səsinə doyunca qulaq asa bilmədim mənə sazla oxu. Aşıq Ələsgər məşhur "Kəsildi" qoşmasını Molla Rəhimin qarşısında ağlaya-ağlaya söyləyir.

Aşıq Ələsgər aşıq ədəbiyyatımızda çoxsaylı yetirmələri ilə məktəb formalaşdırmış, gələcəyin el şairlərinə ciddi təsir göstərmişdir. Aşıq Ələsgər yaradıcılığının təsir izləri Balakən-Şəki bölgəsinin aşıqlarının şeiriyyətində də hiss edilir. Bölgənin görkəmli aşığı Molla Cüməylə Aşıq Ələsgərin ədəbi əlaqələri olmuşdur. Molla Cümənin Aşıq Ələsgərlə deyişməsi haqqında el arasında rəvayət geniş yayılıb. Bu görüş rəvayətə əsaslansa da maraqlı bir faktı demək yerinə düşərdi. Şəki rayonunun Aşağı Göynük kənd sakini Umarov Şərif Osman oğlunun (Molla Şərif) dilindən 1978-ci ildə Molla Cümənin nəticəsi Elman Əzizovun lentə yazdığı yazıda maraqlı məqamlar diqqətçəkicidir. Molla Şərifin dediyinə görə bu görüş 1878-ci ildə Gəncə qəzasında baş tutub. Görüş-deyişmədə Ələsgərin şagirdləri Aşıq Hüseynalı, Aşıq İsa, Aşıq Qiyas, Aşıq Paşa, Aşıq Sadıq, Aşıq Mikayıl iştirak edib. Molla Cümə Aşıq Ələsgərin və şəyirdlərinin yaşadığı ocağa gəlib çıxır. Əvvəlcə Molla Cüməni şəyirdləri yoxlamaq istəyir. Molla Cümə hazırcavablığı ilə onları pərt eləyir. Bu, Ələsgərin xoşuna gəlir. Aşıq Ələsgər soruşur ki, hardan gəlib hara gedirsən? Molla Cümə hamımızın bildiyi məşhur "Gəlirəm" qıfılbəndi söyləyir. Ələsgərin şəyirdləri qıfılbəndi aça bilmir, sazlarını Molla Cüməyə vermək istəyirlər, ancaq Molla Cümə götürmür. Deyir ki, mən bura saz yığmağa yox, söz öyrənməyə gəlmişəm. Aşıq Ələsgərlə Molla Cümə üç gün üç gecə deyişirlər. Onlar bir-birini bağlaya bilmir, sonda əl verib görüşüb, bir-birinin sazını öpüb qardaş kimi ayrılırlar. "Gəlirəm" rədifli bu təcnis qıfılbəndin açmasını Şərif Umarovun dilindən Molla Cümənin nəticəsi Elman Əzizov qeydə alıb.

Ağalar xəbər alsanız,
Bilin mən hardan gəlirəm.
Cəsədim od tutub yanır,
Çıxıban nardan gəlirəm.

- *Cəhənnəmdən, od-alovun içindən azad olmaq, qurtarmaq mənasında verilir.*

Mənsur təki müsəxxərdim,
Qurtarıb dardan gəlirəm.

- *Zəbt olunmuş, silah gücünə ələ keçirilmiş, alınmış, dara düşmüş mənasında.*

Bir şəhərə yolum düşdü,
Sultanı çıxmış başa da.
- *Qurani-Kərim nəzərdə tutulur.*

Qabağında əl bağlayıb,
Qalmış yüz on dörd paşa da.
- *Quranın 114 surəsi.*

Altı min iki yüz otuz doqquz,
Bayraq var yanaşada.
- *Quranda ayələr.*

Yetmiş yeddi min doqquz yüz otuz dörd qoşun
- *Quranda kəlmələrin sayı.*

Otuz qapıdan keçibən,
Mən o şəhərdən gəlirəm.
- *Quranda 30 güz (hissə).*

Bir qarıynan bir qoca,
Əyləşmişlər xanasında.
- *Gecə-gündüz.*

İyirmi dörd gəlin vardır,
Həm onların binasında.
- *Sutkanın 24 saatı.*

Hər gəlinin altmış uşaq
Düzülübdür sinəsinə.
- *Saatın 60 dəqiqəsi.*

On beş, on beş süd əmərlər.
- *1 saatın 60 dəqiqəsinin 4 on beş dəqiqələri.*

Dörd məmə var arasında.
- *Ayın 4 həftəsi.*

Bir əjdaha kəsdi yolum,
Gördüm on iki başı var.
*- İlin 12 ayı.*

Hər başında birdir ağzı
Ağzında otuz dişi var.
*- Ayın 30 günü.*

Hər kəllədə dörddür gözü.
*- İlin 4 fəsli.*

Qabağında yazılıbdır,
Üç yüz altmış yaşı var.
Qorxma deyib mərd yerişli,
Cəlil Cabbardan gəlirəm.
*- İlin 360 günü.*

Bir bəzircan seyrə çıxmış.
Doxsan doqquz qul dalınca
*- Doxsan doqquz dənəli təsbeh.*

Gündə beş vaxt iş işlərlər.
*- Gündə beş vaxt namaz.*

Ta İsrafil sur çalınca.
- *Qiyamət günü İsrafil mələyin sur çalması nəzərdə tutulur.*

Bir şah qırar öz qoşunun,
Təki özü tək qalınca
Arif olan bu suala,
Cavab verər kamalınca
Mən Cümədə xəvər çoxdur,
Gəzib diyardan gəlirəm.
- *Əzrayıl Mələk nəzərdə tutulur* (1, 519).

Bölgədə yaşayan Əliabad aşıqlarının son nümayəndəsi Aşıq Camalın şeirlərində Dədə Ələsgər yaradıcılığının təsiri və izləri açıq duyulur. Əliabad kəndinin sakinləri arasında belə rəvayət olunur ki, Aşıq Camal Molla Cüməyə ustadlıq da edib. Aşığın yaradıcılığında diqqəti çəkən məqam onun "Niyə döndü" şeiridir. Bu şeir Aşıq Ələsgərin məşhur "Üzün məndən niyə döndü" şeirinə nəzirə olaraq yazılıb. Maraq kəsb edəcəyi üçün aşığın şeirini olduğu kimi təqdim edirəm:

*Ay mənim nazlı dilbərim,*
*Üzün məndən niyə döndü?*
*Orta boylum, qələm qaşlım,*
*Üzün məndən niyə döndü?*

*Durna gözlüm, güldən göyçək,*
*Alnın üstü burma-birçək,*
*Sinən bağdır, açıb çiçək,*
*Üzün məndən niyə döndü.*

*Aşıq Camal yardan yaralı,*
*Sazı qəşəng, səsi məzəli,*
*Günahım nədir, nazlı yarı,*
*Üzün məndən niyə döndü* (5, 364).

Yerinə düşmüşkən qeyd etmək lazımdır ki, "Niyə döndü" gəraylısının başqa bir variantı da "Koroğlu" dastanında Koroğlunun dilindən Nigar xanıma xitabən deyilib.

Bölgədə yaşayıb yaratmış Muxaxlı Aşıq Ramazan, Qaxlı Aşıq Hüseyn, Əliabadlı Aşıq Hüseyn, Aşıq Camal və b. yaradıcılığında da Aşıq Ələsgərin böyük təsiri olmuşdur. Aşıq Ələsgər nəinki Göyçə aşıq mühitinin formalaşmasına, həmçinin respublikadakı digər aşıq mühitlərinə də ciddi təsir etmişdir. Bu baxımdan Aşıq Ələsgər yaradıcılığı Azərbaycan aşıq ədəbiyyatında bir məktəb kimi götürülə bilər.

Balakən-Şəki bölgəsinin ən nüfuzlu aşığı Varxiyanlı Aşıq Məhəmməd (1770-1860) olmuşdur. Varxiyanlı Məhəmməd M.P.Vaqifin Şuşada açdığı məktəbdə 2 il təhsil alıb. Professor Paşa Əfəndiyevin tədqiqatlarında onun 1770-1860-cı illərdə yaşadığı qeyd olunur. Varxiyanlı Aşıq Məhəmmədi 1860-cı ildə Gürcüstanın Səbətəli kəndində toy məclisində erməni aşığı Aşıq Donunu deyişmədə udduğu üçün ermənilər toydan sonra yeməyinə zəhər qataraq 2 şəyirdi ilə birgə öldürmüşlər.

Aşıq Ələsgərin yaradıcılığına bu azman aşığın böyük təsiri olmuşdur. Aşıq Ələsgər məşhur "Tellərin" şeirini Varxiyanlı Aşıq Məhəmmədin eyniadlı "Tellərin" gəraylısına nəzirə olaraq yazıb. Maraq kəsb edəcəyini nəzərə alaraq Aşıq Məhəmmədin "Tellərin" gəraylısını təqdim edirik. Aşıq Məhəmmədin bu gəraylısı Qara Namazovun "El çələngi" (xalq şeirindən seçmələr) kitabında öz əksini tapıb.

*Xəbər almaq ayıb olmaz,*
*Nədəndi qısa tellərin,*

*Yoxsa aşığın ölübdü?*
*Batıbdı yasa tellərin.*

*Uca dağlar ucası tək,*
*Şahmar ilan sucası tək,*
*Yaşılbaş əyricəsi tək,*
*Sənin də əsə tellərin.*

*Məhəmmədəm, yana-yana,*
*Yandı bağrım, döndü qana,*
*Çapar sala Gürcüstana,*
*Firəngi basa tellərin* (6, 250).

Beləliklə, Aşıq Ələsgərlə bağlı yaranan dastan-rəvayətlər böyük sənətkarın ömür yoluna, həyatı ilə bağlı maraqlı məqamlara işıq tutmaqda dəyərli qaynaq kimi təsbit edilə bilər. Bu dastan-rəvayətlər Aşıq Ələsgər sənətinin dərin sufi köklərə bağlı olduğundan xəbər verir.

## QAYNAQLAR


1. Azərbaycan folklor antologiyası. XVIII kitab. Şəki folkloru. Bakı, "Nurlan", 2008, 536 səh.
2. Aşıq Ələsgər. Əsərləri. Bakı. "Şərq-Qərb", 2004, 400 səh.
3. İslam Ələsgər. Ələsgər ocağı ilə bağlı yaradılmış dastan və rəvayətlər haqqında. Bakı, "Nurlan", 2007, 188 səh.
4. İslam Ələsgər. Haqq aşığı Ələsgər. Bakı, "Maarif", 1999
5. Region folklor antologiyası. (Qax, Zaqatala, Balakən rayonlarından toplanmış folklor örnəkləri). Bakı, "Elm və təhsil", 2018, 512 səh.
6. Qara Namazov. El çələngi.(xalq şeirindən seçmələr). Bakı, 2004, 398 səh.
7. Yaşar Qarayev. Göyçəyə gedən yol folklordan keçir. Azərbaycan folklor antologiyası. III kitab, Göyçə folkloru. Bakı, "Səda", 2000

# AZƏRBAYCAN AŞIQ ŞEİRİNİN İNGİLİS DİLİNƏ TƏRCÜMƏ PROBLEMLƏRİ (AŞIQ ƏLƏSGƏRİN ŞEİRLƏRİ ƏSASINDA)

# PROBLEMS OF TRANSLATION OF AZERBAIJANI ASHUG POEM INTO ENGLISH (BASED ON ASHUG ALASGAR'S POEMS)

# ПРОБЛЕМЫ ПЕРЕВОДА АЗЕРБАЙДЖАНСКОЙ АШУГСКОЙ ПОЭЗИИ НА АНГЛИЙСКИЙ ЯЗЫК (НА ОСНОВЕ СТИХОВ АШУГА АЛЕСКЕРА)

**Vəfa İBRAHİM**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*vefa-ibrahim@mail.ru*

**Summary**

The ozan-ashug art, which played a special role in the national culture of the Azerbaijani people, has carried different names throughout history and has passed a long, rich path of development. Since the 16th-18th centuries the art of ashug, representing all its great predecessors, has exceeded national boundaries and has spread among many people, they had also appeared ashugs singing in the Azerbaijani language. For centuries ashug masters enriched the genres of ashug poetry, creating rare word pearls in these samples.

Their lyrical meanings and human feelings attracted the attention of foreign researchers and translators, they also wanted to deliver the works of Azerbaijani masters to English-speaking readers.

One of the most studied issues in the English-language sources about Azerbaijani folklore is Azerbaijani ashug literature. Ashug Alasgar is also the most translated word master among Azerbaijani ashugs.

In the article the problems about the translation of a number of poems of Ashug Alasgar into the English language are studied, the translated poems are analyzed in details, the shortcomings of the translation of these poems into the English language are shown.

**Key words:** Ashug Alasgar, literature, folk, poem, translation, century, lyric

**Резюме**

Искусство озан-ашуга, сыгравшее особую роль в национальной культуре азербайджанского народа, на протяжении всей истории носило различные названия, прошло богатый и длительный путь развития. С XVI-XVIII веков ашугское искусство, представляющее всех его великих

предшественников, превзошло национальные ценности, распространилось также среди многих соседних народов, и у них появились ашуги, исполняющие и поющие на азербайджанском языке. На протяжении веков мастера обогащали образы ашугской поэзии, создавая в этих образах редкие жемчужины слова. Созданные ими лирические ценности, человеческие чувства привлекли внимание зарубежных исследователей и переводчиков, которые хотели донести произведения азербайджанских мастеров до англоязычных читателей.

Одним из наиболее изученных в англоязычных источниках вопросов, связанных с азербайджанским фольклором, является азербайджанская ашугская литература. Среди азербайджанских ашугов, гошмы (древнейшая форма азербайджанского силлабического стихосложения, одиннадцатисложник, применяемый главным образом в ашугской поэзии), которого являются самыми переводимыми на английский язык, является Ашуг Алескер.

В статье рассматриваются вопросы, связанные с переводом на английский язык ряда стихов Ашуга Алескера, анализируются по полустишиям, его переведенные стихи, указываются недостатки, допущенные при переводе этих стихов на английский язык.

**Ключевые слова:** Ашуг Алескер, литература, народ, поэзия, перевод, век, лирический

Azərbaycan ədəbiyyatının Avropada, ingilisdilli qaynaqlarda öyrənilməsi və tərcüməsi ilə bağlı bir sıra işlər görülsə də, eyni sözü Azərbaycan folklorunun, xüsusilə Azərbaycan aşıq ədəbiyyatının ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı demək çətindir. Doğrudur, Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsinə dair də bir sıra araşdırmalar yazılmışdır. Ancaq Azərbaycan folklorunun ingilis dilinə tərcümə məsələləri və onun ingilisdilli qaynaqlarda öyrənilməsi yetərincə tədqiq edilməmişdir. Hər şeydən öncə onu deməliyik ki, Azərbaycan uzun illər ərzində müstəqil dövlət olmadığına görə, Azərbaycan folklorunu da müstəqil ədəbi fakt kimi ingilisdilli oxucuya çatdırmaq mümkün olmamışdır. İndiyədək Azərbaycan folkloru ingilis dilinə sistemli şəkildə tərcümə edilməmişdir. Təbiidir ki, ingilisdilli araşdırıcılar Azərbaycan folklorunu az tanımış və az tədqiq etmişdir. İngilisdilli elmi qaynaqlarda Azərbaycan folkloru daha çox ümumtürk folklorunun tərkib hissəsi kimi öyrənilmişdir. İngilis alimləri bütövlükdə türk folklorundan danışarkən, yeri gəldikcə Azərbaycan folkloruna da toxunmuşlar. Azərbaycan folklorunun ingilis dilinə tərcüməsi ilə bağlı da eyni sözləri söyləmək olar. Bir məsələni də qeyd edək ki, indiyədək Azərbaycan folklor nümunələrinin

ingilis dilinə orijinaldan tərcümə olunmuş nümunələrinin sayı olduqca azdır. Tərcümə olunmuş nümunələr öncə rus dilinə çevrilmiş, daha sonra isə ingilis dilinə tərcümə edilmişdir.

Azərbaycan folkloru ilə bağlı ingilisdilli qaynaqlarda ən çox öyrənilən məsələlərdən biri Azərbaycan aşıq ədəbiyyatıdır. Alimlər bu ədəbiyyatın ayrı-ayrı problemləri ilə bağlı məqalələr yazmış, tərcüməçilər isə Aşıq Qurbani, Xəstə Qasım, Aşıq Abbas Tufarqanlı, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Aşıq Hüseyn Cavan kimi Azərbaycan aşıqlarının şeirlərini ingilis dilinə tərcümə etmişlər.

Azərbaycan aşıqları içərisində qoşmaları ingilis dilinə ən çox tərcümə olunmuş sənətkar da Aşıq Ələsgərdir. Belə ki, 1972-ci ildə Aşıq Ələsgərin 25 şeiri İrina Jeleznova tərəfindən ingilis dilinə tərcümə olunmuşdur (4). Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirləri ayrıca kitab şəklində çap edilmişdir. Tərcüməçi Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirlər kitabına qısa bir ön söz də yazmışdır. Aşıq Ələsgər bütün yaradıcılığında sosial ədaləti müdafiə etmiş, haqsızlığa qarşı olmuşdur. Aşıq Ələsgər özündən sonra zəngin bir irs qoyub getmişdir. Ön sözün sonunda müəllif yazır: "Ələsgərin adı Azərbaycan xəzinəsini sevənlərin ürəyində əbədi yaşayacaq". Aşıq Ələsgərin "Öldürür" ("She is killing me"), "Düşərsən" ("In trouble you will get"), "Gərəkdi" ("You must have"), "Çıxıbdı" ("The wicked world") şeirləri isə Dorian Rottenberq tərəfindən ingilis dilinə tərcümə olunmuşdur (6, 628-629).

Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş qoşmalarından "Öldürür" qoşmasını ingilis dilinə Dorian Rottenberq tərcümə etmişdir. Qoşma Aşıq Ələsgərin sevgi lirikasından bir nümunədir. Aşıq bu qoşmada sevgisini, incə duyğularını poetik bir biçimdə ifadə etmişdir. Üç bəndlik bu qoşmada Aşıq Ələsgər Azərbaycan dilinin bədii imkanlarından ustalıqla yararlanmışdır. Qoşmanın birinci bəndinin birinci misrasında Aşıq Ələsgər "həzərat" sözü işlədib, tərcüməçi bu sözü "mənim dostlarım" ("my friends") kimi tərcümə edib. Dorian Rottenberq aşığın dərdinin çox olduğu fikrini "o woe is me" ("dərd mənimdir") kimi, "dindirməyin" sözünü isə "and question not" ("sual olmasın") kimi tərcümə etmişdir. Bu bəndin ikinci misrasındakı "ceyran" sözünü tərcümə edərkən Dorian Rottenberq "ceyran"ı "dişi maral" ("doe") sözü ilə əvəz etmiş, "alagöz" sözünü isə "gözəl" ("beauteous") kimi çevirmişdir. Bu misranın ingilis dilinə tərcüməsi belə səslənir: "Tanıdığım (bildiyim) bir dişi maral məni öldürür". Poetik tərcümə üçün bunları məqbul hesab etmək olar. Tərcüməçi bu bəndin üçüncü və dördüncü misralarının

məzmununu bir yerdə tərcümə etməyə çalışıb. O, bu zaman "can almaq", "pünhan-pünhan öldürmək" birləşmələrini mətndən çıxarıb, həmin anlayışları birləşdirərək "öldürmək" kimi verib. Bu iki misranın ingilis dilinə tərcüməsi belə səslənir: "Heç kim bilmir ki, o məni qılıncsız, tüfəngsiz öldürür". Qoşmanın ikinci bəndinin tərcüməsində müəyyən qüsurlar var. Belə ki, bu bəndin birinci misrasında aşıq keçmişdə nə etdiyini, indi nə etmək lazım olduğunu özündən soruşur, tərcüməçi isə bu misranı aşığın, ümumiyyətlə, nə etmiş olduğunu bilmək istəməsi kimi təqdim edir. Tərcüməçi bu bəndin ikinci misrasını demək olar ki, mətndən çıxarmışdır. Belə ki, qoşmanın ikinci bəndinin bu misrası "xəncər alım, qara barım teyləyim". Tərcüməçi isə bu misranı birinci misra ilə əlaqələndirərək "that she my very company should shun" kimi tərcümə etmişdir. Bu misra ingilis dilində belə səslənir: "Mən nə etmişəm ki, mənim çox yaxın dostum məndən qaçır". Tərcüməçi bu bəndin üçüncü və dördüncü misralarını birləşdirərək ümumi məzmunu verməyə çalışıb. Ancaq bu misraların tərcüməsində də qüsurlar var. Belə ki, Aşıq Ələsgər canını yara qurban etmək istədiyini bildirir və bu istəyini "qurban kəsmək" anlayışı ilə əlaqələndirir. Tərcüməçi isə aşığın bu sədaqətini göstərən misralardakı məzmununu yanlış təqdim edir. Tərcüməyə görə, aşıq tək canını sevgilisinə qurban verməyə hazırdır, ancaq bundan öncə bilmək istəyir ki, niyə sevgilisi onu öldürür.

Qoşmanın sonuncu bəndinin tərcüməsində Dorian Rottenberq bu bənddə ifadə olunmuş ümumi məzmunu çatdırmağa səy göstərib. Bəndin birinci misrasında tərcüməçi "bir gözəl" birləşməsinin tərcüməsindən imtina edərək, bu mənanı mətnin içərisində çatdırmağa çalışıb. Bunun üçün Dorian Rottenberq həmin misranın tərcüməsini aşağıdakı kimi təqdim edib: "I Alesker, have visited the same" ("Mən Ələsgər həmin (gözəli) ziyarət etmişəm"). Bəndin ikinci misrasında Aşıq Ələsgər ölənədək sevgisindən dönməyəcəyini, usanmayacağını bildirir. Tərcüməçi bu misradakı "çətin dönmək" ifadəsini və "usanmaq" sözünü "I hardly can refrain" ("çətin ki, mən özümü saxlayım") kimi tərcümə etmişdir. Bizcə, belə tərcümə elə də uğurlu deyil. Çünki burada misranın bədiiliyi bir yana dursun, konkret nədən söhbət getdiyi də bəlli deyil. Bəndin üçüncü misrasında tərcüməçi "əzrail" anlayışını "death's bright angel" (ölümün parlaq mələyi") kimi verilmişdir. Bu misrada işlənən "qanlı tutmaq" anlayışını isə müəllif fərqli biçimdə tərcümə etmişdir. Belə ki, Azərbaycan dilində "qanlı tutmaq" ifadəsi bir qayda olaraq "günahkar bilmək" anlamında işlədilir. Aşıq Ələsgər bu

birləşməni işlətməklə onun ölümündə əzrailin günahkar olmadığını anasına çatdırmaq istəyir. Dorian Rottenberq bu mənanı "don't blame" ("ittiham etmə") kimi təqdim etmişdir. Bəndin sonuncu misrasında Aşıq Ələsgər sevgilisini "bir kirpiyi peykan" adlandırır və ölümünün səbəbi olaraq onu göstərir. Dorian Rottenberq misranın məzmununu saxlayaraq "kirpiyi peykan" anlayışını "her piercing glance" ("onun iti baxışı") kimi tərcümə etmişdir.

Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirlərindən biri də "Sənə qurban" adlanır. Bu qoşmanı ingilis dilinə İrina Jeleznova tərcümə edib. Aşığın bu şeiri lirik məzmunludur. Aşıq bu qoşmada sevgilisinə olan incə duyğularını bədii təsvir və ifadə vasitələri ilə zəngin bir dillə ifadə edib. Aşıq Ələsgər bu qoşmada xalq ədəbiyyatının üslubuna uyğun söz və ifadələr işlətdiyi kimi, klassik ədəbiyyatın ənənəvi obrazlarından da yararlanmışdır. Öncə onu deməliyik ki, tərcüməçi İrina Jeleznova qoşmanın birinci bəndinin birinci misrasını ("Bir sözüm var, sənə pünhan deməli") tərcümədə qoşmanın adı kimi verib ("A word must in secret to you I impart").

Tərcümədə diqqəti çəkən başqa bir əlamət də odur ki, İrina Jeleznova bütün qoşma boyu "sənə qurban" birləşməsini "beloved" ("sevimli", "əzizim") kimi tərcümə edib. Bilindiyi kimi, Azərbaycan dilində, o sıradan Azərbaycan şifahi xalq ədəbiyyatında "sənə qurban", "qurban olum", "qurban kəsmək", "canı qurban demək" və s. kimi deyimlər çox işlənir. Bu birləşmələr qarşı tərəfə olan sonsuz sevgini göstərir. Təbii ki, bu birləşmənin ortaya çıxmasının dini əsası da var. İngilis dilində olan "beloved" ("sevimli", "əzizim") sözü də "qurban olmaq" anlayışını tam olmasa da, dolayısı ilə ifadə etmək gücündədir. Tərcüməçi qoşmanın birinci bəndinin birinci misrasını olduğu kimi sözbəsöz ingilis dilinə tərcümə etmişdir. Bu bəndin ikinci misrasında aşıq öz sevgilisinə gizli sözü anlamağa qail olmaq şərti ilə demək istədiyini bildirir. Tərcüməçi bu anlayışı bir qədər fərqli təqdim etmişdir. Belə ki, bu misranın ingilis dilində tərcüməsi belə səslənir: "Bunu eşitməyə etinasızlıq etmə, əzizim". Tərcüməçi bu bəndin üçüncü və dördüncü misrasını birləşdirmiş, "nə müddətdi həsrətini çəkirəm" misrasını mətndən çıxarmış, onun yerinə aşağıdakı məzmunu vermişdir: "Sənə, yalnız sənə mən öz ürəyimi aça və dərdlərimi söyləyə bilərəm, əzizim". Qoşmanın ikinci bəndində Aşıq Ələsgər sevgidən dəli olduğunu, bu sevginin onu el içində gözdən saldığını bildirir. Tərcüməçi birinci misranı bir qədər fərqli tərcümə etmişdir. Belə ki, aşıq bu misrada onun sevgidən dəli

olduğunu hər mahalın bildiyini göstərib, tərcüməçi isə bu misranı "mən məftunluqdan dəli olduğumu qəbul etdim" kimi tərcümə edib. Bu misrada tərcüməçi "cünün olmaq" anlayışını "məftunluqdan dəli olmaq" kimi tərcümə edib. Tərcüməçi birinci misradakı "mahal" sözünü tərcümədə ikinci misraya keçirərək "there" ("orada") kimi vermişdir. İrina Jeleznova ikinci misradakı "dərd məni söylətdi" birləşməsini mətndən çıxarmış, "düşmən" sözünü isə "mənə gülən adamlar" kimi tərcümə etmişdir. Qoşmanın bu bəndinin üçüncü misrası tərcümədə dördüncü misra yerində bir qədər fərqli mənada verilmişdir. Belə ki, aşıq bu misrada vəfasız qızlardan əlinin üzüldüyünü bildirir, tərcüməçi isə misranı "şən gənc qızlara nifrət etdim, əzizim" kimi təqdim edir. Bu bəndin dördüncü misrası da fərqli bir biçimdə tərcümə edilmişdir. Tərcüməçi "sənə canımı qurban eylərəm" fikrini "mən səni sevdim" kimi vermiş, bundan əlavə "dul" sözünü "dul və tənha" kimi ifadə etmişdir. Bununla yanaşı, tərcümədə aşığın sevgilisini ilk baxışdan sevdiyi də bildirilir. Qoşmanın üçüncü bəndinin tərcüməsində də bir sıra fərqlər var. Tərcüməçi bu bəndin üçüncü və dördüncü misralarını birinci və ikinci misra kimi tərcümə etmişdir. Qoşmanın üçüncü misrasında aşıq özünü Məcnunla, sevgilisini isə Leyli ilə müqayisə edir. Bu iki misranın ingilis dilinə tərcüməsi belə səslənir: "Əgər sən məndən istəsə, Leylini bir il gözləyən Məcnun kimi mən də səni bir il gözləyərəm". Göründüyü kimi, tərcümədə misraların bədiiliyinin çox zəif verilməsi bir yana dursun, məna yanlışlıqları da var. Bu bəndin birinci və ikinci misrasının tərcüməsində də qüsurlar özünü göstərir. Həmin misralar orijinalda belədir: "Ələsgəri gözdən qoyma irağa, Könül tab gətirməz dərdi-fərağa" (2, 130). Tərcüməçi aşığın adını mətndən çıxarmış, birinci və ikinci misrada ifadə olunmuş mənanı fərqli bir biçimdə vermişdir. Bu iki misranın ingilis dilində tərcüməsi belə səslənir: "Mənim ümidimi oğurlama, ümidsiz yalvarışımı eşit və mənimlə görüşməyə söz ver, əzizim".

Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirlərindən biri də "Getmə göz önündən, ay Şəkər xanım!" adlanır. Bu qoşma da öncəki iki qoşma kimi məhəbbət mövzusundadır. Aşıq bu qoşmada Şəkər adlı gözəli tərənnüm edir, onu "gözəllər sultanı", "mələklər xanı" adlandıraraq, bədii bir dillə və incə bir üslubla tərifləyir. Aşıq bu qoşmada Şəkər adlı gözəli tərənnüm edir, onu "gözəllər sultanı", "mələklər xanı" adlandıraraq, bədii bir dillə və incə bir üslubla tərifləyir. Aşıq Ələsgərin bu qoşmasını ingilis dilinə İrina Jeleznova tərcümə edib (4). Qoşmanın birinci bəndinin tərcüməsində görünən ilk

qüsur odur ki, Aşıq Ələsgər qoşma boyu özü ilə Şəkər xanım arasında olan münasibəti açıqlayır, tərcüməçi isə üçüncü bir şəxsi də iştirakçı kimi mətnə daxil edib. Tərcümədə sevən, sevilən və aşıq obrazı var. Tərcüməçi bu bəndin mətnində olan "xanım" sözünü "sweet mistress mine" ("mənim şirin sevgilim") kimi tərcümə etmişdir. Bundan başqa tərcüməçi "göz önündən getməmək" anlayışını da "tərk etməmək" kimi vermişdir. Birinci bəndin ikinci misrasında aşıq könlünün qələm qaşlı Şəkərə mayıl olduğunu bildirir. Bilindiyi kimi, gözəlin qaşının qələmə bənzədilməsi Azərbaycan şifahi ədəbiyyatında bir ənənədir. Bu bənzətmə qadın gözəlliyinin ölçülərindən biri kimi təqdim olunur. Tərcüməçi bu misranı tərcümə edərkən mətnin orijinalından fərqli olaraq sevgilinin bütün gözəlliyindən danışır. Bu misrada olan "mayıl olmaq" anlayışını o, "gaze" kimi tərcümə edib. Bilindiyi kimi, ingilis dilində bu söz "istək", "arzu" kimi işlədilir. Bütövlükdə bu misranın məzmunu da orijinaldan xeyli fərqlənir. Bu misranın ingilis dilinə tərcüməsi belə səslənir: "Mənim istəyim sənin gözəlliyinə qəmli-qəmli baxmaqdır". Qoşmanın üçüncü misrasında tərcüməçi "aşıq" sözünü tərcümə etməyə çalışıb. Bunun üçün "bard" sözündən istifadə edib. Bu sözün ingilis dilində dəqiq tərcüməsi belədir: "şeir yazan adam" (3, 86). Bizcə, "aşıq" sözünü "bard" kimi vermək o qədər də doru deyil. "Aşıq" sözünü tərcümədə olduğu kimi saxlamaq daha düzgün olardı, çünki ingilis mədəniyyətində aşıq anlayışı yoxdur. Qoşmanın üçüncü misrasında olan "sən mənim canım" birləşməsi "sweet-mistress mine" ("mənim şirin sevgilim") kimi tərcümə edilmişdir ki, bununla razılaşmaq olar. Bu bəndin tərcüməsində mədəniyyətlərin fərqindən doğan başqa bir yanlışlıq da odur ki, tərcüməçi aşığın mahnılarını "ballada" kimi tərcümə etmişdir. Bilindiyi kimi, aşıq ədəbiyyatının şeir şəkilləri sırasında "ballada" yoxdur. Tərcüməçi birinci bəndin üçüncü və dördüncü misralarını birləşdirərək onların məzmununu yanlış tərcümə etmişdir. Bu misraların tərcüməsi ingilis dilində belə səslənir: "Mənim şirin sevgilim, aşıq sənin üçün çalacaq, sənin üçün öz mahnılarını və balladalarını oxuyacaq". Qoşmanın ikinci bəndinin tərcüməsində də bir sıra yanlışlıqlar var. Belə ki, Aşıq Ələsgər bu bəndin birinci misrasında "aşıq" olmağın əsas ölçülərindən birinə işarə edib. Aşıq Ələsgərə görə, aşıq olan insan hər zaman doğru danışmalıdır və heç bir qadağa onu doğru danışmaqdan çəkindirə bilməz. Tərcüməçi bu misranı orijinala yaxın bir mənada çevirməyə çalışıb. Bu misranın ingilis dilində tərcüməsi belə səslənir: "Mən ürəkdən danışıram və mənim yolum

ancaq budur". Bu bəndin ikinci misrasının tərcüməsi isə bütövlükdə yanlışdır. Aşıq bu misrada Allaha inamını ifadə edərək bildirir ki, o, uca Tanrının zülmünə də razıdır və Ona şükür edir. Bu misranın ingilis dilinə tərcümə olunmuş variantında isə aşığın sevgilisinə olan münasibətindən danışılır. Misranın tərcüməsi ingilis dilində belə səslənir: "Sənin baxışından mənim ürəyim şadlıqla dolur". Bu bəndin üçüncü misrasının tərcüməsi demək olar ki, orijinala uyğundur. Tərcüməçi misranın orijinalında olan "sənin kimi gözəl keçməz əlimə" anlayışını "harda axtarsam da, sənin bərabərini tapa bilməyəcəyəm" kimi verib. Qoşmanın bu bəndinin dördüncü misrası da orijinala uyğun tərcümə olunmayıb. Belə ki, Aşıq Ələsgər bəndin üçüncü və dördüncü misralarında bir məna ifadə edib. Tərcüməçi isə bu misraları bir-birindən ayırmış və fərqli məzmun vermişdir. Bu bəndin sonuncu misrasının ingilis dilinə tərcüməsi belə səslənir: "Sevgilim, sən nə etsən də, mən sevinəcəyəm". Qoşmanın bu bəndinin üçüncü və dördüncü misralarının tərcüməsi də ümumi sözlərlə verilib. Təbii ki, "can qurtarmaq", "vay xəbərini qohum-qardaşa göndərmək" anlayışları birbaşa azərbaycanlı düşüncəsi ilə bağlıdır. Ona görə də, bu anlayışları ingilisdilli oxucuya çatdırmaq çətindir. Tərcüməçi daha çox, Ələsgərin bir qurban olduğu anlayışını önə çəkir və bu taleyin qaçılmaz olduğunu bildirir. İrina Jeleznova sonuncu iki misranı da birləşdirərək aşağıdakı kimi tərcümə etmişdir: "Mən sənin qurbanınam, başqa heç nə lazım deyil. Ancaq sən məni öldürəcəksən, bilirəm ki, bunu edəcəksən". Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirlərinin bir neçəsinin ictimai məzmunu var. Aşıq bu şeirlərdə doğruluğu, ədaləti, dostluğu, yaxşılıq etməyi, insan xarakterini zəiflədən xüsusiyyətlərdən əl çəkməyi və gözəl əxlaqı təbliğ və tərənnüm edir. Aşıq Ələsgərin belə şeirlərində nəsihət ruhu güclüdür. Bu şeirlər bir növ ustadnamələrdir.

Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirlərindən biri "Düşərsən" adlanır. Qoşmanı ingilis dilinə Dorian Rottenberq tərcümə etmişdir (6, 629). Tərcüməçi qoşmanın adını ingilis dilinə "Bəlaya düçar olarsan" ("In trouble you will get") kimi tərcümə edib. Dorian Rottenberq bu adı seçərkən qoşmanın ümumi məzmununu nəzərə alıb. Bizcə, bu cür tərcümə qoşmanın bütövlükdə məzmununu ifadə edir. Qoşmanın birinci bəndinin tərcüməsində Dorian Rottenberq mümkün qədər orijinala sadiq qalmağa çalışıb. Tərcüməçi birinci misradakı "ustadam demə" birləşməsini "do not say you perfect are" ("demə ki, kaviləm") kimi tərcümə etmişdir. İkinci misrada isə "vaxt olar"

birləşməsi ingilis dilində "şans olar" ("there is a chance") kimi verilmişdir. Tərcüməçi ikinci misradakı "dara düşmək" anlayışını ingilisdilli oxucuya çatdırmaq üçün bu birləşməni "bəlaya düçar olarsan" ("in trouble you will get") kimi vermişdir. Dorian Rottenberq üçüncü misradakı "tülək" sözünü "a mote" ("toz", "toz dənəsi") kimi tərcümə etmişdir. Bizcə, bu doğru deyil. Tərcüməçi bu misradakı "çolpa balasan" birləşməsini "you still a baby are" ("sən hələ də körpəsən") kimi mənalandırmışdır ki, bu da misranın məzmununa uyğundur. Dorian Rottenberq bu bəndin sonuncu misrasındakı "sərgərdan qalmaq" ifadəsini "you'll lose your head" ("sən başını itirəcəksən") kimi vermişdir. Burada tərcümə ilə orijinaldakı məna arasında uyğunluq var. Dorian Rottenberq bu misradakı "tora düşmək" anlayışını da "in trouble you will get" ("sən bəlaya düçar olacaqsan") kimi çevirmişdir. Tərcüməçi göstərilən anlayışı bu cür çevirməklə bir yandan qoşmanın poetik quruluşunu əsas götürmüş, başqa yöndən isə qoşmanın ümumi məzmununa uyğun bir məna verməyə çalışmışdır. Qoşmanın ikinci bəndində Aşıq Ələsgər nəsihət ruhunu saxlamaqda davam edir, rəqibinə hədə-qorxu gəlir, onu gördüyü işin ağır nəticələri ilə hədələyir. Dorian Rottenberq qoşmanın ikinci bəndini tərcümə edərkən də orijinalla tərcümə arasındakı uyğunluğu qoruyub saxlamağa çalışıb. O, bu bəndin birinci misrasını demək olar ki, olduğu kimi tərcümə etmişdir. Dorian Rottenberq birinci misradakı "çıxasan başa" birləşməsini tərcümə edərkən düzgün bir yol seçmişdir. Ona görə ki, Aşıq Ələsgər bu anlayışı insanın yüksəlməsi, ucalması mənasında işlətmişdir. Aşıq bu cür ucalmağın şərti kimi "alçaqda dayanmaq", yəni "təvazökar olmaq" şərtini irəli sürmüşdür. Tərcüməçi "çıxasan başa" birləşməsini "if you would reach the height" ("yüksəkliyə çatmaq") kimi vermişdir. Bu misranın ingilis dilində tərcüməsi belə səslənir: "Əgər yüksəkliyə çatmaq istəyirsənsə, aşağıdan başla". Dorian Rottenberq ikinci misrada "aslan" sözünün "ayı" ("bear") sözü ilə əvəz etmişdir. Bunun səbəbi isə aydın deyil. Tərcüməçi üçüncü və dördüncü misranın məzmununu birləşdirərək ingilis dilinə çevirmişdir. Bu misraların tərcüməsində gözə çarpan əlamət odur ki, Dorian Rottenberq tərcümədə bir qədər sərbəst davranmışdır. Başqa yöndən isə "zora düşmək" anlayışını da qoşmanın sisteminə uyğun olaraq "bəlaya düçar olarsan" ("in trouble you will get") kimi çevirmişdir. Bu iki misranın ingilis dilində tərcüməsi belə səslənir: "Yüngül olduğunu düşündüyün daşı qaldırma, əgər bacarmasan, bəlaya düçar olarsan". Qoşmanın üçüncü bəndində Aşıq Ələsgər hədə tonunu

yüksəldir, nadanı inandırmaq üçün daha sərt sözlər seçir. Onu alçaldır və inandırmağa çalışır ki, əgər nahaq yolla getsə, o məğlub olacaq. Dorian Rottenberq bu bəndi tərcümə edərkən öncəki bəndlərin tərcüməsindən fərqli olaraq daha sərbəst hərəkət edib. Belə ki, o, bu bəndin birinci misrasında olan "Nağıya ərkinaz satmaq" fikrini bütövlükdə mətndən çıxararaq bunun yerinə başqa bir anlayış verib. Tərcüməçi bu misranı ingilis dilində belə səsləndirib: "Qürurlanma və burnunu dik tutma" ("Do not be proud and do not raise your nose"). Tərcüməçi ikinci misraya da bir qədər fərqli məna verib. Belə ki, Dorian Rottenberq "zimistan" (qış), "yaz" sözlərini mətndən çıxarıb. O, bu misranı aşağıdakı kimi tərcümə edib: "Sən bilmirsən ki, külək indi haradan əsir" ("You do not know which way the wind now bellows"). Tərcüməçi bu bəndin üçüncü misrasından da "saz almaq" anlayışını çıxarıb. Bununla da misranın məzmunu ciddi təhrifə məruz qalıb. Belə ki, aşıq deyişmələrində sazın əldən alınması ağır bir məğlubiyyət sayılır. Aşıq Ələsgər də rəqibini hədələdiyi üçün onu bu ağır aqibətlə qorxudur. Dorian Rottenberq misranı tərcümə edərkən onun məzmununu bütövlükdə "libasın soyunulması" anlayışı üzərində qurub. Bu misranın tərcüməsi ingilis dilində belə səslənir: "Mən sənin səliqəsiz paltarlarını soyundura bilərəm" ("For I may strip you of your gaudy clothes"). Bəndin sonuncu misrasında Aşıq Ələsgər hədə-qorxularını tamamlayaraq rəqibini yal-quyruğu yoluq ata bənzədir. Dorian Rottenberq bu misranı tərcümə edərkən "yal-quyruğu yoluq" anlayışını "qısa dartılmış quyruq" kimi tərcümə edib. O, şeirin poetik quruluşuna uyğun olaraq "yola düşmək" frazeoloji birləşməsini də "bəlaya düçar olarsan" ("in trouble you will get") kimi çevirib. Qoşmanın dördüncü bəndinin tərcüməsində də bir sıra özünəməxsus xüsusiyyətlər var. Belə ki, Dorian Rottenberq birinci misranın tərcüməsini verərkən bir sıra təkrarlara yol vermişdir. Birinci misrada "your" ("sənin"), "tongue" ("dil") sözləri iki dəfə təkrar olmuşdur və bu da misranın dilini ağırlaşdırmışdır. Qoşmanın bu bəndinin ikinci misrasında Aşıq Ələsgər özünün "odlu çağı" olduğunu bildirir və ona görə də onunla ehtiyatlı davranmağı tövsiyə edir. Dorian Rottenberq bəndin ikinci və üçüncü misralarını birləşdirərək fərqli bir məna təqdim etmişdir. Bu iki misranın tərcüməsi ingilis dilində belə səslənir: "Ələsgər beləsini əvvəllər çox görüb və indi öz əlləri ilə səni xəmirdə youracaq". Göründüyü kimi, tərcüməçi bu bəndin üçüncü misrasını ("Çalar caynağına səni, dağıdı") bütövlükdə tərcümə mətnindən çıxarıb. Dorian Rottenberq dördüncü misradakı "parça-parça düşmək"

birləşməsini öncəki bəndlərdə olduğu kimi, qoşmanın ümumi poetik quruluşuna uyğun olaraq "bəlaya düçar olarsan" ("in trouble you will get") kimi tərcümə etmişdir.

Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş ictimai məzmunlu qoşmalarından biri də "Çıxıbdı" adlanır. Bu qoşmada Ələsgər ictimai ədalətsizliyi tənqid edir, cəmiyyətdə baş verən haqsızlıqları göstərir, xalqın vəziyyətinin günü-gündən ağırlaşdığını söyləyir. Aşıq bu qoşmasında məsələlərə münasibət bildirərkən o dövrün bir sıra dini, milli terminlərindən geniş surətdə istifadə etmişdir. Bu qoşmanı ingilis dilinə məzmunlu Dorian Rottenberq tərcümə etmişdir (6, 627). Tərcüməçi qoşmanın adını "Yaman (pis) dünya" kimi çevirmişdir. Bizcə, bu ad qoşmanın ümumi məzmununa uyğun olduğu üçün uğurlu sayıla bilər. Dorian Rottenberq qoşmanın birinci bəndindəki "həzərat" sözünü "friends" ("dostlar") kimi vermişdir. O, misradakı xitab anlayışını yaratmaq üçün "O listen" ("Qulaq asın!") ifadəsindən istifadə etmişdir. Dorian Rottenberq "söyləmək" feilini ingilis dilinə tərcümə edərkən "to reveal" ("aşkar etmək", "açıb demək") felindən yararlanmışdır. Bilindiyi kimi, ingilis dilində "to reveal" feilindən daha çox sirli bir şeyi, mühüm bir məsələni danışmaq anında istifadə edilir. Tərcüməçi də misranın məzmununa uyğun olaraq Aşıq Ələsgərin önəmli bir xəbəri çatdırmaq istəyini qabartmaq üçün bu feildən istifadə edib. Aşıq Ələsgər bu bəndin ikinci misrasında keçmiş dövrün xəyanətindən danışıb, tərcüməçi isə bu misranı bir qədər fərqli ifadə edib. Onun tərcüməsinə görə, "dünya ikiüzlülüyün dadını verir". Bu bəndin tərcüməsində maraqlı cəhətlərdən biri də üçüncü misranın tərcüməsində özünü göstərir. Belə ki, tərcüməçi bu misranı ingilis dilinə çevirərkən "insaf" sözünü "mərhəmət" ("mercy") kimi, "mürvət" sözünü isə "ədalət" ("justice") kimi çevirib. Bütövlükdə bu cür tərcümə misranın məzmununu əhatə edir. Bu bəndin dördüncü misrasının tərcüməsində Dorian Rottenberq "Qazi" sözünü tərcümədə olduğu kimi saxlayıb və sonda bu sözlə bağlı şərh yazıb. Tərcüməçi "mazarrat" sözünü "fırıldaqçı" ("a quack") kimi verib. Qoşmanın ikinci bəndinin tərcüməsi isə orijinaldan xeyli fərqlənir. Belə ki, qoşmanın bu bəndinin birinci misrasında aşıq kasıb insanların güzəranının çox ağır olduğu fikrini ifadə edib. Bu misradakı "sərt ayaz" birləşməsini tərcüməçi "Cold winds of evil" ("şeytanın soyuq küləyi") kimi verib. O, "sərt ayazın əlləri aparması" birləşməsini isə "şeytanın soyuq küləyi bizimlə oynayır" kimi tərcümə edib. Aşıq Ələsgərin bu bəndin ikinci misrasında olan

"ruzinin günü-gündən azalması" fikrini tərcüməçi "həyatın getdikcə çətinləşməsi" kimi çevirmişdir. Bu bəndin üçüncü və dördüncü misralarını tərcümə edən Dorian Rottenberq "molla", "axund", "məşədi", "kərbəlayı" sözlərini olduğu kimi saxlamışdır. O, bu şəxslərin şeytan olduğu fikrini onların satqın olması kimi tərcümə etmişdir. Dorian Rottenberq sonuncu misradakı "lotu çıxmaq" birləşməsini bir qədər fərqli tərcümə etmişdir. O, bu mənanı ingilis dilində vermək üçün tam bir misradan istifadə etmişdir. Onun tərcüməsində bu misra belə səslənir: "Bütün məşədilərin ruhu qaradır". Qoşmanın üçüncü bəndinin tərcüməsində də bir sıra maraqlı məsələlər var. Dorian Rottenberq bu bəndin birinci misrasındakı "qoçular", "quldurlar" sözlərini "atamanlar və banditlər" kimi tərcümə etmişdir. O, "qoçuların, quldurların qatar taxması" birləşməsindəki "qatar taxmaq" ifadəsini "all advance" ("onların yüksəlməsi") kimi çevirmişdir. Tərcüməçi ikinci misradakı "fağır-füğara" sözünü "poor and helpless" ("kasıb və köməksiz") sözləri ilə tərcümə etmiş, bu misradakı "yan-yan baxmaq" birləşməsini isə "to look askance" ("şübhə ilə baxmaq") kimi vermişdir. Tərcüməçi qoçuların, quldurların özbaşınalığını göstərən üçüncü misranı tərcümə edərkən aşağıdakı mənanı ingilisdilli oxucuya çatdırmışdır: "Onlar imkan olan kimi onları (kasıb və köməksizləri) sadəcə öldürürlər". Tərcüməçi sonuncu misrada silah növlərindən biri olan "beşatılan"ın adını mətndən çıxarmış, bu sözü "silah" sözü ilə vermişdir. Bu misrada tərcüməçi "onların silah səslərinin eşidildiyi" fikrini oxucuya çatdırıb. Qoşmanın dördüncü bəndinin tərcüməsi də orijinallığı ilə seçilir. Dorian Rottenberq bu bəndin birinci misrasındakı "pristav", "naçalnik" sözlərini "police" ("polis"), "overseer" ("nəzarətçi") kimi tərcümə etmişdir. O, ikinci misradakı "oba", "oymaq" sözlərini "villages" ("kəndlər") kimi, bu misradakı "bəndə vurmaq" birləşməsini isə "one hears a moan" ("ancaq inilti eşidilir") kimi tərcümə etmişdir. Dorian Rottenberq üçüncü misradakı "xərc" sözünü "debts" ("borclar") sözü ilə verərək bu misradakı "çoxlarının xərcə görə kəməndə düşdüyü" məzmununu isə "kasıblar sümüklərinə qədər soyulurlar" anlamında çevirmişdir. Dördüncü misradakı məzmun da orijinala uyğun çevrilmişdir. Bu misranın ingilis dilində tərcüməsi belə səslənir: "Onlar ağrıyan kürəklərini qırmanc altında əyirlər". Qoşmanın beşinci bəndinin tərcüməsində Dorian Rottenberq sərbəst hərəkət etmiş və bu bəndin ümumi məzmununu çatdırmağa çalışmışdır. Tərcüməçi birinci misradakı "ağalar", "bəylər" sözlərini "the lords" ("lordlar") kimi çevirmiş, "havalı

gəzmək" birləşməsini isə "qürurla, təkəbbürlə tələb etmək" ("to desire with supercilious pride") ifadəsi ilə tərcümə etmişdir. Dorian Rottenberq ikinci misradakı "naxırçı", "nökər" sözlərini "qara camaat" ("the common folk") kimi vermişdir. O, "qan-tərdə işləmək" anlayışını isə "qara camaatın öz qəbrinə doru at çapması" kimi tərcümə etmişdir. Üçüncü misranın tərcüməsində Dorian Rottenberq "müxtəsər demək" birləşməsini "gizlətməyə ehtiyac yoxdur" kimi vermiş, dördüncü misradakı "koxa", "katta" sözlərini mətndən çıxarmış və bu iki misranı aşağıdakı kimi tərcümə etmişdir: "Aşıq Ələsgər, beləliklə, gizlətməyə ehtiyac yoxdur ki, oğru başçıların əxlaqı azalıb". Bununla da Dorian Rottenberq bir yandan bu iki misranın məzmununu oxucuya çatdırmağa çalışmış, başqa yöndən isə "zatı çıxmaq" birləşməsinin məzmununu verməyə cəhd göstərmişdir. Dorian Rottenberq tərcümənin sonunda "qazı", "molla", "axund", "məşədi", "kərbəlayı" sözlərinin açıqlamasını da vermişdir (6, 627).

Bu gün biz Azərbaycan folklorunun sistemli, ardıcıl və mükəmməl tərcümə kitablarına sahib deyilik. Elə buna görə də, Azərbaycan folklorunun, bütövlükdə Azərbaycan mədəniyyətinin tanıdılması sahəsində böyük bir boşluq vardır. Bununla birgə, ara-sıra tərcümə olunmuş folklor nümunələrinin tərcüməsi də qənaətbəxş deyil. Belə ki, bu tərcümələr bir sıra hallarda folklor mütəxəssisi olmayan, Azərbaycan dilini bilməyən, Azərbaycan mədəniyyətindən xəbərsiz şəxslər tərəfindən tərcümə edilmişdir. Ona görə də, folklor nümunələrinin tərcüməsində çoxsaylı qüsurlar, yanlışlıqlar və təhriflər özünü göstərir. Bu isə Azərbaycan milli düşüncəsinin olduğu kimi tanıdılmasına ciddi problemlər yaradır. Bu göstərdiyimiz qüsurlar bir sıra ciddi səbəblərlə bağlıdır. Biz bu qüsurları aradan qaldırmaq, Azərbaycan folklorunu, bu yolla da azərbaycanlıların kimliyini dünyaya olduğu kimi çatdırmaq məqsədi ilə bir sıra işlərin görülməsini zəruri sayırıq. Bu işləri aşağıdakı kimi sıralamaq olar:

- Azərbaycan aşıq ədəbiyyatı nümunələrini ingilis dilinə sətri və bədii tərcüməsini hazırlamaq;
- Azərbaycan aşıq ədəbiyyatı nümunələrinin ingilis dilində şərhlərini hazırlamaq;
- Aşıq ədəbiyyatı ilə bağlı ciddi elmi araşdırmaları ingilis dilinə tərcümə etmək;
- Folklor nümunələrinin xarici dillərə tərcüməsi ilə bağlı dünya təcrübəsini öyrənmək və tətbiq etmək;

- Azərbaycan aşıq ədəbiyyatının ingilis dilinə düzgün tərcümə olunmuş nümunələrinin internet səhifəsini hazırlamaq.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. Şeirlər (tərtib edən: İ.Ələsgərov), Bakı: Yazıçı, 1988, 184 s.
2. Aşıq Ələsgər. Şeirlər (tərtib edən: İ.Ələsgərov), Bakı: Şərq-Qərb, 2004, 400 s.
3. Oxford Advanced Learner's Dictionary of current English. Edited by Sally Wehmeier. Oxford University Press, 2003, 1539 p.
4. Zheleznova Irina. Ashug Alesker, Lyrics. Baku: Azerbaijan state Publishing House, 1972, 34 p.
5. Azerbaijanian Prose. Moscow, 1977, 621 p.
6. Azerbaijanian Poetry (classic, modern, traditional). Edited by M.Ibrahimov. Moscow, 1969, 662 p.
7. Кафаров В. Ларец жемчужин. Азербайджанские народные четверостишия баяты и пословицы. Москва: Наука, 1967, 215 с.

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA GÖZƏLLƏRİN TƏRİFİ

# DEFINITION OF BEAUTIES IN THE CREATIVITY OF ASHUG ALASGAR

# ВОСХВАЛЕНИЕ КРАСАВИЦ В ТВОРЧЕСТВЕ АШЫГА АЛЕСКЕРА

**Vüsal ABİYEV**
*AMEA Folklor İnstitutu*
*v.abiyev@mail.ru*

**Summary**

Ashug Alasgar is the only master ashug who has never been able to reach the peak of ashug art before or after him. His poetry is rich in wisdom and reminders. Its naturalness and simplicity caused these poetic examples spreading from hand to hand. In the works of Ashug Alasgar, beauties are praised not only for their outward beauty and clothes, but also for their inner world and good morals. He is a peot of beauty, who glorifies beauty as a beautiful face, a beautiful character, a source of inspiration and joy.

**Key words:** Ashug Alasgar, beautiful, definition of beauties, national costume, good morals, a good character

**Резюме**

Ашыг Алескер, являлся единственным признанным мастером ашыгом, до или после которого ни один народный мастер не смог подняться до той вершины, которую он достиг в ашыгском искусстве. Его поэзия богата мудростью и назиданием. Благодаря естественности его произведений и простоты народной речи в них, эти поэтические образцы передавались повсюду из уст в уста. В творчестве Ашыга Алескера красавицы восхваляются не только за их внешнюю красоту, одежду, но и за их внутренний мир, за прекрасную нравственность. Он певец красоты и воспевает красоту как красивое лицо, прекрасный характер человека, которые вдохновляя людей доставляет им радость.

**Ключевые слова:** Ашыг Алескер, красавица, воспевание красавиц, национальная одежда, высокая нравственность, прекрасный характер

Aşıq Ələsgərin yaradıcılığında gözəllərin tərifi xüsusi yer tutur. Bunu onun gözəllərin vəsfi ilə bağlı qoşma və divaniləri də təsdiq edir. Bu poetik örnəklərdə tərif edilən, vəsf olunan gözəllərin adları, onların boy-buxununun təsviri, həm geyimləri, həm də bu gözəllərin ağıl-kamal yiyələri olmaları yığcam detallarla da olsa əks olunub. Yəni Aşıq Ələsgər təkcə onları zahiri görünüşlərinə, əlamətlərinə görə

deyil, daxili aləminə görə də tərifləyir. Aşıq Ələsgərin yaradıcılığında insan gözəlliklərinin tərənnümü xüsusi yer tutur. İstər qadın olsun, istərsə kişi, aşığın təriflədiyi insanların tərifəlayiq cəhəti onların gözəlliyidir, əxlaqıdır” (Ələsgər İ., 1999: 127). Bu el sənətkarına görə gözəl həm sifətcə gözəl, boy-buxun sahibi olmaqla bərabər, həm də gözəl əxlaqlı olmalıdır. Aşıq deyir:

Hər yetən gözələ “gözəl” demərəm,
Gözəldə gərəkdi işvə-naz ola.
Buxağından ətri-bənövşə gələ,
Qoynu gülşən ola, bahar, yaz ola.

Nə uzun, nə gödək, münasib gərək,
Ağzı, burnu nazik, dodaq kip gərək.
Əndam büllur, bədən güldən saf gərək,
Bəxtin vura, bu nişanda qız ola (Aşıq Ələsgər, 2003: 117).

Gördüyümüz kimi, burada gözəlin işvə-nazlı olması, gözəlliyi ilə cazibədar olması, ortaboy, gül kimi zərif və saflığı yüksək dəyərləndirilir. “Odur ki, ustad aşıq “gözəllik nəğməkarı”, “humanist ideyaların carçısı” da adlandırılmışdır” (Nəbiyev B., 1976: 143). Təbii ki, Aşıq Ələsgər ədəbi irsində gözəllərin ədəb-ərkanına, ağlına, dərrakəsinə, ağıllı, ədəbli olmasına da xüsusi diqqət verilməsidir. Bunu ustad aşığın “Gəlin” adlı divanisində də görə bilərik:

İnanmıram kamalına
Həkimi-loğman yetişə;
Bəlkə səndən əlac ola,
Xəstəyə dərman yetişə;
Mərifətdə, qanacaqda
Hanı, sana can yetişə;
Kənar gəz seyraqubdan,
Qoyma ki böhtan yetişə;
Amandı, uyma sara,
Tərlanın sonası, gəlin! (Aşıq Ələsgər, 2003: 198).

Müəllifin haqqında söz açdığımız şeirləri onların zahiri gözəlliyini müxtəlif bənzətmələrlə, özünəməxsus məcazlarla verməklə bərabər, hər gözəlin milli geyimlərini, özünəməxsusluğunu xüsusi deyim və ifadələrlə elə göstərir ki, sanki həmin gözəlin portretini gözümüz önündə canlandırır. Bu, gözəl xasiyyətini göstərən cəhətlər də bəhs olunan qızın, gəlinin portretinin yadda qalmasında, yaddaşa həkk olunmasında böyük rol oynayır. Bu bənzətmələri, məcazları daha yaxşı dəqiqləşdirmək üçün bir neçə nümunəyə nəzər salaq:

Dodağın qönçədi, dişlərin sədəf,
Qaşların qüdrətdən qara, Bəyistan!
Gəl elə süzdürmə ala gözləri,
Vurma ürəyimə yara, Bəyistan! (Aşıq Ələsgər, 2003: 39).

Adı Tərlan, özü tərlan balası,
Cilvələnib tərlan tavarı kimi.
Üzün görən xəstə düşər müttəsil,
Tutuncun növrəstə nübarı kimi.

Qabaq ayna, çəkilibdi varağa,
Dodaq qaymaq, gül yapışıb yanağa.
Dolanır gözləri canlar almağa,
Şölə salır xanlıq fənarı kimi (Aşıq Ələsgər, 2003: 85).

Camalın görəndə aya bənzəyir,
Sallanışın Züleyxaya bənzəyir.
Qabaq ayna, qaşın yaya bənzəyir,
Qiymət çoxdu ola gözə, Müşgünaz (Aşıq Ələsgər, 2003: 97).

Sərv kimi sığal verib anası,
Guşunda güşvara, qızıl tanası.
Bağçalar bülbülü, göllər sonası,
Dağların ceyranı, maralı Xurşid (Aşıq Ələsgər, 2003: 79).

Tovuz kimi qalxdın çeşmə başından,
Cəmi gözəllərin gözəli Güllü!
Almadı yanağın, büllur buxağın,
Dodaqların meyli, məzəli, Güllü! (Aşıq Ələsgər, 2003: 77).

Bu örnəklərdən göründüyü kimi, Aşıq Ələsgər vəsf etdiyi hər bir gözəli fərqli, amma yaddaqalan cizgi və rənglərlə, bənzətmələrlə gözlərimiz önündə canlandırıb. Birinci örnəkdə Bəyistan adlı gözəl dodağı qönçə, dişləri sədəf, qaşları qara; ikinci şeir parçasında təsvir olunan şəxs dodağı qaymaq, yanaqları gül kimi, gözləri xanlıq fanarı kimi şölə saçan; üçüncüdə camalı aya, sallanışı Züleyxaya, qaşı yaya bənzəyən ala gözlü xanım; dördüncüdə təsvir olunan Xurşid qulağı sırğalı, bağçalar bülbülü, göllər sonası, dağların ceyranı, maralı; axırıncı alma yanaqlı, büllur buxaqlı, dodaqları meyli, məzəli kimi təsvir olunmuşlar. Bununla bərabər, birinci nümunədəki xanım ala gözlərini sürdürəndə canlar alırsa, axırıncı örnəkdəki gözəl cəmi gözəllərin gözəlidir. Yəni Aşıq Ələsgər hər bir gözəli yaddaqalan təsvirlərlə xalqa təqdim etməyi bacarır. İ.Ələsgər yazır: “Gözəllikdən

zövq almaq, onu vəsf edərkən Aşıq Ələsgərin ömrünün istər gənclik illərinə, istər də müdrik çağlarına eyni dərəcədə aiddir" (Ələsgər İ., 2003: 16). Aşıq Ələsgərin gözəllərin vəsfi ilə bağlı şeirlərinin birində ("Gözəllər") onların sayı barədə məlumat verilməsə də bir neçəsinin adı çəkilir, hərəsinə uyğun bir bənzətmə verilir. Bunu yaxşı təsvir etmək üçün həmin poetik örnəyin bir hissəsinə baxaq:

Minəş Günə bənzər, Əsli bir aya,
Şəms olub aləmə salıbdı saya.
İncitmərəm, qəsəm olsun Xudaya,
Qədəm bassa gözüm üstə gözəllər.

Sizi gördüm, çaşdı ağlım, kamalım,
Güclüyə qurbandı dövlətim, malım.
Olmayaydı bir qocalıq, bir ölüm,
Yaşayaydı bu həsrətdə gözəllər.

Pərzad mələkdi, Gövhər bir xanım,
Görən kimi getdi dinim-imanım.
Yazıq Ələsgərəm, sərgərdan canım,
Qurban sizin kimi dosta, gözəllər! (Aşıq Ələsgər, 2003: 202)

Burada beş gözəlin adı çəkilir, müəllif gözəllik aşiqi və vurğunu olduğuna görə gözəllərə əbədi həyat, qocalmamaq, ölməmək arzusunu dilə gətirir, çünki gözəllik insana ruh, fərəh bəxş edir, adamı yaşamağa səsləyir.

Aşıq Ələsgərin gözəllərin tərifinə dair şeirlərinin birində təqdir olunan gözəlin sevgilisinin özünə bab olduğunu böyük sevgiylə əks etdirib. Aşıq Ələsgərə görə, bu gözəl gözəllər içində bir ayrı gözəldisə, onun yarı da cavanlar arasında sayılıb-seçiləndir. Aşıq deyir:

Şükür haqqa, Xudam yazıb,
Tərlanı tərlana, gözəl!
Mehdi kimi ölkəmizdə
Yoxdu oğlan, Xırdaca qız (Aşıq Ələsgər, 2003: 204).

Aşıq Ələsgərin "Şapəri" adlı divanisi iki cəhəti ilə o biri şeirlərdən fərqlənir, yəni həm sifəti rəssam dəqiqliyi ilə təsvir olunur, həm də bu gözəllər gözəlinin Göyçədən olduğu göstərilir:

Gəlməyib heç gözələ
Bu dünyada belə nişan;
Zülf bulud, qabaq ayna,
Qaşların tağı kaman;
Burun püstə, dodaq qaymaq,

Ağ buxaq, qönçə dəhan;
Hüsnünün zərrəsinin
Gördü aşıq, tapdı iman;
Sənə nə bəşər deyilər,
Nə də insan, Şapəri! (Aşıq Ələsgər, 2003: 220).

Həm də müəllifin gözəllərin vəsfinə dair şeirlərini təxmini olaraq iki yerə bölmək olar: adları məlum olan gözəllər, anonim xanımlar (adı bəlli olmayanlar). Bunu təxmini həm qoşmalarda, həm də divanilərdə görmək mümkündür. Yəni "Bəyistan", "Güləndam", "Güllü", "Xurşid", "Tərlan", "Telli" qoşmaları ilə bərabər "Qaşların", "Qırmızı" kimi şeirlərdə təriflənən gözəlin adı çəkilmir. Təbii ki, divanilərdə də belədir, yəni "Giləyə", "Həcər", "Mələk", "Şapəri" kimi divanilərdə adlar məlumdur, lakin digər şeirlərdə ("Gəlin", "Gözələ", Xırdaca qız", "Molades", "Nədi") gözəllərin adları anonim kimi verilib.

İstər bu bəhs etdiyimiz qoşmalarda, istərsə də divanilərdə ancaq Aşıq Ələsgərə xas yeni ifadələr, deyimlər adamı cəzb edir. Bunlar barədə bir neçə örnək verməyi məqbul hesab edirik:

Camalın şöləsi nuri-təcəlla,
Görsə şəfa tapar xəstə, gözəllər (Aşıq Ələsgər, 2003: 75).

Tərsa üzün görsə tez gələr dinə,
Alim görsə gedər saz alı, Güllü (Aşıq Ələsgər, 2003: 77).

Qeyd edək ki, təriflənən bu gözəllər, qızlar-gəlinlər təkcə aşığın doğulub, boya-başa yetdiyi Göyçənin gözəlləri deyildir, Aşıq Ələsgər hara gedibsə, orda gördüyü gözəl xanımlara tərif deyib, onların gözəlliyini təqdir edib. Çünki aşıq gözəlliyin, təbiət gözəlliklərinin, gözəl işlərin vurğunudur. Həm də boş yerə deməyiblər ki, "Aşıq gördüyünü çağırar". Aşıq Ələsgər də ona rast gələn, rastlanan gözəlləri mədh edib. Bu şeirlər o qədər sadə, anlaşıqlı, xalqın ruhuna uyğundur ki, bu el sənətkarının həmin şeirləri sanki el-obaya ünvanlanmış alqışlar, dualardır. Bunlarda insanlığa minnətdarlıq və səmimiyyət duyulur. "Ələsgər şeirinin belə sürətlə yayıla bilməsi onun dil və üslub sadəliyinin, ifadə gözəlliyinin sayəsində mümkün olmuşdur" (Təhmasib M.H., 1971).

Aşıq Ələsgərin gözəllərin, qız-gəlinlərin vəsfi ilə bağlı şeirlərinin dillər əzbəri olub xalq içində geniş yayılması bu poetik örnəklərin özünəməxsusluğudur. Bu da el sənətkarının gözəllərin milli geyimləri ilə, nəcib cəhətləri ilə təqdimatının nəticəsidir. Çünki Aşıq Ələsgər böyük hikmət sahibi və kəramət yiyəsidir, halallığı, doğru yolu, xoş

rəftarı təqdir edəndir. Yəni haqqında danışdığımız şeirlərdə də gözəllərin ağıllı, kamallı, nəcib olması yığcam boyalarla göstərilir, sanki bununla el sənətkarı demək istəyir ki, hər bir gözəlin gözəl olması əsas şərt deyil, onun qəlbinin də gözəl olması vacibdir ki, bu insan gözəlliyi bütövləşib tam olsun. Ağlı, kamalı olmayan gözələ gözəl demək qəbahətdir, çünki insanı zinətləndirən onun ağlı, kamalı, yüksək əxlaqıdır. Bunlar olmasa insan cəmiyyətdə tanına bilməz. Elə buna görə də Aşıq Ələsgər həm də gözəllərin gözəl xasiyyətli olmalarını diqqət mərkəzində saxlayır. O, gözəllik nəğməkarı olduğundan gözəlliyin tərənnümündən doymur, çünki gözəllik insanlara ruh, fərəh, xoş əhval bəxş edir, onlarda xeyirxah duyğular oyadır.

## QAYNAQLAR


1. Aşıq Ələsgər (2003) (tərtib edən: İ.Ələsgər). Şeirlər, dastan-rəvayətlər, xatirələr. Bakı: "Çinar-çap"
2. Ələsgər İ. (1999). Haqq aşığı Ələsgər. Bakı: Maarif
3. Ələsgər İ. (2003). Ulu ustad. Aşıq Ələsgər: şeirlər, aşıq rəvayətləri, xatirələr. Bakı: Çinar-çap
4. Nəbiyev B. (1976). Tənqid və ədəbi proses. Bakı: Azərnəşr
5. Təhmasib M.H. (1971). "Ədəbiyyat və incəsənət" qəzeti, 17 iyul

# AŞIQ ƏHMƏDİN YARADICILIĞINDA AŞIQ ƏLƏSGƏR MÖVZUSU
# ASHUG ALASGAR'S THEME IN THE WORKS OF ASHYG AHMED
# ТЕМА АШЫГ АЛЕСКЕР В ТВОРЧЕСТВЕ АШЫГА АХМЕДА

**Yaqut BAHADURQIZI**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Ədəbiyyat Muzeyi Aran şöbəsinin müdiri*

**Summary**

The article explored the theme of Ashug Alasgar in the work of one of the prominent representatives of the Azerbaijani Ashig art, Ashug Ahmed. According to observations on the work of Ashug Ahmed, it turned out that he was especially attentive to the tradition and masters and allocated them a place in his work. Ashug Ahmed considered Ashug Alasgar his teacher and took advantage of his influence. Also, Ashug Ahmed played a special role to popularize Ashug Alasgar's poem in the Shirvan environment. Ashug Ahmed answered the questions of Ashug Alasgar in adversarial poems - "gyfylband". As a result of the research, it turned out that Ashug Ahmed regularly strove to revive the Ashug tradition.

**Key words:** Azerbaijan, ashug, saz, Ahmed, Alasgar, creativity

**Резюме**

В статье была исследована тема Ашыг Алескера в творчестве одним из видных представителей азербайджанского ашыгского искусства, Ашыга Ахмеда. По наблюдениям на творчестве Ашыга Ахмеда выяснилось, что он с особой внимательностью относился к традицию и мастерам и выделил им место в своем творчестве. Ашыг Ахмед считал Ашыг Алескера своим учителем и воспользовался с его влиянием. Так же, Ашыг Ахмед сыграл специальную рол для популяризации стихотворения Ашыга Алескера в Ширванской среде. Ашыг Ахмед ответил на вопросы Ашыга Алескера в стихотворениях состязательного типа – «гыфылбенд». В результате исследования выяснилось, что Ашыг Ахмед регулярно стремился для оживления ашыгской традиции.

**Ключевые слова:** Азербайджан, ашыг, саз, Ахмед, Алескер, творчество

Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən biri olan Aşıq Əhməd Şirvan aşıq mühitinin ustad sənətkarı kimi uzun illər aşıqlıq fəaliyyəti göstrmişdir. Aşığın sənət irsi iştirak etdiyi yüzlərlə el məclislərində, xalq mərasimlərində ifa etdiyi musiqi və sözlə, saz və avazla insanların yaddaşında, könül dünyasında yaşamaqdadır.

Aşıq Əhmədin yaradıcılığı ilə bağlı tədqiqatlardan məlumdur ki, aşığın müxtəlif janrlarda yazdığı və ya bədahətən söylədiyi 2000-dən

çox şeiri vardır. Aşıq Əhməd Şirvan mühitinin auditoriyasına uyğun və çox sevilərək dinlənilən 20-dək dastan da yaratmışdır. Bunlar müxtəlif həcmli epik nümunələrdir. Aşığın yaradıcılıq irsi hələ tam şəkildə nəşr edilməmişdir. Bununla yanaşı aşığın yaradıcılığının müəyyən bir hissəsi onun "Sazımın telləri" (1965), "Əllərin yorulmasın" (1980), "İtən sazım" (1995), "Xoş gəlmisən Kürdəmirə, rəhbərim!" (1998), "Dastanlar" (2004) kitablarında nəşr olunmuşdur (1; 2; 3; 4; 5).

Aşıq Əhməd Azərbaycan aşıqlıq ənənəsinə sıx bağlı bir sənətkar olmuşdur. Onun yaradıcılığı Azərbaycan aşıq sənətinin ən kamil ənənələrini özündə birləşdirir. Bu baxımdan aşıq klassik aşıq poeziyasına bağlılığını qoruyub. Aşıq Əhməd iştirak etdiyi el məclislərində iştirak edənlər onun ifasında Azərbaycan aşıq sənətinin klassik nümayəndələrinin sözlərinin yüksək peşəkarlıq və özünəməxsus ifa tərzi ilə oxunduğunu dinləyiblər. Aşıq Qurbani, Xəstə Qasım, Tufarqanlı Abbas, Aşıq Ələsgər, Aşıq Mirzə Bilal kimi ustad sənətkarların sözləri Aşıq Əhmədin repertuarının aktiv hissəsində olub, onun ifasında mütəmadi olaraq səslənib.

Ənənəyə bağlılıq Aşıq Əhmədin bir çox musiqi və mahnılarını xalq arasında populyarlaşdırıb. Aşığın ifasında bir sıra gözəlləmələr – "Bir salam verək", "Muğanlı qız, Şirvana gəl", "Yox-yox", şəşəngi – "Düzməyə gəlsin", şikəstə – "Dur gedək", "Məni" və s. nümunələr xalq tərəfindən sevilir və aktiv ifa dövriyyəsində qalır (5). Aşığın özündən başqa onun sözlərini və ifa tərzini Aşıq Teyfur, Aşıq Məmmədağa, Əvəzxan Xankişiyev, Aşıq Şərbət, Aşıq Yanvar, Rəhilə Həsənova, Eynulla Cəbrayılov, Sabir Mirzəyev, Şahnaz Haşımova, Aşıq Ağamurad, Solmaz Kosayeva, Aşıq Fərhad, Aşıq Əhliman, Aşıq Rza və başqa bir çox aşıq və müğənnilər el şənliklərində böyük şövqlə ifa ediblər. Bu sənətkarların bir hissəsi artıq həyatda yoxdur, amma ifa edilən mahnılar və musiqilər öz ənənəvi üslubunda yaşamağa davam edir, onların yeni ifaçıları meydana gəlir.

Aşığın sözlərinin və ifa tərzinin geniş pərəstişkarları vardır. Bu da imkan verib ki, aşıq ənənəni xalq içərisində daha geniş şəkildə yaysın, təbliğ etsin.

Aşıq Əhmədin yaradıcılığı Azərbaycan aşıq sənətinin müəyyən bir dövrünün reallığını özündə əks etdirməklə yanaşı Şirvan aşıq mühitini də özündə dolğun şəkildə ehtiva etməkdədir. Aşıq Mirzə Bilal, Aşıq Şakir və Aşıq Əhməd kimi aşıqlar Şirvan mühitinin ən görkəmli sənətkarlarıdır. Bunların içərisində Aşıq Əhməd şeir yaradıcılığı baxımdan xüsusilə seçilir. Aşıq Əhməd Azərbaycan söz sənətinin görkəmli nümayəndələri ilə bu və ya digər şəkildə əlaqəli olmuşdur. Bəzi sənətkarlarla yaradıcılıq əlaqəsində olmuş, bəziləri ilə birbaşa ünsiyyət

imkanı olmuşdur. Aşıq Əhməd Şirvan aşıq mühitini ləyaqətlə təmsil etmiş və onun zəngin ənənələrini yaşatmışdır:

Kim deyir Şirvanda sənətkar azdır,
Sənətkar oylağı Şirvan deyilmi?
Xəqaninin, Seyid Əzimin, Sabirin,
Bəs, ana torpağı Şirvan deyilmi?

Aşıq Əhməd Azərbaycan aşıq sənətinin ustad simalarının yaradıcılığını dərindən öyrənmişdir. Bu ustadların arasında Aşıq Ələsgərin xüsusi yeri vardır.

Aşıq olub tərki-vətən olanın,
Əzəl başdan pürkəmalı gərəkdir.
Oturub-duranda ədəbin bilə,
Mərifət elmindən hali gərəkdir.

Aşıq Ələsgərin bu şeiri Aşıq Əhmədin sənət yolundakı aşıq xarakterinin müəyyənləşməsində mühüm rol oynamışdır. Aşıq sağlığında bunu öz dili ilə ifadə etmişdir. Ayrıca olaraq, Aşıq Ələsgərin sözlərinin Şirvan mühitində populyarlaşmasında Aşıq Əhmədin ifasının önəmli rolu olmuşdur.

Aşıq Əhmədin Azərbaycan aşıq ənənəsində şəxsiyyətinə və sənətinə çox hörmətlə yanaşdığı ustad sənətkarlardan biri olan Aşıq Ələsgər yaradıcılığına ardıcıl olaraq müraciət etmişdir. Azərbaycan aşıqlıq ənənəsinin inkişafında Aşıq Ələsgərin böyük rolu olduğunu dərindən bilən Aşıq Əhməd sənətin tələblərini Ələsgərin nümunəsində mənimsəmişdir. Beləliklə, hər iki sənətkar bu sənətin böyük ustadları kimi sənət tarixində öz layiqli yerlərini tuturlar. Aşıq Əhməd ənənəyə bağlı sənətkar kimi ustadlarla sənət əlaqələrini daim aktiv şəkildə saxlayıb. Aşıq Əhməd Aşıq Ələsgər irsini dərindən öyrənib və sənətin Ələsgərlə gələn incəliklərinə yiyələnib. Aşıq Əhməd Qurbani kimi, Xəstə Qasım kimi, Abbas Tufarqanlı kimi Aşıq Ələsgəri də özünün mənəvi ustadı sayıb və böyük sevgi ilə onun yaradıcılığına müraciət edib. Ona görə də Aşıq Əhmədin yaradıcılığında Aşıq Ələsgər mövzusu geniş yer tutur. Bu, həm Aşıq Ələsgərin sözlərinin Şirvan aşıq mühitində aktiv ifa prosesinə daxil edilməsində, həm də onun ənənəvi aşıqlıq kriteriyalarının yaşadılmasında özünü göstərir. Şirvan aşıq mühitinin ustad sənətkarının ifasında Aşıq Ələsgər bu auditoriyada sevdirilib. Çünki aşıq şeirindəki sözün hikməti ilə yanaşı onun müəyyən mühitlərdə sevilməsi üçün yerli ifa tərzi də əhəmiyyətli rol oynayır. Aşıq Əhməd Aşıq Ələsgərin sözlərini Şirvan aşıq mühitində populyarlaşdıran və sevdirən bir sənətkardır.

Aşıq Əhmədin yaradıcılığında Aşıq Ələsgər mövzusuna daxil olan bir sıra məsələlər vardır. Bunların içərisində sənət və yaradıcılıq əlaqələri də müəyyən yer tutur. Aşıq Əhməd Aşıq Ələsgər yaradıcılığına təkcə onun sözlərini özünün ifa repertuarına daxil etmək üçün müraciət etmir. O, eyni zamanda Aşıq Ələsgərin sözlərinə münasibət bildirir. Aşıqlıq ənənəsində ustad aşıqlar özlərindən sonra bağlamalar, qıfılbəndlər qoyub gedirlər. Bunları özlərindən sonra gələn sənətkarlar açır və ya açmağa çalışır. Aşıq Ələsgərin də belə qıfılbəndləri vardır. Aşıq Əhməd bu sahədə də Ələsgər irsinə müraciət edib, onun qıfılbəndlərini açıb. Aşıq Əhməd bunları Aşıq Ələsgərlə deyişmələr şəklində öz yaradıcılıq irsinə daxil edib. Ələsgər irsi ilə belə yaradıcılıq münasibəti və ənənənin davam etdirilməsi bu sənətin vahid bir mədəniyyət nümunəsini olduğunu bir daha göstərməkdədir.

Bir ustadın bağladığını digər bir ustad açır və beləliklə sənətdə ənənə və varislik davam edir. Azərbaycan aşıqlığının çox önəmli bir ənənə hadisəsi olan ustadlara münasibət, hörmət və ehtiram bu sənətin də əsas prinsiplərindən biri kimi Aşıq Əhmədin Aşıq Ələsgərin zəngin və çox dəyərli irsinə münasibətində özünü göstərməkdədir.

Aşıq Əhmədin yaradıcılığı Azərbaycan aşıq sənətinin müəyyən bir dövrünün reallığını özündə əks etdirməklə yanaşı Şirvan aşıq mühitini də özündə dolğun şəkildə ehtiva etməkdədir. Aşıq Mirzə Bilal, Aşıq Şakir və Aşıq Əhməd kimi aşıqlar Şirvan mühitinin ən görkəmli sənətkarlarıdır. Bunların içərisində Aşıq Əhməd şeir yaradıcılığı baxımından xüsusilə seçilir. Aşıq Əhməd Azərbaycan söz sənətinin görkəmli nümayəndələri ilə bu və ya digər şəkildə əlaqəli olmuşdur. Bəzi sənətkarlarla yaradıcılıq əlaqəsində olmuş, bəziləri ilə birbaşa ünsiyyət imkanı olmuşdur. Aşıq Əhməd Şirvan aşıq mühitini ləyaqətlə təmsil etmiş və onun zəngin ənənələrini yaşatmışdır.

Aşıq Əhmədin yaradıcılığında Aşıq Ələsgər mövzusu önəmli bir mövzu kimi yer tutur. Bu mövzu Aşıq Ələsgər şəxsiyyətinin böyüklüyü və sənətinin zənginliyi ilə şərtlənməkdədir. Aşıq Əhmədin böyük diqqət və yüksək hörmətlə Aşıq Ələsgər irsinə göstərdiyi münasibət Azərbaycan aşıq sənətinin müxətlif mühitlərinin vahid bir ənənədən gəldiyini və müxtəlifliyin sənətdə zənginlik və dəyər yaratdığını göstərməkdədir.

## QAYNAQLAR


1. Aşıq Əhməd. Sazımın Telləri. Bakı: Yazıçı,1965
2. Aşıq Əhməd. Əlləriniz yorulmasın. Bakı:Yazıçı, 1980
3. Aşıq Əhməd. İtən sazım. Bakı:Şur, 1995
4. Aşıq Əhməd. Xoş gəlmisən Kürdəmirə, rəhbərim. Bakı: Şirvannəşr, 1998
5. Bahadurqızı Y. Vurğunam nəğməyə, saza. Bakı: Çaşıoğlu, 2000

# AZƏRBAYCAN AŞIQ SƏNƏTİNDƏ ƏCDAD VƏ ŞƏCƏRƏ MÜNASİBƏTLƏRİ (ŞİMAL BÖLGƏSİ AŞIQLARININ YARADICILIĞI ƏSASINDA)

# ANCESTOR AND GENEALOGY RELATIONSHIP IN AZERBAIJANI ASHUG ART (BASED ON THE CREATIVITY OF ASHUGS OF THE NORTHERN REGION)

# РОДСТВЕННЫЕ И ГЕНЕАЛОГИЧЕСКИЕ ОТНОШЕНИЯ В АШУГСКОМ ИСКУССТВЕ АЗЕРБАЙДЖАНА (НА ОСНОВЕ ТВОРЧЕСТВА АШУГОВ СЕВЕРНОГО РЕГИОНА)

**Zümrüd İbrahim qızı MƏNSİMOVA**

*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

*AMEA-nın İctimai Elmlər Bölməsi*

*zumrudibrahimqızı@gmail.com*

**Summary**

The article deals with the attitude of the Azerbaijani ashugs (in particular, the Zagatala ashugs) to the masters who lived and worked before them, about respect for their ancestors, about the genealogy of the ashugs. It also explores the cult of ancestors, the archetype of the wise old man, the veneration of saints and the master-disciple relationship that takes place in their poetry.

**Key words:** ashugs of Zagatala, ancestral cult, generation, root

**Резюме**

В статье рассматривается вопрос об отношении азербайджанских ашугов (в частности, Загатальских ашугов) к мастерам, жившим и творившим до них, об уважении к предкам, о генеалогии ашугов. Также исследуется культ предков, архетип мудрого старика, почитание святых и отношения мастера-ученика, которые имеют место в их поэзии.

**Ключевые слова:** ашуги Загаталы, культ предков, поколение, корень

Azərbaycan aşıq sənəti tarixin dialektik inkişaf dinamikasında formalaşan milli adət-ənənələrimizlə zəngin olan söz sənətidir. Bu ənənənin bir qolu olan ustad-şəyird (şagird) münasibətləri – aşıq, saz söz sənətilə qoşa yaranmışdır. Aşıqlar özündən əvvəl yaşayıb-yaratmış sənətkarlara, onların sənətkarlıq irsinə hörmətlə və böyük ehtiramla yanaşmışlar. Bir sənətkarın ustadlıq statusu həm də onun yetişdirilib məclisə çıxartdığı şəyirdlərlə bağlı olmuşdur. Keçən əsrin 70-80-ci

illərinə kimi Azərbaycanın bir çox bölgələrində 7 arxa dönənini tanımaq nəinki ustad – şəyirdlər üçün əsas olmuş, eləcə də evliliyə hazır olan bir gəncin əsas biləcəyi, bilmirsə də öyrənəcəyi vacib şərtlərdən biri olmuşdur. Ustad-şəyird münasibətləri, eləcə də nəsil, şəcərə, 7 arxa dönənini tanımaq məsələsi milli mədəni, əxlaqi-etik normalar üzərində qurulmuşdur. Haqlı olaraq da ustad sənətkarların da öz sənətinin davamçılarından bunu tələb etmələri böyük bir anlam kəsb edir. Sələflərini tanımaq birinci növbədə onlara hörmətin göstəricisidirsə, ikinci növbədə şifahi yaddaşda, nəsildən-nəslə ötürülərək daima yaşamaq deməkdir. Özgələşməyə imkan verməməkdir.

Əsrlər boyu xalqımızın milli ruhunun göstəriciləri olan mənəvi zənginlik – böyüyə hörmət, kiçiyə qayğı sələflərimizdən gələn mövcud ənənələri gələcək nəsillərə ötürmək, milli-mədəni dəyərlərə hörmət kimi yüksək mənəvi keyfiyyətlər bu münasibətlərdə tənzimlənib.

Bu məqalədə əsas məqsəd şimal bölgəsi aşıqlarının yaradıcılığı əsasında ustad və ifaçı sənətkarlarımızın özlərindən əvvəlki ustadlara münasibəti, əcdadlara hörmət və ehtiramı, aşıq yaradıcılığında şəcərə məsələsi, eləcə də onların poeziyasında yer tutan əcdad kultunun, müdrik qoca arxetipinin nümayəndələri hesab edilən 40-lara, övliyalara münasibəti araşdırmaqdır. Aşıq yaradıcılığında şəcərə məsələsi, bir sıra baxımdan diqqət çəkən məsələlərdəndir.

Zaqatala aşıq mühitinin görkəmli nümayəndəsi aşıq Varxiyanlı Məhəmməd dövrünün ən tanınmış sayılıb seçilən sənətkarlarından olmuşdur. Folklorşünas alim Salman Mümtaz, akademik Fuad Qasımzadə və bu yerləri gəzib-dolaşan tədqiqatçılar, səyyahlar, folklorşünas alimlər Aşıq Məhəmmədin yaradıcılıq qüdrətindən söz açmışlar. Dövrünün tanınmış etnoqraf alimi Plotto Qafqazı səyahət edərkən Məhəmmədin sənətkarlıq qüdrətini eşitmiş, məqalələrinin birində xarakterizə edərək qeyd etmişdir ki, Aşıq Məhəmmədin mahnıları Zaqatala dairəsinin müxtəlif millətlərdən olan məclislərində Azərbaycan dilində oxunur. Plotto ustadın həm də improvizatorçu aşıq olub, yaradıcılığında daha çox məhəbbəti tərənnüm etdiyini bildirmişdir (3, s. 3).

Həşim İsmayılov qeyd edir ki, Varxiyanlı Məhəmməd Aşıq Alı, Molla Cümə, Şəmkirli Aşıq Hüseyn, Yəhya bəy Dilqəm, Aşıq Ələsgər kimi sənətkarlarla bir sırada dayanan azman bir aşıq olmuşdur. Əlində sazı el-el dolaşan, Şəki, Şirvan Qarabağ, Təbriz, Tehran, Xoy, Salmas, Marağa və Gürcüstanı gəzib saysız-hesabsız məclislər keçirən Aşıq Məhəmməd, dövrünün görkəmli aşıqları tərəfindən ustad aşıq kimi qəbul edilmişdir (4).

Ustadımdan dərs almışam, ərkandı yoldu yüküm,
Saf cövhərdən yüklənmişəm, cəvahirdi ləldi yüküm.
Halımdan xəbəri olan, qiymət qoyar sözümə,
Dəymişdən cəm etmişəm, deməsin kaldı yüküm.

Ustad sənətkarın əcdad kultunun nümayəndələri olan ərənlərə, qırxlara inamı, güvəni və etibarı işarət edən nümunələrə kifayət qədər təsadüf edilir:

Yatmış idim, qafil gəldi üstümə,
Bir cam dolu, bir cam yarı, bir cam az,
Üç muradı onda tutdum dəstimə,
Bir cam kamal,bir cam söhbət, bir cam söz (14, s. 47).

Qoşmanın məzmunundan göründüyü kimi, ustad Xızırın, Şahlar şahının, övliyaların ona öz əlləri ilə içirdikləri eşq badəsinə işarə edir. Müqəddəslərin əliylə haqqdan ağıl-kamal sahibi, ustad sənətkara el arasında ucalıq gətirən müdrik söz sahibi olmaq bacarığının, qüdrətinin verildiyini bildirir.

Bəzi mənbələrdə isə Aşıq Məhəmmədin 2 il Molla Pənah Vaqifin açdığı məktəbdə dərs alması kimi maraqlı fakta təsadüf edirik (4). Bildiyimiz kimi, Molla Pənah Vaqifin yaradıcılığında aşıq şeir üslubu üstünlük təşkil edir. Ustad şəyird məsələsinə Varxiyanlı Məhəmməd də çox böyük diqqət etmiş özündən sonra bir şəcərənin yetişməsinə və yaşamasına səy göstərmişdir. Aşıq Məhəmməd özündən sonra qardaşı oğlanları – Aşıq Təmaza və Aşıq Qurbana ustadlıq etmişdir. Ustadın hələlik bizə məlum olan iki şəyirdinin adı var.

Azərbaycan aşıq yaradıcılığına diqqət etsək görərik ki, ustad-şəyird ənənəsinə həmişə xüsusi diqqət göstərilmişdir. O da həqiqətdir ki, bu gün ustad-şəyird münasibətlərini dolğun şəkildə qoruyub saxlayan Şirvan aşıq mühitinin yetirmələrindən olan Aşıq Bilalın, Aşıq Şamilin, Aşıq Şakirin, Aşıq Əhmədin və başqa el sənətkarlarının onlarla yetirməsi olmuşdur. Folklorşünas Qalib Sayılov tədqiqatlarında Şirvan aşıq mühitini həm tarixi baxımdan qədim, həm də müasirlik baxımından zəngin bir mühit olduğunu, eləcə də tarixiliyin və müasirliyin vəhdət təşkil etdiyini qeyd etmişdir (9).

Eyni zamanda digər aşıq mühitinin – Göyçə mühitinin Aşıq Ələsgər kimi nəhəng ustad sənətkar öz ustadı Aşıq Alının ədəb-ərkanla yolunu gözləmiş, ondan izn olmazsa məclisdə sazı əlinə almamışdır. Bu ənənəni bir xətt kimi biz bütün sənətkarların həyat və fəaliyyətində təsadüf edə bilərik:

Aşıq olub tərki-vətən olanın
Əzəl başdan pür kamalı gərəkdir.
Oturub-durmaqla ədəbin bilə,
Mərifət elmindən dolu gərəkdir.

Aşıq Ələsgərlə ustadı Aşıq Alının deyişməsi və Ələsgərin öz ustadını məğlub etməsi haqqındakı rəvayətlər vardır.

Deyişmənin başqa bir versiyasını professor P.Əfəndiyev irəli sürür: "Aşıq Alı Ələsgəri tam yetirib hazırladıqdan sonra bir toy məclisində onunla deyişir, el icində hörmətini qaldırıb şöhrətləndirmək məqsədilə məğlub olmuş bir aşıq kimi oz sazını da ona təhvil vermək istəyir. Ələsgər isə onun bu xeyirxah hərəkətilə razılaşmayaraq:

Bir şəyird ki, ustadına kəm baxa,
Onun gözlərinə ağ damar, dammar –

təcnisini deyir" (10).

Ümumiyyətlə, atadan oğula, nəsildən-nəsilə ötürülmə ənənəsi aşıq yaradıcılığındakı ustad-şəyird münasibətlərilə eyniyyət təşkil edir. Ata oğula nəslin, kökün ənənələrini aşılayırsa və gələcək nəsillərə təbliğ edib yaşatmağı tövsiyə edirsə, ustad aşıqlar da şəyirdlərinə sələflərini tanıdır, ədəb-ərkan öyrədir.

"Kitabi-Dədə Qorqud"da Dədə Qorqudun əcdad kultunun transformativ nümayəndəsi kimi oğuz elinin igidlərinə verdiyi öyüd-nəsihəti yada salaq.

Oğul atadan görməyincə süfrə salmaz.
Oğul atanın yetiridir, iki gözünün biridir (12, s. 20).

Zaqatala aşıq mühitində yaşayıb-yaradan el sənətkarlarını ustad-şəyird münasibətlərini qoruyub inkişaf etdirmək baxımından 2 qismə ayırmaq olar:

a) konkret ustada qulluq edənlər;
b) konkret ustada qulluq etməyən, dərslərini haqdan alan aşıqlar.

Zaqatalanın Qandax kəndində XIX əsrin sonları XX əsrin əvvəllərində yaşayıb yaradan Aşıq Arab da şeirlərinin birində dərsini haqdan aldığını bildirmişdir:

Aşıq Arab haqdan alıb dərsini,
Çıxdaş olsun aralıqdan xaini,
İtirmərəm yarın haqqı sayını
Köhnə yardı vəfadardı bu gələn!

Ustad-şəyird münasibəti, konkret bir ustada qulluq edərək bir sənətkar kimi yetişmək, ərsəyə gəlmək ənənəsi Zaqatala aşıq mühitində digər mühitlərə nəzərən az inkişaf etmişdir. Bunun əsas səbəbi

də Aşıq Məhəmməddən başqa konkret bir məktəb görmədən digər sənətkarların Aşıq Mədətin, Aşıq Səadəddinin, Muğanlılı Aşıq Sabirin öz istəkləriylə hər hansı bir ustada qulluq etmədən öyrənmələri olmuşdur. Bu məqamda məsələyə birmənalı şəkildə yanaşmaq olmaz. Bu sənətkarlar böyüdükləri mühitdə, nəsildə, kökdə saz ifası eşitmiş, məclislər görmüşlər. Onlar saz ifasını eşitməsəydilər, evlərində divarda asılmış saz görməsəydilər heç vaxt bu sənətə maraq göstərib öyrənə bilməzdilər. Göründüyü kimi, dərsimizi haqdan almışıq deyən aşıqlar üçün saz sənətinin öyrənilməsində nəsil, kök, şəcərə, mühit əsas amil kimi önə çıxır. Aşıq Mədətdən hələ sağlığında ustadın kim olmuşdur deyə sorduğumuzda belə cavab verir:

Mən haqdan dərsimi aldım onunda,
Gəzmək istəmirəm şeytan donunda,
Əgər sərrafamsa mis mədənində
Axtarıb gövhəri seçsəm yaxşıdır (14, s. 101).

Qaçaqçılıq dövrü aşıqlarından olan Aleybadlı Aşıq Hüseyin də ustad-şəyird ənənəsini yaşadan sənətkarlardan olmuşdur. Aşıq Hüseynin ustadı mişleşli Aşıq Hüseyn olmuşdur. Belə ki, o özündən sonra Aşıq Herov, Aşıq Oruc, Aşıq Salam, Aşıq Bədir, Aşıq Abdulla, Aşıq Cəlil kimi ifaçı sənətkarlar yetişdirmişdir. Həmin şəyirdlərin bilik və bacarığı nəticəsində Aşıq Hüseyin haqqında yaranmış dastan-rəvayət şifahi yaddaşdan bu günümüzə kimi gəlib çatmışdır. Bu avtobioqrafik səciyyə daşıyan dastan-rəvayət ustad aşığın həyat və yaradıcılığını, böyüdüyü mühiti, əlaqədə olduğu el sənətkarlarını, düşdüyü çətin vəziyyəti, keçdiyi keşməkeşli həyat yolunu öyrənmək baxımından çox böyük mənbədir. Aleybadlı Aşıq Camalın ustadı isə Aşıq Hüseynin şəyirdi kimi tanınmış Aşıq Herov olmuşdur. El arasında və Aleybadlı Aşıq Camalın dediyinə əsasan nə Aşıq Hüseyn nə də onun yetirmələri ənənədən gələn, dastan və rəvayət bilməyən şəyirdinə məclisdə əlinə saz götürüb çalmağa icazə verməmişdir. Ustadlar düşünürdülər ki, belə olduğu halda şəyird özündə məsuliyyət hissi aşılayacaq, ustadının tələblərini layiqincə yerinə yetirməyə çalışacaqdır. Aşıq Hüseynində əsas məqsədi bu idi ki, şəyirdləri özlərinə inamı təbliğ edib bu səddi aşa bilsinlər.

Bu mühitdə yaşayıb-yaradan el aşıqları var ki, özündən əvvəlki şəcərəni yaxşı tanıyır. Belələrindən biri də ustad-şəyird münasibətlərini layiqincə yaşadan Zaqatala aşıq mühitinin nümayəndəsi, əslən Göyçə mahalından olan Aşıq Rəhimin oğlu Aşıq Valeh Həsənovdur. O, 7 arxa dönəni bilmək məsələsinə çox ciddi yanaşır və özündən

əvvəlki şəcərəsini tanıyır. 1969-cu ildə Göyçə mahalının Ağbulaq kəndindən Zaqatalaya gələn Aşıq Valeh artıq bu yerlərin ab-havasına və adətlərinə çoxdan qaynayıb qarışmışdır. Aşıq Valehin nəsil şəcərəsinə diqqət edək:

Aşıq Valeh Rəhim oğlu Həsənəv
-Atası Rəhim Həsən oğlu Rəsulov
Həsən Hüseynalı oğlu Cəfərqulu
-Məşədi Məmmədhüseyn Məmmədcəfər oğlu
- Onun atası Kərbəlayı Rəsul Məmmədcəfər oğlu
Onun atası Məmmədalı
Onun atası Söyünalı
Onun atası Məmmədcəfər

Nəsillərinə də Məmmədcəfərlər deyirlər (Mənbəyi göstərilməyən nümunələr şəxsi arxivimizdə saxlanılır).

Yuxarıda sadalan bir sənətkarın nəsil şəcərəsidir. Bu şəcərədən yalnız 3 nəfəri Aşıq Valeh, onun atası Aşıq Rəhim və Aşıq Əli ustad sənətkar kimi yetişə bilmişlər. Əsl sənətkar birinci növbədə öz nəslini – kökünü tanımalı, sonra ustadının da ustadını yaxşı bilməlidir ki, bir məclisdə sual veriləndə qarşısındakını bağlaya bilsin. Göründüyü kimi, Aşıq Valehin ustadı onun atası aşıq Rəhim, Rəhimin ustadı isə Aşıq Alının oğlu Aşıq Qulu olmuşdur. Aşıq Valehin əmisi Əli Zaqatala aşıq mühitində sayılıb-seçilən sənətkarlardan olmuşdur. Onun ustadı Aşıq Rəhim olmuşdur. Aşıq Valeh özü də 6-7 şəyird yetişdirmişdir. Bunlardan Aşıq Ramazan Bayramovun, Aşıq Nəcəfin, Aşıq Səxavətin adlarını çəkmək olar. Bəzən isə bir sənətkarın yetişməsində şəcərə, kök amili deyil, daha çox yaşadığı mühit amili əsas rol oynayır. Ustadın kim olub soruşduqda da dərsimizi haqdan almışıq deyən, ustad aşıqların yetişməsində nəslin, kökün, genin yüksək təsiri olmuşdur. Məsələn, muğanlı Aşıq Sabir konkret ustada qulluq etməsə də ana-atasının evdə divardan asılı qalan sazını görmüş və öz üzərində çalışa-çalışa saz havalarını öyrənmişdir. Ancaq onun oğlu Sübhan və nəvəsi Leyla isə Aşıq Sabirin yetirmələri, şəcərəsi sayılır.

Aşıq Sabirin qızı Aytən sazın sözün sirlərini atasından görüb-götürsə də sonradan konkret olaraq Aşıq Ulduzdan dərs alımış, 4 il onun yanında şəyirdlik etmişdir.

Zaqatala aşıq mühitində yaşayan sənətkarların yaradıcılığına və xarakterinə xas digər bir yol onların özlərini eşq əhli adlandırmaqları ilə bağlıdır. Bu da çox təbii ki, əcdad kultunun paradiqması olan şahlar

şahına, Xıdır Nəbiyə övliyalara inamın və güvənin çoxluğundan irəli gəlir. Zaqatalalı el şairi, həm də aşıq kimi tanınan Muxaxlı Ramazan şeirlərinin əksəriyyətində özünü eşq əhli kimi təqdim edir. Aşıq Ələsgərə ithaf etdiyi qoşmalarının birində belə deyir:

Eşq əhliyəm, ürək sözlə doludur,
Qurduğum yol ustadların yoludur.
Ozan, qopuz hər sənətdən uludur,
Onlar görüb neçə sənə, Ələsgər (13).

Və yaxud el şairi Ramazan digər şeirində deyir:

Aşıq Məhəmməd tək sözdə ucala,
Xudam verib həzin səsi Camala.
Dəfn etdi Kamalı ikinci Tala,
Onsuz gecə-gündüz ahu-zarım var (13).

Digər tərəfdən haqq aşıqları özləri belə əcdad kultunun transformativ paradiqması hesab edilirlər. Onlar həmin nəslin davamçılarıdır. Haqq aşıqları da müdrik qoca arxetipinin nümayəndələri kimi öncəgörmə, gələcəkdən xəbər vermək kimi səciyyəvi xüsusiyyətlərə malikdir. Aşıq ədəbiyyatında ürəyədanma, qarşısındakının məramını anlama, yol göstərmə, hazırcavablılıq kimi onlarla nümunəyə təsadüf etmək mümkündür. Deyilənlərə görə, aşıq Məhəmmədin sorağı bütün əyalətlərə yayılmışdır. Onun sorağına yerbəyerdən aşıqlar gəlmiş, deyişmə məclisləri qurmuş, məğlub olub geri qayıtmışlar. "Günlərin bir günü tərəkəmə aşıxlarından iki nəfər ulu axşamı (bayramın əvvəlki axşamı) günü Varxiyanlı Aşıx Məhəmmədin sorağını eşidif həmin kəndə gəlıtdılar. Yolda bir arabaçıdan Aşıx Məhəmmədi sorax alıtdılar.

Onlar arabaçıya yaxınlaşıf salam verərək aşıq Məhəmmədi soruşurdular. Arabaçı kəndə gələn qonaxlara baxarax diyif:

– Sizə Varxiyanlı aşıx Məhəmmədmi lazımdı?

Gör mənəm, tanı mənəm, bil mənəm!

Aşıxlar heşnə başa düşmüyüf və bir-birinə baxıtdılar. Arabaçı isə arabasını sürüf gedıtdı" (13).

Regional dastanlardan olan Aşıq Mədət və Bəhrinazın dastanında Aşıq Mədət gər ağacının altında yatır qalır və yuxusunda Xızır Nəbi ona Bəhrinazı buta verir. Göründüyü kimi burada da Xızır qəhrəmanın yolunu itirdiyi bir məqamda yuxu motivi ilə qarşısına çıxaraq gerçək hədəfini işarət edir.

Aşıq ədəbiyyatında Qırxların, Övliyaların, Xızır Nəbinin adları tez-tez çəkilir. Onlara sonsuz sevgi, hörmət hissi duyulur, yaman gündə həmişə onlardan kömək umulur:

Dar günümdə yetiş dada,
Ya Şahi-Mərdan ağa!
Nitq ver, meydan içində
Qoyma sərgərdan, ağa!
Həm Əlisən, həm Vəlisən,
Həm səxisən, həm səxa,
Həmi dildə zikrim sənsən,
Həmi əzbərdən, ağa! (7)

Və yaxud:

Dərdim çoxdu, kimə deyim?
Yoxdu dərd bilən həkim.
Sərraf sənsən, aç xırd eylə,
Ləlü gövhərdi yüküm.
Şahi-Mərdan sayəsində
Kimsədən yoxdu bakım;
Sidqi-dillə sığınmışam,
Mən ümmandan keçmişəm (6).

Bütün el aşıqları yaradıcılığında "Mövla", "Tale" kimi simvolik obrazlara təsadüf edirik:

Tifil ikən mən də düşdüm sevdaya,
Xəstə Qasım sığınıbdır Mövlaya.
Bu fanidən yetişirmi üqbaya,
Ya Rəb, mən tək bəxti dönən varmı ola (11, s. 41).

Ölməyincə bu sevdadan çətin dönəm, usanam;
Həqiqətdən dərs almışam, təriqətdən söz qanam;
Şahi-Mərdan sayəsində elm içində ümmanam;
Dəryaların qaydasıdır, ümmana baş endirir (1, s. 94).

Və yaxud:

Xəstə Qasım, sən düşmanın atgınan,
Mətahını xiridara satgınan.
Şahi-Mərdan damənindan tutgınan,
Allahı sən çağır, etmə təşvişi (11, s. 28).

Və yaxud:

Həm səxavət, həm kəramət var ilahi səndə cəm,
Şəmisar günahkarı qoymaz ola bəxti kəm.
Sən Əlinin aşiqisən, mən də sənə aşiqəm,
Nökərəm şahi-Mərdan ustada pərvərdigar (2, s. 130).

Bu kimi nümunələrin sayını artırmaq olar. El sənətkarları Həzrət Əliyə olan sonsuz məhəbbəti və inamı, onlara əlçatmaz müqəddəs şəxs

kimi baxırlar. Eyni zamanda burada ənənəyə sadiqlik bir daha nümayiş etdirilir. Biz Şəmşir şeirində də İmam Əli (ə.) obrazının yüksək poetik məqamda təsviri ilə qarşılaşırıq. Sələfi Miskin Abdal kimi islam dünyagörüşü, sufilik Şəmşirin də bir çox şeirlərində öz əksini tapmışdır. Şəmşirin Miskin Abdaldan bəhrələndiyini onun istər təbiət, istər məhəbbət lirikasında, istərsə də ustadnamələrində ruhani-poetik yaxınlıq, doğmalıq səviyyəsində müşahidə etmək mümkündür. Təsadüfi deyildir ki, Şəmşir Göyçə aşıq mühitinin sənət başlanğıcında duran Miskin Abdalı özünə daim mənəvi ustad saymışdır. Ənənədən gələn bu xüsusiyyətləri biz Zaqatala aşıq mühitinin nümayəndələrinin yaradıcılığında da izləyirik:

Qəbrin nurla dolsun, Aşıq Məhəmməd,
Bu diyarı axtaranlar tapıldı.
Gözəl sənətkardan ellərə qalan,
Yadigarı axtaranlar tapıldı (13).

Və yaxud:

Sığınmışam qüdrətinə, ya şahi-mərdan xuda,
Sayılı borcdan qutaran, Məsihi dardan xuda.
Ayrı salma bu kimsəsiz Valehi yardan xuda,
Yalvarıram, Tanrı kimi bir ada, pərvərdigar (13).

Aşıq Valeh yaradıcılığında qul, dərd, qəm-qüssə, hal-qal, şahlar şahı, şahi-mərdan, qırxlar piri kimi təsəvvüfi ifadələrə tez-tez təsadüf edirik. Əslində ürfan elminin incəliklərinə bələd olmadan, təriqətin yolunu tutmadan aşıq bu tip şeirlərini yarada bilməzdi. "Ya Məhəmməd, Əl Mustafa", "Başabaş", "Pərvərdigar" və s. kimi şeirləri buna gərəkli nümunə ola bilər. Ustadın yaradıcılığı ilə tanış olarkən məlum olur ki, o dini-ürfanı elmləri gözəl bilən sənətkarlarımızdandır. Bu təbii ki, onun genindən və böyük bir şəcərədən olması ilə əlaqədardır. "Başabaş" rədifli divanisi Allaha müraciətlə yazılmışdır. Maraqlı olan xüsusiyyətlərdən biri də budur ki, aşıq bir tərəfdən Allaha müraciət edərək ondan mərhəmət istəyir, digər tərəfdən isə öz qəlbini dindirərək onu qınaq yerinə çevirir. Maraqlı haldır ki, Zaqatalalı Aşıq Valeh bütün dastanlarını Allaha müraciətlə başlamış, əcdad kultunun transformativ paradiqmalarından olan Xıdır Nəbiyə, Şahlar şahına, övliyalara müraciət etmiş, Allahdan güc və qüvvət diləmişdir. Bu xüsusiyyət aşığın istedadı və bacarığı ilə bağlıdır. Aşıq Valeh bütün çətin işində, şeirlərində müqəddəslərə müraciət edir. O olacaqları əvvəlcədən duyduğu üçün üz tutduğu, kömək umduğu məkan yalnız sələfləri və bir tək Allahın məkanıdır:

Valeh, sən də sığın Şahi-Mərdana,
Nadanlara söylə mərdi-mərdana

Cəsur qəhrəmanlar doğur mərd ana,
Bunu anlamayan çox nadan olar (13).

Ustad və haqq aşıqları adlandırdığımız şəriət, təriqət, mərifət və həqiqət mərhələlərindən keçən el sənətkarlarının özlərini də elə əcdad kultunun transformativ nümayəndəsi adlandırmaq olar. Haqq aşığı dediyimiz müdrik söz söyləyən, olacaqlardan xəbər tutan bir el sənətkarıdır. Haqq aşığı ədəb ərkanını bilən, yol gözləyən, haqqı sevən biridir. Haqq aşığı əcdad kultu nümayəndəsi olduğu kimi həm də müdrik qoca arxetipidir. Ona xas bütün xüsusiyyətlər, ədəbi, ərkanı, öncəgörənliyi, yol göstərməyi, ustadlığı və s. hamısı bunu birbaşa isbat edir. Yunus Əmrə demişkən:

Aşıq odur Haqqı sevə,
Haqq edə dərdinə dəva,
Bizim üçün xeyir-dua,
Qılanlara salam olsun! (8)

Fikrimizcə aşıq yaradıcılığında xüsusi bir qol təşkil edən, ənənə kimi öyrənilən ustad-şəyird münasibətləri və şəcərə məsələsi, eləcə də əcdad kultunun transformativ paradiqması sandığımız nümayəndələri Qırxlara, Şahi-Mərdana, Xızır Nəbiyə münasibət ayrıca bir xətt təşkil edir. Əminəm ki, haqq aşıqlarının bu nəslə aidliyi məsələsi gələcək tədqiqatlarımızın mövzusu olacaqdır.

## QAYNAQLAR


1. Aşıq Ələsgər "Gözüm bir alagöz xanıma düşdü". Bakı, 1993, Yazıçı, 240 səh.
2. Aşıq Şəmşir. Öyüdlər / Toplayıb tərtib edənlər Qurbanov Q., Quliyev F. Bakı, Ozan, 1996, 296 s.
3. Плотто А. Природа и люди Закаталского окриго сборник сведений Кавказских календарь, выпускник ЫВ, 1870, стр. 3-5
4. https://manera.az/index.php?newsid=10958
5. https://az.wikisource.org/wiki/A%C4%9Fa
6. .https://az.wikisource.org/wiki/Ke%C3%A7mi%C5%9F%C9%99m8
7. https://az.wikisource.org/wiki/A%C4%9Fa
8. https://www.ens.az/az/yunus-emre-salam-olsun
9. https://merakyayinevi.mersinakademi.com.tr/wp-content/uploads/2020/05/GAL%C4%B0B-SAYILOV-AZERBAYCAN-A%C5%9EIKLIK-SANATI-MER-AK-kitap.pdf
10. https://edebiyyat.ucoz.com/index/0-68
11. Xəstə Qasım. Folklor İnstitutu. Bakı, 2010, 220 s.
12. Kitabi-Dədə Qorqud. Bakı, "Öndər nəşriyyat", 2004, 376 s.
13. Mənbəyi göstərilməyən nümunələr şəxsi arxivimizdə saxlanılır
14. Zümrüd Mənsimova. Zaqatala aşıq mühiti. Bakı, 2014, 216 s.

# MÜNDƏRİCAT

## *Konfransın açılış məruzələri:*

**Muxtar Kazımoğlu (İmanov)**
Şifahi ənənə və ustad sənətkar fərdiyyəti..............................................5
**İsa Həbibbəyli**
Aşıq Ələsgər sorağında: toplama və poetika məsələləri ..........................24
**Qəzənfər Paşayev**
Aşıq poeziyası yazılı ədəbiyyat kontekstində .........................................28
**Füzuli Bayat**
Aşıq sənəti kontekstində Ələsgər qolu (məktəbi) ...................................52
**Ali Kafkasyalı**
Dede Korkut Ozan Âşik Kimliğinin Dede Elesger'de Tecellisi................68
**Almaz Həsənqızı**
Azərbaycan mühacirət folklorşünaslığı və Aşıq Ələsgər..........................76
**Xatirə Bəşirli**
Aşıq sənətində Ələsgər mərhələsi ..........................................................86

## *Məruzələr:*

**Afaq Mustafayeva**
Aşıq Ələsgər yaradıcılığında öyüd-nəsihət motivləri ..............................90
**Afaq Ramazanova**
Aşıq Ələsgər irsinin rus dilinə tərcümələrinə dair .................................. 96
**Ağaverdi Xəlil**
Aşıq Ələsgər yaradıcılığında ürfandan didaktikaya keçid ........................104
**Almara Nəbiyeva**
Aşıq Ələsgər yaradıcılığında kamil insan obrazı .....................................113
**Алсу Шамсутова Атласовна**
Традиция ашугов в современной татарской поэзии
(на примере поэзии Радифа Гаташа и Фарита Яхина)........................118
**Ataş Əhmədli**
Söyləyicilik zirvəsinin fatehi
(Göyçə aşıq gələnəyinin Aşıq Ələsgər mərhələsi)...................................128
**Atif İslamzadə**
Aşıq Ələsgər poeziyasında vahid Allah inancının bədii inikası ................135
**Aybəniz Əsgərova**
Ozan sənətində təbiət gözəlliklərinin tərənnümü .....................................152
**Aynur Cəlilova**
Haqq sözün isbatın verən Ələsgər..........................................................162
**Aynur İbrahimova**
"Koroğlu-Goroğlu" dastanında sazla sözün vəhdəti. Aşıq Cünun.............169
**Aynur Səfərli**
Aşıq yaradıcılığının "Dədə Ələsgər" zirvəsi...........................................177

**Aynurə Səfərova**
Aşıq Ələsgər yaradıcılığına bir baxış ....................................................188
**Elçin Qaliboğlu (İmaməliyev)**
Aşıq Ələsgər yaradıcılığında dağ obrazı ................................................197
**Fəzail Vəliyev, Gülzadə Abdulova**
Aşıq Ələsgərin əsərlərinin Azərbaycan geyim mədəniyyətinin
öyrənilməsində rolu ..................................................................................204
**Firuzə Sadıqova**
Qədim aşıq sənətinin varisləri.................................................................214
**Gülnar Osmanova**
Aşıq Ələsgərin şeirlərində peyzaj və lirik qəhrəman..............................224
**Həsən Hüseyni**
Aşıq Ələsgər yaradıcılığının ideya-məzmun xüsusiyyətləri......................230
**Xəyalə Orucqızı (Ağayeva)**
Aşıq Ələsgər yaradıcılığının mövzu rəngarəngliyi..................................241
**İlhamə Qəsəbova**
Aşıq Ələsgər yaradıcılığının Qazax aşıq mühitinə təsiri..........................247
**İslam Sadıq**
Aşıq Ələsgər və Aşıq Əsəd: iki böyük sənətkarla bağlı
iki böyük yanlışlıq.....................................................................................257
**İsmayıl Məmmədli**
Aşıq Ələsgərin şeirlərində etnoqrafik sözlərin üslubi mövqeyi................269
**Qiymət Məhərrəmli**
Klassik Azərbaycan aşıqları və el şairlərinin yeni həyatı......................... 278
**Ləman Vaqifqızı (Süleymanova)**
Sarı Aşığın bayatıları................................................................................287
**Mehman Qaraxanoğlu**
“Sehrbazlar dərəsi” romanında sufi-dərviş simvolikası
(Aşıq Ələsgər yaradıcılığı üzərindən)......................................................295
**Məhəmməd Məmmədov**
Aşıq Ələsgər yaradıcılığında dağ vətən və yurd hamisi kimi....................303
**Nağdəli Zamanov**
Aşıq Ələsgər yaradıcılığında zaman və məkan
fəlsəfi kateqoriyaları..................................................................................310
**Namiq Hadi**
Ələsgərəm, yandım eşq ataşında ..............................................................318
**Nedim Bakırcı**
Ama ve Ümmi bir aşık: Kul Ertaş ............................................................325
**Nemət Qasımlı**
Aşıq sənətində beşlik prinsipi və onun gizlin qapıları
(5 – aşıq havası (musiqisi) əsasında) .......................................................338
**Nigar Həsənova**

Aşıq Ələsgər şeirlərində obrazlılığın göstəriciləri....................................351
**Nizami Muradoğlu**
Aşıq Ələsgər yaradıcılığı və Azərbaycan poeziyası .................................360
**Nurlanə Məmmədova**
Aşıq Ələsgər haqqında olan dastan-rəvayətlər........................................367
**Ramiz Qasımov**
Aşıq Ələsgər yaradıcılığının sənətkarlıq xüsusiyyətləri............................376
**Ramiz Qasımov**
Dədə Ələsgər irsinin toplanması və tədqiq olunmasında
Ərtoğrol Cavidin xidmətləri....................................................................388
**Sahibə Paşayeva**
Aşıq Ələsgər yaradıcılığında rəvayət və əfsanələr ..................................394
**Salman Balakişiyev**
Aşıq Ələsgərin şeirlərində bəzi söz və ifadələrin
düzgün yazılışı haqqında .........................................................................401
**Sevinc Əliyeva**
XIX əsr Azərbaycan aşıq şeirində paremioloji vahidlər
(Aşıq Ələsgər yaradıcılığı əsasında)....................................................... 413
**Səbinə İsayeva**
Aşıq Ələsgərlə bağlı rəvayətlər
(Gədəbəydən toplanmış folklor mətnləri əsasında) .................................425
**Şakir Albalıyev**
Aşıq Ələsgər: dilimizi və ruhumuzu cilvələndirən sənətkar .....................435
**Şəhla Hüseynli**
Aşıq Ələsgərin yaradıcılığında şivə və dialektlər.................................... 442
**Tacir Qurbanov**
Aşıq Ələsgər poeziyasında insanın mənəvi gözəlliyinin təsviri ................449
**Tural Adışirinov**
Aşıq Ələsgər obrazı dastan-rəvayətlərdə ................................................454
**Vəfa İbrahim**
Azərbaycan aşıq şeirinin ingilis dilinə tərcümə problemləri
(Aşıq Ələsgərin şeirləri əsasında)........................................................... 463
**Vüsal Abiyev**
Aşıq Ələsgər yaradıcılığında gözəllərin tərifi ..........................................477
**Yaqut Bahadurqızı**
Aşıq Əhmədin yaradıcılığında Aşıq Ələsgər mövzusu.............................483
**Zümrüd Mənsimova**
Azərbaycan aşıq sənətində əcdad və şəcərə münasibətləri
(Şimal bölgəsi aşıqlarının yaradıcılığı əsasında).....................................487

**Aşıq Ələsgər: sazın sehri və sözün şöhrəti.**
**Beynəlxalq Elmi Konfransın materialları.**
Bakı, Elm və təhsil, 2021.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Fil.ü.f.d. Gülnar Osmanova**

Korrektorlar:
**Fil.ü.f.d., dos. Sönməz Abbasova**
**Fil.ü.f.d. Gülnar Osmanova**
**Fil.ü.f.d. Səbinə İsayeva**
**Nigar İmaməliyeva**

Dizayn: **Kamran İbrahimov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**
Kompüterdə yığdı: **Nigar İmaməliyeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 500 səh.
Tirajı: 300

*Kitab* ***“Elm və təhsil”*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Тел: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*